# Qarabağ Azadlıq Təşkilatı

# “QARABAĞ DÜNƏN, BU GÜN VƏ SABAH”

8-ci elmi-əməli konfransının

**MATERİALLARI**

(Qarabağ General-Qubernatorluğunun 90 illiyinə həsr olunur)

**Bakı - 2009**

**Redaksiya heyəti:** Fəlsəfə elmləri doktoru Əli Abasov,
**Tarix elmləri doktoru:** Qasım Hacıyev,
**Tarix elmlər doktoru**: Kərim Şükürov,
**Tarix elmlər namizədi**: Firdovsiyyə Əhmədova, Şamil Mehdi, Novruz Novruzbəyli, İlqar Əliyev

**QAT (Qarabağ Azadlıq Təşkilatı). "Qarabağ dünən, bu gün və sabah"** 8-ci elmi-əməli konfransının materialları toplusu. Bakı, 2009, 292 səh.

Buraxılış Azərbaycan-Ermənistan müharibəsi ilə əlaqədar 2009-cu il mayın 26-da keçirilən "Qarabağ dünən, bu gün və sabah" 8-ci elmi-əməli konfransının məruzə və çıxışlarının materialllarını əhatə edir.

This edition covers theses of lectures and speeches o scientific-practical conference "Karabakh yesterday, today and tomorrow", which was held on May 26, 2009, concerning to settlement of Azerbaijan-Armenia war.

ISBN 978-9952-29-040-8
© Qarabağ Azadlıq Təşkilatı Bakı, «Namiq Həbiləov», 2009

## Redaksiyadan

Bu nəşrdə "Qarabağ dünən, bu gün və sabah" mövzusunda 8-ci elmi-əməli konfransının Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və onun birbaşa təcavüzü nəticəsində yaranmış Azərbaycan-Ermənistan müharilələsinin müxtəlif cəhətlərinə həsr olunan materialları toplanmışdır.

Qarabağ Azadlıq Təşkilatının təşəbbüsü ilə 2009-cu il 26 mayda Bakı şəhərində keçirilən bu konfransın da məqsədi Azərbaycan-Ermənistan münaqişəsinin yaranmasının kökləri və həlli perspektivləri haqqında beynəlxalq ictimaiyyəti məlumatlandırmaqdan, həmçinin bu taleyüklü problemə dair ədalətli və reallığa uyğun ümumi mövqe formalaşdırmaqdan iləarətdir.

## From Editorial

These of reports of the 8$^{ht}$ scientific-practical conference "Kara-bakh yesterday, today and tomorrow", dedicated to Azerbaijan-Armenia war, arising from territorial claim and realizing aggression to Azerbaijan by Armenia, were published in this edition.

This conference is held on initiative of Organization of Karabakh Liləeration on May 26, 2009 has a goal to infrom international public opinion about the root of origin and perspectives of settlement of Azerbaijan-Armenia conflict and also to form common, fair and real position on this vital problem.

## От Редакции

В этом издании опубликованы материалы докладов 8-ой научно-практической конференции "Карабах вчера, сегодня и завтра", посвященной Азербайджано-армянской войне, возникшей в результате территориальных претензий Армении к Азербайджану и ее прямой агрессии.

Конференция, проводимая по инициативе Организации Освобождения Карабаха в городе Баку 26 мая 2009 года, преследует своей целью информирование международной общественности о корнях возникновения и перспективах разрешения Азербайджано-армянского конфликта, а также формирование общей, справедливой и реалистичной позиции по этой жизненно важной проблеме.

**Akif Nağı**

## RUS-GÜRCÜ MÜHARİBƏSİ VƏ QARABAĞ

Cənubi Qafqazdakı münaqişə ocaqlarının-qondarma Dağlıq Qarabağ, Abxaziya və Osetiya məsələlərinin Rusiya tərəfindən yaradıldığı heç kəsdə şübhə doğurmurdu. Əksəriyyətin fikrinə görə, Rusiya bu münaqişələr vasitəsi ilə region ölkələrini özünün təsir dairəsində saxlamaq məqsədi güdürüdü. Heç kəs ağlına da gətirmirdi ki, şimal ayısı bu münaqişə ocaqlarından regionu yenidən işğal altına almaq üçün istifadə etmək fikrinə düşə bilər. Rusiyanın iyirmi birinci əsrdə on səkkizinci-on doqquzuncu əsrlərə xas işğal addımını atacağı inandırıcı görünmürdü. Hətta XX əsrin əvvələrində də Rusiya bu cür açıq-aşkar işğal aktına əl atmamış, öz iddialarını "sosialist inqilabı" pərdəsi altında reallaşdırmışdı. Görünür ki, Rusiyada hakimiyyətə yenidən bir neçə əsr əvvəlki təfəkkürlə yaşayan adamlar gəlmişlər. Rus təfəkkürünün və düşüncə tərzinin dəyişdirilməsi çətin məsələ imiş. Rus təfəkkürü sivil dəyərlərə uyğun gəlmir. A.Soljenitsının da zəhmətləri hədər getdi, bu hadisələrin onun ölümündən sonra başlaması da yəqin ki, bir əlamətdir.

Baş vermiş hadisələrə Qərb dünyasının, beynəlxalq təşkilatların vecsiz reaksiyası rus işğalının özündən də çox təəccüb doğurdu. Bu reaksiyanın iki izahı ola bilər. Ya Qərb Rusiyadan çəkinir, açıq qarşıdurmaya getmək istəmir. Ya da XX əsrin əvvəllərində olduğu kimi, Qərb regionu Rusiyaya güzəştə gedir və bunun müqabilində digər bölgələrdə hansısa dividendlər əldə etməyə çalışır. Hər iki variant o qədər də inandırıcı görünmür, sadəcə hadisələrin gedişi bu versiyaları irəli sürməyə məcbur edir. Başqa bir variant ondan ibarət ola bilər ki, Qərb Rusiyanı daha çox bataqlığın dərinliyinə sürükləyir ki, daha çox axmaqlıqlar, daha çox vəhşiliklər törətsin. Ona görə də bu hadisələr Rusiyanın sonunu yaxınlaşdıran prosesə çevrilə bilər.

Əlbəttə, Rusiyanın bu hərəkətləri məntiqə sığmır və normal düşüncə ilə izah oluna bilməz. Bu hərəkətlər əldən çıxmaqda olan regionun geri qaytarılmasına son cəhd, aqoniya vəziyyətində olan imperiyanın emosional və qəzəbli addımları kimi dəyərləndirilə bilər. Rusiya son illərin Əfqanıstan, İraq, Balkanlar və xüsusi ilə də Kosovo məğlubiyyətlərinin əvəzini çıxmağa çalışır. Bu, bir qədər başa düşüləndir, amma bu cür vəhşi metodlarla yox. Qərb Rusiyanı qıcıqlandırmışdı, ona görə də müəyyən kəskin reaksiyalar gözlənilən idi. Vaxtilə O.Bismark deyirdi ki, Rusiya ilə zarafat etməyin, çünki heç kəsin gözləmədiyi dəhşətli bir axmaqlıqla cavab verə bilər. İndi Rusiya dəhşətli bir axmaqlığa gedərək, tarixin təkərini geriyə çevirməyə çalışır. Rusiya Gürcüstanın bir hissəsini işğal edilə, hamısını da işğal edə bilər, amma əlində saxlaya bilməyəcəkdir. Bu işğalçı dövlət körpüləri partlatmaqla, neft qaz kəmərlərini təhdid etməklə, dinc sakinləri öz evlərindən qovub çıxartmaqla yalnız öz gücsüzlüyünü nümayiş etdirir. Bunların hamısı tezliklə bərpa olunacaqdır. Hansısa dövləti silah gücünə işğal altında saxlamaq mümkün deyil. Buna Rusiyanın gücü və imkanları çatmaz. ABŞ kimi super dövlət də İraqı silalı gücünə öz

nəzarətində saxlaya bilmir və hər gün bu silahlı müdaxilənin acılarını yaşayır, girəndə asan girmişdi, ancaq oradan çıxmağın yolunu tapa bilmir. Rusiya da Gürcüstandan çıxacaq, Qafqazdan da çıxacaq, bu dönməz bir prosesdir.

Rusiya Gürcüstana hücum etməklə müvəqqəti və ötəri nəticələrə nail oldu. Çox şeyi isə itirdi. Region xalqlarının etimadını itirdi, ətraf ölkələrin hamısı artıq yenə də Rusiyaya təhlükə mənbəyi kimi baxır. Rusiya rəsmilərinin özlərinin də etiraf etdiyinə görə, hətta ən yaxın müttəffiqləri də, Belarus da, Ermənistan da bu işğal aktını təqdir etmədi, adicə mənəvi dəstək də vermədilər. Belarusun prezidenti yalnız Cənubi Osetiyadan uşaqları müalicə üçün qəbul etməyə hazır olduğunu bildirdi. Putin yalnız bu "dəstəklə" kifayətləndiyinə görə Lukasenkonun üzünə gileyini bildirməkdən də özünü saxlaya bilmədi. Rusiya beynəlxalq imicinə də ağır zərbə vurdu. Şimal ayısının da mədəni dəyərlərə uyğunlaşacağına az qala inanmış dünya birliyi yanıldığını başa düşdü. Rusiyanın bundan sonra dünyanın gözündə bəraət qazanacağı çox çətin görünür. Rusiya ciddi iqtisadi itgilərlə üzləşəcəkdir. Rusiya bu axmaqlıqla özünün məhvini sürətləndirdi.

Gürcüstan özünün dövlətçilik tarixində ən qətiyyətli addımlarından birini atdı. Sübut etdi ki, bir dövlət kimi öz ərazi bütövlüyünü çox asanlıqla bərpa edə bilər. Aydın oldu ki, osetinlərin və abxazların ötkəm bəyanatlarının heç bir mənası yox imiş. Gürcü qoşunları qısa vaxt ərzində, özü də, demək olar ki, itgisiz Sxinvaliyə girməklə bunu sübut etdi. Sxinvalidə əsas itgilər rus qoşunlarının şəhəri yenidən zəbt etməsi gedişində baş vermişdir. Gürcüstan bütün dünyaya abxaz və osetin problemlərinin daxili məsələ olmadığını, onların adı ilə pərdələnən Rusiyanın işğal faktını həyata keçirdiyini nümayiş etdirdi. Gürcüstan Rusiya tərəfindən yaradılmış münaqişələrin həqiqi mahiyyətini açıb göstərdi, bu münaqişələrin donunu açdı. Əslində, Rusiya bu məsələləri dondurmaqla öz planını həyata keçirməyə, bu əraziləri dondurulmuş vəziyyətdə, haya-küyə salmadan sakitcə udub həzm etməyə çalışırdı. Həmin ərazilərin vətəndaşlarına rus pasportlarının verilməsi, iqtisadi əlaqələrin gücləndirilməsi, rus rublunun əsas dövriyyə vasitəsinə çevrilməsi və sair məsələlər bu məqsədə xidmət edirdi. Bu prosesin dayandırılması üçün Gürcüstan hərəkətə keçməli idi. Gürcüstan həm də ona nail oldu ki, gürcü-rus qarşıdurmasını bütün çılpaqlığı ilə açıb göstərdi və dərhal da bu qarşıdurmanı Rusiya-Qərb müstəvisinə keçirdi. Tiflisə doğru irəliləyən rus tankları gürcülərə deyil, Qərbə, Natoya, birinci növbədə ABŞ-a meydan oxuyurdu. Rusiya əlcəyi onların üzünə çırpdı, indi siz, daha doğrusu, hərəkət etmək növbəsi onlarındı...

Ən çox uduzan isə osetinlər oldu. Ruslarla gürcülərin apardığı müharibədə ölən, evləri dağılan, didərgin düşən osetinlər oldu. Rusiya tərəfinin verdiyi rəsmi məlumatlara görə, 1600 nəfərdən çox dinc osetin, 75 rus hərbiçisi həlak olmuşdur. Gürcülərin də itgisi ruslarınkından çox deyil. Bu vəziyyətdə ruslarla gürcülər bir-birlərini osetinləri "genosid" etməkdə günahlandırır, qarşılıqlı ittihamlar səsləndirirlər. Osetinlər üçün isə yəqin ki, kimin tərəfindən"genosid" olunmağın elə bir fərqi olmaz. Ümumiyyətlə, osetinləri başa düşmək çətindir:

Gürcüstanın tərkibindən çıxıb Rusiyanın tərkibinə keçmək istəyirlər. Onların bu keçidlə nəyi udmaq istədikləri aydın deyil. Bu qədər əzab-əziyyətlə Rusiyanın tərkibinə keçməkdənsə, elə Gürcüstanın tərkibində qalmaq yaxşı deyilmi?! Abxazlarla erməniləri bəlkə də başa düşmək olar, heç olmasa müstəqillik istəyir və sadəlövhcəsinə bu istəklərinin reallaşacağına inanırlar. Abxazların bədbəxtçiliyi ondadır ki, müstəqil dövlət yaradacaqlarına inanırlar. Başa düşmürlər ki, balaca bir abxaz dövlətinin mövcudluğu Rusiyanın planlarına daxil deyil. Olsaydı, elə Qafqazın digər balaca xalqlarına müstəqillik verərdi. Dağlıq Qarabağdakı ermənilər də başa düşməndirlər ki, Rusiya və Ermənistan onların "müstəqil dövlətçiliy"inə dözməyi heç ağıllarına da gətirmirlər. Azərbaycan Allahından dönüb onlara müstəqillik versə, səhərisi gün "könüllü" şəkildə ya Rusiyanın, ya da Ermənistanın tərkiləinə daxil olacaq, orada başıqapazlı təbəqələrdən birinə çevriləcək, Ermənistan ermənilərinin gülünc və lətifə obyektinə dönəcək, ya da Rusiyada "litsa kavkazskoy natsionalnosti" statusu alacaqlar. Dağlıq Qarabağ erməniləri onu da bilməlidirlər ki, Azərbaycan gec-tez müharilə əyə başlayacaqdır, müharibənin nəticəsindən, kimin qalib gəlib-gəlməyəcəyindən asılı olmayaraq ölən və qırılan, ev-eşiyi dağılan onlar olacaqlar. Ondan sonra Ermənistan ermənilərinin dünyaya car çəkəcəkləri "genosid" harayı onların ölülərini diriltməyəcək, yaralarına məlhəm olmayacaqdır. Bu kiçik xalqlar rusların əlində xırda pul, alət olduqlarını nə qədər tez başa düşsələr, bir o qədər yaxşıdır, əlbəttə, hər şeydən əvvəl, onların özü üçün yaxşı olardı.

Azərbaycan dövləti və cəmiyyəti rus-gürcü müharibəsinin yekunlarını nəzərə almaqla "Qarabağ konsepsiyası"nda bəzi düzəlişlər etməlidir. Birincisi, məsələnin danışıqlar yolu ilə nizama salınacağına olan ümidlər birdəfəlik kənara qoyulmalı, xüsusilə də Rusiyanın vasitəçilik missiyasından imtinanın yolu tapılmalıdır. Rusiya, ABŞ və Fransa danışıqlarda vasitəçi deyil, tərəfdirlər. Onların daban-dabana zidd olan fərqli mövqe və maraqları mövcuddur. Gürcüstanla bağlı razılığa gələ bilməyən bu tərəflərin Qarabağa dair vahid mövqe sərgiləyəcəyi qeyri-realdır. İkincisi, beynəlxalq təşkilatların Azərbaycanın haqq işinə hər hansı formada dəstək verəcəyinə ümid qalmamışdır. Beynəlxalq təşkilatların fəaliyyəti bəyanatlarla məhdudlaşır. Bu qurumlar yalnız baş vermiş faktla hesablaşırlar. Biz dünya birliyini baş vermiş fakt qarşısında qoymağın yolunu tapmalıyıq. Üçüncüsü, cəmiyyətlərarası dialoqun təşkili ilə münaqişələrin həlli cəhdləri iflasa uğramışdır. Heç bir münaqişənin, o cümlədən Dağlıq Qarabağ məsələsinin həllində cəmiyyətlərarası dialoqun, "xalq diplomatiyasının heç bir rolu yoxdur. Qarabağ ermənisini dilə tutan azərbaycanlı "xalq diplomatı" bilməlidir ki, o ermənin "hə, Azərbaycan yaxşıdır", - deməsi heç nəyi həll etmir, böyük güclərin fikri əsasdır. Dördüncüsü, Azərbaycan müharibəyə başlamalı və istənilən varianta, hətta uzunmüddətli savaş variantına hazır olmalıdır. Rusiyaya qarşı uğur qazanmaq üçün Azərbaycan və Gürcüstanın eyni vaxtda müharibəyə başlaması vacibdir. Bu müharibə təkcə bizim üçün deyil, bizdən daha çox Rusiya üçün ciddi çətinliklər

vəd edir. Rusiya digər çətinliklərlə yanaşı, öz daxilində və xaricdə olan islam amilini də nəzərə almaq zorundadır.

Azərbaycan seçim qarşısındadır. Firavan həyat davam edir, getdikcə daha gözəlləşir və bu gözəl həyatın fonunda tədricən Qarabağdan imtina edirik. Digər halda, müharibənin gətirəcəyi bütün çətinlikləri, dağıntıları qəbul edərək Qarabağı qazanırıq və qazanandan sonra daha firavan, gözəl, ən əsası isə şərəfli həyat yolunu başlayırıq. Seçimimizi etməliyik.

**Beytulla Şahsoylu**

## HAYKANLAR (ERMƏNİ) QAFQAZDA VƏ PANERMƏNİLİK

Azərbaycan və erməni xalqlarının arasındakı münasibətlərdə tarixi məsələlər mühüm yer tutur. Erməni millətçi alimləri ermənilərin daha çox qədimliliyi konsepsiyasını əsaslandırmaqla öz iddialarına haqq qazandırmağa çalışırlar. Ümumiyyətlə, erməni xalqının mənşəyi və Qafqaz tarixində rolu məsələsi xüsusi əhəmiyyət kəsb edir: Ermənilər kimdir və Qafqazda nə vaxtdan yaşamağa başlamışlar? Bu barədə müəyyən axtarışlar aparılsa da hələlik ermənilərin mənşəyi və Qafqaz, eləcə də konkret bir ərazi ilə bağlılığı aydın deyil. Ermənilərin mənşəyi tarixin ən dolaşıq səhifələrindəndir. Erməniləri qəti olaraq müəyyən irqə aid etmək olmur, erməni dili isə dünya dilləri ailəsində təcrid olunmuş, ayrıca bir dildir. Bəs, bu tapmacanın səbəbi nədir?

Əlbəttə, bu və başqa suallara cavab tapmaq üçün ilk növbədə ermənilərin mənşəyini aydınlaşdırmaq lazımdır. Hələ keçən əsrdən qafqazşünasları belə bir məsələ düşündürmüş və məşğul etmişdir: Müasir ermənilər nə dərəcədə ermənidirlər və ümumiyyətlə onlar ermənidirlərmi? Bu günə kimi həmin suallara cavab tapılmadığından Qafqaz tarixinin bir çox başlıca problemləri açıq qalmışdır. Keçən əsr qafqazşünaslarından biri İ.Şopen haqlı olaraq yazmışdır: "Aydınlaşdırmaq çətindir ki, bizim ermənişünas alimlər nəyə əsasən özlərinə rəva biliblər ki, bütün hallarda haykanların və onların vətəni Hayastanın adını tamamilə başqa xalqın adı ilə dəyişib tərcümə edilələr: Aydındır ki, Yafəs mənşəli, şimaldan gəlmiş dağlı Armenlə, Ermənistanla, cənubdan gəlmiş sami mənşəli haykanların (hayların) heç bir ümumi cəhətləri yoxdur və ola da bilməz ". Bəli, o vaxt "Erməni vilayəti haqqında" yazdığı əsərə görə mükafata layiq görülmüş bu alim hay ilə erməni sözlərini dəyişik salmağın səbəbini ya açmaq istəməmiş, ya da onun siyasi mahiyyətini tam ayırd edə bilməmişdi. Ancaq zaman keçdikcə ilk baxışdan xırda, gözə çarpmayan xətadan ermənilər necə istifadə edilə, bütün Qafqazın keçmiş mədəniyyətinə yiyələnmək istəyirlər.

Qafqazşünas alim İ.Şopen həqiqi erməni-hayların mənşəyini də çox dəqiq təyin edir: "Ermənilərdən, Parsuq, haykanlardan və yəhudilərdən yeni qarışıq bir xalq əmələ gəldi ki, nəinki öz tipik müstəqilliyini itirdi, hətta özünün həqiqi, doğma adını da". Haylaşan yəhudilərin bir hissəsi "Zok" adı ilə seçilirlər. Əsl haylar öz

adlarını heç də unutmayıblar. Onlar öz dillərində özlərini düzgün olaraq "hay", vətənlərini də "hayıstan" adlandırırlar. Ancaq, "ermənişünasların" onlara verdikləri "erməni" və "Ermənistan" adlarından çox məharətlə istifadə edirlər. Əslində ermənilər həmişə də özlərini "hay" adlandırıblar. Hayıstan isə onların qədim məskəni-ideal ilk vətəni şəklində təsəvvür olunub. Həqiqətdə isə belə bir ərazi heç vaxt mövcud olmayıb. Təbii olaraq tarixi mənbələrdə də hay və Hayıstan haqqında məlumat verilmir. Hazırda erməni mənbələri kimi tanınan mənbələr isə haylara deyil, məhz ermənilərə məxsusdur. Erməni dili ilə bu mənbələri ayıran ciddi fərqlər də buna sübutdur. Təsadüfi deyildir ki, hay alimi X.Abovyan yazır: "Mənə elə bir müasir dil məlum deyildir ki, o yeni erməni dilinin qədim erməni dilindən fərqləndiyi qədər fərqlənsin... hcç bir dil mənim üçün bu qədər çətin olmamışdır". Bu sözləri altı dili sərbəst bilən yazıçı və alim yazmışdır. X.Abovyan daha sonra bu çətinliyi törədən səbəbləri də aydınlaşdırır: "... ona görə ki, bütün anlayışlar, sözlərin quruluşu, hətta ayrı-ayrı sözlər müasir dövrdəki ifadə tərzinə və şərhlərə uyğun deyildir". Əgər doğurdan da bu qədim dilin xüsusiyyətləri hay xalqının müasir dilindən bu qədər seçilirsə, bəs bu dil hansı xalqa məxsusdur? Bu suala da yenə erməni-hay alimləri cavab verirlər. Qədim erməni dili kilsə dili, yəni mədəni dil olub. Kilsə xadimi Narses bu dil haqqında yazmışdır: "Köhnə erməni dilinin quruluşu, konstruksiyası əksəriyyət etibarilə tatar dilinə uyuşur. Köhnə erməni dilinin halları var, yeni erməni dilində sözlər arasında ədatlar qoyulur".

Köhnə erməni dili haqqında kilsə xadiminin mötəbər rəyi belədir. Bəs müasir hay-erməni dili necə yaranmışdır? Axı dilin yaranması ilə xalqın yaranması bir prosesdir. Akademik N.Y.Marr qeyd edir: Erməni xalqı kimi, erməni dili də hibrid, calaq dildir. Erməni alimi, akademik M.Abeqyan da həmin fikri təkrar edir. "Erməni dili hibrid dildir. O biri yandan erməni qəbiləsi də hiləriddir, Urartu və başqa qonşuları assimlyasiya etmişdir". Müasir erməni-hay dilinin İran dillərinə daxil edilməsinin düzgün olmadığını göstərən M.Abeqyan yazır: "Hay dilinin təxminən 800-dək kökü iran mənşəli olması bəhanə olmuşdur". Deməli, hay dili İran dillərindən deyil və ola da bilməz. Çünki haylar özləri sami mənşəlidirlər, hayların mənşəyi, hay xalqının törəməsi hay dilinin mənşəyini açmaq üçün də mühüm açardır. Hayların Ermənistanın qədim əhalisi urartulularla genetik əlaqəsi olmadığı aydındır. Hayların yaranması haqqında bir nəzəriyyəyə görə onlar "inşaatçı xalq" kimi təqdim olunurlar. Doğrudan da hayların mənşəyi sıx şəkildə tikinti işləri ilə bağlıdır. Urartu ilə Assuriyaya arasında uzun sürən çəkişmələr zamanı çoxlu qul qənimət kimi bir əldən o biri ələ keçirildi və onlardan əsasən ağır tikinti işlərində istifadə edirdilər. Eramızdan əvvəl VUI əsrdə Urartu şahı Assuriya qarşı on dörd hərbi yürüş edir və nəticədə 91 min kişi, 52500 nəfər qadın və 74 min nəfər uşaq ələ keçirə bilir. Bu adam-işçi ələ keçirtmək siyasəti Urartu cəmiyyətində şah Argistidən sonra da davam etmişdir. Bu qullar həm ev işlərində, həm də tikinti işlərində istifadə olunurdu. Assuriyadan qənimət kimi gətirilən qullar yalnız assuriyalılardan iləarət olmayilə, habelə müxtəlif millətlərdən olan hərbi əsirlər və müxtəlif zümrələrdən

ibarət olan adamlar idilər.

Haylar da Assuriyada ağır katorqalarda məcburi işlədilirdilər. Assuriyalıların özləri Urartuya qalib gələndə öz qullarını bu əraziyə gətirib və ağır tikinti materialları əldə etmək üçün daş karxanalarında işlədirdilər. Nəticədə Assuriya qulları dağlıq ərazilərdə məskunlaşıb çoxalırdılar. Urartunun öz əhalisini isə assuriyalılar imperiyanın başqa yerinə aparırdılar. Hayların dağlarda məskunlaşmasına həm Urartu, həm də Assuriya kömək edirdi. İ.M.Dyakonov yazır: "Protoerməni dilinin yayılmasına urartulular, tutduqları ərazidən əhalini köçürmək siyasəti ilə çox kömək etdilər".

Assuriya imperiyasında böyük qalalar "xar-xar" adlanırdı və qullar elə "xar-xar"daca yaşayır və işləyirdilər. Belə güman etmək olar ki, hay sözü də mənşəcə "xar-xar" dan törənmişdir. Assuriya tamamilə dağıldıqdan sonra urartulular "xar-xar"larda işləyən məhbusları-hayları da qənimət götürmüşlər. Əh-de-Ətiqdə deyilir: "Assur şahı səni qoruyanlar yatıblar, sənin əsgərlərin yıxılıblar, sənin xalqın dağlara səpələnib, onlan toplayan adam yox... Kim sənin barəndə bu xəbəri eşidir əl çalır, axı sənin şərin kimə çatmamışdır". (Naum kitabı, I,UT,XV). Məhz dağlara səpələnmiş assuriyalılar, xüsusilə xar-xar tipli ağır əmək rejimində saxlanan qullar yeni bir etnosun əsasını qoydular. Assuriyanın dağılmasında midiyalılarla urartulular müttəfiq idilər. Xar-xarlarda işləyənlərin özləri də assurlara qarşı idilər, ancaq haylar bir xalq kimi Assuriyanın dağılmasında iştirak etməmişlər. İ.M.Dyakonov haqlı olaraq M.Xorenlinin nəzərdə tutduğu Assuriyanın dağılmasında iştirak etmiş Paruyrun skif mənşəli sərkərdə Partatura olduğunu bildirir.

Assuriyalıların özləri də qul mənşəli idilər. Vaxtilə onlar Şərq ölkələrinin müxtəlif ölkələrindən bura qul kimi gətirilmiş, ya da həbsxanalarda məhbus kişi və qadınlardan əmələ gəlmişdilər. Assur sözünü akkad ideoqramı "A.S.I.Rİ" (asira) akadca "əsir" demək idi və söz sami dillərində eyni mənada işlənir. Əslində hay və erməni nəinki bir xalq olmuş, əksinə bir-bir ilə düşmən olmuşlar. Haylar sonra assuriyalıların qonşu xalqlarla düşmənçilik ruhunu eynilə bütün tarixləri boyu davam etdirmişlər. Erməni alimi Kapanasyan hayların ilk məskəni olan Xa-ya-sa-nı "təpə" "şəhər" kimi izah edir. Bəzən bu sözü hayların eponimi "hayk" adı ilə bağlayırlar. Əslində Assuriya ilə Urartu arasında çox mübahisəli olan, Assuriyalıların yaşadığı bir ərazi var idi. Məşhur tarixçi Hüqo Binkler Urartu ilə Assuriya arasında mübahisələrin kökünə işarə edərək yazır: "Bu təkrar adı çəkilən yuxarı Dəclə və Fəratın üstündəki vilayət idi ki, Salmanasar vaxtında oranı Assuriya müstəmləkəçiləri (kolonistlər) ilə məskunlaşdırmışdı və Assurnazirpal yenidən öz itaətinə almaq istəyirdi. Urartu hücum etdiyi zaman bu vilayət yenidən uratuluların və ya onlara qohum olan qəbilələrin əlinə keçirdi". Urartu ilə Assuriyanın mübahisəli ərazisi yəqin ki, çoxlu qulların saxlandığı xar-xar və xariya olub. Urartunun döyüşlərdə ən çox qul götürmək siyasəti də deyilənləri təsdiq edir. Yuxarıda qeyd etdiyimiz kimi Assuriya da Urartuya qarşı eyni siyasət yeridir. Assuriyalıların birbaşa qalıqları Aysor mənşəli sovet alimi D.S.Sadayev yazır:

"...Assuriyaya on minlərlə əsir aparıb bu ölkəni də Nairi adlandırıblar". Hayların Assuriya ilə əlaqəsi M.Xorenlinin hayların yaranması haqqında əfsanəsində də özünü göstərir. Burada Aram ilə hayk bir-birindən seçilirlər və hayların cənubdan Dəclə-Fərat tərəfdən gəldiyi təsdiq edilir. Erməni alimi M.Abeqyan yazır: "Haykın nəsli oğlu Armenakın başçılığı ilə Xarkdan şimali-qərbə yayılıb, Ayraratda məskunlaşmışlar. Burada qədim sakinlər var idi. Sonra haylar (ermənilər) Şiraka, Qexakuni və Siyunikə doğru hərəkət etmişlər". Deməli, həm də Xayasa adlanan hayların qədim məskəni xarka (harka) Urartudan cənubda Assuriyanın olduğu ərazidə olmuşdur. Bu Xarka-harka, həm də Assuriyada bir növ həbsxana-qala olan kar-kar (xar-xar) anlayışı ilə bir olub, xar-xarlardan birinin adıdır. Maraqlıdır ki, buradakı har-har (xar-xar) farsca (iş) "kar" anlayışına uyğundur. Bu isə qədim Assuriyadakı qulların ağır həyat tərzi ilə bağlıdır. Qədim mənbələrdə "kara" anlayışı da bu mənadadır. Hazırda Azərbaycan dilində "qara camaat" sözü də "iş" "işləyən", "işçi" anlayışı ilə bağlı yaranmışdır. Ermənicə ker (kar) "daş" deməkdir (məsələn xaçkar). Xalq da adını buradan almışdır. Buradan belə bir məna aydın olur ki, hay və erməni sözləri tamamilə ayrı-ayrı anlayışlardır.

Assuriya imperiyasının müxtəlif yerlərində xar-xarlarda ağır daş işlərinə cəlb edilmiş kişi və qadınlardan, qarışıq kütlədən təşəkkül tapdığından hayların özünəməxsus milli mahnı və mədəniyyəti də olmayıb. M.Xorenli yazır: "İndi olduğu kimi keçmişdə də qədim hayların elmlərə, şifahi ötürülən mahnılara həvəsləri olmayıb. Ona görə də kəmağıl, nadan və vəhşi adamlar haqqında danışmaq artıqdır. Həqiqi ermənilər isə huri mənşəli xalq olmuşlar. Hurilər Assuriyadan qabaq böyük ərazidə dövlətləri olan xurritlərdir. Xurritlər Subariy-türk mənşəli xalq olub Kür-Araz ovalığı ilə, eləcə də Urartu mədəniyyəti ilə bağlı olmuşlar. İ.M.Dyakanov yazır: "Kür-Araz mədəniyyəti Xurrit (huri)-Urartu dil qrupuna çox uyğun olub...". Bu fikri 30-cu ilərdə etnoqraf V.A.Ryumin də təkrarlayır. "Uratulular Assur-Vavilonlarla qohum deyildirlər. Ancaq, görünür, Kişik Qafqaz və Araz boyu yaşayan qəbilələrlə bir xalq olmuşlar".

Qədim mənbələrdə müxtəlif əsrlərdə huri, Xurrit, Mitani, Midiyalı, Maskut, Frikey, Aşkenazi, Skif adlanan ayrımların keçmişdə Qafqaz dağlarında və Kiçik Asiya ərazisində çox geniş yayıldığı göstərilir. İndi ayrım adı ilə tanınan və Kiçik Qafqaz dağlarının ətəklərində yaşayan əhali huri, Xurritlərin qalıqlarıdır. Keçmişdə huri (Xurrit) adı ilə tanınan xalq Azərbaycan ərazisində hərum adı ilə tanınırdı. Nizami Gəncəvi Bərdənin keçmişindən bəhs edərəkən hərumdan da söhbət açmışdır. "Hərum adlanırdı bu yurd hər yerdə, indi isə adına deyirlər Bərdə".

Nizami sonra izah edir ki, Hərum dedikdə təkcə Bərdə şəhərini deyil, böyük Azərbaycanı əhatə edən ərazini nəzərdə tutmuşdur. Məhz bu hərum adı Azərbaycan Ərəb xilafətinə daxil olduqdan sonra müsəlman olmayanlara aid edilməyə başlamış və tədricən mənşəcə hərumlu (indiki Ayrım) olan azərbaycanlılara Ərəb tələffüzündə erməni deyilmişdir. Beləliklə, hayların adı ilə qədim Azərbaycanı bildirən erməni (Hərumən) adları Azərbaycan xalqının və o cümlədən ayrımların

təfəkküründə birləşmişdir. Hərumların yaratdıqları ədəbi-tarixi abidələrlə yanaşı, bu adla bağlı olan hər şey haylara aid edilməyə başlamışdır. Bu ərazidə xaçpərəstliyi qoruyan haylar hərum mədəniyyətinə və onlarla bağlı olan Hərumlu erməni adına da sahib çıxıb ikili adda bir millət-haylar və ermənilər yaranmışdır. İndi "böyük Ermənistan" adı ilə bağlı panermənıçilik məfkurəsi də məhz hərumların irsinə yiyələnmək, "Böyük hərumu" "Böyük Ermənistana çevirmək" iddiasından irəli gəlir. Panermənıçiliyin əsas məqsədi qədim azərbaycanlıların məskun olduğu böyük hərum torpağına yiyələnməkdən ibarətdir.

**Bəxtiyar Həsənov**

## YUXAR1 QARABAĞDA 1905-1906-CU İLLƏR ERMƏNİ TƏCAVÜZKARLIĞINA DAİR

Azərbaycanın ən qədim ərazilərindən biri olan Qarabağ ərazisi hələ XIX əsrin əvvəllərində Rus İmperiyasının apardığı çirkin siyasətin qurbanına çevrilməyə başlamışdı.

14 may 1805-ci ildə Qarabağ xanlığının Rusiya tərəfindən işğalından sonra bölgədə Rusiya ilə İran dövləti arasında siyasi mübarizə gərginləşməyə başladı. Həm də Rusiya ilə İranan arasında bağlanan Kürəkçay (may 1805) müqaviləsi İran şahlığının qəzəbinə səbəb olmuşdu. Fətəli şah bu müqaviləni pozmaq və böyük strateji əhəmiyyəti olan Şuşa qalasını, Əsgəran və Şahbulaq qalalarını almaq məqsəd ilə son dərəcə ciddi hazırlığa başladı. (1,469). Hətta şah özü Qarabağın Təxti-tavüs adlı yerinə və naibüssəltənə də Ağoğlan və Çanaxçı yolundan Əsgəranın aşağısına gəldi. (2,195).

1805-ci ilin sonu 1806-cı ilin əvvəllərində Rus-İran müharibəsi daha geniş miqyas aldı. Əvvəlcə bu müharibə Qarabağı Rusiyanın himayəsindən çıxarmaq məqsədi daşıyırdı. (1,470).

Göründüyü kimi Qarabağ həm Rusiya üçün həm də İran dövləti üçün strateji cəhətdən Qafqazda çox önəmli bölgələrdən biri olmuşdu.

1804-1813 və 1826-1828-ci illər rus-iran müharibəsinin gedişində və ondan sonra ermənilərin Zaqafqaziyaya, o cümlədən Qarabağa kütləvi surətdə köçməsi (köçürülməsi H,B) başlanır. (1.477). Bu köçürmələr sonrakı illərdə də davam etdirilmişdir. Rusiyanın bu bölgəyə erməniləri köçürməsinin başlıca səbəblərindən biri Yuxarı Qarabağda ermənilərin say çoxluğuna nail olmaq idi. XX əsrin əvvəllərinə qədər general-adyutant Şeremetyevin yazdığına görə Zaqafqaziyaya 1.000.000 (bir milyon) erməni köçürülmüşdür.

Rusiyanın bu bölgəyə erməniləri yerləşdirməsi erməni təcavüzünün başlanmasına səbəb oldu. Ruslar və ermənilər öz çirkin niyyətlərini ilk dəfə 1905-1907-ci illər arasında açıq biruzə verməyə başladı. Rusiya erməniləri silahlandırıb Azərbaycanlı əhaliyə qarşı müharibə etməyə qaldırdı. Ermənilər Yuxarı Qarabağda çaxnaşma yaratmaq üçün bir neçə azərbaycanlını və Rus millətindən olan vəzifəli

şəxsi qətlə yetirdilər. Yenə bu tarixdə divanə qulluq edən bir müsəlmanı rus xəzinəsinin qabağında ermənilər tapança ilə vurub öldürdülər. Şuşa şəhərinin müsəlmanlarından ehtiyat edən ermənilər acizanə surətdə müsəlmanlardan üzrxahlıq etdilər ki, həmin ləzgini rus bililə öldürüblər. Ona görə qatilin bağışlanmasını xahiş edirlər.(4,24). Rusiya kimi böyük bir ölkədə öldürməyə rus tapa bilməyən ermənilər nəhayət Qarabağın Şuşa şəhərində bir rus tapilə öldürmək istəyirlərmiş ki,o da səhv olaraq bir müsəlman olmuşdur. Bu faktdan aydın olur ki, ermənilərin burada məqsədi ruslarla əlbir olmadıqlarına, hətta öldürməyə rus axtardıqlarına Qarabağ əhalisini inandırmaq olmuşdur.

1905-ci il avqust ayının 8-də gecə saat iki radələrində ermənilərlə müsəlmanlar arasındakı küçənin küncündə şəhər fanarlarını yandıran bir İranlı müsəlmanı öldürməklə ermənilərlə müsəlmanlar arasında yeni müharibə toxumları səpilir.(5,54).

Digər bir tərəfdən isə ermənilər təpədən dırnağa qədər silahlandırılırdı. Daşnaq ermənilər müsəlmanlarda olan silahı ələ keçirmək üçün belə bir hiylə işlətdilər. Əgər tüfəng bazarda 20 manata satılırdısa, onlar 100 manata, tapança altı manata olduğu halda, 30 manata alırdılar. Sadədil müsəlmanlar silahların ermənilər tərəfindən belə baha qiymətə alındığını görüb evlərində nə qədər silah və sursat var idisə, tamamən ermənilərə satdılar. (4,27). Daşnaqların bu tədarükü Şuşa əhalisinə göründüyündən ermənilər dərhal Türkiyədə, İranda onları bir sıra mənfəətli işlərə çatdıran, müsəlmanı aldadan yağlı dillərini işə salmağa başladılar. Əvvəlcə bizim bu tədarüklərimiz islam, yaxud sair millətlərin əleyhinə olmayıb Rusiyada mütləq bir azadlıq-avtonomiya idarə muxtariyyəti təşkil etmək həvəsidir, - başladılar. Müsəlmanlar bu cəfəngiyyata inanıb öz işləri ilə məşğul idilər. (5,53).

1905-ci ilin avqust ayında ermənilər bəhanə ilə müsəlmanlara qarşı müharibəyə başladılar. Bu bəhanələrdən biri bir erməninin kazaklar tərəfindən öldürülməsi olmuşdur. Ermənilər bunun günahını müsəlmanlarda görüb heç bir əsas olmadan müsəlmanları müharibəyə təhrik edirdilər.(7,26).

16 avqust 1905-ci il ermənilər hücuma başladılar. Erməni qımdatları dəstə-dəstə olub bir dəstə köçərli məhəlləsinə, bir dəstə Yuxarı Xəlifəli qapısına, başqa bir dəstə isə meydana tərəf getdilər. (4,31).

Avqust ayının 17-də daşnaq ermənilər Köçərli məhəlləsində 8 evi yandırıb əhalisini qətlə yetirdilər. Xəlfəli adlanan məhəllədə 10 evin müsəlmanlarının qətl - qəraət edilməsi xəbəri kədərli bir surətdə yetişdi. Qəddar erməni daşnaqlarının belə təcavüz və ədalarını görən islam cavanları artıq ruhani və rəislərinin nəsihətlərinə baxmayıb ermənilərə qarşı ümumi hücuma başlayırlar. Ermənilər Port-Artur misalında olan səngərlərini daha saxlaya bilməyib boşaltmağa məcbur oldular. Avqustun 18-də daşnaq ermənilər dağılmış qüvvələrini bərpa edilə yenidən müharibəyə girişdilər. Ermənilər çox təlaş edilə keçən günün təlaşını çıxmaq istəsələr da ağır təlafata məruz qalaraq öz hissələrini müsəlmanlara verdilər. (5,56-57). Daşnaq ermənilər başladıqları müharibədə məğlub olduqlarını görüb hiyləyə əl

atmağa başladılar. Avqustun 19-da erməni arximandriti və qubernator Baranovski məscidin həyətinə təşrif gətirdilər. Arximandrit bu dillər ilə müsəlmanlara yalvarmağa başladı:

-Amandı müsəlmanlar, Şuşada ermənilər müqəssir olsalar da, daha erməni qalmadı. İndi bir ovuc əlsiz - ayaqsız erməni qalıbdır, onlara rəhm ediniz!-deyib, ağlaya-ağlaya sülh təklif etdi. Müsəlmanlar sülh sözünü eşidən kimi güllə atmağı dayandırıb sakit oldular. Ermənilər isə evə qayıdan qubernatoru atəşə tutdular. Daşnaqlar məktəbin təmirində işləyən 17 nəfər iranlı fəhlənin başını kəsib müsəlmanları yenə pərişan etdilər. Beləliklə 1905-ci il avqustun 16-da başlayan müharibə, avqustun 21-də sülh elan edilməsi ilə başa çatdı. Bu müharibədə yüzlərlə azərbaycanlı qətlə yetirilmişdi. (5,57-58). Ermənilərin və rusların növbəti hiylələri baş tutdu. Azəri türklərinin müharibədə qalilə gəldiyini görən ermənilər və ruslar sülhə nail olduqdan sonra dərhal növbəti müharibə üçün hazırlıqlara başladılar.

Erməni keşişləri 1906-cı ildə Şuşada olan erməni kilsələrini azərbaycanlılara qarşı əsl silah-sursat cəbbəxanalarına çevirərək kilsələrin zirzəmilərində küllü miqdarda silah-sursat gizlətmişdilər. Allah evindən öz çirkin niyyətləri üçün istifadə etdiklərinə görə o zamankı şəhər üsul idarəsi tərəfindən Ter-Arsen Vartapetov, Ter - Karapet Vartapetov, Ter Ovanesyan, Mirzəbekov, Asatur Vartapetov kimi keşişlər cəzalandırılaraq Şuşadan qovulmuşdular. (8,26.) Bu da müsəlmanları arxayın salmaq üçün başqa bir oyun idi. Çünki ermənilər imkanlı ermənilərin köməyi ilə 1905-1906-cı illərdə Türkiyə və İrandan muzdlu erməni döyüşçüləri gətirib azəri türklərinə qarşı vuruşdururdular. Bu haqda tarixi ədəbiyyatlarda kifayət qədər məlumatlar vardır.

Müsəlmanların öldürülməsində Rusiya tərəfindən Qarabağa və Şuşa qəzasına təyin edilən generalların da iştirakı olmuşdu. Bunlardan general Qalaşşapov daha qəddar olmuşdur. Qalaşşapovun müsəlmanlara iblis münasibəti bəslədiyini anlayan ermənilər hər an bir bəhanə axtarırdılar ki, generalı müsəlmanların üstünə ayaqlandırsınlar. 1906-cı ilin iyul ayının 12-də bir neçə gün bundan qabaq ölmüş erməni meyidini generala nişan verilə, "budur bu saat sənin qonşuluğunda müsəlmanlar qətlə yetirmişlər", deməklə general Qalaşşapov bir bəhanə axtardığından dərinə getməyib Köçərli məhəlləsini topa tutmaq əmrini verdi. Kazak dəstələri ilə birlikdə 10.000 (on minə) yaxın daşnaq dəstələri Azərbaycanlılara qarşı hücuma keçdilər. Bunlara baxmayaraq Azərbaycanlılar igidliklə vuruşaraq ermənilərin daha çox itgi verməsinə nail oldular. General Qalaşşapov Azərbaycanlıları belə qalib görüb daha evdən eşiyə çıxmadı. Ermənilər bu müharibəni etməzdilər. Zira bu dəfə hökumət qoşununa arxayın idilər. Müsəlmanların mərdanəliyi ermənilərə və hökumət qoşununa məlum oldu. Müharibənin altıncı günü ayın 18-də general Qalaşşapov hər iki tərəfdən bir neçə vəkillər götürüb müsəlman hissəsinin fikrini öyrənməyə gəlir. Söhbət zamanı " bir quru barışıqdan ötrü işi bu məqama çıxardınız"- deyib ağlayır. (5,62.)

Ermənilərin Azərbaycan türklərinə qarşı törətdiyi qanlı olaylara baxmayaraq

erməni mətbuatı dünyaya ermənilərin, Azərbaycanlılar tərəfindən qətlə yetirilməsi barədə şişirdilmiş yalan məlumatlar verirdi. (3, XVT.)

Öz məqsədləri üçün ermənilərə hərbi-siyasi dəstək verən Rusiya erməni terror dəstələrinin yaranmasının tərəfdarı olmuş və onları öz siyasətinə uyğun istiqamətləndirmişdir. Bu terror dəstələri erməni siyasi partiyalarının tərkibində fəaliyyət göstərmişlər, bunlardan Türkiyənin Van şəhərində 1885-də yaradılan Armenekan, 1887-də Cenevrədə yaradılan Hncaq, 1890-da Tiflis şəhərində yaradılan Daşnaqstyun və s. Bəzən bu terror dəstələrinin maraqları üst-üstə düşməyəndə partiyaların daxilində qətllərlə nəticələnirdi.

1904-1906-cı illər ərzində erməni terroristləri 209 (iki yüz doqquz) adamı qətlə yetirmişlər ki, bunların da əksəriyyəti siyasət adamları olmuşdur. (11,112.) Bəlkə də siyasət adamlarının erməni terrorundan qorxmaları, erməniləri dəstəkləmələrinin başlıca səbəblərindəndir.

Rusiyanın bölgədə fəallaşması başqa böyük dövlətlərin bu bölgədə marağının artmasına səbəb olurdu. Bu da ermənilərin axmaq xülyaları. "Böyük Ermənistan" ucbatından bölgəni müharibələr meydanına çevirirdi.

Bu müharibə təkcə Yuxarı Qarabağda deyil Bakıda, İrəvanda, Naxçıvanda, Gəncədə, Qazaxda və digər yerlərdə də yüzlərlə azəri türkünün faciəli surətdə ölümünə səbəb olmuşdur.

**Ədəbiyyat:**

1. Qarabağnamələr 2. Yazıçı 1991.
2 A. A. Bakıxanov Gülüstani İrəm Bakı. 1991.
3. Azerbavcan Belgelerinde Ermeni sorunu. Ankara.2001
4. Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə Erməni-Müsəlman davası. Bakı. 1993.
5. M. S. Ordubadi. Qanlı illər. Bakı. 1991.
6. Əliyev. İ Dağlıq qarabağ. Bakı. 1989.
7. Köçərli T.Q. Qarabağ. Bakı. 2002.
8 Akvəl T Azerbaycan Sovetlər ve ötesi. İstanbul l990.
9. Devie, N. Rusiya Türklerinin Milli Mücadele tarihi (1905-19017). Ankara 1985.
10.Əzizov T. Azərbaycan XX əsrin əvvəllərində. Bakı. 1997
11.Armyanskiy Qenoçid mif i realnosti. Bakı. 1992.

**Elçin Əhmədəv**

# ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI ƏRAZİ İDDİALARI VƏ İŞĞALÇILIQ SİYASƏTİNİN NƏTİCƏLƏRİ

XX əsrin 80-ci illərinin ikinci yarısında Sovetlər İttifaqında yenidən qurma adı altında bir sıra dəyişikliklər baş verdi. Belə bir şəraitdə ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər.

Hər dəfə Qarabağa dair ərazi iddiaları kənardan, məhz, Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılırdı. Heç şübhəsiz, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, Yerevanda, Moskvada və Qərbdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı.

Sovet dövründə mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kompaniyası aparılmış və nəticədə, mənfi ictimai fikir formalaşdırılmışdı. Erməni ideoloqları və onların ilhamvericiləri Azərbaycanın tarixi, sosial-iqtisadi inkişafı haqqında faktları açıq-aşkar saxtalaşdıraraq bütün İttifaq miqyasında yaymışdılar.

1988-ci il hadisələri başlayanda ilk vaxtlar vəziyyəti son dərəcə gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların mərkəzi ittifaqdakı himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndində və Yerevanda davamlı tətillər keçirilərək, müəssisələr dayandırılır və kütləvi mitinqlər təşkil edilirdi.

Azərbaycana qarşı açıq-aşkar ərazi iddialarını pərdələyərək, münaqişənin əsas səbəbinin guya DQMV-nin sosial-iqtisadi problemlərinin olması barədə erməni siyasətçiləri və onların arxasında dayananların bu tezisinin əsassızlığını akademik Z.Səmədzadə konkret faktlara və rəqəmlərə istinad edərək ifşa etmişdir [7,s.50-57]. Azərbaycan SSR Dövlət Statistika İdarəsinin 1988-ci ilin əvvəllərinədək olan vəziyyəti əks etdirən rəqəmlərə nəzər saldıqda, doğrudan da, sosial-iqtisadi inkişafın bir sıra sahələrində DQMV nəinki Azərbaycanı, hətta Ermənistanı da qabaqlayırdı [16,s.9-16]. Eyni zamanda, SSRİ Nazirlər Sovetinin sosial inkişaf üzrə Bürosu sədrinin birinci müavini V.P.Laxtin "İzvestiya" qəzetinin 25 mart 1988-ci il tarixli nömrəsində bildirmişdi ki, "Dağlıq Qarabağ vilayəti mənzillə təminat sahəsində Azərbaycanın digər bölgələrini orta hesabla 1,4 dəfə geridə qoyur [12,s.l03]. Bir sıra başqa göstəricilər üzrə də vilayətdəki vəziyyət hər iki müttəfiq respublikadakından yaxşıdır".

Buna baxmayaraq, 1988-ci il martın 24-də "Dağlıq Qarabağ problemi"ni həll etmək üçün Sov. İKP MK və SSRİ Nazirlər Soveti "1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi

tədbirləri haqqında" qərar qəbul etdi [19,s.26]. Lakin baş verən sonrakı hadisələr DQMV-in sosial-iqtisadi geriliyi barədə erməni siyasətçiləri və onların mərkəzdəki himayədarlarının irəli sürdükləri bu saxta tezisin yalnız bəhanə, əsas məqsədin isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasında olduğunu göstərdi.

Münaqişənin başlanğıcında Azərbaycan ümid edirdi ki, məsələ mərkəzi hakimiyyət orqanları tərəfindən ədalətlə həll olunacaq. Lakin təcavüzkarla təcavüzə məruz qalanın eyni tutulması nəticəsində bu günədək həllini tapmayan münaqişənin əsası qoyuldu. Sovet rəhbərliyinin məsələyə vaxtında və prinsipial qiymət verməməsi, Ermənistanın ərazi iddialarının əsassız olmasının göstərilməməsi əvvəl Əsgəranda, sonra isə ermənilər tərəfindən xüsusi plan əsasında hazırlanmış Sumqayıtda baş verən faciəli hadisələrə gətirib çıxartdı.

Artıq ilin ikinci yarısında vəziyyət o qədər mürəkkəbləşdi ki, DQMV-nin azərbaycanlı əhalisinə qarşı silahlı təcavüz oldu. Belə ki, avqustun axırı və sentyabrın əvvəllərində Kərkicahan və Xocalı üzərinə ermənilərin kütləvi hücumu baş verdi. Sentyabrın 18-də ermənilər Xankəndində yaşayan 15 minə qədər azərbaycanlını şəhərdən zorakılıqla çıxardılar, onların evləri yandırıldı, özlərini isə Şuşa və ətraf rayonlara köçməyə məcbur etdilər.

1988-ci il sentyabrın 21-də DQMV-də xüsusi vəziyyət elan edildi və qadağan saatı qoyuldu [20,s.l83]. Lakin xüsusi vəziyyətin tətbiq olunması da DQMV-də və Ermənistanda zorakılığın qarşısını ala bilmədi. Mərkəzi ittifaq orqanlarının hadisələrə birtərəfli yanaşması nəticəsində Dağlıq Qarabağ və Ermənistanda yaşayan azərbaycanlılar hərbi təcavüzə məruz qalmaqla yanaşı, kütləvi şəkildə öz doğma yurdlarından çıxarıldılar.

1989-cu ilin yanvarın 12-də SSRİ Ali Soveti Rəyasət Heyəti DQMV-də və onun ətrafında millətlərarası münasibətlərin gərginliyinin davam etməsi ilə əlaqədar olaraq və bunun qarşısını alıb regionda vəziyyəti sabitləşdirmək məqsədilə Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində Muxtar Vilayət statusunu saxlamaqla DQMV-da xüsusi idarə formasının tətbiq edilməsi haqqında fərman qəbul etdi. Həmin fərmanla DQMV-də bilavasitə SSRİ-nin ali dövlət hakimiyyəti və idarə orqanlarına tabe olan Xüsusi İdarə Komitəsi yaradıldı [I,s.67].

Xüsusi İdarə Komitəsi "millətlərarası münasibətlərin daha da kəskinləşməsinin qarşısını almaq və bu regionda vəziyyəti sabitləşdirmək" adı altında yaradılsa da, fərmanda göstərilənlərin əksinə olaraq bu komitənin fəaliyyətdə olduğu müddətdə DQMV-də vəziyyət daha da kəskinləşmişdi. Komitənin sədri A.İ.Volski vəziyyəti sabitləşdirmək deyil, əksinə gərginləşdirmək siyasəti yürütdü. Onun fəal "səyləri" nəticəsində az müddət ərzində vilayətin idarə və müəssisələrinin demək olar ki, hamısı Azərbaycanın tabeliyindən çıxarılaraq mərkəzin tabeliyinə keçirildi. Bütün sənədlərdə DQMV Azərbaycanın tərkibindən çıxarılmışdı [9,s.67]. Belə ki, o dövrdə SSRİ Plan Komitəsinin Hesabat sənədlərində Dağlıq Qarabağ əslində on altıncı müttəfiq respublika kimi əlahiddə göstərilirdi. Vilayət İcraiyyə Komitəsinin binasının üzərində dalğalanan

Azərbaycan bayrağı çıxarılıb Ermənistanın bayrağı sancılmışdı. Hər gün Xankəndi -Yerevan marşrutu üzrə təyyarələr 22 dəfə reysə çıxırdı [9,s.67].

Bu dövrdə Xankəndindən qovulmuş azərbaycanlıların öz doğma ev-eşiklərinə qayıtmasına nəinki təminat yaradılmadı, əksinə, vilayətin azərbaycanlılar yaşayan kəndləri Xüsusi İdarə Komitəsinin "köməkliyi" ilə məqsədəuyğun şəkildə boşaldıldı. Ümumiyyətlə, A.İ.Volskinin "ciddi qayğısı" sayəsində vilayət demək olar ki, Azərbaycan hökumətinin nəzarətindən çıxmışdı.

1989-cu ilin axırlarında Qarabağda vəziyyət olduqca acınacaqlı idi. Xüsusi İdarə Komitəsi A.Volski başda olmaqla Moskvanın göstərişi əsasında, Ermənistanın iradəsi ilə antiazərbaycan fəaliyyətini davam etdirirdi. Azərbaycanlıların ermənilər tərəfindən vilayətdən çıxarılması və təcavüzə məruz qalması respublikada Xüsusi İdarə Komitəsinin fəaliyyətinə qarşı böyük narazılıq yaratmışdı. Sovet rəhbərliyinin baş verən hadisələrə laqeyd münasibəti, Dağlıq Qarabağın Ermənistana birlşədirilməsi tələbinin vaxtında Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qəsd kimi qiymətləndirilməməsi yaranmış vəziyyəti daha da ağırlaşdırdı.

Dağlıq Qarabağda vəziyyətin belə bir gərgin anında Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Azəbaycanın suverenliyini kobud surətdə pozaraq DQMV-nin Ermənistan SSR-lə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi [13,s.130]. Birbaşa Sovet rəhbərliyinin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana birləşdirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nın tərkibinə daxil oldu. Azərbaycanın bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistanın bayrağı və gerbi qaldırıldı. Ermənistan rəhbərliyi və erməni separatçıları mərkəzin bəzi dairələrinin köməkliyi ilə vilayətdə əsl mənada Dağlıq Qarabağın iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən mənimsənilməsi prosesi aparırdılar.

SSRİ hökuməti, xüsusilə onun başında duranların qətiyyətsizliyi və Azərbaycan torpaqlarına açıq-aşkar təcavüz edən ermənilərə himayədarlıq etməsi üzündən hadisələr getdikcə daha da mürəkkəbləşdi və Ermənistan Respublikası Azərbaycan ərazilərinə hərbi qüvvə göndərərək açıq təcavüzə başladı. Ermənistan hökuməti silahları yığmaq və regionda sabitliyə riayət olunması əvəzinə respublika ərazisində və Dağlıq Qarabağda silahlı birləşmələrin sayının artırılmasına daha da şərait yaratdı və bununla da gərginliyi daha da gücləndirdi.

Yaranmış vəziyyətlə əlaqədar olaraq qanunsuz yaradılmış silahlı dəstələrin tərksilah edilməsi haqqında SSRİ prezidentinin "SSRİ qanunvericiliyi ilə nəzərdə tutulmamış silahlı dəstələr yaradılmasını qadağan etmək və silah qanunsuz saxlandığı hallarda onu geri almaq haqqında" 25 iyul 1990-cı il tarixli fərmanı qəbul edildi. SSRİ prezidentinin bu fərmanı da Ermənistan rəhbərliyi tərəfindən qəbul edilmədi və yeni seçilmiş parlament elan etdi ki, fərman Ermənistan, həmçinin

Dağlıq Qarabağ ərazisində hüquqi qüvvəyə malik deyil və erməni silahlı qüvvələri silahları təhvil verməyəcəklər. Lakin mərkəzin laqeydliyi, hadisələrə prinsipial yanaşmaması erməniləri bir qədər də ruhlandırdı və daha böyük cinayətlərə sövq etdi.

Bu dövrdə ermənilərin sovet ordusunun hərbi hissələrinə, o cümlədən daxili qoşunlara etdiyi hücum və basqınları adi hal almışdı. Belə bir şəraitdə silahların ələ keçirilməsinə mərkəzi hakimiyyət tərəfindən etinasızlıq göstərilir və bilərəkdən göz yumulurdu. Ermənistanda və Dağlıq Qarabağda qanunsuz olaraq fəaliyyət göstərən silahlı dəstələr bütün regionda vəziyyəti daim gərginləşdirirdilər. Azərbaycanda isə əksinə, yanvar ayından fövqəladə vəziyyət tətbiq olunmuş və əhalidə olan quş tüfəngləri belə yığılmışdı.

Nəticədə, Sovet rəhbərliyinin çox ciddi və bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1990-cı ilin sonu-1991-ci ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxartdı, DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. Bu illərdə Moskva-Bakı sərnişin qatarlarında, Tbilisi-Bakı, Tbilisi-Ağdam, Ağdam-Şuşa, Ağdam-Xocalı marşrutları üzrə avtomobillərdə törədilən terror aktları nəticəsində yüzlərlə azərbaycanlının həyatına son qoyuldu [15,s.243-244]. Minlərlə azərbaycanlı Moskvanın hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu.

Azərbaycan Respublikası Ali Sovetinin 26 noyabr 1991-ci il tarixli növbədənkənar sessiyasında Dağlıq Qarabağın muxtariyyət statusu qanuni və haqlı olaraq ləğv edildi. Halbuki, Dağlıq Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan Respublikasının Konstitusiyasına tabe olmaması 1988-ci ildən belə bir addımın atılması üçün labüd idi. Təəssüf ki, hadisələrin başlanğıcında muxtariyyətin ləğv olunmaması, erməni separatçılarının qarşısının alınmaması vəziyyəti get-gedə kəskinləşdirirdi. Nəticədə, Azərbaycan hökuməti tərəfindən nəzarət olunmayan vilayətdə ermənilər Ermənistandan göndərilən silahlı dəstələr və hərbi texnikanın köməyi ilə azərbaycanlılara qarşı daha qanlı cinayətlər törətdilər ki, bu da münaqişənin böyüyüb irimiqyaslı müharibəyə çevrilməsinə səbəb oldu.

1991-ci ildən Qarabağın dağlıq hissəsində baş verən hadisələrin gərginliyi get-gedə artırdı. Artıq ictimai-siyasi vəziyyət böyük fəlakətin yaxınlaşmasından xəbər verirdi. 1991-ci ilin iyun-dekabr aylarında erməni silahlı qüvvələrinin Xocavəndin Qaradağlı və Əskəran rayonunun Meşəli kəndinə hücumu nəticəsində 12 nəfər öldürüldü, 15 nəfər isə yaralandı. Həmin ilin avqust və sentyabr aylarında Şuşa-Cəmilli, Ağdam-Xocavənd və Ağdam-Qaradağlı avtobuslarının erməni silahlı dəstələri tərəfindən atəşə tutulması nəticəsində 17 nəfər həlak oldu, 90 nəfərə qədər azərbaycanlı yaralandı. 1991-ci ilin oktyabrın sonunda və noyabr ayı ərzində Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Meşəli, Cəmilli, Umudlu, Qaradağlı, Kərkicahan və s. bu kimi digər strateji əhəmiyyətə

malik kəndlərimiz ermənilər tərəfindən yandırıldı, dağıdıldı və talan edildi [14,s.276-278].

Şuşanın Xankəndindən keçən telefon-rabitə xətləri noyabrın 24-dən kəsilmiş, şəhər və digər azərbaycanlılar yaşayan kəndlər tamamilə ətraf aləmdən təcrid olunmuşdu. Nəticədə, Xocalı və Şuşa mühasirədə qalmışdı. Dekabrın 2-nə keçən gecə əsasən rus hərbçilərinin idarə etdiyi zirehli texnika növləri, o cümlədən döyüş maşınları ilə təmin olunmuş Ermənistan ordusu Xankəndi tərəfdən Kərkicahan qəsəbəsinə hücum edərək, oranı işğal etdi. Şuşadan isə əlavə kömək göndərmək qeyri-mümkün idi. Çünki, rus hərbçiləri Şuşadan Kərkicahana gedən yolu bağlamışdılar. Eyni zamanda, Şuşa şəhərinin özü də, hər gün erməni mövqelərindən intensiv top və raket atəşinə tutulurdu.

Ümumiyyətlə, 1988-1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər olan dövrdə İttifaqın hakim dairələri tərəfindən himayə edilən Ermənistan Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeritmiş, nəticədə dinc sakinlər qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, talan edilmiş və yandırılmışdır. Bu illər ərzində Dağlıq Qarabağda ermənilər tərəfindən törədilmiş 2559 toqquşma, 315 silahlı basqın, 1388 atəşə tutma halları qeyd alınmışdır ki, bunların da nəticəsində 514 nəfər həlak olmuş, 1318 nəfər yaralanmışdır [8,s. 148].

1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan ordusu bir-birinin ardınca yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdilər. Belə ki, fevral ayının 12-də Şuşanın Mahbəyli və Quşçular kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olundu. Hücum zamanı 100-dən çox azərbaycanlı öldürülmüş, 140-dan çoxu yaralanmış və əsir götürülmüşdür [2,s.l43] Bu qanlı hadisələr Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirilmişdir. Fevralın 13-dən 17-dək isə ermənilərin Xocavənd rayonunun Qaradağlı kəndinə hücumu nəticəsində 92 nəfər öldürülərək siləs quyusuna atılmış, 117 nəfər kənd əhalisi girov götürülmüş və sonradan onların 77 nəfəri amansızlıqla qətlə yetirilmişdir [21,s.88-92; 20, s.8; 10,s.35-37].

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən Rusiyanın 366-cı motoatıcı alayının 180 nəfər hərbi mütəxəssisi və ağır texnikanın iştirakı ilə Xocalı şəhərinə hücum edərək şəhəri yerlə-yeksan etdilər [21,s.88-92; 20, s.8]. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdıldı, yandırıldı və insanlar xüsusi qəddarlıqla qətlə yetirildi. Bu soyqırım nəticəsində 613 nəfər öldürüldü, 487 nəfər şikəst oldu, 1275 nəfər əsir götürüldü və 150 nəfər itkin düşdü [2,s. 143-144].

Xocalıya hücum zamanı 366-cı motoatıcı alayın 3-cü batalyonunda 50-dən çox erməni zabiti və gizirləri iştirak etmişdir. Xocalı soyqırımında izləri itirmək üçün 1992-ci il martın 2-də ruslara məxsus olan 366-cı motoatıcı alay Gürcüstanın Vaziani şəhərinə köçürüldü, martın 10-da isə marşal Şapoşnikovun əmri ilə həmin alay ləğv edilərək tərkibi başqa alaylara paylandı [2,s.l45]. Xocalı erməni rus birləşmiş qüvvələri tərəfindən ələ keçirildikdən sonra aydın idi ki, növbəti həmlə Şuşaya olacaq. Ermənilər bunu gizlətmir, şəhərin hücumla alınmasına və dəhliz açmaq üçün Laçının

tutulmasına açıq-aşkar hazırlıq görürdülər. Şuşanın strateji mövqeyi Azərbaycanın bu qədim şəhərinin qısa müddətdə asanlıqla ələ keçirilməsi ehtimalını heçə endirirdi. Lakin Şuşanı ələ keçirmək üçün ermənilər ən qatı cinayətlərə əl ataraq torpaqlarımızı kənd-kənd işğal edir, Şuşaya doğru irəliləyirdilər. Şuşanın itirilməsi Azərbaycan üçün nə demək idi? Tarixə nəzər salsaq, Şuşanın nə qədər siyasi və hərbi-strateji əhəmiyyətə malik olmasının bir daha şabidi oluruq.

Mart ayı da Şuşa ətrafında gedən ağır döyüşlərlə müşahidə olundu. Aprelin ortalarından başlayaraq, Şuşa yaxınlığında ermənilərin zirehli texnikası, saysız-hesabsız canlı qüvvəsi toplanırdı. Aprelin 24-də ermənilərin Şuşaya hücumu gözlənilirdi. Belə ki, ermənilər aprelin 29-da Şuşa ətrafında Hacı talası və Daşaşıran adlanan ərazilərə güclü hücuma keçdilər. Bütün bu hücumlar ermənilərin artıq mühasirə vəziyyətində olan Şuşaya doğru irəliləməsindən xəbər verirdi. May ayının 7-dən 8-nə keçən gecə Şuşa dörd tərəfdən "'qrad", "kristal" tipli raketlər, top, tank, PDM, ZDM, pulemyot və avtomatlarla güclü atəşə tutuldu. Atəş səhərə qədər davam etdi. Səhər tezdən ermənilər Xankəndi, Şuşikənd və Kərkicahan istiqamətlərindən piyadalarla hücuma keçdilər. Şəhər ayın 8-i axşama qədər müdafiə olunsa da, tank və zirehli maşınların köməyi ilə ermənilər əvvəl Şuşanı, sonra isə Kosalar və Şırlan kəndlərini ələ keçirdilər [5,s.75-76].

Qarabağın dağlıq hissəsində yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin bölmələri digər erməni terrorçu dəstələri ilə birlikdə Azərbaycan Respublikasının ərazisində növbəti cinayət törədərək, yuxarı Qarabağda azərbaycanlıların yaşadığı sonuncu yaşayış məntəqəsi olan Şuşa şəhərini işğal etdilər. Vaxtilə 33 gün mühasirədə qalan, lakin təslim olmayan Şuşanın belə qısa müddətdə süqut etməsinin əsas səbəbi şəhərin müdafiə qabiliyyətinin zəif olması idi. Şuşadakı mövcud qüvvələr və onların hərbi hazırlığı ermənilərlə müqayisədə çox zəif idi. Doğrudur, Şuşada müəyyən qədər hərbi texnika və canlı qüvvə var idi. Şuşaya hücum ərəfəsində şəhərdə 2 ədəd tank, 3 ədəd PDM, 4 ədəd ZDM, 1 ədəd qard raket qurğusu, 3 tabor və 700 döyüşçü olsa da, lakin onlardan 400 nəfəri ezamiyyətə buraxılmışdı. Ermənilərin öz məlumatlarına görə isə Şuşaya hücumda 100-ə qədər zirehli maşın və tank, II min nəfər canlı qüvvə iştirak etmişdi [5,s.76]. Ermənilər tərəfində xaricdən gətirilmiş muzdlular da döyüşürdülər.

Beləliklə, ən müasir texnika hesabına 289 km$^2$ ərazisi, 24 000 nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğrunda döyüşlərdə 155 nəfər şəhid oldu, 167 nəfər isə yaralandı [2.S.147]. Ermənilər tərəfindən əsir götürülmüş və Şuşa türməsində saxlanılan 114 nəfər azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirildi [14.S.297].

1992-ci il mayın 8-də İranın təşəbbüsü ilə Tehranda Azərbaycan və Ermənistan rəhbərləri arasında üçtərəfli görüş keçirildi. Sonralar aydın oldu ki, görüş zamanı Azərbaycan-Ermənistan sərhədi boyu və Qarabağın dağlıq hissəsində atəşin dayandırılmasından erməni tərəfi əslində başqa məqsəd güdürmüş. Məhz bu görüş

Ermənistana beynəlxalq ictimaiyyətdən öz niyyətlərini gizlətmək üçün lazım idi. Heç şübhəsiz ki, Ermənistan rəhbərliyi hazırlanmış hücum əməliyyatından əvvəlcədən xəbərdar olmuşdur. Çünki, Şuşanın işğalı Ermənistan rəhbərliyinin Tehranda danışıqlar apardığı, atəşi dayandırmağı tələb etdiyi vaxtla üst-üstə düşür və bağlanan sülh müqaviləsi mürəkkəbin quruduğu ana qədər qüvvədə qalmışdır. Bununla yanaşı, ermənilər həmişə olduğu kimi, hücum ərəfəsində bütün dünyaya Şuşadan Xankəndinə güclü hücumlar edilməsi barədə dezinformasiya yaymışdılar.

Bu hadisə mütəmadi şəkildə BMT Nizamnaməsini və ATƏT-in prinsiplərini kobud şəkildə pozaraq Qarabağın dağlıq hissəsini zorla Ermənistana ilhaq etməyə çalışan Ermənistan hökumətinin beynəlxalq hüquq normaları ilə bir araya sığmayan və təcavüzkar siyasətinə sadiq qaldığını bir daha təsdiq etdi. Şuşanı ələ keçirməklə Ermənistan bu problemi yalnız hərbi-taktiki baxımdan həll etmiş oldu. Problemin siyasi həlli isə getdikcə dərinləşərək çətin məcraya salındı. Məhz Şuşanın işğalı sonralar digər Azərbaycan ərazilərinin itirilməsində əsas rol oynadı.

Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi Şuşa şəhərinin işğalından sonra, erməni hərbi qüvvələri Şuşa-Laçın yolunu bağlayaraq birbaşa Ermənistan Respublikası ərazisindən Laçın şəhərini güclü top atəşinə tutdular. Erməni hərbi qüvvələrinin məqsədi işğal etdikləri Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan Respublikasına birləşdirmək üçün onların arasında dəhliz açmaq idi. Bu yolda iki respublikanın arasında yerləşən Azərbaycan şəhəri - Laçın əsas maneə idi. Şuşa işğal edildikdən az sonra, ermənilər qısa müddət ərzində, yəni mayın 18-də Laçın şəhərini də zəbt etdilər. Nəticədə, 1385 $km^2$ ərazisi, 71 000 nəfər əhalisi və 120 kəndi olan Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu [2.S.148] .

Beləliklə, "öz müqəddəratını təyin etmək" ideyasını reallaşdırmaq adı altında Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistanla birləşdirən dəhliz silah gücünə ələ keçirildi. Laçının işğalı müharibənin Dağlıq Qarabağ hüdudlarından çıxdığını və Ermənistanın hərbi işğalçılıq niyyətinin böyiik olduğunu göstərdi. Ermənilərin "humanitar dəhliz" adlandırdığı bu yol ilə Dağlıq Qarabağa külli miqdarda silah, döyüş sursatı və hərbi qüvvə gətirildi.

Nəticədə, 1993-cü il ərzində Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4,4 min $km^2$) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali (ümumi əhalinin 15%-i) öz torpağında qaçqın vəziyyətinə düşdü, 900-ə yaxın yaşayış məntəqəsi dağıdıldı, talan edildi və yandırıldı. Hazırda Azərbaycan ərazisinin 20 %-dən çox (17 min $km^2$) hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur [2,8. 157].

1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfər azərbaycanlı həlak olmuş, 100 000 nəfərdən çoxu yaralanmış, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur. Münaqişə dövründə 4853 nəfər itkin düşmüş,

onlardan 1357 nəfəri əsirlikdən azad edilmiş, 783 nəfəri isə hələ də Ermənistanda əsirlikdədir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə 439 nəfər əsirlikdə ölmüşdür [2,s.l 57].

Torpaqlarına təcavüz olduqdan sonra da, Azərbaycan Respublikası bütün vasitəçilik missiyalarından imtina etməyərək, problemin BMT və ATƏT prinsipləri çərçivəsində həllinə tərəfdar olduğunu bir daha nümayiş etdirdi. 1992-ci ilin mayın 31-də Romada ATƏT-in Minsk qrupunun danışıqları seriyasından ilkin mərhələ başlandı [4,s.l4]. Romada 11 ölkənin-ABŞ, Türkiyə, Rusiya, Fransa, İtaliya, İsveç, Çexiya, Slovakiya, Belorus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilən görüş bir növ Dağlıq Qarabağa dair Minsk konfransına hazırlıq məqsədi daşıyırdı. Lakin, Ermənistan ordusunun Şuşa və Laçını işğal etməsi sülh missiyasını öz üzərinə götürmüş Minsk konfransının keçirilməsi yolunda maneəyə çevrildi.

Buna baxmayaraq, Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir. Lakin münaqişə başlayandan keçən dövr ərzində aparılan danışıqlarda təcavüzkar Ermənistan öz qeyri-konstruktiv mövqeyindən geri çəkilmir.

Artıq 17 ildir ki, Pənah Əli xan, İbrahimxəlil xan, Molla Pənah Vaqif, Nəcəf bəy Vəzirov, Əbdülrəhim bəy Haqverdiyev, Xan qızı Xurşudbanu Natavan, Üzeyir bəy Hacıbəyli, Əhməd bəy Ağayev, Yusif Vəzir Çəmənzəminli, Xan Şuşinski, Bülbül, Rəşid Behbudov və onlarca görkəmli xadimlərin nigaran ruhu vətən övladlarını haraya səsləyir.

**Ədəbiyyat**

1.Dağlıq Qarabağ: Zəka qalib gələcək /sənədlər və materiallar/ - Bakı, «Azərnəşr», 1989, 464 s.
2. Hacıyev N. Dağlıq Qarabağın tarixindən sənədlər. Bakı, 2005, -192s.
3. Əliyev İ. Dağlıq Qarabağ: Tarix, faktlar, hadisələr. Bakı, «Elm», 1989, 120 s
4.Əhmədəv E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998, -138s.
5.Əhmədəv E.İ. Şuşanın tarixi, siyasi və hərbi-strateji əhəmiyyəti. "Qarabağ dünən, bu gün, sabah". 7-ci elmi-əməli konfransın materiallar toplusu. Bakı, 2008, -264s.
6.Kəngərli Q. Erməni lobbisi və Azərbaycan faciəsi. Bakı, «Yazıçı», 1992,280 s.
7Səmədzadə Z. Dağlıq Qarabağ: naməlum həqiqətlər. Bakı, "Vətən. 1995,83c.
8.Sultanov Z. Qarabağın qara günləri. Bakı, «Yazıçı», 1992, 152 s.
9.Sultanov Z. Qarabağ gündəliyi. Bakı, «Yazıçı» 1991, 119 s .
10. Sultanov Z. Xocalı faciəsi. Bakı, «İşıq», 1993, 104 s.
11. Исмаилов М. Правда об армянской агрессии. Баку, "Азер-нешр М 996,108c.

12.Конфликт в Нагарном Карабахе: Сборник статей. Баку, "Азернешр", 1990, 272 с.
13. Помпеев Ю. Кровавый омут Карабаха. Баку, "Азербайджан",! 992,208 с.
14. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XX1 вв.). Баку, 2002, -395с.
15. Салех бей. Армянство. Баку, "Элм'\ 1994, 440 с.
16. События вокруг ИКАО в кривом зеркале фальсификаторов (Сборник материалов). - Баку, "Элм" 1989, 92 с.
17. Трагедия виновников который невозможно оправдать. Баку, "Свобода", 1992, 16 с.
18. Ходжалы. Хроника геноцида. Баку, "Азернешр", 1993,144 с.
19. Черный январь. Баку-1990: Документы и материалы. Баку, "Азернешр", 1990,288 с.
20. Шарифов А. Прорыв информационной блокады. Баку ДЯзычы ", 1992,200с.

**Elçin Əhmədov**

## ERMƏNİSTANIN TƏCVÜZKARLIQ SİYASƏTİ VƏ ATƏT

1992-ci illərin əvvəllərindən başlayaraq Ermənistan-Azərbaycan münaqişəsi daha çox beynəlxalq əhəmiyyətli problemə çevrildi. 1992-ci il yanvarın 30-da Azərbaycan Respublikası ATƏM-in üzvü oldu və həmin il iyulun 8-10-da adı çəkilən təşkilatın Helsinkidə keçirilən Zirvə toplantısında onun sənədlərini imzaladı [2, s. 12].

Müstəqilliyini əldə edən Azərbaycan Respublikası ATƏM-in üzvü olduqdan sonra Ermənistan-Azərbaycan münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv olan dövlətlərin daha çox diqqət obyektinə çevrildi. Bu məqsədlə fevral ayının ortalarında ATƏM-in xüsusi missiyası Azərbaycanda oldu. Fevralın 27-28-də ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) Praqada keçirilən 7-ci iclasında münaqişə bölgəsində olan missiyanın məruzəsi dinlənildi. Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsub olmasını təsdiq edən sənəddə, sərhədlərin dəyişdirilməməsi şərti ilə, münaqişənin sülh yolu ilə həllinə çağırış öz əksini tapdı [10].

ATƏM-in YVŞK-nin martın 13-14-də Helsinkidə keçirilən 8-ci iclasında Dağlıq Qarabağ münaqişəsinin davam etməsi və onun dinc siyasi vasitələrlə aradan qaldırılması yolları müzakirə olundu. Bu görüşdən sonra ATƏM-in YVŞK-nin sədri Yan Kubişin başçılıq etdiyi nümayəndə heyəti martın 19-23-də ikinci dəfə münaqişə bölgəsinə səfər etdi [16]. Dağlıq Qarabağ, Bakı və Yerevanda olan nümayəndəliyin məqsədi Qarabağda atəşin dərhal dayandırılması, ATƏM müşahidəçilərinin münaqişə bölgəsində yerləşdirilməsi imkanlarını öyrənmək idi.

1992-ci il martın 23-24-də Helsinkidə ATƏM-in YVŞK-nin 9-cu iclasında münaqişə bölgəsində atəşi dərhal dayandırmaq və münaqişə edən bütün tərəfləri ATƏM çərçivəsində Dağlıq Qarabağa dair sülh konfransının tezliklə keçirilməsi üçün hər cür şərait yaratmağa çağırdılar [19].

ATƏM-in Xarici İşlər Nazirləri Şurasının martın 24-də keçirilən birinci əlavə görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə olundu. ATƏM-in Nazirlər Şurası YVŞK-nin zəmanəti əsasında münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində aparılan danışıqların səmərəliliyini təmin etmək üçün ATƏM-in Dağlıq Qarabağa dair sülh konfransının çağırılması haqqında qərar qəbul etdi. Sənəddə göstərilirdi ki, Minskdə çağırılacaq konfrans ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya, İsveç, Belarus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilsin [9].

1992-ci il mayın 1-də ATƏM-in YVŞK-nin Helsinkidə keçirilən 10-cu iclasında Dağlıq Qarabağa dair konfransın təşkili, iclasların keçirilməsi şərtləri, sədrin səlahiyyətləri və s. haqqında YVŞK-nin qərarı qəbul edildi. Minsk Konfransının reallaşması üçün yaradılan eyni adlı qrup münaqişənin nizamlanması istiqamətində fəaliyyət göstərməli, münaqişə həll ediləndən sonra isə məsələnin həllində neytral, regionda maraqlı dövlət olmadığını nəzərə alaraq Belarusun paytaxtı Minsk şəhərində konfransa üzv olan dövlətlər toplanmalı və Yekun sənədi qəbul etməli idilər. ATƏM-in Xarici İşlər Nazirləri Şurası Minskdə keçiriləcək konfransa hazırlıq məqsədilə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar görüş keçirmək və məsələni həll etmək barədə Mario Rafaelliyə mandat verdi.

1992-ci il mayın 7-də ATƏM-in Dağlıq Qarabağa dair Minsk Konfransının sədri M.Rafaelli başda olmaqla ATƏM-in nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Səfər zamanı o, bildirdi ki, regionda sülhün tezliklə bərqərar olması üçün atəş uzun müddətə kəsilməli, iyunun ortalarında keçiriləcək konfransın çağırılması şərtləri və subyektləri müəyyənləşdirilməlidir. Azərbaycan tərəfi bildirdi ki, Dağlıq Qarabağ nümayəndələri ancaq Azərbaycan nümayəndə heyətinin tərkibində konfransda iştirak edə bilərlər [18].

1992-ci il mayın 8-də Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə Ermənistan ordusu tərəfindən bütün yuxarı Qarabağ işğal edildi. Bundan sonra erməni hərbi qüvvələrinin qarşısında duran vəzifə işğal etdikləri Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan Respublikasına birləşdirmək üçün onların arasında dəhliz açmaq idi. Bu yolda iki respublikanın arasında yerləşən qədim Azərbaycan şəhəri Laçın əsas maneə idi. 1992-ci il mayın 17-də Laçın şəhəri də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Beləliklə, "öz müqəddəratını təyin etmək" ideyasını reallaşdırmaq məqsədilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistanla birləşdirən dəhliz silah gücünə ələ keçirildi. Laçının işğalı müharibənin Dağlıq Qarabağ sərhədlərindən çıxdığını və Ermənistanın hərbi işğalçılıq niyyətinin böyük olduğunu göstərdi. Ermənilərin "'humanitar dəhliz"

adlandırdığı bu yol ilə Dağlıq Qarabağa külli miqdarda silah, döyüş sursatı və hərbi qüvvə gətirildi [5, s.5].

Nəticədə, bir il müddətində Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin sərhədlərindən kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali öz torpağında qaçqın vəziyyətinə düşdü. Yüzlərlə yaşayış məntəqəsi dağıdıldı, talan edildi və yandırıldı. Hazırda Azərbaycan ərazisinin 20%-dən çox hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur.

1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı nəinki münaqişənin hərbi tərəfini, eyni zamanda onun mahiyyətini də dəyişərək yeni siyasi problem yaratdı və sülh missiyasını öz üzərinə götürmüş Minsk konfransının keçirilməsi yolunda maneəyə çevrildi.

1992-ci il iyunun 1-dən 5-dək Romada Minsk Qrupunun danışıqları seriyasından ilk mərhələ başlandı. Romada 11 ölkənin - ABŞ, Türkiyə, Rusiya, İtaliya, Fransa, Almaniya, İsveç, Çexiya-Slovakiya, Belarus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilən görüş iyunun 23-də Minskdə açılması nəzərdə tutulan beynəlxalq konfransa hazırlıq məqsədi daşıyırdı [5, s. 14].

Roma görüşündə Minsk Konfransının keçirilməsinə əngəl törədən erməni təcavüzü barədə məsələ müzakirə olundu. Konfransın qəbul edilməmiş sənədlərində "Laçından hərbi hissələrin çıxarılması", "Qaçqınların Laçına qaytarılması", "Şuşadan qoşunların çıxarılması", "Bu məsələlərin icrasına nəzarət etmək üçün beynəlxalq müşahidəçilərin yerləşdirilməsi" və s. kimi bəndlər var idi. Təklif edilmişdi ki, ATƏM-in Minsk Konfransı ərəfəsində, bu konfransın çağırılması haqqında qərar qəbul edilərkən mövcud olan, yəni Laçının tutulmasından əvvəlki vəziyyətə qayıtmaq lazımdır. Ancaq Ermənistan nümayəndələrinin konsensusa gələ bilmədiklərindən həmin sənəd qəbul edilmədi. 1992-ci il iyunun 15-dən 20-dək Romada Minsk Qrupunun danışıqları seriyasından keçirilən ikinci mərhələdə erməni tərəfi konfransın Laçın və Şuşanın işğalı ilə bağlı əvvəlki dörd bəndlik sənədinə Goranboy və Ağdərənin adlarını əlavə etməyi tələb etdilər [6, s.124].

ATƏM çərçivəsində M.Rafaellinin başçılığı altında 11 dövlətin iştirakı ilə Romada 1993-cü il fevralın 26-dan martın 1-dək Minsk Qrupu danışıqlarının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə həsr edilmiş növbəti mərhələsində tərəflər münaqişə zonasına müşahidəçilər qrupunun göndərilməsi haqqında razılığa gəldilər [17]. Çox gərgin keçən danışıqlardan sonra tərəflər arasında saziş imzalandı. Qərara alındı ki, atəşin dayandırılması müddətləri, ATƏM-in atəşin dayandırılması üzrə müşahidəçilər missiyasının işə başlaması və Minsk Konfransının rəsmən açılması ilə bağlı maddələr də daxil olmaqla sülh danışıqları prosesinin konkret sənədləri barədə saziş imzalamaq üçün Minsk Qrupunun 1993-cü ilin aprel ayında

daha bir görüşü keçirilsin. İmzalanan saziş aprelin 26-da keçiriləcək ATƏM-in YVŞK-nin iclasında bəyənilməli idi [6, s.124].

Ermənistan silahlı qüvvələrinin geniş miqyaslı hücumu nəticəsində 1993-cü il martın 27-dən aprelin 3-dək Azərbaycanın Kəlbəcər rayonunun işğalı münaqişəni keyfiyyətcə başqa səviyyəyə keçirdi. Ermənistan Respublikasının bu təcavüzü Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənarda yerləşən ərazilərinin intensiv surətdə işğal edilməsinin yeni mərhələyə - işğalçılıq mərhələsinə keçməsinə sübut idi.

Çox təəssüf ki, dünya birliyi Ermənistanın bu açıq-aşkar təcavüzkarlığına göz yumdu və təcavüzkarın cilovlanması üçün heç bir əməli tədbir görmədi. 1992-1993-cü illərdə münaqişəni nizama salmaq üçün BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr zamanı və sənədlər qəbul edilərkən Şuranın daimi üzvləri olan böyük dövlətlər Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşməsinin səbəblərinin, xarakterinin və məzmununun qiymətləndirilməsinə birmənalı yanaşmadılar. Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü "Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə" kimi qiymətləndirdi. Şuranın daimi üzvüləri münaqişəyə Azərbaycanla Dağlıq Qarabağ arasında olan münaqişə kimi baxırdılar. BMT TŞ-nın 822, 853, 874, 884 saylı qətnamələri qəbul edilirkən Şuranın daimi üzvü olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək münaqişənin ATƏT-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasına üstünlük verdilər. Cəzasız qaldığından ruhlanan və bundan istifadə edən Ermənistan tərəfi BMT TŞ-nın münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı.

Vyanada ATƏM-in Minsk Qrupu tərəfindən BMT TŞ-nın 822, 853 və 874 saylı qətnamələrinin yerinə yetirilməsinə dair "Təxirəsalınmaz tədbirlərin dəqiqləşdirilmiş cədvəli" yenidən tərəflərin müzakirəsinə verildi. "Vyana cədvəli" prinsipcə "Paris cədvəli"ndən o qədər də fərqlənmirdi. Bu "Cədvəl"də Dağlıq Qarabağ ermənilərinin qeyri - konstitusiya qurumu statusu alması, yəni danışıqlar prosesində Dağlıq Qarabağ ermənilərinin "münaqişə iştirakçısı olan tərəf" səviyyəsinə qaldırılması Azərbaycanın mənafeyinə zidd idi [7].

ATƏM-in Minsk Qrupunun bu illərdəki fəaliyyətinə nəzər salsaq, demək olar ki, onun BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini yerinə yeritmək üçün hazırladığı "Təxirəsalınmaz tədbirlər cədvəli" heç bir təsir gücünə malik deyildi. ATƏM-in başlıca çatışmazlıqlarından biri də, məhz ATƏM çərçivəsində və onun himayəsi altında müqaviləni yerinə yetirməkdən imtina edən tərəfə qarşı sanksiya qəbul etmə mexanizminin olmaması idi. Minsk Qrupu tərəfindən qəbul edilən sənədlər yalnız məsləhət və ya tövsiyə xarakteri daşıyırdı. ATƏM-də tətbiq olunan qarşılıqlı güzəşt prinsipi müqaviləni pozan tərəfə öz əməllərinə görə məsuliyyət daşımamaq imkanı verirdi. Buna görə də ATƏM tərəflərin razılığı ilə münaqişə bölgəsinə müşahidəçilər qrupu göndərə bilərdi. 1992-1993-cü illər

ərzində Minsk Qrupunun qəbul etdiyi yeganə konstruktiv sənəd də məhz münaqişə bölgələrində beynəlxalq hərbi müşahidəçilərin yerləşdirilməsini nəzərdə tutan 1993-cü il 1 mart tarixli mandat idi. Bu illərdə hərbi əməliyyatların dayandırılması və münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏM-in və onun yaratdığı Minsk Qrupunun göstərdiyi səylər heç bir nəticə vermədi [5, s.25].

Torpaqlarına təcavüz olandan sonra da, Azərbaycan bütün vasitəçilik missiyalarından imtina etməyərək, problemin ATƏM prinsipləri çərçivəsində həllinə tərəfdar olduğunu bir daha nümayiş etdirdi. Münaqişənin dinc vasitələrlə nizama salınması üçün yaradılmış Minsk qrupu çərçivəsində aparılan danışıqlarda qarşı duran tərəflər arasında ziddiyyətlərin qalması, xüsusilə, Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması sülh prosesinin ləngidilməsinə və münaqişənin dondurulmuş vəziyyətdə qalmasına gətirilə çıxartdı.

Ermənistan-Azərbaycan münaqişəsinin vasitəçilik tarixinə nəzər salsaq və bunu şərti olaraq mərhələlərə bölsək, bu mərhələlərin hər biri xeyli dərəcədə Rusiya-Qərb qarşıdurması kontekstində qiymətləndirilə bilər. 1992-ci ilin martında Minsk qrupu yaradılan zaman Rusiya bu təşəbbüsü müdafiə etsə də, dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən münaqişənin nizama salınmasına dair vasitəçilik səylərinin fəallaşması Rusiya siyasi dairələrində narahatlıq doğurmağa başlamışdı. Belə bir vaxtda münaqişənin dinc vasitələrlə həlli prosesində Rusiya təşəbbüsü beynəlxalq təşkilatların və dünya dövlətlərinin əlindən almağa və bununla da regionda özünün zəifləmiş mövqelərini möhkəmləndirməyə cəhd göstərirdi.

Rusiya ATƏM-in Minsk qrupunun üzvü olsa da, 1993-cü ildə özünün müstəsna rolunu israr etməklə, istər BMT, istərsə də ATƏM çərçivəsində regionda "sülhün və sabitliyin təminatçısı" statusunu almağa səy göstərirdi. Rusiya ATƏM çərçivəsində vasitəçiliyi bitərəfləşdirməklə özünün münaqişənin nizama salınması planına aşkar üstünlük verirdi. Münaqişənin həllinə dair planlarda ATƏM ilə Rusiya arasında yaranmış fikir ayrılığı ondan ibarət idi ki, ATƏM münaqişənin nizama salınmasında çoxtərəfli vasitəçiliyin olmasını istəyir, sülh prosesinin beynəlxalq müşahidəçilərin nəzarəti altında aparılmasına və çoxmillətli sülhməramlı qüvvələrin formalaşmasına çalışırdı. Rusiya isə əksinə, münaqişənin nizamlanmasını öz nəzarətində saxlamaq və regionda geosiyasi maraqlarını təmin etmək üçün münaqişə bölgələrində yalnız rus qoşunlarının yerləşdirilməsini istəyirdi [5,s.29-30].

Lakin bu məqsədinə nail olmayan Rusiya Ermənistanda öz qoşunlarını yerləşdirmiş, onu gizli və aşkar yolla silahlandıraraq Azərbaycan ərazilərinin işğal olunmasına imkan yaratmışdır. 1997-ci ilin əvvəllərində Rusiyadan Ermənistana qanunsuz olaraq dəyəri 1 milyard dollardan çox olan müasir silahların verilməsi haqqında faktlar üzə çıxdı. Məlum oldu ki, bu silahlar 1993-cü ildən etibarən, yəni Ermənistan ilə Azərbaycan arasında qızğın hərbi əməliyyatlar getdiyi bir zamanda

göndərilməyə başlanmış və bu da Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsinə şərait yaratmış, sonralar atəşkəs elan ediləndən sonra da bu proses davam etmişdir.

1993-cü ilin oktyabrında ABŞ Rusiyanın bu iddialarına qarşı birmənalı şəkildə çıxış etməyə başladı. Əvvəlcə, Rusiya hərbi qüvvələrinə BMT sülhməramlı qüvvələri statusu verilməsinə qəti etiraz edildi. Sonra isə Rusiya bu məsələni 1993-cü ilin dekabrında Romada ATƏM-in Xarici İşlər Nazirləri Şurasının görüşündə həll etməyə çalışmış, lakin orada da istədiyi mandatı ala bilməmişdi. Qərbin kəskin mövqeyi ABŞ, Böyük Britaniya, Almaniya və Türkiyə dövlət nümayəndələrinin rəsmi bəyanatlarında da öz əksini tapdı. ABŞ-ın MDB dövlətləri üzrə koordinatoru Ceyms Kollinz Rusiyanın keçmiş SSRİ ölkələrinə təzyiqinin gücləndiyini və ABŞ-ın bunun əleyhinə olduğunu bildirdi. O, bəyan etdi ki, ABŞ Qarabağ münaqişəsi regionuna yalnız bir dövlətin qoşunlarının gətirilməsinə imkan verməyəcək. Dövlət Departamentinin bəyanatında da qeyd edilirdi ki, ABŞ münaqişənin yalnız ATƏM çərçivəsində həllinə üstünlük verir. Dağlıq Qarabağa dair danışıqlarda ABŞ-ın xüsusi nümayəndəsi olmuş Con Mareska isə Rusiyanın regionda nüfuzunu bərpa etmək istəyinə işarə edərək bildirdi ki, əgər Qərb, xüsusilə ABŞ biganə qalarsa, onda Rusiya məsələləri öz bildiyi kimi həll edəcək [11, s. 19].

Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınması ümummilli liderimiz Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutmuşdur. Bu məqsədlə 1993-cü ilin ikinci yarısından başlayaraq Prezident Heydər Əliyev respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Münaqişənin sülh yolu ilə həll edilməsi üçün Prezident Heydər Əliyevin ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda Ermənistan prezidenti ilə birbaşa danışıqlarda göstərdiyi səylər dövlət başçısının apardığı ardıcıl və məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir.

Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədi ilə məhz Prezident Heydər Əliyevin qətiyyəti, əzmkarlığı və gərgin fəaliyyəti sayəsində 1994-cü ilin mayın 12-də atəşkəs haqqında razılıq əldə edildikdən sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı [1, s. 199].

1994-cü ilin dekabrın 5-6-da ATƏT-in Budapeştdə keçirilən Zirvə toplantısında Prezident Heydər Əliyevin çevik diplomatiyasının təsiri isə "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" barədə qərar qəbul olundu [4, S.725-726J. Qəbul edilən sənəddə münaqişə bölgəsində sabitliyin təmin edilməsi üçün ATƏT-in çoxmillətli sülhməramlı

qüvvələrinin yerləşdirilməsi haqqında maddə də öz əksini tapdı. Bundan başqa, Budapeştdə həmsədrlik institutu da təsis edildi. Minsk konfransına iki həmsədrin təyin edilməsi və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul edildi [8, s.4-5]. Rusiyanın bu münaqişədə maraqlı tərəf olduğu nəzərə alınaraq ATƏM-in Minsk konfransında, o cümlədən Minsk qrupunda həmsədrlik Rusiya və Finlandiyaya tapşırıldı. Bu razılıq təkcə Budapeşt görüşünə qədər gərgin olaraq qalan Qərb-Rusiya münasibətlərinin yumşaldılması deyil, həm də münaqişənin həlli istiqamətində Rusiyanın "fərdi sülhpərvərlik" istəyinin qarşısının alınması idi.

1996-cı ilin dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısmda qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq-hüquqi bazasını təşkil etmiş olan sənəd Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq yolunda böyük siyasi nailiyyət sayıla bilər. Zirvə toplantısı zamanı Prezident Heydər Əliyevin gərgin əməyi və diplomatik istedadı sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini müəyyənləşdirən xüsusi bir sənəd qəbul edildi [4, s.726]. Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən və ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrənin xarici işlər naziri Flavio Kottinin adından verilən bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin Yekun sənədlərinə əlavə edildi [14,s.6].

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı Fransa və ABŞ nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu. 1997-ci ilin ikinci yarısından indiyə kimi Minsk qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət - yəni Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 6 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi ilə əlaqədar 3 təkliflə çıxış etmişlər [17].Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin "paket" (bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu) həlli, 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif münaqişənin "mərhələli" (bu variantda isə münaqişənin mərhələlərlə nizama salınması nəzərdə tutulurdu) həllindən iləarət idi [17]. Azərbaycan Prezidenti həmin planlara tam razı olmasa da, həmsədrlərin bu iki təklifini qəbul etdiyi halda, Ermənistan tərəfi qeyri-konstruktiv mövqedən çıxış edərək həmin təkliflərlə razılaşmadı [4, s.726].

1998-ci ilin noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qətiyyən qəbul edilməz olan və danışıqların davam etdirilməsinə imkan yaratmayan üçüncü təklifi irəli sürdülər [17]. Bu təklif dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən süni "ümümi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon Zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşılması demək idi.

ATƏT-in Minsk qrupunun son təklifindən Azərbaycan tərəfi

birmənalı şəkildə imtina etdikdən sonra, 1999-cu il fevralın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev Minsk qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa) başçılarına eyni məzmunlu məktubla müraciət etdi. Minsk qrupunun fəaliyyətini, xüsusilə həmsədrlərin axırıncı təklifini ciddi surətdə tənqid edən Azərbaycanın dövlət başçısı "ümumi dövləf ideyasının ATƏT-in prinsiplərinə uyğyn olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı, ABŞ, Fransa və Rusiya dövlət başçılarını münaqişənin ədalətlə və tezliklə aradan qaldırılması üçün səylərini ciddi surətdə artırmağa çağırdı [19]. "Ümumi dövlət prinsipi nizamasalma prosesinə ciddi maneə törətməklə yanaşı, münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyətləri daha da dərinləşdirdi. Nəticədə, danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı.

Ümumiyyətlə, 1992-ci ildən başlayaraq ATƏT-in Minsk Qrupu çərçivəsində aparılan danışıqlar və bu qurumla qarşılıqlı əməkdaşlıq Prezident Heydər Əliyevin ciddi səyləri ilə Azrəbaycanın xarici siyasət kursunun mühüm tərkib hissələrindən birinə çevrilmişdir. Yalnız, onu qeyd etmək kifayətdir ki, 1993-2003-cü illər ərzində Azərbaycanın dövlət başçısı ATƏT-in rəhbərliyi və Minsk qrupunun nümayəndələri ilə 140-a qədər görüş keçirilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək 2003-cü il oktyabrın 15-də Azərbaycan Prezidenti seçildiyi ilk gündən Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasına xüsusi diqqət yetirən cənab İlham Əliyev bu məsələdə yalnız respublikamızın milli və dövlətçilik maraqlarını daim üstün tutduğunu nümayiş etdirmişdir. Azərbaycan prezidenti bütün xarici səfərlərdə, eləcə də Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç zaman razılaşmayacağını, ehtiyac yarandığı halda, hərbi əməliyyatların başlanmasına qərar verəcəyini vurğulamışdır. Bununla yanaşı, Azərbaycanın dövlət başçısı münaqişəni dinc vasitələrlə nizama salınmasının tərəfdarı olduğunu bildirmiş, beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir.

Belə ki, 2004-cü il fevralın 4-də ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerin Azərbaycana səfəri zamanı dövlət başçısı İlham Əliyev qeyd etdi ki, münaqişənin nizama salınması prosesində əsas vasitəçi olan ATƏT-in Minsk qrupu ilə yanaşı, digər beynəlxalq qurumlar - ATƏT-in Parlament Assambleyası, Avropa Şurası və Avropa İttifaqının da fəaliyyətinin gücləndirilməsi böyük əhəmiyyətə malikdir [17]. ATƏT-in Parlament Assambleyasının fevralın ortalarında keçirilən iclası zamanı Qoran Lenmarkerin məruzəsində Azərbaycanın ərazi bütövlüyü dəstəklənmiş və işğal olunmuş ərazilərin qaytarılmasının zəruriliyi ön plana çəkilmişdir [17].

2004-cü ilin martın 16-da ATƏT-in fəaliyyətdə olan sədri, Bolqarıstanın

xarici işlər naziri Solomon Passinin Azərbaycana səfəri zamanı dövlət başçısı cənab İlham Əliyevlə görüşündə Minsk qrupunun konkret təkliflərinin olmadığını və hər iki dövlətin prezidentlərinin dialoqundan çox şey gözlədiyini bəyan etdi [19]. Son zamanlar Minsk qrupu həmsədrləri də problemin məhz Azərbaycan və Ermənistan rəhbərlərinin qarşılıqlı anlaşması sayəsində həll oluna biləcəyini dəfələrlə vurğulamışlar. Onu da qeyd etmək vacibdir ki, münaqişə başlayandan həqiqətən qarşılıqlı anlaşma mövcud olsaydı, heç Minsk qrupunun fəaliyyətinə də ehtiyac duyulmazdı. Çünkü tərəflərin bir-birinin şərtlərini qəbul etməməsi, xüsusilə Ermənistanın daim qeyri-konstruktiv mövqedən çıxış etməsi danışıqların nəticəsiz, münaqişənin isə həll olunmamış qalmasına gətirib çıxarmışdır.

Məhz bu səbəbdən də dövlət başçısı cənab İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrini qəbul edərkən bir daha Minsk qrupunun fəaliyyətini tənqid etmiş və Azərbaycanın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş prinsiplərə sadiq qalaraq, münaqişənin yalnız beynəlxalq hüquq normaları əsasında respublikamızın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirmişdir.

ATƏT-in Minsk qrupunun sonuncu təklifindən 10 ildən çox vaxt keçməsinə baxmayaraq, Minsk qrupu indiyə qədər heç bir yeni təkliflə çıxış etməmişdir. Buna baxmayaraq Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir. Lakin münaqişə başlayandan keçən dövr ərzində aparılan danışıqlarda təcavüzkar Ermənistan öz qeyri-konstruktiv mövqeyindən geri çəkilmir.

Çox təəssüf ki, yarandığı vaxtdan etibarən ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, indiyə qədər bu qurumun fəaliyyəti sülh prosesində arzu olunan nəticəni verməmişdir. ATƏT çərçivəsində yaradılan Minsk qrupu və bu qrupa rəhbərlik edən ABŞ, Fransa və Rusiya kimi böyük dövlətlər münaqişənin dondurulmuş şəkildə qalmasında məsuliyyət daşımamış və təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmamışlar. Bununla yanaşı, münaqişədə Ermənistanın Azərbaycana təcavüzündən birbaşa danışmadan, qəbul edilən sənədlərdə bu barədə heç nə demədən münaqişənin ədalətli həlli yolunda müsbət irəliləyişə nail olmaq çətindir. Eyni zamanda təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in nüfuzuna xələl gətirməklə bərabər, onun tərkibində yaradılan Minsk qrupuna olan ümidləri də heçə endirir.

Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması istiqamətində beynəlxalq təşkilatların səyləri ilə yanaşı, 1999-cu ilin aprelindən başlayaraq, yeni formada addımlar atılmışdır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqunun aparılması oldu. Həmin vaxtdan bu günə qədər iki respublikanın prezidentləri Moskvada, Vaşinqtonda, Cenevrədə, Yaltada, İstanbulda, Davəsda, Nyu-Yorkda, Minskdə, Parisdə, Ki-Uestdə, Soçidə, Kişinyovda, Praqada, Strasburqda,

Varşavada, Astanada, Kazanda, Rambuyedə, Buxarestdə, Sankt-Peterburqda, Surixdə və habelə iki respublikanın sərhəddi - Sədərəkdə 30-dan çox görüş keçirmişlər.

Ancaq çox ağır və çətin keçən danışıqlar zamanı Azərbaycan tərəfi öz haqlı mövqeyini müdafiə edərkən bir sıra çətinliklərlə qarşılaşır. Çünki münaqişə başlayandan keçən dövr ərzində aparılan danışıqlarda təcavüzkar Ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətindən əl çəkmir. Digər tərəfdən isə, dünya birliyinin "ikili standartlar" prinsipindən çıxış etməsi, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsi danışıqlar prosesində irəliləyişin əldə olunmasına maneə törədir.

Ona görə də beynəlxalq birlik təcavüzün qarşısını almaq üçün BMT Nizamnaməsinin 7-ci fəslinə müvafiq tədbirlər görməlidir. Əgər böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istəyirlərsə, qəti praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər. Təcavüzkarın qarşısı alınmazsa, son vaxtlar Avropanın mərkəzində, o cümlədən Cənubi Qafqazda sabitliyin bərqərar edilməsinə yönəldilmiş səylər münaqişənin bütün regiona yayılması nəticəsində heçə endirilə bilər.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, s. 199
2. Dövlət başçılarının Helsinki görüşü. Helsinki, 8-10 iyul 1992: Sənədlər və materiallar, Bakı, «Şərq-Qərb», 1992, 40 s.
3. Həsənov Ə. Azərbaycan və ATƏT: Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ümumavropa təhlükəsizliyi fonunda. Baku «İşıq», 1997, 80 s.
4. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik-Bakı, 2005, -752s.
5. Əhmədəv E.İ. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, 1998,-138s.
6. Маммадов И.М., Мусаев Т.Ф. Армяно-азербайджанский конфликт: история, право, посредничество. Баку, 2008, -196с
7. Adjusted Timetable of Urgent Steps to İmplement U.N. Security Council Resolutions 822, 853 and 874. November 12, 1993.
8. CSCE. Budapest Document 1994. Towards a Genuine pornership in a new era. Budapest, 1994, 35 p.
9. CSCE. First Additional meeting of the Council. Helsinki, 24 March, 1992, CSO. Journals 3, p. 1-3.
10.CSCE Seventh meeting of the Committee of Senior Officials. Prague. 27-28 February, 1992, CSO. Journal N 2, p. 1-4.
ll.Maresca J.J. Agony of Indifference in Nagorno-Karabakh. "The Christian Science Monitor". Boston. June 27, 1994, p. 19.

12.0SCE. Istanbul Summit Declaration. Istanbul, 1999, 15 p.
13.0SCE. Handbook. Vienna, Published by the Secretariat of the Organization for Security and Co-operation in Europe, 1999, 197 p.
14.0SCE. Lisbon Dəcument 1996. Lisbon, 1996, 7 p.
15.Political Handbook of the World: 1995-1996. New York, CSA Publications State University of New York. Binghamton. 1996, 1311 p.
16.Report of the Second CSCE Mission on Nagorno Karabakh. CSCE. Helsinki, 24 March, 1992.
17."Azərbaycan" 3 mart 1993-cu il
18."Azərbaycan", 21 fevral 2001-ci il
19. "Azərbaycan", 5 fevral 2004-cii il
20." "Azərbaycan", 13 mart 2004-cü il
21.«Həyat», 9 may l992-ciil
22.«Xalq qəzeti», 27 mart 1992-cı il
23.«Xalq qəzeti», 17 aprel 1999-cu il
24.«Xalq qəzeti», 17 mart 2004-cü il

**Əbdül Səfabəyli**

## QARABAĞ DÜYÜNÜNÜN ƏLACI-ŞAHMAT VARİANTI

Qarabağ probleminin Sülh- Danışıqlar yolu ilə həlli və əgər bu baş tutmasa Müharibə.

Və bir də... Şahmat variantı. Bu variantın yaranmasının obyektiv səbəbləri var. Məsələ burasındadır ki, illər ötdükcə Qarabağ konflikti böyüyüb beynəlxalq miqyasda həll oluna bilməyən problemə çevriləndən sonra onun yaxın zamanlarda çözüləcəyinə inam, demək olar ki, itib. Odur ki, hər bir Azərbaycan vətəndaşını belə bir fikir narahat edir: nə vaxtsa bu münaqişəni real həll etmək mümkün olacaqmı?

Heydər Əliyevin Milli Qəhrəman ailələri ilə görüşlərdən birində etdiyi müraciət belə səslənmişdi: "Qarabağ münaqişəsi ilə əlaqədar təklifləriniz varsa, verin..."

Beləliklə də, bizim Şahmat variantına çıxmağımızda elə bir təsadüf yoxdur. Bizim təşkilatın nəzdində fəaliyyət göstərən Siyasi Araşdırmalar

Qrupu (SAQ) Şahmat variantının hazırlanması ilə məşğul olub. SAQ-ın yaranması da bilavasitə Şahmat variantı ilə əlaqədardır: bir neçə il əvvəl bizim təşkilatımızda Qarabağ münaqişəsi ilə əlaqədar gedən saysız - hesabsız müzakirələrin və hətta bəzi vaxt səs-küyə səbəb olan mübahisələrin səngiməsi üçün məhdud sayda üzvləri olan SAQ yaradıldı və ona tapşırıldı ki, Qarabağ Probleminin Optimal Həlli (QPOH) variantını işləyib hazırlasın.

2005-ci ilin əvvəllərində SAQ QPOH barədə təkliflər toplusunu rəhbərliyə təqdim etdi (QPOH dedikdə, bütün tərəflərin maraqlarını eyni dərəcədə təmin edən,

yəni Azərbaycana, Ermənistana, Rusiyaya və Amerika Birləşmiş Ştatlarına EYNI DƏRƏCƏDƏ sərfəli bir həll yolu nəzərdə tutulur).

Ad şərti olsa da, havadan alınmayıb... İlk dəfə şahmat oynayanlar adətən, bir gediş etdikdən sonra rəqibin hansı gediş edəcəyini gözləyirlər ki, ona əsasən növbəti gediş etsinlər. Hal-hazırda Azərbaycan Prezidentinin vəziyyəti əslində təzə-təzə oynamağa başlamış şahmatçının vəziyyətindən də ağırdır, çünki o beynəlxalq təşkilatların və fövqəldövlətlərin tələblərinə əsasən Qarabağ konfliktinin həlli ilə əlaqədar atmaq istədiyi hərbiraddımı barədə... Ermənistan prezidenti ilə məsləhətləşmələr aparmalı və ancaq razılıq əldə olunandan sonra (?!) növbəti addımı atmalıdır... Dünya Şahmat tacı uğrunda beynəlxalq qrossmeysterlər arasında gedən matçda isə vəziyyət tamam başqa cür olur: şahmatçı ən azı 15 -20 gedişini əvvəldən özü üçün dəqiqləşdirir və bu gedişlərin müqabilində oyunda hansı mövqe üstünlüyünə nail olacağını bilir. İndi gəlin təsəvvür edək ki, Prezidentimiz Şahmat variantı üzrə Qarabağ münaqişəsini tamamilə həll edəcək təxminən 60-70 gedişi əvvəldən qərarlaşdırıb. Özü də Şahmat variantı tez-tez deyildiyi kimi tərəflər arasında konsensus, yəni qarşılıqlı razılıq əsasında yox, ancaq Azərbaycan Prezidentinin TƏKBAŞINA ATACAĞI ADDIMLAR HESABINA həyata keçirilir. Bu addımlar hər cür avantüradan uzaq və tamamilə real addımlar olacaq. Ən başlıcası isə Prezidentimizin atacağı addımlardan nə Ermənistanın, nə də Rusiya ilə ABŞ-ın əvvəldən xəbəri olmamalıdır, çünki hər üç dövlətdə münaqişənin həll olunmasında maraqlı olmayan böyük qüvvələr var və onlar Azərbaycanın həyata keçirdiyi tədbirləri əngəlləmək üçün hər cür vasitədən istifadə edərlər. Hətta... Keçən əsrin 80-cı illərində şahmat tacı uğrunda gedən matçın gedişində məşqçilərdən biri çox böyük miqdarda pulun müqabilində şahmatçının gedişlərini rəqib tərəfə verməyə razı olmuşdu. Sirr deyil ki, elə bizim Azərbaycanda da Qarabağ probleminin hələ uzun müddət bu vəziyyətdə qalmasını istəyənlər, pulun xatirinə hər cür hərəkətə razı olanlar var.

Bizim təklif etdiyimiz yeganə optimal variantdır, çünki yuxarıda qeyd etdiyim kimi Şahmat variantı məlum Danışıqlar – Sülh və Müharibə variantlarından məhz onunla fərqlənir ki, bu zaman atılan hər bir addım və ən nəhayət, nəticə maraqlı tərəflərin hər birinə eyni dərəcədə sərfəlidir.

Azərbaycanda Qarabağ problemini həlli ilə əlaqədar atılan addımlara görə Prezidentin, müxalifətin və xalqın mövqeyi adətən, bir -birinə çox yaxın olur. Hadisələrin gedişində Rusiya və ABŞ-ın mövqelərinin də Azərbaycanın mövqelərinə tamamilə yaxınlaşması mümkündür. Amma gəlin bir anlıq erməni tərəfə baxaq. Çox vaxt bir -birinin sözünü eşitməyən, bir -biri ilə hesablaşmayan qüvvələr: Ermənistan iqtidarı, erməni müxalifəti, güclü erməni diasporu, erməni terror təşkilatları, erməni xalqı. Hələ "Daşnaksütun" tipli şovinist partiyaları və təşkilatları demirəm. Deməli Qarabağ problemini həlli zamanı nəticə bütün bu qüvvələrə eyni dərəcədə sərfəli olmasa, geci-tezi Azərbaycanla Ermənistan arasında bağlanmış Sülh Müqaviləsi pozulacaq.

Sülh variantının bir əmması da var: tez-tez hər iki tərəfin güzəştə getməsinin vacibliyini qeyd edirlər. Bu məsələdə xırda bir güzəşt xalq arasında səs-küy, son nəticədə qarşısı alınmaz etiraza çevrilə bilər. Odur ki, erməni tərəfi Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını özləri həll etməsinə haqqı olduğunu bəhanə edib, Azərbaycanın Dağlıq Qarabağ qondarma respublikasının müstəqilliyini tanımasını, Azərbaycan isə torpaqlarımızın işğal olunduğunu göstərib, Ermənistan ordusunun Azərbaycan ərazilərini tərk etməsini tələb edir. Və bu bir-birindən güzəşt tələb etmə ilə gedən Danışıqlar prosesi 15 ildir davam edir və ucu- bucağı da görünmür.

Danışıqların belə uzanması ancaq Rusiya üçün sərfəlidir. Və o danışıqlar prosesinin uzun illər davam etməsinə şərait yaradır ki, region respublikaları üzrə iqdisadi cəhətdən dəfələrlə üstün və siyasi cəhətdən stabil vəziyyətdə olan Azərbaycana müstəqil siyasət yeritməyə imkan verməsin.

Müharibə variantı barədə heç danışmaq istəməzdim. Hərçənd Ermənistanın öz xoşu ilə torpaqlarımızı geri qaytarmaq fikri olmadığına görə müharibə tərəfdarlarını qınamıram. Ancaq nə ərazi, nə də tarixi cəhətdən çox uzağa getməyək: gözümüzün qabağında Gürcüstanın Rusiya ilə toqquşmasının acı nəticələri hələ bundan sonra daha böyük miqyasda üzə çıxacaq. Tutaq ki, Azərbaycan Ordusu hərdən deyildiyi kimi bir hücumla erməni qoşunlarını Ermənistan sərhədinə kimi qovdu. Bununla da müharibə qurtaracaqmı?

Rusiyanın Ermənistanda hərbi bazası və hərbi təhlükəsizlik üzrə əməkdaşlıq müqaviləsi olduğuna görə belə bir sual sizə yersiz görünməsin. Kim zəmanət verə bilər ki, Rusiya hərbi müttəfiqi Ermənistanın xahişi ilə "Dağlıq Qarabağ ermənilərinin xilası üçün" qoşunlarımızı geri oturtmayacaq və bu zaman ordumuz böyük miqdarda insan və silah itkisinə məruz qalmayacaq. Üstəlik, müharibə zamanı ermənilərin Azərbaycan torpaqlarında etdikləri bir çox vəhşiliklərin izləri bir dəfəlik silinəcək. Hələ bu azmış kimi müharibə başlayan andan iqtisadi cəhətdən ağır vəziyyətdə olan Ermənistan erməni diasporasından güclü kömək alacaq. Bizim fikrimizcə ən əcaib fakt bundan ibarətdir ki, 15 ildir Sülh danışıqları aparan Ermənistan üçün əslində Azərbaycanla Sülh müqaviləsi bağlamaq qətiyyən sərfəli deyil. Azərbaycan artıq bir neçə dəfə elan edib ki, münaqişə həll olunandan dərhal sonra erməni tərəfin ona vurduğu zərərlərlə əlaqədar Beynəlxalq Haaqa Məhkəməsinə müraciət edəcək. Belə çıxır ki, nə vaxtsa biz əli neçə-neçə azərbaycanlının qanına batmış Köçəryanın, Sərkisyanın hərbi cani kimi məhkəmə qarşısında duracağının şahidi olacağıq. Bunu gözəl başa düşən Ermənistan rəhbərliyi öz xoşu ilə Sülh müqaviləsinə qol çəkərmi?

Prezidentimiz İ. Əliyev bir neçə dəfə elan etmişdir ki, əgər danışıqlar prosesi heç bir nəticə verməzsə Azərbaycan öz torpaqlarının toxunulmazlığını təmin etmək üçün adekvat addımlar ata bilər. Deməli, belə getsə erməni iqtidarının çox arzuladığı o "adekvat addımlar"ın atılacağı məşum gün yaxınlaşır...

Son siyasi hadisələr: Türkiyənin Ermənistanla "son nəticədə Azərbaycan üçün xeyirli olacaq" ilişgiləri, Rusiya rəhbərliyi ilə Azərbaycan Prezidentinin görüşləri Qarabağ probleminin həllində elə bu il böyük nəticələr olacağı haqda fikirlərə

səbəb olub. O biri tərəfdən isə indiyə kimi ermənilər "qeyri -konstriktiv" mövqe tutduqlarından danışıqlar bir nəticə vermir. Bizim fikrimizcə isə yuxarıda qeyd etdiyimiz kimi ermənilər böyük səbrlə Prezidentimizin nə vaxt səbr kasasının daşacağını gözləyirlər.

**Ədalət Musatafayev**

## DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ BAXIŞ

XX əsrin 80-ci illərindən etibarən Sovet imperiyası daxilində mərkəzdənqaçma meylləri güclənməyə başladı. Soyuq müharibə illərində bütün iqtisadiyyatı silahlanmaya yönəldən SSRİ artıq qərb dövlətləri ilə ayaqlaşa bilmədi və özünün iqtisadi çöküşü üçün zəmin hazırladı. Soyuq müharibənin sonucunda qərb dövlətləri, o cümlədən "ABŞ güclü diplomatik və siyasi təzyiqlərlə sovet qoşunlarının Əfqanıstandan çıxarılmasına, bu ölkədə yaradılmış sosialist yönlü dövlət quruluşunun ləğv edilməsinə nail olur" [1,127]. Artıq SSRİ dünya dövlətləri içərisində nüfuzunu itirməyə başlayır, iqtisadi böhrana siyasi böhran da əlavə olunur.

Belə bir zamanda Qorbaçov hökumətində mühüm vəzifələr tutan erməni və ermənipərəst qüvvələr dövlət başçısında imperiya daxilində olan müsəlman respublikalarına, əsasən Azərbaycana qarşı qərəzli mövqe yaratmağa nail oldular. Ağambekyanlara, şahnazaryanlara, sitaryanlara geniş meydan açılır. Onların təxribatçı çıxışları, ərazi iddialarının gerçəkləşməsi yönündə atdıqları addımlar Azərbaycanlılar üçün ağır faciələrə gətirib çıxardı. Etnik münaqişələrin baş verdiyi coğrafi əraziləri nəzərdən keçirsək və ayrı-ayrılıqda təhlillər aparsaq konfliktlərin bir mərkəzdən idarə olunmasının şahidi olarıq. Dağlıq Qarabağ münaqişəsi keçmiş SSRİ ərazisində olan digər münaqişə ocaqları ilə müqayisədə ölçüyəgəlməz dərəcədə fərqlənir. Bu münaqişənin vaxtında qarşısının alınmaması Gürcüstanda (abxaz, osetin), Şimali Qafqazda (çeçen), Moldaviyada (Dnestryanı), Orta Asiyada konfliktlərin alovlanmasına sanki bir təkan oldu. Dağlıq Qarabağ hadisələrində SSRİ ilə bərabər Avropa dövlətlərinin ermənilərə dəstəyi az olmamışdır. 1987-ci il Avropa Parlamenti tərəfindən uydurma "genosid"in tanınması ermənilərdə ruh yüksəkliyi yaratdı və erməni lobbisinin fəallaşması ilə nəticələndi.

Cənubi Qafqazda etnik münaqişələrin əsası faciəvi Gülüstan və Türkmənçay müqavilələrinin nəticəsində Azərbaycanın ikiyə bölünməsi, ermənilərin kütləvi sürətdə Azərbaycanın Qarabağ və İrəvan bölgələrinə köçürülməsi ilə qoyulmuşdur. Beynəlxalq və daxili şərait yetişən kimi ermənilər öz havadarlarının köməyilə təcavüzkarlıq siyasətini davam etdirirlər. Azərbaycanın qərb, Türkiyənin şərq bölgələrində türk-müsəlman əhalisinə qarşı qırğınlara başlayan ermənilər 1893-1896-cı, 1905-1907-ci illərdən başlayaraq insanlara rahatlıq vermədən, 1918-ci il soyqırımını törətdilər. Qərbi Azərbaycan bölgəsində Rusiya və Avropa dövlətlərinin dəstəyi ilə qurulan Ermənistan dövləti yeni-yeni

torpaqlarımızın qəsb edilməsi nəticəsində ərazilərini daim genişləndirdi.

Ermənilərin istənilən anda içində yaşadıqları dövlətə və xalqa xəyanət etməsi hadisələrə obyektiv baxmaq istəyən hər bir şəxsə məlumdur. 1989-cu ildə professor Y.İ.Romanenko erməni ekstremistlərinin və siyasi oyunbazlarının qərb kütləvi informasiya agentliklərində xəyanətkar mövqeyindən bəhs edir [2]. İstənilən vaxtı xəyanət və casusluq edib və lazım gələndə ustalıqla onu ört-basdır etmək erməni millətinə xas əlamətdir.

M.S.Qorbaçovun yenidənqurma ab-havası ilə hakimiyyətə gəlişi, hadisələrin yeni istiqamətdə inkişafını duyan erməni lobbisini onlara mane ola biləcək qüvvələrin zərərsizləşdirilməsi üçün bütün variantlara əl atmağa sövq etdi. Antitürk, antimüsəlman ideyalarının güclənməsi Mərkəzi Komitədə böyük nüfuza malik olan Heydər Əliyevə qarşı təzyiqlərdən başladı. N.Zenkoviçin «Гейдар Алиев, Зигзаги судби" əsərində Heydər Əliyev haqqında müsahibədən: "Mən işdən çıxmaq üçün ərizəmi Qorbaçova təqdim edəndə o şad oldu. Məni qucaqlayıb öpdü və sağ ol dedi" [3,494]. Heydər Əliyevin Siyasi Büroda qalması erməni və ermənipərəst qüvvələrin pozucu fəaliyyətinə imkan verməz və yaxud hadisələrin inkişafını başqa istiqamətə dəyişə bilərdi. SSRİ daxilində təcrübəli dövlət xadimlərinin işdən uzaqlaşdırılması Qorbaçov hökumətinin xəyanətkar mövqeyindən xəbər verirdi.

M.S.Qorbaçovun "Yenidənqurma" siyasəti fonunda İmperiyanın bir çox yerlərində etnik münaqişələr baş qaldırdı. Münaqişə tərəfləri arasındakı qarşıdurmalara birmənalı yanaşılmırdı. Necə ki, Ermənistan-Azərbaycan arasındakı münaqişədə olduğu kimi, "Azərbaycan" qəzeti fransız mətbuatına istinadən M.S.Qorbaçovun Azərbaycanda baş verən hadisələrə münasibətini açıqlayır: "Tatarlar qəzəblənir". Bu cür yanaşmaların olması təsadüfi deyildir. XX əsrin əvvəllərində Fransanın Rusiyadakı səfiri Edmond Hippo Azərbaycan və onun xalqı haqqında yazırdı: "Rus imperiyası Qafqazı işğal etdikdən sonra Azərbaycan adını Qafqazdan sildi. Rusiya öz yeni qurbanlarının adını dəyişib, onlara "Qafqaz tatarları, yaxud Qafqaz müsəlmanları" adını verdi [4,61].

1988-ci ildən başlayaraq Qarabağın dağlıq hissəsindəki azərbaycanlılar yaşayan kəndlər mühasirədə qalsa da heç bir tədbir görülmürdü. Ancaq, əksinə, ermənilərə törətdikləri işlərə görə kiçik bir təzyiq edilən kimi mərkəz ya hansısa qərar qəbul edir, ya da müxtəlif vasitələrlə təzyiq göstərməyə başlayırdı. Qorbaçov hökumətinin münaqişə zonalarına qarşı münasibətini müqayisə etsək doğrudan da acınacaqlı mənzərənin şahidi olarıq. Moldaviyanın kiçik bir şəhərində rusdilli əhalinin dörd saatlıq xəbərdarlıq tətili mərkəzi mətbuat orqanlarının böyük səs-küyünə səbəb olduğu halda, eyni zamanda Azərbaycanda gedən ümumrespublika tətili haqqında dörd gün ərzində heç bir məlumat verilmədi. Gürcüstanda qoşunlar dinc nümayişçilərə qarşı zorakılıq işlədərək böyük fəlakət törətdilər, vəziyyəti son dərəcə gərginləşdirdilər. Özbəkistanda isə həmin qoşunlar ehtiyac olduğu halda millətlərarası iğtişaşların qarşısını almağa "gecikdilər", uzun müddət heç bir səy

göstərmədilər, nəticədə yenə qan töküldü, ölkədə on minlərlə yeni qaçqınlar meydana gəldi.

Mərkəzi hökumətin Dağlıq Qarabağda yaratdığı "Volski hökuməti" də bölgənin Azərbaycandan qoparılmasına xidmət edirdi. 24 dekabr 1989-cu il "Azadlıq" qəzetinin məlumatına görə "Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndləri 12 yanvar 1989-cu ildən, yəni DQMV-də Volski rejimi yaranan gündən blokadadır. Kəlbəcərə, Şuşaya, Fizuliyə və Laçına şose yolu ilə getmək mümkün deyil. Göstərilir ki, Mardakert (Ağdərə) rayonunun İmarət Qərvənd (Kərəmli), Umudlu, Narınclar, Çərəkdar, Baş Güneypəyə, Orta Güneypəyə, Manik, Xatınbəyli, Qaralar, Dovşanlı kəndlərinin vəziyyəti çox təhlükəlidir"[5]. Blokada şəraitində saxlanılmasına baxmayaraq Azərbaycan kəndləri bir neçə il təpədən-dırnağadək silahlanmış ermənilərə müqavimət göstərsə də, sonradan Rusiya ordusunun hərtərəfli müdaxiləsindən sonra ərazilərin ardıcıl boşaldılması prosesi başladı. DQMV-də azərbaycanlılarla-ermənilər arasında təhlükəsizlik tədbirləri məqsədilə yerləşdirilmiş hərbi hissələr sonda ermənilərin müdafiəsinə keçdilər və onların silahla təmin edilməsində əsas rol oynadılar.

SSRİ məkanında müstəqilliyə gedən yolları Moskva mümkün vasitələrlə əngəlləməyə çalışırdı. Özbəkistanda, Qazaxıstanda buna görə qardaş qırğını törədildi. 22 noyabr 1990-cı il "Azadlıq" qəzetində Özbəkistanda baş verən hadisələrlə bağlı qeyd olunur ki, "Özbəkistanda müstəqilliyə gedən yolları əngəlləmək üçün mərkəzdən hazırlanmış ssenari üzrə Fərqanədə qardaş qırğını törətdilər.... Fərqanə hadisələri sonralar eyni zamanda Bukada, Parkənddə, Oşda da təkrar olundu" [6]. Siyasi partiyalar, ziyalılar münaqişənin əsl mahiyyətini xalqa çatdırmağa çalışır, qardaş qırğınının qarşısını almaq üçün təbliğatı gücləndirirdilər. Burada belə bir cümlə bizi daha çox düşündürür və 1988-ci il ermənilərin təşkil etdikləri Sumqayıt hadisələri, 1990-cı il 20 yanvar faciəsindən bir neçə gün əvvəlki xaos zamanı güc strukturlarının seyirci mövqe tutması ilə müqayisə etmək olar. Göstərilir ki, "Fərqanə faciələri zamanı bir nəfər də özbək şairi, ədibi, jurnalisti hadisə yerinə buraxılmamışdı. Əksinə Moskva, Leninqrad və başqa şəhərlərin jurnalistləri hadisə yerində dolu idi. Onlar obyektiv olmayan verilişləri ilə guya Mesxeti Türklərinə yazıqları gəldiyini bildirir, əslində özbək xalqı haqqında mənfi fikir yaradırdılar"[6]. Hadisələrə verilən siyasi qiymət fərqli olduğu kimi maddi dəstəkdə bir-birindən kəskin surətdə fərqlənirdi. Böyük dövlətlər bölgədə baş verən qarşıdurmalar zamanı zərərçəkmişlərə kömək göstərməkdə də fərqli mövqe tuturlar. "ABŞ hökuməti erməni qaçqınlarına yardım üçün on milyon dollar ayırmışdır... Qorbaçov xaricdə çıxmış kitablarının qonorarından Ermənistanda zərərçəkmişlərin hesabına 150 min manat, Azərbaycandan olan qaçqınların hesabına 50 min manat keçirir". Azərbaycan xalqı heç vaxt super güclərdən maddi kömək ummamış, sadəcə baş verən hadisələrə düzgün yanaşılmamasından təəssüf hissi keçirmişdir. Xeyli müddət keçməsinə baxmayaraq bölgə konfliktləri içərisində ən çox ziyan çəkən və hələ də çəkməkdə olan Azərbaycan xalqına qarşı

soyqırımı davam etdirən Ermənistan dövlətinə qarşı heç bir tədbir görülmür, hətta onların hərbi cəhətdən güclənməsi üçün müxtəlif köməkliklər göstərilir.

M.S.Qorbaçovun hakimiyyətə gəlişindən sonra baş verən münaqişələrdə dini faktorları nəzərə almamaq olmur. İstər mətbuatda, istərsə də münaqişələrin alovlandığı bölgələrin coğrafi trayektoriyasını nəzərdən keçirsək görərik ki, hadisələr ən çox müsəlmanlar yaşayan bölgələrdə cərəyan edir. "İzvestiya" qəzetində akademik Bromleyin SSRİ-də müsəlman xalqlarının sürətlə artdığı barədə yazılarının getməsi, Sov. İKP MK-nın ictimai-siyasi jurnalı "Dialoq"un 6-cı nömrəsində "İslam, din və siyasət" başlıqlı qərəzli bir yazı getmişdir [7]. Antimüsəlman xarakterli yazıların mətbuatda tez-tez verilməsi yuxarı dairələrdə olan erməni və ermənipərəst qüvvələrin fəaliyyətinin nəticəsi idi.

Hakimiyyətin yuxarı dairələrində Azərbaycanda baş verən hadisələrə dini don geydirilirdi. Artıq bir çox tədqiqatçıların əsərlərində və hətta dərsliklərdə də o zamankı Sovet rəhbərliyinin törətdiyi qırğına münasibət bildirilmişdir: "İmperiya rəhbəri M.Qorbaçov sovet xalqına müraciətdə göstərdi ki, Azərbaycanda islam quruluşu yaradılmağa cəhd göstərildiyinə görə, Bakıya hərbi qüvvələr yeridilməsinə şəxsən göstəriş vermişdir" [8,244]. Yüzlərlə insanın öldürülməsinə bəraət qazandırmağa çalışan "insan cəlladı", Azərbaycanda baş verən hadisələri islam fundamentalizmi ilə əlaqələndirməyə cəhd edirdi. Ancaq Azərbaycan xalqı erməni təcavüzünə və mərkəzi hökumətin hadisələrə birtərəfli yanaşmasına qarşı öz narazılığını bildirirdi.

Mərkəzdə SSRİ-nin dağılması prosesinin qarşısını almağa, münaqişənin həlli yollarına münasibətdə kəskin mövqe nümayiş etdirib əhalinin narazılığını yatırmağa çalışan, bununla da ittifaqın qorunub saxlanmasına xidmət edən qüvvələr də vardır. Əslən latış olan SSRİ Daxili İşlər naziri B.K.Puqo, marşal S.M.Axromeyev və s. Qorbaçovun siyasətinə qarşı cəsarətli mövqeyi ilə seçilirdi. Onun tabeçiliyində olan daxili qoşunlarının baş komandanı Y.V. Şatalin də belələrindən idi. O, "Sovetskaya Rossiya" qəzetinin müxbiri ilə müsahibəsində demişdir: "Mən vəziyyəti sabitləşdirməyin bircə yolunu görürəm-bütün qeyri-formal hərbi qrupların tərksilah edilməsi haqqında prezidentin fərmanını yerinə yetirmək lazımdır .... yoxsa mən Azərbaycan xalqına təminat verə bilmərəm ki, bu cür fitnəkarlıqlar təkrar olunmayacaqdır. İki dəfə belə təminat vermişəm, üçüncü dəfə verməyəcəyəm, axı bu məni və mərkəzi hakimiyyəti nüfuzdan salır" [9]. Y.Şatalin sentyabrın 6-da "Vremya" xəbərlər proqramında Ermənistan SSR MK katibi Movsesyanın M.Qorbaçova müraciətini kəskin tənqid etdiyinə görə Ermənistanda və Rusiyada tənqidə və təqiblərə məruz qalmışdır. Bəzən özündə cəsarət tapan belə şəxslər həqiqəti deməyə çalışırdılar. Ancaq sonradan təzyiqlər nəticəsində onun geri çəkildiyi, bütün məsuliyyəti Azərbaycan rəhbərliyinin üzərinə qoyduğunun şahidi oluruq. Erməni quldur dəstələrinin Çaykənddən qovulması zaman erməni lobbisinin təzyiqləri M.S.Qorbaçovun üzərinə yönələndə Şatalin məsuliyyətdən yaxa qurtarmaq üçün hadisələrdən xəbərsiz olduğunu

bildirir. Cəfəng bəyanatlarla dünyaya səs salan erməniləri Avropa dövlətləri, "ədalət carçısı Roma papası da müdafiə edirdi. Azərbaycanda əhalidən ov silahlarının yığıldığı bir vaxtda, Ermənistanda qeyri-rəsmi ordu yaradılmışdır.

SSRİ rəhbərliyinin Dağlıq Qarabağ münaqişəsində ermənipərəst mövqe tutmasına münasibətini bildirən V.P.Polyaniçko Qarabağın itirilməsində Qorbaçovun fəaliyyətini qeyd edirdi [3,191]. Azərbaycanda təşkilatçılıq qabiliyyətinə malik olanlara əngəllər törədilirsə, Ermənistanda isə ən qəddar və təcrübəli şəxslər hakimiyyətə gətirilirdi. Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağda isə qaniçən və azərbaycanlıların qanına susamış terrorist Köçəryan və Sarkisyan cütlüyünün hakimiyyətə gətirilməsi qərəzli yanaşmadan xəbər vermirmi? Köçəryanın Ermənistanda hakimiyyətə gətirilməsi antitürk ideyalarının güclənməsinə xidmət edirdi. "Köçəryan Rusiyanın Dağlıq Qarabağda yerləşən hərbi kontingentinin rəhbərliyi ilə sıx münasiləətlər quraraq bu hərbi birləşmələrin hərbi texnikasından, canlı qüvvələrindən, azərbaycanlıların tarixi torpaqlarından qovulması prosesində ardıcıl istifadə etmişdir" [10.28].

Biz Qarabağın işğal altında olan ərazilərindən işğalçı erməni ordusunu çıxarandan sonra, Göyçəni, Zəngəzuru və digər itirilmiş torpaqlarımızı geri qaytarmaq uğrunda mübarizəni davam etdirməliyik.

**Ədəbiyyat:**


1. Ə.M.Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005
2. Azərbaycan qəzeti 14 may, 1989.
3. Николай Зенькович. Гейдар Алиев: Зигзаги судьбы. Москва, 2007.
4. Xəliyəddin Xəlilli. Qarabağ: etnomənəvi inkişaf tarixi. Bakı, 2006.
5. Azadlıq qəz. 24 dekabr 1989.
6. Azadlıq qəz. 22 noyabr 1990.
7. Azadlıq qəz. 18 oktyabr 1990.
8. A.N.Abbasbəyli, P.Q.Darabadi, Ə.G.İbrahimov. Konfliktologiya. Bakı, 2006.
9. Azadlıq qəz.l sentyabr 1990.
10. Akif Aşırlı. Türkün Xocalı soyqırımı. Bakı, 2005.

Əli Abasov

# НАГОРНО-КАРАБАХСКИЙ ГАМБИТ: ПОИСКИ ЭНДШПИЛЯ

Когда в конце 80-х годов прошлого столетия начался очередной виток эскалации напряжения вокруг проблемы Нагорного Карабаха, многие полагали, что он быстро завершится возвращением к ситуации статус-кво и восстановится привычное положение дел. Были, правда, и такие мнения, в целом редкие, что данная проблема растянется на долгие годы, а разрешение ее последствий займет десятилетия. Представители первой точки зрения исходили из в целом верной посылки, что в условиях жесткой политической системы СССР, крепко привязанной к идеологической концепции интернационализма и дружбы народов страны Советов никому не будет позволено покушаться на эти «священные» принципы. Кроме того, десятилетия печального опыта жестокого подавления любого инакомыслия, тем более в вопросе национализма, считавшегося уголовным преступлением и прямым покушением на сами основы государства, мало кто сомневался в последовательности власти, особенно после урока, преподанного в ходе волнений в Алма-Ате, решительно подавленных Москвой. В те времена не только в СССР, но и по всему миру, по позднему признанию известных западных советологов, мысль о скором развале социалистической системы и распаде СССР никому просто не приходила в голову. Тем не менее, эти события произошли, а до них на большом пространстве СССР начались многочисленные этнические и конфессиональные конфликты, которые по мере развала страны пускались на самотек, а то и косвенно поощрялись, если и не явной поддержки одной из сторон конфликта, то тайной поставкой вооружения, способствовавшего переходу конфликтов в «горячую фазу», развязыванию военных действий.

Предлагается, что подобными действиями, теряющий мощь и способность управлять страной, Центр пытался привязать к себе республики и регионы, поэтапно продвигающиеся к независимости. Когда же этого не случилось, конфликты стали использоваться как механизм, поддержания интересов России и сохранения ее присутствия в странах, подверженных конфликтам. Независимость постсоветских стран открыла возможность мощным западным государствам и влиятельным государствам-соседям присоединиться к числу игроков, влияющих на ход конфликтов с учетом своих собственных национальных интересов. Почти все конфликты, развязанные на территории СССР как локальное противостояние, постепенно переросли в региональные, а зачем и международные конфликты, решением которых формально занялись такие организации, как ООН, ОБСЕ и т. д., но на деле конфликты стали разменной монетой в большой политической игре,

развернутой с целью нового передела карты мира.

Вряд ли сторонники затяжного разрешения нагорно-карабахского конфликта предвидели весь ход последующих событий, скорее всего, как грамотные конфликтологи, они смогли реально оценить его потенциал и соотнести его с методологически схожими противостояниями, которыми так богата история.

Как бы то ни было, сегодня, когда начался отсчет третьего десятилетия нагорно-карабахского конфликта, условия его урегулирования так и не сведены к общей (единой) точке зрения, а по моделям разрешения представлена внушительная зарубежная и постсоветская литература, в которой есть все, кроме реальных вариантов окончательного мира.

Исторически, данная проблема, решаемая в своих истоках структурами ООН, принявшей четыре резолюции Совета Безопасности в течение одного 1993 года (№№ 822 -30 апреля, 853 - 29 июля, 874 -14 октября, 884 - 12 ноября), затем была передана в структуры ОБСЕ (тогда - СБСЕ). Уже в марте 1992 года Совет СБСЕ решил создать постоянно действующий форум под своей эгидой для переговоров с целью мирного урегулирования конфликта на основе «принципов, обязательств и положений СБСЕ» и созвать конференцию по данной проблеме. В качестве участников этой конференции, которую предполагалось созвать в Минске (Беларуси), были названы Азербайджан, Армения, Беларусь, Германия, Италия, Российская Федерация, Соединенные Штаты Америки, Турция, Франция, Чешская и Словацкая Федеративная Республика и Швеция. С того времен прошло свыше 15 лет, Чехословакия мирно распалась на две независимые страны, поэтому сегодня не вполне понятно сколько участников конференции (названной Минской группой) - 12 или 13. Сама конференция так и не состоялась, хотя был учрежден пост ее председателя, на которого, кроме всего прочего, была возложена миссия посещения региона конфликта и подготовка в этой связи докладов о состоянии дел.

Когда в мае 1994 года стороны конфликта, переросшего в войну, подписали соглашение о временном прекращении огня (которое длится до сих пор), а СБСЕ превратилось в ОБСЕ, никаких существенных подвижек в решении конфликта не было. Разве что в рамках Будапештского саммита (6 декабря 1994 г.) были достигнуты договоренности о статусе сопредседателей Минской группы. Предполагалось, что сопредседатели «будут совместно председательствовать на встречах Минской группы и докладывать действующему Председателю ОБСЕ и регулярно информировать Постоянный совет о ходе своей работы». Кроме того, на саммите было заявлено о политической готовности европейской структуры предоставить, при принятии соответствующей резолюции Советом Безопасности ООН, многонациональные силы по поддержанию мира после достижения

соглашения между сторонами о прекращении вооруженного конфликта.

Важным, с точки зрения определения общих принципов разрешения конфликта, стало решение Лиссабонского саммита (3 декабря 1998 г.), которое из-за единоличной позиции Армении (решение данной организации принимаются на основе консенсуса) было оформлено как специальное заявление действующего председателя ОБСЕ. Согласно этому заявлению, были выработаны три основополагающих принципа, которые должны были явиться составной частью урегулирования на-горно-карабахского конфликта, и были рекомендованы сопредседателями Минской группы.

**1** .территориальная целостность Азербайджанской Республики и Республики Армения;

**2**. правовой статус Нагорного Карабаха, определенный в соглашении на основе самоопределения, которое обеспечит Нагорному Карабаху самую высокую степень самоуправления в составе Азербайджана (выделено нами - А. Аб.);

**3**.гарантированная безопасность для Нагорного Карабаха и всего его населения (выделено нами - А. Аб.), включая взаимные обязательства обеспечить соблюдение положений урегулирования всеми сторонами. Заявление завершалось сожалением председателя в связи с тем, что «одна делегация не смогла согласиться с этим», и решением включить данное заявление в документы Лиссабонского саммита.

Столь подробное освещение материалов Лиссабонского саммита необходимо нам для того, чтобы оценить насколько далеко отошла эта организация, сопредседатели и стороны конфликта от заявленных принципов. Достаточно отметить, в этой связи, что так называемый референдум, стоящий в повестке Мадридских соглашений, может поставить под сомнение первый принцип Лиссабонского саммита.

Следует отметить, что вообще, несмотря на существующие принципы, сторонами конфликта и сопредседателями выдвигался целый ряд планов урегулирования, прямо или косвенно подвергающих сомнению эти принципы.

Главным противоречием на протяжении длительного времени стала сама процедура осуществления урегулирования: если армянская сторона настаивала на пакетном, то есть одновременном принятии решения по всем вопросам конфликта, то азербайджанская - предлагала двигаться поэтапным путем, последовательно решая многочисленные проблемы, возникшие в результате и по итогам военного противостояния. Так, летом 1997 Минская группа выдвинула сбалансированный, с ее точки зрения, пакетный план, а уже осенью того же года - поэтапный, дополненный осенью 1998 года идеей «общего государства». Как известно, все эти планы были отвергнуты по разным причинам и способствовали серьезным политическим потрясениям в регионе. Может быть поэтому, на Стамбульском саммите 1999 года вновь возродилась старая идея «обмена

территориями», высказанная в самом начале конфликта, когда страны входили в единое государство - СССР.

Так называемые «Парижские принципы» и встреча в Ки-Уэсте можно обозначить как события, проявившие готовность руководства Азербайджана двигаться в сторону признания независимости иагорно-карабахского региона или его присоединения к Армении. Интересно отметить, что в ходе разрешения конфликта несколько раз складывались ситуации, когда стороны могли бы прийти к соглашению и начать урегулировать конфликт. И каждый раз что-то случалось или же одна сторона резко отказывалась от оговоренных элементов урегулирования. Нет более яркого свидетельства, чем это, что пагорно-карабахский конфликт давно основательно интер-нализирован, а модели его разрешения скорее учитывают интересы влиятельных внешних сил, чем сторон конфликта.

Последние события особенно четко свидетельствуют в пользу высказанных предположений, так как вокруг данного конфликта началась настоящая чехарда с «новыми» предложениями, идеями, участниками, предлагающими свои варианты посредничества, планы переустройства (политического переиодчинения) региона Южного Кавказа в целом. Но об этом чуть позже.

С апреля 2004 года начался так называемый «Пражский процесс» завершившийся в 2007 году формулировкой «Мадридских принципов», считающихся сегодня (с учетом некоторых изменений) основной моделью урегулирования конфликта («базовые принципы»).

Согласно этой модели, стороны берут на себя обязательства не применять военную силу. Армянские вооруженные формирования выводятся с оккупированных территорий вне Нагорного Карабаха (особые пункты касаются Лачина и Кельбаджара). Вводятся миротворческие силы, и происходит постепенное возвращение на эти территории временно перемещенных лиц. Между Арменией и Азербайджаном открываются границы, начинается установление политических и экономических связей, международные доноры и организации способствуют восстановлению инфраструктуры оккупированных территорий. Соглашение предусматривает (детали отличаются) создание некого коридора по территории Лачинского района, соединяющего Нагорный Карабах с Арменией, а также наделение де-факто властей этого региона «промежуточным статусом», позволяющим им вести переговоры. Эти власти формируются после возвращения всего бывшего населения в регион и проведения выборов. Конечный принцип - проведение референдума об окончательном статусе Нагорного Карабаха — не определен ни в своих сроках, ни в условиях голосования по референдуму. Как видно, предлагаемый компромисс таковым на самом деле не является, при принятии его сторонами и началом реализации возможны события, способные

изменить конечные цели предлагаемого плана, более того, неопределенность, сознательно или неосознанно заложенная в план, может стать причиной очередного этапа военного противостояния.

Хотя после российско-грузинской войны в августе 2008 года все стороны посредничества по Карабаху заявили о неприменимости ситуаций с Южной Осетией и Абхазией по отношению к нагорно карабахскому конфликту, более того ведущие страны - США и РФ -заявили о том, что разница между ними в плане урегулирования противостояния равна нулю, слишком много событий свидетельствует о том, что закулисная борьба за влияние на Южном Кавказе не только не утеряла свой накал, а, напротив, приобрела новые стимулы, связанные с изменениями в мировой политической сфере.

Мировая политика, сформировавшаяся после крушения восточного блока и развала СССР, исчерпав потенциал поддержки мирового порядка, вступила в полосу трансформации. Ее начало можно отнести к событиям, приведшим к признанию независимости Косово, срединная часть - пришлась на начало системного экономического кризиса, поразившего мировую финансовую систему и свернувшего развитие большинства стран мира. Но пиковой точки, так называемой стадии бифуркации, сложившаяся система мировой политики достигла в момент августовских событий 2008 года, в ходе и по итогам пятидневной российско-грузинской войны. Россия теперь уже не на словах (вспомним «мюнхенскую речь» тогда еще президента РФ В. Путина), а на деле продемонстрировала крушение однополярного мира. Нельзя не признать, что реакция Москвы застала врасплох западный мир и сами США, продолжавших сохранять веру в действенность модели однополярного мира. Иначе трудно объяснить почему в то время как Россия стала проводить вполне определенную политику (не буду оценивать ее позитивность в первую очередь для самой России), крупнейшие страны Европы и США, «потеряв лицо», до сих пор мечутся в поисках новых технологий, способных восстановить утраченное превосходство в мировой политике. Списать это состояние только на смену администрации Белого дома или даже на внушительность экономического кризиса вряд ли удастся, по крайней мере, потому, что первое событие — хорошо организованная и исторически устойчивая процедура, предсказуемая в своих основных чертах, а второе - в одинаковой мере затронуло весь мир.

Следует признать, что мы имеем дело с принципиально новой ситуацией в мировой политике, мы являемся свидетелями выстраивания ее новой архитектуры, не все (даже важнейшие) элементы которой определены. А потому политический анализ и различного рода прогнозы становятся чрезвычайно рискованным делом. Впрочем, это сама мировая политика постблокового мира сама стала подвержена рискам и вызовам, сегодня мы наблюдаем очередной этап ее движения от хаоса к новому порядку.

И одним из элементов этого движения становятся постсоветские

конфликты. Именно в этом плане следует рассматривать чрезмерно активную политику Турции на Южном Кавказе, которая выступила с планом «Кавказской платформы», по сути означающей переход региона под патронаж России и Турции. Характерно, что при симпатии России к этой идее и молчании США, сама по себе турецкая инициатива еще при рождении была мертворожденным дитем, хотя Турция после объявления своих целей предприняла ряд решающих шагов по улучшению отношений с Арменией, идущих в разрез с интересами азербайджанской правящей элиты. Совсем недавно мы были свидетелями значительного ухудшения турецко-азербайджанских отношений, традиционно выдаваемых за стратегическое сотрудничество. Думается, что даже прямые обещания турецкой стороны о невозможности открытия турецко-армянской границы до разрешения нагорно-карабахского конфликта, данные в Баку, мало что значат в большой политической игре, часть которой происходит на территории Южного Кавказа. При необходимости Турция, как и любая другая страна, будет руководствоваться исключительно собственными национальными интересами, которые, однако, сильно связаны с европейскими чаяниями и отношениями с США этой страны.

Наверно, поэтому завершились провалом пражская и санкт-петербургская встречи президентов Азербайджана и Армении, хотя сопредседатели высказывали особые надежды в их связи. Обещания в самом коротком промежутке времени провести очередной раунд переговоров президентов двух стран мало что значат в плане надежд на быстрое урегулирование конфликта.

Мне уже неоднократно приходилось высказывать мысль о том, что решение конфликтов Южного Кавказа возможно лишь при условии, когда все три государства региона будут находится в едином геополитическом пространстве, единой зоне безопасности. Сегодня приходится констатировать, что этот этап так и не достигнут. Поэтому нагорно-карабахский гамбит все еще не имеет реального эндшпиля.

**Fəxrəddin Şahsuvarov**

# ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN HƏLL EDİLMƏSİ İSTİQAMƏTİNDƏ AZƏRBAYCAN DÖVLƏTİNİN FƏALİYYƏTİ

Azərbaycana ərazi iddiaları ilə başlanan münaqişə Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsi ilə davam etdi. Ermənistanın hərbi qüvvələri Azərbaycan Respublikasının 20% ərazisini işğal altına saldı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesi göstərdi ki, bu məsələnin həlli yalnız beynəlxalq rəyi nəzərə almaqla, ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin dəstəyinə nail olmaqla, eləcə də səmərəli, gərgin və hərtərəfli düşünülmüş diplomatik iş aparmaqla mümkündür (6, s. 52). Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev diplomatiyası Ermənistan-Azərbaycan münaqişəsinin dünya səviyyəsinə çıxarılması və həlli ilə bağlı xüsusi konsepsiya hazırlayaraq konkret vəzifələri həyata kecirmək üçün ardıcıl siyasi kurs planlaşdırdı. Heydər Əliyev kursu Dağlıq Qarabağ probleminin tarixini, mahiyyətini və köklərini hərtərəfli açıqlamağa, Azərbaycanın haqq səsini bütün dünya ictimaiyyətinə çatdırmağa xidmət etdi. Dünyada mövcud olan ictimai rəyi respublikamızın xeyrinə formalaşdırmaq məqsədilə qeyd olunan problemin milli zəmin əsasında baş verən etnik münaqişə və ya insan hüquqlarının pozulması ilə meydana çıxan qarşıdurma deyil, Azərbaycanın istiqlaliyyəti yolunda süni yaradılmış maneə, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası ilə əlaqədar olduğunu bütün dünyaya bəyan etdi. Dünya ictimaiyyətinin diqqəti belə təhlükələrin qarşısını vaxtında almağın vacibliyinə yönəldildi. Bunların həyata keçirilməsi üçün Azərbaycanın Avropaya və ABŞ-a meyl göstərməsinin, sıx inteqrasiya olunmasının qarşısının alınmasına, onun əvvəlki kimi ayrı-ayrı region dövlətlərinin təsir və nüfuz dairəsində saxlanmasına yönəldilən xüsusi məqsədlə ortaya atılmış bir məsələ olduğu qeyd edildi, beynəlxalq aləmdə bu istiqamətdə geniş təbliğat başlandı.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycanın ərazi bütövlüyünün, dövlət müstəqilliyinin əbədi və dönməzliyinin təmin edilmək istəyi ilə Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolunda gərgin mübarizəyə başladı. ATƏT-in sədrləri, Minsk qrupuna daxil olan ABŞ, Fransa, Rusiya Federasiyasının həmsədrləri, habelə bir çox başqa dövlət xadimləri ilə görüşlərdə və danışıqlarda Ermənistan-Azərbaycan münaqişəsini ön sıraya çıxarmağa nail oldu. Bu münasibət Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, işğal olunmuş torpaqların erməni işğalçılarından təmizlənməsi, bir milyondan artıq qaçqın və köçkünün doğma yurdlarına qaytarılması prinsiplərindən ibarət oldu.

Azərbaycan Respublikasında 1993-cü ilin ikinci yarısından götürülən hərtərəfli düşünülmüş, ardıcıl siyasi kurs başlandı. Ulu öndərin apardığı xarici siyasət respublikamızın müstəqillik və təhlükəsizlik problemlərini beynəlxalq

təşkilatlar vasitəsilə ümum-avropa təhlükəsizliyi fonuna çıxardı. Regionda sülhün bərqərar olmasına onların təsirini sürətləndirdi. Xüsusən Azərbaycanın cəlb olunduğu münaqişənin əsl mahiyyətini, münaqişə haqqında əsl həqiqətləri dünyanın siyasi dairələrinə və dünya ictimaiyyətinə çatdırılmasına diqqəti artırdı. Ermənistanın təcavüzkar kimi tanınmasına, Azərbaycanı dəstəkləyən ölkələrin sayının artmasına və bu təşkilatların yığıncaqlarında münaqişənin həlli yollarına dair qərarlar qəbul edilməsinə nail oldu.

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ilk rəsmi xarici səfərinin uğurlu nəticəsi olaraq dünyanın «Yeddilər» adlandırılan aparıcı dövlətlərindən biri olan Fransanın dövlət başçısının bəyanatı bütün dünyada sensasiya yaratdı. Avropa Birliyinin, NATO-nun, ATƏT-in və başqa beynəlxalq və regional qurumların fəal üzvlərinin çoxu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələləsində Azərbaycan Respublikasını dəstəklədi.

Prezident Heydər Əliyevin diplomatiyasının böyük səyi nəticəsində 1994-cü ilin may ayında atəşkəs haqqında saziş imzalandı. Bundan sonra Ulu öndərin Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda Azərbaycan Respublikasının yeddi iri inzibati rayonunu ələ keçirdiklərini, Azərbaycan Respublikasına külli miqdarda maddi və mənəvi ziyan vurduqlarını bəyan etdi.

ABŞ-ın prezidenti Corc Buşla görüşü zamanı Ulu öndər Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsi ətrafında geniş fikir mübadiləsi apardı. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağla bağlı ərazi iddiaları irəli sürən Ermənistanın 1988-ci ildən başladığı hərbi təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizinin işğal olunduğunu, bir milyondan çox vətəndaşımızın uzun müddət çadırlarda dözülməz şəraitdə yaşadığını, Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunmuş torpaqlarda artıq hər şeyin dağıdıldığını, talan edildiyini, yerlə yeksan olunduğunu söylədi. Bu məsələnin 3 əsas prinsip üzrə həll edilməsinin əhəmiyyətli olacağını bildirdi.

Budapeşt zirvə toplantısında (1994-cü ildə) ulu öndər Heydər Əliyev dünyanın bir sıra böyük ölkələrinin rəhbərləri ilə görüşərək diqqəti Dağlıq Qarabağda sülhyaratma prosesinin intensivləşdirilməsinin vacibliyinə yönəltdi. Təsadüfı deyildi ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların və dünya dövlətlərinin rolunu xüsusi qiymətləndirərək «ATƏM-in sərhəd və ərazilərin toxunulmazlığı prinsiplərinə Azərbaycanın həmişə tərəfdar olduğunu» bildirdi və eyni zamanda beynəlxalq təşkilatların, dünya siyasətində böyük nüfuza malik olan dövlətlərin Ermənistanın işğalçılıq siyasətinin qarşısını almaq üçün təsirli tədbirlər görmədiyini təssüflə ifadə etdi (5, s.87-88).

Heydər Əliyevin 1995-ci il oktyabr ayının 22-də BMT-nin yaradılmasının 50 illiyi münasibəti ilə keçirilmiş 36-cı plenar iclasda etdiyi çıxışdan sonra Dağlıq

Qarabağ mövzusunu BMT-nin baş katibi illik hesabata daxil etdi. Həmin hesabatda təcavüz faktı pislənilir və münaqişənin tezliklə sülh yolu ilə həllini tapacağına əminlik bildirildi.

1996-cı il oktyabrın əvvəllərində Heydər Əliyev ATƏT-in nümayəndə heyətini qəbul edərkən Minsk qrupunun fəaliyyətini bütövlükdə müsbət qiymətləndirsə də, bir daha üzv dövlətlərə Minsk konfransına, dövlətlərin başçılarına müraciət edərək onları problemin həlli üçün əlavə, səmərəli tədbirlər görməyə çağırdı. Həmin görüşdə Heydər Əliyev bildirdi ki, «nə sülh, nə müharibə» vəziyyəti bizi razı sala bilməz, atəşkəs rejimini isə sonsuz olaraq saxlamaq mümkün deyildir. Həmçinin Azərbaycanın erməni tərəfinin nə ölkəmiz üçün, nə beynəlxalq birlik üçün, nə də ATƏT üçün məqbul olmayan şərtləri ilə razılaşmayacağını diqqətə çatdırdı.

Çox keçmədən, ABŞ Dövlət Departamenti xüsusi bəyanat verərək (1996-cı ilin oktyabrında) Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ümumi ifadələr işlədən rəsmi Vaşinqtonun Azərbaycanın ərazi bütövlüyü və suveren dövlət hüquqlarını dəstəkləyən mövqeyini ilk dəfə aydın və prinsipial şəkildə açıqladı. Bəyanat erməni lobbisinin güclü təsirinə baxmayaraq, ABŞ-ın artıq Azərbaycana münasibətdə obyektiv və beynəlxalq hüquq normalarına tam uyğun bir mövqedə dayandığını göstərdi.

Azərbaycan dövlətinin gərgin fəaliyyətinin nəticəsində Azərbaycanın xarici siyasətinin qarşısında duran ən mühüm vəzifələrdən biri - Ermənistanın təcavüzünün aradan qaldırılması və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Azərbaycan diplomatiyasının fəaliyyətində böyük dönüş yarandı. ATƏT-in 1996-cı ilin dekabrında keçirilən Lissabon sammitində Azərbaycan dipolomatiyasının uğurları meydana çıxdı.

Lissabon zirvə görüşündə Heydər Əliyev demişdir: «Dağlıq Qarabağın müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacaq, biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verməyəcəyik» (4, s. 103-107).

Heydər Əliyevin uğurlu siyasətinin nəticəsində Azərbaycan-Amerika münasibətləri tərəfdaşlıq və əməkdaşlıq istiqamətində yüksələn xətlə inkişaf etdi və Lissabon sammitində Azərbaycan üçün taleyüklü məsələ hesab olunan Dağlıq Qarabağ probleminin həlli prinsiplərini müəyyən edən qərarın qəbul edilməsində ABŞ bir daha öz prinsipial mövqeyini bildirdi.

ABŞ prezidentinin Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə göndərdiyi məktubda bildirilirdi ki, o, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquq prinsipləri əsasında həll edilməsini dəstəkləyir (8).

Almaniya Federativ Respublikası Bundestaqının Qafqaz qrupunun rəhbəri, ATƏT-in Parlament Assambleyasının vitse-prezidenti Villi Vimmerin «Almaniya heç vaxt hansısa ölkənin ərazi bütövlüyünün pozulması və əmin-amanlığın məhz

ərazi hesabına təmin edilməsi mövqeyi ilə barışmayacaq» (2, 23 avqust 1995) deməsi xarici siyasətdə Heydər Əliyev diplomatiyasının çox mühüm qələbəsi idi.

Heydər Əliyevin diplomatik kursunun nəticəsində, Budapeşt və Lissabon Sammitləri arasındakı iki illik fəaliyyət zamanı ATƏT və onun Minsk qrupuna daxil olan digər üzvlərin də mövqeyi respublikamızın xeyrini tam dəyişdi. Əvvəllər bu məsələnin həlli ilə bağlı yekdil fikrə gələ bilməyən İtaliya, İsveç, Finlandiya, Belarus Lissabon sammiti ərəfəsində Azərbaycanın haqlı olması qərarına gəldi. Təsadüfi deyil ki, Minsk qrupunun 11 üzvündən 10-unun razılığı ilə (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin beynəlxalq prinsiplərə uyğun və Azərbaycanı qane edən həlli layihəsi yekdilliklə qəbul edildi.

Azərbaycan hökuməti ATƏT-in Minsk qrupu üzvləri ilə, həmçinin bütün ATƏT üzvü olan dövlətlərlə fəal iş aparmaqla respublikamızın haqq işi uğrunda mübarizəsində, ərazi bütövlüyünün bərpa edilməsində onu dəstəkləyən dövlətlərin sayı artdı. Ermənilərin işğalçı siyasəti ifşa edildi və erməni siyasəti iflasa doğru yuvarlanmağa başladı. Bu siyəsətin ardıcıllığı nəticəsində respublikamızı dəstəkləyən dövlətlərin Ermənistana təzyiqi artdı, Ermənistanı müdafiə edənlər bitərəfləşdirildi, Dağlıq Qarabağ problemi öz ədalətli və sülh yolu ilə həllinə yaxınlaşdı.

Azərbaycan Respublikası Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunmasında beynəlxalq təşkilatların rolundan istifadə etmək məqsədilə qısa müddət ərzində BMT, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), İslam Konfransı Təşkilatı (İKT), Türk Dövlətləri Birliyi (TDB), Müstəqil Dövlətlər Birliyi (MDB), Beynəlxalq Valyuta Fondu (BVF), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), Ümumdünya Bərpa və İnkişaf Bankı (ÜBİB) və İslam İnkişaf Bankının (İİB) üzvü oldu, Parlamentlərarası İttifaq, Avropa Birliyi, Avropa Şurası, Avropa Parlamenti, NATO kimi beynəlxalq və regional qurumlarla qarşılıqlı faydalı əlaqələr yaratdı. Həmçinin Dünya dövlətlərini lazımınca məlumatlandırdı, ayrı-ayrı dövlətlərin, regional təşkilatların Ermənistanın mövqeyini pisləyən qərarlarının, bəyanatlarının qəbul edilməsinə nail oldu.

Budapeşt sammitindən çox keçməmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan hökumətinin çox fəal iş aparması ilə Minsk qrupunun, ATƏT üzvü olan başqa ölkələrin Dağlıq Qarabağ probleminin yalnız beynəlxalq prinsiplər və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi yolu ilə həll oluna bilməsi haqqında rəylərini ala bildi.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Heydər Əliyevin çevik siyasi fəaliyyəti 1996-cı ilin dekabrında keçirilən ATƏT-in Lissabon zirvə toplantısında özünü hərtərəfli göstərdi. Heydər Əliyevin gərgin və çevik siyasəti əsasında Lissabon sammitində Azərbaycaınn ərazi bütövlüyünü tanıyan bəyanatı rəsmi sənəd kimi qəbul edildi (3, s. 13).

ATƏT üzvü olan dövlətlərin Azərbaycanla həmrəyliyi, sözsüz ki, yürüdülən ardıcıl siyasət sayəsində qazanılan beynəlxalq dəstəyin nəticəsi idi. Lissabon zirvə

toplantısı ilk dəfə olaraq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini, ümumi və xüsusi cəhətlərini, həlli yollarının hüquqi-siyasi çərçivəsini bəyan etdi (7, s.20).

1997-ci ildən sonra da Azərbaycan Respublikası zorla cəlb edildiyi münaqişənin dinc yolla tənzimlənməsi istiqamətində öz fəaliyyətini davam etdirdi. 1997-ci ilin əvvəlində NATO baş katibinin Bakıya səfəri NATO-Azərbaycan əlaqələrininin yaranması, 1998-ci ildə ATƏT-in Minsk qrupu münaqişənin nizama salınmasında «ümumi dövlət» prinsipinə əsaslanan yeni plana Azərbaycanın etiraz etməsi və ATƏT-in Minsk qrupunun Heydər Əliyev siyasətinin münaqişənin mərhələli həlli prinsipi üzrə danışıqları davam etdirməyə hazır olduğunu bildirməsi uğurlu addımlar idi.

Beləliklə, ulu öndər Heydər Əliyev Respublika rəhbərliyinə qayıdışından sonra var gücü ilə bu münaqişənin həllinə ciddi yanaşması, atəşkəsə nail olması münaqişənin həlli yolunda mühüm bir mərhələnin əsasını qoydu. Bundan sonra Heydər Əliyev beynəlxalq təşkilatlar vasitəsilə Azərbaycanın haqq işinin həyata keçməsinə addım-addım yaxınlaşdı. Ermənistanın və onun havadarlarının niyyəti puça çıxdı. Ermənistan dünyanın bir çox dövlətləri tərəfindən, bir sıra beynəlxalq təşkilatlar tərəfindən işğalçı kimi tanındı.

Ulu Öndərin davamçısı Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin apardığı siyasət nəticəsində qazandığı nailiyyətlər Ümummilli liderimizin siyasətinin uğurlu davamıdır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin yürütdüyü düzgün diplomatik siyasətin nəticəsində Ermənistan Respublikası münaqişənin Praqa prosesi, yəni «mərhələli həll» modeli ilə razılaşmaq məcburiyyətində qaldı.

Prezident İlham Əliyevin kəskin şəkildə ifadə etdiyi «Azərbaycan torpaqları danışıqların mövzusu ola bilməz» fikri Ermənistan hökumətinə və həmçinin onun tərəfdarlarına tutarlı bir məsac oldu.

Dağlıq Qarabağ probleminin həlli ilə birbaşa məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyətində son dövrlərdəki irəliləyişlər özünü 2007-ci il Madrid danışıqları və 2008-ci ihn noyabrında Moskva bəyannaməsində göstərdi.

2008-ci il noyabrın 2-də Moskvada qəbul edilmiş bəyannamədə baza prinsiplərinin özündə etiva edən sənəd Madriddə müəyyənləşdirilmiş prinsiplər əsasında Moskvada təsdiq olundu. Çox maraqlı məsələ o idi ki, burada ərazi bütövlüyü və işğal faktı rəsmi təsdiqlənirdi.

Azərbaycan hökumətinin həyata keçirdiyi xarici siyasət kursu Respublikamızın beynəlxalq aləmdə daha da tanınmasına, sülh, əməkdaşlıq və tərəqqi mərkəzinə çevrilməsində uğurlu addım atılmış oldu. Azərbaycanın malik olduğu iqtisadi potensial, ölkə rəhbərliyi tərəfindən həyata keçirilən kompleks islahatlar kursunun respublikamızın milli maraq və mənafelərini daha etibarlı səviyyədə təmin etməsini göstərdi. Azərbaycanın sürətli inkişaf yolunda olması Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində uğurlu nəticə əldə

etməyə inamı artırdı. Şübhə yoxdur ki, cənab prezidentimiz İlham Əliyevin apardığı cəsarətli siyasət nəticəsində Dağlıq Qarabağ və işğal altında olan digər torpaqlarımız azad ediləcəkdir.

Beləliklə, Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi üçün Azərbaycan Respublikasının dövlət başçısının həyata keçirdiyi müdrik siyasi kurs davam etdiriləcək, ərazi bütövlüyümüz təmin ediləcəkdir.

**Ədəbiyyat:**


1. Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı, 2000.
2. Azərbaycan beynəlxalq aləmdə //Azərbaycan qəzeti.
3. ATƏT-in məlumatı. Lissabon sənədləri 1996.
4. ATƏT-in Lissabon Zirvə görüşündə Azərbaycan prezidenti Heydər Əliyevin nitqi (2 dekabr 1996) // Dirçəliş- XXI əsr, 2003, M>70.
5. Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1995), Bakı, 2000.

6.Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması // Dirçəliş - XXI əsr 2003.

7. Lissabon sammiti-96, tərtilə edən: Ə.Həsənov., Ş.Şahməmmədəv. Bakı. 1997.
8. Xalq qəzeti, 14 noyabr 1996.


Firdovsiyyə Əhmədova

## QARABAĞDA SİYASİ VƏZİYYƏT VƏ GENERAL-QUBERNATORLUĞUN YARADILMASI

Azərbaycan Cümhuriyyəti və Ararat Respublikası elan edilərkən tərəflər arasında razılaşdırılan ilk məsələ ərazi zəminində olmuşdur. Bəyan edilən erməni dövlətinə siyasi mərkəz kimi İrəvanın güzəşt edilməsi müqabilində ermənilər Qarabağa iddia ilə çıxış etməyəcəklərinə dair şifahi öhdəlik götürmüşdülər. Hətta Azərbaycan hökumətinin başçısı F.X.Xoyski 1918-ci il iyulun 31-də İstanbulda olan M.-Ə.Rəsulzadəyə yazırdı ki, "əgər ermənilər Qarabağa iddia bildirsələr, onda onlara İrəvanı və Qazax qəzasının bir hissəsini güzəştə getməkdən imtina edin". (4, s.42) Erməni hökuməti Qarabağa dair iddialarını Azərbaycan hökumətinə dərhal rəsmi şəkildə ünvanlamasa da, xaricdə apardıqları təbliğatda, o cümlədən Türkiyənin rəsmi şəxsləri ilə görüşlərdə tələb etdikləri sərhədlər daxilində tərtib olunmuş xəritəyə görə bir çox ərazilərlə yanaşı Qarabağa da iddialı idilər. (4. s.48) Bu iddianı rəsmi erməni hökumətinin deyil, Qarabağın dağlıq hissəsində yaşayan ermənilərin gerçəkləşdirməsi adı altında iyulun 22-də, yəni Azərbaycan və Erməni Milli Şura nümayəndələri arasında Erməni federasiyası ilə Azərbaycan ərazilərinin sərhədlərinə dair danışıqlarda əldə olunmuş razılaşmaya rəğmən ay yarım sonra Qarabağın dağlıq hissəsini müstəqil elan etdilər. (9) Erməni federasiyası tərkibinə daxil olmaq məsələsi hələ qaldırılmamışdı. Sovet hakimiyyətinin ilk və son

illərində də "Dağlıq Qarabağın müstəqilliyi" pərdəsi altında sonradan Ermənistan respublikasına birləşdirilməsi planlaşdırılmışdı. (7) Digər tərəfdən Qarabağ ərazisində "qeyri-rəsmi" ad altında Andranikin hərbi qüvvələri intensiv olaraq dinc müsəlman əhalini kütləvi surətdə qırırdı. Erməni hökumətinin Qarabağla bağlı planlarını faktiki olaraq Andranik gerçəkləşdirirdi. Məsuliyyətdən kənarda qalmaq səbəbindən Andranikin xüsusi erməni korpusuna tabe olmadığını bildirirdi. Andranikin Qarabağla bağlı planlarını və əməllərini əks etdirən məktubu daşnakların "Nor Orizon" qəzetində dərc edilmiş və həmin yazı "Azərbaycan" qəzetinin 17 dekabr 1918-ci il tarixli nömrəsində verilmişdir. (5, s.77-78) Noyabrın 27-nə aid olan məktubda Andranik 3 ay ərzində Qarabağda olduğunu göstərir. Mətnə görə Ermənistan Respublikası ilə "Türk hökuməti" arasında Batumda sülh müqaviləsinin imzalanmasını Qafqaz erməniləri üçün faciə saymış, müttəfiq ingilis ordusu ilə birləşib "Türkiyə Ermənistanının qurtuluşuna" nail olmaq istəsə də, Naxçıvan yaxınlığında toqquşmadan sonra öz dəstəsi ilə Qarabağ dağlarına sığınmışdır. Andranikin yazdığına görə Zəngəzur əhalisi tərəfindən etibar və dəstək görməyərək dəstəsinin əksər hissəsi Qarabağdan getmişdir. Özü ilə az sayda əsgərin qaldığını və heç bir halda Ararat Respublikası hüdudlarına girməməyə qərar verdiyini yazmışdır. Azərbaycan hökumətinə tabe olub, silahı təhvil vermək tələbi müqabilində Gümrüdə, Gorusda əhali Azərbaycan hakimiyyətinin təbəəliyini qəbul etməyə razı olduqda Andranik özünün yazdığına görə "qətiyyətli müqavimət" göstərərək bu niyyətin qarşısını almış, Sisyanda 20 yaşından 30 yaşınadək, Qafanda 20 yaşından 50 yaşınadək kişilərin səfərbərliyi keçirilmişdir. Azərbaycan hökumətini "güclənmiş və azğınlaşmış düşmən" adlandıran Andranik Zəngəzur, Sisyan və Qafan məsələsinin artıq faktiki həll olunduğunu, yaxın vaxtda Şuşa ilə bağlı da həll olunacağına ümid etdiyini yazırdı.

Andranikin belə əminliklə proqnoz verməsi bölgədə müsəlman əhalinin - azərbaycanlıların amansızcasına qətliama məruz qalması prosesinin nəticəsinə hesablanmış qərar sayıla bilər. Belə ki, 1918-ci ilin iyulundan Zəngəzur qəzasında müsəlman kəndlərini məhv edərək avqustda qəzanın bir hissəsini tutmuş, Şuşa qəzasını Azərbaycandan təcrid etmişdi. (4. s.54) Azərbaycan hökuməti "bütünlüklə Bakı məsələsi ilə məşğul olduğundan" (4, s.42) erməni separatçılarının törətdiyi problemi danışıqlar yolu ilə nizama salmaq məqsədilə Şuşaya nümayəndə heyəti göndərmiş, avqustun 15-də Andranikin törətdiyi qırğınlarla əlaqədar Ermənistan hökumətinə etiraz notası vermişdi. İki gün sonra erməni hökuməti notaya cavabında bildirirdi ki, Andranik və onun dəstəsi onların rəsmi korpusuna daxil deyildir. Andranikin fəaliyyətinin Ararat dövlətinə aidiyyatının olmaması görüntüsü yaratmaq, Qarabağla bağlı niyyətini, planlarını ört-basdır etmək məqsədilə Ermənistan hökumətinin Tiflisdəki diplomatik nümayəndəsi 1918-ci ilin avqustunda Azərbaycanın oradakı diplomatik nümayəndəsindən Şuşaya Ermənistanın "xüsusi nümayəndə heyəti" göndərməsinə razılıq verməyi xahiş etmişdi. (8, s.10).

1918-ci il yayın sonunda Qarabağdakı vəziyyətin azərbaycanlılar üçün son dərəcə dözülməz olduğu səbəbindən Ənvər Paşa Nuri Paşaya Zəngəzur və Qarabağı tutmaq əmri vermişdi. Qarabağda döyüş əməliyyatlarına rəhbərlik birinci Azərbaycan diviziyasının komandiri Cəmil Cahid bəyə həvalə olunmuşdu. Cəmil Cahid bəy tərksilah və Azərbaycan hökumətinə tabe olmaları haqqında Qarabağ ermənilərinə ultimatum verdi. Ermənilər sentyabrın sonlarında qurultay çağıraraq Azərbaycan hökumətini tanımayacaqlarını bildirdikdə, Cəmil Cahid bəy ən qısa müddətdə ermənilərin təslim olmayacağı təqdirdə Şuşaya hücum başlanacağını söyləmişdi. Oktyabrın 3-də ermənilər yeni qurultay çağıraraq Azərbaycan hökumətini tanımağı qərara alsalar da, tərksilaha dair tələblə razılaşmamışdılar. Oktyabrın əvvəlində Azərbaycan hərbi hissələri Şuşa şəhərinə daxil olmuş, ermənilər Azərbaycan hakimiyyətini qəbul etdiklərini bildirmişdilər. Türkiyə hərbi hissələri Cənubi Qafqazdan çıxdıqdan və müttəfiq dövlətlərinin hərbi qüvvələri gəldikdən sonra Andranik yenidən "fəlakətlər çıxarmağa başladı, böyük xətalar əmələ gəldi". (2, s.98). Hökumət başçısı F.X.Xoyski Zəngəzur mahalında Andranikin törətdiyi qırğın və talanlar barədə general Tomsona məlumat verib, gələn teleqramların surətini ona göndərmişdi.

Tomsonun nümayəndəsi Andranikə bildirmişdi ki, asayiş bərpa edilməsə bütün məsuliyyət onun öhdəsinə düşəcəkdir. Müsəlmanlar ingilis heyətinə inanıb, səngərlərindən çıxıb gedən kimi ermənilər müsəlman kəndlərini yandırıb dağıtmağa başlamışdılar. (2, s.99) Tomsonun əvvəl göndərdiyi "heyət və məktub ilə guya Qarabağın ixtiyarını və idarəsini Andranikə" tapşırdığı barədə dekabrın əvvəlində yayılmış xəbərin yanlış olduğunu F.X.Xoyski parlamentdəki çıxışında bəyan etmiş və dekabrın 22-də general Tomson da yayılmış şayiəni təkzib etmişdi. (2, s.100; 1, s. 128-129) Yerli müsəlman təbəqələrinə qarşı qırğınların, talan və zorakılıqların davam etməsi Azərbaycan hökumətini qəti tədbirlər görməyə məcbur edirdi. Andranikin qanlı əməllərinin şahidləri Azərbaycan hökumətinə teleqramlar ünvanlayırdı. F.X.Xoyski Cəbrayıl qəzasından aldığı 2 teleqramı məlumat üçün general Tomsona göndərmişdi. Andranikin başçılığı ilə erməni quldur dəstələrinin müsəlman əhaliyə tutduğu qanlı divan konkret şəxslərin imzaladığı teleqramlarda faktlar əsasında göstərilirdi. Zəngəzurda 50-dən çox türk kəndinin dağıdıldığı, minlərlə ölən və yaralanan olduğu bildirilirdi. Müttəfiq dövlətlərin nümayəndələrinin diqqətini Zəngəzura cəlb edib, yerlərdə ermənilərin vəhşiliklərini öz gözləri ilə görüb inanmaları üçün təcili komissiya göndərməyi, başdan-başa qırılan müsəlmanların müdafiəsi üçün dərhal tədbirlər görməyi xahiş edirdilər. Bu teleqramlardan bir neçə gün öncə general Tomson Azərbaycan ərazisindəki erməni dəstə başçılarına teleqram ünvanlayaraq Gəncə və Qazax qəzalarında ermənilərin törətdiyi özbaşınalıqlara, qarətlərə son qoymağı əmr etmiş və bütün ermənilərə sakitcəsinə öz evlərində qalmağı tapşırmışdı. (5, s.84) Müttəfiq komandanlığı nümayəndələrinin hərbi əməliyyatları dayandırmaq haqqında xəbərdarlığına müsəlmanlar riayət edərək erməni həmləsinin qarşısını

almaq üçün tutduqları mövqeləri tərk edib evlərinə dağılmışdılar. Bu vəziyyətdən istifadə edən Andranik Türkiyə və yerli ermənilərdən ibarət dəstəsinə müsəlman kəndlərinə qəfildən hücuma keçməyi əmr etmişdi. Zəngəzur qəza rəisi Məlik Namazəliyevin teleqramına görə silahlı ermənilər dekabrın 9-da 12-dən çox müsəlman kəndinə od vurmuş, qılıncdan keçirmiş, cinsinə, yaşına fərq qoymadan vəhşicəsinə müsəlmanları qırmış, meyitlər üzərində həqarət etmiş, qadınlara təcavüz etmişdilər. On qadının ermənilərdə əsir olduğunu bildirərək qoşun göndərilməsini xahiş edirdi. (5, s.104)

Qarabağda Andranikin və dəstəsinin törətdiyi azğınlıqlar səbəbindən Azərbaycan parlamentinin 1918-ci il dekabrın 20-də təcili iclası çağırıldı.

Geniş, gərgin, əsasən hökumətə qəti tədbirlər görmək tələbi ilə keçən müzakirədə Fətəli xan Xoyski çıxış edərək iyul ayından etibarən Andranikin törətdiyi qanlı əməllərdən, hökumətin gördüyü tədbirlərdən ardıcıllıqla bəhs etmişdir. Müttəfiq dövlətlər komandanlığının, general Tomsonun məsələyə müdaxiləsinin nəticələrinə münasibətdə Fətəli xan nikbin yanaşmamış ("Qarabağa zirehli avtomobillər və əsgərlər ilə heyət gedən vaxtda istərəm Tomsona yazıb xəbər verim ki, Qafqaziya əhalisi bu tövr heyətləri çox görmüşdür. Bunlar ilə iş düzəlməyib nəticəsiz qalacaqdır. Burada iş görmək üçün söz ilə deyil, başqa yol ilə təsir etməlidir. Göndərilən heyətin nə iş gördüyü və nəticəsi məlum deyildir"), bununla belə "ixtilaflı sərhəd məsələlərinin sülh yolu ilə həll olunmasını" təklif etmiş, amma bunu da bildirmişdir ki, "lazımi təqdirdə silaha sarılsaq, hamı bunu bilir ki, bizi belə vəsiləyə əl uzatmağa məcbur ediblər. Hökumət tərəfindən ərz edirəm ki, mümkün qədər zərərsiz, qansız, sülh ilə hər məsələnin xitamə yetməsinə çalışmaq, hökumət şimdi də belə müamilədə bulunacaqdır. Əks surətdə hökumət özü, öz gücü ilə, qüvvəsilə Azərbaycan hökumətini hər bir təcavüzdən mühafizə edəcəkdir". (2, s.104) Hətta sosialistlər adından ətraflı mövqe bildirən Əhməd Cövdət çıxışının sonunda "Biz nə qədər hərb tərəfdarı olmasaq da fəqət, bu vaxtda qüvveyi-cəbriyyənin bütün-bütünə Qarabağda icra olunmasını rədd etməyir, istəriz" söyləmişdir. (2, s.104) Vəziyyətin daha təhlükəli aqibəti barədə digər sosialist Ə.Şeyxülislamov xəbərdarlıq etmişdir: "Qafqaziya qitəsi Balkan yarımadası kimi qan dəryasına dönə bilər... Əsl məsələ hüdud məsələsidir... bu hərəkətin bir hazırlanmış layihəsi, prosesi vardır ki, Sinaen dağlarından Şuşa dağlarına təkin toplar guruldayır, qanlar sel kimi axır. Bu layihə ermənilər üçün böyük əhəmiyyəti haiz daşnaq firqəsi tərəfindən hazırlanmışdır... Bu qiyamətləri qoparan, bütün Qafqaziya sülhünü pozan, qanlar ilə dağları boyayan ancaq daşnaqlar firqəsi olmuşdur... Biz sosialistlər müharibəyə zidd olduğumuz ilə bərabər, rəsmi bir müharibəyə şükür etməliyiz. Çünki orada dinc əhalinin hüququnu mühafizə edici qanun vardır. Burada isə müharibə deyil, qoca, qarı, övrət, uşaq qırılır. Dinc əhalinin xanimanları dağılıb, özləri çöllərə buraxılır". İclasda çıxış edən fraksiya nümayəndələrinin hamısı hökumətdən daha qəti tədbirlər görməyi tələb etmişdilər. Q.Qarabəylinin söylədiyi "Gördükdə ki,

ingilislər oraya nümayəndələr göndərdilər, bir iş görüldüyü hələ yoxdur. Deməli, bizim öz qüvvəmiz olmalıdır. Əlimizdə olan qüvvənin həpsini əldə etmək lazımdır ki, bunların qarşısını özümüz alalım" fikirləri Abdulla bəy Əfəndiyev qismən etirazla, mahiyyətcə isə dəstəkləyici tərzdə tamamlamışdır: "Deyirlər, hazırda bizim qüvvəmiz yoxdur. Lakin bu səhvdir. Millət böyük bir qüvvədir. Millət görsə ki, vətən və istiqlalın müdafiəsinə durmaq lazımdır, dərhal çeteçilərin müqabilinə cümhuriyyətimizi müdafiə və mühafizə etməyə hazırdır. Hökumətimiz millətin belə hazırlığına istinad edərək məsələni sülh ilə həll etmək mümkün olmasa, qüvvə müqabilinə qüvvə çıxara bilər".

Ermənistan dövləti yaradıldığı ilk gündən iddiasında olduğu torpaqlara görə zor gücünə gerçəkləşdirdiyi təcavüzkar siyasətini diplomatik yolla pərdələməyə cəhd edir, təcavüzə məruz qoyduğu tərəfi təqsirkar qismində ittiham edir, bu zəmində beynəlxalq ictimai rəy formalaşdırmağa səy göstərirdi. Azərbaycan hökumətinin öz ərazisində milliyyətinə fərq qoymadan vətəndaşlarının həyatını, heysiyyatını, mülkiyyətini məsuliyyətsiz şəxslərin özbaşınalığından qorumaq və qayda-qanunu bərpa etmək məqsədilə gücləndirilmiş tədbirlər görməyi nəinki hüquqi, hətta mənəvi borcu hesab edərək Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur rayonlarında müvəqqəti general-qubematorluğun təsisi haqqında 1919-cu il 13 yanvar tarixli qərarına Ermənistan hökuməti etirazını bildirmişdi. Bu etirazı Azərbaycanın daxili işlərinə qarışmaq cəhdi ilə onun suverenliyinə qəsd kimi dəyərləndirməyi mümkün hesab edərkən A.Ziyadxanov ermənilərin ittiham motivinə qarşı çıxırdı. Belə ki, Azərbaycan hökumətinin qərarını qonşu tərəf Ermənistanın ərazi hüquqlarına qəsd hesab etmişdi. Məhz bu səbəbdən Ermənistanın etirazı əsassız sayılmış, onlara cavab notasında general-qubernatorluq ərazisinin Azərbaycanın şəksiz və ayrılmaz hissəsi olduğu vurğulanmışdır. (4. s. 146-147) Ermənistan hökumətinin ölkəsi daxilində müsəlman əhaliyə qarşı zorakı siyasətinin genişləndiyi və Azərbaycan torpaqlarına iddialarının səngimədiyi şəraitdə, oraya Azərbaycanın diplomatik nümayəndəsinin tezliklə təyin edilməsinin vacibliyinə dair T.Makinskinin F.Xoyskiyə 18 yanvar 1919-cu il tarixli müraciətindən az sonra yanvarın 31-də vəkil M.Təkinski Azərbaycanın Ararat Respublikasında diplomatik nümayəndəsi təyin olundu. Yanvarın 29-da isə Xosrov Paşa Sultanovun Qarabağ general-qubernatoru təyin edilməsi qərara alındı (3, s.269-270). Azərbaycan hökumətinin qəti addımlarından narahat olan Ermənistan hökuməti Qarabağa dair açıq iddia ilə çıxış etdi.

1919-cu ilin əvvəllərində Ermənistan hökumətinin Qarabağın bir hissəsinə iddia ilə çıxış etməsini Azərbaycanın rəsmi dairələri gözlənilməz addım kimi tamamilə əsassız hesab etdilər. Erməni tərəfi hamıya iddialarının «etnoqrafik və tarixi hüquqlara» əsaslandığını və bu hüquqlarının «mübahisəsiz» olduğunu bildirməyə çalışırdı. Bu iddianın heç bir əsasa malik olmadığını göstərmək üçün Azərbaycan xarici işlər nazirliyinin əməkdaşı A.S.Şepotyev «Azərbaycan» qəzetində Qarabağın tarixinə dair məqalə ilə çıxış etdi. (6, 1919. 11 fevral)

Borçalının bütün ərazisinə iddialarında uğursuzluğa düçar olan ermənilərin, indi də Azərbaycanın ayrılmaz əsas hissələrindən birinə - Qarabağa iddiasına dərhal son qoyulması tələb olunurdu. Qarabağa iddialarının çoxdan «hazırlandığı», erməni hökumətinin «bir müddət» rəsmən imtina etdiyi, sonra isə öz himayəsi altına aldığı Andranikin çağırışından bəlli olduğu göstərilirdi. Erməni dövləti yaradılarkən Qarabağa iddia etməyəcəkləri vədinə rəğmən buna əməl etmədi, az sonra bu barədə hər fürsətdə məsələ qaldırırdı. 1918-ci ilin oktyabrında erməni heyətinin sədri A.Aqoronyan Ə.M.Topçubaşova məktub göndərərək Qarabağa hərbi ekspedisiya göndərilməsinin qarşısını almağa çağırmışdı. Azərbaycan hökumətinin Qarabağa qoşun göndərə bilməsini qanuni sayan Ə.M.Topçubaşov bildirmişdi ki, Qarabağı təşkil edən Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları Azərbaycamn tərkilənə daxildir. (5. s.30-31) Azərbaycanın ərazi bütövlüyünü təmin etmək yönündə hökumətin müvafiq tədbirinə sərt reaksiya verən erməni dövləti Andranikin dəstəsi ilə aylarla Qarabağda törətdiyi qırğınlara seyirci qalmışdı.

Parlament üzvləri Gürcüstan və Ermənistan dövlətləri arasında qanlı toqquşmaya dair müzakirəyə keçəndə də Azərbaycan torpaqlarının müqəddəratına münasibətdə M.Ə.Rəsulzadə bir daha ümumi mövqeni ifadə etdi: «Arada ixtilaflı olan torpaq məsələsidir. Əz cümlə «Borçalı» uyezdi süni bəhsidir. Biz biliriz ki, Borçalının türk və müsəlmanlar ilə məskun olan qismi Azərbaycandan ayrılmayacaq bir qitədir. Zəngəzur, Qarabağ uyezdi yenə Azərbaycandan ayrılmayacaqdır». Qara bəy Qarabəyli «yenə müsəlman qanları axıdıla biləcəyi»ndən ehtiyat edirdi: «Çünki toqquşma vaqe olan yerlər Borçalıdır. Burası müsəlman yerləridir. Burada ən əvvəl müsəlman qanları axacaqdır». Hökumət başçısı Fətəli xan Xoyski yaranmış narahatlığı əsaslı sayaraq Qarabəylinin sualını «hüdudumuzun başqa bir tərəfdən keçilməməsi üçün bir çox əsgəri tədbirlər görülmüşdür. Qüvvə də hazırlamışıq» - deyərək cavablandırmışdır.

Azərbaycan hökuməti hüdudlarının mühafizəsi yönündə gücləndirici tədbirlər görməklə yanaşı mütəmadi olaraq erməni təcavüzünün qarşısını almaq məcburiyyətində idi. Təcavüzə məruz qalan əhali təbii olaraq hökumətdən imdad diləyir, təxirəsalınmaz tədbirlər görməyi tələb edirdi. Milli komitənin sədri Mir Hidayət Seyidzadə Ordubad şəhəri və ətraf ərazilərində müsəlmanların vəziyyəti haqqında 1918-ci il dekabrın 22-də hökumətə göndərdiyi məlumat vərəqəsində sərt xəbərdarlıq etmişdir: «Ermənilər bu ərazini müsəlmanlardan təmizlədikdən sonra artıq gec olacaqdır. Onda bizim torpaqlara ermənilər yerləşdiriləcək, bizim xalqın burda hətta izi belə qalmayacaqdır... Onlar cəhd edirlər ki, Ararat dövləti Türkiyə sərhədlərindən Şuşayadək uzansın və bu məkanda tək bir müsəlman-türk belə yaşamasın, bunun üçün də hər əlverişli fürsətdən istifadə edirlər» (6, 1919, 14 yanvar) Bəzi kəndlərdə bütün Zəngəzur qəzasının erməni dövlətinə birləşdirilməsi haqqında erməni hökumətinin elanları asılmışdı.

Zəngəzur, Şərur, Naxçıvan və Ordubad qəzalarında son dərəcə dəhşətli vəziyyət barədə bir neçə gün sonra «Azərbaycan» qəzeti məlumat verirdi.

Bölgədən olan nümayəndə böyük çətinliklərlə yanvarın 4-də Bakıya çatmış, bəzi sənədlər və hökumətə məlumatlar gətirmişdi. Qəzetdə dərc olunan məktubların birində Ordubad müsəlmanlarının faciəli vəziyyəti həyəcan doğurmaya bilmir: «Qardaşlar! Vəziyyət günbəgün pisləşir... Qarabağda ermənilər müsəlman kəndlərini darmadağın edir... Bir milyonluq müsəlman əhalisi İrəvandan başlayaraq Şuşaya qədər zülm çəkir, talan olunur, məhv edilir... heç kim bizim yardım harayamızı eşitmir». «Bu qədər camaatın məhv edilməsinin» dözülməz olduğunu Avropa dövlətlərinə bildirmək, qonşu gürcülərə xəbər vermək tələb olunurdu. Kömək xahişi ilə həmçinin Azərbaycan Cümhuriyyətinin Təbrizdəki nümayəndəsi Rauf bəyə Naxçıvandan teleqram verilmişdi. (5, s. 133-134) Belə bir şəraitdə Azərbaycanın daxili işlər nazirliyi tərəfindən Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları əsasında müvəqqəti general-qubernatorluq yaradılması təklifinin hökumət səviyyəsində qərarlaşması gerçək vəziyyətdən irəli gələn, bölgədə baş verən qanlı proseslərlə şərtlənən təxirəsalınmaz zəruri tədbir idi. Zəngəzur qəzasında fövqəladə şərait səbəbindan Azərbaycan ordusuna əsgər yığılması xüsusi sərəncam olanadək təxirə salınmışdı. (3, s.265)

Xosrov bəy Sultanov general-qubernatorluğun təşkili ilə əlaqədar bəzi işləri Bakıda gördükdən sonra fevralın 12-də Şuşaya gələrək vəzifəsinin icrasına başlamışdır. Hər vəchlə Qarabağ general-qubernatorluğunun ləğvinə nail olmağa çalışan Ermənistan hökuməti müttəfiq qoşunlarının komandanlığına təsir göstərsə də istədikləri nəticəni əldə edə bilmədilər. Ermənistanın Britaniya qoşunlarının Tiflisdəki komandanı Uorkerə müraciəti cavabsız qalmış, general Tomsona edilən təzyiqlər də nəticə verməmişdi. Tomsonun nümayəndəsi polkovnik Şatelvorq 1919-cu ilin yazında Şuşaya gedərək ermənilərin Azərbaycan hökumətinə tabe olmasını tələb etmişdi. General-qubernatorluğun səlahiyyətləri Azərbaycan hökumətinin qərarları ilə tənzimlənir, razılaşdırılmamış tədbirlər görülmürdü.

Bir neçə ay fəaliyyət göstərməsinə baxmayaraq general qubernatorluğu erməni milli şurasının qatı mürtəce nümayəndələri tanımaqdan imtina edirdilər, Ermənistan hökumətinin Qarabağdakı emissarları pozuculuq fəalliyyətini davam etdirirdi. Belə şəxslərin sürgün edilməsi haqqında Tomson sərəncam vermiş, həmin şəxslər ingilis komandanlığı nümayəndəsinin müşayiəti ilə iyunun 5-də Şuşadan Tiflisə sürgün olunmuşdu. (1, s.129) Qubernatorluğun gördüyü tədbirlər nəticəsində 1919-cu il avqustun 15-də Qarabağdakı ermənilər Azərbaycan hökuməti ilə saziş bağlayırlar və Azərbaycan hakimiyyətini tanıdıqlarını qəbul edirlər. Azərbaycan hökuməti isə onlara mədəni müxtariyyət təklif etmişdi. Sentyabrın 29-da general-qubernatorluğun sərəncamına Qarabağın erməni müəllimlərinə, yardım kimi paylanmaq üçün bir milyon rubl pul ayrılmışdı. (3, s.365-366) Bu, hökumətin dinc erməni əhalisinə qarşı humanist bir addımı idi. Ermənistan hökuməti isə orada yaşayan azərbaycanlıların canına, malına-mülkünə qəsd edərək, doğma yurdlarını tərk etmələrinə, həmin torpaqların «etnik təmizlənməsi» nəticəsində yalnız ermənilərə məxsus olmasına çalışırdı. Keçmiş

İrəvan quberniyasından olan minlərlə müsəlman qaçqın Qarabağ qubernatorluğu ərazisində yerləşdiyindən vəziyyət daha da çətinləşmişdi. 1919-cu ilin payızında Zəngəzurda davam edən müsəlman qırğınlarının qarşısını almaq məqsədilə Azərbaycan hökuməti Qarabağ general-qubernatorluğuna kiçik qoşun hissələri göndərmişdi. Noyabrın 23-də Cənubi Qafqazda müttəfiq dövlətlərin ali komissarının müavini Ceyms Reyin iştirakı ilə Azərbaycan hökumətinin sədri Nəsib bəy Yusifbəyli və Ararat respublikasının hökumət başçısı Xatisov arasında Tiflisdə saziş imzalansa da, Ermənistan hökuməti sazişin şərtlərini pozaraq dekabrın 8-də Zəngəzura qoşun yeritmişdi. Hərbi müdaxilə ilə yanaşı «Dağlıq Qarabağın» «azad» edilməsi üçün 19 milyon rubl vəsait də ayırmışdı. (1, s.130) Erməni təcavüzünün genişlənməsi Zəngəzurda müsəlman əhalinin kütləvi qırılması ilə müşayiət olunurdu. 1920-ci ilin yazında Ermənistan hökumətinin bilavasitə iştirakı və mərkəzi Sovet hakimiyyəti ilə sövdələşmə nəticəsində Qarabağda ermənilərin qaldırdığı qiyam Azərbaycan hakimiyyətinə qarşı çevrilmişdi. Azərbaycan hərbi hissələri tərəfindən qiyam yatırılsa da, Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsində məşum rolunu oynadı. Cümhuriyyətin süqutu ilə Qarabağ general qubernatorluğunun fəaliyyətinə son qoyuldu.

Qarabağ general qubernatorluğunun tarixi hazırkı dövrdə münaqişənin həlli prosesində mühüm əhəmiyyətə malik təcrübədir.

Azərbaycan hökuməti üçün «Qarabağ xüsusunda mübahisə yoxdur» tezisi mütləq məzmun daşısa da, Ararat respublikası üçün Qarabağa dair iddiaları sövdələşmə predmeti olmuşdur.

İlk əvvəl İrəvanın güzəşt edilməsi müqabilində Qarabağ iddiasından imtina edən ermənilər sonrakı tarixi dövrlərdə yeni mübadilələr təklif etmişdilər: «Ermənistan hökumətinin nümayəndələri dəfələrlə bizə bildirilələr ki, əgər onlara Qara dənizin sahilində liman verilsə, özlərinin Qarabağa olan iddialarından könüllü imtina edərlər. Onlar əhali mübadiləsi ilə kifayətlənərdilər. Lakin nəzərə almaq lazımdır ki, İrəvan quberniyasında 200 mindən yuxarı azərbaycanlı yaşayır». (8, s.U) Qarabağdakı ermənilərin sayca az olduğuna diqqəti çəkən Ə.M.Topçubaşov bu sözləri İstanbulda ingilis polkovniki Tampla söhbətində bildirmişdi. Osmanlı dövlətinin xarici işlər naziri ilə söhbətində isə Qarabağla bağlı gerçək durumu daha açıq ifadə etmişdi:

«Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi 5, ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq - Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu elə bir xanlığın ərazisidir, burada erməni və müsəlmanların sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur, özü də onlar buranın yerli əhalisi deyillər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya köçənlərdir... Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda yaşamırlar, müsəlmanlarla qarışıq məskundurlar. Bununla belə, biz məsələnin sülh yolu ilə həllinin tərəfdarıyıq». (1, s.124) Azərbaycan Xalq Cümhuriyyəti daima onun üçün ərazi mübahisəsi olub olmamasından asılı olmayaraq həmin məsələni

dinc yolla həll etməyin tərəfdarı olsa da, qonşu erməni dövləti zorakılıq siyasəti yürütməyi məqbul yol bilibdir. Belə ənənə baxımından tarixi təcrübədən nəticə çıxardılmalıdır. Avropa Şurasının baş katibi Terri Devisin dediyinə görə hər bir münaqişənin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin mənşəyinə getmək, yarandığı səbəblərə qarşı mübarizə aparmaq lazımdır. («EURO xəbər», 23 yanvar-12 fevral 2009-cu il, №02(94). 1918-20-ci illərdə Qarabağın dağlıq hissəsi ilə bağlı məsələnin həllində müxtəlif vasitələrdən istifadə olunmuşdur. Azərbaycan hökuməti tərəfindən birgə komissiya yaratmaq, dialoqa getmək, müştərək konfranslar keçirmək, beynəlxalq normalara riayət etmək təklifləri olmuşdur. Qarabağdakı ermənilərlə saziş imzalanmış, məsələnin həllində xarici vasitəçilik missiyası həyata keçirilmişdir. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın bəzi torpaqları süni şəkildə mübahisəli sayılaraq mübadilə vasitəsinə çevrilmişdi. Həm də Azərbaycanın tarixən ayrılmaz hissəsi olmuş bu ərazilərdən bəzisini güzəştə getməklə digərlərini saxlamaq görüntüsü yaradılırdı. Həqiqət isə ondan iləarət oldu ki, keçmiş İrəvan quberniyasının Azərbaycan Xalq Cümlıuriyyəti hakimiyyəti altında qalmalı hissəsindən Şərur və Naxçıvandan başqa qalan qəzalar hamısı Azərbaycan üçün itirildi. Qarabağ, Naxçıvan, Zəngəzur ətrafında sövdələşmələr sonuncunun Azərbaycandan qoparılması, birinciyə dağlıq hissədə muxtariyyət verilməsi, Naxçıvanın isə xalqın iradəsi və ən əsası Türkiyənin qətiyyətli müdaxiləsi nəticəsində Azərbaycan hakimiyyətinə tabe edilməsilə sonuclandı.

Müasir dövrdə Qarabağın dağlıq hissəsi ilə bağlı müzakirə olunan məsələlər 90 il öncə artıq danışıqlar predmeti olmuş, müəyyən qərarlar qəbul edilmişdir. Hətta sovet hakimiyyətinin ilk illərində Qarabağda referendum məsələsi belə müzakirə obyekti olmuşdu və s. Bu gün «Dağlıq Qarabağ məsələsi» ilə bağlı hansısa qərar veriləndə, onun 90 il əvvəlki variantına diqqət yetirmək lazımdır. Əgər 90 il əvvəl yaradılmış general-qubernatorluq Qarabağda Azərbaycan hakimiyyətini bərqərar etmişdisə, 20 il öncə mərkəzi sovet rəhbərliyinin təsis etdiyi A.Volskinin rəhbərliyi altında xüsusi idarəetmə komitəsi Dağlıq Qarabağ ərazisindən azərbaycanlıların sıxışdırılıb çıxarılmasını təmin etdi. Bir daha yanılmamaq, yanlış qərarlar verməmək, müvəqqəti dövrə hesablanmış çıxış yolu mövqeyində durmamaq, Azərbaycanın ərazi bütövlüyünü gələcəkdə sınağa çəkə biləcək güzəştlərə getməmək, yalnız yaxın dövrün optimal seçimini etməmək üçün «Dağlıq Qarabağ məsələsi» ilə bağlı bütün tarix yenidən təhlil olunmalı, arxiv sənədləri ciddi elmi, siyasi, məntiqi analizdən keçirilməli, qarşı tərəfin iddialarını dəf etmək üçün beynəlxalq səviyyədə fəaliyyət istiqamətinin təməl bazası təmin olunmalıdır. Diplomat, politoloq, tarixçi, hüquqşünas iş birliyinin kompleks nəticə uğuru yalnız iqtisadi və hərbi potensialın qüdrətinə hesablanmamalı, bu amilin israfı hesabına təmin olunmamalı, əksinə həmin potensialın səmərəli təyinatına etibarlı zəmin yaratmalıdır.

**Ədəbiyyat:**

1.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, 2004, 2-ci cild.
2.Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (Stenoqrafik hesabatlar), 0.1, 1998.
3.Azerbaydjanskaə Demokratiçeskaə Respublika. (1918-1920 qq). Zakonodatelğnıe aktı (Sbornik dokumentov), Baku, 1998.
4. Azerbaydjanskaə Demokratiçeskaə Respublika. Vneşnəə politika (Dokumentı i materialı), Baku, 1998.
5. Azerbaydjanskaə Respublika. Dokumentı i materialı, 1918-1920 qq., Baku, 1998.
6. «Azerbaydjan» (qəzet).
7. F.Əhmədova. Nəriman Nərimanov ideal və gerçəklik. B., 1998. s. 111.
8. Məmmədova H.İ. Qarabağ general qubernartorluğunun erməni təcavüzünə qarşı mübarizəsi tarixindən səhifələr. B., 1999, s.10.
9. Nəcəfov B. Azərbaycan Demokratik Respublikası. B., 1992, s.39.

**Firuzə ƏLİYEVA**

## ERMƏNİ İDDİALARI VƏ DEMOQRAFİK TƏHLÜKƏSİZLİK

Müasir dövrümüzdə Azərbaycanın ən ağrılı yerlərindən biri Qarabağ problemidir. Qarabağ torpaqlarının erməni qəsbkarları tərəfindən işğalı Azərbaycana güclü təsir etdi. Xalqımızın dədə-baba yurdları olan Ermənistan torpaqlarından və Qarabağdan axırıncı dəfə deportasiya edilməsi ona nəinki maddi, eyni zamanda mənəvi zərbələr vurdu. Azərbaycan xalqına, onun genefonduna təhqiramiz təzyiqlər edildi. Nəticədə bir milyondan çox qaçqın yurd-yuvasından didərgin düşdü. Tarixi vərəqlədikcə İran və Rusiya dövlətlərinin Azərbaycana qarşı düşmənçilik siyasətinin əsrlər boyu davam etdirilməsinin şahidi oluruq.

İndiki Ermənistan ərazisi tarixən Azərbaycan torpağı olub. Təəssüflər olsun ki, bunu erməni daşnaqları dərk etmirlər. Bu ərazi Səfəvilər dövründə mərkəzi İrəvanda yerləşən Çuxursəəd Bəylərbəyliyinin tərkibinə daxil idi. Rus-İran və Rus-Osmanlı müharibələrinin nəticələri bu ərazilərə ermənilərin axırını kütləviləşdirmişdir. Rusiya imperiyası işğal etdiyi Şimali Azərbaycan torpaqlarında möhkəmlənmək və burada Osmanlı dövlətinə qarşı bufer zolağı yaratmaq üçün əhalinin erməniləşdirilməsi siyasətini həyata keçirirdi. 1783-cü il mayın 19-da G.A.Potyomkin U.Yekaterinaya yazdığı məktubda deyirdi: «Fürsət tapınca Qarabağı ermənilərin nəzarətinə vermək və bununla da Asiyada bir xristian dövləti yaratmaq üçün lazım olanları etmək vacibdir».

A.S.Qriboyedov isə ermənilərin rus torpaqlarında yerləşdirilməsinin əleyhinə idi. Çünki ermənilərin məkrli niyyətlərindən xəbərdar olmuşdu. Məsələn, A.S.Qriboyedov Rusiya imperatoruna məktubunda vurğulayırdı: «Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz.

Onlar elə tayfalardır ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bura bizim-qədim dədə-baba torpaqlarımızdır».

Bütün bu fikirlər Azərbaycan torpaqlarını işğal edən ermənilərin iç üzünü bir daha açıb göstərir.

Çar höküməti bütün bunlara rəğmən 1828-1830-cu illərdə ermənilərin vəziyyətini iqtisadi, siyasi və eyni zamanda demoqrafik baxımdan onların xeyrinə dəyişərək, Şimali Azərbaycana İrandan 40 min, Osmanlı imperiyasından isə 90 minə qədər erməni köçürtdü. Qeyri-erməni köçkünləri ilə birlikdə onların sayı 200 mini ötmüşdü ki, bunların da bir qismi məhz İrəvanda məskunlaşmışdır. Ədirnə sülh müqaviləsinə görə, rusların Ərzurumu boşaltmasından qorxan 14 mindan artıq erməni ailəsi (84600 nəfər) Rusiya ərazisinə köçür. 1828-1829-cu illərdə İrandan 6946 erməni ailəsi (35560 nəfər), 1830-cu ilə qədər isə Türkiyədən 3682 erməni ailəsi (21666 nəfər) rusların yaratdığı erməni vilayətinə köçürülmüşdür. 1828-1829-cu illərdə isə bu əraziyə İrandan 4559 ailə (23563 nəfər), Türkiyədən isə 3674 ailə (21639nəfər) köçürülmüşdür. Təkcə bu iki il ərzində İran və Türkiyədən yalnız İrəvan xanlığının ərazisində yaradılmış İrəvan əyalətinə 8233 erməni ailəsi (45202 nəfər) köçürülmüşdür. 1830-cu ildə bu vilayətdə erməni ailələrinin sayı 15059-a (82377 nəfər) çatır. Həmin illərdə yerli əhali arasında azərbaycanlı ailələrinin sayı 9196 (49875 nəfər), erməni ailələrinin sayı isə 3498 (20073 nəfər) olmuşdur.

Bütün bunlara baxmayaraq, ərazidə azərbaycanlılar əhalinin əsas hissəsini təşkil edirdi. Ermənilərin İrəvanda azlıqda qalması faktı XX əsrin əvvəllərinə qədər davam etdi. Bunu təsdiq edən erməni alimi Levon Korkotyan 1931-ci ildə çap etdirdiyi «Sovet Ermənistanın əhalisi: 1831-1931» adlı kitabında göstərirdi ki, 1883-cü ildə İrəvan şəhərinin 18.776 nəfər əhalisinin 15.992 nəfəri, 1886-cı ildə isə 27.246 nəfərindən 23.626 nəfəri, yəni 85,2%-i azərbaycanlı olmuşdur. Rus alimi N.N.Şavrov isə 1911-ci ildə Sankt-Peterburqda nəşr etdirdiyi «Novaə uqroza russkomu delu v Zaqafqaziye» kitabında yazırdı: «1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə ermənisi köçürülmüş və onların Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi. 124 min rəsmi köçürülən erməni ilə yanaşı, qeyri-rəsmi köçən ermənilərin sayı 200 mindən artıqdır. Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfər erməninin bir milyonu yerli deyildir. Və onlar vilayətə bizim tərəfimizdən köçürülüb. Erməni ailimi Jori Burmusyan 1983-cü ildə Fransada çap olunmuş «Qafqaz: millətçilik və sosial imkan» kitabındakı «XIX əsrin birinci yarısında Ermənistanın etnik tərkibi və sosial-iqtisadi şəraiti» məqaləsində yazırdı: «XIX əsrdə və XX əsrin əvvəllərində İrəvan vilayətinin əhalisinin əksəriyyəti müsəlman olub». Beləliklə, XIX-XX əsrdə ermənilərin Azərbaycana qarşı irəli sürdükləri iddialar həm də demoqrafik situasiyanın dəyişdirilməsinə yönəlmişdir.

**Güntəkin Nəcəfli**

# AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ ERMƏNİ DÖVLƏTİ YARADILMASI CƏHDLƏRİ (XIX ƏSRİN ƏVVƏLLƏRİ)

Ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa olan ərazi iddialarına Rusiyanın Cənubi Qafqazda fəal işğalçılıq siyasəti prizmasından kənarda baxılması qeyri-mümkündür. Əslində, XVII əsrin sonlarından başlayaraq dövrün sənədlərini məharətlə saxtalaşdırmağı bacaran ermənilər tərəfindən uydurularaq Rusiya və digər Avropa dövlətlərinə yol tapan, tarixi gerçəkliyi əks etdirməyən qondarma ideyalar şəklində meydana çıxan bu ərazi iddiaları XIX əsrin başlanğıcından etibarən yeni - real addımlarla həyata keçirilən mərhələyə qədəm qoydu.

XIX əsrin əvvəllərində Cənubi Qafqazın işğalına başlayan Rusiya imperiyasının əsas məqsədi Qacar qoşunlarını Cənubi Qafqaza, o cümlədən də Azərbaycanın şimalına buraxmamaq, mühüm hərbi-strateji əhəmiyyətə malik olan Qarabağ, İrəvan və Naxçıvan xanlıqlarını ələ keçirməklə Rusiyanın regionda gələcək hegemonluğu üçün zəmin hazırlamaq, Türkiyə və İran sərhədlərində keçilməz sədd yaratmaq idi. Bunun üçün Rusiya dini amildən istifadə edərək, ermənilərin dəstəyi ilə özünə türk-müsəlman dövlətləri olan Osmanlı imperiyası və Qacarlar İranına qarşı dayaq kimi «erməni dövləti» yaratmaq planını həyata keçirməyə çalışırdı. Təsadüfi deyildi ki, rus tarixçisi P.İ.Kovalevski özü etiraf edirdi ki, Qafqazı işğal etməyə göndərilən P.D.Sisianova öz hərbi planlarının həyata keçirilməsində ermənilərə xüsusi diqqət və qayğı ilə yanaşmaq, onları müdafiə etmək və onlardan istifadə etmək tapşırılmışdı [7,79-82].

Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi məsələsi hələ XVIII əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq niyyəti güdən Rusiya imperiyasının işğalçılıq planlarının tərkib hissəsi idi [bax:l]. İran və Türkiyə sərhədlərində bufer xristian dövləti yaratmaq niyyətində olan Rusiya Şimali Azərbaycan xanlıqlarının işğalını başa çatdırdıqdan sonra bu niyyəti reallaşdırmağa başladı.

1805-ci il Gürəkçay müqaviləsindən - yəni Qarabağ xanlığının Rusiya himayəsinə keçməsindən dərhal sonra P.D.Sisianov Qarabağda çarizmin mövqeyini möhkəmlətmək məqsədilə Cənubi Qafqazın digər əyalətlərindən erməniləri dərhal buraya köçürməyə başladı (13,338).

Məhz bu səbəbdəndir ki, Qarabağ xanlığı əhalisinin olduqca az qismini təşkil edən xristianlar- qriqoryanlaşdırılmış albanlar, digər ərazilərdən köçürülən ermənilərin təsiri ilə ərazisində yaşadıqları dövlətə xəyanət edərək, işğalçı rus qoşunlarına hər vasitə ilə kömək edir, ərzaq və pulla yardım göstərir, onların xeyrinə təxribat və casusluqla məşğul olurdular. Məsələn, 1805-ci ilin iyununda Şuşada qacar qoşunlarının mühasirəsinə düşən Lisaneviçin köməyinə gələn

polkovnik Karyaginin 400 nəfərlik dəstəsi də mühasirəyə alındı. Onların ərzağı tükəndiyindən 4 gün ot yeməli oldular. Qacar sərkərdəsi Abbas Mirzə erməni mənşəli rus polkovniki Karyaginin şirin dilinə aldanıb onlara 4 günlük ərzaq ehtiyatı verib təslim olmalarını gözlədi. Rusların cavabı ləngiyirdi. Guya Karyagin təslim olmaq üçün baş komandandan əmr gözləyirdi. Lakin erməni yüzbaşı Vanya gecə vaxtı rus qoşunlarını gizli yolla qaladan çıxarmağa nail oldu. Bu xidmətinə görə erməni Vanya Rusiya hakim dairələri tərəfindən mükafatlandırıldı [bax.l 1,12-36]. Bundan əlavə, 1806-cı ilin yazında Abbas Mirzənin Qarabağa yeni hücumu zamanı məlik Cümşüdün Qarabağ xanı İbrahimxəlil xana xəyanət etməsi onun Qacarlar İranına meyl etməsi haqda donosları rus zabiti Lisaneviç tərəfindən xanın qətlə yetirilməsinə şərait yaratmışdı.

1823-cü ilə qədər Qarabağa köçürülən ermənilərin hesabına əyalətdə olan əhalinin ümumi sayı artıb 4366 ailəyə çatmışdı [6,10]. Lakin, bütün bunlar Rusiya imperiyasını qane etmədiyindən ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına, o cümlədən Qarabağ bölgəsinə köçürülməsinə başlanıldı.

Rusiya imperiyası bu niyyətini reallaşdırmaqdan ötrü Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsaslanaraq erməniləri dərhal İran ərazisindən kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına - başlıca olaraq keçmiş Qarabağ, İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə köçürməyə başladı [bax:10,125-130].

Rusiya imperiyasının həyata keçirdiyi bu qanlı siyasət Azərbaycanın qədim tarixi torpaqlarında gələcəkdə ermənilərə dövlət yaradılması məqsədi daşıyırdı. Bu mənfur siyasəti rus müəllimlərinin özləri də etiraf edirlər. Ermənilərin köçürüldüyü torpaqlar haqda S.Qlinka yazırdı ki, bu ərazilər yer üzünə səpələnmiş erməni tayfalarını başına toplayacaq və I Nikolayın xoşbəxt dövləti himayəsində erməni çarlığı öz şöhrəti və bütün xatirələri ilə dirçələcək [5,92].

Bu çirkin siyasətin həyata keçirilməsində Rusiya ordusunda xidmət edən erməni zabitləri fəal iştirak edirdilər. Erməni generalları öz məqsədlərini açıq bəyan etməkdən də çəkinmirdilər. Bu qanlı siyasətin tezliklə həyata keçirilməsinə şəxsən rəhbərlik edən erməni mənşəli rus polkovniki Lazaryev (Qazaros Lazaryan) İran ərazisindən Şimali Azərbaycana köçürülən ermənilərə müraciətlə deyirdi: «...orada (yəni Şimali Azərbaycanda - red.) siz xristianların məskunlaşdırdığı yeni vətən əldə edəcəksiniz, İranın müxtəlif əyalətlərinə səpələnmiş xristianların (yəni ermənilərin - red.) bir yerə cəmləşdiyini görəcəksiniz. Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İranı tərk edəcək, bundan sonra sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsiz köçməyinizə cavahdeh olmayacağıq. Azca itkiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqsınız, özü də həmişəlik» [5,107-111].

Şimali Azərbaycana köçürülən kasıb erməni ailələrinə kömək üçün xəzinədən 25 min rubl gümüş pul ayrılmışdı. Lazaryevin və ona təhkim edilən erməni zabitlərin vəzifəsi köçürülənlərin sərhədə çatdırılması ilə bitirdi. Bundan sonrakı işlər rəhbərlik İrəvan «Müvəqqəti İdarə»si yanında xüsusi olaraq köçürülən

ermənilərin yerləşdirilməsi üçün yaradılan Komitəyə həvalə edilirdi. Komitə köçürülən erməni dəstələrini sərhəddə qarşılamaq üçün heyət göndərməli və həmin heyət onları yeni yaşayış məntəqəsinədək müşayiət etməli idi. Qarabağ üzrə bu vəzifə gömrük hərbi-dairəsinin rəisi, knyaz Abxazova həvalə edildi [Qlinka.105-106]. 1828-ci ilin əvvəllərində köçürülən 750 erməni ailəsinin əksəriyyətini Knyaz Abxazov Bərdə şəhərində yerləşdirdi [8.204].

Ermənilərin İran ərazisindən Şimali Azərbaycan torpaqlarına köçürülməsinin həyata keçirilməsi haqqında məlumatı Lazaryevin 1829-cu il dekabrın 24-də qraf Paskeviçə yazdığı «Yekun hesabatı»nda izləmək mümkündür. Hesabata görə, köçürmə prosesi 1828-ci il fevralın 26-da başlanılmış və iyunun 11-də başa çatdırılmışdır. Bu qanlı siyasətin tezliklə həyata keçirilməsinə çox canfəşanlıq göstərən erməni polkovniki Qazaros Lazaryan şəxsən özü rəhbərlik etmişdir. Türkmənçaya yaxın olan müxtəlif kəndlərin erməniləri Lazaryev tərəfindən keçmiş Qarabağ xanlığının ərazisinə yola salındı [5,46,48]. Digər erməni zabitləri- 41-ci yeger polkunun podpolkovniki knyaz Melikov Üzümçü və onun ətrafındakı kəndlərin, gürcü qrenadyor polkunun podpokovniki knyaz Arqutinski-Dolqoruki Təbriz, onun ətrafındakı kəndlərin və Səlmas əyalətinin, kollec asessoru Qamazov Marağa və Urmiya xanlıqlarının kəndlərinin, knyaz Şalikov isə Xoy xanlığında yaşayan ermənilərin köçürülməsində ona yaxından kömək etmişlər [bax:5,48,55,63,69, 115-116]. Minlərlə erməni ailəsi Araz çayına yaxınlaşan zaman, 1828-ci il aprelin 24-də general Paskeviç Lazaryevə tapşırıq verdi ki, «köçürülənlərin böyük hissəsini, xüsusən ən kasıblarını Qarabağa getməyə təhrik etsin» [5,91-90; 2,237]

Lazaryevin özünün hesabatından isə məlum olur ki, üç ay yarım ərzində İran ərazisindən 8249 xristian - erməni ailəsi İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdü, bu da ən azı 40 min nəfər demək idi; köçürmə işlərinə xəzinədən 14000 manat qızıl, 400 manat gümüş pul xərclənmişdi; köçmək istəyən 1500 erməni ailəsi İranda qaldı. Çünki, Lazaryev köçürmə üçün ayrılan vaxt başa çatdığından onları köçürməyə imkan tapmamışdı [bax:5,131]. Lakin, nəzərə almaq lazımdır ki, Lazaryevin hesabatında İrandan Şimali Azərbaycan torpaqlarına köçürülən erməni ailələrinin miqdarı tam dolğunluğu ilə əks olunmamışdır. Məsələn, rus tədqiqatçısı N.A.Smirnov İrandan 90 min nəfər erməninin köçürülərək Azərbaycan torpaqlarında məskunlaşdırıldığını yazır [bax:12,180].

Beləliklə, Rusiya imperiyasının erməniləri İrandan Şimali Azərbaycanın qərb bölgələrinə və Qarabağa köçürməsi siyasəti azərbaycanlıların öz ata-baba torpaqlarından sıxışdırılıb çıxarmaq məqsədi güdürdü və «erməni dövləti»nin yaradılmasına hazırlıq idi. Tarixi hadisələrin sonrakı gedişi bir daha sübut etdi ki, İran erməniləri Şimali Azərbaycana xüsusi məqsədlə onlara burada «yeni vətən» yaratmaq məqsədilə köçürülmüşdü.

Qarabağ torpaqlarında məskunlaşdırılan ermənilərə çar Rusiyasının bölgədəki məmurları daha çox diqqət və qayğı göstərir, yerli əhaliyə -

Azərbaycanlılara isə zülm siyasati yeridilir, əhali bu bölgədən didərgin salınırdı. Bu siyasət nəinki sadə əhaliyə, hətta ali müsəlman silkinə olan münasibətdə özünü qabarıq şəkildə göstərirdi. Erməni generalı Mədətovun Qarabağ bölgəsində törətdiyi cinayətlər öz əksini dövrün sənədlərində tapmışdır [bax: 8,41-43].

Lakin, bir xalq kimi Türkmənçay müqaviləsinin övladları olan [bax:3,93] ermənilər tarixi həqiqətləri öz niyyətləri xeyrinə həmişə məharətlə saxtalaşdırmağı bacarmış və Azərbaycanın Qarabağ bölgəsinə olan ərazi iddalarından heç zaman əl çəkməmişlər. Məsələn, 1805-ci ildə Rusiya ilə Azərbaycan dövləti olan Qarabağ xanlığı arasında Kürəkçay sazişi adlanan saziş bağlanmışdı. Sazişin adı belədir: «Traktat mejdu Karabaxskini xanom i Rossiyskoy imperiey o perexode xanstva pod vlastğ Rossii ot 14 таэ 1805 qoda» [bax: 4,702-705]. Həmin sazişə görə Qarabağ xanlığı Rusiyanın himayəsini qəbul edir, Rusiya isə Qarabağ xanlığına daxil olan torpaqların İbrahimxəlil xana, daha doğrusu, Azərbaycana məxsus olduğunu və gələcəkdə də Qarabağ xanının varislərinə məxsus olaraq qalacağını təsdiq edirdi [bax: 9]. Erməni tarixçiləri isə real tarixi və Kürəkçay müqaviləsini saxtalaşdıraraq Qarabağ xanlığı ərazisinin guya ermənilərə məxsus olduğunu və Kürəkçay müqaviləsinin də guya ermənilərlə Rusiya arasında bağlandığını iddia edirlər. Halbuki, ermənilərin İran və Türkiyədən Azərbaycana, o cümlədən Qarabağ xanlığının ərazisinə köçürülməsinə Kürəkçay sazişinin imzalandığı 1805-ci ildən çox sonra - 1828-ci ildə başlanmışdı. Qarabağ erməniləri 1978-ci ildə, özlərinin İrandan bura, yəni Qarabağa köçürülməsinin 150 illiyini bayram etmiş, bu münasiləətlə Dağlıq Qarabağda - Ağdərə rayonunun Marquşevan kəndində bir xatirə abidəsi də inşa etmişdilər. 1988-ci ildə erməni separatçı-terrorçu dəstələri «tarixi həqiqətin izini itirmək» məqsədilə, ermənilərin Qarabağa gəlmə etnos olduğunu təsdiq edən bu abidəni dağıtmışlar.

Lakin, tarixi həqiqətlər təsdiq edir ki, bütün tarix boyu, həmişə Azərbaycan torpağı olan Qarabağın aborigen əhalisi də Azarbaycanlılardır. Ermənilər isə bu torpağa gəlmə, daha doğrusu gətirilmə etnosdur. Azərbaycan xalqı yaşadıqca bu həqiqət də yaşayacaqdır.

**Mənbə və ədəbiyyat**:


1. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaradılması cəhdləri. Bakı. 2007.
2. Köçərli T. Qarabağ. Bakı. 2002.
3. Şükürov K. Türkmənçay 1828 (tarixi xronika). Bakı, 2006.
4. AKAK t.II, sənəd.l436.s.702-705.
5. Глинка С. Описание переселения армян адербиджанских в переделы России. Москва, 1831.
6. Зелинский СП. Экономический быт государственных крестян Джаванширского уезда Елисаветпольской губернии. МИЭБГКЗК, т. IV, Тифлис, 1886.

7.Ковалевский П.И. Завоевание Кавказа Россией. (Исторический очерк), СПб., (без выходных данных).
8. Колониальная политика Российского царизма в Азербайджане в 20-60 гг. XIX в, 4.1. М.-Л. 1936.
9. Кюрекайский договор - 200. Баку, 2005.
10.Полное собрание законов Российской империи, (ПСЗРИ) Собр. второе, т.1 U. 1828. СПб., 1830.
11.Потто В. Первые добровольцы Карабаха в эпоху водворения русского владычества. Тифлис, 1902.
12.Смирнов Н.А.Политика России на Кавказе XVI-X1X вв. М.1958.
13.Ханыков А.Е.. Экономический быт государственных крестян Джаванширского уезда Елисаветпольской губернии. МИЭБГКЗК, т. VI, Тифлис, 1887.

**İlhamə Hüseynova**

## BİR DAHA ERMƏNİ VƏHŞİLİKLƏRİNƏ DAİR

Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Xocalı şəhərinin erməni hərbi birləşmələri tərəfindən işğalından 17 il ötür. Erməni qəsbkarları tərəfindən Xocalıda törədilən soyqırım miqyasına və qeyri-insani cəza üsullarına görə tarixə ən dəhşətli cinayət aktı kimi daxil olmuşdur. XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə, insanlığa qarşı törədilmiş cinayət idi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhəri rus və erməni hərbi birləşmələri tərəfindən yerlə yeksan edildi. Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən sovet ordusunun 366-cı motoatıcı alayının şəxsi heyətinin və ağır hərbi texnikasının bilavasitə iştirakı ilə Xankəndi ilə Əsgəran arasında yerləşən Xocalı şəhərini zəbt edərək xalqımıza qarşı soyqırımı həyata keçirmişdır. Azğınlaşmış erməni quldurları özlərinin muzdlu xarici havadarlarının köməyi ilə şəhəri tamamilə dağıdıb yandırdılar.

Əliyalın dinc mülki əhali dəhşətli qırğına məruz qaldı-uşaqlar, qadınlar, qocalar, xəstələr ağlasığmaz vəhşiliklə məhv edildi. Ermənilər XX əsrin sonunda sivilizasiyalı bəşəriyyət üçünn üzqaralığı olan növbəti tarixi cinayəti - Xocalı soyqırımını törətdilər. Bu vəhşi aksiyadan məqsəd şəhərin bütün əhalisini məhv etmək idi.

Xocalının işğalı zamanı uşaqlar, qadınlar və qocalar xüsusi amansızlıqla, işgəncələrlə öldürülmüş, insanların başları kəsilmiş, gözləri ovulmuş, hamilə qadınların qarınları süngü ilə deşik-deşik edilmiş, meyitlər insanlığa ləkə gətirəcək bir şəkildə təhqir edilmişdir.

Ermənistanın sabiq prezidenti R.Köçəryan Avropa Şurasının mötəbər kürsüsündən dünya ictimaiyyətinə xitabən Dağlıq Qarabağda, xüsusən də Xocalıda

keçirilən hərbi əməliyyatlarda iştirakından fəxr duyduğunu bildirmişdi. Bu hərbi cinayətdə iştirak edən R.Köçəryan əslində bununla soyqırımı aktına birbaşa rəvac verdiyini təsdiqləmiş oldu. Bu fakt Xocalıda baş verən qanlı hadisələrin Ermənistan rəhbərliyi tərəfindən əvvəlcədən planlaşdırıldığını və həyata keçirildiyini göstərir.

Erməni yazıçısı Zori Balayan Xocalıda baş verənlərlə bağlı yazdığı kitabda erməni xislətini bir daha açıb ortaya qoydu. O yazır ki, Xocalıya hücum əməliyyatından sonra yaxınları ilə həmin qanlı hadisələr törədilən yerdə olmuş və evlərdən birinin divarına 11 yaşlı bir türk qızının mismarlandığını görmüşdür. Z.Balayan yazır ki , «türklərə olan nifrətimi hələ də can verən qızın sinəsindən dərinin qopardılması ilə soyutmağa çalışdım». Bu faktı qələmə alan erməni «ziyalı»sı azərbaycanlılara qarşı necə dərin nifrət bəslədiyini açıq yazmaqla, törədilən qanlı hadisəyə haqq qazandırır. Türkün qanına susamış bu vəhşi cəllad hələ də azadlıqdadır. Beynəlxalq axtarışda olan bu şəxsin tezliklə tapılıb cinayət məsuliyyətinə cəlb olunması üçün ciddi addımlar atılmalıdır.

Təsəvvür etmək çətindir ki, tarixdə analoqu olmayan belə qəddarlıq və vəhşilik XX əsrin sonunda dünyanın gözü qarşısında «insan» tərəfindən törədilib. Soyqırımı hadisələrindən sonra cinayətin baş verdiyi yerdə olmuş Con İv Yunet demişdir ki, mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişəm. Ancaq ermənilər 5-6 yaşlı uşaqları, mülki əhalini öldürməklə onları ötüb keçmişlər. «İzvestiya» qəzetinin müxbiri V.Belx yazmışdır ki, Xocalı hadisələri zamanı gözləri oyulmuş, qulaqları kəsilmiş, qala sümükləri çıxarılmış, başları kəsilmiş meyitləri öz gözləri ilə görmüşdü, şahid olmuşdu. Törədilmiş ağır cinayətlərdən, vəhşiliklərdən dəhşətə gələn müxbir gördüklərini ürək ağrısı ilə qələmə almışdı.

Donmuş qızın üzünün bıçaqla kəsilməsi, döyüşçünün bağırsaqlarını çıxararaq qarışdırılması bu cür vəhşiliklərə misaldır. Mayor Leonid Kroveç 200 meyit müşahidə etdiyini, onunla bir yerdə olan polis nəfərinin 4 yaşlı uşağının meyitini tapıb, başının əzildiyini gördükdə ağlının itməsinin şahid olmasını söyləmişdi.

Moskva «Memorial» hüquq müdafiə mərkəzinin Xocalı şəhərinin işğalı zamanı insan hüquqlarının kütləvi pozulması faktları barədə məlumatlarında göstərilir: «Qaçqınlar ermənilərin pusqusuna düşmüş və güllələbəran edilmişlər... 4 gün ərzində Ağdama 200 meyit gətirilmiş, onlarca meyitdə təhqirə məruz əlamətləri olmuşdur. 4 meyitin başının dərisinin soyulduğu və 1 meyitin başının kəsildiyi qeydə alınmışdır». «Moskovski komsomolets» qəzetinin 29 yanvar 1994-cü il tarixli sayında bir rus jumalisti erməni vəhşiliyini belə qələmə almışdır: «...Əsrlər var, lakin artıq yaşamağa heyləri qalmayıb. Qışda onları səhərlər ayaqyalın qarın-buzun üzərinə çıxarırlar. Təpələrindən soyuq su tökür, başlarında şüşə sındırır, sonra təzədən kameraya salırlar. Əsl işgəncələr isə bundan sonra başlanır. Barmaqlarını qapının arasında qoyub qırır, çığırdıqda rezin dəyənəklə döyürlər. Çoxu əzablara tab gətirməyərək dəli olur. Bir növbəti kəndi zəbt edəndə bir ermənin diri körpəni götürüb iki böldüyünü görmüşəm. Sonra bədəninin bir hissəsi ilə anasının sifətinə,

başına o qədər döydü ki, övladı al-qanına bulaşmış qadın dəli olub gülməyə başladı...». Budur erməni xisləti.

Yüz ildən artıq dövrdə erməni xalqının bir neçə nəslinin Azərbaycan xalqına qarşı düşmənçilik ruhunda tərbiyə edilməsi nəticə etibarı ilə XX əsrin sonlarında sivil dünyanın gözü qarşısında Xocalı soyqırımı kimi qanlı faciənin baş verməsinə gətirib çıxarmışdır. Hadisələr göstərir ki, bu gün erməni millətçiləri hələ də özlərinin bədnam və çirkin niyyətlərindən əl çəkməyiblər. Qəddar üsullarla dinc insanları kütləvi qırğına məruz qoyan erməni millətçiləri tarix qarşısındakı cinayətlərini ört-basdır etmək məqsədi ilə müxtəlif vasitələrə, tarixi saxtalaşdırmağa əl atır, bu işdə xaricdəki erməni lobbisinə havadarlarına arxalanırlar.

Təəssüf ki, insan hüquqlarının kütləvi və kobud şəkildə pozulması ilə nəticələnmiş Xocalı soyqırımına hələ də beynəlxalq miqyasda hüquqi qiymət verilməmiş, terrorçu, işğalçı əməllərə qarşı qəti tədbirlər görülməmişdir. Ümumbəşəri dəyərlərlə, beynəlxalq hüquqi normalara əsasən düşünmək və qərar qəbul etməyin zamanı artıq çatmışdır. Nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq mövqeyini dəstəkləməli, işğalçı Ermənistan dövlətinə qarşı beynəlxalq qurumlar tərəfindən sanksiyalar tətbiq edilməlidir.

Biz Xocalı soyqırımını yalnız ildönümündə deyil, hər saat, hər gün xatırlamalı və bu dəhşətli faciəni dünya ictimaiyyətinə çatdırmaq üçün bütün imkan və vasitələrdən istifadə etməliyik. Ona nail olmalıyıq ki, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin qanı yerdə qalmasın, ölkənin müxtəlif regionlarında qaçqın və məcburi köçkün vəziyyətində yaşayan soydaşlarımız öz dədə-baba yurdlarına qayıtsın, Xocalıda, bütövlükdə Dağlıq Qarabağda və onun ətraf ərazilərində haqq-ədalət bərpa olunsun. Nahaq qan yerdə qalmaz, gec-tez həqiqət öz yerini tutacaq. Biz buna əminik. Əminik ki, bu qan, bu dərd, bu nisgil, bu qisas bizimlə qiyamətə qalmayacaq.

**İlqar Niftəliyev**

## QARABAĞ QENERAL-QUBERNATORLUĞU DÖVRÜNDƏ ERMƏNİ MİLLİ ŞURASININ SEPARATÇILIQ FƏALİYYƏTİ

1918-ci ilin mayında Şimali Azərbaycan özünün dövlət müstəqilliyini elan etdikdən sonra yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bir çox ağır və kəskin problemlərlə qarşılaşdı. Yeni yaranmış hökumət ilk dövrlərdə yalnız mərkəzdə öz dövlətçiliyini möhkəmləndirməyə imkan tapdığından və bir sıra regionlarla hərtərəfli əlaqələr saxlamağın qeyri-mümkünlüyü, kifayət qədər hərbi qüvvəyə malik olmadığından, Qarabağ və Zəngəzur bölgələrində erməni separatçılığının qarşısını almaqda çətinlik çəkirdi. Nəticədə həmin bölgələrdə yaşayan ermənilərin separatçılıq meylləri daşnak təbliğatının qüvvətlənməsi nəticəsində daha məqsədəuyğun xarakter almış, onlar təcrid olunmağa və özlərinin

xüsusi inzibati vahidlərini yaratmaq istiqamətində fəal işə başlamışdılar.

Belə ki, 1918- ci ilin iyulun 22-də çağırılmış Qarabağ ermənilərinin 1 qurultayı bölgənin ermənilər yaşayan dağlıq hissəsini müstəqil siyasi - inzibati vahid elan etmiş və öz hökumətlərinin yaradılmasını bəyan etmişdilər. Arxiv sənədlərindən məlum olduğu kimi, ümumilikdə, 1918-ci il iyul ayından 1920-ci ilin aprelinə kimi erməni separatçıları Qarabağda doqquz qurultaylarını keçirmişdilər. İkinci qurultaydan etibarən (1918-ci il 15 sentyabr) erməni separatçılarının yaratdıqları hökumət «Erməni Milli şurası» adlanmağa başlayır.

Erməni Milli şurasının Azərbaycan hökuməti əleyhinə fəaliyyətinin yeni mərhələsi 1919-cı ilin yanvarında, Qarabağ-general qubernatorluğunun yaradılması və fəaliyyət dövrünə təsədüf edir. Azərbaycan hökumətinin ölkənin ərazi bütövlüyünün qorunub saxlanması məqsədilə 1919-cı ilin yanvarın 15-də Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğunun yaradılması xüsusi olaraq qeyd olunmalıdır. Əslində, bununla çar Rusiyası dövründə onun tərkibində olan və müxtəlif inzibati bölgülər nəticəsində tarixi inzibati-siyasi mənasını itirmiş «Qarabağ» anlayışı, AXC dövründə (1918-1920) əvvəlki mənasını yenidən özünə qaytardı.

Çoxsaylı arxiv sənədləri göstərir ki, AXC hökuməti tərəfindən Qarabağ general-qubernatorluğunun yaradılması və Xosrov bəy Sultanovun onun başçısı təyin olunması yerli erməni separatçılarını və onlara dəstək verən Ararat Respublikası hökumətini xeyli təşvişə salmış, etirazlarına səbəb olmuş və fəallıqlarını artırmışdır. Belə ki, Ermənistan hökuməti özünün 1919-cı il 21 yanvar tarixli iclasında Qarabağın və Zəngəzurun ermənilər yaşayan dağlıq hissəsini ölkənin ayrılmaz hissəsi elan etmiş və həmin ərazilərdə müvəqqəti olaraq ali hakimiyyəti Erməni Milli şurasına tapşırırdı. Ermənistan hökuməti bölgədə vəziyyətə nəzarət etmək üçün hətta ali komissar vəzifəsini təsis etmiş və bu vəzifəyə Arsen Şaxmazyanı təyin etmişdir. Öz növbəsində Erməni Milli şurası 1919-ci ilin fevralın 4-də Böyük Britaniyanın Bakıdakı qoşun hissələrinin komandanı Tomsona göndərdikləri müraciətdə Paris konfransının yekunlarına kimi, Qarabağın və Zəngəzurun ermənilər yaşayan dağlıq hissəsində müvəqqəti erməni idarəçiliyinin yaradılması təklifi ilə çıxış edirlər. Həmin təklif əsasında 1919-ci il fevralın 19-21-də Qarabağ ermənilərinin IV qurultayında xüsusi sənəd qəbul olunmuşdu. Həmin sənədə əsasən Zəngəzurun və Qarabağın ermənilər yaşayan hissəsinin idarə olunması üçün mərkəzi Şuşada yerləşən Vilayət şurası təşkil olunmalı, onun tərkibinə yerli əhalidən 7 erməni və 3 azərbaycanlı daxil olmalı idi. Şuraya daimi üzv kimi Şuşadakı ingilis qoşunlarının nümayəndəsi seçilməli və bölgənin strateji yerlərində ingilis qoşunları yerləşdirilməli idi (5).

Əslində, bu sənədlər göstərir ki erməni separatçıları Qarabağ və Zəngəzuru etnik prinsipi əsasında bölərək, bu ərazilərin bir hissəsini Azərbaycandan ayırmaq, bölgədə yerləşən ingilis qoşunlarından isə ayırıcı qüvvə kimi istifadə etmək istəyirdilər. İngilis qoşunlarının bölgədəki nümayəndələrinin ilk vaxtlarda

ziddiyətli bəyanatları, ermənilərin bu məqsədlərinin həyata keçməsi üçün real zəmin yaratmışdır. Belə ki, ingilis qoşunlarının Şuşadakı nümayəndəsi mayor Mak-Mossen 1919-ci il martın 12-də Erməni Milli şurasına göndərdiyi məktubunda göstərir ki, Sultanov general-qubernator vəzifəsini müvəqqəti tutur və mübahisəli bölgələrin bu və ya digər tərəfə mənsub olduğunu Sülh konfransı təyin edəcək. Öz növbəsində qeneral Tomson, 1919-ci ilin martın 25-də İrəvanda olarkən bəyan etmişdir ki, Azərbaycan hökuməti tərəfindən yaradılmış Qarabağ qeneral-qubernatorluğu müvəqqəti haldır və hazırda orada Azərbaycan qoşunlarının və idarəçiliyinin olması gələcəkdə bu ərazinin ona mənsubiyyətini həl etmir (5). İngilis komandanlığının bu cür mövqeyi erməni separatçılarını ruhlandırır və onların hökumət əleyhinə fəaliyyətinin fəalaşmasına şərait yaradırdı. Erməni Milli şurasının nümayəndələri cavab məktublarında ingilislərin bu mövqeyini yüksək qiymətləndirərək, onları erməni xalqının himayəçisi və maraqlarının əsas müdafiəçisi kimi göstərirdilər (5).

Bölgədə yaranan nisbi sakitlikdən istifadə edən Erməni Milli şurası, diplomatik və hərbi hazırlıq səylərinə də artırırdı. Bununla bağlı ilk növbədə Ermənistan hökumətinə böyük ümüdlər bağlanırdı. Erməni Milli şurası tərəfindən 1919-ci ilin martın 17 və 19 -da Ermənistan hökumətinə və onun bölgəyə təyin etdiyi ali komissarına göndərdikləri geniş məktublarda aşağıdakı əsas məsələlər qoyulurdu: l.Ermənistan hökuməti bütün vasitələrdən istifadə edərək müttəfiq dövlətlərlə danışıqlarda Qarabağ qubernatorluğunun ləğvinə nail olmalıdır; 2. Qarabağ ermənilərinin nümayəndəsinə Avropaya getməsinə və Sülh konfransında iştirak edən Ermənistan nümayəndə heyətinin tərkiləinə daxil olmasına şərait yaradılmalıdır; 3. Bölgədə hərbi hissələrin təşkili üçün vahid komandanlığın yaradılması, təcrübəli komandirlər, böyük sayda hərbi ləvazimat və pul tələb olunurdu. Bununla bağlı Ermənistan hökuməti qarşısında məsələ qoyulurdu ki, Andranikin Zəngəzurdan çıxarılmasına imkan verilməməlidir və onun dəstələrinin Qarabağa keçməsinə nail olunmalıdır (5).

Qeyd etmək lazımdır ki, qeneral-qubernator X.Sultanovun fəaliyyətinin ilk dövrlərində qarşısında duran mühüm məsələlərdən biri Andranikin silahlı dəstələrinin Zəngəzur və digər bölgələrdə yaratdığı ciddi təhlükəni birdəfəlik aradan qaldırmaq idi. Sənədlərdən aydın olur ki, Azərbaycan torpaqlarında, xüsusilə Naxçıvanda və Zəngəzur bölgələrində dinc əhaliyə vəhşiliklər törədən Andranikin quldur dəstələri nəhayət ki, 1919-cu ilin yazında bu bölgələrin hüdudlarını tərk etdilər (3,122-124).

1919-ci ilin aprelin 3-də ingilis qoşunlarının Şuşadakı nümayəndəsi polkovnik Şatelvort xüsusi əmri ilə Azərbaycan hökuməti tərəfindən yaradılmış Qarabağ qeneral-qubernatorluğunu bölgədə ali hakimiyyət orqanı olduğunu təsdiq etmiş və onun əmrlərinin bütün əhali, üçün məcburi oluduğunu bildirmişdir. Burada xüsusi ilə vurğulanırdı ki, general-qubernator Sultanovun qanuni fəaliyyəti bölgədə yerləşən ingilis komandanlığı tərəfindən tam dəstəklənəcək (5).

İngilis komandanlığının bu qətiyyətli mövqeyi erməni separatçıları üçün gözlənilməz oldu. Buna cavab olaraq aprelin 23-də çağırılmış Qarabağ ermənilərinin V qurultayında qəbul olunmuş qətnamədə polkovnik Şatelvortun tələblərinə açıq etiraz bildirildi və erməni əhalisinin Azərbaycanın tərkibində hər hansı bir quruma tabe olmayacağı bəyan edildi.

Buna baxmayaraq, aprelin 25-də polkovnik Şatelvort Ermənistanın ingilis hərbi missiyası yanında nümayəndəsi M.Arzumanyanla görüşündə bildirmişdir ki, onun hökumətinin nümayəndəsi Şaxmazyan Zəngəzurda Azərbaycan əleyhinə qoşun topladığı üçün, qubernatorluğu tərk etməlidir. Eyni tələb ilə mayın 5-də general Tomson çıxış edir. O, Şaxmazyan kimlərinin Qarabağda yaranmış kövrək sabitliyin pozulmasında günahlandıraraq. Ermənistan hökumətinin rəhbəri Xatisovdan onun geri çağrılmasını tələb etmişdir. Əks halda Tomson Şaxmazyanın həbs olunacağını və səhra məhkəməsinə veriləcəyini bildirirdi. 1919-ci il may ayının sonunda Ermənistanın Qarabağ və Zəngəzurda nümayəndəsi təyin olunmuş A. Şaxmazyan və Ermənistanın Şuşadakı ingilis hərbi missiyası yanında nümayəndəsi M.Arzumanyan ingilis zabitlərinin müşayəti ilə Azərbaycan ərazisini tərk etmişdilər (5).

Vəziyyətin bu cür inkişafını görən erməni separatçıları 1919-ci il iyunun 4-5-də bölgədə qanlı qarşıdurma törətdilər. Məqsəd uzun illər təcrübədən keçmiş üsülla, yəni erməni qanının axılması yolu ilə beynalxalq aləmə guya türklərin onların qırdığlarını bəyan etmək idi.

1919-cu il iyunun 4-də Qarabağ ermənilərinin silahlı dəstələri Şuşa ətrafındakı azərbaycanlı hərbi hissələrin yerləşdiyi gözətçi məntəqələrinə hücum etdilər. Lakin onların bu hücumu X.Sultanovun gördüyü qəti tədbirlər nəticəsində dəf edilmişdir. Qarabağ general-qubernatoru X.Sultanov beynəlxalq ictimaiyyətə iyun hadisələrinin əsl mahiyyətini ətraflı şəkildə açıqlamaq üçün «Azərbaycan» qəzetinə verdiyi geniş müsahilədə bildirmişdir: «4-5 iyunda Qarabağda baş vermiş hadisələri soyuq başla qiymətləndirmək üçün əvvəlcə bu hərəkətlərə gətirilə çıxarmış hadisələrin gerisini diqqətlə izləmək lazımdır.

Hələ üç ay bundan əvvəl ermənilərin azərbaycanlılarla dinc yaşamasına əngəl törədən erməni milli şurasının üzvlərinin fəaliyyəti ilə tanış olan ingilis komandanlığı vəd vermişdi ki, həmin şuranın üzvlərini Qarabağdan çıxardacaqlar. Bundan sonra qərara alınmışdı ki. Şuşa şəhərinin erməni hissəsində olan kazarmalar Azərbaycan hərbi hissələri tərəfindən tutulsun. Yalnız iyunun əvvəllərində bu istiqamətdə mühüm tədbirlər görmək imkanı əldə edilmişdir. İyunun 5-də ingilis komandanlığının nümayəndəsi Azərbaycan məmurunun müşayiəti ilə Erməni Milli Şurasının separatçı üzvlərini Şuşadan çıxartmışdı.

Şübhəsizdi ki, erməni əhalisinin narahat ünsürləri bu tədbirlərin həyata keçirilməsindən narazı qalmış və millətlərarası münasibətləri kəskinləşdirmişlər. İyunun 6-da Azərbaycanlı əsgərlərinin Şuşa şəhərinin erməni hissəsindəki kazarmalarda yerləşdirilməsi əhalini sakitləşdirmiş və atışmanı tamamilə

dayandırmış, şəhərdə həyat öz normal axarına düşmüşdür». «Azərbaycan» qəzetinin 1919-cu il 17 iyun saylı nömrəsinin dərc etdiyi məlumatdan aydın olur ki, Qarabağın dinc erməni əhalisinin əksəriyyəti general-qubernator X.Sultanovun gördüyü tədbirləri bəyənmişlər (2).

X.Sultanovun gördüyü ciddi tədbirlərdən sonra 1919-ci il iyunun 29-30-da Qarabağ ermənilərinin VI qurultayı qəbul etdiyi qətnamədə Sülh konfransının son nəticələrinə kimi Dağlıq Qarabağı Azərbaycan Respublikasının tərkib hissəsi elan etdi və Azərbaycan hökumətilə danışıqlar aparmaq üçün xüsusi komissiya yaratdı. Həmin komissiya bu fikri əsas götürərək Azərbaycan hökuməti ilə bağlanacaq müqavilənin layihəsini hazırlamışdır (5).

1919-cu ilin avqustun 13-də çağrılmış Qarabağ ermənilərinin fövqəladə VII qurultayı həmin müqavilənin şərtlərini avqustun 15-də təsdiq etmişdir. Müqavilə 26 maddədən ibarət idi və onun Azərbaycan hökuməti üçün ən vacib məqamları bunlar idi :

**1**. Qarabağın dağlıq hissəsində Şuşada, Cavanşir və Cəbrayıl qəzalarında yaşayan ermənilər özlərini müvəqqəti olaraq Azərbaycan Respublikasının sərhədləri daxilində hesab edirlər (maddə 2);

**2.** Azərbaycan hökuməti erməni nümayəndələri vasitəsilə erməni milli şurasının fəaliyyətinə nəzarət edir (maddə 14); 3. Hazırki müqavilə hər cür vəziyyətdə: mühasirə, hərbi və digər hallarda qüvvədə qalır (maddə 26) (5).

Bu müqavilə Ermənistan hökumətinin etirazına səbəb olmuşdur. Ermənistanın baş naziri Xatisov bəyanatında bildirirdi ki, 15 avqust razılaşması ermənilər tərəfindən ingilis qoşunlarının bölgəni tərk etdiyi şəraitdə özlərini qorumaq üçün məcburiyyət qarşında qəbul edilmişdi. Bundan başqa Ermənistanın xarici işlər nazirliyi özünün Gürcüstandakı nümayəndəsinə 1919-cı il sentyabrın 16-da göndərdiyi tam məhvi təlimatda polkovnik Şatelvort və digər ingilis zabitlərinin Qarabağdakı fəaliyyəti və ümümiyyətlə ingilislərin Qarabağ məsələsinin həllində tutduğu mövqe haqqında geniş məruzənin hazırlanması məsələsini qoyurdu. Təlimatdan göründüyü kimi, bu sənədlər Parisdə olan erməni nümayəndə heyətinə çatdırılmalı idi. Eyni zamanda avqustun 28-də Qarabag ermənilərinin iki nümayəndəsi Arzumanov və Melik Osipovun imzası ilə Ermənistanın Azərbaycandakı səfirliyinə göndərilən teleqramda ABŞ-ın yenicə Ermənistana təyin olunmuş ali komissarı V. Haskel qarşısında Qarabağda amerikan qeneral-qubernatorluğu yaradılması məsələsi qaldırılmışdır (4). Lakin avqustun 28-də Bakıya gəlmiş Haskel, Azərbaycan hökumətinin rəhbərliyi ilə görüşündən sonra, ərazi məsələləri ilə bağlı sentyabrın 1-də irəli sürdüyü planında Qarabağ və Zəngəzuru Azərbaycanın ayrılmaz hissəsi kimi tanımışdır (1,262).

Beləliklə, 1919-ci ilin 15 avqustunda bağlanmış müqavilə 1920-ci il aprelinə kimi qüvvədə qaldı. Lakin, 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Qarabağ qeneral - qubernatorluğu ləğv olundu və X.Sultanov həbs olundu. Bundan istifadə edən, Qarabağ erməniləri 1920-ci ilin

aprelin 23-29-da keçirdikləri sonuncu IX qurultaylarında AXC hökuməti ilə bağlanmış 1919-ci il 15 avqust müqaviləsini qüvvədən düşməsi haqqında qərar verdilər (4,35). Şimali Azərbaycanda hakimiyyətə gəlmiş bolşevik hökuməti 1920-ci ilin mayın 18-də keçmiş qubernatorluğun sərhədlərini əhatə edən və bölgədə ali hakimiyyəti təmsil edən Qarabağ İnqilab Komitəsini yaratmışdır. Bununla erməni separatçılarının Azərbaycanın ayrılmaz hissələri olan Qarabağ və Zəngəzur torpaqlarına ərazi iddialarının yeni mərhələsi başlamışdır.

**Ədəbiyyat:**

l.Həsənli C. Azərbaycan Beynalxalq münasibətlər sistemində (1918-1920).Bakı,1993
2.Musayev İ.M. Azərbaycanını Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti ( 1917-1921-ci illər). Bakı, 1996
3.Məmmədova. H Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: erməni terrorizminin güclənməsi (1918-1920). Bakı, 2006, http : // www.anl.az
4.Карабахский вопрос. Истоки и сущность в документах и фактах Степанакер,1991
5. Нагорный Карабах в 1918-1923 гг.: Сборник документов и материалов / Отв. ред. В.А. Микаэлян. Ереван: АН Армении, 1992; http: // www.arsakhworld.com

İlqar Niftəliyev

# ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА В ЭКСПАНСИОНИСТСКИХ ПЛАНАХ АРМЕНИИ ПОСЛЕ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ (ВТОРАЯПОЛОВИНА 40-Х-60ГГ. ХХВЕКА)

Установление советской власти в Азербайджане и Армении в 1920 году и включение их в 1922 году в состав СССР положили конец кровопролитным столкновениям между армянами и азербайджанцами, столь частым в предшествующие годы. Согласно утвердившемуся отныне в общественном сознании штампу, все межнациональные противоречия нашли свое окончательное разрешение в рамках ленинской национальной политики, согласно которой дружба и братство между нациями и народностями СССР рассматривались как один из фундаментов советской системы.

С предоставлением в 1921 году Нахчывану статуса автономии и образованием в 1923 году Автономной Области Нагорного Карабаха (АОНК) в составе Азербайджанской ССР (таково было первоначальное название НКАО до принятия второй Конституции СССР в 1936 году) в целом был установлен мораторий в армяно-азербайджанском территориальном противостоянии. Кроме этого, в условиях ужесточения начиная со второй половины 20- х годов политического режима в СССР и массовые политические репрессии второй половины 30-х годов, любая попытка реанимации прежних проблем межнациональных отношений была чревата самыми тяжелыми последствиями для её инициаторов.

Однако к окончанию второй мировой войны стало очевидным, что это затишье носило сугубо временный характер. Очередное притязание руководства Армянской ССР на Нагорный Карабах в ноябре 1945 года показало, что образование в 1923 году НКАО в составе Азербайджанской ССР армянская сторона не считала решением проблемы и не отказалась от планов аннексии этой территории. В телеграмме секретарю ЦК ВКН (б) Г.Маленкову секретарь ЦК КП Армянской ССР Г.Арутюнов пытался аргументировать свое предложение о передаче НКАО в состав Армянской ССР желанием населения автономии и тем, что она получит более благоприятные условия для своего развития[1]. Нет сомнения, что руководитель Армении мог рискнуть поднять этот вопрос, лишь получив разрешение Сталина. В этот период планы армянского руководства были органически связаны с новыми внешнепо литическими планами Москвы. В условиях начала «холодной войны» и перекройки политической карты мира после второй мировой войны советское руководство решило расширить границы СССР за счет Турции, расторгнув с ней в одностороннем порядке в марте 1945 года договор о дружбе от 17 декабря 1925 года. Немалую роль в подготовке требований армянскою руководства сыграл также А.Микоян, у которого были довольно сложные отношения с руководителем советского Азербайджана М.Багировым. Как считает армянский исследователь

Рубен Ангаладян, автор книги о Микояне, «Григорий Арутюнов не мог пойти на подобный шаг, не посоветовавшись с Микояном. Не стоит забывать, что дочь Арутюнова была невесткой Микояна, женой его сына Алексея. Так что Микоян, вне всякого сомнения, был информирован об этих письмах» .

После того, как телеграмма Арутюнова была переслана Багирову, азербайджанский руководитель подготовил и 10 декабря 1945 года отправил секретарю ЦК ВКП(б) Г.Маленкову расширенный ответ, сопроводив его справкой о политической истории Карабаха. В конце своего письма М.Багиров выступил с контрпредложением, в котором выразил согласие передать Армянской ССР НКАО, исключая населенный азербайджанцами Шушинский район, в обмен на передачу Азербайджанской ССР Азизбековского, Ведийского и Карабаглареко-го районов Армянской ССР, населенных азербайджанцами'. После этого армянское руководство сняло вопрос с повестки дня и вернулось к нему уже после смерти И.Сталина.

Начавшийся после смерти Сталина процесс потепления политического режима в СССР способствовал формированию нового более лояльного контроля государства за настроениями в обществе. Ревизия сталинской модели тоталитаризма сопровождалось сменой руководства в Азербайджане и Армении, где в декабре 1953 года были сняты с должностей первые секретари М.Д.Багиров и Г.Арутюнов. Кульминацией данного процесса стали итоги XX съезда КПСС в феврале 1956 года, на котором новый советский партийный лидер Н.Хрущев выступил с разоблачением культа личности Сталина. Как точно отметил в своей работе азербайджанский исследователь, профессор Дж.Гасанли, в советских республиках Южного Кавказа итоги XX съезда были восприняты в различной форме: «Если в Азербайджане они стимулировали борьбу за развитие национального языка и ценностей, то в Армении вновь поставили на повестку дня идею территориальных притязаний к соседними республикам и Турции»[4]. Данное движение теперь велось не только на уровне партийного руководства, но приняло более широкий размах, представляя собой сбор подписей, петиций и обращений в высшие союзные партийные и государственные органы представителей различных социальных слоев. Большие надежды о пересмотре прежних границ армянам вселял указ Президиум Верховного Совета СССР от 19 февраля 1954 года «О передаче Крымской области из состава РСФСР в состав УССР» по случаю трехсотлетия присоединения Украины к России.

В апреле 1956 года новый первый секретарь ЦК КП Армянской ССР С.Товмасян в сообщении в Москву указал, что на партийном собрании Ереванского университета и заседании Союза писателей Армении звучали призывы по пересмотру границ с Азербайджанской ССР, о присоединение Нагорного Карабаха и Нахчывана к Армении[5]. Свой вклад в усиление националистических настроений среди армян вносила григорянская церковь, которая после второй мировой войны возобновила свою деятельность, оправившись от репрессий второй

половины 30-х годов. В целом в деятельности армянской церкви ориентация на чисто национально-политические цели, традиционно превалировали над собственно религиозными функциями. Церковь издавна служила связующим началом для армян, расселенных по разным странам, в условиях различных политических режимов и в различном конфессиональном окружении. Не случайно армянский католикос Вазген I в первом из двух писем, переданных председателю Совета министров ССР Н.А.Булганину на встрече 12 мая 1956 г., просил решить вопрос открытия новых церквей за пределами Армении: «Вашему высокому вниманию представляем и задачу открытия новых церквей в находящихся внутри Советского Союза районах с большим количеством армянского населения, что мы считаем весьма важной задачей по следующим соображениям. На территории Азербайджана проживает свыше полумиллиотта армян, однако там существуют всего лишь две церкви - в Баку и а Кировабаде. В автономной области Нагорного Карабаха, где живет около 200 тысяч одних армян (здесь католикос явно преувеличил, так как согласно переписи населения Азербайджанской ССР 1959 года в НКАО проживало всего 130,4 тыс. населения, из которых 110,1 тыс. или 84,4 % были армяне, а 18 тыс., или 13,8 % - азербайджанцы[6] - И.Н.), есть только одна церковь, и то не в областном центре, а в одном из отдаленных сел. Нет церквей также в районах армянского расселения Нахичеванского края». В письме Вазген I преподносит эти предложения как жалобы армянского населения указанных районов: « Католикосат св. Эчмиадзина получает многочисленные письма от верующих армян, как из районов Армении, так и из областей Советского Союза, заселенных армянами, с просьбой ходатайствовать об открытии церквей. В этих письмах верующие жалуются на то, что в результате отсутствия церквей они лишены духовного утешения и возможности исполнения необходимых религиозных обрядов». Попутно духовный глава армян «присвоил» жемчужину албанской архитектуры в Нагорном Карабахе - Гандзасарский монастырь (1216-1238), попросив передать его в подчинение Эчмиадзина, «дабы мы могли соответственно заботиться о ней». Таким образом, первое письмо католикоса представляло собой зондаж почвы для перехода к открытым территориальным притязаниям, которые изложены во втором письме.

Второе письмо было написано по итогам зарубежной поездки Ваз-гена I в феврале 1956 года: «В течение трех месяцев Мы посетили армянские колонии в Ливане, Египте, Италии, Франции и Англии. Взоры проживающих ныне за рубежом более одного миллиона армян направлены к св. Эчмиадзину, к Матери-Родине - Советской Армении. Они с трепетом ждут справедливого разрешения армянского вопроса, чтобы эти истосковавшиеся по Родине люди могли вернуться на свою землю, о чем мечтают уже не один десяток лет. За границей многие спрашивали Нас - не настало ли время для справедливого разрешения вопроса об автономной области Нагорного Карабаха, Нахичеванской АССР и Ахалкалакском районе, которые в основном заселены армянами, однако продолжают оставаться за

пределами границ Советской Армении». Здесь армянский католикос представляет территориальные притязания к соседним республикам как требование, прежде всего представителей армянской диаспоры, как важнейшее условие их возвращения в Армянскую ССР. Тем самым Вазген Г надеялся снять ответственность с себя и партийного руководства Армянской ССР за возможные нежелательные последствия в случае удовлетворения этих требований. Кроме этого, он пытается доказать советскому руководству, что затронутые в письме вопросы «представляют самые искренние чувства и заветные мечты всего армянского народа», одновременно в старых традициях затронул геополитическую струну: «насколько сильным будет в Закавказье армянский народ и Армения, настолько будет обеспечена безопасность южных границ нашей великой Родины» . Поднятые во втором письме территориальные вопросы не нашли своего решения, однако первое подобное обращение к советскому руководству не партийного лидера Армении, а главы духовен ства свидетельствовало о том, что армянская элита почувствовав вкус некоторой свободы, вызванной «оттепелью» после смерти Сталина, возобновила активные экспансионистские домогательства. Не случайно в 1958 году, находясь в Баку, католикос Вазген I вновь поднял перед руководством Азербайджанской ССР вопрос о передаче Нагорного Карабаха Армении, а также об открытии в Баку армянской духовной семинарии, о налаживании ежедневного боя на колокольне армянской церкви города .

60-е годы ознаменовались новым обострением ситуации вокруг армянских территориальных притязаний к Азербайджанской ССР. 23-24 апреля 1961 года на территории Армянской ССР было изъято около 100 анонимных писем, адресованных секретарям ЦК, председателю и заместителям председателя Совета министров, председателю Верховного совета, руководителям ряда предприятий республики. Главное содержание данных писем сводилось к требованию «вернуть» Армении «исконно армянские земли» в составе закавказских республик и Турции. В оперативных сведениях по ИКАО КГБ Азербайджанской ССР, поступивших в мае 1962 года, указывается, что «в г. Степанакерте отдельными лицами распространяются слухи об отделении ИКАО от Азербайджана и присоединения ее к Армении. В области ведется нелегальный сбор подписей под обращением к центральным властям с просьбой о присоединении к Армении. Подобное обращение, подписанное ведущими представителями карабахской интеллигенции, в Москву уже направлено...». 24 июня 1962 года в КГБ Азербайджанской ССР поступила следующая информация: «Среди армянского населения области в связи с предстоятцим визитом Хрущева в Армению активизировались слухи о том, что, приехав в Армению, Хрущев в ознаменование 40-летия республики преподнесет Армении в виде подарка Нагорный Карабах»[9].

Очередной виток антиазербайджанской кампании пришелся на период подготовки в Армянской ССР к 50-летию пресловутого «геноцида армян», якобы имевшего место в годы первой мировой войны в Османской империи. В этот

период в Армянской ССР азербайджанцы были отстранены от руководящих постов, закрыты азербайджаноя-зычные районные газеты, прекратил свою деятельность Иреванский азербайджанский драматический театр им. Дж.Джаббарлы, и в то же время открыто начал действовать «Комитет Карабаха» °. В 1966 году секретариат ЦК КПСС, рассмотрев ходатайство ЦК и постановление Совета министров Армянской ССР от 21 февраля 1966 года, разрешил республике проводить в дальнейшем репатриацию армян из зарубежных стран. 9 августа 1966 года было принято постановление Совета министров СССР, разрешающее проводить репатриацию армян из зарубежных стран в количестве до 5 тысяч человек в год, с покрытием расходов за счет средств Министерства финансов СССР[11]. Ясно, что размещение так называемых «репатриантов» предполагалось, прежде всего, на территориях, где проживали азербайджанцы, а для этого требовалось провести очередную их депортацию, или же добиться присоединения ИКАО и Нахчыванской АССР к Армянской ССР.

После этой тщательной подготовки почвы для территориальных притязаний в сентябре 1966 года за подписью первого секретаря ЦК КП Армянской ССР А. Кочиняна и председателя Совета министров Б.Мурадяиа в ЦК КПСС было направлено письмо, которое преподносилось как «просьба группы деятелей науки и культуры Армянской ССР к XXUI съезду партии». В письме содержалась просьба о «возвращении Армянской ССР Нагорного Карабаха и Нахчыванской АССР». Авторы письма произвольно интерпретировали, а точнее фальсифицировали исторические документы, связанные с образованием НКАО и Нахчыванской АССР, пытаясь обосновать свои претензии «политическими, экономическими и этническими факторами», а также якобы «многочисленными письмами, поступающими в ЦК КП Армении от различных групп трудящихся НКАО». При этом руководство Армянской ССР указывало на «ненормальность создавшегося положения, когда малочисленный армянский народ в условиях Советского Союза имеет две государственности - одну Союзную Армянскую республику и одну национальную автономную область (имеется в виду НКАО-И.Н.), но в составе другой союзной республики». Действительно, такой привилегией не обладала ни одна другая нация в составе СССР. В то же время армянские руководители противоречили себе, когда, указывая в своем обращении на Нахчыван как на армянскую территорию и требуя его присоединения, в то же время считали, что «при этом Нахичеванская ССР могла бы сохранить свою автономию в составе Армянской ССР».

В заключение авторы цинично заявляли, что «при рассмотрении поднятых вопросов мы исходили из основной главной задачи обеспечения дальнейшего укрепления братской дружбы между народами Советского Союза и, в частности, между армянским и азербайджанским народами. Опасения возможной нежелательной реакции лишены основания, так как вопрос ставится не об отторжении какой-либо части территории Азербайджанской ССР, а слиянии

автономной национальной области с союзной республикой, коренное население в которых одно - армянское»[12]. Вспоминая эти события, покойный ныне экс-президент Азербайджанской Республики Гейдар Алиев, занимавший тогда пост председателя КГБ Азербайджанской ССР, отмечал: «Помню, это было то ли в 1966, или же в 1967 году, из Москвы поступило постановление. Тогда меня вызвал Вели Ахундов. Это было постановление ЦК КПСС; писали, что «поручить ЦК КП Азербайджана - Ахундову, ЦК КП Армении - Кочиняну обсудить этот вопрос и доложить». Что это означало? А означало это, что вопрос Азербайджана поручается решать Армении... Я сказал ему, что этот вопрос лучше обсудить в Москве с Брежневым. Он поехал и объяснил Брежневу, который и отменил то постановление» .

Однако территориальные притязания армянского руководства к Азербайджанской ССР в очередной раз дестабилизировали ситуацию в НКАО. В секретном письме под № 10/579 от 26 июня 1967 года, адресованном первому секретарю ЦК КП Азербайджана Вели Ахундову председателем КГБ республики Гейдаром Алиевым, отмечалось: «В ночь с 23 на 24 июня с.г. на некоторых улицах города Степанакерта распространено около 300 листовок на армянском языке, отпечатанных на фотобумаге размером 8x9 см. Листовки содержат требования о присоединении Нагорного Карабаха к Армянской ССР и клеветнические измышления националистического характера». Искрой для трагедии 1967 года стало убийство армянского школьника в селении Куро-паткино Мартунинского района НКАО, в котором были обвинены местные азербайджанцы Аршад, Алемшад и Зохраб Мамедовы. Суд, рассматривавший дело с 12 июня по 3 июля 1967 г., не нашел достаточных улик для доказательства вины обвиняемых, и отправил дело на дополнительное расследование. Однако после окончания судебного заседания группа армян совершили нападение на тюремную машину, в которой находились трое подсудимых. Нападение на конвой закончилось линчеванием арестованных, которые были зверски убиты, скальпированы, а трупы сожжены. Позже участники этой расправы были выявлены и арестованы[14]. Как видим, даже в условиях советского режима экстремистские, шовинистические настроения среди армян нет-нет да и проявлялись, выплескиваясь в форме кровопролития.

Таким образом создание искусственной автономии в Нагорном Карабахе стало для армянских националистических кругов «точкой опоры» для выдвижения политических требований о присоединение этой автономной области к Армении в течение 40-60-х годов XX века, а после распада СССР в 1991 году -для проведения курса на вооруженную аннексию этого региона.

**Литература:**

1. Карабахский вопрос. Истоки и сущность в документах и фактах. Степанакерт, 1991.
2. Газета «Новое время». Ереван, 2005, 20 августа.
3. ГАППОД УДП АР : Ф. 1 ,оп. 169, д.249, л. 8-12.
4. Həsənli C. Azərbaycanda Milli məsələ: siyasi rəhbərlik və ziyalılar (1954-1959). Bakı, 2008, s.l 11
5. Yenə orada, s.l08-109
6. Mahmudov Y.M., Şükürov K.K. Qarabağ: Real tarix, faktlar, sənədlər. Bakı: 2005, s.73
7. Нагорный Карабах в 1918-1923 гг.: Сборник документов и материалов / Отв. ред. В.А. Микаэлян. Ереван: АН Армении, 1992; http : // www.arsakhworld.com
8. Azərbaycan tarixi: 7 cilddə,VU c, Bakı: 2003, s.l58
9. Этнические конфликты в СССР. 1917-1991 гг.: База данных / Сост.: Е. Зубкова, С.Константинов, Д. Люкшин и др. М., 2001; http: // www. som.fsio.ru
10. Историческая география Западного Азербайджана / составитель С.Асадов Баку: 1998, с.88-89
11. Кочинян А. Документы, письма, воспоминания. Ереван:2003, с.3О
12. Там же, с.35-43
13. Из выступления президента Азербайджанской Республики Г. Алиева на встрече с представителями азербайджанской интеллигенции. Газ. «Бакинский рабочий», 1999, 12 ноября
14. Qasımlı M.Heydər Əliyev - İstiqlala gedən yol (1969-1987). Bakı: 2006, s.328

**İradə Məmmədova**

## QARABAĞ XANLAR1NIN ƏHALİ SİYASƏTİ

Azərbaycanın digər xanlıqlarında olduğu kimi Qarabağ xanlarının da vəzifəsi xanlığın sərhədlərini düşməndən qorumaq və ərazisini genişləndirməklə yanaşı, əhalinin sayının artırılması da olmuşdur. Hər hansı bir xanlığın ərazisində vergi ödəyən əhalinin çox olması xanın gəlirinin də artmasına səbəb olurdu. Bu səbəbdən də Qarabağ xanları digər xanlıqların ərazisində yaşayan tayfaların Qarabağ mülklərində məskunlaşmasına çalışırdılar. Xanlığın ərazisində əhalinin çox olması həm də müharibə zamanı daha çox silahlı dəstələr toplamağa imkan yaradırdı. Həmçinin, xanlar ərazilərinə edilən hər hansı bir təcavüz üzündən xanlıq hüdudlarını tərk edərək digər ərazilərə qaçmış əhalinin də geri qaytarılması istiqamətində işlər aparırdılar. Bəzi hallarda xanlıq ərazisinə işləmək üçün işçi qüvvəsi dəvət olunurdu ki, bu da iqtisadi amillərlə bağlı idi. Qarabağ xanlığının əsasını qoyan Pənahəli xan hələ Qarabağa gəlib özünü müstəqil elan etməmişdən əvvəl digər ərazilərin əhalisini öz tərəfinə çəkmək istiqamətində işlər görmüşdü. Belə ki, Pənahəli bəyin qardaşı - Nadir şahın sarayında eşikağası vəzifəsində çalışan Fəzləli bəy öldürüldükdən [13, s. 17] sonra Pənahəli bəy onun yerinə eşikağası təyin olunmuşdu. Bir müddətdən sonra Nadir şah Pənahəli bəydən şübhələnmiş və ona qarşı rəftarı dəyişmişdi [7, s. 79-80]. Qardaşının aqibətini yaşamamaq üçün Pənahəli xan 6 nəfər qohumu ilə sarayı tərk edib qaçandan sonra bir müddət Zəngəzur yaylağında, Qara Murtuza bəyin yanında qaldı. Sonra Pənahəli bəy öz tərəfdarlarını toplayaraq, inzibati mərkəzlərə - Gəncəyə, Naxçıvana, Şəkiyə və digər yerlərə basqınlar edərək, əhalini öz tərəfinə çəkmək üçün ələ keçirdiyi qəniməti (mal-qaranı və atları) onlara payladı. Əhməd bəy Cavanşir bunu belə təsvir edir: «Pənahəli bəy onu tutmaq üçün gələnlərlə, habelə Dağıstan tərəfdən olan basqınlardan ölkəni qoruyanlarla mübarizədəki müvəffəqiyyətlərdən ruhlanaraq, gələcəkdə özü üçün daha əlverişli şərait yaranacağı təqdirdə əhalinin rəğbətini qazanmaq məqsədilə, xalqa zülm edənlərə qarşı amansız olmaqla, adi partizan dəstələri başçılarına nisbətən daha çox insanpərvərlik göstərirdi [4. s.179; 5, s.40-41]».

1747-ci ildə Nadir şah öldürüldükdən sonra Pənahəli xan 200-ə qədər süvari ilə Qarabağa gəlib özünü xan elan etdi. Pənahəli xan Xorasana və Gilana sürgün edilmiş Kəbirli, Cavanşir və başqa Qarabağ tayfalarının Vətənə qayıtmağına şərait yaratdı, Pənahəli bəy Qarabağ ellərini qarşılamaq üçün İran sərhəddinə kimi gedilə onlara kömək göstərdi, bu tayfaları əvvəlki yurdlarında məskunlaşdırdı [7, s. 80; 6, s.128]. Ellərin camaatı var-yoxdan çıxmış, soyulmuş, əziyyət çəkmiş və yoxsul olduqlarına görə Pənahəli xan Şirvan, Şəki, Gəncə, İrəvan və Qarabağın ətraf ellərini qarət etdi və bu yolla soydaşlarının maddi vəziyyətini bir qədər yaxşılaşdırdı [l 1, s. 126]. 1748-ci ildə Kəbirli mahalında Bayat qalası inşa olunduqdan sonra Təbriz və Ərdəbil vilayətlərinin əhalisi və sənətkarlarının Bayat

qalasında məskunlaşması haqqında «Qarabağnamələr»də məlumat vardır: «Ətrafda olan camaat, hətta Pənah xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları belə öz ailələri ilə birlikdə gəlib Bayat qalasında yerləşdilər [11, s. 127; 14, s. 243]».

Mir Mehdi Xəzani xan iqamətgahının Bayat qalasından Şahbulağa köçürülməsini elatla bağlı olduğunu yazırdı. Onun yazdığına görə, Bayat qalası aranda yerləşdiyindən «yay fəsli olanda elat əhli dağlara gedib, uzaq olurlar, zərurət olanda onlara əl yetişmir [12, s. 132]».

Göründüyü kimi hər hansı bir təhlükə olanda xanlar elatlardan silahlı dəstələr toplayırdılar, bu səbəbdən də iqamətgahlarının elatlara yaxın ərazidə tikilməsinə fikir verirdilər. Qarabağ xanı Pənahəli xanın öz siyasi hakimiyyətini ətraf yerlərə yayması ilə bağlı olaraq ona tabe olan əhalinin da sayı artır. Pənahəli xan Gəncə, Qaradağ, Ərdəbil və Naxçıvan xanlarını öz təsiri altına aldı, mülklərini cənub-şərqə və cənub-qərbə tərəf genişləndirərək Tatev, Sisyan, Qafan, Mehri mahallarını özünə tabe etdi: «Pənahəli xan Mehri, Güney mahallarını Bərguşada qədər Qaradağ hakiminin əlindən alıb özünə tabe etdi. Tatev və Sisyan mahallarını Naxçıvan hakimindən, Zəngəzur və Qapan mahallarını Təbriz bəylərbəyindən, Kolanlıların məskəni olub Uşacıq kəndindən Göyçə sərhəddinə qədər uzanan Tərtər çayı sahilindəki yerləri İrəvan hakimindən aldı. Gəncə hakimlərinə aid və Xudafərin körpüsündən Kürək çayına qədər olan yerləri də öz əlinə keçirdi [10, s. 42; 18, s.155; 11, s.129; 13, s.19-20]».

Pənahəli xan hakimiyyətdə möhkəmləndikcə Qarabağ xanlığına qonşu olan ərazilərdən bir çox ellər xanın himayəsinə sığınmağa başlayaraq, xanlığın ərazisində məskunlaşmağa başlayırlar. Naxçıvan elindən olub bir minbaşıya tabe olan Kəngərli eli, Borcalıdakı Dəmirçihəsənlilərdən olub bir minbaşıya tabe olan Dəmirçihəsənli eli, yenə Borçalıdan olan Cinni tayfası da Qarabağa gəlib Pənahəli xanın himayəsinə sığındılar [10, s.42]. Əhməd bəy Cavanşir adı çəkilən tayfalarla yanaşı digərlərinin də adını çəkir. Onun yazdığına görə Pənahəli xan Nadir şah tərəfindən sürgün edilmiş yerli Qarabağ elatlarından başqa qonşu xanlıqlardan Qarabağa - qaraçorluları, qızılhacılıları, dəmirçihəsənliləri, boyəhmədliləri, səfikürdləri, cinliləri, saatlıları, kəngərliləri və digərlərinin müəyyən hissələrini də köçürüb məskunlaşdırmışdı [4. s. 181; 8, s.40].

Yuxarıda verilən məlumatdan aydın olur ki, Pənahəli xanın əhali siyasətində üç istiqamət özünü göstərir: Birincisi, Qarabağ ərazisində əvvəllər yaşamış, lakin sürgün edilmiş tayfaların yenidən geri qaytarılması və onların maddi vəziyyətinin yaxşılaşdırılması; ikincisi, siyasi hakimiyyətinin möhkəmləndirilməsi və ərazisinin genişləndirilməsi ilə bağlı olaraq qonşu xanlıqların ərazisindəki Pənahəli xanın himayəsinə sığınan tayfaların Qarabağ xanlığının ərazisində məskunlaşdırılması və onların hərbi gücündən istifadə edilməsi; üçüncüsü, Bayat qalasının tikintisi ilə bağlı olaraq Ərdəbil və Təbriz vilayətlərindən gələn bir çox əhali və sənətkarların qalada yerləşdirilməsi. Qalaların tikintisi ilə bağlı olaraq Qarabağa gələnlərin

burada məskunlaşması sonralar da davam etmişdir. Məsələn, Şuşa qalası tikildikdən sonra qonşu Azərbaycan xanlıqlarından (şəhər və kəndlərindən) Qarabağ xanlığına gələnləri müvafiq olaraq müəyyən məhəllələrdə yerləşdirdilər. Şuşa şəhərindəki bəzi məhəllələrin Təbrizli, Əylisli, Qazançalı, Köçərli, Culfalılar və s. adlandırılması, həmin məhəllələrdə yaşayanların öz adlarına uyğun olan şəhər və kəndlərdən gəlmələrini göstərir [2, s. 53; 8, s. 45].

Bir çox hallarda Qarabağ xanları əhalisini böyük qırğınlardan qorumağa çalışırdılar. Məsələn, Ağa Məhəmməd şahın Şuşa qalasını mühasirəsi zamanı İbrahimxəlil xan qala divarlarının dağıldığını gördükdə qalada olan əhalinin şəhəri tərk etməsinə izn vermiş, gecə döyüşçülərindən ən qoçaq 200 nəfəri götürüb düşmənin arxasına keçmişdi [5, s.60]. Qarabağ xanlığında hakimiyyət uğrunda gedən mübarizədə də elatlardan istifadə olunurdu. Ağa Məhəmməd şah Qacar qətlə yetirildikdən sonra Qarabağda hakimiyyəti ələ almış Məhəmməd bəy İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağanın 500 nəfərlik qoşunla Qarabağa gəldiyindən xəbər tutandan sonra Qarabağ ellərini Araz ətrafına köçürmək və mübarizəni davam etdirmək istədi. Lakin Məhəmmədhəsən ağa Kirs dağındakı qalanın üç versliyində Məhəmməd bəyə çatdı və elatlar onun tərəfinə keçdilər [11, s. 146; 7. s. 101; 5, s.62].

Bu məlumatdan görünür ki, elatların bu və ya digər xanın tərəfində olması onların qələbəsinə təsir göstərən amillərdən biri idi. Onu da qeyd edək ki, Qarabağ ərazisində baş verən siyasi hadisələr, bu ərazinin Rusiya-İran müharibəsinin döyüş meydanına çevrilməsi də xanların əhali siyasətinə təsir edən amillərdən idi. 1805-ci ildən başlayaraq Rusiyanın işğalçı siyasətinin məntiqi davamı olaraq Qarabağ xanlığının ərazisində.

Onu da qeyd edək ki, Qarabağ ərazisində baş verən siyasi hadisələr, bu ərazinin Rusiya-İran müharibəsinin döyüş meydanına çevrilməsi də xanların əhali siyasətinə təsir edən amillərdən idi. 1805-ci ildən başlayaraq Rusiyanın işğalçı siyasətinin məntiqi davamı olaraq Qarabağ xanlığının ərazisində ermənilər yerləşdirilməyə başlamış və xanlığın ləğv edilməsinədək minlərlə Azərbaycanlı ailəsi ruslar tərəfindən sıxışdırılaraq xanlığın hüdudlarını tərk etməyə məcbur olmuşdular. 1805-ci ilin yayında Rusiya və Qacarlar dövlətinin qoşunları arasında Şuşa ətrafında gedən döyüşlər zamanı təkcə bir gecədə 20 min adanı Arazın o biri tayına köçmüşdü [19. s. 426;15,s.39].

1812-ci ildə Qacar qoşunları Qarabağa girərkən 3000-dək qarabağlı tərəkəmə ailələrini əsir götürmüş, onları 500 nəfərlik qacar süvarilərinin nəzarəti altında Muğanda - Lənkəran xanının sərhəd mülkündə yerləşdirmişdilər. Həmin ilin dekabrın 21-də Kotlyarevskinin başçılıq etdiyi rus hərbi dəstələri Qarabağdan olan tərəkəmə ailələrin yerləşdiyi Lənkəran xanlığının sərhəddinə daxil olaraq, qacar dəstələrini dağıtmışdı. Əsirlikdən azad edilən 3 minə qədər qarabağlı tərəkəmə ailələri yenidən Qarabağda yerləşdirildilər [17, V c, sən. 851, 853; 9, s.87-88].

1816-cı ildə İbrahimxəlil xanın oğlu Əbülfəht ağa ilə 4 min ailə Qarabağı tərk etmişdi [17, VI c, sən. 1261, s. 834; 5, s.198]. I Rusiya-İran müharibəsi illərində Qarabağ xanlığının əhalisinin sayı 10 min ailədən 5 min ailəyədək azalmışdı [17, VI c, h.II, s. 579]. Qarabağ əhalisi bu illərdə Şimali Azərbaycanın digər əyalətlərinə də köçürdülər. XIX əsrin əvvəllərində Qarabağdan Şamaxı xanlığına 1500 ailə köçmüş və köçüb gələnlər Şamaxı xanlığının Qoşun mahalında 8 kənd salmışdılar [3. v. 5]. Qarabağ əhalisinin bir hissəsi isə Şəkiyə köçmüşdü [17, V c, sən. 660, s. 551; 15, s. 39]. Bəzi hallarda xan ailəsinə məxsus olan mahalın kəndləri Öz ağaları ilə birlikdə Qarabağ xanlığını tərk edirdilər və bir müddətdən sonra yenidən xanlığa qayıdırdılar. Əhalisi yalnız azərbaycanlılardan iləarət olan 5 kənddən ibarət Baqabürd mahalında 243 ailə vardı. Bu mahalın sakinləri Əbülfəht xana məxsus olmuş və o, Qacarlar dövlətinə keçərkən sakinlər də arxasınca getmişdilər. 1822-ci ildə baqabürdlülər geri qayıtmış və yenidən öz kəndlərində məskunlaşmışdılar [22, s. 77; 5, s. 185]. Məhəmməd Hüseyn bəyin idarəsində olan Püsyan mahalı 29 kənd və oymaqdan ibarət idi və burada 612 ailə yaşayırdı. Mahal əhalisi əsasən azərbaycanlılardan, yalnız 6 erməni ailəsindən ibarət idi. Əslən qarabağlı olan 20 oymağın əhalisi bir müddət əvvəl Qacarlar dövlətinə qaçmış və rus məmurları tərəfindən siyahıyaalınma keçirilən zamandan cəmi bir neçə ay əvvəl geri döndüklərindən ailələr vergilərdən azad olunmuşdular. Digər 9 kənd və oymaq isə müxtəlif şəxslərə məxsus idi və əhalisinin bir hissəsi Qacarlar dövlətinə köçüb, sonra geri qayıtmışdılar və bu ailələrin əksəriyyəti Qacarlar dövlətindən Məhəmməd Hüseyn sultanla birgə dönmüşdülər. Xanlıq ləğv olunan ərəfədə Çovundur mahalının Qapan çayının sol sahilindəki hissəsi də Püsyan mahalı ilə birgə idarə olunurdu. Bu hissəyə 6 kənd və oymaq daxil idi. Həmin kənd və oymaqlarda cəmi 269 ailə məskunlaşmışdı. Vergi ödəməyənlərin sayının çox olması ailələrin əksəriyyətinin vaxtilə Qacarlar dövlətinə köçməsi və siyahıyaalınma aparılarkən yenicə qayıtması ilə bağlı idi [22, s. 146-151; 5, s.187]. Acnan-Türk mahalında yaşayan azərbaycanlıların böyük hissəsi birinci Rusiya-İran müharibəsi zamanı Qacarlar dövlətinə və Türkiyəyə qaçmışdılar. Qarabağ xanlığı ləğv olunan ərəfədə 139 cəbrayıllı ailə Qacarlar dövlətinə qaçmışdı [5. s. 189, 198]. Yuxarıda qeyd etdiyimiz kimi bəzən xanlar öz ərazilərinə əlavə işçi qüvvələri cəlb etməli olurdular. Qarabağ xanlığında taxılın məhsuldarlığının yüksək olması əlavə işçi qüvvəsinə ehtiyac yaradırdı. Rəiyyət, rəncbər və xanın təşkil etdiyi qüvvələrin məhsulu toplamağa qüvvəsi çatmadığından xan muzdlu adamlar tutmağa məcbur olurdu. Muzdla tutulmuş «biçinçi, üç gün müddətində bir çetvert çəltiyi biçərək, onun 1/15-ni alırdı. Buğda, arpa və darını biçənlər isə məhsulun 1/10-nu alırdı. Biçinlə və pambıq yığmaqla Qarabağda çox adam məşğul olur, bundan əlavə İranla sərhəd rayonlarda, Qaradağ əyalətindəki kəndlərdən də gəlirlər [21, s. 289; 1, s. 44]». Qarabağ xanlığında sələmçiliyin geniş yayılması kəndlilərin müflisləşməsinə gətirib çıxardığından, var-yoxdan çıxmış kəndlilər öz yurdlarını tərk edib getməli olurdular. Xanlar boşalmış yerləri doldurmaq məqsədilə digər

xanlıqlardan kəndliləri həvəsləndirmə yolu ilə, ya da zorla Qarabağa gətirirdilər. Bu kəndlilərə torpaq sahəsi ayrılır, onlar müəyyən müddətə vergilərdən azad edilir. imtiyazlı şərtlərlə toxum, iş heyvanı, kənd təsərrüfatı alətləri ilə təmin edilirdilər. Əvəzində həmin kəndlilər müəyyən vaxtlarda ağanın təsərrüfatında işləməli idi [20, s. 78; 5, s.172]. Qarabağ xanlığında təsərrüfatın genişlənməsini təmin etmək məqsədilə əhalinin bir yerdə daimi yaşamasına, oturaq həyat keçirməsinə böyük əhəmiyyət verilirdi. Qarabağ xanları müəyyən səbəblərdən doğma yurdlarını tərk edənləri öz yerlərinə qaytarmağa çalışırdılar. Digər tərəfdən Qarabağ xanlığında rəncbərlərin qaçması o qədər adi hal almışdı ki, Qarabağ xanı onların qaçmaması və ya geri qaytarılması istiqamətində tədbirlər görməyə məcbur olmuşdu. Belə ki, ayrı-ayrı xanlar qaçqın kəndlilərin geri qaytarılması haqqında razılığa gəlmişdilər. Məsələn, Qarabağ xanı İbrahimxəlil xan şamaxılı Mustafa xanla saziş bağlamışdı. Bu sazişə görə şamaxılı Mustafa xan onun ərazinə qaçmış Qarabağ ailələrini İbrahimxəlil xana geri qaytarmağı öhdəsinə götürmüşdü [16, s. 85]. Geri qaytarılan rəiyyəti xan əvvəlki kəndlərində məskunlaşdırırdı. Deməli, xanların əhali siyasətinə təsir edən amillərdən biri də xanlıqda sələmçiliyin geniş yayılması idi.

Beləliklə, Qarabağ xanlarının əhali siyasəti nəticəsində Qarabağda kəndlərin sayı və əhalinin sıxlığı təxminən iki dəfə artmışdı. Ara müharilələri, xarici basqınlar və daxili çəkişmələr Pənahəli xanın hakimiyyətə başladığı dövrdə Qarabağ əhalisinin öz ərazilərini tərk etməsi və təsərrüfat dağınıqlığı ilə xarakterizə olunurdusa, Pənahəli və İbrahimxəlil xanın gördüyü tədbirlər nəticəsində yaşayış yerləri çoxaldı və Şuşa şəhəri salındı. Qarabağ xanlığında 1 şəhər və 638 kənd var idi, əhalinin ümumi sayı isə 90 min nəfər olmuşdur.

**İstifadə edilmiş mənbə və ədəbiyyatın siyahısı:**


1. Ağamalı F. XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Qüzey Azərbaycan xanlıqlarının sosial-iqtisadi vəziyyəti. B., 1999.
2. Axundov N. Qarabağ salnamələri. B., 1989.
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, f. 91, siy 1, iş 78.
4. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair //Qarabağnamələr. I kitab, B.. 2006.
5. Hacıyeva Z, Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. B., 2007.
6. Həsənəli Qaradaği. Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları... // Qarabağnamələr. III kitab, B., 2006.
7. Həsən İfxa Əlizadə. Şuşa şəhərinin tarixi // Qarabağnamələr, III kitab, B., 2006.
8. Hüseynov Y.R. «Qarabağnamələr» Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi. B., 2007.
9. Məmmədova T. Lənkəran xanlığı birinci Rusiya-İran müharibəsi dövründə, B, 2007.
10. Mirzə Adıgözəl bəy. Qarabağnamə //Qarabağnamələr. I kitab, B., 2006.

ll.Mirzə Camal Cavanşir Qarabaği, Qarabağ tarixi, I kitab, B., 2006.
12.Mir Mehdi Xəzani. Kitabi-tarixi Qarabağ// Qarabağnamələr. II kitab, B., 2006.
13.Mirzə Yusif Qarabaği. Tarixi-safi //Qarabağnamələr, II kitab, B., 2006.
14.Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri// Qarabağnamələr. II kitab. B.. 2006.
15.Verdiyeva.H. XIX əsrin birinci yarısında Şimali Azərbaycanın əhalisi, B., 1993.
16.Аббасов Ф. Гарабагское ханство. Б., 2007.
17.Акты собранные Кавказской Археографической Комиссией, т. V-VI, ч. 11, Тифлис, 1873-1875.
18.Бакыханов А.А. Гюлистан-и Ирам. Редакция, комментарии, примечания и указатели академика З.М.Буниятова, Б., 1991.
19.Дубровин Н. Закавказье с 1803-1806 гг. СПб., 1866.
20.Мустафаев М.М. Экономика Карабахского ханства в конце XVIII и I четверти XIX вв. диет. Канд. экон.наук, Москва, 1949.
21.Обозрение Российских владений за Кавказом (в статистическом этнографическом, топографическом и финансовом отношениях), ч. III. СПб., 1836.
22. Описание Карабагской провинции (составленное в 1823 году по распоряжению главноуправляющего в Грузии Ермолова, действительным статским советником Могилевским и полковником Ермоловым 2-м), Тифлис, 1866.

**İsmayıl Musa**

## QARABAĞ GENERAL-QUBERNATORLUĞUNUN TƏŞKİLİ VƏ FƏALİYYƏTİ: MƏQSƏDLƏR, PROBLEMLƏR, NƏTİCƏLƏR

Azərbaycanın Dağlıq Qarabağ mahalında yaşayan ermənilərin 1918-ci ilin yayında Şuşada keçirilən birinci qurultayı bölgənin müstəqilliyini elan etdikdən sonra onun Ermənistana birləşdirilməsinə yönəldilən cəhdlər daha təhlükəli xarakter aldı. Belə vəziyyət və onun ağır nəticələr verə bilməsi ehtimalı Azərbaycan hökumətindən daha ciddi və qəti tədbirlər görməyi tələb edirdi. Bu sahədə görülən tədbirlər arasında, xüsusilə də Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında, onun bölgələrində AXC hökumətinin bərqərar edilməsi istiqamətində atılan addımlar içərisində, fikrimizcə, ən başlıcası və tutarlısı Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğunun yaradılması, onun işinin təşkili hesab olunmalıdır.

Azərbaycan hökumətinin 1919-cu il yanvarın 15-də keçirilən iclasında Qarabağda vəziyyət haqqında Daxili İşlər naziri X.Xasməmmədovun məruzəsi dinlənildi. «Azərbaycan hökumətinin qərarları jurnalından aydın olduğu kimi, həmin iclasda aşağıdakılar razılaşdırıldr. Zəngəzur, Şuşa, Cavanşir, Cəbrayıl qəzaları hüdudlarında-məruzədə göstərilən hüquq və vəzifələrlə-müvəqqəti general-

qubernator vəzifəsi təsis olunsun; DİN-ə tapşırılsın ki, hökumətin növbəti iclasınadək general-qubernator vəzifəsinə namizəd göstərsin və onun sərəncamına nə qədər məbləğdə vəsait buraxılmasının zəruriliyi barədə öz mülahizələrini təqdim etsin.

Məruzədə ilkin olaraq son iki ildə Qarabağ və Zəngəzur bölgələrində yaranan siyasi-hərbi vəziyyətin qısa, lakin dolğun səciyyəsi verilmiş, ən başlıcası isə bu iki bölgənin birləşdirilməsi əsasında general-qubernatorluğun yaradılmasının zəruriliyi və əhəmiyyəti tutarlı dəlillərlə əsaslandırılmışdı. Adları çəkilən qəzalarda vahid general-qubernatorluğun təşkilinin vacibliyi isə aşağıdakı amillər və dəlillərlə izah edilirdi:

**1)** Zəngəzur, Şuşa və qonşu qəzaların dağlıq hissələrində məskunlaşan ermənilər Rusiyadakı fevral çevrilişi və Transqafqaz hökumətinin formalaşdığı vaxtdan etibarən daşnak təşviqatçılarının təsiri ilə ayrılmağa və özlərinin xüsusi inzibati vahidlərini (quberniyalarını) yaratmağa cəhd göstərməyə başlamışdılar. Bu zəmində də hökumətə itaətsizlik halları çoxalmış, bölgələrin müsəlman əhalisinə qarşı zorakılıqlar baş vermişdi.

**2)** Şimali Azərbaycan özünün dövlət müstəqilliyini elan etdikdən sonra bölgələrdə yaşayan ermənilərin separatçılıq meylləri daşnak təbliğatının qüvvətlənməsi, daxildəki və xaricdəki bəzi qüvvələrin fəal yardımı hesabına daha da məqsədyönlü (Azərbaycandan ayrılaraq Ermənistana birləşmək) xarakter almışdı. Yeni yaranmış Azərbaycan hökuməti çoxlu ağır və kəskin problemlərlə qarşılaşdığından, hələlik yalnız mərkəzdə öz dövlətçiliyini möhkəmləndirməyə imkan tapdığından, kifayət qədər hərbi qüvvəyə malik olmadığından, bir sıra regionlarla hərtərəfli əlaqələr saxlamağın qeyri-mümkünlüyü ucbatından Zəngəzurda və onunla qonşu qəzalarda erməni separatçı hərəkatının qarşısını almaqda çətinlik çəkirdi.

**3)** Öz «yürüşü»nün məqsədinin həmin bölgələri Azərbaycandan qopararaq Ermənistana birləşdirməkdən ibarət olduğunu açıq-aşkar elan edən Andranikin hərbi hissələrinin bu yerlərə soxulması vəziyyəti daha da kəskinləşdirmişdi. Yerli ermənilər tərəfindən də həmin məqsədə xidmət edən silahlı dəstələrin yaradılması, onların hücumları və basqınları çoxalmışdı. Nəticədə həmin ərazilərdə 150-dən çox kənd dağıdılmış, onların əhalisinin bir qismi qırılmış, böyük bir qaçqınlar ordusu isə qonşu mahallara və hətta İrana üz tutmuşdu.

**4)** Yerli idarə orqanlarının nümayəndələri nə qədər təcrübəli olsalar da, ermənilərin ciddi hərəkatı ilə əlaqədar məsələlərdə və hadisələrdə sərbəst xətt yeritmək səviyyəsində deyildilər, onların fəaliyyətinə fasiləsiz rəhbərlik və nəzarət edilməsinə ehtiyac duyurdular; bu isə qanuna görə Gəncə qubernatorunun səlahiyyətinə aid idi. Baş verən hadisələr yerlərdə-qanunla yerli idarə orqanlarının səlahiyyətində olan-təcili tədbirlər görülməsini tələb etdiyi halda, qubernatorla əlaqə saxlanılması nəinki xeyli vaxt aparır, hətta lazımi şərait olmadığından çətinlik yaradırdı. Deməli, yerlərdə xüsusi səlahiyyətləri olan və Mərkəzi Azərbaycan hökumətindən bilavasitə zəruri göstərişlər ala biləcək xüsusi ali hakimiyyətin təşkili

şəksiz zəruriyyət təşkil edirdi.

Məruzədə həmçinin general-qubernatorun vəzifələri də dürüst və konkret müəyyənləşdirilirdi: erməni hərəkatına qarşı mübarizə və onun tamamilə ləğv edilməsi; yuxarıda göstərilən qəzalarda qəti qayda-qanun yaradılması; yerli hakimiyyətin təşkili; qaçqınların ərzaqla təchiz olunması, onlara kömək göstərilməsi və əvvəlki yaşayış yerlərinə qaytarılması. Bu işlərin görülməsi məqsədi ilə general-qubernatorun yanında, ona kömək üçün, özünün sədrliyi ilə xüsusi Şura yaradılması nəzərdə tutulurdu. Şuranın tərkibinə Hərbi, Ərzaq, Himayəçilik və Səhiyyə nazirliklərindən məşvərətçi səsi olan nümayəndələr daxil olmalı idi.

DİN-in Azərbaycanın hökumət başçısına ünvanladığı 1919-cu il 25 yanvar tarixli sənəddə Gəncə quberniyasının məlum qəzalarının hüdudlarında xüsusi general-qubernatorluğun yaradılmasına dair məruzə, onun işçi ştatlarının, habelə 3000 nəfərə qədər xalq milisinin formalaşdırılmasının layihələri toplanmışdı. Nazirliyin hökumətə daha bir məruzəsində isə müvəqqəti general-qubernatorun hakimiyyətinin hədləri məsələsinə toxunulurdu. Bununla bağlı general-qubernatorluğun ərazisində yerləşən hərbi hissələrin onun ixtiyarına keçirilməməsi və öz nazirliklərinin tabeçiliklərində saxlanılması məqsədə müvafiq sayılırdı.

Burada həm də general-qubernator vəzifəsinə namizəd təklif edilirdi. Daxili İşlər nazirliyi həmin vəzifəyə Qud Qudiyevi məsləhət görmüşdü. Qeyd edək ki, bu fakt uzun müddət çoxlarına məlum olmadığından, tarixi ədəbiyyatda Xosrov bəy Sultanov həmin vəzifəyə birinci və yeganə namizəd kimi göstərilmişdir. Əslində isə nazirlik əvvəlcə Ter vilayətinin Nazran dairəsində doğulan, müsəlman, milliyyətcə inquş, hərbi xidmətin müxtəlif pillələrini keçən, təcrübəli inzibatçı Q.Qudiyevin namizədliyi üzərində dayanmış, onun haqqında verilən məlumatda yeganə çatışmayan cəhət kimi Azərbaycan dilini bilməməsi qeyd olunmuşdu.

Müəyyən məsləhətləşmələrdən sonra Azərbaycan hökumətinin 1919-cu il yanvarın 29-dakı iclasında «Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarına general-qubernator təyin edilməsi haqqında DİN-in məruzəsi» dinlənildi və bunlar qərara alındı: a) X.Sultanovun general-qubernator təyin edilməsi; b) nazirliyin 20 milyon manatlıq fondundan general-qubernatorluğun ehtiyacları üçün 5 milyon manat ayrılması; c) həmin məbləğdən 1 milyon manatın general-qubernatorun sərəncamına indi buraxılması, ondan isə 728.300 manatın qubernatorluğun ştatının saxlanması, 600 nəfərlik süvari dəstəsinin təşkili və bir ay müddətində təmin olunmasına, 271.700 manatın isə gözlənilməz, təcili tədbirlərə xərclənməsi; ç) yuxarıda qeyd olunan dəstənin sayının 3000 nəfərə çatdırılmasının mümkünlüyünü etiraf etməklə bunun hökumətin xüsusi göstərişi ilə həyata keçirilməsi. Burada çox maraqlı bir fakta da diqqət yetirmək lazımdır ki, general-qubernatorun müavinliyinə bolşevik Çingiz İldırım təyin olunmuşdu.

Yeni vəzifəyə təyin edildikdən sonra X.Sultanov hələ Bakıda ikən general-qubernatorluğun təşkili ilə əlaqədar olan bəzi işləri görmüş, 1919-cu il fevralın 12-də Şuşaya gələrək öz vəzifəsinin icrasına başlamışdı. AXC hökumətinin bu addımı

azərbaycanlı əhali tərəfindən böyük ümidlər və razılıqla qarşılanmışdı. Arxiv sənədlərinin də təsdiqlədiyi kimi, bu general-qubernatorluğun təşkili məlum bölgələrin bir sıra problemlərinin həllinə mühüm təsir göstərdi, fikrimizcə, Qarabağ ermənilərinin AXC hökumətini tanımalarında əsas amillərdən biri oldu.

AXC hökuməti tərəfindən Qarabağ general-qubernatorluğunun yaradılması və xüsusilə də X.Sultanovun oraya başçı təyin olunması Ermənistanı xeyli təşvişə salmış və onun diplomatik-hərbi fəallığını artırmışdı. Acıqlanmış ermənilərin özləri üçün təhqir üstündən təhqir hesab etdikləri, bir də bərk qorxduqları məşhur armenofob Xosrov Sultanovun Tomson tərəfindən hər iki ərazinin qubernatoru təyin edilməsi idi.

AXC Nazirlər Şurasının torpaqlarımızın bir hissəsində general-qubernatorluq təşkil etməsini Ermənistanın Xarici İşlər naziri C.Tiqranyan 1919-cu ilin yanvarında AXC hökumətinə göndərdiyi teleqramda hər iki bölgəyə dair irəli sürülən əsassız ərazi iddialarını davam etdirərək yeni general-qubernatorluğun yaradılmasına etirazını bildirmiş, bunu «Ermənistanın ərazi hüquqlarına» qəsd kimi qiymətləndirmişdi. C.Tiqranyanın etiraz notası əslində mahiyyəti və məqsədi çoxdan bəlli olan bir sıra məsələləri və mətləbləri daha da açıqladı. Bu cür mövqe və hərəkət, Azərbaycanın tarixi torpaqlarına qarşı irəli sürülən əsassız ərazi iddiaları vaxtı ilə Andranikdən və bölgələrdəki erməni hərbi hissələrinin qəsbkarlıq əməllərindən «imtina edən», daşnak generalı ilə pərdələnərək, özünün işğalçılıq siyasətini onun vasitəsilə həyata keçirməyə çalışan Ermənistan hökumətinin maskasını bir daha yırtdı.

Ermənistan rəhbərliyinin diplomatik-siyasi oyunları daşnak mətbuatının saxta, lakin eyni zamanda məqsədyönlü və sistemli təbliğatı ilə tamamlanırdı. Məsələn, «Naşe vremya» qəzetinin 1919-cu il 29 yanvar tarixli sayındakı baş məqalədə Qarabağ və Zəngəzur bölgələrində xüsusi general-qubernatorluğun yaradılması «Azərbaycanın zadəgan dairələrinin məsuliyyətsizliyi», iki qonşu xalq arasındakı münasibətlərin kəsilməsi aktı kimi səciyyələndirilirdi. Qəzet müharibənin səbəblərini Ermənistanın işğalçılıq siyasətində deyil, AXC hökumətinin «feodalizmi»ndə görür, bu işdə Azərbaycan zadəganlarını günahlandırırdı.

Bakı daşnaklarının qəzeti «Vperyod»un 1919-cu il fevralın 12-də çıxan 13-cü sayında Ermənistanın məlum siyasəti və mövqeyinin ideoloji təminatına dair proqram səviyyəli «Başlanğıc» adlı məqalə verilmişdi. Zəngəzur qəzasını da əhatə edən general-qubernatorluq qəzet tərəfindən «yeni dəvət olunmamış hökumət», Azərbaycan rəhbərliyinin erməni əhalisinin iradəsinə zidd addımı kimi qələmə verilirdi. Müəllif Azərbaycanın bu bölgələrə heç bir tarixi və etnik hüquqlarının olmadığını, qubernatorluğun yaradılmasının isə AXC hökumətinin Qarabağı və Zəngəzuru ələ keçirərək türk-tatar Arazdəyən Respublikası ilə birləşmək və öz sərhədlərini Sürməli qəzasında Türkiyə sərhədlərinədək genişləndirmək məqsədi daşıdığını yazırdı.

Məqalədə daha iki cəhət diqqəti cəlb edir: a) Azərbaycanın islamçı əhval-

ruhiyyəli hakimlərinin imperialist meylləri qan tökülməsinə, Ermənistanın bölgələrdəki erməni əhalisinə köməyə gəlməsi isə iki ölkə arasında hərbi toqquşmaya gətirilə çıxara bilər; bölgələrin ərazi mənsubiyyəti məsələsi mübahisəlidir, yalnız Sülh konfransı tərəfindən həll olunmalıdır, Buradan aydın olur ki, qəzet Ermənistanın bölgələrdə yaşayan erməni əhalisinə hələ bundan sonra «yardım edəcəyi» barədə xəbərdarlıq edirdisə, onda o, Ararat respublikasının hərtərəfli himayəsində olan Andranikin quldur dəstələrinin artıq xeyli müddətdən bəri həmin ərazilərdə müsəlmanlara qarşı törətdiklərini, Azərbaycana qarşı apardığı müharilləəni ya etiraf etmək istəmir, ya da onları «qanuni» sayırdı; b) general-qubernator X.Sultanovun yerli əhaliyə müraciətində İngiitərənin dünyada ən demokratik ölkə, qanunçuluğun tərəfdarı, zorakılığın əleyhdarı olmasına dair fikirləri, onun Tomsona istinad etməsi xüsusi vurğulanırdı. Həmçinin Tomsonun Qarabağa və Zəngəzura öz nümayəndəsini göndərmək və yerli özünüidarəni müdafiə etməklə əhalinin (ermənilər nəzərdə tutulur-İ.M.) azadlığını və toxunulmazlığını, digər hüquqlarını qoruyacağı barədə vəd verdiyi qeyd olunurdu.

Daşnak qəzeti yekunda Ermənistanın məlum ərazi iddialarını müdafiə, Azərbaycanın isə öz torpaqlarının idarəçiliyini həyata keçirmək cəhdlərini rədd edərək vəziyyətdən «yeganə ağıllı» çıxış yolunu-yerli əhaliyə (yenə də söhbət ennənilərdən gedir-İ.M.) müstəqil, hər hansı general-qubernatorsuz yaşamaq imkanı verilməsini «məsləhət görürdü». Çox maraqlıdır ki, bu dövrdə daşnak hökumətinin Azərbaycandakı diplomatik nümayəndəsi olan T.Bekzadyan Britaniya komandanlığının nümayəndələri ilə görüşlərində müttəfiqlərin bölgələrin məsələsini Ermənistanın xeyrinə həll etməyəcəyi təqdirdə heç olmazsa burada ingilis gcneral-qubernatorluğu yaradılmasına çalışırdı.

Şübhəsiz ki, AXC hökuməti Ermənistanın əsassız ərazi iddialarına və bölgələrimizin idarə olunmasına müdaxiləsinə biganə qala bilməzdi. Xarici İşlər nazirinin əvəzi A.Ziyadxan 1919-cu il yanvarın 31-də Ararat Respublikası XİN-ə göndərdiyi 178 saylı teleqramda bildirirdi ki, Azərbaycanın Zəngəzur və digər rayonlarında müvəqqəti general-qubernatorluq yaradılmasına hər hansı bir etiraz əsassızdır; çünki həmin ərazilər AXC-nin ayrılmaz tərkib hissələridir. Daha sonra teleqramda yazılırdı ki, öz torpaqlarında qayda-qanun yaratmaq, milliyyətindən asılı olmayaraq bütün vətəndaşlarının ləyaqətini və əmlakını məsuliyyətsiz şəxslərin özbaşınalığından müdafiə etmək Azərbaycan hökumətinin nəinki hüquqi, hətta mənəvi vəzifəsidir. A.Ziyadxan general-qubernatorun təyin edilməsi barədəki qərarın heç də Ermənistanın ərazi hüquqlarına qəsd olmadığını, əksinə, İrəvan hökumətinin etirazını daxili işlərimizə qarışmağa cəhd göstərməklə suverenliyimizə qəsd kimi qiymətləndirirdi.

AXC hökumətinin müvəqqəti Qarabağ general-qubernatorluğunun yaradılmasına dair mövqeyi «Azerbaydjan» qəzetinin bir neçə sayının səhifələrində də geniş şərh olunmuş və açıqlanmışdı. Qəzet, əvvələn, başlıca olaraq belə bir məsələyə diqqəti cəmləyirdi ki, Qarabağ və Zəngəzur bizim əzəli torpaqlarımızdır,

bu bölgələrin əhalisinin əksəriyyətini türk-müsəlmanlar təşkil edir, region ərazi, iqtisadi və s. cəhətlərdən Ermənistanla deyil, AXC-nin digər hissələri ilə daha sıx əlaqəlidir. İkincisi, Ermənistanın dünyaya özünü yazıq kimi tanıtdırmağa çalışması əbəsdir, çünki indiyədək bölgələrdə tökülən qan İrəvan hökumətinin idarə etdiyi Andranikin hərbi dəstələrinin zorakılıq hərəkətləri ilə əlaqədardır. Onlara bu işdə yerli erməni əhalisi də yardım göstərir və yalnız bu yaxınlarda ingilislər daşnak quldurlarının azərbaycanlılara qarşı özbaşınalıqlarını qismən də olsa dayandıra bilmişlər. Üçüncüsü, Azərbaycan hökuməti heç vaxt həmin əraziləri, ermənilərin dediyi kimi, «silah gücünə özünə tabe etdirməyə» yox, əksinə, həmin bölgələrin fərq qoyulmadan bütün əhalisinin hüquqlarını qorumağa çalışmışdır.

Tomsonun 1919-cu il yanvarın ortalarında Qarabağın və Zəngəzurun Azərbaycan Respublikasının müvəqqəti idarəçiliyinə verildiyini bəyan etməsi, həmin bölgələrdə müvəqqəti general-qubernatorluğun yaradılmasına obyektiv münasiləət bəsləməsi də Ermənistan rəhbərliyini xeyli çaşdırmış və narazı salmışdı. O, ermənilərin bununla bağlı etirazlarına cavab olaraq demişdi: «Məsələ bundadır ki, bəzi ermənilər Azərbaycanın Britaniya tərəfindən tutulmasından intiqam məqamı kimi istifadə edə bilmədiklərindən çox mütəəssir olmuşlar. Onlar başa düşməyə borcludurlar ki, məsələni hərbi qüvvələr deyil, Sülh konfransı həll edəcəkdir».

Müttəfiqlərin komandanlığının müvəqqəti general-qubernatorluğun təşkilini himayə etməsini onun tərəfindən 1919-cu ilin fevralında Şuşaya göndərilən mayor Mak-Mossenə (arxiv sənədlərində Monk Mezon kimi də getmişdir) və xüsusi komissiyaya verilən təlimatdan da görmək olur. Həmin təlimatda Azərbaycan tərəfi üçün müəyyən məna və əhəmiyyət kəsb edən bəzi məqamlara nəzər salaq. Təlimatda göstərilirdi ki, Zəngəzur və Qarabağın Azərbaycana və ya Ermənistana mənsub olması məsələsi yerlərdə həll oluna bilməz, komissiya da bu işə heç bir təsir göstərmək imkanına malik deyildir və onun yoluna qoyulması yalnız sülh konfransı vasitəsilə mümkündür. Burada daha sonra doktor Sultanovun bölgələrin general-qubernatoru təyin edilməsi bildirilir, onun: l)»modus vivende» tapmaq; 2) vilayəti qüvvə tətbiq olunmadan idarə etmək; 3) ərazi iddiaları haqqında məsələ qaldırmaqdan çəkinmək kimi vəzifələri sadalanır və bunlan həyata keçirməkdə ona hərtərəfli yardım göstərilməsi tapşırılırdı.

Komissiyanın qarşısında qoyulan və təlimatda öz əksini tapan ən mühüm və Azərbaycan üçün olduqca zəruri olan vəzifələrdən birini xüsusilə fərqləndirmək lazımdır. Həmin sənədin 4-cü bəndində yazılırdı ki, Mak-Mossen və komissiya qoşunların tərxis olunması haqqında təlimatı Andranikə çatdırmalı, onun hərbi hissələrinin Yevlaxa daşınması, orada isə ləğv olunduqdan sonra dəmiryolu ilə Ermənistana ötürülmələri, qaçqınların bu yazda öz vətənlərinə göndərilmələri üçün lazımi sərəncamlar verməlidirlər; Şuşaya gedən iki erməni nümayəndəsi onlara hərtərəfli kömək göstərməli idi. Komissiyanın ardınca X.Sultanovun general-qubernator təyin olunması 1919-cu il aprelin 3-də polkovnik Şatelvortun bəyanatı ilə müttəfiqlərin komandanlığı tərəfindən rəsmən tanındı və təsdiq edildi.

Ermənistan rəhbərliyi hadisələrin bu səpgidə gedişi ilə qətiyyən razılaşmayaraq ingilisləri bölgələrə dair öz haqsız iddialarının «əsaslılığına» inandırmağa cəhdlər etdi. Daşnak hökumətinin sədri Ov.Kaçaznuni 1919-cu il martın 7-də ingilis generalı Uokkerlə söhbətində bildirmişdi: «Ermənilər qəti əmin idilər ki, müttəfiqlərin qələbəsi və Qafqaza gəlişi ilə onların vəziyyəti yaxşılığa doğru dəyişəcəkdir. Mən açıq deməliyəm ki, xalqın şüuruna heyrət, şübhə və təəssüf hissləri daxil olmağa başlamışdır. O artıq özünün sağ qalması, ya da məhv olmasının müttəfiqlər üçün təfavütsüzlüyü haqqında düşünməyə başlayır».

Xarici İşlər naziri C.Tiqranyanın general Tomsona göndərdiyi 1919-cu il 11 mart tarixli 559 saylı teleqramda deyilirdi ki, bu ilin yanvarında o, Ermənistan hökuməti adından Şuşa, Zəngəzur, Cəbrayıl, Cavanşir qəzalarında Azərbaycan hökuməti tərəfindən general-qubernatorluq yaradılmasına qarşı etirazını bildirmişdi. Hələ fevralda isə doktor Sultanovun bu vilayətlərin general-qubernatoru təyin edilməsi ilə əlaqədar general Uokkerə öz etirazını çatdırmış, onun funksiyalarını etibarsız saydığını elan etmişdir. Nazir bu mövqeyini bəzi əsassız «dəlillərlə» izah etməyə çalışmışdı.

Belə ki, yeni yaradılan general-qubernatorluğun böyük hissəsinin guya Ermənistanın ərazisi olduğu göstərilir, Sülh konfransının sərhəd dəyişikliklərinə yönəldilən birtərətli zorakılıq aktlarından çəkinmək haqqında 1919-cu il 24 yanvar tarixli qərarına istinad edilirdi. Və çox təəccüblüdür ki, ona qarşı heç bir ərazi iddiası irəli sürməyən, belə bədniyyətli hərəkətlərə yol verməyən Azərbaycanı həmin qərarı yerinə yetirməyə çağıran və tarixi torpaqlarımız hesabına böyük dövlət yaratmağa çalışan Ermənistan bu göstərişi heç də özünə aid etmirdi. Nazirin gətirdiyi «dəlillər»dən göründüyü kimi, ermənilərin işğalçılıq siyasəti və zorakılıq hərəkətləri, vəhşilikləri həmin qəzaların erməni əhalisinin öz müstəqilliyini Azərbaycan və Türkiyənin qəsbkarlıq məqsədlərindən silahlı müdafiə kimi qələmə verilirdi.

«Dəlillər» sırasında qeyd olunan bir məsələ, yəni Ermənistan parlamentinin həmin bölgəni öz respublikasının ayrılmaz hissəsi sayması, bu ərazilərin guya Ermənistan hökumətinin adından tam səlahiyyətə malik Milli Şura tərəfindən idarə edilməsi, daşnak hökumətinin Gorusda öz komissarına malik olması və vilayətin bütün inzibati xərclərini ödəməsi kimi fikirlərin söylənməsi əslində AXC-yə qarşı torpaq iddialarının, onun hüdudlarında törədilən vəhşiliklərin bilavasitə müəllifliyinin açıq etirafı idi. Ermənistan Xarici siyasət idarəsinin Azərbaycan hökumətinin «zorakı və birtərətli addımlarının» arzuolunmaz nəticələri barədə xəbərdarlığı, general-qubernatorun funksiyalarının dayandırılması və Tomsonun işə qarışması çağırışı isə bizim daxili siyasətimizə birbaşa müdaxilə, əsassız torpaq davasından başqa bir şey deyildi.

General-qubernatorluğun yaradılması və onun idarəçiliyi məsələsi Tomsonun Ermənistan hökumətinin üzvləri ilə İrəvanda 1919-cu il martın 28-də və aprelin 6-da keçirilən müşavirələrdə ermənilər tərəfindən bir daha qaldırıldı. Birinci

müşavirədə Ermənistan rəhbərliyi Tomsona verdiyi məktubda Qarabağın dağlıq hissəsinin Ararat Respublikasının ayrılmaz hissəsini təşkil etməsi fikrini təkrarlayaraq, vilayətin idarəçiliyini əhalinin (ermənilər nəzərdə tutulur-İ.M.) iradəsinə uyğun olaraq Milli Şuranın əlində qalması, bu işə nəzarətin isə ingilislər tərəfindən həyata keçirilməsi şərtlərini irəli sürdü. Demək olar ki, Ermənistan arxivlərinin sənədlərinə (Mərkəzi Dövlət Arxivi, f.89/223, siy.I, iş 72, b.26) əsasən həmin müşavirədə Tomson həmçinin ermənilərin onlara hərbi yardım göstərilməsi barədəki xahişlərini yerinə yetirəcəyini vəd etmişdi.

İkinci müşavirədə Xatisyan doktor Sultanovun qubernator təyin edilməsinə kəskin etirazını bildirdikdə Tomson onun namizədliyini diplomatcasına müdafiə edərək demişdi ki, «Sultanov ingilis zabiti Mak-Mossenə tabe olacaqdır». Digər tərəfdən o, ermənilərə belə bir fikri də çatdırmışdı ki, Azərbaycan hökuməti tərəfindən Qarabağda general-qubernatorluğun yaradılması müvəqqəti haldır. Hazırda orada Azərbaycan qoşunlarının və idarəçiliyinin olması gələcəkdə bu ərazinin ona mənsubiyyətini həll etmir.

Zəngəzur və digər sadalanan qəzalarda ayrıca general-qubernatorluğun təşkili Qarabağın erməni Milli Şurasının sədri A.Şahnəzərovun və Bekzadyanın ingilis polkovniki Şatelvort ilə görüşlərində də kəskin mübahisə obyektinə çevrildi. Müzakirə zamanı A.Şahnəzərovun «ümumiyyətlə, Azərbaycan hətta öz ərazisində də qayda yaratmağa qadir deyildir, onların xalqı bizə nisbətən mədəniyyətsizdir, mədəniləri mədəniyyətsizlərə tabe etmək olmaz» kimi böhtançı mövqeyə qarşı Şatelvort belə cavab vermişdi: «Razı deyiləm, ermənilərin və müsəlmanların mədəni səviyyəsi eynidir. Doğrudanmı sizin xalqınız sülh istəmir və general-qubernatorluq tətbiq olunsa, asayişsizlik kimi təhlükəli bir yol ilə gedəcəkdir?». Azərbaycanlılarla qohumluq əlaqəsini açıqlayan A.Şahnəzərov «biz xalqın içərisinə gedilə tabe olmağı təbliğ edə bilmərik, bu xəyanətdir» dedikdə isə, Şatelvort sadəcə olaraq hədələmişdi: «xəbərdar edirəm ki, Azərbaycana və onun general-qubernatorluğuna qarşı hər hansı zorakılıqlar İngiltərə əleyhinə çıxışlardır. Biz o dərəcədə güclüyük ki, sizi tabe olmağa məcbur edə bilərik».

Uzun sürən müzakirə və mübahisələrdən sonra ingilislər nəhayət ki, bu məsələdə güzəştsiz mövqe tutaraq ermənilərdən müttəfiqlərin komandanlığının qərarlarına tabe olmağı, Qarabağda və Zəngəzurda AXC-nin hakimiyyətini tanımağı tələb etdilər. Bununla razılaşmayan Ermənistan XİN-i Qafqazdakı Britaniya komandanlığına ünvanladığı 1919-cu il 15 aprel tarixli, 1332-ci saylı teleqramda (onun surəti aprelin 17-də AXC-nin İrəvandakı diplomatik nümayəndəsi M. Təkinskiyə təqdim olunmuşdu) bu məsələ ilə bağlı tutduğu əvvəlki mövqeyini təkrarlamışdı. M. Təkinski bu barədə 1919-cu il 20 aprel tarixli teleqramda Ermənistan XİN-ə 224 saylı nota verərək Qarabağ general-qubernatorluğunun yaradılması və X.Sultanovun təyinatına dair sənədləri bir daha xatırlatmaqla bərabər Azərbaycan ordusunun bölgədə yerləşməsinə və burada qayda-qanunun təmin edilməsinə qarşı etirazları əsassız saymış, respublikamızın daxili işlərinə qarışmaq

kimi qiymətləndirmişi.

Xosrov bəyin AXC hökumətinə «Qarabağda ingilis siyasəti ilə əlaqədar olaraq yaranmış vəziyyət və onun düzəldilməsi üçün zəruri tədbirlər» adlı məlumat-məruzəsində, habelə ingilis generalı Şatelvortla Qarabağ məsələsinə dair apardığı müzakirələrdə (25.vı.1919) də bir sıra mühüm fikirlər özünə yer almışdı. Onlar problemin ayrı-ayrı məqamlarına daha dərindən nüfuz edilməsi baxımından əhəmiyyətlidir. Həm bu cəhət, həm də XX əsrin sonlarında başlayan və hazırda davam etməkdə olan Ermənistan-Azərbaycan münaqişəsinin (müharibəsinin) reallıqları və perspektivləri X.Sultanovun ibrətamiz mülahizə və təkliflərinin nəzərdən keçirilməsinə ehtiyac yaradır.

Birincisi, X.Sultanov Qarabağ general-qubernatorluğuna daxil olan bölgələrin, xüsusilə də Zəngəzurun Azərbaycan üçün geosiyasi önəmini dəyərləndirmişdi. Onun fikrincə, Qarabağın itirilməsi Naxçıvan və Ordubadın, ümumiyyətlə isə bütün Azərbaycanın itirilməsi demək olardı. Bununla Bakı ilə Gəncə arasında möhkəmlənən ermənilər dövlətimizin mövcudluğunu təhlükə altına qoya bilərdilər.

İkincisi, Xosrov bəy Şatelvortla söhbətdən belə bir nəticəyə gəlmişdi: ingilislərin guya bizə münasibətdə qərəzsizlik və xeyirxahlıq göstərilə Qarabağ məsələsində bitərəf mövqe tutmaları problemin həllini yubatmış və sayıqlığımızı azaltmışdır. Belə hal isə Azərbaycan üçün əlverişsiz şərait yaratmış və ermənilərin xeyrinə olmuşdur; üstəlik də Şərur, Naxçıvan və Qarsın ermənilərə verilməsi elan edilmişdir.

Üçüncüsü, ingilislərin Qarabağ məsələsində üzərlərinə götürdükləri öhdəliklərə əməl etməmələrini (ələlxüsus da Zəngəzurda hakimiyyəti AXC-yə deyil, erməni Milli Şurasına verdiklərini) vurğulayan general-qubernator bu vəziyyətin ermənilərin daha da fəallaşmasına təkan olduğunu açıqlamışdı.

Dördüncüsü, X.Sultanovun yerli şəraitə yaxşı bələd olmasına əsaslanan dərin inamını (qənaətini), vəziyyətdən çıxış yolu kimi təklif etdiyi, təcili həyata keçirilməli olan tədbirləri və onların ləngidilməsi (yaxud da qəbul olunmaması) şəraitində gözlənilən nəticələri belə qruplaşdırmaq olar.

**a) Gəlinən qənaətlər:** Qarabağ-Zəngəzur məsələsinin həllində ingilislərin köməyindən qəti imtina edilməlidir, çünki onlar bu işdə bizə yalnız maneçilik törədirlər;

Məcburedici tədbirlər görülməzsə, ermənilər Azərbaycan hökumətinin tabeçiliyinə razı olmayacaqlar;

Bu məsələni bir ay da həllsiz qoymaq əhalini hökumətin gücsüzlüyünə inandırmaq, müsəlman hissəsində anarxiyaya səbəb olmaq və bölgədən həmişəlik əlini üzmək deməkdir.

**b) Təcili həyata keçirilməli olan tədbirlər:** Təxirəsalınmadan Zəngəzura hərbi hissələr yeridilməsi və ermənilərin İrəvandan Azərbaycana hərəkətinin qarşısının alınması;

Dağlıq Qarabağ ermənilərinə Azərbaycan hakimiyyətini altı günə tanımaq barədə ultimatum verilməsi;

Bütün ermənilərə müsəlman rayonlarını tərk etmələrinin təklif olunması (Şuşa şəhəri üçün istisna ediləcəyi bildirilməklə);

Azərbaycan hökumətinin tanınmayacağı təqdirdə altıgünlük möhlət bitəndən sonra hərbi əməliyyatlara başlanılması.

**c) Təxirəsalınmaz tədbirlərin görülməyəcəyi şəraitdə gözlənilən nəticələr:** Ermənilərin Zəngəzurdan irəliləmələri və Dağlıq Qarabağdakı daşnak silahlı qüvvələri ilə birləşmələri;

Müsəlman rayonlarında anarxiya;

**Qarabağın itirilməsi ehtimalı:** General-qubernator xülasə olaraq bildirirdi ki, ingilis siyasəti nəticəsində Qarabağ məsələsinin həlli ləngidilmiş, Zəngəzur və Qarabağ ermənilərinin Azərbaycan hakimiyyətini dinc yolla tanımaları təmin olunmamış, nəticədə bölgədə millətlərarası münasiləətlər xeyli kəskinləşmişdir. Ümumiyyətlə, AXC hökumətinin Qarabağ general-qubernatorluğunu yaratması və onun səmərəli fəaliyyəti bölgənin ərazi toxunulmazlığının təminatında, azərbaycanlı əhalinin müdafiəsində çox mühüm rol oynadı. Bütün bunların nəticəsi idi ki, Qarabağ ermənilərinin 1919-cu ilin avqustunda keçirilən VII qurultayında AXC hakimiyyətinin tanınması haqqında akt qəbul edildi və həmin qurultayın nümayəndələri tərəfindən general-qubernator X.Sultanova çatdırıldı. Bununla da AXC-nin ərazi bütövlüyünün təmin edilməsi yolunda daha bir mühüm uğur qazanıldı.

**İsmayıl Musa**

## QARS MÜQAVİLƏSİNİN POZULMASI MƏSƏLƏSİNƏ DAİR

Ermənilərə Rusiyanın qayğısının başlıca istiqamətlərindən birini də Qars müqaviləsinin şərtlərinin onların xeyrinə pozulması, yəni Ermənistan SSR-in ərazilərinin Azərbaycan torpaqları hesabına genişləndirilməsi, böyüməsi təşkil edir. Belə ki, müqavilə təsdiqləndikdən az sonra Dərələyəz əhalisinin Güney Azərbaycanda və Naxçıvan mahalında qaçqın olmasından istifadə edildi; onun ərazisi Ermənistana qatıldı. Tezliklə Naxçıvan MSSR-in və bəzi qəzaların sərhədlərinə yenidən baxıldı.

Zaqafqaziya MİK RH-nin iclasında (1. 1.1927; 2 saylı protokol, 5-ci bənd) respublikalararası sərhədlərdə: Mehri-Cəbrayıl qəzalarından 24 kəndin və həmin qurumun digər toplantısında (20.VI. 1927; 18 saylı protokol, 1-ci bənd) isə Zəngəzur-Kürdüstan qəzalarının 1.065 desyatin ərazisinin bu və ya digərinə aidiyyatı məsələlərinə Ermənistanın xeyrinə olaraq baxıldı.

Yenə də həmin qanunverici hakimiyyət orqanının M.Sxakayanın sədrliyi, Azərbaycan SSR-in nümayəndələrindən M.Bağırov, D.Bünyatzadə və b. iştirakı ilə keçirilən iclasında (18.11.1929; 3 saylı protokol) Mehridə rayon yaratmaq adı altında Zəngilanın üç kəndi (Nüvədi, Ernəzir, Tuğut) Ermənistana verildi.

Zəngilanın «başçıları» bunu həmin kəndlərin rayon mərkəzindən xeyli aralı (uzaq) olmaları və müxtəlif səmtlərdə yerləşmələri üzündən onlarla əlaqənin çətinliyi və s. ilə «əsaslandırmışdılar». 1929-1931-ci illərdə Nüvədi, Əldərə, Lehvaz, Astazur və s. yaşayış məntəqələrinin Ermənistana verilməsi hesabına həmin ərazilərdə Mehri rayonu yaradıldı.

Zaqafqaziya Sovetləri MİK RH-nin 1929-cu il 18 fevral tarixli iclasında (3 saylı protokol, 3-cü bənd), Qars müqaviləsinin əsas tərəflərindən olan Türkiyənin mövqeyi (rəyi) nəzərə alınmadan Naxçıvan mahalının 657 kv. km. sahəsi (Şərurun üç. Şahbuzun altı kəndi və Ordubad qəzasının Qərçivan sovetliyinə aid olan Mehri, Buğakər yaşayış məntəqələri, habelə Kilitin bir hissəsi) Ermənistana verildi.

Bu qurumun başqa bir iclasının (5.UI.1938) qərarına əsasən isə Şərur mahalının Sədərək və Kərki kəndləri ətrafındakı bəzi ərazilər də Ermənistana keçdi. Həmin qərarı da Azərbaycanın «təmsilçiləri» olaraq onun MİK-inin Millətlər şöbəsinin müdiri İsaxanyan və İşlər idarəsinin başçısı Qadaqçyan imzalamışdılar.

Beləliklə, Zəngəzurun Cənub-qərb hissəsinin də ermənilərə «bağışlanması» və burada Mehri rayonunun təşkili ilə Azərbaycan özünün tərkilə hissəsi olan Naxçıvan bölgəsindən ayrı salındı. Bununla da Quzey Azərbaycan parça-parça edildi, onunla qardaş Türkiyə arasında əlaqə pozuldu və torpaqlarımızın sonrakı qəsbləri-işğalına yeni zəmin yaradıldı.

SSRİ rəhbərliyi sovet dövləti və ictimai quruluşu üçün yaranan ən ağır dövrdə İkinci Dünya müharibəsi zamanı da ermənilərə himayəsini azaltmadı. Əksinə hətta Tehran konfransında V.Molotov İ.Stalinlə məsləhətləşmələrdən sonra diaspora (lobbi) və kilsənin ermənilərin İrandan Ermənistan SSR-ə köçmələri məsələsinə dair müraciət-təkliflərinə müsbət yanaşdı. Bu iş İranda müharibə ilə bağlı yaranan ağır «maddi-iqtisadi durum»la əlaqələndirildi.

İ.Stalinin vəfatından (III. 1953) sonra SSRİ rəhbərliyində mövqeyi daha da möhkəmlənən - İliçdən (V.Lenindən) İlicə (L.Brejnevə) qədər gəlilə çıxan, «1918-ci ildən qalma məşhur» - A.Mikoyan partiya və sovet dairələrindəki ermənipərəstlərlə birləşib DQMV-nin Azərbaycandan qoparılmasına yönəlik səylər göstərdi. Paralel surətdə ABŞ ermənilərinin bayram münasiləətilə - Ermənistan SSR-in 40 illiyi ilə bağlı Naxçıvanın ona «hədiyyə edilməsi» təklifi (1960) təşkil olundu. Yeri gəlmişkən, AK(b)P MK-nın ideoloji işlər üzrə katibi N.Hacıyev bunun yolverilməz və mümkünsüz olduğunu əsaslandıran mükəmməl bir sənəd hazırlamışdı.

SSRİ-də erməni-azərbaycanlı münasibətləri və respublikalararası ərazi-sərhəd dəyişiklikləri məsələsi hətta 1960-cı ildə Sov.İKP MK Siyasi Bürosunun müzakirəsinə də çıxarıldı. Sovetlərin o dövrki rəhbəri N.Xruşşov Azərbaycanın mövqeyini dəstəklədi. Bu isə əslən ukraynalı olan Birinci katibin (Nazirlər Soveti sədrinin) lap yaxınlarda (19.11.1954) Ukraynaya verilən Krım vilayətinin yenidən Rusiyaya qaytarılması tələbləri ilə üzləşmək qayğısı və qorxusundan irəli gəlmişdi

(Yoxsa onun 1950-ci illərin sonlarında İrəvanda olarkən ermənilərə Azərbaycan torpaqlarından «yeni pay» vədinə əməl edəcəyi gözlənilən iş idi).

Sovet cəmiyyətindəki «mülayimləşmə» prosesi erməniləri Azərbaycan torpaqlarına yeni qəsdlərə ruhlandırdı. 1965-ci il bu işdə «mühüm bir mərhələ» oldu. Qaniçən quldur Andranikin anadan olmasının 100 illiyinin SSRİ-nin paytaxtında və digər böyük şəhərlərində bütün müttəfiq respublikaların rəsmilərinin iştirakı ilə təntənəli surətdə qeyd olunması (1.1965), ona dövlət səviyyəsində «Xalq qəhrəmanı» statusunun verilməsi, ən başlıcası da «erməni soyqırımı»nın 50 sənədən sonra A.Mikoyanın səyilə rəsmən «anılması» və s. «yeni dönəm»in ilk böyük tədbirləri sayıla bilər. Ermənilərin «Naxçıvan komitəsi» yaradaraq bu tarixi mahalımıza qarşı iddialarını gücləndirdikləri bir vaxtda Azərbaycanın» elmi-ziyalı mühiti»nə olduqca diletant və bəsit düşüncə hakim kəsilmişdi: «Naxçıvana muxtariyyət verən Lenin milli siyasəti onun muxtariyyətini qoruyacaqdır!» Habelə torpaqlarımızın Ermənistana verilməsinə dair vaxtilə çıxarılan qərarlar (1927, 1929, 1938) Azərbaycanın partiya (26X1.1968) - Sovet (7.V.1969) «rəhbərliyi» tərəfindən təsdiqləndi. 80-ci illərin ortalarında da Qazax, Gədəbəy, Ordubad və s. rayonların ərazilərindən otlaq, əkin yeri və digər adlar altında ermənilərə «torpaq payları» verildi

Kamil Səlimov

# ПОЛИТИКО-ПРАВОВЫЕ ПРОБЛЕМЫ НЕПРИЗНАНИЯ «ГЕНОЦИДА АРМЯН 1915 Г.»

В последнее время в парламентской практике ряда государств получило распространение рассмотрение трагического (конфликтов) прошлого ряда стран и принятие на этой основе парламентских резолюций, признающих тот или иной исторический факт геноцидом, абсолютно не углубляясь в историческую правдивость рассматриваемых проблем. При этом одна из сторон конфликта, исходя из чисто политических интересов, признается жертвой конфликта. Как правило, внешне инициаторами таких резолюций являются граждане государств, имеющие свои этнические корни и связи с государством, предки которых якобы исторически были подвергнуты «геноциду». Фактически же за каждым таким решением проявляются геополитические интересы государств заинтересованных в дестабилизации международных отношений. Наиболее же удручающее воздействие такого подхода парламентариев, сказывается на недопонимании и неосознанности к каким трагическим последствиям могут привести столь широкая интерпретация исторических событий столетней и более давности. Такая позиция способствует провоцированию расовой ненависти, нетерпимости (шовинизма), что приводит к возникновению разного рода конфликтам с последующим перерастанием в акции терроризма, а порой к открытому вооруженному противостоянию исторических сторон конфликта. Эти конфликты, как правило, перерастают в международные, и естественно парламентарии тех стран в провоцировании этих конфликтов играют не последнюю роль.

Впервые проблема исторического признания армяно-турецкого конфликта 1915 г. как «геноцида армян» совершенного со стороны турецкого правительства была поднята Арменией в начале 1990 г. и что интересно свою активную фазу она приобрела после 1994 года в период оккупации армянскими регулярными войсками 20% территории Азербайджана, куда входит Нагорный Карабах и 7 прилегающих районов Азербайджанской Республики. Между тем, со стороны Азербайджана в должной мере не установлены причины муссирования данной проблемы, в контексте Нагорно Карабахской проблемы. Этот вопрос требует серьезного отношения, так как путем реанимации исторических конфликтов армянские националистические лидеры пытаются стимулировать армянский националистический терроризм в качестве акции возмездия туркам и азербайджанцам за события 1915 года, происшедших в Турции, и таким путем добиться «восстановления исторической справедливости». Традиционно, в армянской литературе прослеживается националистические пристрастия к исследованию этой проблемы в историче-

ском направлении. Например, СМ. Айвазян высказывает мнение, что главной причиной «геноцида армян» в Турции является национальный характер турок, их органичное стремление к отторжению и уничтожению чуждой им армянской культуры (Айвазян СМ. История России. Армянский след. М.: Крон-Пресс, 2000) Первые лжепубликации о «геноциде армян» появились еще до октябрьского переворота 1917 г. В дальнейшем эта тема хотя и не была центральной в науке, но в то же время и не была забыта, приобрев для армянства и международно-правовой характер. Как правило, эта проблема навязывалась со стороны армянских ученых: Ю.Г. Барсегова, А.Оганджаняна, С.Степаняна и др. В советское время даже предпринимались усилия по созданию «научных основ» изучения «геноцида армян». Линия, направленная на фальсификацию истории, к сожалению, продолжается со стороны армянских авторов и сегодня. Причем ради этого они даже предлагают пересмотреть фундаментальные принципы международного и национального права. Так, к примеру, исследуется вопрос о придании обратной силы Конвенции о предупреждении преступления геноцида и наказания за него от 9 декабря 1948 года к прецедентам геноцида, произошедшим до вступления Конвенции в силу. В ряде трудов показывается связь конфликта в Нагорном Карабахе с последствиями геноцида. В силу того, что Азербайджан является близким к Турции государством по историческим, религиозным, культурологическим и другим характеристикам, к нему также выражается враждебное отношение. Такой подход характерен для большинства армянских ученых, затрагивающих рассматриваемую проблематику. Поэтому всестороннее исследование данного вопроса не только с позиции истории, но и норм международного права, конфликтологии, политологии, террологии и др. наук является одной из основных задач стоящих перед нашей наукой.

**Требование армян о признании геноцида 1915 года не имеет в своей основе каких либо правовых оснований.**

Так, Конвенция о предупреждении преступления геноцида и наказания за него от 9 декабря 1948 года вступила в силу в 1951 году (согласно статье XUI). Следовательно, в силу существующего принципа nullum crimene sine lege - нет преступления без указания на то в законе, ответственности по Конвенции подлежат лица только за те действия, которые были совершены уже после вступления в силу Конвенции, то есть после 1951 года. Такого мнения придерживается подавляющее большинство юристов. Попытки квалифицировать сегодня как геноцид уничтожение национальных или религиозных групп, имевшее место задолго до ее принятия, до появления в международном праве самого понятия "геноцид", на наш взгляд, неправомерны (тем более что Конвенция обратной силы не имеет). Эти факты должны быть квалифицированы по законам, действовавшим на момент их совершения. Принцип nullum crimene sine lege был также

закреплен в Римском Статуте Международного уголовного суда 1998 года. Статья 24 "Отсутствие обратной силы ratione personae" гласит: "Лицо не подлежит уголовной ответственности в соответствии с настоящим Статутом за деяние до вступления Статута в силу". Ссылка на этот римский принцип является одним из основных аргументов и турецких представителей в ответ на упоминания актов «геноцида армян», осуществленных в Османской Империи в начале 20 века.

Несмотря на данные факты, в результате активной деятельности международного армянского лобби парламентарии, мэрии городов и др. некоторых стран приняли решение о признании такового. Так, 33 итальянских городов признали «геноцид армянского народа» в Османской Турции в 1915 года. Первым 17 июля 1997 года это сделал городской совет Баньокапальо. На сегодняшний день в их число вошли Луто, Фузиньяно, С.Азута Сул, Сантерно, Котиньола, Мола-роло, Русси, Конселиче, Кампонозара, Падова и др. Вопрос признания «геноцида армян» стоит в повестке дня итальянского парламента. 29 мая 1998 года Национальное Собрание Франции приняло законопроект о признании «геноцида армян» в Османской империи в 1915 года. 18 января 2001 года Национальное Собрание Франции единогласно приняло резолюцию, согласно которой Франция признает факт «геноцида армян» в Османской Турции в 1915-1923гг. В марте 1998 Сенат Бельгии принимает резолюцию, согласно которой признается факт «геноцида армян» в 1915 году в Османской Турции и обратился к правительству современной Турции также признать его. В швейцарском парламенте действует группа, добивающаяся признания «геноцида армян» 1915 года, которую возглавляет Ангелина Фанкеватзер. 14 апреля 1995 года Государственная Дума России приняла заявление, осуждающее организаторов «геноцида армян 1915-1922 года»; по представлению группы парламентариев Квебека парламент Канады принимает резолюцию, осуждающую «геноцид армян». 12 мая 2000 года парламент Ливана признал и осудил «геноцид», осуществленный в 1915 году в отношении армянского народа Османскими властями. 20 апреля 1965 года Главная Ассамблея Сената Уругвая и Палаты представителей приняла закон "О Дне памяти жертв геноцида армян". 16 апреля 1998 года законодательный орган Буэнос-Айреса принял меморандум, в котором выразил солидарность с армянской общиной Аргентины, отмечающей 81-ю годовщину «геноцида армян» в Османской империи. 25 апреля 1996 года парламент Греции принял решение о признании 24-го апреля Днем памяти жертв «геноцида армянского народа», осуществленного Османской Турцией в 1915 году. 17 апреля 1997 года парламент южноавстралийского штата Новый Уэльс принял резолюцию, в которой, идя навстречу местной армянской диаспоре, осудил события, произошедшие на территории Османской империи, квалифицировав их как

первый в XX веке геноцид, признал 24 апреля Днем памяти армянских жертв и призвал австралийское правительство предпринять шаги к официальному признанию «геноцида армян». 29 апреля 1998 года Законодательное Собрание этого же штата приняло решение установить мемориальный обелиск в здании парламента в знак увековечивания памяти жертв «геноцида армян» 1915 года. 10 штатов США признали геноцид армян: Коннектикут, Мичиган, Нью-Джерси, Виржиния, Южная Каролина, Нью-Йорк, Массачусетс, Калифорния, Джорджия и Северная Каролина. 4 октября 2000 года Комитетом по международным отношениям Конгресса США принята Резолюция № 596 признающая факт геноцида армянского народа в Турции в 1915 - 1923 годах. 29 марта 2000г. парламент Швеции утвердил обращение парламентской комиссии по внешним отношениям, настаивающей на осуждении и признании «геноцид армян» 1915 года.

Насколько исторически состоятельны утверждения подобного рода проблема, которая до последнего времени дисскусируется учеными различных стран. Правда, в результате представления правительством Турции архивов того времени склонило мнение ученых к тому, что армяно-турецкий конфликт нельзя квалифицировать как «геноцид армян 1915 г.». Однако в силу того, что предмет рассмотрения вопроса выходит далеко за пределы армяно-турецкого конфликта, в настоящем исследовании нами предпринята попытка дать международно-правовой анализ проблемы и к каким трагическим последствия могут принести столь произвольное и широкое толкование термина «геноцид», связанного с исторической оценкой прошлого.

В соответствии с одной из оценок, за последние 5600 лет истории человечества произошло 14500 BofiH(Montagu A. The Nature of Human Aggression, in Shaw, Paul R. Wong, Yuwa. Genetic Seeds of Warfare: Evolution, Nationalism and Patriotism (London: Unwin Hyman, 1989), p.3.)

Согласно другому исследованию, за последние 3400 лет было только 286 лет мира(Вигке С, Aggression in Man, in Shaw, Paul R. Wong Yuwa. Genetic Seeds of Warfare: Evolution, Nationalism and Patriotistn (London: Unwin Hyman, 1989), p.3.)

Еще более тревожной является человеческая и социальная цена таких насильственных конфликтов. По консервативным оценкам, между 1945 и 1989 годами в войнах погибло 21,8 млн. человек. Сегодня подавляющее большинство этих жертв - гражданские лица, а не военные - приблизительно 85%, в сравнении с примерно 50% в 1950-х гг ('Stockholm International Peace Research Institute, SIPRI Yearbook 1995 (Oxford OUP, 1995), pp. 211-236; International Peace Research Jnstitute, SIPRI Yearbook 1990 (Oxford OUP, 1990), pp. 393-419; Sivard. Ruth Legcr, World Military 0 Social Expenditures 1989 (New York: World Priorities Inc, 1989). Один доклад сообщает:

Смерти - это лишь часть людских потерь, значительно большее количество людей ранено, растут случаи потери здоровья или жизни от непрямых, отсроченных во времени причин. Только пять войн 1980-х гг. (в Уганде, Мозамбике. Анголе, Афганистане, и между Ираком и Ираном) изгнали из родных мест 17 миллионов людей, из них более семи миллионов быт угнаны или бежали в другие страны. Некоторые страны буквально распались как функционирующие об щества, ...другие оказались на грани дезинтеграции (Doucet, lan, Wars. Met Report (London: Medical Educational Trust, 1991). К сожалению, это не просто голая статистика смертей, это и память близких родственников потерявших своих родных.

Существует понятие «мифологическое мышление», феномен которого наглядно проявляется в социокультурных конфликтах. Народная память в своих мифах, легендах, фольклоре, памятниках истории, литературы и т. д. хранит победы и поражения, обиды и «образы врагов», стереотипы конфликтного взаимодействия этносов. Весь этот груз достоинств и недостатков может быть использован для разжигания ненависти в межэтническом противостоянии.

И любой провоцирующий фактор может послужить мотивацией возобновления конфликта, т.к. в сознании людей, мифологии наций, эти конфликты всегда могут играть стимулирующую роль в «мщении за кровь предков».

Естественно, что цепная реакция по признанию исторического геноцида не ограничилась только армянами. 21 ноября 2002 года Верховная Рада Украины проголосовала 229 голосами «ЗА» проект Постановления (регистрационный № 2432 от 21 ноября 2002 г. с осуждением голодомора 1932-1933 годов в Украине и признанием его актом геноцида, в результате которого погибло от 3 до 6 миллионов человек - почти пятая часть населения Украины.

В настоящее время Украиной рассматривается вопрос о признании геноцидом Голодомора парламентариями других стран и соответственно возложить ответственность за эти события на Российскую Федерацию как правопреемницы СССР. В сентябре 2003 года в Нью-Йорке Президент Украины Леонид Кучма, выступая перед участниками 58-й сессии Генеральной ассамблеи ООН, призвал их поддержать инициативу Украины отдать дань уважения со стороны международного сообщества памяти погибших во время Голодомора 1932-1933 годов. МИД Украины и представительство Украины в ООН представили проект Резолюции 58-й сессии Генеральной Ассамблеи ООН с осуждением голодомора 1932-1933 годов в Украине и признанием его актом геноцида. Если голодомор 1932-33 годов будет признано на уровне ООН геноцидом, то Украина будет иметь право требовать от России, как наследницы СССР (о чем российское руково-

дство неоднократно заявляло) извинений и моральной и материальной компенсации". Хотя вместо Резолюции Генеральной ассамблеи ООН было принято «Совместное заявление делегаций Азербайджана. Бангладеш, Беларуси, Бенина, Боснии и Герцеговины, Гватемалы, Грузии, Египта, Казахстана, Канады, Катара, Монголии, Науру, Объединенных Арабских Эмиратов, Пакистана, Республики Молдова, Российской Федерации, Саудовской Аравии, Сирийской Арабской Республики, Соединенных Штатов Америки, Судана, Таджикистана, Тимора - Лешти, Украины, Ямайки по случаю семидесятой годовщины Голодомора - Великого голода 1932-1933 годов в Украине» (русскоязычная версия документа A/C.3/58/9 Третьего Комитета) в дальнейшем не исключено признание геноцидом со стороны парламентариев этих стран. Об этом издана специальная брошюра Государственным департаментом США. Ею же была организована специальная выставка Голодомор (http://www.america.gov/st/hr-russian/2008/October/ 0081009102828 GLnesnoM0.6323053.html) В октябре 2006 года президент Буш подписал закон о строительстве мемориала, посвященного жертвам Голодомора, на федеральном участке земли рядом с Капитолием в Вашингтоне. Место было утверждено 2 октября 2008 года Национальной комиссией по планированию города Вашингтона - центральным правительственным органом, ведающим федеральными землями и зданиями в столице и ее окрестностях.

В другом случае Сейм Польши направил российскому правитель ству резолюцию с требованием признать геноцидом расстрел поль ских офицеров служащими НКВД у деревни Катынь в 1940 году. По добное требование впервые появилось в официальном польском до кументе http://grani.ruSociety/history/m.

86587.htm) Осенью 1939 года на территории СССР были интернированы более 14 тысяч поль ских офицеров. В 1940 году, после занятия немецкими войсками за падных районов СССР польских офицеров расстреляли в Катынском лесу сотрудники НКВД. В 1944 году советская комиссия обвинила в массовом убийстве Германию. В 2004 году Главная Военная Проку ратура РФ объявила о прекращении расследования «катынского дела»(«1. Уголовное дело не может быть возбуждено, а возбужденное уголовное дело подлежит прекращению по следующим основаниям: ... 4) смерть подозреваемого или обвиняемого, за исключением слу чаев, когда производство по уголовному делу необходимо для реабилитации умершего;») Из 183 томов дела, польской стороне было передано 67, так как остальные 116, по словам военного прокурора, содержат государственную тайну. Этот вопрос между РФ и Польшей до сих пор не отрегулирован и является предметом государственного спора. О признании убийства польских

офицеров в Катынском лесу геноцидом польский сейм ходатайствует и перед парламентариями других стран.

В настоящее время также и в Российской Федерации поднят вопрос о признании геноцидом русских в Чечне в период правления президента Чечни Джохара Дудаева. Эти требования впервые стали на повестку дня в 2002 году, после того, как президент России Владимир Путин заявил, что в «результате этнических чисток в Чечне погибло до 30 тыс. человек, а возможно, и больше»( £ Владимир Путин: Россия не пойдет на переговоры с бандитами и террористами в Чечне // Государственный интернет-канал Россия, 19 декабря 2002)

Позже со стороны чеченцев был поставлен вопрос о признании геноцидом чеченцев со стороны Российского государства в период войны в 1992 и последующий годах за обретение национальной независимости и создания независимой республики Ичкерия. По опубликованным Госсоветом Чечни данным, с 1991 по 2005 год в Чечне погибли 160 тысяч человек, из которых 80-90 тысяч были чеченцами (lenta.ru)

В своем обращении адыгских (черкесских) организаций в Европарламент требуют признания геноцидом адыгских (черкесских) народов со стороны России. Данные требования мотивируются начавшеюся со второй половины XVJH века военной экспансией Российской империи против адыгов. Требование адыгов мотивируется тем, что в ходе военных действий со стороны российской империи осуществлялись - захват территорий, целенаправленное лишение мирного населения основных средств жизнеобеспечения: уничтожение садов и посевов, захват скота, сожжение дотла мирных селений, совершались массовые убийства мирного населения: женщин, детей, стариков. С 1862 начинается массовая насильственная депортация коренного населения. Сотни тысяч людей, согнанных на побережье Черного моря, гибнут от холода, голода, эпидемий. По заниженным данным Адольфа Берже (1828-1886 гг.), который считался в то время официальным историком Русско-Кавказской войны, из более чем миллиона адыгов (черкесов) в войне погибло свыше 400 тыс. человек, выселено 497 тыс. человек, на исторической родине осталось около 80 тыс. человек. Сегодня на земле своих предков адыги (кабардинцы, черкесы, адыгейцы, шапсуги) общей численностью около 700 тыс. человек проживают в 4 субъектах Российской Федерации (Кабардино-Балкарская Республика, Карачаево-Черкесская Республика, Республика Адыгея, Краснодарский край) и обладают не более 20% от ранее занимаемой исторической территории.

Более 3 млн. представителей данного народа проживают вне пределов Северо-Западного Кавказа в 50 государствах. Вследствие искусственно созданной разобщенности этнические адыги (черкесы) постепенно утрачивают культуру, язык.

Сегодня не только Южный, но и Северный Кавказ представляют арену этих столкновений. Так, если определенные политические деятели России на парламентском уровне признают «геноцидом армян» исторические события 1915 года имевшее место в Турции, то они сами умышленно, либо «того не понимая» провоцируют в кавказском обществе идеи о «чудовищной вине России и русского народа перед Кавказом» за «многомиллионные жертвы геноцида в период Кавказской войны», за «народоубийство-депортацию», за «духовное развращение горцев» и т.д. Именно трагическая история прошлого народов Северного Кавказа послужило одним из стимуляторов противостояния многих его регионов федеральным органам власти Российской Федерации, которое началось с 1990 г..

Трагическая история прошлого Северного Кавказа сопровождалась массовым уничтожением мирного населения различных национальностей, которое началось еще в вовремя Кавказской 1828-1886 гг., продолжалось в период гражданской 1917-1920-й войны. Новое начало войны возобновилось в 1991-ом году, тогда еще в СССР. Все эти войны сопровождались межэтническими и религиозным противоборством. Нынешние идеологи мюридизма и ваххабизма провозглашают лозунг «Хороший казак — мертвый казак», (http://www.apn.ru/publ ications/article 18277.htm) в тоже время аналогичные лозунги появляются и с противоположной стороны представителей русского националистов («хороший чеченец - мертвый чеченец») и т.д.

Представители Южной Осетии обратились к парламентариям государств о признании геноцидом осетин со стороны Грузии, событий имевших место в 1918-20 гг., 1989-1992 гг. и августа 2008 года. «Изучив представленные парламентом Республики Южная Осетия решения „О политической оценке событий 1918-1920 годах", „О политико-правовой оценке событий 1989-1992 годах" и декларации „О геноциде 1920 года в Южной Осетии", „О геноциде южных осетин в 1989-1992 годах", парламентарии Абхазии в постановлении «Об обращении парламента Южной Осетии о признании геноцида южных осетин» признали геноцид осетин со стороны Грузии. В данном постановлении цитируется, что подпадает под действие принятой ООН Конвенции от 9 декабря 1948 года «о предупреждении преступления геноцида и наказания за него и квалифицируются как геноцид действия Грузии», утверждается в документе. Депутаты Абхазии также призывают других парламентариев признать геноцид осетин (http://osgenocide.ru/2007/05/20/ parlamentarii abkhazii priznali genocid psetin.html).

В декабре 2006 г. проходивший в Симферополе курултай (нелегальный крымско-татарский «национальный съезд») обратился к Верховной Раде Украины и к ряду парламентариев других стран с призывом признать выселение татар из Крыма в 1944 году геноцидом

(http://www.nr2.ru/kiev/97980.)Геноцид индейцев (Примечание: Во многих научно-исторических трудах используется термин «Геноцид аборигенов Америки».)— термин, используемый рядом историков и политиков в отношении действия европейских колонизаторов направленных против коренного населения Америки с момента её открытия Христофором Колумбом в 1492 году и до конца XX века. Историк Дэвид Станнард считает, что коренное население Америки (включая Гавайские острова) стало жертвой «Евро-американской геноцидной войны», признавая, что большинство индейцев умерло в результате опустошительных эпидемий от инфекций, занесённых колонизаторами. По его оценкам погибло почти 100 миллионов от того, что он назвал «Американским холокостом». Взгляды Станнарда разделили Киркпатрик Сейл, Бен Кирнан, Ленор Стиффарм, Фил Лейн Мл. и другие. Эти воззрения в дальнейшем были развиты в публикациях У орда Черчила, бывшего профессора Колорадского университета в Боулдере, который в частности высказал мление, что «дело сделано по злому намерению, а не природой»". Со стороны различных организаций американских индейцев, а также международных организаций неоднократно ставился вопрос о признании индейского геноцида со стороны европейских колонизаторов (Народы Америки. Т.2. М., 1959. с 16.). В контексте современно истории необходимо указать на международно-правовое признание геноцида албанцев в Югославии, которое установлено Судом Международного Трибунала по бывшей Югославии, созданного для восстановления справедливости в отношении жертв военных преступлений и преступлений против человечности, совершённых во время войн в Югославии в 1991-2001 годах, и наказания виновных в этих преступлениях. Полное название — «Международный трибунал для судебного преследования лиц, ответственных за серьёзные нарушения международного гуманитарного права, совершённых на территории бывшей Югославии с 1991 года»( http://ru.wikipedia.org)

Не менее трагичен и ходжалинский геноцид азербайджанцев. В феврале 1992 года армяне жестоко расправились с населением города Ходжалы. Вписанная в историю Азербайджана как Ходжалинский геноцид, эта кровавая трагедия завершилась уничтожением, пленением азербайджанцев. Город Ходжалы был стерт с лица земли. Результатом авантюристского движения, начатого армянами-сепаратистами в Нагорном Карабахе, явился факт изгнания более одного миллиона этнических азербайджанцев из родных земель, которые ныне вынуждены проживать в палатках. При этом оккупационными войсками Армении до настоящего времени удерживается 20% территории Азербайджана (Татьяна Чаладзе. Карабахский геноцид: Обреченный Ходжалы. Документальная хроника. Баку - 2009 г. Elxan Süleymanov. Xocalı Syqınmı: mlyon imza - birtələb. Bakı - 2007-

ci il.). Ходжалин-скому геноциду предшествовал геноцид, совершенный со стороны армянских захватчиков в 1905-1907 годах, а после геноцид мирных граждан Азербайджана совершенный армянами под знаменем большевиков в марте 1918 года. Под лозунгом борьбы с контрреволюционными элементами Бакинской Коммуной началось осуществление омерзительного плана, преследующего цель очистки от азербайджанцев целой Бакинской губернии. Преступления, совершенные армянами в те дни, привели к уничтожению тысячи мирных азербайджанцев, лишь по причине своей национальной принадлежности. Армяне поджигали дома, заживо сжигали людей, разрушали жемчужины национальной архитектуры, школы, больницы, мечети и памятники, большую часть Баку превратили в развалины. Геноцид азербайджанцев с особой жестокостью осуществлялся в Бакинском, Шемахинском, Губинском уездах, Карабахе, Зангезуре, Нахчыване, Лянкяране и в других регионах Азербайджана. На этих территориях мирные жители были убиты в массовом порядке, сожжены селения, памятники национальной культуры были разрушены, уничтожены (http://www.azerbaijan.az/__Generalinfo/_Events/events 01 r.html). Что интересно, побудительным мотивом резни азербайджанцев 1918 г., Ходжалинского геноцида 1992 г. была «месть азербайджанцам-туркам» за кровь предков армян, которые погибли в Турции в 1915 году. Во главе такой политики всегда стояли лидеры националисты. Сегодня они ставят своей целью непринятие всего, что связано с турецкими этническими корнями. Сегодня это задача реализуется в отношении тюркских азербайджанцев, завтра в отношении тюркских народов Северного Кавказа и т.д.

В мире существует 2500 наций, и как было указано 14500 войн и более 6 млрд. людей погибло. Какова будет система мировой безопасности, если исходя из очередных политических интересов, тот или иной исторический конфликт будет рассматриваться парламентариями тех или иных стран, им будет даваться «историческая оценка» - как признание геноцида одного народа над другим народом, а затем представители национальных и экстремистских кругов, используя такую «парламентскую практику», будут в свою очередь насаждать при помощи «языка вражды» национальную ненависть ( М.Л.Федотов. Правовые основы журналистики. С.289). При этом трагическая история прошлого будет возведена в контексте мифологии нации и необходимости достижения «исторической справедливости», проявляемой в мести за кровь предков современному поколению обидчиков своей нации. Эта неприемлемая парламентская практика уже стала идеальным инструментом в деле развязывания межнациональных, религиозных и т.п. конфликтов. Трагическая история прошлого народов не должна вступать в конфликт с такой фундаментальной ценностью демократического общества, как равенство прав граждан и их право на жизнь. Парламентские решения о

признании геноцидом того или иного исторического конфликта может целенаправленно нарушить хрупкое равновесие, в особенности в местах, где мотивацией этих конфликтов является межнациональные и религиозные факторы имеющие свою историческую предысторию. Именно это обстоятельство способствует назреванию общественного регионального, межгосударственного и т.д. конфликтов. В связи с этим попытаемся проанализировать между народные акты, которые прямо либо косвенно затрагивают рассматриваемую проблему.

В контексте исследуемого вопроса речь идет, в первую очередь, о Международной конвенции о ликвидации всех форм расовой дискриминации, утвержденной резолюцией Генеральной Ассамблеи ООН № 2106 (XX) от 21 декабря 1965 rxwa,(United Nations, Treaty Series, vol. 660, p. 240-266.) статья 4 (а) которой гласит: «[государства-участники] объявляют караемым по закону преступлением всякое распространение идей, основанных на расовом превосходстве или ненависти, всякое подстрекательство к расовой дискриминации, а также все акты насилия или подстрекательство к таким актам, направленным против любой расы или группы лиц другого цвета кожи или этнического происхождения, а также предоставление любой помощи для проведения расистской деятельности, включая ее финансирование». В то же время, многие международные акты более общего характера, например, Международный пакт о гражданских и политических правах от 16 декабря 1966 года, Европейская конвенция о защите прав человека и основных свобод от 4 ноября 1950 года, провозглашая свободу массовой информации, устанавливают соответствующие ограничения для реализации данного права:

**Статья 19.** 2. Каждый человек имеет право на свободное выражение своего мнения; это право включает свобод}' искать, получать и распространять всякого рода информацию и идеи, независимо от государственных границ, устно, письменно или посредством печати или художественных форм выражения или иными способами по своему выбору.

3.Пользование предусмотренными в пункте 2 настоящей статьи правами налагает особые обязанности и особую ответственность. Оно может быть, следовательно, сопряжено с некоторыми ограничениями, которые, однако, должны быть установлены законом и являться необходимыми:

a) для уважения прав и репутации других лиц,

b) для охраны государственной безопасности, общественного порядка, здоровья или нравственности населения.

**Статья 20.** 1. Всякая пропаганда войны должна быть запрещена законом. Всякое выступление в пользу национальной, расовой или религиозной ненависти, представляющее собой подстрекательство к дискриминации, вражде или насилию, должно быть запрещено законом».

*(Международный пакт о гражданских и политических правах)*

**«Статья 10.** Свобода выражения мнения 1.Каждый имеет право свободно выражать свое мнение. Это право включает свободу придерживаться своего мнения и свободу получать и распространять информацию и идеи без какого-либо вмешательства со стороны публичных властей и независимо от государственных границ. <.. .>.

2.Осуществление этих свобод, налагающее обязанности и ответственность, может быть сопряжено с определенными формальностями, условиями, ограничениями или санкциями, которые предусмотрены законом и необходимы в демократическом обществе в интересах национальной безопасности, территориальной целостности или общественного порядка, в целях предотвращения беспорядков или преступлений, для охраны здоровья и нравственности, защиты репутации или прав других лиц, предотвращения разглашения информации, полученной конфиденциально, или обеспечения авторитета и беспристрастности правосудия».

***(Европейская конвенция по защите прав человека и основных свобод).*** В действующей Конституции Азербайджанской республики (ст. 10) предусматривается строительство взаимоотношений с другими государствами, на основе признания норм международного права.

В практике же Европейского суда неоднократно подчеркивается то положение, что статья 10 Европейской конвенции защищает не только «информацию или идеи, которые получают положительный отклик или рассматриваются как безвредные или нейтральные, но и те, которые для государства или любой части его населения являются оскорбительными, шокирующими или нарушающими спокойствие. В соответствии с требованиями плюрализма, толерантности и терпимости, без которых не может существовать демократическое общество» (дело «Хэндисайд против Соединенного Королевства» от 7 декабря 1976 года), задача СМИ состоит в том, чтобы распространять не только идеи и информацию, к которым сочувственно относится общество, но и те, что оскорбляют, вызывают беспокойство, шокируют (решение по делу «Лингенс против Австрии» от 8 июля 1986 года). В то же время, в решении по делу «Йерсилд против Дании» от 23 сентября 1994 года Суд отметил: «статья 10 [Конвенции] не должна толковаться таким образом, который бы ограничивал, допускал изъятия или сводил на нет право на защиту от расовой дискриминации на основании Конвенции ООН [о ликвидации всех форм расовой дискриминации]».

Таким образом, правовое регулирование деятельности международных организаций, парламентов государств, внутригосударственных органов и т.д. должно удовлетворять сразу двум критериям: обеспечивать свободу выражения мнений, с одной стороны, и не давать легальной возможности для проявления «языка вражды» — с другой; кроме того, всячески бороться с

данным явлением, не ущемляя при этом массовой информации. Деятельность парламентариев государств признающих исторический факт геноцида того или иного народа фактически поощряет экстремистскую деятельность, которое целиком охватывает различные проявления «языка вражды». Как правило, население государства, которое полагает, что оно исторически было подвергнуто геноциду начинает регулярно подвергаться экстремистской деятельности СМИ, нередко направленное на планирование, организацию, подготовку и совершение действий, направленных на пропаганду исключительности, превосходства либо неполноценности граждан стран учинивших «геноцид» по признаку их отношения к религии, социальной, расовой, национальной, религиозной или языковой принадлежности и др.). Именно эти факторы явились стимулирующими в провоцировании войны Армении против Азербайджана. Именно эти факторы обеспечивают политическую поддержку правительства Армении в его агрессивной политике на Кавказе. В опубликованном докладе Рабочей группы по разработке политики по вопросу о роли Организации Объединенных Наций в связи с терроризмом, утвержденной Генеральной Ассамблей Совета Безопасности 57 сессия по разработке мер по ликвидации международного терроризма прямо предписывает Деятельность Организации Объединенных Наций по борьбе с терроризмом следует поощрять посредством, среди прочего прямо указывает на важность эффективного постконфликтного миростроительства (куда входит и исторический конфликт). Это необходимо для того, чтобы не допустить во зобновления нового ожесточенного конфликта (поощряемого необходимостью мести за трагическую историю прошлого), в которых террористические группы находят для себя благодатную почву. Организация Объединенных Наций и Департамент по политическим вопросам совместно с Центром по международному предупреждению преступности Управления по контролю над наркотиками и предупреждению преступности поощряют разработку кодексов поведения для ученых через международные и национальные научные общества и институты и рекомендаций по укреплению этических норм, направленных на недопущение использования факторов поощряющих террористическую активность. К этим факторам мы бесспорно относим предания трагическим событиям прошлого политического контекста, своей сути направленного на разжигание межнациональной розни. В связи с вышеизложенным, считаем крайне необходимым создать международную рабочую группу для разработки проекта Европейской конвенции «О недопустимости использования трагического прошлого народов в парламентской практике государств» (Доклад Рабочей группы по разработке политики по вопросу о роли Организации Объединенных Наций в связи с терроризмом A/57/273 8/2002/875).

**Kamran İsmayılov**

# AZƏRBAYCANIN DAĞL1Q QARABAĞ BÖLGƏSİNDƏ SUVERENLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ QARABAĞ GENERAL-QUBERNATORLUĞUNUN ROLU

1918-ci ilin mayında yaranmış müstəqil Azərbaycan dövlətinin - Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında duran ən mühüm vəzifələrdən biri aqressiv erməni separatizminin qarşısının alınması ölkənin ərazi bütövlüyünün təmin edilməsi idi.

1918-1920-ci illərdə Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvan quberniyasında türk-müsəlman əhalisinin soyqırımı və deportasiya siyasətinə qarşı mübarizə, ermənilərin Azərbaycan torpaqlarına təcavüzkar hərəkətlərinin qarşısının alınması Cümhuriyyətin tarixinin ən mübariz və şanlı səhifələrindən birini təşkil edir. Bu gün bölgədə cərəyan edən siyasi proseslər Dağlıq Qarabağ münaqişəsi, torpaqlarımızın erməni işğalı altında olması bu problemin tarixi köklərinin dərindən araşdırılmasını, erməni separatizmini dəstəkləyən dairələrin tarixi saxtalaşdırmaq cəhdlərini ifşa etməyin zəruriliyini bir daha sübut edir.

Bu gün nəinki rəsmi erməni tarixşünaslığı, hətta bəzi rus və qərb tarixçiləri iddia edirlər ki, «1920-ci ilədək Dağlıq Qarabağ (o cümlədən Zəngəzur, Naxçıvan) bölgəsi Ermənistan Respublikasının tərkib hissəsi olmuş», «AXC hökuməti bütün cəhdlərinə baxmayaraq Dağlıq Qarabağda öz hakimiyyətini bərqərar edə bilməmiş», «Qarabağ erməniləri öz müstəqilliyini qoruyub saxlamışlar» və s.

Bəs əsil həqiqət nədən ibarətdir? 1918-1920-ci illərdə Dağlıq Qarabağın hüquqi statusu necə olmuşdur?

Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra Qarabağın dağlıq hissəsində yaşayan erməni separatçıları yeni yaranmış dövlətin mürəkkəb daxili və xarici vəziyyətindən istifadə edərək bölgəni Azərbaycandan ayırmaq üçün fəaliyyətə başladılar. Onlara bu işdə tarixi Azərəbaycan torpaqlarında yaradılmış Ermənistan Respublikası qəyyumluq edirdi. Hələ 1918-ci il iyunun 22-də İrəvanın təhriki ilə Qarabağın Erməni Şurası «Dağlıq Qarabağın müstəqilliyini» elan etmişdi. AXC hökuməti Bakını işğal etmiş bolşevik-daşnak qüvvələri, sonra isə Sentrokaspi guruhu ilə ölüm-dirim mübarizəsi apardığından Qarabağda baş verən proseslərə fəal müdaxilə etmək iqtidarında deyildi. Ermənistan dövləti bundan istifadə edərək Dağlıq Qarabağı ələ keçirmək üçün buraya silahlı qüvvələr yeritmişdi. Həmin dövrdə nizami erməni qoşunlarına qarşı müqavimət göstərən yeganə qüvvə pis silahlanmış Qarabağ azərbaycanlılarının özünümüdafiə dəstələri idi.

Görünür bu zaman Ermənistan dövləti Qarabağı və digər Azərbaycan ərazilərini ələ keçirmək üçün kifayət qədər qüvvəyə malik olmadığından öz niyyətlərini açıq biruzə vermirdi. 1918-ci ilin avqustunda Ermənistan rəhbərliyi özünün Tiflisdəki nümayəndəsi vasitəsilə Azərbaycan hökumətinə müraciət edərək ondan Şuşaya xüsusi nümayəndə heyəti göndərməyə icazə istəmişdi. Azərbaycan

hökuməti bu müraciəti aşağıdakı cavabı vermişdir: Əgər Azərbaycan hökuməti Azərbaycanın maraqlarını, onun sərhədləri daxilində mövcud olan qanunların və qaydaların əksinə fəaliyyət göstərməyəcəyinə və nümayəndə heyətinin Azərbaycan hökumətinin müşahidəsi altında fəaliyyət göstərəcəyinə əmin olarsa, erməni nümayəndələrinin Şuşaya getməsinə icazə veriləcəkdir». Əslində Ermənistan hökuməti Azərbaycan hökumətindən Şuşaya nümayəndə heyəti göndərməyə icazə istəməklə Dağlıq Qarabağın Azərbaycana mənsubluğunu de-yure təsdiqləmiş olurdu.

Ermənistan rəhbərliyi bir tərəfdən Qarabağı, Zəngəzuru silah gücünə ələ keçirmək məqsədilə bu bölgələrə Andronikin başçılıqı ilə quldur dəstələri göndərir, digər tərəfdən həyasızcasına «general Andronikin və onun dəstəsinin erməni milli qoşunlarına və orqanlarına heç bir aidiyyəti olmadığını və onun məsuliyyətsiz fəaliyyətinə görə cavabdehlik daşımadığını» bildirirdi.

Lakin I Dünya müharibəsinin nəticələri, Türkiyənin öz qoşunlarını bölgədən çıxarması ermənilərin əl-qolunu açdı, onları təcavüzkar hərəkətlərə şirnikləndirdi. 1919-cu ilin yanvarında daşnaklar Naxçıvan və İrəvan quberniyasının şərq hissəsi ilə yanaşı Qarabağın tarixi əraziləri olan Cavanşir qəzasının cənub, qərb hissəsinə, Şuşa qəzasının qərb hissəsinə, Cəbrayıl qəzasının bir hissəsinə və bütün Zəngəzur qəzasına iddia irəli sürdülər.

Azərbaycan hökuməti bu iddiaları qəti surətdə rədd etdi və məsələni dinc yolla həll etmək üçün hazır olduğunu bildirdi. Azərbaycan rəhbərliyi İrəvan quberniyasında azərbaycanlılara qarşı təcavüzkar hərəkətlərin dərhal dayandırılması ilə bağlı həm Ermənistan hökumətinə, həm də Cənubi Qafqazdakı Antanta rəsmilərinə bir neçə dəfə müraciət etsə də bunların heç bir nəticəsi olmadı. Azərbaycan parlamentində bu məsələ ilə bağlı müzakirələr aparıldı və vəhşilik əməllərinin qarşısının alınması üçün hökumətdən təsirli tədbirlər görülməsi tələb edildi. Parlament Dağlıq Qarabağda baş verən qanunsuzluqların səbəbini araşdırmaq üçün bölgəyə xüsusi komissiya göndərmiş, hökumətin nəzdində isə erməni talanlarından zərər çəkmiş Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarının müsəlman kəndlərinin vəziyyətini araşdırmaq üçün tədqiqat komissiyası yaratmışdı. Sonralar komissiyanın üzvü Mixayılovun məruzəsi hökumətdə geniş müzakirə olunmuşdu. Ermənilərin təcavüzkar hərəkətləri artıq dinc azərbaycanlı əhaliyə qarşı genişmiqyaslı müharibəyə çevrilmiş. Azərbaycan dövlətçiliyi üçün ciddi təhlükə yaranmışdı. Belə vəziyyətdə Azərbaycan hökuməti daha ciddi tədbirlər görmək məcburiyyətində qaldı. Bölgədə yaranmış ağır vəziyyətlə əlaqədar Azərbaycan Cümhuriyyəti hökumətinin 15 yanvar 1919-cu il tarixli iclasında Daxili işlər Naziri X.Xasməmmədovun məruzəsi əsasında Zəngəzur, Şuşa Cavanşir və Cəbrayıl qəzaları hüdudlarında müvəqqəti general-qubernatorluğun yaradılması qərara alındı.

Adı çəkilən qəzaların Gəncə quberniyasının tərkibindən çıxarılaraq mərkəzi Şuşa olmaqla Qarabağ general-qubernatorluğunda birləşdirilməsi bir sıra prinsipial

amillərlə səciyyələnirdi ki, buraya bölgə müsəlmanlarına qarşı zorakılıqların, erməni separatizminin, Ermənistanın işğalçılıq siyasətinin qarşısının alınması, regionun idarəçiliyi ilə bağlı yaranmış çətinliklərin aradan qaldırılması daxil idi.

Nəhayət, Azərbaycan hökumətinin 29 yanvar 1919-cu il tarixli qərarı ilə yuxarıda adı çəkilən qəzalarda general-qubernatorluğun təşkili və Xosrov bəy Sultanovun general-qubernator təyin edilməsi, DIN-in 20 milyonluq fondundan general-qubernatorluğun ehtiyacları üçün 5 milyon manat ayrılması qərarı alındı.

General-qubernatorluğun yaradılması ilə bağlı DİN-in məruzəsində general-qubernatorun səlahiyyətləri və vəzifələri də dəqiq müəyyənləşdirilmişdi. Buraya yerli hakimiyyətin təşkili, qəzalarda qayda-qanunun yaradılması, qaçqınların yerləşdirilməsi və ərzaqla təmin edilməsi və ən başlıcası, dinc əhaliyə qarşı zorakı hərəkətlərin qarşısının alınması daxil idi.

1919-cu il fevralın 12-də X.b.Sultanov Şuşaya gələrək öz səlahiyyətlərinin icrasına başladı. General-qubernatorluğun yaradılması Azərbaycan hökumətinin Qarabağda suveren hüquqlarının təmin edilməsi. Qarabağ əhalisinin təhlükəsizliyinin qorunması istiqamətində ilk və mühüm addımlardan biri oldu.

Azərbaycan hökumətinin Qarabağda general-qubernatorluq yaranması Ermənistanın daşnak hökumətinin ciddi etirazına səbəb oldu. Ermənilər genişmiqyaslı diplomatik hay-küy qaldıraraq Azərbaycanı «Ararat Respublikasının hüquqlarına və ərazilərinə müdaxilə etmək»də suçlamağa başladılar. Bu əsassız etirazlara cavab olaraq XİN əvəzi A.Ziyadxanlı Azərbaycan hökuməti adından Ermənistan XİN-ə verdiyi notada Qarabağın və Zəngəzurun Azərbaycanın tarixi torpaqları olduğunu xatırlatmış və Ermənistanın bu etirazını Azərbaycanın suverenliyinə qəsd kimi qiymətləndirərək, onun daxili işlərinə hər hansı müdaxilənin yolverilməz olduğunu bildirmişdi.

Ermənilərin ingilis komandanlığına müraciətləri də bir nəticə vermədi və general Tomson Qarabağda general-qubernatorluğun yaradılması barədə Azərbaycan hökumətinin qərarını dəstəklədiyini bəyan etdi. Tomsonun nümayəndəsi Şatelvort 1919-cu ilin aprelində Şuşaya gedərək erməni icmasından Azərbaycan hökumətinin hakimiyyətini tanımağı tələb etdi.

X.b.Sultanov Şuşaya gəldikdən sonra burda ingilislərin və ermənilərin nümayəndələrinin iştirakı ilə bir neçə müşavirə keçirdi. Həmin müşavirələrdə təkcə hərbi, siyasi məsələlər deyil, eləcə də sosial, mədəni xarakterli problemlərin həlli üçün konkret tədbirlər müəyyənləşdirildi. Xüsusən milliyətindən asılı olmayaraq bütün qaçqınlara yardımların göstərilməsi, ermənilərin mədəni-maarif ehtiyaclarının ödənilməsi General Qubernatorun hadisələrə obyektiv yanaşmasını təsdiq edirdi.

General-Qubernatorluğun fəaliyyəti nəticəsində qısa müddət ərzində burada bir çox problemləri öz yoluna qoymaq mümkün olmuşdu. Məktəblərdə tibb məntəqələrin açılması, əhalinin ərzaqla təminatı istiqamətində təsirli tədbirlər görülmüşdü. Erməni-azərbaycanlı münaqişəsini dinc yolla həll etməyə çalışan

X.b.Sultanov erməni tərəfini də qubernatorluğun idarəsinə cəlb etmək üçün bütün imkanlardan istifadə edirdi.

Lakin general-qubernatorluğu əhatə edən qəzalarda, xüsusən Zəngəzurda ermənilər öz vəhşiliklərini davam etdirir, general Andronik isə Qarabağı ələ keçirmək cəhdlərindən ələ çəkmək istəmirdi.

1919-cu ilin mart-aprel aylarında ermənilərin hücumları nəticəsində bölgədə hərbi-siyasi vəziyyət daha da kəskinləşdi. Mürəkkəb şəraitdən yeganə çıxış yolu kinıi Andronikin quldur dəstələrinin və digər erməni pozucu qüvvələrin tərksilah edilərək bölgənin hüdudlarından çıxarılmasında görən X.b.Sultanov 1919-cu il aprelin 14-də H.B.Yusifbəyliyə məktubla müraciət edərək Qarabağda erməni məsələsinin dinc yolla həlli məsələsinin onun cavabdehliyində olduğunu nəzərə alaraq hərbi hissələrin ona tabe etdirilməsini xahiş etdi. Nəhayət, müəyyən tərəddüdlərdən sonra Azərbaycan hökuməti özünün 19 aprel 1919-cu il tarixli iclasında X.b.Sultanovun xahişinin yerinə yetirilməsi barədə qərar qəbul etmişdi. Eyni zamanda hərbi işlərə rəhbərlik üçün general-qubernatorun hərbi işlər üzrə müavini vəzifəsinin də təsis edilməsi qərara alınmışdı.

Azərbaycan hökuməti qısa müddət ərzində Xankəndində yerləşən hərbi hissələrin sayını 1500-dən 3000-ə çatdırmış, yeni hərbi hissələrin yaradılması və Qarabağa göndərilməsi barədə qərar qəbul etmişdi.

Sultanovun və bütövlükdə Azərbaycan hökumətinin gördüyü tədbirlər nəticəsində Andronik Zəngəzurdan öz dəstələrini geri çəkməyə məcbur oldu. Qarabağda hadisələri qızışdırmaqda ittiham olunan bir neçə erməni lideri isə bölgədən deportasiya edildi.

General qubernator X.b.Sultanovun «Qarabağda ingilislərin mövqeyi ilə əlaqədar yaranmış vəziyyət və bu vəziyyəti aradan qaldırmaq üçün zəruri tədbirlər» adlı məruzəsi həm Qarabağ və Zəngəzurda baş verən proseslər, həm də ingilislərin məkrli siyasətini başa düşmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Sultanov hesab edirdi ki, Qarabağın və Zəngəzurun ermənilərin əlinə keçməsi Naxçıvanın və Ordubadın, ümumiyyətlə bütün Azərbaycanın itirilməsi demək olardı.

Qarabağla bağlı Azərbaycanın mövqeyini dəstəkləməklə ingilislər əslində ermənilərin xeyrinə siyasət yeridərək Şərur, Naxçıvan. Qarsın onlara veriləcəyini vəd etmiş, Zəngəzurda hakimiyyəti Erməni Milli Şurasına vermişdilər. Yaranmış vəziyyətdən çıxış yolu kimi Sultanov Qarabağ və Zəngəzur məsələsində ingilislərin köməyindən qətiyyətlə imtina etməyi, təxirə salınmadan hərbi hissələri Zəngəzura yeritməyi, Dağlıq Qarabağ ermənilərinə Azərbaycan hakimiyyətini tanımaq barədə ultimatum verməyi və Azərbaycan hökumətini tanımasalar, onlara Azərbaycan rayonlarından çıxıb getməyi təklif edirdi.

1919-cu il iyunun əvvəllərində erməni quldurlarının yaylağa köçən azərbaycanlılara, həmçinin bölgədə yerləşən Azərbaycan hərbi hissələrinə hücum etməklə vəziyyəti gərginləşdirmək cəhdlərinin qarşısı alındı. Milli Şuranını

separatçı üzvləri Şuşadan çıxarılmış, şəhərin ermənilər yaşayan hissəsindəki kazarmalarda Azərbaycan əsgərləri yerləşdirilmişdi. 5 iyunda Yepiskop Məlik-Şahnəzərov və erməni nümayəndələri Sultanovla görüşərək general-qubernatorla həmrəy olduqlarını bildirmişlər. Səhəri gün Şuşa erməniləri Sultanovla görüşdə Azərbaycan hökumətini tanıdıqlarını bildirmişlər.

X.Sultanovun ciddi tədbirləri nəticəsində Dağlıq Qarabağın bir sıra erməni kəndləri də müvafiq addım ataraq Azərbaycan hökumətini tanıdıqlarını bəyan etdilər. 27 iyul 1919-cu il tarixdə Qarabağ general-qubernatorun yanında azərbaycanlı və erməni əhalisinin nümayəndələrinin iştirakı ilə müşavirə keçirildi. Müşavirədə baş vermiş münaqişələri aradan qaldırmaq, barışığa nail olmaq üçün komissiya yaradılması qərara alındı. Vəziyyətin normalaşmasına iyulun sonlarında baş nazir N.Yusifbəylinin, Hərbi Nazir S.Mehmandarovun və Gəncə qubernatoru X.Rəfibəyovun Şuşaya gəlməsi də təsir göstərdi. Onlar azərbaycanlılarla yanaşı erməni əhalisi ilə də görüşmüş, Azərbaycan ordusunun paradını qəbul etmişdilər.

Avqustun əvvəllərində erməni kəndli qurultayının nümayəndələrinin və erməni din xadimlərinin X.Sultanovla iki günlük danışıqları nəticəsində Dağlıq Qarabağ ermənilərinin Azərbaycan hökuməti ilə müvəqqəti sazişinin layihəsi hazırlandı və avqustun 15-də Qarabağ ermənilərinin VII qurultayında ermənilər tərəfindən qəbul edildi. Məsələ Paris sülh konfransında həll olunanadək qüvvədə qalmalı olan həmin sazişlə Dızaq, Vərəndə, Xaçın və Çiləbörd rayonları özlərini müvəqqəti olaraq Azərbaycan Respublikası hüdudlarında hesab etdiklərini bildirirdilər.

Sazişlə Qarabağ General-Qubernatorluğu nəzdində xüsusi Şura (3 erməni və 3 azərbaycanlı) təsis olunurdu. 12-ci bəndə əsasən Qarabağ ermənilərinə yalnız mədəni özünü idarə hüququ verilirdi.

14-cü bəndə görə isə Azərbaycan hökuməti erməni müvəkkilləri vasitəsi ilə erməni Milli Şurasının fəaliyyətinə nəzarəti həyata keçirirdi.

Sazişdə Azərbaycan qoşun hissələrinin Xankəndində və Şuşada yerləşdirilməsi müəyyən edilmişdi. Qəzanın ermənilərin məskunlaşdığı dağlıq hissəsində isə qoşun hissələrinin hər cür yerdəyişməsi erməni Şura üzvlərinin 2/3-nin razılığı ilə həyata keçirilə bilərdi.

«Azərbaycan» qəzetinin yazdığı kimi bu saziş Azərbaycan hakimiyyətinin loyallığını və əsil demokratik idarəçiliyini sübut edən bir fakt idi. Lənkəran avantürası ləğv edildikdən sonra bu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi istiqamətində ikinci qələbə idi.

Azərbaycan hökuməti Qarabağın erməni əhalisinin nümayəndələri ilə bilavasitə təmasa girərək bir çox məsələləri həll etmək təşəbbüsü göstərdilər. Ermənilərin nümayəndələri hətta Bakıya gələrək hökumətlə müzakirələr aparmışdılar.

Hökumət Qarabağ general-qubernatorluğu ərazisində bütün dağıdılmış kəndlərin bərpa edilməsi, ermənilərin mənəvi-mədəni ehtiyaclarının ödənilməsini,

siyasi əqidəsinə görə, millətlərarası toqquşmalarda iştiraka görə heç kimi təqilə etməməyi öz üzərinə götürürdü. Dağlıq Qarabağın guya 1920-ci ilə qədər Azərbaycanın tərkiləində olmadığını, onun ermənilər tərəfindən müstəqil idarə edildiyini iddia edənlər bu sazişi yada salmaq istəmir və ya onun müddəalarını təhrif edirlər.

Əslində General Qubernatorluğun Dağlıq Qarabağda yeritdiyi siyasət Azərbaycan Cümhuriyyətinin demokratik mahiyyətinin təzahürü idi. M.Ə.Rəsulzadənin dediyi kimi, millət məhkumluğu acısını dadmış Azərbaycan türkü məhkum millət yaratmaz. Azərbaycan Cümhuriyyəti övladını ögey doğmaya ayırmaz: erməni, rus, yəhudi, gürcü və s. azlıqda qalan millətlər Azərbaycan vətəndaşı olmaqla bərabər. milli-mədəni muxtariyyətə malik olub öz ömri-məzhəbiyyə, milliliyə və mədəniyyətlərini özləri idarə etməlidirlər.

Adı çəkilən saziş bu siyasətin əməli surətdə həyata keçirilməsinin bariz nümunəsi idi.

Baş nazir N.Yusifbəyov 22 dekabr 1919-cu ildə Azərbaycan parlamentində çıxış edərkən göstərmişdi ki, «Azərbaycan xalqı Qarabağda öz erməni həmvətəndaşlarının təbii hüquqlarını tərəddüd etmədən tanıdı. Azərbaycan xalqı öz sözündən dönmədi. İndi bizim Qarabağda yaşayan erməni həmvətənlərimiz yerli özünü idarə işlərində geniş iştirak edirlər, məktəblərin açılması və çoxalması, ümumiyyətlə maarif işlərinin yaxşılaşdırılması ilə məşğuldurlar. Hökumət bu məqsədlər üçün milyon manatlar ayırır və bundan sonra da heç şey əsirgəməyəcəkdir. Qafqazda ilk dəfə biz belə nümunə göstərmişik və ümid edirik ki, qonşularımız da belə edəcəklər».

Lakin Ermənistan nəinki bu çağırışlara məhəl qoymadı, əksinə öz ərazisində yaşayan azərbaycanlıların növbəti qırqınına başladı. Erməni silahlı dəstələri Zəngəzurda da yenidən fəallaşdılar, Azərbaycanın bu bölgəsinə nizami qoşun hissələri yeridildi. Belə şəraitdə Azərbaycan hökuməti dinc əhalini qorumaq üçün Qarabağ General-Qubernatorunun sərəncamına kiçik qoşun hissəsi göndərməli oldu.

Ermənilər Azərbaycanın bu bölgəyə qoşun göndərməsinə etiraz edərək danışıqlara başlamağı təklif etsələr də Azərbaycan hökuməti bəyan etdi ki, «Zəngəzur məsələsi Azərbaycanın daxili işidir. Azərbaycan hökuməti bu məsələ barəsində Ermənistan hökuməti ilə hər hansı danışıq aparmağı mümkün saymır». Lakin Azərbaycan bu dəfə də xoş məramı nümayiş etdirərək və amerikalıların xahişini nəzərə alaraq 1919-cu il noyabrın 23-də Tiflisdə Ermənistanla saziş bağlayaraq öz qoşunlarını Zəngəzurdan çıxardı. Ermənistan isə bundan istifadə edərək Zəngəzura əlavə qoşun hissələri göndərdi. Nəticədə bu qəzada öz mövqeyini gücləndirən ermənilər Dağlıq Qarabağda təxribatçılıq fəaliyyətini də genişləndirməyə başladılar.

Belə mürəkkəb bir şəraitdə Qarabağ general qubernatorluğu bölgəni inamla idarə edirdi. Belə bir fakt məlumdur ki, X.B.Sultanov General-qubernatorluğun

icazəsi olmadan və Azərbaycan hökumətindən xəbərsiz hansısa təşkilatın nümayəndəsinin Qarabağa gəlməsini yolverilməz saymış, onun tələbi ilə Şuşaya gələn xaricilər Azərbaycan Xarici İşlər Nazirliyindən icazə almalı idilər.

1920-ci il martın 22-dən 23-ə keçən gecə - Novruz bayramı günü Dağlıq Qarabağda ermənilərin silahlı qiyamı baş verdi. Rəsmi İrəvan Dronun başçılığı ilə buraya qoşun hissələri göndərdi. Şuşada ağır məğlubiyyətə uğrayan ermənilər yalnız Əsgəranda uğur qazandılar və nəticə də Şuşaya yol bağlandı.

Ermənistanın açıq hərbi müdaxiləsi bütün Azərbaycan xalqını Vətənin müdafiəsinə qaldırdı. Azərbaycanın hər yerindən könüllülər Qarabağa axışmağa başladılar. Martın 27-də Baş Qərargah rəisi general H.Səlimov Ağdama gələrək qoşun hissələrinə komandanlığı öz üzərinə götürdü. Aprelin 2-də Əsgəranı azad edən və düşmən ordusunu pərən-pərən edən qoşunlarımız ertəsi gün Xankəndinə daxil oldular. İki gün ərzində Əsgərandan Abdallara qədər bütün yol düşməndən təmizləndi. Azərbaycan ordusunun uğurlarından təşvişə düşən ermənilər yenidən diplomatik hay-küy qaldırmağa və antiazərbaycan təbliğatını qızışdırmağa başladılar. Məhz erməni təbliğatının təsiri altında Azərbaycandakı bir sıra xarici ölkə nümayəndələri Azərbaycan hökumətinə təklif etdilər ki, Qarabağa müttəfiq dövlətlərin nümayəndələrindən ibarət komissiya göndərilsin. Aprelin 7-də AC DMK həmin təklifi müzakirə edərək qərara aldı: «Qarabağa komissiya göndərmək arzuedilməzdir. Ermənilərdən zərər çəkmiş rayonlara komissiya göndərmək haqqında Azərbaycan hökumətinin xahişinə əhəmiyyət verməyərək yalnız Qarabağa komissiya göndərilərsə, əhali bunu Antanta nümayəndələrinin Zaqafqaziya millətlərinə qeyri-bərabər münasibət bəsləməsi kimi qiymətləndirəcəkdir. Azərbaycan Xarici İşlər Naziri F.X.Xoyski aprelin 8-də Antanta dövlətlərinin nümayəndələrinə, Ermənistan və Gürcüstan hökumətlərinə göndədiyi teleqramda da bu prinsiplərə əsaslanaraq azərbaycanlılarla ermənilər arasında 1918-ci ildən başlayaraq bütün Cənubi Qafqazda baş vermiş talan və qırğınları xronoloji ardıcıllıqla təhqiq etmək və onları doğuran səbəbləri araşdırmaq üçün Cənubi Qafqaz respublikaları nümayəndələrinin də iştirak etdiyi Antanta dövlətləri komissiyasının yaradılması təklifi ilə çıxış etdi.

Xoyski notasında qeyd etmişdi ki, Qars vilayətində erməni nizami qoşun hissələrinin müsəlmanları qırması ilə bağlı fevralın 29-da müttəfiq dövlətlərin Qafqazdakı nümayəndələrinə qırğını dayandırmaq üçün xüsusi komissiya yaratmaq təklifi ilə müraciət etdiyini, müttəfiqlərin nümayəndələrinin «komissiya yaratmaq üçün boş işçiləri yoxdur» cavabını verdiyini xatırladaraq, hazırkı şəraitdə müttəfiqlərin nümayəndələrinin komissiyanın yalnız Qarabağa göndərilməsini təkid etməsini Azərbaycan xalqı Zaqafqaziyanın müxtəlif xalqların qeyri-bərabər münasibəti və bizim qoşun hissələrimizə xaincəsinə basqın etmiş ermənilərə kömək göstərmək cəhdi kimi qiymətləndirə bilər.

Nota kamilliyinə və məntiqi gücünə görə diqqəti cəlb etməklə yanaşı, bəzi dövlətlərin Cənubi Qafqazda baş verən hadisələrə ikili standartlarla yanaşmasını

sübut edirdi.

Lakin Azərbaycan yenidən, növbəti dəfə xoş məram nümayiş etdirərək Ermənistanın təklifi ilə aprelin 9-da Tiflisdə çağırılmış Zaqafqaziya respublikaların konfransında iştirak etdi və Qazax, Naxçıvan, Ordubad və Qarabağda döyüş əməliyyatlarının dayandırılmasına razılıq verdi. Əslində ermənilərin bu «sülhsevərliyi», hərbi əməliyyatları dərhal dayandırmaq haqqında təşəbbüsləri yalnız bir məqsəd güdürdü. Qarabağda və Zəngəzurda erməni qoşunlarının və deməli erməni separatizminin tamamilə darmadağın edilməsinin qarşısını almaq Nəticədə cəbhəyə nümayəndə heyəti göndərildiyinə görə general H.Səlimova Zəngəzurda hərbi əməliyyatları dayandırmaq əmri verildi. Aprelin 27-də general teleqramla soruşurdu: Mən çətin vəziyyətə qoyulmuşam: bilmirəm 25 noyabra qədərki vəziyyəti tutmaq üçün (söhbət Azərbaycan ordusunun 1919-cu il 23 noyabr sazişinə qədərki tutduğu vəziyyətdən gedir) Zəngəzura hərəkəti davam etdirim? Yoxsa sərhədi, dəmiryolunu, həmçinin erməni kəndləri yaxınlığındakı kəndləri qoruyum?

Sonrakı hadisələr məlumdur. Sovet Rusiyasının Azərbaycanı işğal etməsi nəticəsində Zəngəzuru ermənilərdən azad etmək vəzifəsi yerinə yetirilmədi. Sonrakı dövrlərdə Zəngəzur Naxçıvanla digər Azərbaycan ərazilərinə X.Sultanovun sözü ilə desək paz kimi pərçim olundu, Naxçıvan Azərbaycandan ayrı düşdü. Beləliklə nə 1920-ci ilə qədər, nə də ondan sonra Dağlıq Qarabağ ya müstəqil, ya da Ermənistanın tərkibində olmamışdır. Ermənistanın qoşunları ilə ağır qarşıdurmada AXC öz ərazi bütövlüyünü şərəflə qorumuş və ermənilərin Qarabağın dağlıq hissəsinə yiyələnmək cəhdinin qarşısını mərdliklə almışdı.

Qarabağda Azərbaycan hakimiyyəti qurulmuşdu və Qarabağ-General qubernatorluğu bölgəni qətiyyətlə və bütün tərəflərin mənafeyini nəzərə almaqla idarə edirdi. İngilis jurnalisti Sivotland-Liddel isə məhz bu vəziyyəti nəzərə alaraq yazır: «Qarabağa sülh gəlmişdir. Ermənilər Azərbaycan hakimiyyətinə tabe olmağı razılaşıblar... Ermənilər mənə deyirlər ki, Şuşada və Qarabağda indiyədək heç bir zaman belə əmin-amanlıq və qayda olmamışdır (Azərbaycan tarixi sənədlər və nəsrlər üzrə, B.. 1989.S.285).

**Kərim Şükürov**

## QARABAĞ (AZƏRBAYCAN): FRAQMENTAR BAXIŞLARDAN MİLLİ KONSEPSİYAYA KEÇMƏK ZƏRURƏTİ HAQQINDA

«Qarabağ dünən, bu gün və sabah» VI elmi-əməli konfransında (2007) «Ermənistanın Azərbaycana əsassız ərazi iddiaları: «Dağlıq Qarabağ dosyesi» (antitarix və tarix)» adlı məruzəmizdə ermənilərin irəli sürülən problem üzrə baxışlarını izləmişik. Faktlar göstərir ki, ermənilərin Azərbaycan torpaqlarına iddialarının kökləri V əsrdən formalaşdırılmağa başlayır. Bu iddialar içərisində Dağlıq Qarabağın xüsusi olaraq ayrılması, əsasən XVIII əsrin əvvəllərindən

genişlənir. Təxminən üç əsrlik təbliğat və təcavüzkar fəaliyyət XX əsrin sonlarında Dağlıq Qarabağ ətrafında yeddi rayonun işğalı ilə nəticələnib («Qarabağ dünən, bu gün və sabah» 6-cı elmi-əməli konfransının materialları. Bakı, 2007, s. 155-159). Ermənilər 1994-cü ildə Azərbaycanla əldə edilmiş atəşkəsdən sonra hər vasitə ilə Dağlıq Qarabağla bağlı hərbi üstünlüyünü ideoloji-siyasi-hüquqi yol ilə möhkəmləndirməyə çalışır. Ən son fakt - «Evrovision-2009» mahnı müsabiqəsində Dağlıq Qarabağdakı abidənin Ermənistanın təqdimat klipinə daxil edilməsi, Azərbaycan tərəfin iddiasından sonra, onun klipdən çıxarılması, lakin səsvermə zamanı canlı yayımda yenidən nümayişi, - təsadüfi olmayıb, məqsədyönlü planın tərkib hissəsidir. Bunlar hər kəsə yaxşı məlumdur.

Bütün bunların müqabilində Azərbaycan Qarabağşünaslığında vəziyyət necədir? Burada Azərbaycan Qarabağşünaslığının tarixi üzərində dayanmaq istəmirik. Ümumi şəkildə qeyd etmək lazımdır ki, 1980-cı illərin sonlarından bəri Azərbaycan Qarabağşünaslığında müəyyən işlər görülmüşdür. Bunun üçün 2001-ci ilədək vəziyyəti əks etdirən «Qarabağ. Biblioqrafiya. Bakı: Şuşa nəşr., 2004, 400 s.» kitabına və sonrakı nəşrlərə nəzər salmaq kifayətdir. Yeri gəlmişkən qeyd edək ki, bu nəşrlərin də biblioqrafiyasının tərtibi zəruridir.

Beləliklə, Azərbaycan Qarabağşünaslığında müəyyən işlərin görüldüyü də etiraf olunmalıdır. Lakin bunlar fraqmentar xarakter daşıyır. Nəticədə Qarabağşünaslıq qarşıya çıxan suallara, dövrü olaraq meydana gələn çağırışlara cavab verə bilmir. Bəzi nümunələr göstərək: Birinci, «Evrovision - 2009» mahnı müsabiqəsində ermənilərin təsvirini inadla təqdim etdiyi abidədən başlayaq. Azərbaycan tərəfinin bu abidənin təsvirinin çıxarılmasına cəhdindən aydındır ki, bu Azərbaycana, Dağlıq Qarabağa aiddir (Bu abidə haqqında baxın: Мкртчян Ш. Историко-архитектурные памятники Нагорного Карабаха. Ереван, 1988, с.153, 316). Onda sual olunur bu abidə nə vaxt, kim tərəfindən Azərbaycan abidələri sırasında verilib? Ümumiyyətlə, bu nə abidədir? və s. İkinci, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşrlərində Dağlıq Qarabağ və işğal olunmuş yeddi rayonla əlaqədar məlumatlar işğal olunmamış rayonlarla eyni şəkildə (ərazisi, əhalisi və s.) verilir (Azərbaycanın demoqrafik göstəriciləri (statistik məcmuə). 2006. Bakı, 2006 və b.). Bu nə dərəcədə doğrudur? Nəhayət, üçüncü bir nümunə ilə kifayətlənmək istəyirəm. Artıq bayağı şəkil almış «lazım gəlsə Qarabağı müharibə yolu ilə azad edərik» fikrindəki «lazım gəlsə» nə zamanı, hansı şəraiti nəzərdə tutur və s. və i.a. Bütün bunlar və üzərində xüsusi dayanmadığımız sualların meydana gəlməsinin əsas səbəbi, bütövlükdə Qarabağa dair milli konsepsiyasının formalaşdırılmaması ilə bağlıdır. Belə bir konsepsiyanın yaradılması əsas fəaliyyət istiqamətlərinin səmərəliliyini təmin edər, hər hansı bir addım atılmasında təsadüfilik aradan qalxar, qəbul edilən qərarlar məntiqi və real olar və s. Bunun üçün:

-Azərbaycan Respublikasının milli təhlükəsizlik və hərbi doktrinasında Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ konfliktinin yeri və perspektivi

konseptual şəkildə ifadə olunmalıdır;

- Qarabağın həm tarixi-coğrafi bölgə kimi, həm də Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi onun tarixi inkişafı kontekstində konkret və ümumi cəhətləri nəzərə alınmalıdır;

- Qarabağın aran və dağlıq hissəsinin vəhdətdə araşdırılmasından alınan nəticələrə diqqət artırılmalıdır;

- Etnik mənsubiyyətindən asılı olmayaraq Qarabağın bütün abidələri Azərbaycan abidəsi kimi müəyyənləşdirilməli, ermənilərin, nəinki azərbaycanlılara, hətta ermənilərə aid olan bəzi abidələrə (məs: ermənilərin Qarabağa köçürülməsinin 150 illiyinə dair abidə) vandal münasibəti göstərilməlidir;

- Azərbaycanın erməni işğalı altında olan ərazilərinin işğaldan sonrakı vəziyyətini əks etdirən statistik göstəricilər tərtib edilməli, işğalın bir tərəfdən Azərbaycana vurduğu zərər, digər tərəfdən Ermənistana verdiyi mənfəət hərtərəfli aydınlaşdırılmalıdır;

- Qarabağşünaslığa dair tədqiqatlarda təkrarları aradan qaldırmaq üçün biblioqrafik göstəricilər yalnız əlifba sırası ilə deyil, müvafiq sahələr üzrə də tərtib edilməlidir və i.a. Qarabağşünaslıq sahəsində pərakəndəliyin aradan qaldırılması üçün ciddi institutlaşma və koordinasiya aparılması yəni Qarabağ mərkəzi yaradılması da başlıca vəzifələrdəndir. Milli Qarabağ Konsepsiyası ehkam deyil, daim təkmilləşdirilən, yeni şərait və faktorları nəzərə alan dinamik bir sistem olmalıdır.

**Qabil Hüseynli**

## ÖLKƏLƏRİNƏ BƏNZƏYƏN HƏMSƏDRLƏR

Onlar üç nəfərdir. Dünyanın güc mərkəzlərindən hesab edilən üç ölkəni təmsil edirlər. ABŞ-dünyanın bir nömrəli super gücü, Fransa-Avropa Birliyinin iki lokomotivindən biri, Rusiya-keçmiş fövqəlgüc, bu gün isə ona can atan regional güc. Kifayət qədər zəhmli bir kompaniyadır. Milli varlığımızın ən yaralı yerinin taleyinin bu güclərdən asılı olduğunu düşünəndə onlar daha zəhmli görünürlər.

Gəlirlər gedirlər. Dürlü-dürlü ifadələrə yol verirlər. Məsələn. Amerikalı həmsədr israrla deyir ki, onlar nəyin bahasına olursa olsun Dağlıq Qarabağda beynəlxalq hüququn iki normasının - sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi ilə millətlərin öz müqəddaratını təyin etmə hüququnun mutasiyasına, yəni calağına nail olacaqlar. Amerikalı həmsədrin Beynəlxalq hüquq sahəsində nə qədər səriştəli olduğunu deyə bilmərəm, amma biri-birini inkar edən, həm də birinin, yəni milli müqədaratı təyin hüququnun xeyli köhnəldiyi və aktuallığını itirdiyi bir vaxtda buna necə nail oluna biləcəyi ciddi suallar doğurmaqdadır. Həm də II Dünya müharibəsindən sonra formalaşmış, sərhədlərin dəyişməzliyi məsələsi 1975-ci ildə Finlandiyanın paytaxtı Helsnkidə

keçirilən Avropada Təhlükəsizlik məsələlərinə dair Konfransın Yekun Aktında belə Beynəlxalq hüququn əsas normalarından biri elan edilmişdir. Amerika isə bu konfransın əsas təşkilatçılarından biri olmaqla həmin hüquqi normanın yekun sənədinə salınmasında kifayət qədər fəallıq göstərmişdir. İndi Amerikalı həmsədrin bu cür həssas məsələlərdə gah nala, gah da mıxa vuraraq öz ölkəsinin mövqeyini sərgiləyirmiş kimi davranması təəccüb doğurmaya bilmir.

Bu ölkənin mövqeyinə gəldikdə, bəzən adama elə gəlir ki, Amerika problemin həllini istəyir, amma həll variantının necə olması onu maraqlandırmır. O səbəbdən də kimin təcavüzkar, kimin işğala məruz qalması faktı, habelə bir sıra tarixi məsələlər gündəmə gəldikdə, bunlar tarixçilərin işidir, indi isə əsas məsələ problemin həllinə mane ola biləcək sədləri aradan qaldırmaqdır, deyib yaxasını bir növ kənara çəkir. Amma kluarlar arxasında o da Dağlıq Qarabağın digər münaqişələrdən fərqləndiyini, elə bu səbəbdən də bu problemə əlahiddə yanaşmanın vaciləliyini vurğulamaqdan da vaz keçmir. Necə deyərlər, həm demokratik görünmək istəyir, həm də xristian qardaşlığının prinsiplərindən də vaz keçmir. Bir qədər miyanə görünsə də, əslində ermənilərin işinə yarıya biləcək mövqedir.

Fransalı həmsədr Dağlıq Qarabağın tut arağına vurğunluğu ilə tanınır. Elə bu səbəbdən də, Xankəndində olanda Qarabağ ermənilərinin "təhlükəsizliyi" məsələlərini daha çox qabartmağa çalışır. İrəvanda da özünün yumşaq davranışları, ermənilərə ümid verən bəyanatları ilə seçilir. Bir növ ölkəsinə, həm də onun prezidentərinə bənzəyir. Yəni ermənilərə olan hüsn-rəğbətlərini gizlədə bilmirlər. Elə bu səbəbdən də postsovet məkanındakı münaqişə ocaqlarına bir cür, Dağlıq Qarabağ məsələsinə başqa cür yanaşmanın tərəfdarı kimi çıxış edirlər. Bəlkə düşəndə də iddia edirlər ki, guya "Dağlıq Qarabağ məsələsinin tarixi özünəməxsusluğu var və bu da bu problemin həllinə fərqli bir yanaşma tərzinin ortaya qoyulmasını tələb edir. "İkili standartları" deyilən anlayış bu ölkənin davranışlarında daha açıq-saçıq özünü biruzə verir, desək yanılmarıq. Elə bu səbəbdəndir ki, problemlə bağlı Fransanın mövqeyi daha çox Ermənistanın mövqeyinə uyğun gəlir. Rusiya ilə birləşəndə isə bu mövqenin qeyri-obyektivliyi və tərəfliliyi daha aydın nəzərə çarpır.

Rusiyalı həmsədr qaraqabaqdır. Sirli bir görkəmi var. Digər iki həmsədrdən fərqli olaraq jurnalistlərin suallarını cavablandırmağa meylli deyil. Axı necə cavablandırsın? Onun təmsil etdiyi ölkə bu məsələlərdə açıq tərəfkeşlik nümayiş etdirir, təcavüzkarı bütün vasitələrlə dəstəkləyir. Vasitəçi neytral olmalıdır, Onun dövləti isə bu məsələlərdə nəinki neytral olub, əksinə düşmən dövləti şirnikləndirib, bəzi hallarda isə birgə hərəkət edilələr. Məsələn Xocalı soyqırımında olduğu kimi. Uzun müddət isə problemin həllinə imkan verməməklə bundan hər iki tərəfə təzyiq vasitəsi kimi istifadə edib. Özünün forpostu adlandırdığı, ərazisində hərbi bazalar və silahlı qüvvələr yerləşdirdiyi bir ölkə ilə başqa cürə də davrana bilməz.

ATƏT-in Minsk qrupu sülhyaradıcı missiyaya malikdir və bu missiyasını aktiv vasitəçilik səylərini həyata keçirməklə yerinə yetirməlidir. Amma iş bərkə düşəndə, onlardan ciddi məsuliyyət tələb ediləndə yaxalarını əməlli-başlıca kənara çəkməyi bacarırlar. Belə vaxtlarda onlar siyasi manevr edərək məsuliyyətin iki ölkə üzərinə düşdüyünü, onların səlahiyyətlərinin yalnız vasitəçilik səyləri ilə məhdudlaşdığını bəyan etməkdən belə çəkinmirlər. Amma "çərçivə sazişi", "baza prinsipləri" deyilən məsələlərdə dərhal hərəkətə gəlir, Azərbaycan üçün əlverişli olmayan məqamları qabartmaqda əldən iti olurlar. Elə son səfərlərinin qayəsini də bədnam Madrid Bəyanaməsi əsasında problemin həlli prinsiplərinin razılaşdırılmasına nail olmaqdır. Çünki, burada "referendum", "sülh məramlı qüvvələr və s. kimi Azərbaycanın ərazi bütövlüyünü təhlükə altına sala biləcək müddəalar var.

Yenə gəlmişdilər. Bakı-Yerevan-Xankəndi arasında bir "məkik diplomatiyası" həyata keçirdilər və nikbin proqnozlarla ayrıldılar. Yenə də prezidentləri görüşdürmək fikrindədirlər. Üstəlik Bəyanat da yayıb bildirdilər ki, Dağlıq Qarabağ probleminin həllinin sülh yolundan başqa alternativi yoxdur. MDB Kollektiv Təhlükəsizlik Şurasının Çevik Qüvvələr Kontingentinin rəhbərliyi də buna bənzər fikirlər səsləndirib.

Yəni, elə bil ki, hər şey bir mərkəzdan yönləndirilir. Nə adlanırsa adlansın, hər şeyin məğzində Azərbaycan torpaqlarının təcavüzkara hədiyyə edilməsindən ibarət məkrli bir planın ortada olduğu nəzərdən yayınmır. Bizi təslimçi bir sazişə razılaşdırmaq cəhdləri də göz önündədir. Axı başqa cür olsaydı heç olmasa bir dəfə Ermənistanın destruktiv mövqeyindən də söhbət açılar, bu ölkənin danışıqlar prosesində tutduğu mövqe pislənərdi. Amma həmsədrlər hər şeyi malalaya-malalaya hər iki tərəfin pozitiv mövqeyindən danışmaqda davam edirlər. Danışıqlar isə əslində hələki elə bir nəticə verməyilə yerində sayır. Həmsərlərin bəlağətli bəyanları, nikbin vədləri isə davam edir. İmitasiyaya bənzəsə də, axı onlar işləyirlər.

**Qasım Hacıyev**

## DAĞLIQ QARABAĞ PROBLEMİ: SƏBƏB VƏ NƏTİCƏLƏRİ

Hələ erkən orta əsrlərdə dövlətçiliklərini itirmiş ermənilər özlərinə yeni dövlət yaratmağa cəhd göstərsələr də buna nail ola bilmirdilər. Rusiya tərəfindən Cənubi Qafqaza kütləvi şəkildə köçürülmüş ermənilər Yuxarı Qarabağ ərazisində alban əsilli xristian əhalinin tarix və mədəniyyətinə yiyələnməyi münasib hesab edərək burada erməni dövlətçiliyinin bünövrəsini qoymağı planlaşdırdılar.

XX əsrin əvvəllərində Qərbi Azərbaycan torpaqları hesabına Ermənistan Daşnaq hökuməti, sonra isə Ermənistan SSR yaradıldı.

Yuxarı Qarabağın tarixi ənənələrini əldən buraxmaq istəməyən ermənilər burada geostrateji maraqları olan böyük dövlətlərin köməyi ilə DQMV-i yaratdılar.

Cənubi Qafqazda bir respublika və bir muxtariyyət yaratmış ermənilər Avropa ölkələrinə hər cür nökərçilik xidməti göstərmək yükünü boyunlarına götürdülər.

Tarixi proseslərin əlverişli məqamlarından istifadə etməyi "yaxşı bacaran" ermənilər XX əsrdə Rusiyada çarizmin süqutu və Sovet imperiyasının meydana gəlməsi ilə yaranmış əlverişli şəraitdə inzibati ərazi məsələsini qaldırdılar və DQMV kimi nə tarixi, nə də sosial-iqtisadi əsası olan bir qurum yaratdılar.

Ermənilərin bu ərazilərdə möhkəmlənməsi onların özlərinə görə deyil, erməniləri himayə edən bir sıra böyük dövlətlərin mənafeyinə uyğun gəldiyi üçün geniş vüsət alırdı. Bu məsələ ilk növbədə öz xristianlıq missiyasını Şərqə doğru genişləndirmək məqsədi güdən Roma papasının istəyinə, sonralar isə Şərq siyasəti yenidən Avropanın və "İsti dənizlərə doğru", "Qafqaz" siyasəti yürüdən Rusiyayanın istəklərinə uyğun idi.

Məlum olduğu kimi, artıq XVU əsrdən başlayaraq Yaxın Şərqin islam dövlətlərinin, xüsusilə də İran və zəifləmiş Osmanlı imperiyasının torpaqlarını ələ keçirmək üçün fəal istilaçılıq siyasətinə başlayan qərb dövlətləri bu ərazilərə müdaxilələrinin reallaşdırılmasında burada yaşayan xristianların, ilk növbədə isə ermənilərin köməyinə arxalanırdılar.

Rusiya hələ XVIII əsrdən Qafqazı öz təsiri altında saxlamaqla iqtisadi maraqlarını təmin etmək üçün daha böyük niyyətini müxtəlif üsullarla reallaşdırmağa çalışırdı. Bunun üçün Rusiya öz nüfuz dairəsinə daxil etdiyi bölgələrdə imperiyanın siyasi təsir gücünü göstərdi. XVIII əsrdən Qafqazı, o cümlədən Cənubi Qafqazı ələ keçirmək məqsədilə geniş hərbi fəaliyyətə başlayan Rusiya XIX əsrin birinci yarısında buna nail oldu.

XIX əsrin əvvəllərində Azərbaycanın çar Rusiyası tərəfindən işğalı zamanı erməni ideoloqlarının çarizmin müstəmləkəçilik siyasətini həyata keçirməsi üçün hazırladıqları planlar bu proseslərin istiqamətlərini müəyyənləşdirdi.

XIX əsrin əvvəllərində Rusiyanın Qafqazı ələ keçirmək üçün Osmanlı dövləti və İranla apardığı müharibə nəticəsində Azərbaycan torpaqları iki hissəyə bölündü. Qarabağ Rusiya imperiyasının tərkibinə keçdi. Rusiya İran və Türkiyədən bu ərazilərə 200 mindən artıq erməni köçürdü. Bununla da Cənubi Qafqazdakı koloniya siyasətini həyata keçirmək üçün özünə dayaq məntəqəsi yaratdı. Bu siyasətdən yararlanan ermənilər heç vaxt olmadıqları bir ərazidə erməni dövləti qurdular. Beləliklə, Azərbaycanın Qarabağ bölgəsi münaqişə yuvasına çevrildi.

Bununla yanaşı, ermənilərin Qarabağda möhkəmləndirilməsi üçün həyata keçirilən etnik təmizləmə siyasəti XX əsrin əvvəllərində geniş vüsət aldı.

Rusiyanın himayəsindən istifadə edən ermənilər Birinci Dünya müharibəsi bitdikdən sonra bəzi Avropa dövlətlərinin siyasətindən də yararlanmağa çalışırdılar. Ermənilər Azərbaycana qarşı ərazi iddiaları ilə daha fəal çıxış etdilər və Azərbaycanın bir çox əraziləri ilə birlikdə Yuxarı (Dağlıq) Qarabağı da ermənilərin tarixi torpaqları kimi qələmə vermək məsələsini ortaya atdılar.

1920-ci il mayın 3-də XI Ordunun silahlı dəstələri Qarabağa soxuldu. Şuşa, Xankəndi və Qarabağın digər şəhər və kəndləri rus qoşunlarının, erməni quldur dəstələrinin nəzarəti altına keçdi.

Çarizmin yerində yaranmış Sovet Rusiyası Qarabağda başlanmış azərbaycansızlaşdırma siyasətini davam etdirdi. 1920-1921-ci illərdə Ermənistandan Azərbaycana 850 erməni ailəsi köçürüldü. Bunlardan 765 ailə Yuxarı Qarabağda yerləşdirildi. Onların məskunlaşdırılması və yaşaması üçün hər cür şərait yaradıldı.

Birinci dünya müharibəsindən sonra da «erməni məsələsi» ilə ən çox maraqlanan ölkələrdən biri Rusiya idi. Erməni məsələsi 1965 -ci ildən sonra daha çox fəallaşdı. Ermənilər Azərbaycan türklərinə qarşı bəşər tarixində görünməmiş vəhşiliklər, soyqırımlar, depotasiyalar həyata keçirdilər. Bir əsrdə azərbaycanlı əhali ermənilər tərəfindən iki dəfə soyqırıma məruz qaldı.

XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları yenidən baş qaldırdı. 1988-ci ildə erməni ideoloqlarının süni yaratdığı "Dağlıq Qarabağ problemi" Ermənistanın Azərbaycana hərbi təcavüzü üçün bəhanə oldu.

Müxtəlif yollarla DQMV-də ictimai vəziyyəti gərginləşdirdilər. Daxili separatizm başlandı və Azərbaycanın Qarabağ bölgəsi Ermənistanın dövlət separatizmi meydanına çevrildi.

Dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların gözləri qarşısında XX əsrin ən dəhşətli faciəsi - Xocalı soyqırımı baş vermişdir. Azərbaycan Respublikasının 20 % ərazisini Ermənistan ordusu işğal etmişdir. Ermənilərin həyata keçirdikləri bu təcavüz aktları nəticəsində respublikamıza külli miqdarda maddi ziyan dəymişdir.

İşğaldan 17 il keçməsinə baxmayaraq bu problem ədalətli həllini hələ də tapmamışdır.

**Lalə Hacıyeva**

## Ə.AĞAOĞLUNUN PUBLİSİSTİKASINA DAİR

Zəkalı publisist, islamın mahir bilicisi, Azərbaycanın ictimai fikir və mətbuatı tarixində dərin iz qoymuş Ə.Ağaoğlu çox tənqidlərə məruz qalmışdır. Gözdən salmaq üçün ədalətsiz hökmlərin nəticəsində ona müxtəlif damğalar vurulmuş, o, mürtəce ideoloq, millətin düşməni kimi təqdim edilmişdir. Buna görə də Ə.Ağaoğlu siyasi - ədəbi irsi çap olunmamış, həyat və yaradıcılığı isə təhrif olunmuş şəkildə işıqlandırılmışdır. Nə qədər acınacaqlı olsa da, qeyd etmək lazımdır ki, Respublika Əlyazmalar İnstitutunda Ə.Ağaoğlunun bu vaxta qədər nə əsərlərinin biblioqrafiyası, nə da həyat və yaradıcılığını əks edən sənədlər və xatirələr sistemləşdirilmişdir. Onun zəngin yaradıcılığını əks etdirən əsərlərinin toplusu indiyə qədər nəşr edilməmişdir.

Ədibin yaradıcılıq meyarının əsasını onun zəngin dünyagörüşü təşkil edirdi. Əhməd bəy Ağaoğlu dünyagörüşünün formalaşmasına anası Tazə xanımın və

əmisi Hacı Mirzə Məhəmmədin təsiri araşdırılır. Onların təsiri Əhməd bəy Ağaoğluda bir tərəfdən anasına görə dünyəvi elmlərə marağını, digər tərəfdən isə dindar və mütəəssib bir müsəlman olan əmisinə görə şəriətə, din tarixinə məhəbbətində öz əksini tapmışdı.

Əhməd bəy Ağaoğlunun dünyagörüşünə Cəmaləddin Əfqaninin də təsiri danılmazdır, xüsusən onun panislamizm ilə bağlı ideyaları Avropa düşüncə tərzinə malik, eyni zamanda şəriət qanunlarını ali qanun hesab edən Əhməd bəyə çox yaxın idi. Məlumdur ki, C.Əfqani islam dəyərlərini qoruyub saxlamaqla, Avropaya meyli təbliğ edirdi. Bu cəhətləri özündə ehtiva edən panislamizmi Əhməd bəy Ağaoğlu eklektik cərəyanı, ifrat mütərəqqilikdən və ifrat mühafizəkarlıqdan uzaq, eyni zamanda hər ikisindən müəyyən cəhətləri özündə cəmləşdirən bir hərəkat adlandırdı.

Ə.Ağaoğlu publisistikasının özünəməxsus cəhətləri var idi: əvvəla, bu publisistika çarizmə münasibət məsələsində milli burjuaziyaya, onun ideologiyasına, bütövlükdə milli maraqlara arxalanan mövqedən çıxış edirdi. İkincisi, Rusiya qəzetlərində Azərbaycana, türk düyasına, islam dininə qarşı böhtan və təxriləat xarakterli çıxışlara publisist ardıcıl olaraq əsaslandırılmış cavablar verir, oxucu və mürtəce yazarları polemikaya dəvət edirdi. Üçüncüsü, o, ağlın və zəkanın qüvvəsinə arxalanaraq yazdıqlarına bu prizmadan yanaşırdı. Ə.Ağaoğlunun bir jurnalist kimi fəaliyyət göstərdiyi dövr çox mürəkkəb və qızğın mübarizələr dövrü idi. Yaşadığı dövrün tarixi şəraitinin mürəkkəb olmasına baxmayaraq, ideyaca ədib düzgün yol tutmuş, mütərəqqi qüvvələrə rəğbət bəsləmiş, bir sıra mühüm məsələlərdə qabaqcıl ziyalılarla birləşərək Azərbaycanın maraqlarını müdafiə və təbliğ etmişdir. Birinci rus inqilabı ərəfəsində və 1905-ci ildən sonra Əhməd bəy Ağaoğlunun jurnalistlik fəaliyyəti Məhəmməd Əmin Rəsulzadənin təbirincə desək «başdan-başa qələm mücadiləsi» idi(l). O dövrki yazılarında Ə.Ağaoğlu bir tərəfdən öz müsəlman qardaşlarını passiv olduqlarına görə qınayır, digər tərəfdən isə azacıq irəliləyişə doğru bir istək, işartı görəndə öndə getməyə, hər cür yardım etməyə tələsirdi. O, Rusiya müsəlmanları tərəfindən hazırlanan və Çar hökumətinə ünvanlanan qətnamələrin mahiyyətindən və vacibliyindən ürək dolusu danışırdı.

Ə. Ağaoğlu publisistikasının əsas tematikalarından biri islam dəyərləri və ümumiyyətlə dini-teologiya məsələləri olmuşdur. Publisist «Kaspi» qəzetinin səhifələrində islama dair silsilə məqalələr yazmışdır. Ə.Ağayev təkcə islam deyil, digər dinlər barəsində də fürsət düşdükcə fikirlərini söyləyirdi. Publisist bu qəbil araşdırmalarında xristian və islam dinlərini Qərb-Şərq müstəvisində müqayisəli şəkildə verirdi. Onun teoloji baxışlarının mütərəqqi cəhəti ondan ibarət idi ki, ədib yer üzündə hamının Allah övladı olduğunu birbaşa, yaxud dolayısıyla məqalələrində dönə-dönə vurğulayırdı. «Происхождение ислама и его отношение к христианству и еврейству» adlı məqaləsində Ə. Ağayev yazırdı: «Пройдут годы, и хмагометане и христиане одинаково удивяться перипетиям

религиозной борьбы, через которую прошла их история»(2). Təəsüf ki, yaşadığımız XXI əsrdə dini qarşıdurma hələ də davam etməkdədir.

Qadın azadlığı məsələsi o dövr Azərbaycan mətbuatının ən aktual mövzularından biri idi. Publisist bir tərəfdən Azərbaycan qadınlarının hüquqsuzluğundan, ailədə və cəmiyyətdə təhqirlərə məruz qalmasından danışırdısa, digər tərəfdən, Məhəmməd peyğəmbərin fikirlərinə, Quran məntiqinə əsaslanaraq müsəlman dünyasında qadının nüfuzundan söz açmağı özünə borc bilirdi. «Jenşina i islam». «Jenskoe obrazovanie v musulmanskom mire», «Zubeyda i Abbas» və s. məqalələrində ədib müsəlman dünyasında qadın təhsili, qadınların cəmiyyətdə rolu və s. məsələlərə toxunur. Türk alimləri Ə. Ağaoğlunun islama dair mülahizələrini araşdırarkən belə qənaətə gəlmişlər ki, İslamın yüksəlməsinə və əksinə geriləməsinə ölçü olaraq publisist islam dünyasında qadına olan münasibəti götürmüşdür. Bu görüşlərə görə, IX və X əsrlərdə Xilafətdə İran və Suriya mədəniyyətlərinin təsiri artandan sonra qadın mədəni və sosial baxımdan tənəzzülə uğradı. Ona görə müsəlman qadınlarının inkişafına guya maneə olan islam dininə, onun yaradıcısı Məhəmməd peyğəmbərə qarşı Rusiya və Qərb dünyasında səslənən iradlara. Ə.Ağaoğlu belə cavab verirdi: «...nespravedlivı oni, koqda nedostatki i poroki posledovateley islama perenosyat na ix reliqvu» (3).

Ə.Ağaoğlunun publisistik yaradıcılığında milli mədəniyyət məsələləri xüsusi yer tutur: ədəbi tənqid, dil-əlifba məsələləri, maarifçilik və s. Onun Azərbaycan ədəbiyyatına dair ədəbi-tənqidi görüşləri ədəbiyyatşünaslar tərəfindən kifayət qədər araşdırılıb, Mövcud mülahizələrə görə, publisistin ədəbi tənqidində inkarçılıq ruhu üstünlük təşkil edirdi. Ədəbiyyatşünasların bu fikrilə razılaşmamaq da olar. Araşdırmalar göstərir ki, ümumiyyətlə o dövrün tənqidi çox kəskin idi. Məsələn, N.Nərimanov 1916-cı ildə bir çıxışında etiraf etmişdir ki, «Düz 20 il bundan müqəddəm mən «Nadanlığı» yazıb meydana buraxdım. Məşhur mühərrirlərdən biri, rəfiqimiz Firidunbəy Köçərli «Nadanlığ»ı rus dilində tənqid etdi, yaramaz bir şey hesab edilə yazanını, yəni məni lazımınca çubuqladı. Oxuyan deyirdi. «Nadanlığı» yazan daha əlinə qələm gərək götürməsin. Fəqət onun çubuqlamağı «Nadir şah»ın meydana gəlməsinə səbəb oldu»(5). Göründüyü kimi, kəskin tənqid o dövr ədəbi mühit üçün normal hal idi. Ə.Ağayev hətta Mirzə Fətəli Axundovu tənqid edirdi və yazırdı ki, onun komediyaları sırf texniki məsələlərə görə rəğbət qazanıb və bu sırf tekniki cəhətlər dedikdə, komediyaların adi danışıq dilində yazıldığı və xalq arasında populyar olan məsələləri nəzərdə tuturdu. Ə.Ağayev tənqidinin müsbət cəhəti onda o idi ki, mərhum akademik K.Talıbzadənin 1989-cu ildə «Azərbaycan» jurnalında qeyd etdiyi kimi: «O, öz ədəbiyyatını Şekspir, Şiller, Hüqo, Dostoyevski və Tolstoy səviyyəsində görmək istəyirdi» və bu əsərlər vasitəsilə zövqləri hərəkətə gətirmək istəyirdi(4).

Alimin ədəbi tənqidində rus ədəbiyyatı xüsusi çəkiyə malikdir. Ədib rus ədəbiyyatını dünya ədəbiyyatının zirvəsi hesab edirdi. Kifayət qədər yaxşı bələd olduğu fransız ədəbiyyatını rus ədəbiyyatı ilə müqayisə edəndə, fransız ədiblərinin

ruslar kimi realist ola bilmədiklərini vurğulayırdı. Fransız dilini mükəmməl bilməsi ona böyük fransız mütəfəkkirlərindən başqa (Volter, Ten və b.), həm də müasirləri olduğu fransız yazıçılarının (Pol Burje, Edmon Qonkur, Qi De Mopassan və b.) yeni əsərlərinə qiymət vermək imkanı yaradırdı. Əhmədbəyə görə, istər azərbaycan, istər rus, istər qərb yazıçısı olsun, əsas onun yazdığı əsərdir. «Puşkin na Vostoke» adlı yazısında o deyir ki, dahinin nə vətəni, nə də milləti olur. «Biz Danteni yaxud Viktor Hüqonu oxuyanda onların nədən və kimdən bəhs etdiklərinə deyil, necə yazdıqlarına valeh oluruq. Eyni ilə buna görə Puşkinlə də belədir. Bizdə nə rus qışı var, nə Tatyana, nə də onun dayəsi. Lakin biz rus qışına da, Tatyanaya, hətta onun dayəsini sevirik, çünki onlar gözəl və səmimidirlər»(6).

Ə.Ağaoğlu M.F.Axundov tərəfindən başlanan əlifbanın dəyişdirilməsi uğrunda mübarizəyə qatılanlardan biri idi. Onun əlifba məsələsinə münasibəti birmənalı idi. Hələ 1901-ci ildə ədilə yazırdı ki, ərəb əlifbası islam aləminin həqiqi düşməni, onun müalicə olunmayan xəstəliyidir. Azərbaycan dili üçün bu əlifbanı tamamilə yararsız hesab edirdi. O zaman ərəb əlifbasının islahı barədə çoxları düşünürdü, məsələn M.Şahtaxtinski «Şərqi-Rus»un ilk nömrələrində özünün icad etdiyi əlifbanı təklif etmişdi, saitlərin yerinə ərəb rəqəmləri yazmağı münasib bilirdi.

Məqalələrinin birində Ə.Ağaoğlu M.Şahtaxtinskinin təklif etdiyi əlifbaya münasibətini bildirərək, latın və slavyan qrafikalarını yaxşı bilən yeni əlifba müəllifinə «heç olmasa bu əlifbalardan birini təklif edəydiniz» deyir, bu da Ə.Ağaoğlunu ərəb əlifbasının islahı deyil, latın yaxud kiril qrafikalarına üstünlük verməsini bir başa təsdiq edir.

Publisistik məqalələri ilə yanaşı, bu illərdə Ə.Ağaoğlu vaxtaşın bədii janrlara müraciət edir, kiçik həcmli hekayələr yazırdı. Bu vaxta qədər ədəbiyyatşünaslığımızda yer almamış hekayələrində pulisistikasıyla qarşılıqlı əlaqəni görməmək mümkün deyil. Məsələn, «Mejdu druzyami» adlı hekayəsində ədilə XX əsrin ilk illərində varlanan Bakının xarakter tiplərini vermişdir. Birdən birə varlanmış Aleksandrın və problemləri başından aşan Mixailin timsalında iki dostun taleyini göstərir. Universitet illərində pedaqoq olub, xalqa xidmət etməyi arzulayan dostların yolu ayrılır və hər şeyi alt-üst edən Bakı nefti müəllim peşəsini nüfuzdan salır, bu səbəbdən hamı neft biznesinə can atır.

Bu məsələyə Ə.Ağaoğlu «Zadaçi naşey intelliqensii» adlı məqaləsində də toxunur. Xalqın qayğısını çəkən ziyalıların getdikcə azaldığından gileylənən müəllif «Əlbəttə, gərək nə qədər iradəli olasan ki, tez bir zamanda varlanmaq hərisliyinə düşməyəsən. İndi hamı milçəklər balın üstünə qonan kimi, Bakıya üz tutur, neft biznesinə qatılmaq istəyir...» deyir(8), Yaxud, başqa bir misal. 1901-ci ildə yazılmış «Unqa» (Vostoçnaya skazka) adlı əsərində ədilə açıq deyə bilmədiklərini təmsillərlə ifadə edir(7). XX əsrin əvvəlində müəllif təmsillərlə danışırdısa artıq birinci rus inqilabından sonra sərt çıxışlar edir və problemləri açıq-aydın ortaya qoyurdu.

Ə.Ağaoğlu Qərb düşüncəli, amma Şərq əxlaqlı bir publisist idi, mətbuata dair Avropa standartalarını bilən və imkan daxilində bu standartları tətbiq edən Azərbaycanda bəlkə də ilk jurnalist-publisistlərdən idi. Onun qaldırdığı məsələlər bu gündə aktual səslənir: güclü dövlətlərin bütün dünyaya ağalıq etmək həvəsi, hakimiyyət hərisliyi, islam və xristian dinlərinin qarşıdurması, müsəlman ölkələrində qadına qeyri-ədalətli münasibət. Bütün bu məsələləri Ə.Ağaoğlu 100 il bundan qağaq qaldırmışdı, lakin bu gündə bu problemlər gündəmdədir.

**Ədəbiyyat:**

1. Mehmed Emin Resulzade. Kafkasya Türkleri. Türk Dünyası Araşdırmaları Vakfı, İstanbul. 1993, 132 s.
2. A.Aqaev. Proisxojdenie islama i eqo otnoşenie к xristianstvu i evreystvu. «Kaspiy». 31 yanvarya 1903 q.
3. A.Aqaev. Jenşina i islam. «Kaspiy», 11 dekabrya 1898 q.
4. Talıbzadə K. Əhməd Ağaoğlu. «Azərbaycan» jurnalı, 1989,
5. Nərimanov N. Tənqid hifzi-səhhət! «Yeni iqbal», 11 yanvar 1916 il
6. Aqaev A. Puşkin na Vostoke. «Kaspiy», 26 maya 1899 q.
7. Aqaev A Unqa. (Vostoçnaya skazka). «Kaspiy», 16 marta 1901 q.
8. Aqaev A. Zadaçi naşey intelliqensii. «Kaspiy», 21 yanvarya 1903 q.

**Mehdi Şərifov**

# ПРОБЛЕМА ВЕРХОВНОЙ ВЛАСТИ В ИСЛАМСКОЙ ГОСУДАРСТВЕННОСТИ

*(средневековые представления о власти праведного халифа, современная реализация основ «исламского правления», альтернативное видение в концепте «лозаннского» ислама)*

С момента своего возникновения ислам стал оказывать определяющее влияние на развитие государственности на Ближнем и Среднем Востоке, а также в странах Магриба. Являясь духовным и политическим лидером, пророк Мухаммед способствовал взаимопроникновению институтов религии и государств [11,8]. Возникший и быстро расширяющийся Арабский халифат являлся идеократическим государством. Появление халифата было тесно связано с укреплением религиозной общины (Уммы), в рамках которой отношения регулировались мусульманским правом.

Ислам создает представление о трансцендентной властной Инстанции, которая легитимирует харизматическую власть пророка, а затем и его преемников. Халиф носит титул халифату-ресули-ллах, что значит «преемник посланника божьего». Некоторые мусульманские юристы принимают слово «халифат» в смысле «наместник», отдавая предпочтение титулу хали-фату-ллах («наместник божий»). Термин «халифат» применяется не в смысле «типа государственного устройства», а в смысле «наместничества» человека на земле.

Халиф соединял в своих руках светскую (эмират) и духовную (имамат) власть. Несмотря на сосредоточение в руках халифа политической власти, правовой статус его как суверена не был определен. В частности, халиф был лишен легислативного суверенитета, а его действия в области исполнительной власти были ограничены императивными нормами мусульманского права.

Вместе с представлениями о едином боге - Аллахе - утвердилась идея единого правового порядка, имеющего универсальный характер. Шариат (мусульманское право) регулировал не строго очерченные сферы общественной и церковной жизни, а выступал в качестве все всеобъемлющей нормативной системы. Основу шариата составляли юридические положения Корана, выраженные в опреде ленных строфах (мусульманские юристы называют их «правовыми строфами»), а также Сунна (совокупность преданий о поступках пророка, его высказываниях по тому или иному поводу и случаях невысказанного словесно одобрения) и Иджм (единогласные решения законоведов и благочестивых мужей первых времен ислама). Египетский богослов Али Абд ар-Разик в своей книге «Ислам и основы власти» (1925

год) отмечал, что халифат считался наместничеством от имени пророка, соединением религиозной и светской власти, ограниченной лишь шариатом. В силу этого исламское государство представлялось как государство, в котором обеспечено верховенство права (в форме шариата).

Согласно исламским концепциями власти никому не дозволено отдавать приказы или повеления, ссылаясь на его собственное право, и никто не обязан принимать обязательство выполнять эти приказы и повиноваться таким повелениям. Принятие законов от имени собственной власти запрещено. Этим правом облечен только Аллах. По этому поводу А.А. Князев пишет: «Согласно учению ислама, люди не создают законы, а применяют божественные законы на практике. Власть может быть исполнительной, но не законодательной. Поэтому можно говорить, что Коран — это, по сути, конституция мусульманских стран» [6, 40].

Исламское государство должно быть во всех отношениях основано на Коране. Правительство, которое управляет таким государством, будет обязывать народ к повиновению в своем качестве политического органа, созданного для того, чтобы претворять в жизнь установленные Богом законы. Государственная власть ограничена сферой обеспечения реализации законов Бога.

Следует отметить, что халифат в классическом понимании функционировал лишь при первых халифах (праведные халифы) и охватывал лишь первые 30 лет от установления халифской власти. А после 945 года политическая власть вообще переходит к светским правителям - султанам.

Помимо рассматриваемой выше суннитской формы государственной власти (халифата), мусульманское государственное право выделяет и шиитскую государственность - имамат.

Хачифат опирался на два постулата:

- праведность и богоизбранность халифа, являющегося наместником бога на земле;

- возможность и необходимость избрания этого наместника из числа самых лучших людей уммы (общины).

В шиитской концепции государственная власть временна, что истинным представителем воли Аллаха па земле, носителем светского и духовного начал может быть лишь имам, принадлежащий к роду пророка. Поэтому шиитские правоведы отмечают, что существование избираемого халифа наместника Бога на земле незакономерно, так как власть принадлежит только всемогущему Богу, не нуждающемуся в посредниках. Имам же - наследник пророка, который подготавливает мир к пришествию мессии и началу новой эры, а значит, не правитель государства, а выполняющий божью волю слуга. Шиитская модель государственности предполагала сосредоточение в руках имама не всей полноты власти, в том

числе и судебной.

XX век - начало XXI века - это период концептуального поиска собственного пути государственного строительства для многих народов Евразии. Не случайно, что именно в этот период отмечен ренессанс ценностей идеократической государственности (как альтернативы западноевропейской демократии). Идеократическое государство предполагает наличие «идеи-правительницы» [1,181]. «Идея-правительница» - жесткое образование, созданию и воплощению которого подчинены все сферы общественной жизни и все наличные силы общества, в том числе и процесс государственного строительства, что не соответствует западной либеральной модели, в основе которой лежит принцип плюрализма. Если рассматривать весь спектр теорий идеократической государственности, то наиболее последовательной, разработанной и реализованной (по крайней мере формально в законодательстве) является концепция «исламского правления». Альтернативность «исламского правления» наиболее наглядно демонстрирует решение Европейского суда по правам человека по делу «Рефах партией (Партия благоденствия) (Refah Partisi (Welfare Party)) и другие против Турции». Решением Конституционного суда Турции партия была закрыта в связи с попытками привнесения элементов «исламского правления» в государственное управление. Европейский суд по правам человека не счел действия Турции в качестве нарушений прав человека, сославшись на то, что ограничения имели место в связи с необходимостью защиты демократии, как основной черты «Европейского общественного порядка (данный принцип был сформулирован еще в постановлении от 30 января 1998 г по делу «Объединенная коммунистическая партия Турции (United Communist Party of Turkey) и другие против Турции») [8, 21-22]. Фактически Европейский суд по правам человека косвенно сформулировал принцип - он (суд) не будет рассматривать в качестве нарушения прав человека ограничения, введенные в связи с пресечением реализации «исламского правления». Европейский суд по правам человека проигнорировал тот факт, что за партию голосовали граждане Турции (голосования в парламент и муниципалитеты, где партия набрала большинство, были признаны соответствующие мировым стандартам). В форме опосредственной демократии народ страны выразил согласие на реализацию в государственной политике политического курса данной Партии Благоденствия (основанной на концепции «исламского правления»). Несмотря на это Европейский суд по правам человека счел «необходимым в демократическом обществе» по смыслу пункта 2 статьи 11 Конвенции (речь идет о Европейской конвенции по защите прав человека и основных свобод - М.Ш.)» [7] роспуск Партии благоденствия.

Концепция «исламского правления» — это теорегико-правовая линия

преемственности наследию ислама, исходящего из тезиса о необходимости использования норм и принципов классического исламского государственного права при построении современной государственности в странах с мусульманским населением. Сторонники идеи «исламского правления» считают, что «ислам, некоторые детали которого нас не удовлетворяют, лучше безбожия, с которым у нас нет вообще ничего общего» [10, 79]. В центре системы распределения публичной власти ставится умма, что во многом идентично принципам народовластия [9, 13-15]. В концепциях «исламского правления» суверенитет принадлежит Богу, что требует установление государственного управления на базе шариата.

В этом контексте М.Р. Рида содержание народовластия в условиях «исламского правления» понимает как использование институтов совещательности («шура») между правителями и подданными, определения факихи (мусульманские правоведы) юридических норм, призванных не допустить несправедливости и притеснений, а также реализацией улемами правового контроля над деятельностью исполнительной власти [9, 57-60]. Вместе с тем, «исламское правление» допускает «иджтихад», то есть самостоятельное решение некоторых вопросов юридико-богословского характера: все административные, юридические, политические и военные дела, изначальным намерением в которых не является приближение к Богу, связаны с отделами шариата, при условии, что они будут правильными с религиозной точки зрения; иными словами, они явно составляют поприще для новых человеческих законов.

Другой видный сторонник «исламского правления» Аль-Мав-дуди А. формулирует в своих работах тезис о необходимости сохранения приверженности исламским ценностям лиц, наделяемых полномочиями по реализации государственной власти, в особенности в отношении высших должностных лиц [2, 234-240] (по аналогии с «ведущим слоем» евразийцев).

Принципы «исламского правления» в той или иной степени закреплены в законодательстве исламских стран. Конституционное право Ливии, Пакистана, Йеменской Арабской Республики, большинство арабских государств с монархическими режимами (во главе с Саудовской Аравией и Объединенными Арабскими Эмиратами) основано на признании полного соблюдения требований ислама. Принципы и ценности ислама закреплены в статье 3 Конституции Сирии от 12 марта 1973 года, статье 3 Конституции Алжира (утвержденной в ходе референдума в 1996 году), статье 28 Конституции Туниса от 1 июня 1959 года (с последующими изменениями, наиболее существенные из которых были внесены в 1988 году), в статьях 4 и 15 Конституции Судана, принятой в ходе референдума [11, 10]. В Ливии ислам объявлен в 1977 году «основным законом», регулирующим государственную и общественную жизнь страны. В статье 4 Конституции Судана отмечается,

что верховная власть в государстве принадлежит Аллаху, а суверенитет - народу, выступающему выразителем божественной воли. «Основа систем власти» 1991 года Саудовской монархии гласит: «Королевство Саудовская Аравия - суверенное арабское государство. Его религия - ислам, Конституция - Книга Всевышнего Аллаха и Сунна Его Пророка (да благословит его Аллах!)» [3, 518-519].

В Исламской Республике Иран последовательно реализуется шиитская модель «исламского государства» - имамата. В преамбуле Конституции Иранской Республики Иран от 15 ноября 1979 года отмечается, что «исламское правление» основано на принципе «ве-лаят-е факих» (правление исламского богослова). Гносеологически феномен «валяет-е факих» опирается на принцип преемственности правления имамов, являющийся одним из устоев шиизма как самого ортодоксального течения ислама. Статья 2 провозглашает Шариат в качестве основы правовой системы, а также определяет божественную волю как верховную суверенную инстанцию. В статье 56 Конституции ИРИ отмечается, что абсолютная власть над миром и человеком принадлежит Богу, который дал человеку власть над своей общественной жизнью.

Исследуя вопросы закрепления в законодательстве отдельных стран принципов и положений «исламского правления» следует отличать от реальных политических процессов в этих стран. Во многих странах этой группы легитимность формирования верховной государственной власти вызывает сомнения не только с позиций теории западноевропейской демократии, но также и с позиций самого «исламского правления». Данный фактор является одним из значимых в появлении концепта «лозаннского ислама».

«Лозаннский ислам» - это альтернативное «исламскому правлению» видение системы правления в странах с мусульманским населением. «Лозаннский ислам» известен под таким именем по опыту Турции [5]. В некоторых исследованиях «лозаннский ислам» называют также и евроислам (хотя на наш взгляд между двумя концептами имеются некоторые расхождения). Появление «лозаннского ислама» именно в Турции стало закономерным явлением, так как основатель республиканской Турции Мустафа Кемал Лтатюрк должен был решить вопрос о власти последнего халифа, резиденция которого находилась в Турции.

В процессе модернизации, начатой в стране в начале XX века Мустафой Кемалем Ататюрком. был утвержден и реализован принцип секуляризма: религия не вмешивается в дела государства и политику, а религиозные органы подчитняются полностью государственной власти. При этом государство Турции взяло на себя роль «светского муджтахида (толкователя религиозных законов)» и стало трактовать ислам в соответствии

со своими идеологическими убеждениями. В этой системе ислам официально изъят из системы государственного управления, а понимание суверенитета соответствует утвердившийся в либеральной правовой модели. В преамбуле Конституции Турецкой Республики от 7 ноября 1982 года отмечается «понимание абсолютного верховенства воли нации и того факта, что суверенитет полностью и безусловно принадлежит Турецкой нации, а также того, что никакое лицо или орган, уполномоченные осуществлять этот суверенитет от имени нации, не должны выходить за рамки либеральной демократии и правового строя, установленных согласно ее требованиям». В свою очередь статья 6 устанавливает: «Суверенитет полностью и безусловно принадлежит нации. Турецкая нация должна осуществлять суверенитет через уполномоченные органы в соответствии с принципами, зафиксированными в Конституции. Право осуществлять суверенитет не должно принадлежать какой-либо личности, группе или классу. Никакое лицо или орган не могут осуществлять какие-либо государственные функции, которые не предусмотрены Конституцией».

Попытки реализации «лозаннского ислама» осуществляются с той или иной степенью успешности в постсоветских республиках (Азербайджан и республики Средней Азии).

Вместе с тем, в последнее время в странах данной группы намечается активизация сторонников расширения влияния религиозных ценностей на систему государственного управления, ставящих под сомнения «лозаннский ислам». Усиливается идея возрождения идеократической исламской государственности на всем ареоле традиционного распространения Ислама набирает обороты. Исследовательский интерес представляет современное движение «мусульманской солидарности». Движение преследует несколько целей:

- выход мусульманских организаций и стран из ООН и образование Организаций объединенных мусульманских наций со своим Советом безопасности;

- образование мусульманского «общего рынка»;

- создание объединенных мусульманских вооруженных сил с единым военным командованием.

Концепцию «мусульманской солидарности» можно расценивать как важнейший принцип внешний политики мусульманских стран на пути к реализации идеи панисламизма» [4, 208]. Движение «исламской солидарности» может оказать существенное влияние на ослабление позиций «лозаннского ислама», провоцируя пересмотр доктрины конституционного права, в том числе и в пост советских республиках с преобладающим исламским населением.

**Использованная литература:**

1. Алексеев Н.Н. О гарантийном государстве // Русский народ и государство / Сост. А. Дугин, Д. Тараторин. М. Аграф. 2000.
2. Аль-Мавдуди А. Ислам и вызовы современности. Эль-Кувейт, 1391 г.х.
3. Васильев А.М. История Саудовской Аравии. М.: 1998.
4. Жданов Н.В., Игнатенко А.А. Ислам на пороге XXI века. М., 1989.
5. Ихсан Йылмаз. Государство, право, гражданское общество и ислам в современной Турции// Журнал «The Muslim World» («Мусульманский мир»), http://ru.fgulen.com/index.php? option=com_ content&task=view&id=2205&Itemid=16.
6. Князев А.А. Шариатская концепция прав и свобод личности и международные стандарты: центральноазиатские императивы // Права человека как национальная идея в Кыргызстане. Бишкек: КИГУ им. И.Арабаева, 2003.
7. Постановление Европейского суда по правам человека от 13.02.2003 (жалобы №41340/98, 41342/98, 41343/98 и 41344/98) **по** делу «Рефах партией (Партия благоденствия) (Refah Partisi (Welfare Party)) и другие против Турции» // http://www.uio.no/studier /emner/j us/humanrights/HUMR5120/h08/uudervisnängsmateriale/Case_brief_REFAH_PA RTlSl.pdf
8. Постановление Европейского суда по правам человека от 30 января 1998 г по делу «Объединенная коммунистическая партия Турции (United Comrnunist Party of Turkey) и другие против Турции» // Reports of Judgments and Decisions 1998-1.
9. Рида М.Р. Халифат и великий имамат. Каир, 1922. Т. XIII— XIV.

Ю.Фадлаллах М.Х. Мусульманское государство между исламизмом и мазхабизмом // Журн. «Ас-Сакафа аль-Исламийя». Изд-во Атташата но культуре Исламской Республики Иран в Дамаске. 1408 г. х.№ 18.

11 .Хукмишоев Р.О. Роль ислама в политических процессах общества. Автореферат дис. на соискание ученой степени кандидата политических наук. Душанбе, 2007.

**Mübariz Süleymanlı**

# ƏHMƏD AĞAOĞLUNUN KULTUROLOJİ BAXIŞLARINA DAİR

Düşünürük ki, yaradıcılığı qədər şəxsiyyəti də, həyat yolu də, yaşadığı dövrü də mürəkkəb və ziddiyyətli olan Əhməd bəy Ağaoğlunun elmi-nəzəri irsinin araşdırıcıları və ümumiyyətlə, XIX əsrin sonu və XX əsrin əvvəllərini əhatə edən Azərbaycan kulturoloji fikrinin tədqiqatçıları bu böyük mütəfəkkirin nəinki bütün əsərlərinin bir araya gətirilməsinin, hətta əsərlərinin mükəmməl biblioqrafiyasının hazırlanmasının nə qədər müşkül bir məsələ olduğu fikrində həmrəydirlər. Bu bir həqiqətdir ki, "əlli ildən artıq qızğın, fırtınalı, həm də fasiləsiz, aramsız bir yaradıcılıq yolu keçən, adı, şöhrəti Parisdən Bakı və Tiflisə, Peterburq və Moskvaya, bir az sonra İstanbul və Ankaraya, nəhayət, bütün Türkiyə və Yaxın Şərqə yayılan, fəlsəfə, tarix, iqtisadiyyat və din tarixinə, ədəbiyyat, hüquq, ictimaiyyat və elm-mədəniyyət məsələlərinə həsr olunmuş ciddi elmi-nəzəri və publisist əsərlərin müəllifinin, fəal mədəniyyət, elm və siyasət xadiminin" (15, s. 305), XIX yüzilliyin 90-cı illərindən etibarən dünyanın bir neçə ölkəsinin arxiv və kitabxanalarına səpələnmiş yazılarını toplamaq şərəfli olduğu qədər də ağır bir işdir. Ayrı-ayrı şəxslər tərəfindən görülməsi inanılmayacaq dərəcədə çətin olan bu işə, başda mərhum Əziz Mirəhmədov olmaqla bir çox Azərbaycan və Türkiyə (habelə Fransa) alimləri zəhmət sərf etsələr də, səmərəli bir nəticənin ortada olmaması faktı, bunun yalnız fərdi şəkildə deyil, elmi bir təşkilat, qurum tərəfindən sistemli və kompleks halda görülməsi zərurətini ortaya qoymaqdadır.

Ə.Ağaoğlunun yalnız kitab halında nəşr edilmiş əsərlərini nəzərdən keçirərkən məlum olur ki, onun yazılarında geniş müzakirələr açdığı, təhlillər apardığı və qənaətlər əldə etdiyi ən mühüm mövzular dinə, qadın haqları probleminə, mədəniyyət məsələlərinə həsr edilmişdir. Ə.Ağaoğlunun ayrı-ayrı müəlliflər tərəfindən panislamist, pantürkist, qərbçi adlandırılması səbəbi də onun həyatı boyu yaradıcılıq fəaliyyətini məhz bu mövzulara həsr etməsi, ictimai, siyasi, elmi mücadilələrinin əsasında mədəni intiləah, sivil yaşam tərzi uğrunda mübarizənin durmasıdır.

Ə.Ağaoğlunun fəaliyyətinin istər Fransa dövrünü, istər Bakı, istərsə də İstanbul və Ankara dövrünü əks etdirən yüzlərlə məqalələrin təkcə sərlövhələri insanı heyrətə salır, onların müəllifinin bilik, məlumat zənginliyinə, mübarizliyinə, prinsipiallığına heyran olmaya bilmirsən. Onun analitik təhlili, elmi-nəzəri ümumiləşdirmə istedadı ilə bilik, məlumat zənginliyi sintez halında meydana çıxır ki, bu da öz növbəsində tarixi, ictimai, siyasi, mədəni hadisələrə ideya, milli və bəşəri mənəvi dəyərlər baxımından verilən meyarın düzgünlüyünə dəlalət edir (15, s.323).

Təsadüfi deyildir ki, M.Ə.Rəsulzadə onu "Türk təfəkkür və təhririnin çox canlı və həyəcanlı bir siması", "'Avropa qəzetəçiliyinin Şərqdə çox qüvvətli bir müməssili (nümayəndəsi)", "Yaxın Şərqdəki tarixi Avropalaşma hərəkatının ən

səmimi ideoloqu" adlandırır (8). Fəxrəddin Gülsevənə görə Ə.Ağaoğlu Qərb və Şərq mədəniyyətini birlikdə mənimsəmiş, canına hopdurmuş müstəsna bir şəxsiyyətdir (9, s. 75). İslam ensiklopediyasının Ə.Ağaoğluna aid məqaləsində isə qeyd edilir ki, əgər onun fəaliyyət və yazılarının əksəriyyətini əvvəllər Türk millətçiliyi və Türk mədəniyyəti təşkil etmişdirsə, sonralar fikir azadlığı və bilavasitə Avropa mədəniyyətini tam anlamıyla mənimsəmə mövzuları ağırlıq qazanmışdır. Fransada təhsil aldığı illərdə müəllimi Ernest Renandan, islamiyyətlə bağlı mövzularda Parisdə tanış olduğu Cəmaləddin Əfqanidən, siyasi mövzularda isə Əhməd Rizadan təsirlənmişdir. Fransa dövrü onun özəlliklə Fransa İnqilabının doğurduğu düşüncələrə yaxınlaşmasına, Qərb liberal qavram və dəyərləri incələyib mənimsəməsinə imkan vermişdir (10, s. 464-466).

1894-cü ildə Fransadakı təhsilini bitirdikdən sonra Qafqaza dönən Əhməd bəyə yurddaşları tərəfindən "Firəng Əhməd" ləqəbi M.Ə.Rəsulzadənin yazdığına görə "'Firəngistanda oxuduğundan ziyadə firəng fikir və ideyalarını yaymaq xüsusunda göstərdiyi qeyrət üçün taxılmışdır (13).

Ə.Ağaoğlu yaradıcılığında, onun mədəni baxışlarında islamçılıq, türkçülük, qərbçilik kimi fikri cərəyanlar özünü qabarıqlığı ilə büruzə verməkdədir. Tarixi, ictimai, siyasi hadisələrin təsiri prosesində bu cərəyanlar bir-birini əvəzləmiş biri digərini doğurmuşdur.

Çox vaxt Ə.Ağaoğlu irsinin araşdırıcıları onun yaradıcılığını üç dövrə bölürlər. Şübhəsiz ki, tədqiqatçılar tərəfindən türkləşmək, islamlaşmaq, müasirləşmək cərəyanları ilə xarakterizə edilən bu dövrlər şərti xarakter daşıyır və Ə.Ağaoğlu yaradıcılığının bütün məqamlarında bu amillərin hər biri müəyyən mahiyyət va əhəmiyyət kəsb edir. Belə ki, Ə.Ağaoğlu hələ Azərbaycan milli hərəkatı dövründə türkçülüyü ilə yanaşı, "panislamizmi" və qərbçiliyi təbliğ edən yazılarla da çıxış etməkdə idi.

O, "panislamizmə" həm siyasi-dini, həm də mütərəqqi hərəkat kimi önəm verərkən islamın ilkin, müqəddəs mənasını, həqiqi mahiyyətini göz önünə gətirirdi. O, xalqı nadan, cahil bir kütlə halına salmaq niyyətində olan siyasi iqtidarları, onların rəsmi qulluqçuları halına gətirilən dini rəhbərləri təmin edən, mənəvi cəhətdən yoxsul, siyasi mənada mürtəce bir din tərəfdarı olmamışdır. Hətta milli heysiyyəti, dini təəssübkeşliyi qorumağın yeganə yolunu müasir qərb dəyərlərinin mənimsənilməsində görən Ə.Ağaoğlunun və qərbçiliyi", "avropaçılığı" əksər tədqiqatçıların yazdığı kimi onun həyat və fəaliyyətinin, yaradıcılığının heç də yalnız sonuncu mərhələsini təşkil etməmişdir. Bu baxımdan İslam ensiklopediyasında Ə.Ağaoğluna həsr edilmiş məqalənin ziddiyyətli məqamları da vardır. Məqalədə qeyd edilir ki, islamçı fəaliyyətinin üstünlük təşkil etdiyi ilkin dövrlərdən sonra ittihadçılarla tanışlığı və onların yayın orqanlarında yazılar yazmaqla onun türkçülük tərəfi ortaya çıxır və dini düşüncədən uzaqlaşma dövrü başlayır. Cümhuriyyət dövründən sonra isə Ə.Ağaoğlu tam mənasıyla bir qərbçi kimi görünür(l0).

Görünüş mənasında belə şərti, nisbi bölgü ilə razılaşmaq olar və xronoloji baxımdan bu bölgüyə müəyyən haqq qazandırılası məntiqi də vardır. Çünki "Ə.Ağaoğlunun dünyagörüşü mürəkkəb və ziddiyyətli yollarla irəliləmişdir. O, demək olar ki, bütün yaradıcılığı boyu, kifayət qədər dərindən bildiyi Qərb və rus ictimai-siyasi və fəlsəfi-estetik fikri ilə Şərq zehniyyəti və klassik ənənələrinin üzvi əlaqəsini yaratmağa çalışmışdır" (15, s. 322). Qərb düşüncəsi ilə Şərq zehniyyəti, çağdaş yaşam tərzi ilə klassik ənənələrin ağıl və hisslərinə, təfəkkür və duyğularına hakim kəsilməsi səbəbindən bəzən şərqlimi, qərblimi olmasını müəyyənləşdirməkdə çətinlik çəkdiyini Ə.Ağaoğlu bir sıra əsərlərində, xüsusilə də xatirələrində etiraf etmişdir.

Lakin bu heç də Ə.Ağaoğlunu ziddiyyətli dünyagörüşünə, əqidə dönüklüyünə, qeyri-sabit düşüncə tərzinə sahilə şəxsiyyət, islamdan uzaqlaşıb, türkçülüyə meyllənən, türkçülüyü buraxıb avropaçı olan, Şərqi atilə Qərbi tutan siyasət adamı kimi təqdim etməyə əsas vermir.

Əvvəla Cümhuriyyət dövründən sonra Ə.Ağaoğlu tam mənasıyla bir qərbçi kimi görünsə belə, qərbçi düşüncə tərzi onun Paris, Bakı, İstanbul və Ankara dövrü yaradıcılığının bütün sahələrində nəzərə çarpmış, düşüncəsini hər zaman məşğul etmişdir. Onun məhz Qərb fikir və ideyalarını təbliğ etdiyi üçün "Firəng Əhməd" adı ilə tanındığı Bakı mühitindəki yazılarında, 1919-1920-ci illərdə Malta sürgünündə olarkən qələmə aldığı "Üç mədəniyyət" əsərində (1), 1922-ci ildə Ankarada "Hakimiyyəti milliyyə" qəzetində dərc edilmiş, 1942-ci ildə isə kitab halında "İxtilalını, inqilabını" adı ilə nəşr edilmiş (2) silsilə məqalələrində Avropa mədəniyyətinin mənimsənilməsi uğrunda apardığı mübarizə qətiliyi və kəskinliyi ilə Cümhuriyyətdən sonrakı yaradıcılığından heç də "geri qalmır". Əksinə, Cümhuriyyətə qədərki dövr yaradıcılığında problemin qoyuluşu, məsələnin şərhi, böhrandan çıxış yollarının aranması, qurtuluşun yalnız Avropa mədəniyyətinə girilməsi ilə mümkünlüyü ideyası tarixilik prinsipi və müqayisəli təhlil üsulu ilə izah edilmiş, məntiqi, inandırıcı faktlarla sübuta yetirilmişdir.

İkincisi, Ə.Ağaoğlunun türkçülüyü islaraçılığa zidd olmamış və onu dini düşüncədən tamamilə uzaqlaşdırmamışdır. Geldikcə daha çox "qərbçi kimi görünən", "nəticə etiləarilə sonda ümumtürkçü və türkiyəçi kimi çıxış edən" Ə.Ağaoğlu həm islam birliyi şüan altında qatı "panislamist" kimi şəhid düşən Ənvər Paşanın hakimiyyəti dövründə, həm də dinin dövlətdən ayrılmasına nail olmuş Mustafa Kamal Atatürklə birgə mücadilə apardığı zamanlarda, yaradıcılıgında digər dünya dinləri ilə müqayisədə "...irəliləməyə və yüksəlməyə - tarixin də isbat etdiyi kimi - daha müsait" və inanc və ibadəti dəyişməz olan islama sayğı və məhəbbətlə yer ayırmış, əsərlərində islami dəyərlərin ictimai, mənəvi, əxlaqi mahiyyətini açıqlamış, onların üstünlüklərini, "müasir dövrlə səsləşən xüsusiyyətlərini təsdiqlə yanaşı", "Quranı sonrakı təhriflərdən, qeyri-elmi şərhlərdən xilas etməyə" çalışmışdır.

Doğrudur islamçılıq ideyaları Ə.Ağaoğlunu əvvəlki qədər məşğul etməmiş,

türkçülük və qərbçilik meylləri özünü daha qabarıq göstərmişdir. Bununla belə o, həyatının sonuna qədər islamı mövcud dinlərin fövqündə görmüş, onun ilkin mənəvi əsaslarının qorunması uğrunda mübarizə aparmışdır.

Ə.Ağaoğlu islama istinad edərkən heç də onun bugünkü vəziyyətini deyil, ilkin halını göz önünə gətirir. Təəssüf hissilə bildirir ki, hər növ hökumət və hakimiyyətin yeganə mənşəyini camaatın vicdani-ümumisində axtaran və tarixdə ilk əvvəl bu əsas prinsipi qəbul edib müntəzəm bir nəzəriyyə halına salan islamiyyətin bəşərə bəxş etdiyi ictimai-ümmət (çağdaş təbiri ilə hakimiyyəti-milliyyə) yolu çox qısa oldu. Şərqin əski ruhu islamiyyətə qələbə çaldı (2, s.41).

İstər "panislamist", "pantürkist" adlandırıldığı vaxtlarda, istərsə də "ifrat qərbçi" kimi qəbul ediləndə də Ə.Ağaoğlunun dindən umduğu və onda aradığı örnəklər islamın yaranışdan malik olduğu təməl prinsiplərindən və mənəvi dəyərlər sistemindən, əxlaq və hüquqda yeganə amil və hakim olan vicdani-ümumi, icmai-ümmət və hakimiyyəti-milliyyə meyarlarından başqa bir şey olmamışdır. Bu da onun milli və bəşəri dəyərləri özündə ehtiva etmiş müstəsna insanlardan olduğuna dəlalət edir.

Ə.Ağaoğlunu həyatı boyu düşündürmüş, narahat etmiş əsas problemlər "Üç mədəniyyət" əsərində sistemli bir ifadəsini tapmışdır. Ə.Ağaoğlu şəxsiyyətinin və ideyalarının "Üç mədəniyyət" əsərində daha qabarıqlığı ilə özünü büruzə verməsi müasirlərinin də diqqətindən yayınmamışdır. M.Ə.Rəsulzadə bu barədə yazırdı ki, "Özünəməxsus mücadilə və münaqişə hərarətilə Türkiyəyə idealist Avropa nəşriyyatçılığını götürdüyü üçün arkadaş və akranı (yaşıdları - M.S.) arasında "ustad" avtoritetini qazanan Əhməd bəyin fikri həyatındakı şəxsiyyətini təsbit üçün, Malta əsarəti əsnasında yazdığı "Üç mədəniyyət" risaləsinə müraciət etmək lazımdır" (13).

Ə.Ağaoğlu Maltada sürgündəykən (19191-1921) yazdığı və yalnız Cümhuriyyət dönəmində yayınlana bilən "Üç mədəniyyət" əsərində dünyanın tanıdığı üç böyük mədəniyyətdən Budda-Brahma və İslam mədəniyyətinin çökməkdə olduğunu, Qərb mədəniyyətinin isə bütün ünsürlərilə dünyaya hakim olduğu fikrini irəli sürmüş, təməl prinsipləri insan haqq və hürriyyəti olan Qərb mədəniyyətinin mənimsənilməsinin qaçılmaz bir zərurət olduğunu təkidlə söyləmişdir.

"Mədəniyyət" kimi mücərrəd qavram və məfhumları ifadə edən deyimlərin mənasının necə qəbul edilməsinin mövzuya birbaşa aidiyyatı olduğunu əsaslandıran müəllif yazır ki, belə mücərrədlik hər kəsin mövzunu öz dünyagörüşü və düşüncə səviyyəsində başa düşməsinə gətirilə çıxarar. Buna görə də yanlışlığa və arılaşılmazlığa rəvac verməmək üçün Ə.Ağaoğlu öncə mədəniyyətin mahiyyətini, deyimin hansı mənada işlənildiyini izah edir.

"Üç mədəniyyət" əsərinin müasir kulturoloji və fəlsəfi fikir üçün mühüm əhəmiyyət kəsb edən cəhətlərindən biri elə "mədəniyyət" məfhumuna münasiləət məsələsidir. Çünki, mədəniyyətin tərifində indiyə kimi də alimlər arasında fikir

birliyi yoxdur. Tədris prosesində istifadə olunan "Kulturologiya" dərsliklərində dünya alimlərinin mədəniyyətə verdikləri təriflərin sayı yüzlərlədir. Bu mənzərə mədəniyyət haqqında bilgi almaq istəyən hər bir kəsdə informasiya bolluğu yaratsa da, müəyyən bir çaşqınlıq da yaratmaqdadır. Çünki bütün bu fikir müxtəlifliyi, yanaşma tərzi, baxışlar sistemini özündə ehtiva edən və elmi ictimaiyyət tərəfindən yekdilliklə qəbul oluna bilən aydın, sadə tərif təəssüf ki, hələlik mövcud deyildir. Narahatçılıq doğuran məsəb isə, zəngin ictimai-siyasi fəaliyyətini, elmi yaradıcılığını mədəniyyət problemlərindən ayrı düşünməyən və bu problemə çoxsaylı elmi əsərlər həsr etmiş Ə.Ağaoğlunun mədəni irsindən lazımınca faydalanmamağımızdır. Belə ki, mədəniyyətə verilən çoxsaylı təriflərin müəllifləri cərgəsində (xüsusilə də Azərbaycanda nəşr olunan kitablarda) Ə.Ağaoğlunun adının olmaması bizi narahat etməyə bilməz.

Halbuki, "mədəniyyət" və "sivilizasiya" anlayışlarının, deyimlərinin çeşidli surətdə tərif edilməsi problemi hələ 90 il bundan əvvəl "Üç mədəniyyət" əsərində vurğulanmışdır. Ə.Ağaoğlunun fikrincə, bu kimi mücərrəd məfhumların daşıdığı mənalar, onlarda ifadə edilən məzmunlar əvvəlcə təsbit edilməzsə, sabit təfsirini tapmazsa, bu anlayışlar müxtəlif idrak və fəhmlərə görə qəbul edilər. Bununla da mövzunun həm müəllif tərəfindən təhrif edilmiş şərhinə, aydın olmayan izahına, həm də oxucu tərəfindən yanlış qavrayışına meydan verilmiş olar. Odur ki, o, mədəniyyətdə böhran, tənəzzül, geriləmə və tərəqqi, intibah, çiçəklənmə hallarının törənmə və yaranına səbəblərini, Şərq və Qərb, orta çağ və çağdaş mədəniyyətlərini "məğlub" və "qalib" şərtilikləri ilə müqayisa edərək müasir, sivil dünya mədəniyyətinin çökməkdə olan mədəniyyətlər tərəfindən mənimsənilməsinin qaçılmaz bir həqiqət olduğunu sübuta çalışarkən ilk növbədə mədəniyyətin özü tərəfindən qəbul edilən anlamını və tərifini verir, onun əhatə dairəsini müəyyənləşdirir.

Ə.Ağaoğlu mədəniyyəti daha geniş, bütün tərifləri özündə ehtiva edən və bu kəlməyə ən geniş mənanı verən "həyat tərzi" kimi qəbul edərək yazır: "Mədəniyyət demək - həyat tərzi deməkdir". Bir şərtlə ki, burada həyat qavramının özü ən geriş və hərtərəfli bir məna daşımalı, həyatın bütün sahə və tərəflərini, maddi və mənəvi hadisələrini özündə ehtiva etməlidir. Belə oları halda mədəniyyət düşüncə və axtarış tərzindən başlayaraq geyiniş şəklinə qədər həyatın bütün təzahürlərini, hadisələrini əhatə etmiş olur (1, s.4).

Dünyanın belə bir anlamla dərkində, belə bir baxışla seyrində mədəni insan cəmiyyətinin başlıca üç "həyat tərzi" və yaxud üç "mədəniyyət" arasında bölünmüş olduğu bəlli olur. Müəllif bu bölgünün şərti səciyyə daşıdığını və çeşidli mədəniyyətlər arasında tam, qəti, keçilməz bir həddin, "Çin Səddi"nin olduğu iddiasında, qənaətində olmadığını, belə bir təsəvvürün yanlış qavrayışla nəticələnə bilmək ehtimalını nəzərdə tutaraq yazır ki, müxtəlif mədəniyyətlər arasında qarşılıqlı münasiləətlər, bağlantılar, təmaslar, sızmalar da vardır. Sistemləşdirmə və təsnifat yalnız təməl cizgilərə, özünəməxsus xüsusiyyətlərə aiddir. Coğrafi

baxımdan yayılma miqyasına, etnik baxımdan isə çeşidli xalqları əhatə dairəsinə diqqət yetirildiyi zaman Budda -Brahma, Qərb və İslam mədəniyyət çevrələrinin hər birinin ortaq və ümumi tərəfləri olduğu aşkara çıxır. Mədəniyyətin əsasını, ruhunu, özəyini təşkil edən, onu başqalarından ayıran da məhz bu ortaq və ümumi tərəflərdir ki, özəlliklər, səciyyəvi xüsusiyyətlər özünü müəllifə görə bu müştərəklikdə büruzə verir.

Ə.Ağaoğlu həyat tərzinin mahiyyətini açıqlayarkən onun bir-biri ilə sıx bağlı olan, daha doğrusu vəhdət və bütövlük yaradan, biri digərini tamamlayan və müəyyən mənada şərtilik daşıyan maddi və mənəvi sahələrinə xüsusi diqqət yetirir. Əsərin kulturoloji fikrimiz üçün ən önəmli cəhətlərindən biri də elə mədəniyyətin maddi və mənəvi sahələrini əks etdirən düşüncələr, fikirlər və qənaətlərlə bağlı məqamlarıdır. Çünki, bu məsələnin mübahisə doğuran, fikir qarışıqlığı törədən tərəfləri ilə bağlı bu gün də hamı tərəfindən qəbul edilmiş vahid, ümumi bir şərhi yoxdur.

Mədəniyyət, sivilizasiya, kültür, təməddün (sivilizasiya), fərhəng, hars (mədəniyyət) və s. anlayışların şərhində, mədəniyyətin maddi və mənəvi bölgüsünə münasibətdə mövcud olan fikir ayrılıqları bəzən müəyyən bir çaşqınlıq da yaradır. Qərb filosof və sosioloqlarının baxış tərzində, marksizm dünyagörüşündə, türkçülük nəzəriyyəçilərinin yanaşmalarında, eləcə də digər düşüncə cərəyanlarının nümayəndələrinin fikirlərində mədəniyyət məfhumuna, onunla bağlı terminlərə, təriflərə, maddi və mənəvi bölgü sisteminə fərqli münasibətin özü isə həqiqətən mədəniyyətin fenomenal mahiyyətini, bütün qavramları və anlayışları, həyatın bütün sahələrini içinə alan bir "Həyat tərzi" olduğunu təsdiqləyir. "Mədəniyyət bir həyat tərzi olduğundan içinə bütün yaşayış, düşünüş və duyuş tərzləri girər" fikrini, eyni mədəniyyət zümrəsində olan insanların eyni düşüncə tərzinə, eyni duyğuya və eyni mənəvi cihazlara malik olduğunu söyləyərkən Ə.Ağaoğlu qalilə və məğlub mədəniyyətlər problemini ortaya qoyur. Şərqin düçar olduğu bu böhrandan - "məğlubiyyət"dən üzüldüyünü və həm də bunun etiraf edilməsi zorunda qaldığını yazır. Yenilmə həm maddi, həm də mənəvi sahələrə aiddir. Lakin maddi məğlubiyyət göz qabağında olduğu üçün daha aşkar görünür. Osmanlı dövlətinin yıxılmasını bu mücadilənin nəticəsi kimi əsaslaudıran Ə.Ağaoğlu yenilmə nədir sualını cavablandıraraq yazır ki, istər xoşluqla, istər zorluqla olsun başqasının şəxsiyyətini qəbul və iradəsinə tabe olmaq yenilməkdir.

Ə.Ağaoğlu Asiya cəmiyyətlərində məhəlli, əski, gələnəklərə söykənən mədəniyyətlə Avropa mədəniyyəti tərəfdarlarının çarpışmasını, ölüm-dirim mübarizəsinə girmələrini "ənənə və müasirlik" probleminin həlli baxımdan da özünəməxsus məntiqlə şərh edir.

Müasir mədəniyyətin mənimsənilməsində üstünlüyün yalnız elm və texnikaya bağlılığını qəbul edərək digər tərəflərdən vaz keçmək istəyənləri nəzərdə tutan Ə.Ağaoğlu yazır ki, onlar Avropa mədəniyyətinin nöqsanlı və hətta iyrənc tərəflərindən qurtulmaq niyyətilə o mədəniyyətin bir süzgəcdən keçirilməsini

istəyirlər. Halbuki, "Bir mədəniyyət zümrəsi bölünməz bir bütündür. Parçalana bilməz. Qaliləiyyət və üstünlüyü qazanan onun bütünlüyüdür" (1, s. 11). Vahid orqanizm halına gəlmiş Avropa elmi-texniki tərəqqisi də bu bütünlüklə şərtlənir. Müasir dünyanın elm və bilikləri məhz Avropa şəraitinin, ümumi ünsirlərinin, mexanizminin bəhrəsidir. Ə.Ağaoğlu mədəniyyət çevrəsini canlı orqanizmlərlə müqayisə edərkən, onun bütövlüyünü o bitkilərə bənzədir ki, yetişmələri və inkişafı üçün bəlli şərtlərin olmasına möhtacdırlar. Başqa çevrələrdə, başqa şəhlər içində həmən solub gedərlər. Avropa mədəniyyəti də yalnız elm və texnikası ilə deyil - bütünlüyü, ümumi əlamətləri, xüsusiyyətləri, bütün nöqsanları və fəzilətləri ilə qələbə çalmışdır (1. s. 11-12). Odur ki, bu sellab qarşısında öz həyatını elə onun vasitəsilə mühafizə etmək istəyənlər onu olduğu kimi qəbul etməlidirlər.

Təbii ki, o dövr ziyalılarının bu məsələyə dair mövqeləri fərqli idi. Tədqiqatçılar Türkiyə və Azərbaycan ziyalılarını müasirləşməyə münasibətləri baxımından üç qrupa ayırırlar. Birincilərə ifrat qərbçilər daxildir ki, bu mövqe sahiləri qərb mədəniyyətinin istinasız olaraq, bütün yönləri ilə qəbul olunmasını təbliğ edirdilər. Göründüyü kimi, Əhməd bəy Ağaoğlu da çox vaxt məhz ifrat qərbçi mövqeyi ilə fərqlənmişdir.

İkincilərə mühafizəkarlar (geriçilər) aiddir. Kənardan ruhi-mənəvi dəyərlərimizə yabançı olan heç bir mədəniyyət idxalını qəbul etməyən bu mövqe sahiləri, Qərb mədəniyyətinin mənimsənilməsilə din-imanın, milli-mənəvi dəyərlərin əldən gedəcəyini iddia edirdilər. Məsələn, çağdaş Türkiyə mütəfəkkirlərindən Cəmil Meriç (1916-1987) mövzuya dair kəskin mühafizəkar mövqeyi ilə fərqlənmişdir. O, hətta elmi-fəlsəfi əsərlərində Ş.C.Əfqani və Ə.B.Ağaoğlunu ifrat qərbçi fikirləri səbəbindən ittiham etmişdir.

Ə.B.Hüseynzadə, M.Ə.Rəsulzadə kimi üçüncü mövqe tərəfdarlarının fikrincə isə, elmi-texniki tərəqqi nailiyyətləri, mədəni yeniliklər mənimsənilməli, ruhi-mənəvi dəyərlərimiz mühafizə edilməlidir. Problemə bu günün elmi-tənqidi fikri ilə yanaşsaq, şübhəsiz ki, hər üç mövqeyin müəyyən haqq qazandırılası tərəflərini görə bilərik. Amma qaçılmaz bir gerçəkliyə çevrilmiş mədəni inteqrasiya və qloballaşma meyarlarından çıxış edərkən üçüncülərin mövqeyi praktik baxımından özünü daha çox təsdiqləməkdədir.

Ə.Ağaoğlu isə, J.J.Russo və L.Tolstoy kimi, əslində mədəniyyəti inkar edənlərin görüşlərinin anlaşıqlı olduğunu, hər kəsin zövq və inanışına görə qəbul və ya rədd edilməsinə təbii baxır. Lakin mədəniyyəti qəbul edərkən onu parçalayaraq, bəzi qisimlərini alıb, digərlərini inkar etmək heç bir əsasa və məntiqə dayanmır (1, s.13). Mədəniyyət bölünməz olduğundan, onu tam almaq istəməyənlər məğlub olurlar. Ə.Ağaoğlu qarşı tərəfi səmimiyyətə çağırır, oxucunun zehnini açmağa çalışır. Deyir ki, əgər Avropa mədəniyyətinin üstünlüyünü qəbul ediriksə, onu yalnız elm və texnikaya və hətta bəzi siyasi və ictimai təşkilata bağlamamalıyıq. Bu üstünlüyü mədəniyyətin bütünlüyünə, zehniyyatına, görüş tərzinə, ruhuna, qafasına, dimağına, qəlbinə bağlamalıyıq.

Əslində, bəzən "ifrat qərbçi" kimi "ittiham" edilən Ə.Ağaoğlunun istər fikir adamı, istərsə də siyasət adamı kimi məqsədi, amalı təkdir: türklüya xidmət, kültürə sahib durmaq şərtilə müasir mədəniyyəti mənimsəmək, demokratik prinsiplərə əsaslanan cəmiyyət qurmaq. Bu mənada o, yazırdı: "Qəlblə, hisslə şərqli olmaq, dimağla, qafa ilə qərbli olmaq, iştə bizim məmləkətimiz üçün arzu etdiyimiz ən yüksək ideal və təsəvvür etdiyimiz yeganə çareyi nicat! Bir sözlə, kültür etibarilə Türk-islam qalmaq və mədəniyyət etibarilə də Avropalı olmaq istərəm" (2, s. 65).

Ə.Ağaoğlu mədəniyyətə dair əksər əsərlərində ailə və qadın problemlərinə toxunmuşdur. Ümumiyyətlə, Rusiyadakı türk ziyalılarının XIX əsrin ikinci yarısından etibarən mədəniyyət və cəmiyyət həyatı ilə bağlı mütərəqqi ideyalar verməyə başladıqlarını, habelə ailə və qadın problemlərilə yaxından maraqlandıqlarını, bu problemləri islahatçı bir mövqedən araşdırdıqlarını söyləyə bilərik. Bu sahədə ilk cəhdlər hələ Həsən bəy Zərdabinin "Əkinçi" və İsmayıl bəy Qaspıralının "Tərcüman" qəzetləri vasitəsilə göstərilmişdi. Yusif Akçura yazırdı ki, "Kadınlar Ülkesi" adlı bir əsər də qələmə alan İsmayıl bəy Qaspıralı, qadının cəmiyyət həyatına fəal olaraq qatılmasıyla millətin də inkişaf imkanı qazanacağı qənaətindədir (7, s. 72-73.).

XIX əsrdə suffragett adı altında Qərbdə ortaya çıxan və qadınlara ümumi səs və çalışma haqlarını tələb edən feminizm hərəkatı aradan çox zaman keçmədən Şərq ölkələrində Şeyx Cəmaləddin Əfqani kimi bir sıra islahatçı ziyalıların da maraq dairəsinə girməyə başladı. Mövzu ilə bağlı oxşar müzakirə və mübahisələr başqa bir tərzdə Osmanlı və Azərbaycan ziyalıları arasında da gündəmə gəldi. Qərbdəki yeni inkişafları yaxından izləyən bu ziyalılar, bunları öz cəmiyyətləri baxımından dəyərləndirməyə səy göstərdilər. Əksər hallarda bu meyl özünü, ziyalıların Şərq cəmiyyətlərinin ümumi bir böhran içində olduğu düşüncəsində və yeni şərtlərə ancaq bir sıra islahat səylərilə uyğunlaşa bilmək mümkünlüyü fikrində göstərirdi. Beləcə, keçmişdə zəngin bir tarixi təcrübəyə sahib olan islam ölkələrində XX əsrin əvvəllərindən etibarən qərbliləşmə - yeniləşmə meyllərinin miqyasının getdikcə genişləndiyinin şahidi oluruq. Əlbəttə bu meylin hüdudlarının genişləndiyi hər yerdə, ənənəvi təzyiqlər də hiss olunurdu. Qafqazda bu vəziyyətin qarşılığı özünü cədidçi hərəkatın qarşısına mühafizəkarların çıxmasında göstərirdi. Tərəflərin cəmiyyət problemlərinin həllindəki əks mövqelərilə bərabər, bu problemləri anlama tərzi baxımından bəzi ortaqlıqları da var idi. Bir tərəfdən yeniləşmənin hüdudları məsələsi ciddi şəkildə mübahisə edilirdi, digər tərəfdən Şərq cəmiyyətlərinin müasirləşmə problemi ilə bağlı bir axtarış dövrü yaşadığı mövzusunda fikir birliyi vardı. Əslində bu ortaqlıqdan, fikir birliyindən çıxış edən bir qrup ziyalı Qərb dəyərlərini ön plana çıxarırkən, digər qrup isə ancaq ənənəvi dəyərlərin mühafizəsilə cəmiyyətin özünü tənəzzüldən qoruya biləcəyini düşünməkdə idi. Beləcə, yeniləşməyə qarşı çıxanlar, bunun cəmiyyət böhranını sürətləndirəcəyi həqiqətinə sığmırdılar. Birinci görüş tərəfdarları, cəmiyyəti

siyasətlə bütünləşdirmə, onu siyasətin bir ünsürü halına gətirmə səyində ikən, ikincilər mövcud cəmiyyət dəyərlərinin siyasətə alət edilməməsi zərurətini ifadə etməkdə idilər. Hər iki görüşün haqq qazandırılası tərəflərilə yanaşı tənqid ediləcək cəhətləri də var idi ki, bütün bunlar fikir birliyi üçün müəyyən çətinliklər yaradırdı. Belə bir situasiyada - cəmiyyətdə genişmiqyaslı dəyişmələr gerçəkləşmədiyi və dəyişiklik tələbi də gəlmədiyi halda, bir qrup ziyalı tərəfindən cəmiyyət strukturunun süni olaraq dəyişməsini təmin edəcək müəyyən təkliflər irəli sürülür. Dəyişiklik cəhdi və təşəbbüsü cəmiyyətdən gəlmədiyi üçün, mütərəqqi ziyalılar bu missiyanı - cəmiyyətin yeniləşmə yükünü öz üzərlərinə götürürlər. Onlar islam cəmiyyətlərinin böhran və məhv olma astanasında olması və bu səbəblə yeniləşmənin qaçılmaz zərurət halına gəlməsi qənaətindən çıxış edərək, bu məsələdə öz baxışlarına haqq qazandırma yolunu tuturlar. Təzyiq göstərən digərləri isə, yeniləşmənin təxribat doğuracağı fikrindən başqa bir şey düşünməməkdə və alternativ bir həll yolundan da uzaq durmaqda idilər.

Şərqdə qadın haqlarının təmsilçiləri olan şəxslərin, əsasən qərblə yaxın əlaqələri olan, Avropa təhsili almış və yaşayış tərzlərini qərb qaydalarına uyğunlaşdıran elita arasından çıxmış olmaları təsadüfi deyildi. Rus yeniləşmə hərəkatının liderlərilə eyni düşüncə atmosferində yetişmiş, Paris mədəni mühiti ilə yaxın təmas qurmuş, Sorbonna üniversitetində Şərq mədəniyyəti və tarixinə dair təhsil almış Əhməd bəy Ağaoğlu da məhz bu seçkinlər sırasında idi.

XIX əsrin sonu və XX əsrin əvvəllərində, bir Azərbaycan ziyalısının məsələyə fərqli yanaşmasının arxa planında hansı səbəblər ola bilərdi? Ağaoğlu, Avropaya təhsil məqsədilə gedən ilk azərbaycanlılardandır. Daha əvvəl, qərb tipli təhsil müəssisəsi olan Rusiya gimnaziyasında aldığı təhsil onun dünyagörüşünün formalaşmasında ilk mərhələ idi. İslam mədəniyyətinə bağlı maraq və həvəsi isə Parisdəki yüksək təhsil illərində artmağa başlamışdı. Tədqiqatçılara görə, islama və Şərq mədəniyyətinə bağlı bilgiləri istisna olunsa, ümumiyyətlə, Ə.Ağaoğlunun baxış tərzi Qərb qaynaqlıdır. Bu, xüsusi diqqət yetiriləsi bir mövzudur. Çünki daha sonrakı bütün düşüncələri - milliyyətçiliyə meyi etdiyi dövrlərdə belə - qərbli bir baxış tərzinin təsiri altında qalmışdır.

Bu gün gender problemləri ilə bağlı Azərbaycanda kütləvi informasiya vasitələrindən tutmuş elmi toplantı və nəşrlərə qədər müxtəlif qurumlar tərəfindən qızğın tədbirlər həyata keçirilməkdədir. Mövzu ilə əlaqədar tanınmış alimlərin bir sıra elmi tədqiqat əsərləri də çap olunmuşdur. Amma nədənsə cəmiyyətimizdəki müasirləşmə prosesləri fonunda qadın problemlərindən söz düşərkən Azərbaycan milli mətbuatında hələ ötən əsrin ilk illərindən müzakirə obyektinə çevrilmiş yazılardan bəhs edilmir. Qadın problemi Azərbaycan elmi-nəzəri fikri üçün tamamilə yeni bir hadisə kimi təqdim edilir. Nədənsə XIX əsrin sonları və XX əsrin əvvəllərində yaşaylıb-yaratmış Qafqaz Şüyxülislamı Axund Əhməd Hüseynzadə (Əli bəy Hüseynzadənin babası), müfti Mirzə Hüseyn Əfəndi Qayıbov, görkəmli Azərbaycan maarifçisi Mirzə Əbdürrəhim Talibzadə, Mir

Məhəmməd Kərim Mircəfərzadə, Mirzə Əbu Turab Axundzadə kimi onlarla ilahiyyat xadimləri və din alimlərimizin bu yöndəki fəaliyyətlərindən, nəşr edilmiş əsərlərindən bəhs edilmir. Habelə Əhməd bəy Ağaoğlunun 1901-ci ildə Tiflisdə rus dilində çap edilmiş "İslama görə və islamiyyətdə qadın'" adlı fundamental monoqrafiyasından, Axund Yusif Talıbzadənin bu sahədəki yaradıcılığından (1903-cü ildə islam aləmində qadın tərbiyəsindən bəhs edən "Hədiyyəyi-nisvan" kitabı və onlarla məqalələrindən) və eləcə də digər Azərbaycan ziyalılarının çoxsaylı elmi-publisistik yazılarından söhbət belə getmir. Bir sözlə, son yüzildə mütəfəkkirlərimizin qadın problemlərinə dair yazdıqları, milli-mənəvi və dini baxımdan təqdirə layiq olan əsərlərin yenidən nəşri və təbliği əvəzinə, sifarişlə yazılmış kitabların nəfis şəkildə çapı, təntənəli təqdimatı və pulsuz yayımı vasitəsilə, nəinki qadın-kişi münasibətlərinə yaxşı bir şey gətirilir, əksinə qadınlarımızın mənəviyyatına mənfi keyfiyyətlər aşılanır və minilliklərdən bəri varlığını mühafizə etmiş ailələrimizin strukturuna təhlükələr yaradılır. Əslində bu problem adı altında cəmiyyətimizə atılmış mənəviyyatsızlıq toxumlarının cücərməsinə şərait yaradılır ki, aşınmaya məruz qoyulan, nəticə etiləarilə dağıdılmasına çalışılan isə ailə təşkilatımızdır. Mənəviyyat işğalçılarının cəmiyyətdə pozuqluq yaratmaq məqsədilə hədəfə aldıqları əsas nişangahları da məhz milli ailə formasıdır.

Odur ki, gender sahəsində maarifçilik təbliğatının ailə strukturlarımızın möhkəmləndirilməsi xeyrinə aparılması üçün digər tədbirlərlə yanaşı bu sahədəki tarixi təcrübənin mənimsənilməsi məsələsinə, o cümlədən Əhməd bəy Ağaoğlunun çoxsaylı kulturoloji əsərlərinə də ciddi diqqət yetirilməlidir. Çünki çoxyönlü elmi-mədəni fəaliyyəti ilə Azərbaycan mədəniyyəti tarixinə zəngin irs bəxş etmiş Əhməd bəy Ağaoğlu, həm də islam dininin müxtəlif yönlərdən şərhinə həsr edilmiş və dövrü üçün əhəmiyyətli olduğu kimi günümüzdə də aktuallıq kəsb edən bir sıra əsərlər müəllifidir. Onun Fransa, Azərbaycan və Türkiyə mətbuatında çap olunmuş və islamın elm, maarif, mədəniyyət dini olmasını açıqlayan yüzlərlə məqalələrindən başqa, islamda qadın hüquq və azadlıqlarını, elmi-mədəni tərəqqiyə təkan verən amilləri şərh və təbliğ edən monoqrafik əsərləri də vardır.

Ötən əsrin ilk illərində Azərbaycan cəmiyyətini, daha geniş anlamda isə Türk-islam Dünyasını tərəqqiyə və müasir dünyanın ən mütərəqqi nailiyyətlərini əxz etməyə səsləyən yazılar müəllifi Əhməd bəy Ağaoğlunun ilk çap olunan (1892-ci ildə Londonda nəşr edilmiş elmi topludakı "Şiə dinində məzdəki inancları" əsəri (5, s. 57-62) istisna olmaqla) kitabı "İslama görə və islamiyyətdə qadın" əsəridir. İlk dəfə rusca nəşr olunmasına baxmayaraq, din, millət, müasirlik, qadın və s. kimi problemlərlə bağlı bir əsrdən artıq bir müddətdə qızğın müzakirə və mübahisələrə rəvac vermiş bu əsər müasir Azərbaycan kulturoloji fikiri üçün də öz əhəmiyyətini saxlamaqdadır. Xüsusilə də, gender problemlərinin yenidən gündəmdə olduğu bir vaxtda bu əsər tarixi baxımdan daha çox dəyər qazanmış olur. Tədqiqatçılar "İslama görə və islamiyyətdə qadın" əsərini mədəniyyət

tariximizdə qadın problemi ilə bağlı ilk fundamental elmi tədqiqat kimi dəyərləndirirlər. Əsər nəşr olunduğu gündən mətbuatın, elm və din xadimlərinin diqqətini cəlb etmiş və Ağaoğlunun ilə bağlı tədqiqatların əksəriyyətində bu əsərin mahiyyətinə toxunulmuşdur.

Çikaqo Universiteti Yaxın Şərq dilləri və mədəniyyətləri bölümünün əməkdaşı, tədqiqatçı A.Holly Shisslerin "İki İmparatorluk Arasında: Ahmet Ağaoğlu ve Yeni Türkiye" adlı əsəri Ağaoğlu irsi, xüsusilə onun Fransa dövrü yaradıcılığı haqqında yeni təhlillər ortaya qoymaqdadır. O, qadın probleminə də toxunaraq yazır ki, "İslama görə və islamiyyətdə qadın" əsəri, İran cəmiyyəti ilə bağlı Fransada silsilə halında yayımlanan yazılarından daha uzun deyildi, amma tək bir mövzu ətrafında toplanmış olması səbəbiylə ondan fərqliydi və onunla müqayisədə daha tanıdı. Bu əsərində Ağaoğlunun bir ziyalı kimi təmayül və inkişafı haqqında çox bilgi vardır (14, s.218-219). Bu əsərini, eləcə də sırf islama aid digər kitab və çoxsaylı məqalələrini çap etdirməklə, Ə.Ağaoğlu, islam dinini təhriflərdən və qərəzli münasibətlərdən qorumağa çalışmışdır. Bu əsərlərin, Avropa elmi-nəzəri fikrinin yanlış şərhlərinə təsir göstərmək cəhdləri ilə yanaşı, xalqımızın mövhumat və xürafatdan qurtulub islamın əsil mahiyyətini əks etdirən inanclara yiyələnməsində də praktik əhəmiyyəti olmuşdur.

Onu da demək lazımdır ki, Ağaoğlunun qadın problemi ilə bağlı görüşləri zaman-zaman dəyişikliyə uğramışdır. İlk əsərlərini yazdığı dövrlə türkçülüyü mənimsədiyi dövr arasında qadın və ailə mövzusundakı baxışlarında bəzi prinsipial fərqliliklərin əlamətləri nəzərə çarpmaqdadır. Ağaoğlu ilk yazılarında islam mədəniyyətinin peyğəmbər zamanına aid pozulmamış dəyərlərinə söykənərək, islam qadınının modernləşməsi zərurətini vurğulamaqdadır. Malta sürgünündə ikən (1919-1921) yazdığı "Üç mədəniyyət" əsərində isə qərbliləşməyə bağlı görüşlərində daha güclü və ifrat bir vurğunun ortaya çıxdığını görürük. M.B.Məhəmmədzadə yazır ki, XX əsrin əvvəllərində Bakı mühitində Ə.Ağaoğlunun müsəlman qadınlarının düçar olduqları zəlil mövqeyə və islam dünyasının mənəvi tənəzzülünə səbəb olan xurafatçı mollalara, mövhumatçı axundlara qarşı apardığı mübarizədə göstərdiyi "Firəngliyi" "Üç mədəniyyət" əsərində öz kamalına çatmış, bütün həyatı boyu daşıdığı ideologiyası burada sistemli bir ifadəsini tapmışdır (11).

Ə.Ağaoğlu bu əsərdə dinlə bağlı düşüncələrinə belə bir yekun verir ki, din qul (bəndə) ilə Allahın arasını düzənləyən bir prinsiplər sistemindən ibarətdir. O halda dinin mövzusunu yalnız inanışlarla ibadətlərə aid xüsuslar təşkil edər. Bunun xaricində hər nə varsa, dinə təsadüfi olaraq girmişdir. İslamda dəyişməz olan inanc və ibadətlərdir. Dünya işləri zaman və məkana bağlıdır. Qurtuluş yalnız dünya işlərinin düzənlənməsində tam sərbəstlik qazanmamıza bağlıdır (1, s. 39-42).

"Üç mədəniyyət" əsərinin yazıldığı dövrdən etibarən isə Ağaoğlu artıq ənənəvi islami dəyərlərə qayıdışın mümkünsüzlüyündən, bu dəyərlərin qətiləşmiş tənəzzülündən, qadın və ailənin tam mənasilə qərbliləşməsi zərurətindən bəhs

etməkdədir. Və o, bu ərəfədə əvvəlki baxışlarından fərqli bir mövqe nümayiş etdirərək belə bir qənaətə gəlir ki: Mədəniyyət bir bütündür. Elm və teknika bu bütünün ancaq bir qismini təşkil edir. Qərb mədəniyyəti bütün qüsur və məziyyətlərilə qəbul edilməlidir. Düşüncəmiz, yaşayış tərzimiz, zehniyyətimiz Qərbə uyğunlaşdırılmalıdır (Ağaoğlunun ailə həyatı da bu düşüncələrinə uyğun və tutarlı bir şəkildə formalaşmışdır. Avropalı bir tərzdə yetişdirdiyi qızları Cümhuriyyət dövründə qabaqcıl türk qadınları arasında yer tutmuşlar: Tezər Taşkıran 1943-cü ildə Karsdan CHP millət vəkili seçilmişdir. İstanbul Hüquq Fakültəsinin ilk qadın tələbələrindən olan Sürəyya Ağaoğlu ise Türkiyənin ilk qadın vəkilidir).

Ə.Ağaoğluna görə böhran içərisində olan islam mədəniyyətinin Qərbə uyğunlaşmaqdan başqa qurtuluş çarəsi yoxdur. Ağaoğlunun, ictimai problemləri həll etmənin ilk yolu olaraq Qərb mədəniyyətinə işarə etməsi, Ufuk Özcana görə, başqa alternativlərin qarşısını əngəlləyəçək bir mahiyyətdədir. Bundan başqa, XX əsr bütünlüklə göz qarşısında canlandırıldıqda, qərbliləşmə hərəkatları nəticəsində (islam cəmiyyətlərinin qarşılaşdıqları problemlərlə bağlı) əhəmiyyətli bir yaxşılaşma nəzərə çarpmamaqdadır. Yeniləşmə və ya qərbliləşmə adı altında həyata keçirilməyə çalışılan bütün təcrübələrə baxmayaraq, islam cəmiyyətləri hələ də qərbdən təcrid edilməkdədir. İslam qadını, yaşam tərzi baxımından qərbli həyat standartlarına uyğunlaşdırıldıqda cəmiyyət problemlərinin də həllinə çarə tapılacağı düşüncəsinin həqiqətə uyğun olmadığı ortaya çıxmışdır. Qərbdə qadın hərəkatı, ucuz işçi qüvvəsini təmin edən kapitalist müxanizmləri içərisində qadının işgüzar həyata fəal olaraq qatılmasının bir nəticəsi olaraq meydana çıxmış, daha sonra istehlak, siyasi və hüquqi iştirak və sair proseslərə bağlı olaraq inkişaf imkanı qazanmış və getdikcə qadın haqq və hüquqları sahəsində inkişafa nail olunmuşdur. Bunun əksinə isə, belə bir sənaye və ictimai təşkilatlanmadan məhrum olan Şərq cəmiyyətlərində qadının statusunda bənzər dəyişikliklər olmadan qadın və ailənin islahatlara cəlb edilməsi zərurəti ortaya atılmışdır. Ümumiyyətlə, Şərqdə qadın haqlarının ictimai bir təşəbbüsün nəticəsi olaraq inkişaf etməməsinin, yuxarıdan diqtə edilən islahatların cəmiyyətə asanlıqla tətbiq oluna bilməməsinin başlıca qüsurları da məhz bu səbəblərdə axtarılmalıdır. Ə.Ağaoğlunun tədqiqatçılarından Ufuk Özcana görə, müsəlman qadınının Avropa yaşam standartlarına uyğunlaşdırılacağı təqdirdə cəmiyyət problemlərinin də həll olunacağı düşüncəsinin həqiqətə uyğun olmadığı ortadadır.

Ə.Ağaoğlu əsərlərində əxlaq məsələsinə də münasibətini bildirərək yazır ki, Şərqdə cinslərin münasibətlərinə aid qaydalardan başqa digər əxlaqi prinsiplərin hamısı qanundan kəsaddır. Əslində bizim əxlaqi düşüncəmiz qurşaqdan yuxarını təsəvvürə gətirmir. Fəqət insanın qurşaqdan yuxarı düşünən beyin, zehni, dimağı, döyünən ürəyi, qəlbi və bunlardan doğan əxlaqi qaydalar, prinsiplər, meyarlar vardır ki, bizim cəmiyyətimizdə müqəddəs sayılmaz, insanların işinə yaramaz.

Dünyanın heç bir yerində bizdəki qədər namusdan danışılmaz. Amma bizdə

müqəddəs sayılan şey ümumilikdə qadın və kişiyə şamil edilən namus qavramı deyildir. Yalnız qadın namusudur. Dini hakimiyyətin hökm sürdüyü bir məmləkətdə riayət olunması məcburi sayılan yalnız, birincisi, qadına aid qaydalardır, ikincisi isə peyğəmbərə və onun qohumlarına olau sayğıdır. Sivil cəmiyyətlərdə olan digər qaydalar isə bizdə işə yaramaz. Məsələn, zina işləyən qadından hər kəsin, hər yerdə qaçdığı halda, yalançı, riyakar, həyasız, haqsız, ədalətsiz, illərlə xalqa zülm verən, onu zəlil vəziyyətinə salan yüksək məqam və rütbə sahiblərinə, iqtidar təmsilçilərinə yüz kərə baş əyib ehtiram göstəririk. Bunun naqislik olduğunu qananlar tapılsa belə, bu qüvvə, bu düşüncə onları hərəkətə gətirəcək gücdə olmaz (1, s. 43-47).

Belə isə, onda qanunu olmayan hər hansı bir əxlaq qaydası yox kimidir. Qanun qüdrəti isə xalqın vicdanıdır. Xalq vicdanını hərəkətə gətirəcək qədər qüdrəti, müqəddəsliyi olmayan bir əxlaq qaydasını istədiyin qədər sözdə qəbul et, dəyər və önəmi olmaz.

Ə.Ağaoğlu eyni mədəniyyət çevrəsində olan, eyni dinə etiqad edən, hətta eyni dildə danışan xalqların milli şəxsiyyətlərinin dəyişməz olduğunu, aralarındakı fərqin daimi olduğunu bildirməklə bərabər, belə bir sual da verir ki, əcaba millətdə dəyişməyən, ölümsüz, müqəddər bir özəllik, bir özlük varmıdır? Əsla yox! Tarixdə dinini ən azı iki dəfə dəyişməyən hansı millət vardır? Əxlaq və hüquq da mahiyyətləri etibarilə belə dəyişəndir. Dünən fəna və çirkin sayılan bir şey və ya hərəkətin, eyni çevrə içində bu gün yaxşı və gözəl sayıldığı, hər gün hamımızın şahidi olduğumuz hadisələrdəndir (1, s.14). Az-çox "əbədilik qoxusu dildən gəlir. Fəqət bu da gerçək və ümumi deyildir (1, s. 15). Bununla bərabər bir millətin tarixində ən sağlam olan və həmin dəyişməz dərəcəsinə varan amil dildir, yəni yalnız dildir ki, mahiyyəti dəyişmədən inkişaf xüsusiyyətlərini daşıyır.

Deməк ki, ümumilikdə şəxsiyyət və özlük deyilən məfhum dillə bərabər bir millətin maddi varlığından başqa bir şey deyildir. Hər maddi vücudun bir şəxsiyyəti vardır. Yəni onu başqa vücudlardan, başqa əşyadan ayıran tərəflər vardır. Bunun kimi, millət varlığı ilə belə bir şəxsiyyət daşıyır. Digər millətlərdən mütləq surətdə ayrılır. Fəqət bu şəxsiyyət filan əxlaq və hüquqla, filan muzik və timari ilə şərtlənmiş deyildir (l,s. 15).

Ə.Ağaoğluna görə eyni mədəniyyətin dəyişik bir çox əlamətləri müəssisələri çeşidli millətlərin ruhlarından keçərkən müxtəlif şəkil və rəng alır. Hər millət onlarda özünə xas və doğuşdan gələn şəxsiyyətini əks etdirir.

Ə.Ağaoğlu Qərb mədəniyyət çevrəsində ingilis, alman, fransız və s. xalqların, Şərq mədəniyyət çevrəsində isə türk, ərəb, fars və s. xalqların milli xüsusiyyətlərini - belə bir şəkil çoxluğunu, özəlliyi milli şəxsiyyət adlandırır. Onun qənaətinə görə özlük deyilən şey elə bundan ibarətdir. Bu doğuşdandır, müqəddərdir, istəyə bağlı deyildir, istər-istəməz özünü göstərir. Kainatda eyniyyət yoxdur. Eyniyyət olmadıqca şəxsiyyət labüddür. Başqalarından heç bir alış onu təhlükə qarşısında qoymaz. Əksinə olaraq, özünü göstərmək üçün yeni sahələr

hazırlar.

Milli şəxsiyyəti yalnız hərəkətsizlik öldürər. İstər fərdlərdə və istər millətlərdə həyat nə qədər koyu (həqiqi) və qüvvətli isə, şəxsiyyət də o nisbətdə ziyadədir. Qəlbinin həyəcanlarını yeni ahənglərlə söyləməyən, zəka və dimağının məhsullarıyla insanlığı verimli etməyə (kılmaya) qüdrətli olmayan, fəaliyyətinin meyvələrini ümumi bazara çıxarmayan cəmiyyətlər hansı şəxsiyyətdən, hansı özlükdən söz edə bilərlər (1, s. 17).

Şərq aləminin acınacaqlı halını həyatadan aldığı və "üz qızardan" misallarla şərh edən Ə.Ağaoğlu bütün bu rəzalətlərin qaynağını hökumət haqqındakı görüş tərzində, hüquqi zehniyyətdə və bu zehniyyətin ilham aldığı əsaslarda görür (1, s. 143). O, yazır ki, dövlətdə tək yaşayan və əsaslı olan ünsür, dövləti doğuran millətdir. Bu səbəbdən dövlətin də tək təbii adı o millətin adına bağlı olmalıdır. Bizdə isə tarixən bir-birini əvəzləyən hakim sülalə, iqtidar özlərini ayrı-ayrı düşmən dövlətlər saydıqlarından, hər sülalə özünü əvvəlki iqtidar sülalələrin bütün əsərlərini, bütün miraslarını yıxmaq, pozmaq və dağıtmaqda mükəlləf saymışdır (1, s. 121).

Əsl dövlət məsələsi isə xalqın hisslərində, əməllərində və istəklərində birlik meydana gətirməkdir. Ə.Ağaoğluna görə tariximizdə şəxsə (hökmdara) bağlılıq qaydası dövlətə bağlılıq prinsipinə hakim olandan bəri, türk idarə sahəsindən qovulmuşdur ki, bu da bu xalqın xarakterinin hakimiyyətin tələblərinə uyuşmazlığından doğmuşdur. Müxtəlif millətlərlə qarışmışlar, digər millətlərdən dönmələr, assimiliyasiya olunmuşlar isə daima Türk dövlətinin hakim dairələrində, yanı-başında təmsil olunmuş, yerlərini möhkəmlətmiş, dara düşəndə milləti satmış, vətənə xəyanət etmişlər. Son bir neçə əsrdə milli tariximizə qanlı və müdhiş bir şəkil verənlərin yüzdə doxsanı da məhz elə saraya girmək imkanı tapan, soyu-kökü bəlli olmayan, canında, qanında türk xarakterindən, özəlliyindən əsər-əlamət belə olmayan, dövlətin qurucu ünsürü ilə maddi və mənəvi heç bir ilgisi olmayan "qatır cinsini" xatırladanlardır (1, s. 130-132).

Ə.Ağaoğlunun deyiminə görə, "nation", yəni millət ünvanını "yalnız heysiyyət və şərəfini duymuş, istiqlal və hürriyyət eşqini dadmış və şərəfi-nəfsibəşər üçün, hürriyyət və istiqlalı vücud üçün ölmək lazım olduğunu idrak etmiş və gərək daxil və gərək xaricdə bu hürriyyət və istiqlala və onları təmin və təyin edən qəvaidə qarşı icra olunan bir təcavüzə təhəmmül edəməyən cəmiyyətlərə verirlər" (2, s. 60).

"Dövlət millətdir, millət dövləti quran ünsürdür" qənaətində olan Ə.Ağaoğluna görə bütün hakimiyyət millətə aid olduğu kimi, bütün haqlar da ona aiddir. Əgər belə bir hakimiyyət və haqqa öz xoşumuzla, qətiyyət və iradəmizlə, mübarizəmizlə nail olsaq nə yaxşı, yoxsa tarix qarşısında pərişanlığımız və məğlubiyyətimiz labüddür. Məğlubiyyətdən yaxa qurtarmağın yolunu isə Ə.Ağaoğlu Qərb mədəniyyətini mənimsəməkdə görür. Lakin bu proses eyni zamanda cəmiyyətin özünü daxili naqisliklərindən, nöqsanlarından, qatı

mühafizəkar ənənələrindən özünütənqid yolu ilə qurtulması sayəsində həyata keçirilə bilər. Ə.Ağaoğlu müasir Qərb aləminin qədim cəmiyyətlərin statik, qapalı sistemlərindən əsas fərqini özünüinkar və özünütənqid prinsipinin mahiyyətində axtarır. Çünki qapalı-ənənəvi cəmiyyətlər özünə tənqidi münasibətə dəyər, qiymət verməmiş, geriliyin, "məğlubiyyətin" kökünü özlərində deyil, kənarda aramış, bu səbəbdən də digər toplumlar, çevrələrlə daimi çarpışmalarda olmuşlar.

Bütün Şərqi öldürən və bizim də bir çox səy və çalışmalarımızı, fəaliyyətlərimizi batil edən - prinsipsizlik, riyakarlıq, cəhalət və təşkilatsızlıqdır. Bütün bunlara "çarə tapmadıqca bəla başımızdan əskik olmaz, toxmaq daima başımızın üzərində asılı durar" (2, s. 66-67). "Ya çağa uyaraq müəssisələrini olduğu kimi, qəlbləri və ruhları ilə qəbul edilə uyğulayacağıq və ya bunu etməyərək məhvimizə razı olacağıq... Mədəniyyət alanında məğlubiyyətimiz qətidir. Qalib mədəniyyəti mənimsəmək məcburiyyətindən vaz keçilə bilməz" (1, s. 17, 146).

Göründüyü kimi, Ağaoğlunun fəaliyyətinin ayrı-ayrı dövrlərində, ictimai-siyası situasiyaların dramatizmindən irəli gələn mövqe dəyişkənliyi fonunda daha çox sabit görünən faktlardan biri bundan ibarətdir ki, o, ictimai problemlərin həllinin birinci yolunu Avropa mədəniyyətini mənimsəməkdə görmüş və bu məsələyə münasibətində daha səmimi olmuşdur. Bu kimi cəhdlərin tarixi baxımdan islam cəmiyyətlərinə nə qədər fayda gətirdiyini müəyyənləşdirmək təbii ki, müşkül bir məsələdir. Lakin səbəblərin harada axtarılmasından asılı olmayaraq bir faktı danmaq olmaz ki, son bir əsrdə qərbliləşmə hərəkatları nəticəsində islam cəmiyyətlərinin qarşılaşdıqları problemlərdə gözə dəyən bir irəliləyiş olmamışdır. Nəhayətdə proses özünü onda təzahür etdirir ki, müasirləşmə, qərbliləşmə, avropalaşma adı altında yürüdülən bütün təcrübələrə baxmayaraq islam cəmiyyətləri hələ də Qərbdən təcrid edilməkdədir. Bu, günümüzdə cərəyan edən siyasi hadisələr fonunda Qərbin siyasi və dini rəhbərlərinin Müsəlman Dünyasına ikili və qərəzli münasibətlərindən də aşkarca görünməkdədir.

**Ədəbiyyat:**

1. Ağaoğlu A. Üç medeniyet. İstanbul, 1972.
2. Ağaoğlu A. İhtilalmı, inkilapmı? Ankara, 1942.
3. Ağaoğlu Ahmet. İslamlıkda kadın (Türkceye çeviren: Hasan Ali Ediz). İstanbul, Nebioğlu Yayınevi, 1959.
4. Ağaoğlu Ahmet. islamiyette kadın (Ruscadan çeviren: Hasan Ali Ediz). Ankara, Birey ve toplum yayınlan, 1985.
5. Ağayev Əhməd. Şiə dinində məzdəki inancları (Fransızcadan çevirəni Hamlet Qoca). "Mədəniyyət dünyası", X buraxılış, 2005, s.57-62.
6. Ağayev Əhməd. İslama görə və islamiyyətdə qadın (rus dilindən tərcümə edəni: Rüfət Şərifov). "Mədəniyyət dünyası", Xll buraxılış, Bakı:ADMİU, 2006, s.31-50.
7. Akçuraoğlu Yusuf, Türkçülük, İstanbul, 1990, s. 72-73.

8. "Azerbaycan" dergisi, Ankara, 1952, sayı, 4, s.l 1 -13.
9. Gülseven F. Ahmet Ağaoğlunun hayatı, fikirleri, siyasi ve sosyal mücadileleri. "Azerbaycan" dergisi, Ankara, 1989, sayı 268, s. 72-109.
10.İslam Ansiklopedisi, 1 cilt (A.Ağauğluna ait makale), s. 464-466.
11 .Məhəmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992.
12.Rəsulzadə M.Ə. Milli dirilik. "Dirilik" dərgisi, Bakı, 1914, № 1-8.
13.Rəsulzadə M.Ə. O.Ağaoğlunun vəfatı münasibtilə yazdığı məqalə. Qurtuluş, Berlin, 1939.
14.Shissler A.Holly. İki İmparatorluk Arasında. Ahmet Ağaoğlu ve Yeni Türkiye (Çeviren: Taciser Ulaş Belge), 1. Baskı. İstanbul Bilgi Universitesi Yayınlan, 2005.
15.Talıbzadə Kamal. Əhməd Ağaoğlu və onun "Rus ədəbiyyatının ümumi səciyyələri" əsəri. Seçilmiş əsərləri. İkinci cild. Bakı: Azərnəşr, 1994, s.305-328.
16.Ziya Göyalp. Türkçülüyün əsasları, Bakı, Maarif, 1991.
П.Агаев Ахмед. Женщина по исламу и в исламе. Тифлис (Скоропеч. М. Мартиросянца, Михайловский пр. № 81), 1901.

**Nailə Bayramova**

## QARABAĞ XANLIĞININ ŞAMAXI XANLIĞI İLƏ ƏLAQƏLƏRİ

Azərbaycan xanlıqlar dövrü özünün mürəkkəb və ziddiyyətli məqamları ilə diqqəti cəlb edir. Xanlıqların öz müstəqillikləri uğrunda apardıqları mübarizə tarixi isə xüsusilə fərqlənir. Bu mənada Şamaxı xanlığının qonşu xanlıqlarla əlaqələrinin əsas istiqamətlərini nəzərdən keçirdikdə onun da siyasi fəaliyyətininin əsasını öz müstəqilliyini qoruyub saxlamaq uğrunda mübarizə tarixi təşkil edir. N.Dubrovin göstərir ki, xanlıqların bir-birinə münasibəti dəyişkən xarakter daşıyırdı. Bunun isə yeganə səbəbi xanlıqların yarandığı ilk illərdə hər hansı bir ərazi üstündə mənafe toqquşmaları idi [14, IV c, S.13]. Tarixin sonrakı gedişi göstərir ki, bu münasibətlər beynəlxalq şəraitdən də asılı olaraq tez-tez istiqamətini dəyişirdi. Qarabağ xanlığı ilə Şamaxı xanlığının da bir-biri ilə münasibətlərində tez - tez dəyişən məqamlara rast gəlmək mümkündür. Həmin münasibətlər indiyə kimi ayrıca tədqiqat obyekti olmadığı üçün bu problemin araşdırılmasını aktual hesab edirik. P.Butkov xanlıqlararası münasibətlərdən bəhs edərkən Qarabağ xanlığı ilə Şamaxı xanlığının da siyasi əlaqələrinə geniş yer vermişdir. O qeyd edir ki, qarabağlı Pənahəli xan 1749-cu ildə Yeni Şamaxıda hakimiyyətdə olan Hacı Məhəmmədəli xan, şəkili Hacı Çələbi xan və gəncəli Şahverdi xan ilə birlikdə ittifaq bağlayaraq Gürcüstana hücum etmək üçün razılığa gəlirlər. Lakin İrəvan xanının xəbərdarlığı ilə baş verə biləcək hadisəyə qarşı İraklinin hazırlıq görməsi nəticəsində bu ittifaq pozulur [10, II c, s.237]. Qubalı Fətəli xanın Şamaxı xanlığını işğal etmək istəyir Qarabağ xanlığını vadar edir ki, Şamaxı xanlığını müdafiə etsin.

Lakin Qarabağ xanlığının Şamaxı xanlığı barədə öz iddiaları var idi. Bu bir tərəfdən Quba xanının Qarabağ xanlığı üzərinə hücuma keçəcəyi haqqında xəbərlərin geniş yayılması ilə bağlı idisə, digər tərəfdən isə heç şübhəsiz ki, İbrahimxəlil xanın da Azərbaycan torpaqlarını birləşdirmə siyasəti ilə əlaqədar olaraq Şamaxı xanlığına olan marağı ilə bağlı idi. Şamaxı xanlığı Fətəli xanın tabeliyində olan dövrdə (1768-1789- cu illər) İbrahimxəlil xan Şamaxı xanlığını ondan almaq və öz oğlanlarını burada hakim etmək niyyətində idi [11, II hissə, s. 423]. Məhz bu səbəbdən 1773-cü ilin sonlarında öz müttəfiqləri ilə birlikdə Şamaxı xanlığına hücum edən İbrahimxəlil xan tezliklə xanlığın paytaxtı Şamaxı şəhərini mühasirəyə aldı və Fətəli xanın qüvvələri az olduğu üçün şəhər ələ keçirildi. Qeyd edək ki, 1769-cu ildən Qarabağda özünə sığınacaq tapan və gözlərindən məhrum edilən Ağası xan da İbrahimxəlil xan və onun müttəfiqləri ilə bu yürüşdə iştirak edirdi [1, Ш c.,s.422]. Lakin bu ittifaq uzun müddət davam etmir. P.Butkovun məlumatına görə Fətəli xan tərəfindən məğlub edilən və Əlvənddə sığınacaq tapan Ağası xan çox keçmir ki, İbrahimxəlil xan tərəfindən qardaşı Mehrəli bəyin öldürülməsinə cavab olaraq qətlə yetirilir [10, s.27]. A.A.Bakıxanov isə göstərir ki, Fətəli xanın göstərişi ilə 1788-ci ildə Sərkər sülalə üzvlərindən Məhəmmədsəid xan iki oğlu ilə Salyanda, Ağası xan isə iki oğlu ilə birlikdə Bakıda qətlə yetirilir [2, s.198]. Ağası xanın İbrahimxəlil xan tərəfindən yox, Fətəli xan tərəfindən qətlə yetirilməsi İ.Hacınskinin əsərində [3, s.27] də təkrarlanır.

1789-cu ildən 1792-ci ilə kimi Şamaxı xanlığında hakimiyyət uğrunda gedən mübarizədə Mustafa xan qalib gəlir. Mustafa xanın dövründə (1792-1820) Şamaxı xanlığının Quba, Şəki və Lənkəran xanlıqları ilə olduğu kimi Qarabağ xanlığı ilə də münasibətləri təəssüflə etiraf etməliyik ki, çox zaman düşmənçilik xarakteri daşımışdı. İlk dövrdə bu iki xanlıq arasında münasibətlərin kəskinləşməsində şəkili Səlim xan az rol oynamamışdı. Şəkili Məhəmmədhəsən xan tərəfindən hakimiyyətdən uzaqlaşdırılan Səlim xan öz yeznəsi İbrahimxəlil xanı Mustafa xana qarşı müharibəyə təhrik etmişdi [13, 1866, s. 66]. İbrahimxəlil xanın öz qızını Mustafa xana deyil, İran şahı Fətəli şah Qacara verməsi də Mustafa xanı İbrahimxəlil xana düşmən etmişdi [7,1 c, 8 sən. 972, s.683]. Bu iki xanlıq arasındakı münasibətlər İbrahimxəlil xanın Şəkiyə pənah aparan qardaşı oğlu Məhəmməd bəyin Mustafa xan tərəfindən öldürülməsi ilə daha da kəskinləşdi. Bu barədə Mirzə Camal yazırdı: «Mustafa xan İbrahimxəlil xanın qardaşı oğlunu öldürdüyündən yenidən Qarabağ xanı ilə düşmənçiliyə başladı» [4,1 kitab, s. 130].

Qarabağ xanlığının qonşu xanlıqlarla o cümlədən Şamaxı xanlığı ilə münasibətlərində olan gərginlik, hakimiyyət uğrunda mübarizə nəticəsində yaranmış düşmənçilik atributları Ağa Məhəmməd şah Qacarın (1795, 1797-ci illər) və general V.Zubovun başçılığı altında rus qoşunlarının Cənubi Qafqaza, o cümlədən Azərbaycana yürüşü (1796-cı il) zamanı nisbətən ara vermişdi. Belə ki, Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza məlum yürüşə hazırlaşması Rusiyanın hakim dairələrini narahat etməyə başlayır. Bu hücuma mane olmaq üçün

bəzi diplomatik tədbirlər görülsə də, bir nəticə vermir. Qacarın Azərbaycanın Arazdan şimaldakı torpaqlarına və Tiflisə qoşun yeritməsinə cavab olaraq II Yekaterina hökuməti Cənubi Qafqaza hücum etmək haqqında qərar qəbul etdi və A.A.Bakıxanovun təbirincə desək, imperatriçə İran ilə müharibəyə başlayır [2, 207]. O.P.Markova isə göstərir ki, bu yürüşdə əsas məqsəd Xəzərsahili bölgələrdə rus ticarətinin üstünlüyünü qoruyub saxlamaq üçün Ağa Məhəmməd xan Qacarı cəzalandırmaq idi [17, s.191]. Qeyd edək ki, həmin ticarətdə Şamaxı mühüm rol oynadığı üçün Şamaxı xanlığının zəbt edilməsi xüsusilə diqqət mərkəzində idi.

V.Zubov Ağa Məhəmməd xan Qacara qarşı mübarizə aparmaq üçün digər Azərbaycan xanları kimi Şamaxı xanına da müraciət edir. Bu zaman Mustafa xan ilə bərabər İbrahimxəlil xan da V.Zubovun müraciətinə cavab məktubunda şaha qarşı bütün qüvvələrini toplayıb rus qoşunları ilə birləşməyə hazır olduğunu bildirir, XIX əsr rus tarixçisi N.Dubrovin haqlı olaraq yazır ki, V.Zubov xanların «səmimiyyətinə» üzdə inanırdı. Müəllif daha sonra qeyd edir ki, İran qoşunlarının yenidən yaxınlaşması haqqında məlumat alan xanlar bir tərəfdən Ağa Məhəmməd Qacarın dağıdıcı təcavüzündən müdafiə olunmaq üçün tədbirlər görür, digər tərəfdən isə Rusiyanın himayəsinə keçməklə öz siyasi müstəqilliklərinin itiriləcəyi faktı qarşısında qalmışdılar [13. c 174]. Mustafa xan da bu zaman xanlığın rus qoşunları tərəfindən qarət olunmasının qarşısını almaq və hakimiyyətini qoruyub saxlamaq üçün V.Zubova qarşı müttəfiq axtarmışdır.

Zubovun yürüşü ərəfəsində Qarabağ xanlığı ilə Şamaxı xanlığını bir-birinə yaxınlaşdıran da məhz ümumi təcavüzkara qarşı birgə mübarizə aparmaq olmuşdur. Xanlar rus qoşununa birlikdə zərbə vurmaq üçün plan hazırlayır. Plana görə baş komandan qraf V.Zubov öldürülməli idi [10, II c, s.398]. Lakin bu işi həyata keçirərkən Nurəli bəyin ehtiyatsızlığı ucbatından həmin qəsd baş tutmur [17, s. 183-184].

XIX yüzilliyin ilk ilində - 1801-ci ildə Azərbaycanın tarixi torpaqları olan Qazax, Şəmşəddil və Borçalı da daxil olmaqla Şərqi Gürcüstan Rusiyaya qəti olaraq ilhaq edildikdən dərhal sonra Azərbaycanın şimal-qərb torpaqlarının da Rusiya tərəfindən işğalına rəvac verildi [15, c.225]. Bu dəfə Cənubi Qafqazın işğalına həmin işğalın «baş memarı» [6, s.III] hesab edilən general P.D.Sisianov təyin edilmişdir. İşğalın bu mərhələsində yenə də çar məmurları xanlıqlar arasındakı münasibətləri diqqətlə izləyir və həmin münasibətlərdən öz mənafeyi üçün çox məharətlə istifadə etməyi güclü bir vasitə hesab edirdi. Belə ki çar məmurlarından general Lazarevin general Knorringə 1801-ci ilin aprelində yazdığı raportundan məlum olur ki, qarabağlı İbrahimxəlil xan ilə şamaxılı Mustafa xan iltifaq bağlayır və bu zaman şəkili Məhəmmədhəsən xan, qubalı Şeyxəli xan və Qazıqumuq hakimi Xanbutay xan qüvvələrini birləşdirib Mustafa xanın üzərinə hücum edirlər. İbrahimxəlil xan isə 2000 nəfərlik dəstəni oğlunun rəhbərliyi ilə Mustafa xanın köməyinə göndərir [9, III c, s.683].

I rus-İran müharibəsinin gedişində Qarabağ xanlığının çar Rusiyası

tərəfindən işğalından (1805) sonra bu iki xanlıq arasında münasibətlər Sisianovun qızışdırıcı siyasəti ilə gərginləşir. Sisianov Qarabağ və Şəkini işğal etdikdən sonra Mustafa xana müxtəlif hədələyici məktublar göndərir, hətta İbrahimxəlil xana qarşı Mustafa xanın adından müxtəlif iddialar irəli sürür və bununla da xanların birliyinə zərbə vururdu.

Mustafa xan Rusiyaya münasibətində Sisianova yazırdı ki, keçmişdə onun babaları olan Şirvan xanları bütün Azərbaycana hakim idilər, deməli rus komandanı Şəki xanlığını və digər yerləri də Şamaxı xanlığına qaytarmalıdır.

Sisianov isə Mustafa xandan vaxtilə Qarabağdan Şamaxıya keçmiş əhalinin geri qaytarılmasını təkidlə tələb edir. Sisianov 1805-ci il avqustun 15-də növbəti tələblərini göndərir. Həmin tələblərdə yenə də Qarabağdan olan bütün ailələrin geri qaytarılması, həmçinin Cavad ərazisinin Qarabağ xanına qaytarılması öz əksini tapmışdı [8, II c, sənəd 1348, s.664].

Mustafa xan Sisianova yazdığı cavab məktubunda isə yazırdı ki, o sakinlər ki, Qarabağdan keçiblər, geri qayıtmaq istəmirlər. Bir halda ki, Şamaxı da, Qarabağ da İmperiyaya məxsusdur, mən əminəm ki, siz nə məni, nə də o sakinləri bir də narahat etməyəcəksiniz. Cavad ərazisinə gəldikdə isə Cavad heç bir vaxt Qarabağ ərazisinə aid deyildi. Cavad keçidi Şirvanla Muğan arasındadır. Əgər kimsə, Qarabağlı və ya başqa birisi mənə sübut etsə ki, Cavad nə vaxtsa Qarabağa aid olub, onda ixtiyar sizindir [8, II c, sənəd 1349, s.665]. Yeri gəlmişkən qeyd edək ki, Sisianov İbrahimxəlil xana yazırdı ki, Mustafa xanın Cavad adlı torpağın Qarabağ xanlığına verilməsinə qarşı etirazı əsaslıdır [8,II c, sənəd 1349, s. 665].

Tarixi faktlar bir daha göstərir ki, XIX yüzilliyin əvvəllərində nəinki Qarabağ xanlığı ilə Şamaxı xanlığı arasında münasibətlər, digər xanlıqların belə bir-biri ilə siyasi əlaqələri qonşu dövlətlərin, xüsusilə Rusiyanın siyasi maraqlarından asılı olaraq tez-tez dəyişirdi. Xanlar çar Rusiyasının yetirdiyi ikiüzlü siyasətin mahiyyətini başa düşür və bu dövlətə etibar etmirdilər.

Qarabağ xanlığı ilə Şamaxı xanlığının siyasi əlaqələri xanlıqların statusunun ləğv edildiyi dövrə qədər davam etmişdir. 1806-cı ildə İbrahimxəlil xan Dağıstan hakimi Surxay xan, qubalı Hüseynəli xan ilə İran şahzadəsi Abbas Mirzəyə ittifaq məktubu göndərəndə Mustafa xan bu ittifaqda görünmür [5, 1319, s. 293]. Lakin 1806-cı ildə İbrahimxəlil xanın gəncəli Cavad xanın qatili Lisaneviç tərəfindən qətlə yetirilməsindən sonra Mustafa xan çar Rusiyasına qarşı daha barışmaz mövqe tutur, nəticədə özünü Rusiyaya «həmişə sədaqətli» olduğunu göstərən Mustafa xan 1819-cu ildə Abbas Mirzə ilə birləşmək qərarına gələrkən qarabağlı Mehdiqulu xan ilə ittifaq bağlayır [5,s.l67].

Beləliklə, ilkin mənbələrin təhlili göstərir ki, Şamaxı və Qarabağ xanlıqları arasındakı münasibətlər dəyişkən olmuşdur. Bu iki xanlıq arasındakı əlaqələrin fərqləndirici cəhəti odur ki, aralarında ərazi toqquşmalarının olmasına baxmayaraq, xarici düşmənlərə qarşı mübarizə zərurəti müəyyən vaxtlarda onları bir-birinə yaxınlaşdırırdı.

**Ədəbiyyat siyahısı:**
1. Azərbaycan tarixi (VII cilddə) III cild.
2. Bakıxanov A. A. Gülüstani - İrəm. Bakı, 2001.
3. Hacınski İ. Qubalı Fətəli xan. Bakı, 1959.
4. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. // Qarabağnamələr. I kitab.
5. Məhəmməd Təği xan (Mustəfi). «Tarixi-Qacariyye», celd - e. əvvəl, fars dilində Təbriz. 1319.
6. Budak M. Osmanlı-rus ilişkelerində Kafkazisiya// Avrasiya Etüdleri. 1995.
7. АКАК, т. I. g.972 (Рапорт ген.-м. Лазарева ген.-л. Кнорринга от- 7-го апреля 1801 года).
8. АКАК, т. П.
9. АКАК, т. III.
10. Бутков П. Г. Материалы для новой истории Кавказа с 1722 по 1803. СПб, 1869, Т.П.
11. Броневский СБ. Новейшие географические и исторические известия о Кавказе. Москва ,1823, ч. П.
12 Бутков П. Г. Указ. Соч.
1 З.Дубровин Н. Ф. Закавказье от 1803- 1806 года. СПб, 1866.
14. Дубровин Н. Ф. История войны и владычества русских на Кавказе, СПб, 1888,т. IV.
15. История Ирана, М., 1977.
16. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVUI веке. Баку, 1948.
17. Маркова О.П. Россия, Закавказье и международные отношения в XVUI веке. Москва. 1966.

**Nazim Məmmədov**

## ERMƏNİSTANIN AZƏRBAYCANA HƏRBİ TƏCAVÜZÜ VƏ TÜRKİYƏNİN SÜLH STRATEGİYASl

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Sovetinin Sessiyasında «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı» yekdilliklə qəbul edildi [1, 15.12.1991]. Azərbaycan dövlət müstəqilliyini olduqca mürəkkəb beynəlxalq şəraitdə əldə etmişdir. Yeni xammal mənbələri və satış bazarları əldə etmək istəyən super dövlətlərlə Rusiya Federasiyası arasında ciddi mübarizə gedirdi. Bütün bunlar geosiyasi dəyərə, böyük maddi sərvətlərə malik olan Azərbaycanla bağlı münasibətlərdə daha aydın hiss edilirdi. Azərbaycanı zəiflətmək məqsədilə Dağlıq Qarabağ münaqişəsi qızışdırıldı. Ermənistanın Azərbaycana qarşı təcavüzü genişləndi. Türk-müsəlman dünyasına qarşı qanlı erməni terroru geniş miqyas aldı. Mərkəzin diktəsi ilə, məqsədli şəkildə Azərbaycanda hakimiyyəti ələ keçirtmək üçün müxtəlif silahlı

dəstələr yaradıldı. Azərbaycan xalqı müstəqil dövləçiliyini qurmaq, onu inkişaf etdirmək, möhkəmləndirmək və müdafiə etmək yolunda ağır məşəqqətlərlə üzləşdi. Belə bir çətin şəraitdə, yenicə yaradılmış müstəqil Azərbaycan Respublikasını ilk olaraq tanıyan və müdafiyə edən dövlət böyük Türkiyə Respublikası olmuşdur [2, v.129]. Türkiyənin dəstəyi ilə qısa bir müddətdə Azərbaycanı 116 dövlət tanıdı və 14 beynəlxalq təşkilata üzv qəbul olundu [3, v.130].

Azərbaycan Respublikası başqa dövlətlərlə öz münasibətlərini dövlətlərin suveren bərabərliyi əsasında qurdu. Zor işlətməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini əsas götürdü: lakin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün dünya dövlətlərinin təsirli dəstəyini qazanmaq, müharibəni dayandırmaq mümkün olmadı. Rusiya meylli qüvvələr hələ də qalmaqda idi.

1992-ci ildə Azərbaycanda nüfuzunu gücləndirməyə çalışan qüvvələrin mübarizəsi daha da kəskinləşmişdi. Azərbaycanın Türkiyə Respublikası ilə yaxınlaşması Rusiyanı narahat edirdi. 1992-ci il yanvarın 24-də Türkiyə və Azərbaycan Respublikaları arasında danışıqlar zamanı dostluq, əməkdaşlıq və mehriban qonşuluq münasibətləri haqqında müqavilə imzalandı 4, V.126. Belə bir şəraitdə Cənubi Qafqazda nüfuzuna xələl gətirəcəyindən təşvişə düşən Rusiya Azərbaycana təzyiqini artırdı.

Erməni silahlı birləşmələrinin Tərtər, Qazax, Tovuz, Ağdam, Cəbrayıl və Füzuli istiqamətlərində güclü hücumları başladı.

1992-ci ilin əvvəllərində Naxçıvan Muxtar Respublikası blokadaya düşdü. Həmin il martın 22-25-də H.Əliyev Türkiyə Respublikası hökumətinin dəvəti ilə Türkiyəyə səfər edib, qardaş ölkə dövlət başçıları ilə danışıqlar apardı. Türkiyə Naxçıvana 100 min dollar kredit verdi, xeyli ərzaq, əkin üçün toxum, avadanlıq göndərdi [5, s.607]. Az bir müddətdə İqdır-Naxçıvan elektrik xətti çəkildi. Muxtar Respublika Türkiyənin elektrik şəbəkəsinə qoşuldu. Sədərəkdən Türkiyəyə yeni yol çəkildi və qarşılıqlı avtonəqliyyat əlaqələri yaradıldı. «Türksat» rabitə şirkəti Naxçıvanın Bakı ilə telefon əlaqəsini bərpa etdi. 1992-ci ilin martında Türkiyənin ayırdığı xüsusi vəsait hesabına Naxçıvanda yeni hava limanının birinci növbəsi istifadəyə verildi [6.03.1992]. Eyni zamanda əsası 1992-ci ilin əvvəllərində qoyulan 228 metrlik «Sədərək-Dilucu» «Ümid körpüsü» mayın 28-də istifadəyə verildi [7, s.l 1].

Azərbaycan xalqının uzaqgörən siyasi xadimləri ərazi bütövlüyümüzün və müstəqilliyimizin qorunmasında Türkiyənin siyasi dəstəyinə arxalanırdı. 1992-ci il mayın 3-də xalqın böyük məhəbbət bəslədiyi Türkiyə Respublikasının baş bakanı Süleyman Dəmirəl Azərbaycan nümayəndə heyyəti ilə görüşdü. Bakının Azadlıq meydanında Alp-Arslan Türkeşin iştirakı ilə Türk xalqlarının ümumdünya həmrəylik günü izdihamlı mitinqlə qeyd olundu [8.04.1992].

Qarşıdakı prezident seçkilərində H.Əliyevin hakimiyyətə gəlmək şansının

böyük olması barədə proqnozlar, bu geosiyasi məkanda müstəqil güclü dövlətin yaranmasını, Türkiyənin nüfuzunun artmasını istəməyən dövlətləri ciddi narahat edirdi. Cəbhələrdə vəziyyətə əsaslı təsir etmək imkanına malik silahlı dəstələrə arxalanan qüvvələrin çəkişməsinin, xainliyinin növbəti qurbanları Şuşa və Laçın oldu. 1992-ci il mayın 8-də Şuşa, mayın 18-də Laçın erməni, rus və muzdlu silahlı birləşmələri tərəfindən ələ keçirildi [9, 23,01].

Şuşanın işğalı ilə bütün Dağlıq Qarabağın işğalı başa çatdı və Laçının işğalı ilə Dağlıq Qarabağ separatçıları ilə Ermənistan arasında bir-başa əlaqə dəhliz yaratıdı. Erməni faşistləri Naxçıvan istiqamətində hücümunu genişləndirdi, Qanlı döyüşlər 40 gün davara etdi. On minlərlə insanın evi dağıdıldı, yandırıldı, lakin naxçıvanlılar baş komandan H.Əliyevin rəhbərliyi altında qəhramanlıqla vuruşurdular [10, 23,05]. H.Ə.Əliyev yaranmış çətin vəziyyətdən çıxmaq üçün diplomatik vasitələrdən geniş istifadə etdi. 1992-ci il mayın 28-də gecə Türkiyə Nazirlər Kabinetinin fövqaladə toplanışı keçirildi. Azərbaycandakı mövcud vəziyyət müzakirə edildi və bəyanət qəbul olundu. Türkiyə rəhbərlərinin və H.Əliyevin birgə səyləri sayəsində erməni təcavüzkarlarının niyyəti dünya ictimaiyyətinə çatdırıldı. Dünyanın 57 dövləti bu təcavüzü pislədi [11, 28.05.1992]. Bundan sonra NATO xüsusi bəyanat verdi, Rusiya isə geri çəkilməyə məcbur oldu. Türkiyənin baş bakanı Süleyman Dəmirəlin bütün dünyaya çətin vəziyyətdə Azərbaycanı müdafiyə edəcəyi bəyanatını verməsi Rusiyanı qorxuya saldı [12, s.526]. Hətta, MDB Birləşmiş Silahlı Qüvvələrinin, Baş Komandanı marşal Şapaşnikov Türkiyənin Azərbaycanı dəstəkləməsini «üçüncü dünya müharibəsi»nə gətirib çıxara biləcəyini vurğulamışdı [13. s.520]. Türkiyənin Azərbaycana qarşı mövqeyi 1992-ci \\ mayın 24-də Ermənistanı Azərbaycanla danışıqlara vadar etdi. Bölgədə nisbi sabitlik yarandı [14, s.530].

Türkiyənin, Azərbaycanda nüfuzunun artması Qərb dövlətlərini narahat edirdi. ABŞ konqresi 1992-ci il oktyabrın 24-də Azərbaycanı guya Ermənistanı blokadaya salmaqda günahlandırıb «Azadlığa Dəstək Aktı»na Azərbaycana dövlət səviyyəsində hər cür, o cümlədən hümanitar yardım göstərilməsinə sərt məhdudiyyətlər qoyan 907-ci əlavəni qəbul etdi [15,v.l57].

Rusiya Azərbaycanı «cırtdan dövlət»lərə parçalamaq siyasətinə keçdi. Talış, ləzgi separatçılarını qızışdırıb silahlandırdı. «Ləzgistan dövləti», «Talış-Muğan Respublikası», «Bakı Quberniyası» iddialarının yayılmasına imkanlar yaradıldı. Dini missionerlərin Azərbaycanda separatçılıq fəallığı gücləndirildi [16,v.8961]. Gəncə şəhərində qiyam baş verdi. Əlverişli vəziyyətdən istifadə edən erməni hərbi birləşmələri 1993-cü ildə Kəlbəcər, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal etdilər. Azərbaycan torpaqlarının 20 faizi düşmən əlinə keçdi [17. 1996]. İşğal edilmiş ərazilərdə evlər, müəssisələr, kommunikasiya vasitələri, təbii sərvətlər talan edildi, dağıdıldı, yandırıldı [18, s. 153]. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 5 min nəfər əlilə çevrilmiş, qaçqın və köçkünlərin sayı milyon nəfəri keçmişdir.

Erməni işğalçıları tərəfindən 4861 nəfər azərbaycanlı əsir və girov götürülmüşdür [19,1994].

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı H.Əliyevi alternativ əsasda səs çoxluğu ilə respublikanın Prezidenti seçdi. Oktyabrın 10-da andiçmə mərasimindəki nitqində o, dövlət müstəqilliyini möhkəmləndirmək, ərazi bütövlüyünü və tam suverenliyi təmin etmək, əhalinin rifahını yaxşılaşdırmaq vəzifələrini həyata keçirmək üçün dövlət intizamının, qanunçuluğun, hüquq-mühafizə orqanlarının, ordunun möhkəmləndirilməsinə başladı. Dağlıq Qarabağ probleminin sülh yolu ilə aradan qaldırılması, Azərbaycanın dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi, ölkənin dünya birliyində layiqli yer tutması Prezident H.Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xarici siyasətinin ana xəttini təşkil edirdi [20, s.778]. Türkiyə ilə hərtərəfli əməkdaşlıq suveren Azərbaycanın xarici siyasətində əsas yer tutmuşdıı. H.Ə.Əliyevi hakimiyyətə gəldikdən sonra xarici siyasət kursunda Türkiyə Respublikası ilə münasibətlərdə keyfiyyətcə ciddi dəyişikliklər edildi. Türkiyə kimi dost və qardaş ölkə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf müqabili oldu. Türkiyə Ermənistanı təcavüzkar bir dövlət kimi tanımış, Dağlıq Qarabağ məsələsi ədalətlə həll olmayınca onunla heç bir əlaqə saxlamayacağını elan etmişdi. Azərbaycan-Türkiyə münasibətləri həm də dünyada və bölgədə sülhün, əmin-amanlığın bərqərar olması işinə xidmət edirdi [21, 2002]. Təsadüfi deyildir ki, 2001-ci il iyulun 23-də Xəzər dənizinin mübahisəli sularında Azərbaycan gəmilərinə İran təyyarələrinin hücumu cəhdini Türkiyə qəti etirazla qarşıladı. Ankara bütün dünyaya bildirdi ki, «Azərbaycana əl qaldıran qarşısında Türkiyəni görəcəkdir» [22, 1996].

Prezident H.Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini mümkün qədər qan tökmədən, qırğın və dağıntılara yol vermədən, dinc vasitələrlə həll etmək xəttini götürdü. Bu işdə Türkiyənin rolunu xüsusi qeyd etməliyik. Təsadüfi deyildir ki. 1993-2000-ci illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli üçün ABŞ rəhbərliyi ilə 18 dəfə, Fransa ilə 16, Rusiya ilə 28 dəfə görüş keçirilmişdirsə, Türkiyə rəhbərliyi ilə 78 dəfə müzakirə edilmiş və problemin həlli yolları araşdırılmışdır [23, 2001]. Azərbaycanın haqlı mövqeyi Türkiyə tərəfindən həmişə müdafiə edilmiş, problemin sülh yolu ilə həlli üçün yerli və beynəlxalq təşkilatlarda ardıcıl siyasət aparılmışdır.

Bir məsələni xüsusi olaraq qeyd etməliyik ki, ATƏT-in Minsk qrupunun fəaliyyətində, onun keçirilən sammitlərində. BMT, NATO, İKT, Türkdilli dövlət başçılarının sammitlərində Ermənistan -Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dini yolla həlli istiqamətində Türkiyə mühüm rol oynamışdır.

Dağlıq Qarabağ münaqişəsi başlayan ilk gündən Türkiyə Böyük Millət Məclisi (TBMM) məsələyə biganə qalmamış, mütəmadi olaraq problemlə bağlı müzakirələr aparmış, Dünya ictimaiyyətinə Ermənistanın təcavüzkarlıq siyasəti haqqında məlumatlar çatdırmışdır. TBMM 5 mart 1992-ci il iclasında Dağlıq

Qarabağ məsələsi ilə bağlı iki mühüm qərar qəbul etmiş və dünya ictimaiyyətinə çatdırılmasını zəruri saymışdır: 1. Qarabağda törədilən vəhşi soyqırım faktlarına dərhal son qoyulsun, məcburi köçkün düşmüş insanların geri - öz yurd-yuvalarına dönmələrinin təmin edilməsi və bu durumun normal hala gətirilməsi zəruridir; 2. Beş nəfərdən ibarət Komissiya Qarabağa ezam edilsin və bölgədə baş verən hadisələri beynəlxalq qurumlara çatdırsın [24, 1992].

Qarabağ probleminin diplomatik-siyasi yolla həlli Türkiyə xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Bunun üçün Beynəlxalq təşkilatlarda problemin həllinə heç cür diplomatik-siyasi dəstək verilməməsi; erməni təcavüzünün dəf edilməsi istiqamətində Azərbaycana hərbi yardım edilməsi məsələləri irəli sürülmüşdür. Türkiyənin ali rəhbərliyi dəfələrlə bəyan etmişdir ki, nə qədər ki, Ermənistan Türkiyəyə ərazi iddialarından, qondarma «soyqırım» siyasətindən və Azərbaycan torpaqlarının işğalından əl çəkməyib Ankara-Yerevan münasibətlərinin bərpası mümkün olmayacaqdır. Beynəlxalq təzyiqlərə baxmayaraq Türkiyənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminə münasibəti dəyişməz olaraq qalmışdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminə Türkiyənin rəsmi və dəyişməz mövqeyi Türkiyənin nüfuzlu mətbu orqanlarında («Zaman», «Milliyet», «Hürriyet», «Cumhuriyyet», «Yeni Yüzyet», «Sabah» s.), radio və televiziya verilişlərində həmişə müsbət münasibət göstərilmişdir. Bu gün Türkiyə diplomatiyasının Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində gərgin səyləri öz bəhrəsini verməkdədir. Dünya ictimaiyyəti artıq Azərbaycan həqiqətlərinə daha çox yaxındır. Azərbaycana Türkiyənin birmənalı mövqeyi dövlətimizin sürətlə Avro-atlantika məkanına inteqrasiya olunmasına şərait yaratmışdır. İşğalçı Ermənistan isə daha çox dünya birliyindən, dünyada və bölgədə gedən inteqrasiya proseslərindən kənarda qalmaqdadır.

İ.Əliyevin xarici siyasət sahəsində fəaliyyətinin əsas istiqamətlərindən birini «Dağlıq Qarabağ problemi»nin sülh yolu ilə həll edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda mübarizə təşkil edir. İ.Əliyev çıxışlarında dəfələrlə bəyan etmişdir ki, «Azərbaycan dövləti və xalqı Dağlıq Qarabağ məsələsinin ədalətlə, sülh yolu ilə həll edilməsinin tərəfdarıdır. Lakin sülh imkanlarının tükənməsi Azərbaycanı silahlı yolla torpaqlarını azad etmək hüquqlarından istifadə etmək məcburiyyətində qoya bilər. Güclü orduya malik Azərbaycan dövləti buna qadirdir. Biz heç vaxt imkan verə bilmərik ki, Azərbaycan ərazisində ikinci bir Ermənistan dövləti yaransın [24, 2007]. Bu gün heç bir Azərbaycan vətəndaşı inanmır ki, çətin günümüzdə həmişə bizə arxa olan, təhlükəli anlarımızda var gücü ilə bizi dəstəkləyən Böyük Türkiyə dövləti Azərbaycanın ərazi bütövlüyün tam bərpa olunmayanadək Ermənistanla sərhədlərini açacaqdır! Nicatımız birlikdədir».

**İstifadə olunmuş mənbələr:**
1.«Həyat» qəzeti, 15 dekabr 1991-ci il.
2. AMEA TİEA. f.l, s. 19. i. 8953, v. 129.
3. AMEA TİEA. f.l,s. 19, i. 8953. v. 130.
4. AMEA TİEA, f.l, s. 19, i. 8953, v. 126.
5. «Qayıdış», 1990-1993. Sənədlər Toplusu. Bakı, 1996. s. 607.
6. «Həyat» qəzeti, 3 мart 1992-ci il.
7. Naxçıvan MR, 1969-1999. Naxçıvan, 1999, s. 11.
8. «Azadlıq» qəzeti. 4 мay 1992-ci il.
9. «Azərbaycan» qəzeti, 23 yanvar 1992-ci il.
10. «Şərq qapısı» qəzeti 23 мay 1992-ci il.
11. «Şərq qapısı» qəzeti 28 мay 1992-ci il.
12. «Qayıdış», 1990-1993, s. 526.
13. «Qayıdış», 1990-1993, s. 520.
14. «Qayıdış», 1990-1993, s. 530. 548.
15. AMEA TİEA, f.l, s. 19. i. 8953, v. 157.
16. AMEATİEA,f.l,s. 19, i. 8961. v. 129.
17. «Müxalifət» qəzeıi, 31 iyul 1996-cı il.
18. Dağlıq Qarabağ hadisələrinin xronikası/( 1998-1999). Bakı. 2005. s.153.
19. «Azərbaycan» qəzeti, 10 мay 1994-cü il.
20. «Qayıdış», 1990-1993, s. 778.
21. «Respubika» qəzeti, 10.05.2002-ci il.
22. «Yeni düşüncə» qəzeti (Aпкaгa), 31 iyul 1996-cı il.
23. «Respublika» qəzeti. 24 fevral 2001-ci il.
24. TBMM Tunaк Dergisi. Dönem 19.cilt 4. Yaşama yılı 1 - Ankara, 1992, s. 657, iclas 05.03.1992.
25. «Azərbaycan» qəzeti, 11 yanvar 2007-ci il.

**Novruz Novruzbəyli**

## QARABAĞ MÜNAQİŞƏSİNƏ MÜASİR DÜNYA SİYASƏTİ KONTEKSTİNDƏ BAXIŞ

"Qarabağın taleyi necə olacaq?" - bunu hələ heç kim dəqiq bilmir. Münaqişənin gündəmə gətirilməsindən 21 il ötür, lakin tərəflərdən heç biri aydın bir mövqe nümayiş etdirə bilmir(?!) Səbəb isə yanaşma aspektindən asılı olaraq sadə və mürəkkəbdir. Münaqişənin sadə düşüncə tərzi ondan ibarətdir ki, suni "Dağlıq Qarabağ" adı altında olan ərazilər də daxil olmaqla Qarabağın Azərbaycana məxsusluğu münaqişənin həll edilməsinə qarışan dövlətlərin hamısına məlumdur. Münaqişə üzərində mürəkkəb düşüncə tərzi isə onu ehtiva edir ki, işğala məruz qalan Azərbaycandan və onu reallıq baxımından dəstəkləyən qardaş Türkiyədən başqa digər dövlətlər tarixi həqiqətləri saxtalaşdıraraq və

özlərinin çirkin siyasətlərini yeritmək üçün əsası olmayan suni, qeyri-elmi tarixi həll prosedurasını irəli sürüb ədalətsizliyə ədalətlilik donu geyindirərək haqqı boğmağa çalışırlar. Nəticə isə göz qabağındadır: 1994-cü ildən başlayaraq (guya) aparılan "sülh yolu ilə həll" danışıqlarının heç bir nəticəsi yoxdur və bu yaxın zamanlar üçün də nə isə bir sonluq gözlənilmir. Nəticəsi görünməyən danışıqların mühüm xarakteristikası isə ondan ibarətdir ki, münaqişə artıq Qafqaz uğrunda hökmran güclərin apardığı siyasi mübarizənin kulminasiya nöqtəsinə yüksəlib. Mübarizənin məqsədlərinə aşağıdakı məsələlər daxildir:

-Regionun təbii sərvətlərinə nəzarəti tam ələ keçirməklə dünyadakı nüfuzunu artırmaq.

-Rusiya üçün Qafqazda hökmranlığını bərpa etməklə malik olduğu imperiyanın ömrünü uzatmaq və dünya siyasətinə təsir gücünü saxlamaq, Qərb üçün Qafqazı nüfuz dairəsinə salmaqla Rusiyanı nisbətən zəiflətmək və Asiyada hökmranlığını artırmaq.

Region üzərində siyasi çarpışmalar get-gedə güclənir. Hər iki tərəf üçün qarşıya qoyulan məqsəd dövlət strategiyasının xarici siyasət istiqamətində prioritet məsələsinə çevrilib. Moskva əlində olan bütün iqtisadi, siyasi, mənəvi və "zor" üsullarından istifadə edərək münaqişənin dominantı statusunu saxlamağa çalışır. Kreml siyasətçilərinə tam aydındır ki, Rusiya Qafqazı itirməklə federasiya subyektlərinin müstəqillik tələblərindən yaxasını kənara çəkə bilməyəcəkdir. Ancaq rus siyasətçiləri özlərinin ənənəvi "mujik" anlayışlarından hələ də qurtulmayıblar. Sivil və bərabərhüquqluluq əsasında siyasət yeritmək əvəzinə siyasi "məcburetmə"nin tətbiqi qonşu dövlətlərin bu ölkədən virtual uzaqlaşmasının əsas mənbəyidir.

Qərb siyasətçilərinin mövqeyində isə ümumi olan bir məsələ var: hər necə olur-olsun Qarabağ münaqişəsinin həlli ermələri təmin etsin. Ermənilərin arzusu isə qətidir: Qarabağ onların olmalıdır. Lakin Qərbin taktikasında ciddi qüsurlar olduğundan "qaş düzəltdiyi yerdə vurub gözünü tökür" məsəlinin nəticəsindən uzağa gedə bilmir. Çünki, "Qərb" anlayışının özü iki komponentdən-Amerika Birləşmiş Ştatları və Avropa Birliyindən ibarətdir. Bu iki gücün məqsədcə strateji ümumiliyinin daxili nüansları kifayət qədərdir. Bu isə ilk növbədə özünü Amerika-Rusiya və Avropa-Rusiya münasibətlərinin xarakterində göstərir. ABŞ münasbətləri daha çox siyasi ambisiyalar mövqeyindən qurursa, Avropa üstünlüyü iqtisadi maraqlara verir və həm Amerikanın, həm də Rusiyanın mövqeyində özünə dayaq nöqtələri axtarır.Elə bu cəhət Avropanın siyasətində ikili standartlara "yaşıl işıq" yandırır.

Qarabağ münaqişəsinin həllinə qatılan siyasi qütblərin belə mövqeləri fonunda Türk dünyasının mühüm atributuna çevrilmiş bu düyünə dünyadakı mövcud iqtisadi durumun kəskinləşməsi də ciddi təsir edir. Dünya iqtisadiyyatında yanacağa, konkret olaraq neft və qaza olau tələbatın artması siyasi nüfuz uğrunda mübarizəni daha da kəskinləşdirib. Zəngin yanacaq ehtiyatlarının iri ixracatçısı

olan Rusiyanın bu əsasda ambisiyaları xeyli arlıb və bu amil onun xarici siyasətinin üzvi hissəsinə çevrilib. Lakin Qafqazdan keçən alternativ yanacaq marşrutu Kremlin yolunun üstündə ən ciddi maniədir. Qarabağ münaqişəsinin həllində düyünün əsas halqası da bu nöqtədə yerləşir. Çünki:

1. Alternativ marşrutun başlıca ərazisi Azərbaycan sahəsidir.
2. Azərbaycan bu amili işğal altında olan torpaqlarının azad edilməsi ilə bağlayır.
3. Münaqişənin dominantı olan Rusiya Azərbaycanın tələbini yerinə yetirə bilmir, çünki belə olan təqdirdə Ermənistanın Rusiya forpostluğunu Qərb forpostluğuna dəyişməsi üçün real zəmin yaranır ki, bu da onun strateji maraqları ilə kəskin ziddiyyət təşkil edir.
4. Qərb alternativ xəttə üstünlük verməklə 3 məqsədə nail olmaq istəyir: 1) Yanacağa olan tələbatını ödəmək; 2)Rusiyanın asılılığından qurtulmaq; 3)Azərbaycanı Rusiyanın bütünlüklə işğalından qorumaqla əslində Qafqazda öz yerini möhkəmləndirmək;

Dünya iqtisadi və siyasi güclərinin Qarabağ münaqişəsi ətrafında qurduqları konsepsiyanın ümumi mənzərəsi bu cür görünür. Məsələ burasındadır ki, münaqişənin real (zərərçəkən) tərəfi olan və real (işğalçı) tərəfi rolunda çıxış edən Ermənistan danışıqlar prosesində ikinci dərəcəli mövqedə qalıblar. Əslində BMT və əksər dövlətlər, o cümlədən Avropa Birliyi tərəfindən işğalçı qismində tanınan Ermənistana hadisələrin bu cür cərəyan etməsi sərf edir. Ermənilər dövlətçilikdən və müstəqillikdən çox uzaq, əlaltı bir qurum olduqlarını yaxşı anlayırlar. Bu hüquqsuzluğun təsəllisini isə, görünür ki, hər cür çirkin metoddan istifadə edib Qarabağı erməni torpağı kimi təsbit etməkdə görürlər.

İşğala məruz qalan və danışıqlar dövründə daim iri dövlətlərin məngənəsində sıxılan Azərbaycanın vəziyyəti daha gərgindir. Sülh danışıqları adı altında indiyə qədər yalançı vədlərlə ovundurulan Azərbaycanın səbri daha tükənmək üzrədir. Bu göstərici Azərbaycan iqtidarı tərəfindən Minsk qrupunun və onun həmsədrlərinin ünvanına səslənən narazılıqlarda öz əksini tapıb. Narazılığı yaradan motivlər kifayət qədər güclüdür və tarixi sənədlərdə təsbit olunduğundan heç cür təkzib edilə bilməz. Bunlar hansılardır:

Ermənistanın Azərbaycan torpağını ilhaq etməsinin əksər dövlətlər tərəfindən təsdiq olunmasına baxmayaraq, işğalçı dövlətə heç bir sanksiyanın tətbiq edilməməsi;

Hər hansı münaqişə ocağının ləğvi üçün heç bir hüquqi bazaya və statusa malik olmayan Avropa Şurasının məsələnin hüquqi statusa malik Birləşmiş Millətlər Təşkilatı çərçivəsində həllinə mane olması;

"Minsk qrupu" adlanan yararsız qrupun ABŞ, Fransa və Rusiyadan olan həmsədrlərinin elmə indiyədək məlum olan mühakimə tərzlərindən nə məntiq nəzəriyyəsinə, nə nisbilik, nə də qeyri-səlis məntiq və hətta ikiqat qeyri-səlis məntiq nəzəriyyəsinə sığan "ərazi bütövlüyünün qorunması və millətlərin öz

müqəddəratını təyinetmə hüququ" kimi cəfəng formul üzərində israr etməsi və s.;

Məhz, məsələyə ədalətsiz yanaşmadan doğan bu motivlər həm də Azərbaycana edilən təzyiqləri sübut edir. İndiyə qədər bütün geriləmələr nəzərə alınmaqla bu təzyiqlərə davam gətirməsi Azərbaycan iqtidarının tərəflər arasında balanslı xarici siyasət yeritməsi nəticəsində mümkün olmuşdur. Lakin həmsədrlərin sevə-sevə əzbərlədikləri "sülh danışıqları"nın luniti artıq tükənib. Çünki, kartlar açılıb, niyyət və məqsədlər açıq-aydın Azərbaycanın ziddinədir. Üstəlik, ədalət naminə Azərbaycanın yanında olan Türkiyə Respublikasının ondan uzaqlaşdırılması üçün real addımlar atılır, Ermənistanla sərhədləri açmaq üçün Türkiyəyə təzyiqlər olunur, şərtlər irəli sürülür. Hətta Avropa Birliyi adından Fransa Qarabağ və sərhəd açılması məsələlərinin bir-birindən ayrılması iddiasında bulunur. Yenə də həmin ölkədən həmsədr vəzifəsini yerinə yetirən Bernar Fasyenin bu münaqişəni 60 ildən çox uzanmış Yaxın Şərq problemi ilə müqayisə etməsi və "bu münaqişənin Fələstin-İsrail münaqişəsindən daha tez həll olunmasını arzuladığını" bildirməsi göstərir ki, regionda strateji maraq güdən dövlətlər də sülh danışıqlarının absurdluğunun tam aşkarlanması səbəbindən hadisələrin onların nəzarətindən çıxa biləcəyi sarıdan ciddi narahatlıq keçirirlər.

Münaqişənin tarixində elə bir məqam yaranıb ki, artıq onun həllinin labüdlüyü ortaya çıxıb. Ancaq bunun üçün ilk növbədə münaqişə tərəfləri yox, onun həllinə qoşulanlardan hansı tərəfsə həm ambisiyalarından, həm də strateji hesab etdiyi mövqedən geri çəkilməlidir. Yəni, ya Qərb, ya da Rusiya öz strategiyasında və mövqeyində düzəlişlər etməyə məcburdur. Tarix çoxdan sübut edib ki, belə məqamlarda mövqelər özxoşuna əldən verilmir. Yaranmış situasiyada nəzərəçarpan cəhət odur ki, bir sıra ölkələr (məsələn, Almaniya, İKT ölkələri və s.) Azərbaycanın haqlı olmasını müxtəlif səviyyələrdə rəsmi şəkildə etiraf edirlər. Bu səbəbdən hazırkı yaranmış şərait Azərbaycanın da yeni taktiki varianta keçməsi üçün müvafiq siyasi stimul yaradır. Yeni variant dedikdə siyasi zor və münaqişənin yeganə aksiom həll şərti kimi müharibə nəzərdə tutulur. Əslində "siyasi zor" müharibənin debütü anlayışına gəlir. Yəni, Azərbaycan öz haqqını qorumaq baxımından qətiyyətliliyini təzyiq müstəvisinə qədər yüksəltməli və açıq surətdə iqtisadi (neft və müqavilələri) və siyasi ( beynəlxalq mövqe) təhdidlərdən yararlanmalıdır. Əks halda özü belə təhdidlərə məruz qalacaqdır.

Neçə illərdir ictimaiyyət tərəfindən gözlənilən "Qarabağ Konsepsiyası" da yaranmış hazırkı vəziyyətdə son dərəcə aktual sərtəd ola bilər. Yəni, Azərbaycan bir dövlət kimi bu məsələ üzrə məqsəd və şərtlərini açıq və yekun olaraq bildirməklə öz nüfuzunu artırar, həm də münaqişə üzərində tarixi və mənəvi dominantlığa yeganə haqqı olan ölkə olduğunu əlaqədar tərəflərin nəzərinə qəti şəkildə çatdırmış olar. Çünki, nəticə verəcək addımların atılması vaxtı gəlib çatıb, sonra birdəfəlik gec olar.

**Rafiq Səfərov**

# О ЮГО-ЗАПАДНОЙ ГРАНИЦЕ СЮНИКА

Государство Албания, охватывавшее географический регион под тем же названием, имело с конца IV в. до н. э. по VIII в. н. э. наибольшую территорию и на протяжении всей своей этнополитическои истории занимало до 2/3 всего Закавказья.

В современной науке существуют различные взгляды, порой кардинально противоположные, по вопросу о юго-западной границе исторической Албании в период образования ее государства. Проблема упирается в территориальный состав албанской области Сюник, лежащей между Албанией, Атропатеной и будущей Арменией.

Один из географических районов на севере Мидии (или Малой Мидии / Атропатены) еще в начале I тыс. до н. э. у ассирийцев назывался «Сангибуту» или «Бит-Санги (Бит-Сакки)». Его локализация охватывала район между озером Урмия и рекой Араксом, с востока и запада ограниченная Карадагским и Загросским хребтами - территория вокруг современных городов Маранд-Хой-Котур-Маку. Сангибуту в начале I тыс. до н. э. представлял мелкую политическую единицу. Начиная с IX по конец VIII в. эта провинция прочно входила в состав Урарту[1].

На противоположной стороне Аракса лежали албанские земли, смежные Сангибуту и известные нам как Зангезур, Нахчыван, Иреван и Гёйча. Область между Араксом и озером Гёйча, смежную Сангибуту и охватывающую именно эти провинции (расположенные по левобережью Аракса), в раннесредневековых источниках называют Сюником / Сисаканом.

О происхождении названия Сюник / Сисакан имеются различные точки зрения. Согласно одной из них название Сюник, точнее Сисакан имеет этническое происхождение. Имя Сисакан, как называли эту область персы, может быть связано с этнонимом саков. Двойные названия в большинстве случаев имеют отдельное происхождение. Как отмечает Н. Адонц, форма Сюник была древнее Сисакана, который в армянской литературе также выступает позже Сюника[2]. Некоторые исследователи выдвигают версию о происхождении термина Сюник от топонима Сангибуту / Бит-Санги. С лингвистической точки зрения вполне вероятно, что местная основа Sangi- могла преобразоваться в армянскую форму Süni-k. Согласно этой точке зрения в области Сюник древняя основа Sangi- отложилась в форме Zangi(-e) в названии реки Занги в провинции Иреван, в названиях махала, затем уезда, а также хребта Занге(зур). В том же уезде недалеко от Аракса находится Занге(лан) - современный райцентр Азербайджана. Символично и то, что эти древнеазербайджанские топонимы отложились на противоположных

окраинах Сюника, как бы очерчивая с востока и запада его исторические пределы. На территории исторического Сангибуту форма Zangi(-e) также отложилась в старом названии реки Маку - Занге(мар), впадающей в Араке напротив Нахчывана.

Сюник на протяжении всей истории оставался связующим мостом между Албанией и Атропатеной, олицетворяя этническое, культурное и политическое родство и преемственность этих стран, некогда разобщенных нашествием арийских / иранских племен, но позднее окончательно слившихся в единое целое - Азербайджан.

Географическое расположение юго-западной границы Албании и северо-западной границы Атропатены в значительной мере выясняется путем уточнения территориальных пределов Сюника. Одним из основных источников в этом вопросе является «География» - «Аш-харацуйц» армянского автора VII в. Анании Ширакаци. Несмотря на предвзятое и тенденциозное освещение вопросов политической географии Армении и Албании, этот труд в историко-географическом отношении представляет большую ценность для решения поставленной нами задачи. Как отмечают армянские исследователи «Географии», на протяжении веков переписчики подвергали первоначальный текст значительным изменениям - вносили сокращения, интерполяции, заменяли древние географические названия новыми, допускали искажения и т, п.

Описание Армении, Албании, других соседних стран в «Географии» и карты, составленные по ее данным, носят условный характер и значение их в том, что они отражают областные, провинциальные я окружные границы, очерченные согласно естественно-географическим рубежам. Современные издатели Анании Ширакаци полагают, что описание «Географии» отражает период Аршакидской Армении. Автор же карты «Великой Армении» С. Еремян, составивший ее на современной картографической основе по данным «Армянской Географии», напротив, предпочтительным считает период конца VT-первой половины VU в., т. е. после последнего раздела Армении в 591 г. между Византией и Персией[4]. Свое мнение Еремян обосновывает тем, что Армения в VI в. делилась на 15 провинций / нахангов, что в корне не верно. Его карта представляет идеалистический взгляд автора на «Великую Армению» и входит в полное противоречие с исторической действительностью. Постепенная эволюция субъективного подхода С.Еремяна привела его к фальсификациям и вымыслам.

Армянские исследователи полагают, что в основу административно-политического деления каждой страны, в том числе Армении, Ширакаци положил естественно-географический ландшафт и этнические границы, т. е. территории политико-административных единиц - махалов, провинций и областей соответствовали естественно-географическим рубежам. Таково же

мнения придерживается Ф. Мамедова. Возможно, этот принцип применялся к большинству областей Армении, но, например, к Васпуракану, Айрарату, албанской области Сюник, как и к другим неармянским областям, он имеет только частичное отношение. Достаточно бросить взгляд на карту Еремяна, чтобы осознать всю невероятность и искусственность южных и западных границ Сюника. Положенное на карту историко-географическое описание Армении у Ширакаци сочетает несколько разных периодов и поэтому не отражает историческую реальность. Так, границы между областями Васпуракан, Айрарат и Сюник оформились после византийско-персидского договора 591 г. и прежде выглядели по-иному. Серьезные сомнения вызывает и локализация некоторых гаваров Айрарата на территории Сюника[5]. Известно, что в разные исторические периоды территориальные пределы Армении были различны. Очевидно, что Ширакаци к использованным источникам добавлял еще и свое субъективное видение в описании несуществующей в его время «Великой / Большой Армении».

В «Армянской географии VII в.» приводится список 12 махалов (гаваров / кантонов / округов) области Сюник. Тот же перечень махалов, заимствованный у безымянного автора «Географии», приводит албанский писатель Степаннос Орбелян из Сюника, но с добавлением Гохтана (Ордубад и низменная часть Эринджака / Алинджы). К каждому махалу прилагается список деревень и монастырей. Согласно «Географии» и карте Еремяна Сюник охватывает полностью Зангезур, верхнюю, горную часть Нахчывана и основную часть Гёйчи (без верхнего течения Занги).

Низменные районы Нахчывана показаны в составе области Васпуракан, провинция Иреван и часть Гёйчи - в Айрарате. Такое деление совершенно не соответствует естественно-географическому принципу, лежащему в основе формирования локальных и областных границ. Во-первых, эти провинции заключают низменные и горные районы и представляют историко-географические и хозяйственно-экономические целостности, связанные целым комплексом жизнеобеспечивающих факторов. В урартский, албанский, персидский и последующие периоды правления областные и провинциальные границы не имели того вида, какими они показаны в «Армянской географии» (см. ниже). Во-вторых, особенности географии Сюникской области таковы, что удобная сухопутная связь Зангезура и Нахчывана с Гёйчей возможна только через территорию Иревана. Причисление Нахчывана и Гохтана к Васлуракану следует объяснить, очевидно, тем, что автор «Географии» неодинаково хорошо знал описываемые местности; центральные области изображаются несравненно обстоятельнее, чем окраинные. Согласно васпураканскому историку Фоме Арцруни (IX в.) два махала - Нахчыван и Гохтан в VII в. отпали от Васпуракана[6]. Прежде эти два махала являлись частью Сюника вплоть до

очередной византийско-иранской войны. По договору 591 г. большая часть персидской Армении отошла к Византии. Васпура-кан также лишился части своей территории. В связи с этим персы внесли административно-территориальные изменения, передав Нахчыван и Гохтан в состав Васпуракана. Надо полагать в VII в. с началом независимого правления Михранов в Албании (630 г.) эти два махала вернулись в состав Сюника. Степаннос Орбелян указывает на наличие Гохтана в составе области и Нахчывана как центра Сюника.

«Армянская География» причисляет к области Айрарат албанскую территорию от реки Западный Арпачай до Шарура в составе 9 махалов. По этому поводу Н. Адонц отмечает, что многие из этих подразделений Айрарата не упоминаются в древних источниках до «Географии». Как могли вообще упоминаться несуществующие махалы, да еще в составе Айрарата, если указанная территория принадлежала Сюнику. Однако Адонц, приводя натянутые соображения, пытается географически сдвинуть Айрарат на восток, утверждая, что армянские источники до «Географии» понимают под Айраратом преимущественно восточную половину позднего Айрарата, начиная с долины реки Ахурян до Шарурской равнины. В этом он не составляет исключения в ряду авторов, следующих установившейся в армянской историографии традиции сдвигать, перемещать армянскую географию и историю вопреки истине на территорию Русской / Советской Армении, созданной в начале XX в. на азербайджанской земле. С переносом в XV в. одного из католикосских престолов армян в Учкильсу / Эчмиадзин близ азербайджанского города Иревана среди армянских церковников, писателей и их покровителей начинается процесс постепенного переосмысления географического расположения восточных и северных окраин Армении и их приобщения к азербайджанским землям. Как известно, в XVI в. все районы проживания армян отошли от Азербайджанского государства к владениям Османской империи. Армянская история последующих трех веков ничем примечательным не отмечена. Этот народ продолжал мирно и спокойно процветать, прибирая к рукам значительные сферы экономики, занимать высокие места в политической иерархии страны. Армянские авторы XIX и особенно XX в. вслед за процессом полной ассимиляции азербайджанских албан-григориан начали выдавать их историю за свою. Переселение сотен тысяч армян на Южный Кавказ стимулировало армянских авторов на попытки создания идеологически и исторически обоснованного права на вновь приобретенные земли.

Эчмиадзинекая церковь проводила и проводит определенную работу в угоду армянским чаяниям о создании новой родины на азербайджанской земле. С давних пор существуют сомнения о сохранности первоначального текста древнеармяиских источников, а также источников соседних народов,

переложенных на армянский язык, которые могли подвергаться целенаправленным искажениям (сокращениям или интерполяциям) ради исторического обоснования армянских притязаний на земли соседних народов. Возьмем хотя бы «Историю Албан» Моисея Каланкатуйского, которая не дошла до нас в первоначальном ее виде по вине переписчиков-переводчиков из армянских чернецов, по указанию армянских католикосов допускавших при переписке умышленные искажения в тексте .

Сюник одна из самых гористых областей Албании, и вся административная география ее сопряжена с фактором взаимосвязи вершины и низины долин горных рек. Отсюда следует, что указанные в «Армянской Географии» административные границы Сюника вступают в противоречие с естественно-географическим ландшафтом и не соответствуют элементарной географической логике. Очевидно, что, попытка армянских исследователей прикрыть всю несуразность административного членения Сюника на основе естественно-географического ландшафта сходит на нет благодаря именно ландшафтным условиям той местности. Таким образом, согласно географическим и историческим реалиям областные границы Сюника тянулись вдоль Аракса и Занги, охватывая полностью провинции Нахчыван, Иреван и Гёйчу[9].

Провинции, составляющие Сюник, также распадаются на мелкие административные единицы сообразно ландшафтным условиям, обуславливающим границы даже на локальном уровне. Направление горных хребтов и расположение русел рек играет основополагающую роль в членении провинций на районы. Рельеф местности в Зангезур-ской провинции таков, что делит ее на три определенных района: 1) верхняя долина реки Хакяри; 2) верхняя долина реки Базарчая / Воротана, и 3) между Барпошадским хребтом и Араксом.

Нахчыванская провинция соответственно тем же факторам разделяется также на три района: 1) между Зангезурским и Дарвагским хребтами; 2) бассейн реки Нахчыванчая, и 3) бассейн реки Восточного Арпачая.

Иреванская провинция включает ряд районов, число которых варьирует в отдельные исторические периоды: 1) бассейн озера Гёйчи; 2) Иреван - от Гезалдаринского хребта до реки Занги; 3) от реки Занги до горы Алагяз и нижнего течения Западного Арпачая. В зависимости от политической географии она довольно длительный исторический период занимала еще два географических района: 4) от восточной части хребта Агрыдаг до Аракса, и 5) правобережье нижней долины Западного Арпачая. Таково вкратце историко-географическое районирование Сюника и восточных пределов Этиуни.

Теперь, когда мы определились с географией региона, рассмотрим юго-западную границу Албании в античный период. В раннесредне-вековых

источниках, как армянских, так и албанских, об этом периоде имеются сообщения, свидетельствующие о том, что южная граница Албании в I в н. э. проходила по Араксу (Моисей Каланкатуйский; Мовсес Хоренаци). Из труда албанского историка Моисея Каланка-туйского мы узнаем, что до VII-VIII вв. пределы Албании сохранялись без изменения. Географически Сюник являлся периферийной албанской областью. В этнокультурном и политическом отношении он был связан с Албанией и Атроиатеной, население состояло из албан, еще в VIII в. говорившее на своем исконном сюнийском языке, и частью из мидян-атропатенцев (особенно в районе Нахчывана и Иревана). Временами Сюник был самостоятельным от Албании, но в отдельные периоды обострения персидско-византийских отношений под давлением персов находился в политических и церковных связях с персидской Арменией (IV в.)[10], как впрочем, и другие соседние страны. В церковно-иерархическом отношении Сюник подчинялся албанским католикосам и, например, в 500 г. составлял Сюникскую епархию исторической Албании.

Как было отмечено, при описании Армении Ширакаци брал за основу административное деление периода I-IV вв. Следовательно, пределы Сюника с некоторыми уточнениями также относятся к этому периоду. Принадлежность махала Гохтан в I-II вв. Сюнику однозначно вытекает из сообщения Степанноса Орбеляна в связи с проповедью христианства апостолом Варфоломеем в этой области. Из данных источников следует, что Нахчыван и Гохтан в I-VI вв. (до 591 г.) и в дальнейшем с конца первой трети VII в. составляли неотъемлемую часть Сюника.

Сопоставляя и анализируя различные источники и на основании сделанных выводов можно прийти к следующим заключениям: I) Зангезур, Нахчыван, Гёйча и Иреван составляли земли Сюника в I в. н. э.; 2) В том же веке Сюник входил в состав Албании, и южная граница пролегала по Араксу; 3) Поскольку государство Албания образовалось в последней четверти IV в. до н. э., а соседняя ей с запада Армения только в 189 г. до н. э. после выхода из под Селевкидского господства, то данные о территориальном составе Сюникской области и южной границе Албании, относящиеся к 1 в. до н. э.-Т в. н. э., без сомнения можно экстраполировать на конец IV в. до н. э.

Южная граница Албании по Араксу в последней четверти IV в. до н. э. заканчивалась в районе устья реки Западный Арпачай, и, поворачивая на север, шла через гору Алагяз, охватывала провинцию Лори в бассейне реки Борчалы / Дебед и выходила к Хунаракерту на Куре[11]. Примерно такой вид имела юго-западная граница Албании в последней четверти IV в. до н. э., что подтверждается и другими исследованиями[12]. Иреванская провинция, составлявшая восточную половину Этиуни, отошла к государству Кавказской Албании, тогда занимавшей большую часть Закавказья. Очерченные пределы были рубежом между исторической Албанией и Этиуни.

**Примечания**

1.Дьяконов И. М. История Мидии: от древнейших времен до конча IV века до н. э. М.; Л., 1956. С. 87, 89; Алиев, Играр. История Мини. Баку, 1960. С, 40.

2.Адонц Н. Армения в эпоху Юстиниана. СПб, 1908. С. 421-423.

3.Армянская География VII века по Р. X. (Приписывавшаяся Мои сею Хоренскому) / Пер. с присовокуплением карт и объяснительных прим. издал К. П. Патканов. СПБ., 1877. С, III-XXVIII; Патканов К. П. Из нового списка Географии, приписываемой Моисею Хоренскому // ЖМНП. Ч. 226. 1883. С. 22-33.

4.Еремян С. Т. Армения по «Ашхарацуйцу» - Армянской географии VII в. (Опыт реконструкции на современной картографической основе). Ереван, 1963. С. 24-26 (на арм. яз.).

5.Армянский автор XV в. Ф. Мецопский сообщает: «Тимур пришел в страну Араратскую в Карби в области Котайка». (Мецопский, Фома. История Тимур-Ланка и его преемников. Баку, 1957. С. 58). По расположению Карби западнее реки Занги следует признать, что и махал Котайк располагался там же в отличие от его локализации Еремяном на восточном берегу реки.

6.Адонц Н. Указ. соч. С. 315, 318-319.

7.Там же. С. 302.

8.Тер-Григорян Т. И. Борьба Арцаха с арабскими захватчиками в IX в. Баку, 1942. С. 4; Буниятов 3. М. Азербайджан в VU-IX веках. Баку, 1965. С. 97.

9.Вопрос о западной границе албанской области Сюник, пролегающей вдоль долины реки Занги в Иреванской провинции, впервые рассмотрен мною в работе: Сафаров Р. Ф. Докладная записка об изменении этнического состава населения Иреванской губернии и Армянской ССР в XIX - XX веках (передана в Дирекцию Института археологии и этнографии НАН Азербайджана 18/08/1989 г.).

Ю.Подробно см.: Мамедова Ф. С. Политическая история и историческая география Кавказской Албании (UI в. до н. э.-VIII в. н. э.). Баку, 1986. С. 106-115.

11. Провинции Лори, Памбак, Ташир, позднее именуемые Борчалы и Сомхетия, охватывавшие весь бассейн реки Храми, составляли часть исторической Албании. См.: Алекперов А. К. У айрумов / Известия ООИА. 1927. № 5. С. 230-258; переиздана в кн.: Алекперов А. К. Исследования по археологии и этнографии Азербайджана. Баку, 1960. С. 88-90.

12.Иеромонах Алексий (Никоноров). История Христианства в Кавказской Албании. Баку, 2005. С. 27-30, карта.

**Ramiz Abbaslı**

# TOMAS DE VAALIN "QARA BAĞ" KİTABINDAKI TƏHRİFLƏRƏ DAİR

"Qara bağ" kitabında Azərbaycan tarixini kobud şəkildə təhrif edən Tomas de Vaal "Qarabağ, erməni knyazları və yepiskoplarının tarixi sığınacaq yeri, müsəlman-türk dünyası qarşısında xristian sivilizasiyasının sonuncu forpostudur" və "Qarabağ İslam Şərqi qarşısında xristianlığın son qalasıdır" deməklə Azərbaycan torpaqlarının ermənilər tərəfindən İşğal edilməsinə faktiki olaraq haqq qazandırır, digər tərəfdən isə xristian dünyasını müsəlmanlara və türklərə qarşı ermənilərlə valıid cəbhədə birləşməyə çağırır.

Tomas de Vaalın kitabındakı təhriflər bəzən o dərəcəyə çatır ki, oxucu tamam çaşır. Amma yaxşı ki, müəllif kitaba yazdığı ön sözdə oxucunu əvvəlcədən xəbərdar edir:

"Qara bağ" kitabını yazmaq üçün apardığım tədqiqatları başdanxarabın araşdırmaları adlandırmaq olar."

Müəllif hesab edir ki: "Qarabağla bağlı mübahisələr hər şeydən əvvəl qavrayış, dərketmə problemidir". Müəllif sonra yazır: "Azərbaycan əhalisinin əksəriyyəti əmindir ki, onların ərazisinin 20%-i işğal olunub. Bu, bir mifdir və onun düzgün olmadığını sübut etmək bir o qədər də çətin deyil". Bütün bunların nə demək olduğu oxucuya yalnız kitabı oxuyub başa çatandan sonra məlum olur. Tomas de Vaal demək istəyir ki, Azərbaycan əhalisinin əksəriyyəti real həyatda baş verən hadisələri düzgün qiymətləndirə bilmir, əslində, heç bir işğal faktı yoxdur, ermənilər ancaq öz torpaqlarını tutublar.

Alban knyazı Həsən Cəlalın Sankt-Peterburqdakı Ermitaj muzeyində saxlanılan xəncərinin üzərindəki və Qandzasar məbədinin epiqrafiyasındakı yazının erməni əlitbasıyla olduğunu əsas götürən T.de Vaal sübut etmək istəyir ki, Həsən Cəlal alban deyil, ermənidir, Qandzasar məbədi də alban məbədi deyil, erməni məbədidir. Əslində, müəllif bunu özü üçün yəqin edilə, ona görə də yazır: "Hesab etmək olar ki, xəncərin sahibi ermənidir".

Ziya Bünyadovun və Fəridə Məmmədovanın Zaqafqaziya Albaniyasının tarixi ilə bağlı tədqiqat işləri T.de Vaalın heç xoşuna gəlmir və "çoxdan unudulmuş Albaniya barədə" yazanda isə ancaq dırnaq arasında verilmiş "alban", "albanlar", "alban problemi", "Albaniya", "Qafqaz Albaniyası" və s. ifadələrdən istifadə edir və bununla da məsələnin qondarma olduğunu göstərmək istəyir; akademik Ziya Bünyadovun tədqiqatlarını "elmi dəyəri tamamilə şübhəli olan nəzəriyyə adlandırıb (tarix yox, nəzəriyyə-R.A) üstündən xətt çəkir. Sonra da axtarıb Fəridə Məmmədovanı tapır. İlk təəssürat belədir: "Bu, qarayanız, miniatür xanımın o boyda səs-küy yarada biləcəyinə inanmaq çətin idi". T.de Vaal Fəridə Məmmədovanın "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası" adlı elmi əsərini "provakasiya" adlandırıb yazır: "Mən belə başa düşdüm ki, alban

nəzəriyyəsindən belə bərk-bərk yapışmaqda F.Məmmədovanın məqsədi erməniləri Qafqazdan tamamilə sıxışdırıb çıxarmaqdı".

F.Məmmədovadan şübhələnməkdənsə, yaxşı olardı ki, T.de Vaal vaxt tapıb tarixə bir balaca nəzər salaydı və onda özü də görərdi ki, ermənilər, doğrudan da Qafqaza XIX-XX əsrlərdə gəliblər. Çar Rusiyası öz cənub sərhədlərində "müəyyən tarixi şəraitdə"cənub qonşuları İran və Türkiyə ilə müharibə şəraitində lazım olacaq bir xristian dövləti yaratmaq istəyirdi. 1723-cü ildə Azərbaycanın Xəzəryanı vilayətlərini zorla Rusiyaya birləşdirən I Pyotr 1724-cü ildə erməni dövləti yaratmaq planını həyata keçirmək üçün xüsusi fərman imzalamışdı və orada deyilirdi: "Azərbaycanın işğal olunmuş ərazilərinə ermənilərin köçürülüb gətirilməsi üçün yer ayrılsın və general Matyuşkinə tapşırılsın ki, ermənilərə mehribanlıq göstərmək, mühafizələrini yaxşı təşkil etmək, boşalmış evləri, münbit torpaqları onlara vermək lazımdır. Şübhələndiyiniz müsəlmanları dərhal o yerlərdən sıxışdırıb çıxartmaq və orada xristianları yerləşdirmək lazımdır, ... erməniləri hər vasitə ilə bu ərazilərə dəvət etməyə çalışın, müsəlmanların sayını isə mümkün qədər azaldın. Amma bunu elə edin ki, onlar heç nə başa düşməsinlər". 1761-ci ildə rus imperatriçası Yelizaveta kansler Vorontsovla söhbəti zamanı demişdi: "Cənubi Qafqazda erməni dövlətinin yaradılması xüsusilə Türkiyə ilə müharibə şəraitində Rusiya üçün böyük əhəmiyyət kəsb edərdi".

Həm 1804-1813-cü illər I Rusiya-İran müharibəsi, həm 1826-1828-ci illər II Rusiya-İran müharibəsinin gedişində, həm də sonrakı dövrdə İran və Türkiyədən ermənilər kütləvi şəkildə Qafqaza köçürülüblər. 1828-ci ildə Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsinə əsasən ermənilərin kütləvi şəkildə Azərbaycana köçürülməsi rəsmiləşdirildi.

1827-ci ildə Azərbaycanın qərb torpaqları olan Naxçıvan və İrəvan xanlıqlarının çar Rusiyası tərəfindən işğal edilməsini Tomas de Vaal "Rusiyanın Şərqi Ermənistanı ələ keçirməsi" kimi qələmə verir. 1828-ci ildə Rusiya hökumətinin fərmanıyla Naxçıvan və İrəvan xanlıqları ləğv edildi və gələcək erməni dövlətinin bünövrəsi olacaq erməni vilayəti yaradıldı. Rus mənbələrinə əsasən, təkcə elə 1828-1830-cu illər ərzində Azərbaycana-Yelizavetpol və İrəvan quberniyalarına İrandan 40000 nəfərdən çox, Türkiyədən isə 84.600 nəfər erməni köçürülmüşdür: iki ildə 125.000 erməni. Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi bütün XIX və XX yüzilliklər boyu davam etmişdir. 1911-ci ildə rus tədqiqatçısı N.İ.Şavrov yazırdı: "İndi Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyondan çoxu bu yerin köklü sakini deyil və bizim tərəfimizdən köçürülmüşdür".

Ermənilərin böyük bir hissəsi Qarabağın dağlıq hissəsində məskunlaşdırıldı, çünki orada münbit torpaqlar və xristian əhali-albanlar var idi. A.S.Qriboyedov yazırdı: "Ermənilər əsasən müsəlman mülkədar torpaqlarında məskulaşdırılırdılar". Ermənilərə yaxşı bələd olan Qribayedov Rusiya imperatoruna yazırdı: "Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz.

Onlar elə tayfadırlar ki, bir-neçə il yaşadıqdan sonra dünyaya car çəkəcəklər ki, bura bizim qədim əcdadlarımızın torpaqlarıdır."

1916-cı ildə Petroqradda çapdan çıxmış "Narodnosti Kavkaza" kitabında erməni müəllifi yazırdı: "Qarabağın dağlıq hissəsindəki ermənilərin bir qismi qədim albanlardı, qalanları isə Türkiyə və İrandan köçüb gələnlərdi. Onlar üçün Azərbaycan torpağı təqib və təhdidlərdən qorunmaq üçün sığınacaq olmuşdur".

F.Məmmədova deyəndə ki, Dağlıq Qarabağ, Naxçıvan və indiki Ermənistan ərazisindəki kilsə və monastrların hamısı albanlara məxsusdur, Tomas de Vaal bərk həyacanlanır, məsələyə münasibət bildirərkən işlətdiyi cümlənin ortasında üç nöqtə qoyub pauza edir (hiss olunur ki, nəfəsi çatmır), sonda isə nida işarəsi qoyur. Amma təəssüflər olsun ki, yersiz həyəcan və panikaya heç bir əsas yoxdur. Tomas de Vaal bilməsə də, ermənilər işin nə yerdə olduğunu çox gözəl bilirlər. S.T.Yeremyan yazır: "Xeyli hissəsi əvvəlki dövrə aid olan xristian abidələrinin çox böyük miqdarı qədim Albaniyanın erməniləşdirilmiş hissəsində, qədim alban vilayətləri olan Arsax (Dağlıq Qarabağ Muxtar vilayəti, eləcə də Ermənistan SSR-nin Şəmşədil və İcevan rayonları daxil olmaqla Kiçik Qafqazın qonşu şimal-qərb qolları) və hazırda əsas etibarilə erməni əhalisinin yaşadığı Utiya ərazisində saxlanılmışdır". Erməni alimi Qafqazdakı xristian abidələrinin çox böyük hissəsinin albanlara məxsus olduğunu etiraf edirsə, o abidələrin hamısın albanlara məxsus olduğu şübhə doğurmamalıdır.

Burada bir haşiyəyə çıxıb deməliyəm ki, Qarabağda tədqiqatlar apararkən Tomas de Vaal Samvel Karapetyan adlı bir erməni tarixçisi ilə tanış olub, hətta dostlaşıblar. T.de Vaalın öz yeni dostuna çox böyük rəğbəti var, onu gah abstraksionist rəssam Cekson Pollaka, gah növbəti döyüşdən əvvəl xəritə üzərində işləyib döyüş planı hazırlayan generala bənzədir, gah da deyir ki, əslində, Samvel adam deyil, heyvandı-dənizdən çıxmış əcaib heyvan. Müəllif yazır: "Yorulmaq nə olduğunu bilməyən tarixçiyə qarşı məndə həyəcan qarışıq pərəstiş hissi də var idi". Məlum olur ki, erməni "tarixçi"si Samvel Karapetyanın təhsili yoxdur. 1978-ci ildə orta məktəbi bitirən 17 yaşlı Samvel ali məktəbə girmək əvəzinə bir "Smena" fotoaparatı götürüb düşür Dağlıq Qarabağdakı alban abidələrinin canına, çək ki çəkəsən.

Deməli, Tomas de Vaalla Samvel Karapetyan tanış olurlar və iki erməni qadını da götürüb gedirlər IV əsrdən sonra Qafqaz Albaniyasının paytaxtı olmuş Bərdənin beş addımlığındakı müqəddəs Yelisey məbədinə, çatan kimi Samvellə erməni qadınlar işə başlayırlar: metr çıxardıb ölçüb-biçirlər, yazıb-pozurlar. Birgə tədqiqat apardıqları zaman Samvel Karapetyan Tomas de Vaalı inandırır ki, Dağlıq Qarabağdakı bütün xristian abidələri albanların deyil, ermənilərindi. Nəyə görəsə T.de Vaal savadsız erməni tarixçisinin dediklərinə dərhal inanır və öz kitabında onun sayıqlamalarına geniş yer verir. Eyni zamanda Samvel həm də öz dostunu inandırır ki, Qafqaz sıra dağlarının bütün dağətəyi əraziləri ermənilərindi. Sən demə, Samvel bu işlə çoxdan məşğuldu,

tədqiqatlarının nəticəsini ikimetrlik vatman kağızına 1914-cü ildə çar Rusiyasında əhalinin siyahıya alınmasına əsasən tərtib olunmuş xəritəyə köçürübdü və Tomas de Vaala da göstərib. Həmin xəritədə Samvel Xəzər dəniziylə Qara dəniz arasındakı ərazinin hər bir yaşayış məntəqəsində hansı millətin yaşadığını ancaq özünə məlum olan metodla müəyyənləşdirib və müvafiq rənglə (erməniləri qırmızı, azərbaycanlıları qara və s.) rəngləyib. Samvel bu cür işləyərək iki uzun, qırmızı xətt alıb: onlardan biri Qafqaz sıra dağlarının cənub yamaclarıyla uzanıb gedir, o biri xətt isə vertikal üzrə uzanaraq Dağlıq Qarabağın ərazisini kəsib keçir. Tədqiqatların nəticəsini ümumiləşdirən Samvel belə bir nəticəyə gəlib: "Qafqaz sıra dağlarının dağətəyi ərazilərinin əsl sahibi və keşikçisi ermənilərdir".

Samvel Karapetyanın "elmi tədqiqat işləri" və əldə etdiyi "nəticələr"lə bağlı Tomas de Vaalın heç bir iradı yoxdur, heç olmasa demir ki, ay Samvel, sən niyə 1914-cü ildə çar Rusiyasında keçirilmiş siyahıyalmanın nəticələrinə əsasən tərtib olunmuş xəritədən istifadə edirsən? Axı bu, düz deyil, çünki 1828-1914-cü illər ərzində qonşu ölkələrdən Qafqaza yüzminlərlə erməni köçürülübdü, əvvəllər isə Qafqazda, ümumiyyətlə, erməni olmayıb.

Samvel hesab edir ki, azərbaycanlılar işğalçıdırlar. Azərbaycanlıların işğalçı olduqlarını da Samvel təcrübə yolu ilə müəyyən edib. Nə vaxtsa Azərbaycan ərazisiylə avtobusla gedəndə yeri darısqal olub, yalan-gerçək hətta deyir ki, onu sıxışdırıb oturacaqdan çıxardıblar və bu hadisədən sonra o, belə bir nəticəyə gəlib ki, azərbaycanlılar işğalçıdırlar: "Hər bir türk, ya da azərbaycanlı bir parça torpaq istəyir: bir az torpaq verin ki, bizim də yaşamağa yerimiz olsun. Bir neçə ildən sonra da baxıb görürsən ki, sənə bir qarış torpaq qalib, qalan hamısı ondadır". Samvel deyir, Tomas de Vaal da onunla razılaşır.

Qeyd etmək lazımdır ki, Samvel nəinki savadsızdır, onun heç dünyadan xəbəri yoxdur. Bu adam qəzet oxumur, radioya qulaq asmır, televizora baxmır. Çünki vaxtı yoxdur, gecə-gündüz qəbiristanlıqlarda dolaşıb erməni qəbri axtarmaqla məşğuldur. Əgər hansısa qəbirstanlıqda erməni izi tapmasa, eybi yoxdur, hardansa üstündə ermənicə yazı olan bir daş tapıb orada basdırır və bununla da iş bitir.

Tomas de Vaal Samvel Karapetyanı oxucuya "erməni tarixçisi" kimi təqdim edir, "Qara bağ" kitabında yeri gəldikcə öz fikirlərini əsaslandırmaq üçün ona istinad edir. Amma Samvel Karapetyanı bir az maarifləndirib demək lazım idi ki: "1918-ci ildə Ararat (Ermənistan) respublikası özünü elan edəndə ərazisi 8,4 min km idi. Sonradan İngiltərə, Fransa, Rusiya və ABŞ-ın təzyiqləri nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti öz əraziləri olan İrəvan və Eçmədzini Ermənistana verməli oldu. 1920-ci ildə bolşevik Rusiyası Azərbaycanı işğal edəndən sonra bolşeviklər Zəngəzuru da Azərbaycandan qoparıb Ermənistana birləşdirdilər və əraziniz 30min km oldu. Bundan əlavə, Qarabağın dağlıq ərazisində yaşayan ermənilərə muxtariyyat verməklə Azərbaycan torpağına məsafədən idarə olunan bir bomba da qoyuldu və XX əsrin sonlarında o bomba partladı, nəticədə ermənilər

Azərbaycan ərazisinin daha 14 min $km^2$ -ni də işğal etdilər. Belə olan halda işğalçı kimdi? Azərbaycanlıar, yoxsa ermənilər?

Həsən Cəlalın xəncərinin üzərindəki yazının və Qandzasar məbədindəki epiqrafiyanının erməni dilində olmasına gəlincə, qeyd etmək lazımdır ki, ərəblər Qafqaz ölkələrini işğal etdikdən sonra onlara qarşı Sasanilər dövlətinin yeritdiyi siyasəti yeridirdilər. O ölkələri Bizansdan təcrid etmək üçün monofizit təriqətini dəstəkləyir, diofizit təriqətinə etiqad edənləri təqib edirdilər. Albanlar xristianlığın diofizit təriqətinə etiqad edirdilər və xəlifə Əbd əl-Məlik əmr etmişdi ki, alban zadəganlarının siyahısı tərtib olunsun, əgər onlardan kiminsə diofizit təriqətinə etiqad elədiyi aşkar olunarsa, dərhal məhv edilsin. 705-ci ildə erməni katalikosu xəlifəyə çuğulluq edir ki, albanlar Bizansla əlaqəyə girərək ərəblərə qarşı çıxmaq istəyirlər. Erməni katalikosu İlyanın ərəb xəlifəsi Əbd əl - Məlikə göndərdiyi məktubda deyilirdi: "Albaniyanın Bərdədəki taxtına əyləşmiş indiki alban katalikosu yunan imperatoru ilə sazişə girib, öz dualarında imperatoru xatırlayır və ölkəsini onun dininə inanmağa, imperatorun hakimiyyəti altına keçməyə məcbur edir". Bundan sonra ərəb xəlifəsi öz hərbi-siyasi gücünə arxalanaraq alban katalikosluğunu erməni katalikosluğuna tabe edir. Bu isə iyerarxik qanunların pozulması demək idi: bir kilsənin din xadimləri başqa kilsənin din xadimlərinə tabe olur, onların nəzarəti altında fəaliyyət göstərir, diktəsiylə oturub-dururdu. Bir tərəfdən erməni kilsəsinin, digər tərəfdən də ərəb xilafətinin təqib və təzyiqlərinin alban kilsəsinə vurduğu zərbələrdən biri də o oldu ki, X əsrə qədər öz əlifbası və öz dilində yazan alban katalikosluğu sonradan erməni əlifbası və erməni dilinə keçdi.

XIII əsrdə Azərbaycan dili nəinki Azərbaycan ərazisində mütləq mənada vahid ünsiyyət vasitəsiydi, o dil artıq Azərbaycan hüdudlarını aşaraq daha geniş məkanda işlənirdi və heç də təsadüfi deyil ki, az sonra Səfəvilər imperiyasının dövlət dilinə çevrildi. Təhsildə isə vəziyyət başqa cür idi. Azərbaycan xalqının bir hissəsi islam dinini qəbul etmişdi, qalanları isə bir vaxtlar Albaniyanın dövlət dini olmuş xristian dininə etiqad edirdi. Müsəlman övladları mədrəsədə təhsil alır, ərəb əlifbasıyla yazı-oxumaq öyrənirdilər. Xristian əhalisinin övladları isə kilsə məktəblərinə gedir və orada erməni əlifbasıyla yazıb-oxumaq öyrənirdilər. Odur ki, o dövrdə Azərbaycan dili Azərbaycan ərazisində şəksiz ünsiyyət vasitəsi olsa da, məbədlərdə və qəbirüstü abidələrdəki yazılar müsəlmanlarda ərəbcə, xristianlarda (albanlar) isə ermənicə idi. O səbəbdən, Həsən Cəlalın xəncərinin üzərindəki və Qandzasar məbədinin epiqrafiyasındakı yazının erməni dilində olmasıyla bağlı Tomas de Vaalın bədgüman olmasına heç bir əsas yoxdur. Qandzasar məbədinin epiqrafiyasında yazılıb: "Qanzasar məbədi alban katalikosluğunun əmri ilə Həsən Cəlal tərəfindən albanlar üçün tikilmişdir".

XIII əsrdə Albaniyanın qərb vilayətlərində Xaçın knyazlığının çiçəklənməsi, Qandzasar kimi möhtəşəm məbədin inşa edilməsi erməni "tarixçiləri" və onların xaricdəki züytutanlarının hay-küyünə rəğmən, alban dövlətçiliyi, alban katalikosluğu və alban etnosunun yaşadığını sübut edən

təkzibedilməz faktlardır.

1240-cı ildə Qandzasar məbədinin təntənəli surətdə müqəddəs elan olunduğu mərasimdə Alban katalikosu, alban yepiskopları və keşişləriylə yanaşı alban əyanları da iştirak edirdilər. Mərasimdə 700 nəfər iştirak edirdi, amma onların arasında erməni katalikosluğundan bir nəfər də nümayəndə yox idi, dəvət də olunmamışdılar. 1240-cı ildən etibarən Alban kilsəsi Qandzasara köçür, Alban katalikosluğu Qandzasar katalikosluğu adlanır və 1836-cı ilədək albanların dini mərkəzi oldu.

Tomas de Vaal çox böyük bir canfəşanlıqla erməni "alim"lərinin Albaniya və albanlarla bağlı uydurmuş olduqları sərsəm fikirlərin müdafiəsinə qalxır. Amma bacarmır, öz gücsüzlüyünü hiss edərək amerikalı professor Robert Hyüseni köməyə çağırır. R.Hyüsenin gətirdiyi dəlillərdən isə birini nəzərdən keçirsək bir şey aydın olacaq. R.Hyüsen Qarabağ məlikləri barədə yazır: "Məliklər erməni kilsəsinin Alban qanadına aid olsalar da, onların özlərini alban adlandırdıqları barədə mən bir dənə də olsun fakta rast gəlməmişəm."

Məliklərin erməni kilsəsinin alban qanadına aid olduğu faktını qeyd etməklə professor Hyüsen özü də onların alban olduğunu etiraf eləyir. Çünki tarixdən məlumdur və biz də artıq qeyd eləmişik ki, ərəb xilafətinin yeritdiyi siyasət ( xristianlığın monofizit təriqətini dəstəkləyilə diofizit təriqətini təqib etmək ) və erməni katolikosunun ərəb xəlifəsinə yazdığı çuğulluq məktubu onunla nəticələndi ki, 705-ci ildə alban katolikosluğu erməni katolikosluğuna tabe edilərək onun bir qanadı oldu. Belə olan halda albanlar, o cümlədən Qarabağ məlikləri erməni kilsəsinin alban qanadına aid olmayıb hara aid ola bilərdilər?

Cümlənin ikinci hissəsinə baxaq: " ...onların özlərini alban adlandırdıqları barədə mən bir dənə də olsun fakta rast gəlməmişəm." Fakt isə çoxdur, məsələn, məliklərin xristian dövlətlərinin başçılarına, o cümlədən Rusiya çarına ünvanladıqları məktublarda onlar yazırlar: " ...biz albanıq, alban çarları və alban knyazlarının nəslindənik."

Deməli, məliklərin özlərinin erməni deyil, alban olduqlarını qeyd elədikləri çoxsaylı faktlar mövcuddur. O ki qaldı professor Hyüsenin onlara rast gəlməməsinə, bu artıq başqa məsələdir, görünür, professor yaxşı axtarış aparmayıb.

Tomas de Vaalın əlində kifayət qədər faktlar olsa da, yenə erməni məntiqiylə mühakimə yürüdür. "Erməni məntiqi"nin nə demək olduğunu bilmək lazımdır. Erməni tarixçisi Moisey Xorenski 1500 il əvvəl yazırdı: "Mən xalqımızın yekəxana lovğalığını və daşqəlbliliyini, yaxşı olan hər bir şeyi inkar edib, həqiqətə xəyanət etməyini diqqətə çatdırmaq istərdim, ... bu, höcət xalq cinayətkardı, onun qəlbində Allaha inam yoxdur". Heç nə dəyişməyib, mahiyyətcə eyni olan fikirləri başqalarıyla yanaşı ermənilərin öz içindən çıxmış və millətə yaxşı bələd olan ziyalı adamlar uzaq keçmişdən bu günəcən deyir-deyir, təkrar edirlər. Erməni məntiqinin mahiyyəti də məhz yaxşı olan hər şeyin inkarı və həqiqətə xəyanətdən ibarətdir. Ona görə də R.Koçaryanın "Sovet ordusu Qarabağı zorla Azərbaycana birləşdirdi"

deməsi təəccüblü deyil, çünki o, ermənidi, erməni məntiqiylə fikirləşib mühakimə yürüdür, Pis odur ki, Tomas de Vaal da R.Koçaryana qoşulub aləmə car çəkir və iddia edir ki: "Dağlıq Qarabağ 1921-ci ildə Azərbaycana verilib". Sual olunur: tarixin hansı mərhələsində Dağlıq Qarabağ Ermənistanın tərkibində olub ki, 1921-ci ildə də Azərbaycana veriləydi?

Tomas de Vaal işğal altında olan Ağdam şəhərinə də gedib və şəhər məscidinin salamat qalmış minarəsinə qalxaraq xarabazara dönmüş şəhərə yuxarıdan baxıbdı. Gördükləri barədə yazır: "1993-cü ildə Ağdamı ələ keçirən ermənilər şəhəri viran qoyublar, küçə-küçə, ev-ev söküb son kərpicinəcən daşıyıb aparıblar. Minarədən baxanda aşağıda bir Xirosima görünürdü".

1945-ci ildə amerikalılar Yaponiyanın Xirosima şəhərinə atom bombası atıblar və Tomas de Vall da onu yada salır. Məlumat kitabları o barədə yazırlar: "Atom partlayışı nəticəsində Xirosima şəhərinin xeyli hissəsi dağıntıya məruz qalib, ölənlər, yaralananlar və müxtəlif dərəcədə bədən xəsarət alanlar şəhər əhalisinin 10%-ni təşkil edir". Erməni işğalı nəticəsində isə Ağdam şəhəri tamam dağıdılaraq xarabazara çevrilib.

Xocalıda dəfələrlə olmuş, baş verən hadisələrin canlı şahidi, amerikalı jurnalist Tomas Qolds Özünün "Azərbaycan xronkiası" kitabında yazır: "Xocalı mənim xatirimdən silinməyəcək. O şəhər gözdən uzaq, könüldən iraq bir yerdəydi. İndi ora yerlə yeksan olunubdu. Əlimdən heç bir şey gəlmədi, mən elə hey ağladım, ağladım". İngilis jurnalisti Tomas de Vaal "Qara bağ" kitabında özü də etiraf edir ki, Xocalıda dəhşətli qırğın olub. Amma iradları var və onlardan biri də ölənlərin sayıyla bağlıdır, hesab edir ki, qətlə yetirilənlərin sayı 485-dən çox ola bilməz. Ümumiyyətlə, o yerdə ki, rəqəmlər ermənilərin xeyrinə deyil, T.de Vaal onları kiçiltməyə çalışır. Sumqayıt hadisələri zamanı 26 erməni, 6 azərbaycanlı qətlə yetirilib. Ermənilərdən beşini Eduard Qriqoryan adlı bir erməni qətlə yetirib. E.Qriqoryan həm də kütləvi ixtişaşların təşkilatçısı, dağıntı və qətllərdən əlavə, erməni qadınlarının zorlanmasında da əsas icraçı olmuşdur. Amma məsələnin bu tərəfi T.de Vaalı qane etmir: ölənlərin sayı çox olsa yaxşıydı. Ermənının ermənilərі öldürməsi və erməni qadınları zorlaması faktı da Tomas de Vaalın xoşuna gəlmir. 26 ermənidən beşini E.Qriqoryan öldürübsə, azərbaycanlılara nə qaldı? Ölən ermənilərin sayını göstərən rəqəmi şübhə altına almaq üçün T.de Vaal erməni yazıçısı Klod Mutafyandan sitat gətirir: "Ölənlərin sayı həddən ziyadə azaldılıb,", E.Qriqoryanın törətdiyi cinayətlərin əhəmiyyətini azaltmaq üçün onu ləkələməyə çalışır: "Qriqoryan alçağın biriydi".

Amerikalı jumalist T.Qolds Xocalı faciəsi barədə yazır: "Bir gecə ərzində min nəfəri qətlə yetirmək! Bu, qeyri-mümkün görünürdü, amma biz vəziyyəti dərindən araşdırdıqca öldürülənlərin sayı barədə deyilən dəhşətli rəqəmlər doğru görünməyə başlayırdı... Həmin gecə Ağdamda 477 cəsəd var idi, bu rəqəmə itgin düşənlər, öldürüldüyü güman edilənlər, öz ölülərini qeydiyyata aldıracaq adamı olmayan, hamılıqla qırılmış ailələr daxil deyildi. 477 rəqəmi özlərini Ağdama

yetirib ölülərinin qeydiyyatını natamam şəkildə də olsa apara bilənlərin təsdiq etdiyi rəqəm idi, çünki müsəlmanlar öz ölülərini 24 saat ərzində, mümkün qədər tez basdırırlar".

Xocalı soyqırımı vaxtı şəhər yerlə yeksan edilib, 6300 şəhər sakinindən 613 nəfər qətlə yetirilib ki, onların da 63 nəfəri azyaşlı uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qoca olub, 2500 nəfər yaralanıb və onlardan 487 nəfər ömürlük şikəst olub, 1257 nəfər əsir götürülüb.

Müqayisə üçün bir də rəqəmlərə müraciət edək. Atom bombası düşmüş Xirosimada xeyli dağıntı olub, ölən və yaralanlar şəhər əhalisinin 10%-ni təşkil edir. Ermənilərin Xocalıya hücumu zamanı isə şəhər tamamilə yerlə yeksan edilib, ölən və yaralananlar şəhər əhalisinin 50%-ni təşkil edir. Belə misallar yüzlərlə, minlərlədir, çünki ermənilər işğal etdikləri hər bir yaşayış məntəqəsində atom bombasının Xirosmada törətdiyindən qat-qat çox dağıntı və qırğın törədiblər və bütün bunlar hamısı bir həqiqəti təsdiq edir: erməni terroru, erməni vəhşiliyi atom silahından daha dəhşətli, daha təhlükəli bəladır.

Xocalı soyqırımında şəxsən iştirak etmiş və əlini dinc əhalinin, azyaşlı uşaqların, qocaların, qadınların qanına batırmış Serj Sərkisyanla Tomas de Vaalın söhbəti də olduqca maraqlıdı. O dövrdə Ermənistanın müdafiə naziri olan S.Sorkisyana T.de Vaal deyir ki, Xocalını necə ələ keçirdiyi barədə danışsın. S.Sərkisyan deyir: "Biz o barədə danışmamağa üstünlük veririk". Belə deyir, amma az da olsa danışır: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar elə fikirləşirdilər ki, ermənilər dinc əhaliyə əl qaldırmazlar. Biz o streotipi sındırdıq"'. Müsahibədən sonra T.de Vaalı yola salan Sərkisyan deyir: "Əsas məsələ odur ki, Ermənistanda indi ancaq bir etnos qalıb. Vardanisdə və başqa yerlərdə əhalinin 70%-ni azərbaycanlılar təşkil edirdi. Bizim mədəniyyətlərimiz başqa-başqadır. Biz böyür-böyürə yaşaya bilərik, amma bir-birinin içində yaşaya bilmərik".

"Daşnaksütyun" partiyasının nizamnaməsində deyilir ki, lazım gəldikdə çəkinmədən siyasi terrora və soyqırımına əl atmaq lazımdır. "Dənizdən-dənizə Ermənistan" yaratmaq planının əsas müddəalarından biri də "Türksüz Ermənistan", "etnik təmizləmə"dir. Tələb belədir: "Ermənistan əhalisi yalnız ermənilərdən ibarət olmalıdır. Bu ölkənin dili də, dini də, geyim-keçimi də, fırçası-abidəsi də ancaq ermənilərə məxsus olmalıdır. Həyatımızı başdan-başa erməniləşdirməliyik. Ermənilərin ən böyük bədbəxtliyi azərbaycanlılarla qonşu olmalarıdır. Ermənistanı erməni olmayanlardan, ilk öncə tatarlardan və türklərdən təmizləyin. Türklərə nifrət edin, müsəlmanlan qırın, kəndlərinə od vurub yandırın, əmlaklarını talan edin".

2000-ci il aprel ayının 24-də Tomas de Vaal erməni dostlarıyla birlikdə Yerevandakı izdihama qoşulub "genosid qurbanları" abidəsinə baş çəkməyə gedir, gördükləri, eşitdikləri barədə çox böyük hörmət və ehtiramla yazır. Əslində isə "erməni genosidi" olmayıb. 1915-ci il aprelin 24-də erməni terror təşkilatları olan

"Qnçaq", "Daşnak" və "Ramqavar"ın liderləri həbs olunublar. Bu təşkilatlar XIX əsrin sonları və XX əsrin əvvəllərində Türkiyədə terror və qətliyamlar törətmək üçün yaradılmışdır.

Amerikalı tarixçi Stevord C. Şou "Osmanlı imperiyasının tarixi" kitabında yazır: "I Dünya Müharibəsi getdiyi vaxtda Türkiyənin düşdüyü ağır vəziyyətdən istifadə edən ermənilər Anadoluda müsəlmanları kütləvi surətdə qəddarcasına qətlə yetirirdilər. Miiyondan çox türk kəndlisi ev-eşiyini qoyub hara gəldi qaçırdı. Minlərlə insanı ermənilər tikə-tikə doğramışdı." Rus tədqiqatçısı İ.Maleviç " 1915-ci il erməni faciəsi " kitabında yazır: "Şərqi Anadoluda erməni terror və quldur birləşmələri tərəfindən planlı surətdə məhv edilən dinc müsəlman əhalisinin sayı bir milyon altı yüz min təşkil edir." 1915-ci ildə Türkiyədə baş verənlərin canlı şahidi olmuş rus diplomatı, general Q.Mayevski yazır: " O illərin bütün qanlı hadisələri erməni quldur dəstələri tərəfindən törədilər və həyata keçirilirdi. "1915-ci il hadisələrini öz gözləri ilə görmüş amerika hərbçiləri Emori Nils və Artur Suterlant yazırdılar: "Ruslar geri çəkiləndən sonra Anadoluda qalan ermənilər ağlasığmaz cinayətlərə əl atmış, insanları kütləvi surətdə qətlə yetirmişlər"... Bu siyahını uzatmaq, özü də çox uzatmaq olar. Bir məqaləyə, bir kitaba sığışası iş deyil bu, çünki o dövrdə ermənilərin türklərə və digər müsəlman xalqlarına qarşı törətdikləri terror və qətliyamları təsdiq edən minlərlə, onminlərlə təkzibolunmaz faktlar var. "Erməni soyqırımı" isə riyakar erməni uydurmasından başqa bir şey deyil. 31 martın Azərbaycanda soyqırım kimi qeyd olunmasını isə Tomas de Vaal məsxərəyə qoyur: "Hesab etmək olar ki, keçmişdə baş verənlərin qeyd olunmasından çox bu indiki dövrdə siyasi vəziyyətin qeyd edilməsidir və mənası da belədir: əgər Ermənistanda genosid günü qeyd olunursa, niyə də bunu azərbaycanlılara tətbiq etməyəsən?"

1918-ci ildə Bakıda bolşevik-daşnak qüvvələrinin birləşdiyi Bakı sovetinin ixtiyarında Qırmızı ordu adı altında əksəriyyəti ermənilərdən ibarət olan 20 minlik silahlı qüvvə cəmləşmişdi. 1918-ci il martın 31 -də səhər tezdən həmin qüvvələr şəhərin müsəlmanlar yaşayan hissəsinə hücuma keçdi. Azqınlaşmış erməni quldur dəstələri dinc azərbaycanlılara qarşı ən amansız və qəddar üsullara əl atırdı. Fövqəladə təhqiqat komissiyasının üzvü A.Y.Klüqe həmin komissiyanın sədrinə yazırdı: "Yaxşı silahlanmış və təlim görmüş erməni əsgərləri çoxsaylı pulemyotların müşayiəti ilə hücum edirdilər, onlar müsəlmanların evlərinə soxulur, sakinləri qırır, onları qılınc və xəncərlə doğram-doğram doğrayır, süngülərlə deşik-deşik edirdilər, uşaqları yanan evin alovları içinə atır, öldürülən valideynlərin südəmər körpələrinə də rəhm etmir, hamısını qırırdılar".

Təhqiqat komissiyasının sənədlərinə əsasən, 1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 11 min nəfər azərbaycanlı xüsusi amansızlıqla qətlə yetirilmişdir, müsəlman əhalinin külli miqdarda var-dövləti qarət edilmiş, memarlıq abidələri yandırılıb dağıdılmışdır. Təhqiqat komissiyasının materiallarında göstərilir ki, "erməni əhalinin bütün təbəqələrini təmsil edən

nümayəndələr bu amansız qırğınlarda iştirak etməyi özlərinə borc bilirdilər".

1918-ci ilin mart günlərində S.Lalayan və T.Əmiryanın azqınlaşmış dəstələri Şamaxıda amansız qırğınlar törətmişdilər. Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 azərbaycanlı qətlə yetiriblər.

1918-ci il aprel ayının ortalarında top və pulemyotlarla silahlanmış 5 min nəfərlik daşnak bolşevik qüvvələri Amazaspın rəhbərliyi altında Qubaya hücuma keçdi. Amazasp Şaumyandan belə bir göstəriş almışdı: "Quba qəzasında bütün müsəlmanları qırıb məhv etmək, onların yaşayış məntəqələrini dağıtmaq, sonra isə qırğını sünni-şiə toqquşması kimi qələmə vermək".

Amazaspın quldur dəstələri Quba qəzasında 16 mindən çox dinc əhali, o cümlədən 12 min ləzgini və 4 mindən artıq türkü misli görünməmiş amansızlıqla qətlə yetirmiş, 162 kəndi dağıdıb yerlə yeksan etmişlər, o kəndlərdən 35-i yer üzündən tamamilə silinmişdir. Quba, Qusar və Xaçmaz ərazisində 26 məscid yandırılmışdır. Erməni quldurları Lənkəranda, Astarada, Göyçayda, Kürdəmirdə də eyni cinayətlər törətmişlər.

1918-1920-ci illərdə erməni vəhşiliklərindən ən çox ziyan çəkən Azərbaycan bölgələrindən biri də Zəngəzur qəzası olmuşdur. Yerli erməni quldurlarla yanaşı o ərazidə general Andranikin erməni əsgərlərindən ibarət olan yaxşı təlim görmüş və silahlanmış nizami qoşunlar da var idi. Erməni hökumətinin tapşırığı ilə Andranik Azərbaycan ərazisi olan Zəngəzur qəzasına soxularaq azərbaycanlı əhaliyə qarşı görünməmiş vəhşiliklər törətdi. Fövqəladə təhqiqat komissiyasının topladığı materiallara əsasən Zəngəzur qəzasında 115 müsəlman kəndi dağıdılaraq yer üzündən silinmiş, 10068 nəfər qətlə yetirilmişdir.

Bu siyahını uzatmaq olar, çünki ermənilər bütöv bir əsr boyu Azərbaycan xalqına qarşı tarixdə misli görünməmiş amansızlıq və qəddarlıqla soyqırım həyata keçirmişlər. Amma 31 mart tarixinin Azərbaycanda soyqırım günü kimi qeyd olunması Tomas de Vaalın xoşuna gəlmir, hətta Azərbaycan xalqını məsxərəyə qoyur. 1918-1920ci illərdə ermənilərin Zəngəzurda törətdikləri vəhşiliklərə nıünasiləətini isə qısaca bir cümlə ilə belə ifadə edir: "Daşnakların lideri Njde Zəngəzuru tutdu və bir erməni müəllifinin diliylə desək, regionda rearmenizasiya həyata keçirdi".

Tomas de Vaal dəfələrlə Şuşada olub, ermənilərin "qələbə bayram"ı münasiləətiylə keçirdikləri paradlarda, təntənəli mərasimlərdə iştirak ediləədi, tost deyilə, tut arağı içilə. Şuşanı "erməni ticarət şəhəri" kimi təqdim edir. 2000-ci ildə Şuşada ermənilərin keçirdiyi növbəti "qələbə paradında iştirak edəndən və Stepanakerdəki təntənəli məclisdə yeyilə-içəndən üç gün sonra T.de Vaal erməni keşişi Parkevlə tanış olub, keşiş ona deyilə: "Şuşa qədim erməni şəhəridi". Şuşadakı məscidlərə gəlincə, erməni keşişi deyilə: "Məscidlər XIX əsrdə tikililələr, o vaxt Qarabağda azərbaycanlı yox idi". Ümumiyyətlə, Tomas de Vaal öz kitabında ermənilərin bu cür cəfəng fikirlərinə gen-bol yer veriləədi.

1996-cı ildə ermənilərin Şuşada keçirdikləri "qələbə paradında iştirak

edəndə isə T.de Vaal Kryun adlı başqa bir erməni keşişiylə tanış olub. Ermənilərin Qarabağda törətdikləri cinayətlərə keşiş Parkev ancaq öz dualarıyla kömək edilə, keşiş Kryun isə daha fəal olub və o barədə belə deyir. "Mən xaçı öpdüm, İncili bir qırağa qoydum, keşiş cübbəsini soyunub hərbi forma geyindim və əlimə silah alıb döyüşə getdim". Öz hərəkitinin səbəbini keşiş Kryun belə izah edir: "Mən tək elə din xadimi deyiləm, mən həm də erməni xalqının oğluyam". Keşiş Kryun divardakı xəritəni göstərilə deyilə: "Bu xəritəyə baxın! Bizim bütün ərazilərimiz azad olacaq". Divardan asılmış xəritə isə "Böyük Ermənistan"nın xəritəsiymiş və orada dənizə çıxışı olmayan indiki Ermənistandan fərqli olaraq, "Böyük Ermənista"nın sərhədləri genişlənərək Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazilərini özünə birləşdirməklə hər iki tərəfdən dənizə çıxanacan uzanilə gedir.

Xocalı soyqırımında S.Sərkisyan və Kryun da iştirak edilələr, amma onlar orada neylədikləri barədə danışmamağa üstünlük verirlər. Xocalı qırğınında erməni yazıçısı Zori Balayan da iştirak edilə. Sərkisyan və Kryundan fərqli olaraq, Z.Balayan Xocalıda elədikləri barədə susmamağa üstünlük verir. Çünki o, yazıçıdır və bir yazıçı kimi də borcu gördüklərini qələmə almaqdan iləarətdir. Z.Balayan özünün "Ruhumuzun yüksəlişi" kitabında yazır: "Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən 13 yaşlı türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra bu 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı yeddi dəqiqədən sonra qan itirərək dünyasını dəyişdi. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və itlərə atdı. Axşam eyni şeyi daha üç türk uşağına elədik. Mən bir erməni vətənpərvəri kimi öz vəzifəmi yerinə yetirdim".

"Qara bağ" kitabı tarixi-publisistik-bədii əsərdir. Əsərin məzmunu ilə epiqrafiyası arasında bir vəhdət olmalıdır. Epiqraf əsərin məzmununu, onun ruhunu ifadə etməlidir. Öz kitabına epiqraf seçərkən Tomas de Vaal nahaq yerə Elias Kannetiyə və Sayat Novaya müraciət edilə. Müasir erməni ədəbiyyatına, ermənilərin XX yüzilliyin sonlarında Qarabağda törətdikləri cinayətlərin əsas ideoloqlarından biri olan və Tomas de Vaalın da yaxşı tanıdığı Zori Balayanın yaradıcılığına müraciət etmət lazım idi. "Qara bağ" kitabına epiqraf kimi Zori Balayanın əsərlərindən götürülmüş aşağıdakı parça daha münasilə olardı: "... Xocalıda evlərdən birinin divarına 11 yaşlı türk qızının mismarlandığını gördüm. Türklər; olan nifrətimi hələ də can verən qızın sinəsindən dərinin qopardılması il soyutmağa çalışdım...".

Rasim Musabəyov

# ПРОРЫВ В КАРАБАХСКОМ УРЕГУЛИРОВАНИИ В ПОВЕСТКЕ ДНЯ. ХОТЯ ОБЩЕСТВЕННОСТЬ ДЛЯ ЭТОГО И СОВЕРШЕННО НЕ ГОТОВА

Итоги состоявшихся 7 мая на саммите в Праге переговоров между президентами Ильхамом Алиевым и Сержем Саргсяном оцениваются не однозначно. Сопредседатели Минской Группы утверждают, что достигнут определенный прогресс. Хотя прорыв на этой встрече не был достигнут, однако, по их мнению, сторонам удалось найти взаимопонимание по базовым принципам урегулирования конфликта.

В Ереване также сочли Пражскую встречу полезной, тогда как в Баку не скрывают свое разочарование. И есть от чего. Для достижения компромисса Азербайджан пошел на важные уступки, а именно: согласился на поэтапное освобождение оккупированных районов; признал возможность беспрепятственного использования Лачинского коридора для коммуникаций Нагорного Карабаха с Арменией; не ставит впрямую вопрос об азербайджанской администрации в Шуше, без чего массовое возвращение туда беженцев будет затруднено. Армяне вместо шагов на встречу, реанимировали отвергнутые еще два года назад неприемлемые для нас требования. Так, Серж Саргсян в ходе Пражской встречи вновь настаивал на фиксации права народа Нагорного Карабаха (в его понимании это исключительно армяне) на самоопределение, реализация которого должна предполагаться механизмом референдума «без ограничения повестки».

Такой фортель со стороны Сержа Саргсяна одни объясняют извечным коварством армян и отсутствием у них действительного стремления к компромиссам. Другие связывают это с тем, что турецко-армянский диалог, согласование так называемой «Дорожной карты» усилил самомнение Еревана и его возможности для маневров. В армянских СМИ некоторые политики прямо говорили о том, что они ожидают от Турции нажима на Азербайджан с тем, чтобы побудить смириться с утратой Нагонного Карабаха и удовольство-ваться возвращением хотя бы части утраченных территорий. Эти ожидания оказались иллюзорными. Глава МИД Турции Бабаджан, являвшийся главной фигурой новой политики Анкары в отношении Армении, перемещен на другой министерский пост в правительстве, а премьер-министр Эрдоган публичное заверил, что без продвижения в карабахском урегулировании границы Турции не будут открыты. Полагаю, что причины того, что Серж Саргсян притормозил на переговорах в Праге, следует искать в другом. Во-первых, это фактор соперничества среди держав, являющихся сопредседателями Минской Группы. Даже при условии, что посредники согласны продвинуть процесс карабахского урегулирования, Москву вряд ли устроит приоритет Запада, в частности США,

в этом вопросе. А такое представление могло сложиться, если о достигнутом прогрессе на переговорах президентов Алиева и Саргсяна объявили бы в стенах посольства США в Праге, тем более в ходе саммита Евросоюза по презентации программы «Восточное Партнерство», в которой Россия усматривает покушение на собственную сферу влияния. Поэтому предположу, что Москва негласно посоветовали Сержу Саргсяну приберечь свое согласие на приемлемый для Азербайджана компромисс до следующей встречи, которая должна состояться в июне в ходе Экономического Форума в Санкт-Петербурге. Во-вторых, на позицию армян, несомненно, оказывает развитие кризиса в соседней Грузии. Если бы военный мятеж там удался и привел бы к свержению Саакашвили, то переход Грузии под контроль Москвы открывал для Армении коммуникации на Россию, а коммуникации Азербайджана на Турцию и Запад оказывались перерезанными. Тогда карабахское урегулирование пошло бы исключительно по российскому сценарию. Накануне пражского саммита ситуация в Грузии до конца была еще не прояснена и армяне были в ожидании. И, наконец, в-третьих, внутренний фактор. Это выборы в Ереване. Для Сержа Саркисяна важно, крайне важно добиться на них победы своих сторонников и сохранить контроль над столичной администрацией. Сделать это после ухода дашнаков в оппозицию и высокой активности сторонников экс-президента Левона Тер-Петросяна, будет крайне сложно. Очевидно, что накануне голосования он совершенно не готов подставлять себя под огонь критики за мнимое «предательство» национальных интересов и «сдачу» Нагорного Карабаха. Все приведенные моменты весомы, но носят тактический характер, тогда как продвижение урегулирования и снижение рисков возобновления военной конфронтации как для сторон конфликта, так и посредничающих держав имеет стратегическую значргмость. Поэтому, несмотря на то, что пражская встреча оказалась безрезультатной, шансы на достижение прорыва в процессе урегулирования армяно-азербайджанского конфликта из-за Нагорного Карабаха достаточно высоки, и нужно приложить все усилия, для их реализации. Из сказанного мной вовсе не следует, что Азербайджану для достижения соглашения с армянами нужно проявить большую уступчивость. Вовсе нет. Следует дать всем понять, что если Баку не согласился на отторжение Нагорного Карабаха в прошлом, когда был неизмеримо слабей, то теперь, обладая возросшими финансовыми возможностями, геополитическим весом, Азербайджан будет и далее укреплять военную мощь и ужесточать свою позицию. Так что покровителям Армении следует поторопиться, если они желают оградить ее и себя от больших неприятностей в будущем. Очевидно, что прогресс в урегулировании карабахского конфликта определяется не только на переговорах лидеров Азербайджана и Армении, но и от того, как сложится диалог Москвы с Вашингтоном, Москвы и Брюсселя по более широкому

кругу вопросов. В начале лета ожидается визит в Азербайджан и Армению президента Франции Николя Саркози. В июле анонсирован визит в Москву президента США Барака Обамы. Если обозначится прогресс, то лучшего времени и места для подписания соглашения по урегулированию карабахского конфликта, чем Москва в ходе визита туда президента Обамы, подобрать сложно.

Однако, в то время, когда из стран, осуществляющих посредничество, из различных международных организаций слышатся оптимистические прогнозы относительно возможности достижения прорыва в урегулировании карабахского конфликта, общественность все еще больше ориентирована на продолжение конфронтации, чем на мир, основанный на взаимных компромиссах. Под моим непосредственным руководством на протяжении последних 6 лет, по единой методике проводится социологический мониторинг.(Всего было опрошено 1000 человек или 0,014 % от генеральной совокупности. Тип выборки — случайный. Отбор осуществлялся по месту жительства респондентов (12 городов и 15 районов) среди граждан в возрасте от 18 лет и старше методом стандартного интервью «лицом к лицу»). Два вопроса этого опроса непосредственно касаются армяно-азербайджанского конфликта по поводу Нагорного Карабаха. Ниже приведены таблицы с данными по итогам 2006, 2007 и 2008 годов. Так, ответы на вопрос «Как Вы оцениваете ближайшие перспективы конфликта по поводу Нагорного Карабаха?» распределились следующим образом:

| | Декабрь2006 | Февраль2008 | Февраль2009 |
|---|---|---|---|
| | % | % | % |
| 1.Наступит прогресс в мирном урегулировании | 38,4 | 31,6 | 35,8 |
| 2.Возобновятся военные действия | 12,7 | 16,5 | 11,5 |
| 3. Ситуация «ни мира, ни войны» продолжится | 46,7 | 48,8 | 51,7 |
| 4.Затрудняюсь ответить отказ от ответа | 2,2 | 3,1 | 1.0 |

Как видно из таблицы - большинство респондентов уверено, что существующая ситуация «ни войны, ни мира» продолжится. Вопреки тиражируемым местными и зарубежными СМИ предположениям политиков и

дипломатов о возможности достижения прогресса на переговорах по мирному урегулированию Карабахского конфликта, это мнение разделяют немногим более трети респондентов. Возобновление военных действий ожидает меньшинство (в интервале 11,5 - 16,5 процентов) респондентов.

Представляет интерес вопрос: «Какой компромисс в отношении статуса Нагорного Карабаха Вы допускаете для мирного Урегулирования армяно-азербайджанского конфликта?» Ответы на него представлены ниже.

| | Декабрь 2006 | Февраль 2008 | Февраль 2009 |
|---|---|---|---|
| | % | % | % |
| 1.Только культурную автономию и местное самоуправление | 11,5 | 5,2 | 6,8 |
| 2.Автономию, аналогичную той, которая есть в Нахичевани | 9,5 | 11,9 | 6,2 |
| 3.Самую высокую автономию, которая существует в мире | 3,7 | 4,1 | 0,9 |
| 4.Пусть решает население Нагорного Карабаха на референдуме, при условии возвращения азербайджанских беженцев на прежние места проживания | 11,1 | 9,8 | 12,7 |
| 5.Признать независимость Нагорного Карабаха и пусть живут так, как хотят | 0,4 | 1,9 | 0,1 |
| 7.Не приемлю компромиссов | 59,4 | 62,3 | 70,8 |
| 9. Затрудняюсь ответить/отказ от ответа | 4,4 | 4,8 | 2,5 |

Как видно из распределения ответов респондентов, подавляющее большинство негативно настроено в отношении любых компромиссов, причем в ходе последнего опроса их число заметно выросло. Сопредседатели Минской Группы правы, когда призывают готовить общество к компромиссу, неизбежному при мирном урегулировании Карабахского конфликта. Что касается приемлемого варианта, то на возможность предоставления Нагорному Карабаху автономии (культурной, локальной и даже «самой высокой») согласен только каждый восьмой респондент, тогда как год-два назад - был каждый пятый. Отмечается рост поддержки у респондентов (10-13 процентов) идеи решить вопрос через референдум, правда при условии возвращения азербайджанских беженцев. Независимость для Нагорного Карабаха практически исключается. Удивляться такому состоянию умов не следует. Ведь позиции конфликтующих сторон по-прежнему очень далеки друг от друга. Отдавая дань политкорректности официальные лица, как Азербай-

джана, так и Армении декларируют свою приверженность мирному урегулированию. Однако при этом президент Ильхам Алиев время от времени публично заявляют, что мириться с бессрочной оккупацией районов, захваченных за пределами Нагорного Карабаха, Баку не намерен и не исключает, что может обратиться к праву на самооборону и силой восстановить территориальную целостность страны. Азербайджанское правительство не ограничивается заявления ми, а подводит иод них соответствующую дипломатическую базу, распространив недавно в ООН два документа с изложением своего видения ситуации и ее правовых аспектов. В свою очередь президент Серж Саркисян заявляет, что армяне войны не желают, но и не боятся ее. Обе стороны осуществляют масштабные программы вооружений, с той лишь разницей, что Баку использует для этих целей нефтедоллары, а Ереван - безвозмездные поставки военной техники со стороны России. Сопредседатели Минской Группы, неоднократно заявляли, что они работают над тем, чтобы совместить в переговорном процессе три базовых элемента: территориальную целостность, самоопределение и безопасность. Разделить эти элементы и рассмотреть их в отдельности довольно сложно. Ведь оккупацию и удержание под своим контролем 7 районов Азербайджана вне границ Нагорного Карабаха, требование признания независимости так называемой «НКР» армянская сторона также обосновывает соображениями безопасности, хотя в глазах азербайджанцев выглядит благопристойным прикрытием территориальных притязаний и реализации аннексионистских планов. Когда сопредседатели Минской Группы, международные организации говорят о том, что военного решения карабахского конфликта нет, это относится не только к возможным действиям Баку о силовому освобождению оккупированных армянскими силами ерриторий, но и к желанию армян сохранить и легализовать окку-тацию азербайджанских территорий. Суть этих утверждений в том, iТо чисто военный успех не приведет к желаемому политическому езультату. Из этого вовсе не следует, что признание независимости 'агорного Карабаха является неизбежным. Там жили до начала конфликта и последующего изгнания 45 тысяч азербайджанцев, чье желание остаться в пределах Азербайджанского государства значит не меньше, чем стремление 120 тысяч армян присоединиться к Армении. Международное сообщество в лице своих влиятельных представителей предупреждает, что не допустит решение конфликта путем этнических чисток, а, следовательно, сторонам по любому придется договариваться. Освобождение же оккупированных территорий за пределами Нагорного Карабаха может быть достигнуто и без обращения к военной силе, как результат миротворческих усилий Минской Группы и взаимоприемлемых компромиссов.

**Rəna Baxışova**

# XIX ƏSRDƏ AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNDƏ HUMANİTAR ELMİN İNKİŞAFINA DAİR

XVIII əsrdə Şuşanın (o zamankı Pənahabadın) təşəkkül tapdığı dövrdən Qarabağ, demək olar ki, Azərbaycan ədəbi-mədəni mühitinin mərkəzinə çevrildi. Qarabağla Naxçıvan, İrəvan, Gürcüstan, Gəncə, Şəki, Bakı və digər xanlıqlar arasında sıx əlaqələr yarandı. Həmin əlaqələr Qarabağ ədəbi mühitinin təsir dairəsini daha da genişləndirirdi.

XVIII əsrin II yarısı - XIX əsrin əvvəllərində Qarabağda baş verən siyasi hadisələr və onların insanların həyatına təsiri dövrün tarixçiləri tərəfindən bir çox tarixi mənbələrin yaradılmasına zəmin yaratmışdı ki, bu da o dövrün hərtərəfli tarixinin tədqiq edilməsində mühüm rol oynamışdır.

Qarabağ xanlığının siyasi, iqtisadi və mədəni tarixini öyrənmək üçün Mirzə Adıgözəl bəyin "Qarabağnamə", Mirzə Camal bəy Cavanşir Qarabağinin "Qarabağ tarixi", Əhməd bəy Cavanşirin "1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair", Mirzə Yusif Qarabağinin "Tarixi-safi" ("Əsl tarix"), Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ", Rzaqulu bəy Mirzə Camal oğlunun "Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri", Mirzə Rəhim Fənanın "Tarixi-cədidi-Qarabağ", M. Baharlının "Əhvalati-Qarabağ", Həsən İxfa Əlizadənin "Şuşa şəhərinin tarixi", Həsənəli xan Qaradağinin "Qarabağ vilayətinin qədim cədid keyfiyyət və övzaları" və Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərlərində olduqca qiymətli məlumatlar var.

"Qarabağnamə"lər salnamə xarakteri daşıdıqları və eyni tarixi dövrdə baş verən hadisələri əks etdirdikləri üçün bir-birini, əsasən, təkrar edir."Qarabağnamə"lər XVIII əsrdə və XIX əsrin əvvəllərində, nəinki, Qarabağ, eləcə də, Şimali və Cənubi Azərbaycanın, Cənubi Qafqazın və Ön Asiyanın həyatında baş vermiş mürəkkəb ictimai-siyasi prosesləri obyektiv şəkildə işıqlandırılması, bir sıra qaranlıq mətləblərə aydınlıq gətirilməsi, erməni vandallarının məkrli yalanlarını puça çıxarmaq üçün qiymətli məlumatlar əks etdirir.

Adları çəkilən müəlliflər Qarabağın tarixi coğrafiyasını, onun daxilində və xaricində baş verən siyasi hadisələri, eləcə də, Pənahəli xanın və İbrahimxəlil xanın dövrlərində tikilən şəhər və tarixi abidələr haqqında geniş məlumat verirlər. Adları qeyd olunan salnamələrdəki bu məlumatlar xalqımızın o zamankı tarixi, məişəti, təsərrüfatı və əhalinin həyat tərzinin öyrənilməsi, XVIII əsrin ikinci yarısında ərazidə baş verən tarixi-siyasi proseslərin obyektiv mənzərəsini yaradılması baxımından çox qiymətlidir. Lakin aşağıda sadaladıqlarımızdan görəcəyik ki, bu mənbələrin hamısına eyni cür yanaşmaq tariximizin öyrənilməsini yanlış yollara aparar. Məsələn, Rusiya imperiyasının dövlət idarələrində qulluq etdiklərindən Mirzə Adıgözəl bəy "Qarabağnamə" və Mirzə Camal bəy Cavanşir Qarabaği "Qarabağ tarixi" salnamələrini Rusiya imperiyasının Cənubi Qafqazdakı canişinlərinin sifarişləri ilə

yazmışlar. Məhz bu məqam mütləq nəzərə alınmalı və bu qaynaqlardakı məlumatlara diqqətlə yanaşılmalıdır.

Mirzə Adıgözəl bəyin "Qarabağnamə" əsəri tarixi məzmununa görə xüsusilə fərqlənir. 1845-ci ildə səhhəti pisləşən Mirzə Adıgözəl bəy katibi Mirzə Hüseyn Salaridən söylədiklərini gözəl ifadə ilə yazmağı xahiş edir və beləliklə, Azərbaycan tarixşünaslığının nə qiymətli məxəzərindən biri olan "Qarabağnamə" əsəri yaranır. Əsərdə, 1736-cı ildən 1828-ci ilə kimi olan bir dövr əhatə edilir. Əsər, xüsusən, 1813-cü ildən sonra Qarabağda baş verən hadisələri təsvir edən ilk mənbədir. Mirzə Adıgözəl bəy həm də öz dövrünün kamil ziyalısı olub, şerə, sənətə dərin hörmət bəsləyib. "Qarabağnamə" əsərinin üzü 1848-ci ildə Tiflisdə şair Mirzə Şəfi Vazeh tərəfindən nəstəliq şikəstə xətti ilə nəfis şəkildə köçürülmüşdür. Hazırda həmin əsərin əlyazması Sankt-Peterburq şəhərindəki Şərqşünaslıq İnstitutunun kitabxanasında saxlanılır. Mirzə Camal bəy Cavanşir Qarabaği tarixçi idi. O, 1815-ci ildə "İran tarixi haqqında qısa icmal", 1847-ci ildə isə Qarabağın siyasi olaylarından bəhs edən "Qarabağ tarixi" adlı tarixi əsərlərini yazmışdı. Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi" əsəri də başqa salnamələrlə müqayisədə olduqca zəngindir. Müəllif Pənahəli xan və İbrahimxəlil xan dövrlərini daha dolğun təsvir etmiş, tarixi hadisələri ardıcıllıqla vermişdir. Mirzə Camal bəy Cavanşir öz əsərində Qarabağın ictimai-iqtisadi vəziyyətini, kənd təsərrüfatını, suvarma şəbəkəsini, becərilən bitkiləri, xanların və onların qohumlarının əmlakını, mədaxil və məxariclərini, hərbi qüvvələrini və sair ətraflı göstərir. Mirzə Camalın salnaməsi müəllifin yaşadığı dövrün təsirindən irəli gələn məhdud cəhətlərinə baxmayaraq, digər "Qarabağnamə"lərlə müqayisədə böyük üstünlüklərə malikdir. Tarixçi Mir Mehdi Xəzani bu barədə yazırdı: "Çün mərhum Mirzə Camal qalabəyi Məhəmmədxan bəy oğlu Cavanşir-Dizaği əlli il qədri mərhumeyi-İbrahim xan və Mehdiqulu xan xidmətlərində mirzəlik edib və Qarabağ vilayətində dəxi vəzarət əmrində olub və xanların hökümət əyyamı münqəzi olandan sonra müddəti-mütamadi yenə Rusiya dövlətində xidmətkar və kargüzar olub qocalmışdı və özü dəxi ülumi-ərəbiyyə və farsiyyə və türkiyyədən xəbərdar və tarix kitablarında və müsini və kardan kəslərdən təfəhhüs qılmaqda və hər günə işlərdə kamil və hüşyar idi və Qarabağın cəmi əhvalatına və hər növ nağıl və hekayətinə dürüst müttəle və xəbardar idi. 1847 tarixi-məsihiyyədə ondan sərdari-sabiqi-məmaliki-sənayi-Qafqaziyyə general-adyunfanter sahibi-ənvayi-həmayilat knyaz qraf Mixail Semyanoviç Voronsov əhvalati-xəvaninin-sabiqəni xahiş buyurmuşdu."Tarixi məlumatlara görə Mirzə Camal bəyin zəngin kitabxanası olub.

Mirzə Adıgözəl bəyin və Mirzə Camal Cavanşirin qeyd etdikləri tarixi hadisələrin təkrarlandığı Mirzə Yusif Qarabağinin "Tarixi-safi" əsəri özündən əvvəlki salnamələrdən o qədər də ciddi şəkildə fərqlənməsə də, əsərdə erməni millətçiliyinə daha çox üstünlük verilməsi əsərə tənqidi yanaşmanı mütləqləşdirir.

Xalq arasında "Urus Əhməd bəy" ləqəbini almış Əhməd bəy Cavanşir tarix və ədəbiyyata aid kitabları mütailə edir, müxtəlif əsərlər yazır və tərcümə ilə məşğul

olurdu. Əhməd bəy "Asari-Əhməd bəy Cavanşir" adlı şerlor. 'Türk zərb-məsəllər məcmuəsi" adlı folklor örnəkləri, "1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair' adlı tarix kitablarının müəllifidir. Əhməd bəy Cavanşirin 1884-cü ildə Tiflisdə rus dilində qələmə aldığı "1747-1805-ci ilbrdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair" əsəri digər salnamələr içərisində özünəməxsus yer tutur. Onu da qeyd edək ki, Əhməd bəy Cavanşir öz əsərindən danışarkən qeyd edirdi ki, istifadə etdiyi mənbələr Mirzə Adıgözəl bəyin, Mirzə Camalın əsərləri və digər mənbələr olmuşdur. Əhməd bəy Cavanşir Qarabağın siyasi tarixini ardıcıllıqla izah etmiş, maraq kəsb edən hadisələrin şərh və izahını vermişdir. Əsərin fərqli cəhətlərindən biri də ondan ibarətdir ki, burada Kürəkçay müqaviləsi də əksini tapmışdır. Əhməd bəyin əsərində Məhəmməd bəy Cavanşirə xüsusi üstünlük verir, açıq-aşkar İbrahimxəlil xana qarşı qərəzli mövqe tutur. Mirzə Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ" əsəri XIX əsrin əvvəlləri Azərbaycan mədəniyyətinin dolğun mənzərəsini yaratmaq üçün çox mühüm məxəzdir və əsərdə Qarabağın mədəniyyəti ilə bağlı məsələlərə daha çox yer vermişdir. Lakin əsər dil və üslubuna görə mürəkkəbdir.

Rzaqulu bəy Mirzə Camal oğlu atası Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi" əsərindən bəhrələnərək "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" adlı əsərini qələmə almışdır. Rzaqulu bəyin əsəri atası Mirzə Camal Cavanşirin əsərinin yığcam formasından ibarət olsa da, bir sıra əlavə materiallara da rast gəlinir.

Rəhim Fənanın "Tarixi-cədid-Qarabağ" əsərində müəllif özündən əvvəl yazılan salnamələri sanki təkrar edir. Əsərin bəzi hissələri əldə edilmədiyindən onun haqqında tam təsəvvür yaratmaq mümkün deyil. Hər halda, Mirzə Rəhim Fənanın salnaməsi də Qarabağın o dövrki tarixinin yazılması baxımından bir sıra məziyyətlərə malikdir, o dövrün ictimai-siyasi ab-havasını dərk etmək baxımından xüsusilə maraq doğurur.

M.Baharlının "Əhvalati-Qarabağ" əsərində Qarabağın tarixindən daha çox onun memarlıq abidələrinə, tarixi şəxsiyyətlərinə, adət və ənənələrinə, etnoqrafiyasına yer verilir. Azərbaycan mədəniyyəti, xüsusilə də, orta əsrlər mədəniyyəti tarixi üzrə qaynaqların kasadlığını nəzərə alsaq bu, çox qiymətli mənbədir.

Həsən İxfa Əlizadə də "Şuşa şəhərinin tarixi" əsərində Qarabağ xanlığının mərkəzi Şuşa şəhərinin bünövrəsinin qoyulmasından bəri baş verən hadisələri izləmiş və məscidlərin üzərindəki daş kitabələri tərcümə etmişdir.

Qarabağ tarixinə həsr olunan salnamələrdən biri də Həsənəli xan Qaradağinin "Qarabağ vilayətinin qədim cədid keyfiyyət və övzaları" əsəridir. Bu əsər yarımçıq və çox qüsurludur. Müəllif əsərində müəyyən qədər Qarabağın tarixi abidələri haqqında da məlumat verir.

XIX əsrin ilk qərinəsində Azərbaycan xalqının tarixi taleyində baş verən mühüm hadisə - Azərbaycanın Rusiya imperiyasının tərkibinə daxil edilməsi ilə,

bütövlükdə, mədəniyyətdə olduğu kimi, ədəbiyyatda da qərbyönümlü meyllər olduqca güclənir. Bunun təsiri altında ədəbiyyatda milli və realist-dünyəvi motivlər aparıcı mövqeyə çıxır. Molla Pənah Vaqif yaradıcılığının təsiri altında Qarabağ ədəbi mühitində tənqidi-realist satiranın Qasım bəy Zakir (1784-1857) kimi nümayəndəsi yetişərək poetik inkişafın istiqamətini müəyyənləşdirir. Zakirin gənclik illəri siyasi hadisələrlə dolu mürəkkəb bir dövrə təsadüf edir. Azərbaycan xanlıqları üstündə gedən siyasi çəkişmələr, qanlı müharibələr, Ağa Məhəmməd şah Qacar qoşunlarının Qarabağa hücumu, Şuşanın işğalı, Qarabağ zadəganlarına şiddətli divan tutulması kimi hadisələr şairin dünya görüşünə ciddi təsir göstərmişdir. Zakir Şuşada ruhani məktəbində farsca təhsil almış və fars dilini mükəmməl bildiyi üçün Firdovsi, Xəyyam, Xaqani, Nizami, Sədi, Cəlaləddin Rıımi kimi böyük klassiklərin əsərlərini mütaliə etmişdir. Azərbaycan klassiklərindən Füzuli və Vaqifin şeirləri ilə dərindən tanış olmuş və öz yaradıcılığında bu şairlərin üslublarından daha çox istifadə etmişdir. Zakirin öz yaradıcılığında, eləcə də onunla çağdaş olan şairlərin əsərlərində Füzuli ənənələrinin də yeni səviyyədə davam etdirildiyini görürük.

Zakirin yaradıcılığında onun mənzum hekayə və təmsilləri də mühüm yer tııtur. Klassiklərin hadisələrin, real insan surətlərinin, qabaqcıl ideyaların təsvir və tərənnümü Zakirin mənzum hekayələrində də öz əksini tapmışdır. Onun müxtəlif mövzularda yazılan "Məlikzadə və Şahsənəm", "Əmirzadə, məşuq və cavan aşiq", "Aşiqin təam bişirməyi", "Aşiq və məşuq haqqında", "Zövci-axər", "Tərlan və elçi", "Dəvəsi itən kəs", "Dərviş ilə qız", "Həyasız dərviş", "Əxlaqsız qazı", "Xalqa vəz deyən, özü fisqü fücurdan çıxan biəməl alim" kimi mənzum hekayələri vardır.

Zakirin realist yaradıcılığında təmsillər mühüm yer tııtur. Onun nəşr olunmuş "Əsərləri"ndə "Aslan, Qurd və Çaqqal", "Dəvə və Eşşək", "Tülkü və Qurd", "Xain yoldaşlar haqqında" ("İlan, Dəvə, Tısbağa"), "Tülkü və Şir", "Sədaqətli dostlar haqqında" ("Tısbağa, Qarğa, Kəsəyən, Ahu") adlı altı təmsili çap olunmuşdur.

O, şifahi xalq yaradıcılığında geniş yayılan təmsillərdən və məşhur hind abidəsi "Kəlilə və Dimnə" əsərindən, həmçinin klassik poeziyadakı təmsillərdən, Nizami, Cəlaləddin Rumi, Füzuli təmsillərindən də bəhrələnmiş, təmsillərini dövrünün tarixi şəraitinə, tələblərinə uyğun olaraq yazmışdır.

Füzuli ənənələrini yeni səviyyədə davam etdirənlərdən biri də Xurşid Banu Natəvandır. Bədii yaradıcılığa XIX əsrin 50-ci illərində başlayan Xurşid Banu Natəvanın Azərbaycan ədəbiyyatında həzin, lirik, təbiət gözəlliklərinin və hisslərin real, romantik, tə'sirli poetik təsviri onun yaradıcıllığının başlıca keyfiyyətləridir.

1872-ci ildən "Məclisi-üns"ün rəhbəri olmuş və bütün xərclərini də öz üzərinə götürmuşdür.

Natəvanın əsərləri, əsasən, qəzəllərdən ibarətdir. Onun "Ey dust", "Xudahafiz" rədifli qəzəllərində insanpərvərlik, xeyirxahlıq, səmimi ülfət, dostluq ideyalarının tərənnümü dayanır, o, narazılıq, ayrılıq salmağa cəhd edən xain, yaramaz adamların əməllərini pisləyir. Natəvanın "Gülün", "Bülbül", "Bənövşə", "Qərənfil" adlı təbiət gözəlliklərinə həsr etdiyi şerləri də vardır.

Natəvanın "Sənsiz", "Əfsus", "Getmə", "Ölürəm" rədifli qəzəlləri ilə XIX əsr Azərbaycan ədəbiyyatına kədərli ana surəti daxil olur.

XIX əsrin ortalarında Azərbaycanın hər yerində kapitalist münasibətləri cücərdiyi və təfəkkürün yeni məcrada inkişaf etdiyi bir zamanda orta əsrlərə məxsus eyni biliklər sisteminə sahib ensiklopediyaçı alim Mir Möhsün Nəvvab görkəmli musiqiçi, şair, rəssam, xəitat, münəccim, kimyaçı və riyaziyyatçı kimi tanınmağa başladı.

Ədəbiyyatşünaslıq elmi orta əsrlərin təzkirəçilik ənənələri üzərində davam edirdi. Bu ənənənin davamçılarından biri olan Həsənəli xan Qaradaği, Mir Möhsün Nəvvab və başqalarının müxtəlif illərdə tərtib etdikləri təzkirə, məcmuə və kitablarda ayrı-ayrı şairlərin tərcümeyi halı, yaradıcılığı haqqında qısa məlumat verilir. Bu tendensiya Nəvvabın "Təzkireyi-Nəvvab", "Qarabağ şairləri" əsərlərində aydın görünür. Bundan başqa, o, "Firdovsiyə nəzirə" əsərinin də müəllifidir.

Nəvvab riyaziyyat, kimya və astronomiya ilə maraqlanırdı. O, öz evində iki teleskop qoyaraq, kiçik bir rəsədxana və kimya laboratoriyası yaratmışdı. 1899-cu ildə dərslik kimi qələmə aldığı "Kifayətül-ətfal" kitabında o, göy cisimlərinin yerləşməsi və günəş tutulmaları haqda cədvəllər tərtib etmişdir. Alim kimya laboratoriyasında şagirdləri ilə sınaqlar keçirir və orta əsrlərdə yaşamış kimyagərlər tərəfindən verilən nüsxələri yoxlayırdı. "Nəsihətnamə" kitabında cavanlara verdiyi nəsihətlərin sayı 500-dən artıq idi. Tanınmış pedoqoq və alimin etik görüşləri müəyyən mənada onun "Kifayətül-ətfal", "Nurül-Ənvar" və "Pəndnamə" kimi kitablarında da öz əksini tapmışdı. Qarabağ, eləcə də, bütün Azərbaycan incəsənətinə ən böyük töhfəsini isə Nəvvab öz bədii yaradıcılığı ilə vermişdi. Bir çox akvarel rəsmləri, kitab miniatürləri və bir neçə bina və məscidə vurduğu naxışlar dövrümüzə qədər gəlib çatmışdır.

Mir Möhsün Nəvvab muğamı öyrənmək və ifa etmək istəyənlərə 1884-cü ildə praktiki vəsait kimi "Vüzuh ül-ərqam" ("Rəqəmlərin aydınlaşdırılması") traktatını yazmışdır. Əsərdə, o, dövrün əsas muğamları, muğam təranələrinin yaradılmasının nəzəri qaydaları, onların ifa tərzi, şeir mətnlərinə münasibət haqqında məlumat verilmişdir. Traktat, Azərbaycan musiqisinin nəşr olunduğu ilk əsər və qiymətli tarixi sənəd olaraq, XIX əsrin ikinci yarısında Azərbaycan xalq musiqisi mədəniyyətinin yüksək səviyyəsini sübut edir və ilk dəfə, 1913-cü ildə Bakıda nəşr olunmuşdur. Həmin risaləsində Mir Möhsün ayrı-ayrı muğamların, bəzi dəstgahların mənşəyi və onların adlarının kökü haqqında məsələləri araşdırır, muğamların şer mətnləri ilə əlaqəliliyi, ifaçı ilə dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından onların optimal yerləşməsi problemlərinə toxunur. Nəvvab, ilk dəfə olaraq, dəstgah terminindən istifadə edir, o vaxt Qarabağda məlum olan Rast, Mahur, Şahnaz, Rahavi yaxud Rahab, Çahargah və Nəva adlı altı dəstgahın adını çəkir. Onun musiqiyə həsr etdiyi "Kəşfül-həqiqəti-məsnəvi" əsəri də məlumdur.

Rus, türk, ərəb və fars dillərinə yiyələnən Mir Möhsünü əsərlərinin məzmunu,

səviyyəsi və həcmi etibarilə həqiqətən də orta əsrlərin sonuncu ensiklopedist alimləri dəstəsindən hesab etmək olar.

Natəvan və M.M. Nəvvab Qarabağda “Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclislərinə başçılıq etmişdilər. Bu məclilərdə toplaşan 40 nəfər şair Azərbaycanın başqa ədəbi məclisləri ilə ədəbi əlaqələri var idi

Dövrünün tanınmış şairlərindən biri də Mirzə Həsən Yüzbaşov - Qarabaği (1841-1904) idi. Natəvan və M.M. Nəvvab rəhbərlik etdikləri "Məclisi-üns" yığıncağının fəal üzvü olan Həsənəli xan yüksək bilik səviyyəsinə malik olduğundan mirzə titulu almışdı. Nəvvab ona "Kaşif” təxəllüsünü vermiş, lakin o bunu qəbul etməmişdi. Məhəmmədəli Təbiyyət onu Kaşif təxəllüsü ilə oxuculara təqdim etmişdir.

Nəsli hələ Şah İsmayıl dövründə görkəmli yer tutmuş Uctaclı elinin Toxamqlı oylağından olan, el arasında Balacaağa adı ilə çağırılan Həsənəliağa Xan Qaradağski (Qaradaği) 1848-ci il yanvarın 28-də Şuşada hərbi xidmətçi ailəsində anadan olmuşdur. O, görkəmli Azərbaycan maarifpərvəri, şair, pedaqoq, ədəbiyyatşünas, tərcüməçi, filoloq, tarixçi, xəttat, teatr xadimi kimi tanınmışdır. 1866-cı ildə Qəza məktəbini bitirən rus təhsilli Həsənəliağa ərəb, fars dillərini, islamın əsaslarını öyrənib dünya klassiklərinin əsərlərini orijinaldan mütaliə etməyə başlayır və İ.A.Knlovun 60-dan artıq təmsilini, K.D.Uşinskirın, A.Y.İzmaylovun, A.A.Seydlerin, L.N.Modzalevskinin hekayə, şeir və təmsillərini, rus dilindən roman, "Körpə uşağı necə saxlamaq", "Göz ağrısı və onun müalicəsi" və s. bu kimi həkim məsləhətlərini Azərbaycan dilinə tərcümə edilmişdir. Əlyazmaları Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır.

Həsənəliağa Xan Qaradağski, yuxarıda qeyd etdiyimiz kimi, şair, ədəbiyyatşünas kimi də tanınmışdır. Onun ədəbi fəaliyyəti pedaqoji fəaliyəti ilə sıx bağlı olduğundan, burada onların arasına bir sədd çəkmək mümkün deyil. Xan Qaradağskinin didaktik xarakterli şeirlərini, düşünməcələrini, təmsillərini, müxtəlif nümunələrdən etdiyi tərcümələrini onun ədəbi-pedaqoji, maarifçi fəaliyyəti ilə, qəzəl, müxəmməs, müşairə səpkisində yazdığı əsərləri isə sırf ədəbi fəaliyyəti ilə bağlamaq mümkündür. Həsənəli ağanın ədəbi fəaliyyəti Şuşada fəaliyyət göstərmiş olan “Məclisi-fəramüşan" poetik məclisi ilə bağlıdır.

Ədəbi məclislərin, xüsusilə, "Məcüsi-fəramüşan” və "Məclisi-üns" ətrafında toplaşan şairlərin əksəriyyətinin yaradıcılığını ənənəvi qəzəliyyat təşkil etdiyi halda, Seyid Əzim Şirvani, Qasım bəy Zakir, Mir Möhsün Nəvvab və başqaları kimi Həsənəliağa Xan Qaradağski də həmin çərçivədən çıxaraq, tərbiyəvi, düşündürücü, satirik əsərlərlə yanaşı təmsil janrına da müraciət etmişdir ki, bunlardan da "İt dostluğu", "Varlı” və digərlərini göstərmək olar.

Həsənəli ağa Xan-Qaradağskinin bizə gəlib çatmış olan şeiriyyatı sırasında 50-dən çox qəzəl, müxəmməslər, növhələr, onlarla məktub vardır. Əsərləri, əsasən, Azərbaycan dilindədir, lakin fars dilində bir neçə qəzəlin müəllifidir.

Qaradağinin dövrünün tanınmış şairləri ilə müşairələrindən və qəzəllərindən

bir qismi Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab", "'Divarv', həmçinin, özünün "'Fələyin bir belə dövrü olacaqmış...", "Əsərləri" adlı kitablarında çap edilmişdir. Onun bir çox əsəri hələ nəşr olunmayıb, əlyazma şəklində Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır.

Həsənəliağa Xan Qaradağskinin Qarabağ tarixinə dair "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət və övzaları, Pənah xan, İbrahim xan və Mehdiqulu xan əyyami-hökumətlərinin əksər vəqaye və hekayətləri" adlı əsəri "Qarabağnamələr"' kitabına daxil etmişdir. Bundan başqa, o, Şuşaya həsr edilən "Qarabağ şəhəri" adlı əsərinin və təzkirə janrında yazılmış "Təzkireyi-Qaradaği"nin müəllifidir. "Təzkireyi-Qaradaği" əsərinə qədim Qarabağ şairlərinin tərcümeyi-halı və əsərlərindən seçmələr daxil edilmişdir. Azərbaycan ədəbiyyatşünaslığı Xarı-Qaradağskiyə ən azı bizim günlərə gəlib çatdırdığı öz həmyerlisi, əsli Qaradağdan olub Zəngəzurun Güləbird kəndinə köçmüş Sarı Aşıq, onun bayatı və qoşmaları haqqında verdiyi məlumata görə borcludur. Belə ki, Sarı Aşıq haqqında ilk məlumatı Qaradaği vermişdir. O, 1878-ci ildə 250-dən artıq atalar sözünü toplayıb tərtib etmişdir. Onu ilk folklorşünas adlandırmış olsaq yanılmarıq.

Həsənəliağa gözəl xəttat olub. Bir misal olaraq onu qeyd etmək olar ki, o, yuxarıda adını qeyd etdiyimiz Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ" əsərini şikəstə-nəstəliq xətti ilə köçürmüş və bununla da, bu qiymətli tarixi abidəni günlərimizə gəlib çatmasına xidmət göstərmişdir.

XIX əsrin II yarısında bədii yaradıcılığa başlayan görkəmli şəxslərdən biri Nəcəf bəy Vəzirov yazıçı, realist sənətkar, faciə janrının banisi, Azərbaycanın ilk müəllif-aktyoru, istedadlı publisist və ilk felyeton yazıçısı kimi Azərbaycan ədəbi tarixində silinməz iz qoymuşdur.

N.Vəzirov həm dövrün eybəcərliklərini göstərən felyetonlar yazmış, həm dram dərnəklərinə rəhbərlik etmiş, həm də yeni aktyor nəslinin yetişməsində gərgin ətək sərf etmişdir. Onun qələmə aldığı "Əti sənin, sümüyü mənim"(1873), "Qaragünlü"(1874), "Ev tərbiyəsinin bir şəkli"(1875), "Daldan atılan daş topuğa dəyər"(1890), "Sonrakı peşmançılıq fayda verməz"( 1890), "Adı var, özü yox"(1891), "Yağışdan çıxdıq yağmura düşdük"(l895), "Müsibəti-Fəxrəddin"(1896), "Pəhlavani zəmanə"(1898) və s. əsərlər Azərbaycan ədəbiyyatı dramaturgiyasında xüsusi yer tutur.

1896-cı ildə qələmə aldığı "Müsibəti-Fəxrəddin" faciəsi ədibin şah əsəri olub Azərbaycan dramaturgiyasının inkişaf tarixində mühüm yer tutur. Əsər, Azərbaycan mülkədarlarının həyatından götürülmüş, yeni ideyalarla çırpınan Fəxrəddin bəy və onu əhatə edən mühitin qanunları arasındakı ziddiyətlərdən bəhs edir. Faciə Qafqazda, Orta Asiyada, İranda, Tatarıstanda və Başqırdıstanda da tamaşaya qoyulmuş və dərin iz buraxmışdır.

Adını Azərbaycan mədəniyyət tarixinə həkk etdirmiş realist sənətkarlardan biri də Əbdürəhim bəy Haqverdiyev l870-ci il mayın 17-də Şuşada bəy ailəsində anadan olmuşdur. Şuşa səhərində real məktəbin altıncı sinifini bitirən, orta təhsilini

Tiflisdə tamamlayan Əbdürrəhim 1891-ci ildə ali təhsil almaq üçün Peterburqa gedir və Yol Mühəndisləri İnstitutuna qəbul olur. O, eyni zamanda, azad dinləyici kimi Peterburq Universitetinin Şərq fakültəsində dil və ədəbiyyata dair müzakirələrə qulaq asıb, müsəlman tarixi və mədəniyyəti ilə maraqlanır. Haqverdiyev ədəbi fəaliyyətə Şuşa real məktəbində oxuduğu zaman başlamışdır. Onun ədəbi yaradıcılığında M.F.Axundzadənin çox böyük və danılmaz rolu olmuşdur. O, Şuşa realnı məktəbində təhsil alarkən yerli həvəskarların təşkil etdiyi teatr tamaşalarında iştirak etmiş, M.F.Axundzadənin təsirilə yazdığı "Hacı Daşdəmir"' adlı kiçik bir pyes-komediya ilə yaradıcılığa başlamışdı. Peterburqda təhsil alarkən onun bədii yaradıcılığa meyl və həvəsi daha da artır. Peterburqda olarkən də M.F.Axundzadənin, N.B.Vəzirovun ənənələrini davam etdirən Ə.Haqverdiyev 1892-ci ildə "Yeyərsən qaz ətini, görərsən ləzzətini" dramını və 1896-cı ildə "Dağılan tifaq” faciəsini qələmə alır. 1899-cu ildə Azərbaycana qayıdan Haqverdiyev həm müəllimliklə məşğul olur, həm teatrlarda verilən tamaşalara rejissorluq edir, həm də bədii yaradıcılığını da davam etdirir: 1900-cu ildə "Bəxtsiz cavan" və 1901-ci ildə "Pəri-cadu" faciələrini yazmaqla milli dramaturgiyanı ideya və poetik-sənətkarhq baxımından daha da zənginləşdirir. O, mədəniyyət tariximizdə istedadlı daramaturq, nasir, rejissor, görkəmli alim kimi yaddaşlara həkk olunur.

Azərbaycan dramaturqu, uşaq ədəbiyyatı yazıçısı və müəllim kimi tarixə öz imzasını atan Süleyman Sani Axundov 1875-ci il oktyabrın 3-də Şuşada bəy ailəsində dünyaya gəlmişdir. 1994-cü ildə Qori Müəllimlər Seminariyasını bitirən ədib tədris və jurnalistika ilə məşğul olub. 1899-cu ildə "Tamahkar" adlı ilk bədii əsərini qələmə alır. Tamahkarlıqdan, simiclikdən bəhs edən bu əsər heç zaman öz əhəmiyyətini itirməmiş və zaman-zaman teatr səhnələrini bəzəmişdir. Ümumiyyətlə, S.S.Axundov yaradıcılığı XX əsrin əvvəllərinə təsadüf edir.

Yuxarıda da göründüyü kimi, Q.Zakirin Azərbaycan satiriki, milli maarifçi-realizmin görkəmli nümayəndəsi, Natəvanın qüdrətli Azərbaycan şairəsi, N.Vəzirovun ədəbiyyatımızda ilk faciə janrının, Azərbaycan teatrının (H.Zərdabi ilə bilikdə) banisi, ilk felyeton yazıçısı, ilk müəllif-aktyor, M.M.Nəvvabın astronom, musiqişünas, rəssam, şair, Ə.Haqverdiyevin ədəbiyyatımızda tarixi dram janrının banisi, ilk opera rejissoru və dirijoru, S.S.Axundovun uşaq ədəbiyyatının ilk yaradıcılığından biri, ilk bəy obrazının yaradıcısı, ilk Milli Qəhrəman adı alan yazıçı-pedaqoq və s. bu kimi nailiyyətlərin tarixə düşməsi Qarabağda hər zaman yüksək mədəniyyətin mövcudluğuna dəlalət edir, "Qarabağ musiqi diyarıdır" fikrinin "Qarabağ elm və mədəniyyət beşiyidir" fikrilə əvəzlənməsinə hüquqi qüvvə verir. Təbii ki, bu, tarix üçün qısa olan bir dövrün qısa xronikasıdır, dövrdən kənara çıxdıqda daha çox nailiyyətlərin şahidi oluruq.

**Rizvan Qarabağlı**

# QARABAĞIN QƏDİM MƏSCİDLƏRİ

Biz Qarabağ məscidləri deyəndə ilk növbədə gözlərimizin önündə Şuşanın, Ağdamın qoşa minarəli məscidləri, eləcə də Bərdənin dörd minarəli məscidi canlanır. Əlbətdə, memar Kərbəlayi Səfixan Qarabağinin yadigarları olan bu məscidlər son zamanlar bir növ Qarabağın embleminə çevrilib. Tarixi baxımdan bu məscidlərin tikilməsi XIX-XX əsrin əvvələrinə təsadüf edir. Lakin Qarabağ bölgəsində elə məscidlər var ki, onlar XVIII, XVII və XVI hətta, XIII əsrin yadigarları kimi yarımçıq vəziyyətdə olsa da, müasir dövrümüzə qədər gəlib çatmışdır. Onlardan biri Ağdamın Şahbulaq deyilən ərazisində Pənah xan tərəfindən 1751-1752-ci illərdə tikdirilmiş eyniadlı məsciddir. Bütövlükdə yerli əhəng daşı ilə inşa edilmiş Şahbulaq məscidi üç tağlı eyvandan və bir ibadət zalından ibarətdir. Eyvanın tağları mütənasib qamətli bir cüt daş sütunlara söykənir. Tavanı isə tağbənd şəklində tamamlanır. İbadət zalı kvadrat şəkilli olduğundan tavanı interyer tərəfdən gümbəz şəklində tamamlanmış, bayır tərəfdən isə gümbəz üzərinə yeni örtük materialları əlavə etməklə dam örütüyü iki yamaclı formaya salınmışdır. Bu da təbii suları dərhal yanlara axmasına əlverişli şərait yaratması üçün idi. Ümumi divar hörgülərinin qalınlığı bir metrə çatan məscidin plan ölçüləri 9,38x7,18 metrdir. Məscid maili yerdə inşa edildiyindən onın arxa tərəfdən dam örütüyünə qədər olan məsafəsi 4,37m, baş fasad tərəfdən isə 5,40 metrə qədərdir. Onu da xüsusi qeyd edək ki, Şahbulaq məscidinin memarlıq baxımından belə sadə həll olunmasına baxmayaraq bu məscid sonralar Qarabağda çoxsaylı məscidlər tikmiş Memar Kərbəlayi Səfixan Qarabaği yaradıcılığında bir örnək rolunu oynamaşdır.

Ağdamın Paprəvənd kəndindəki məsciddə də plan etibakı ilə Şahbulaq məscidinin memarlıq ideyası davam olunur. Bütün tərəflərdən divar qalınlığı 1,15 metr olan məscidin sütunsuz ibadət zalını oxvari şəkilli möhtəşəm gümbəz tamamlayır. Ümumi ölçüləri 9,2m x 12,54m. Olan Paprəvənd məscidi XVII əsrin yadigarıdır. Təəssüf ki, məscid dövrümüzə qədər yarı uçuq vəziyyətdə gəlib çatmışdır.

Paprəvənd məscidindən fərqli olaraq Qubadlı rayonunun Dondarlı kəndindəki məscid dövrümüzə qədər yaxşı vəziyyətdə gəlib çatmışdır. (Erməni işğalından sonrakı vəziyyəti bilinmir). Yerli inşaat materialları ilə tikilmiş Dondarlı məscidi kənd klubunun qonşuluğunda yerləşir. Məscidin qapısı hündürlüyünə qədərki məsafədən bütün divarları boyu üfuqi səmtdə aparılmış relyefli qurşaq onu uzaqdan ikimərtəbəli kimi göstərir. Əslində bu aldadıcıdır. Bina bir mərtəbəlidir. Təqribən bir metrlik kürsü üzərində inşa edilib. Eni 2 metrə çatan eyvandan birbaşa ibadət zalına qapı açılır. Giriş qapısı yuxarıdan yarım dairəvi tağbəndlə tamamlanır. Həmin qapının sol yanında kiçik ölçülü nişa var. Nişanın sağ və sol tərəflərində isə dairəvi formada daşlar qoyulub üzərinə kitabələr yazılmışdır. Məscidin ibadət zalında dörd ədəd daş sütunlar qoyulub. Sütunlara kömək məqsədi ilə yan divarlar üzərində playstrlar

quraşdırılmışdır. Onlar zalın üstünü örtən gümbəzlərin daha da möhkəm (möhtəşəm) dayanıqlı olmasına şərait yaradır. Ancaq məscidin interyerindən baxanda bu mənzərənin şahidi oluruq. Onun dam tərəfdən örtüyü isə Şuşa, Ağdam, Füzuli və s. şəhərlərinin məscidlərində olduğu kimi yamaclı formada həll edilmişdir. XVIII-XIX əsrin yadigarı olan Dondarlı məscidi Qarabağın qədim islam memarlığının gözəl nümunəsidir.

Qubadlı rayonunun Dəmirçilər kəndindəki məscid də xarici görünüşü ilə Dondarlı məscidini yada salır. Lakin fərq ondadır ki, Dəmirçilər kəndindəki məscidin interyerində iki sütun qoyulub. Damında isə azan verən üçün "güldəstə" quraşdırılmışdır. Dondarlı məscidindən fərqli olaraq bu məscidin interyeri üç tərəfdən qoyulmuş bir cüt pəncərələrlə yaxşı işıqlandırılır. Bu məsciddə də tavan gümbəzlə örtülüb, dam örtüyü yamaclı şəkildə tamamlanmışdır. XVIII və XIX yüzilliyin yadigarı olan Dəmirçilər məscidi də dövrümuzə qədər yaxşı vəziyyətdə gəlib çatmışdır.

Qarabağın zaman etibarı ilə qədim məscidlərindən biri də Füzuli rayonunun Qarğabazar kəndində yerləşir. El arasında Şah Abbas məscidi kimi tanınan bu məscid elmi ədəbiyyatlarda Hacı Qiyasəddin məscidi kimi öz əksini tapmışdır. Çünki məscidin qapı çatı üzərindəki kitabədə aydınca yazılıb: "Bu məscidi Böyük Allahın mərhəmətli bəndəsi Hacı Qiyasəddin tikdirib h.t.1095". Bu da miladi tarixi ilə 1683-84-cü ilə uyğundur. Hacı Qiyasəddin məscidi eyvansızdır. Tamamilə yerli daş materialları ilə bir zaldan ibarət tikilmişdir. Dam örtüyü tağtavan şəkilindədir. Giriş qapısı nəzərə alınmasa burada ağac materialından istifadə olunmamışdır. Məscid kəndin mərkəzindəki sal qayalı təpənin üstündə inşa edilmişdir. Onunla eyni dövrdə (XVII əsrdə) tikilmiş karvansara isə həmin təpənin cənubunda yerləşir. Karvansara və məscid konstmksiyasının memarlıq təhlili hər iki abidənin eyni memar tərəfindən tikildiyini söyləməyə imkan verir. Xatırladım ki, Füzuli şəhərində, eləcə də bu rayonun digər kəndlərində də qədim məscidlər çoxdur. Lakin Babı kəndindəki tək Füzuli rayonu üçün deyil, mən deyərdim bütün Qarabağ bölgəsi üçün hələ ki, yeganəlik təşkil edir. Bela ki, Babı məscidinin inşa olunma tarixi XII-XIII yüzilliklərə bağlanır. Məscid Babı kənd məzarlığında yerləşir. Daha doğrusu bu məzarlıqdakı Şeyx Babı Yaqubi türbəsinin qonşuluğundadır. Dövrümüzə qədər məscidin bir metr hündürlüyə malik olan daş kürsülüyü və bişmiş kərpiclə inşa edilmiş yaruçuq minarəsi gəlib çatmışdır. Məscidin bünövrəsinin mərkəzi hissəsində dörd ədəd sütun altlıqları indi da qalıb. Sütın altlıqlarının ölçülərindən (2mx2m) görünür ki, onlar üzərində oturdulnuış gümbəz çox möhtəşəm olmuşdur. Məscid girişinin sol tərəfindəki minarə yuxarı tərəfdən dağıdıldığından onun çardaq örtüyü haqqında fikir söyləmək çətindir. Lakin həmin məscidin yüksək keyfiyyətlə cilalanmış daş kürsülüyü, həm zərif gövdəli minarənin kompozisiya qurluşu, burada dövrünün ustad memarı olan Qarabağlı Əli Məcdəddinin əl işlərini bir daha nümayiş etdirir. Bu baxımdan Şeyx Babı Yəqubinin qəbirüstü türbəsi, eləcə də onun cənub tərəfindəki hamamın yüksək bədii memarlıq həlli və inşaal texnikası da bu ustad

memarın çox yüksək peşəkarlığa malik olmasını bir daha təsdiqləyir.

Yuxarıda deyilənlər bir daha sübut edir ki, hələ XIII yüzillikdə islam dini Qarabağda geniş yayılmış və buradakı memarlıq abidələri bunu bir daha sübut edir. Lakin bununla yanaşı "Qarabağnamələr" müəllifinin yazdıqlarında bəzi müəmmalı cəhətlərə də rast gəlinir.

Məsələn, Baharlı yazır: "Pənah xan bir məscid qarqudan təmir elədib, həmin yuxarı məscidi camenin yerində və yenə bir kilsə təmir elədib aşağı Bazarda ki, asarı məlumdur". Sonra elə həmin səhifədə yazır: "... Pənah xan əmr edərmiş ki, camaat gedib məscidə namaz qılsınlar. O camaat getməz. Axırda hökm edərmiş yasavul ilə xalqı məscidə aparıb Allah əmrin və namaz təlim etsinlər". Baharlının yazdığına görə müsəlmanlar ibadət etmirlər və hətta onların ibadətə zorla cəlb olunması barədə misal gətirir (bax "Qarabağnamələr" 2-ci kitab Bakı. Yazıçı 1991, səh 275).

Birincisi: Pənah xan Şuşa qalasına qədər Bayat və Şahbulaq qalalarını tikdirmişdir və həmin qalada kompleks tikinti işi apartdırmış, həmçinin hər iki qalada müxtəlif təyinatlı binalarla yanaşı daşdan gözəl məscid də inşa etdirmişdir. Yaxşı belə olan halda sual olunur. Pənah xan Şuşa qalasında bütün işləri hətta erməni kilsəsini belə kompleksə uyğun şəkildə yerli daş materialı ilə inşa etdiyi halda məscidi nə üçün qarqu ilə tikdirirdi?

İkincisi: Əgər Pənah xanın ətrafına toplanmış adamlar əvvəlki qalalarda olan məscidlərdə ibadətlə müntəzəm məşğul olublarsa, bəs nə üçün Şuşa məscidində ibadət etməsinlər?

Yeri gəlmişkən bir məsələyə də öz münasibətimi bildirmək istəyirəm: “Qarabağnamə”lər bəzi müəllifləri (Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir Qarabaği və s.) Pənah xana Şuşa qalasının tikiləcəyi yerin Məlik Şahnazaryan tərəfindən göstərildiyini xüsusi vurğulayır. (?) Əvvəla onu qeyd edim ki, Pənah xanın özü Qarabağda doğulub boya-başa çatıb və bütün gəncliyi elə Qarabağda keçib. Sonralar yəni Nadir şahdan qaçıb gizlənəndə də o, Qarabağda özünə sığınacaq tapmışdı və bütün dövrlərdə o Qarabağın hər qarışına bələd idi. Belə olan halda sual olunur, Şuşa qalasının tikiləcəyi yeri Pənah xana Məlik Şahnazaryan nə üçün göstərməli idi? Bütün bu kimi suallar bir daha göstərir ki, "Qarabağnamələr" in hələ də tədqiqata böyük ehtiyacı var.

**Salidə Şarifova**

## «AZƏRAİDA ADASI» ROMANINDA ÜMUMBƏŞƏRİ VƏ MİLLİ DƏYƏRLƏRİN NİSBİ PROBLEMİ

Gülşən Lətifxanın (Kazımovanın) «AzərAida adası» romanı maraqlı süjet xətti, kompozisiya quruluşu və janr özəllikləri baxımından maraq doğurur. Əsər mühacirətdə yaradılsa belə, bir tərəfdən milli ədəbi mühiti, o biri tərəfdən isə milli romançılığın adət-ənənələrini özündə əks etdirir.

«AzərAida adası» romanı və «Əsli və Kərəm» dastanı arasında müəyyən parallellər aparmaq olar. Romanın fabulası və əsas süjet xətti dastan ilə oxşarlıq yaradır. Bununla yanaşı, rus dilində qələmə alınmış «AzərAida adası» romanında Azərbaycan xalq atalar sözünə müraciət də diqqətdən yayınmır. Qeyd etmək lazımdır ki, «Əsli və Kərəm» dastanının süjeti milli ədəbiyyatımızda «keçən» xarakter daşıyır. Dastanın süjeti bir neçə müasir romanlarımızda istifadə edilmişdir. Məsələn, «Əsli və Kərəm» dastanı Nəriman Nərimanovun «Bahadır və Sona» və Qurban Səidin «Əli və Nino» əsərlərinin fabula və süjetinə önəmli təsir göstərmişdir.

«AzərAida adası» romanı N.Nərimanovun və Q.Səidin əsərlərinin ənənəsini müasirliyimizdə bərpası və davamı kimi qəbul edilməlidir. Ədəbiyyatşünaslıqda, N.Nərimanovun «Bahadır və Sona», Qurban Səidin «Əli və Nino» əsərlərinin məhəbbət mövzusunda qələmə alınmaları qabardılmışdır. Gülşən xanımın əsərinin adı da bizə bu təsiri buraxır. Lakin əsəri mütaliə etdikcə onun yalnız məhəbbət mövzusunda olmadığı aydınlaşır. Belə ki, «Əsli və Kərəm» dastanının süjetini istifadə edərək, Gülşən Lətifxan ümumbəşər və milli dəyərlərin nisbinin müəyyənləşdirilməsinə çalışır, onlar arasında üst-üstə düşən və ziddiyyət təşkil edən məqamları açıqlamağa cəhd göstərir. «AzərAida adası» romanının fabulasının əsasını, hələ Nəriman Nərimanov və Qurban Səid tərəfindən toxunulan, ümumbəşər və milli dəyərlərin dialektikası problemi təşkil edir. Lakin, «Bahadır və Sona» və «Əli və Nino» romanlarından fərqli olaraq, «AzərAida adası»nda ümumbəşəri dəyərləri əks etdirən iki gənc arasında məhəbbət əsas süjet xəttinin özəyini təşkil etsə də, romanın yardımçı süjet xətləri müasir dünyada milli koraponentin rolunun və mahiyyətinin açıqlanması ətrafında yaradılmışdır. Bu dualizm əsər boyu özünü büruzə verir. Əsərin süjet xəttinin əmisi oğlu, atası Muradın qardaşı Həsənin oğlu Azərə aşiq olan Aidanın, yəni adi bir qızın xatirələri əsasında inkişaf etməsi, cazibəli dialoq və obrazların nitqi ilk növbədə diqqəti cəlb edir. Oxucunu etinasız buraxmayan gənc qızm keçirdiyi iztirablı yaşantıları, həyatın sosial və ictimai problemləri oxucunun gözləri önündə canlanır, məhəbbət xətti ilə ictimai məsələlər paralel aparılır. Həyatın ağır imtahanlarından çıxmış qızcığazın acınacaqlı taleyi kino lenti kimi oxucunun gözü önündən keçir.

Əsər N.Nərimanovun «Bahadır və Sona», Qurban Səidin «Əli və Nino» əsərləri kimi iki gəncin məhəbbətini əks etdirirsə, biz bu əsəri heç də məhəbbət mövzusu üzərində qurulmuş roman hesab etməməliyik. «AzərAida adası»nda sosial ziddiyyətlərə və ədalətsizliyə, cəmiyyətdəki nöqsanlara diqqət yetirilmişdir. Əsərdə bir neçə sosial problemlərə toxunulmuş, lakin müəllif onların hamısının bünövrəsində humanizm böhranı probleminin durduğunu vurğulayır. Humanizm böhranının dərinliyini açıqlamaq üçün müəllif ailə münasibətlərinə toxunur. Ailə münasibətlərinin saflığı insanlarda mənəvi sağlam görüşlərin formalaşması üçün önəmli xarakter daşıyır. Bir növ ailə institutunun durumu humanizmliyin indikatoru kimi qəbul edilə bilər. Gülşən Lətifxan erməni millətçiliyinin

antihumanist mahiyyətini açıqlamaq üçün erməni millətindən olan qadının Aidanın anası olması və yoldaşını atıb getməsi priyoraundan istifadə edir. Erməni millətçiliyi ideologiyasının təsiri altına düşməyən Aida anasının onu atıb getməsini anlaya bilmir. Aida ona əziyyət verən bu suala öz düşüncələri ilə qiymət verməyə çalışarkən, Azərbaycan xalqının humanist düşüncələrə hakim olmasını nəzərə çatdırır. Bu humanistliyi o, ilk növbədə, hələ də Azərbaycanda ermənilərin yaşaması faktında açıqlayır: «Konfliktin başlanmasından bir neçə il keçməsinə baxmayaraq, rəsmi məlumatlara görə, Bakıda bu gün iyirmi mindən artıq erməni yaşayır. Hər gün erməni aqressiyası nəticəsində qəbirlərlə dolan Bakıda. Məhz niyə mənim anam Bakıdan getməli idi? N-İ-Y-Ə?». Aida bu sualla anasına müraciət edir: «Ana, bizim şəhər faşistləşmiş Yerevan deyil, haradan ki, ermənilər azərbaycanları və başqa millətləri qovublar. Ermənilər öz dövlətində monomillətə çevriliblər, bizim ölkədə isə bu gün də iyirmi min erməni yaşayır». Beləliklə, müəllif müasir humanizmliyin böhranının səbəblərindən birini ümumbəşər və milli dəyərlərin, görüşlərin arasındakı ziddiyyətlərin olmasını göstərir.

Qeyd etmək lazımdır ki, Gülşən Lətifxan kosmomolit görüşlər naminə milli dəyərlərin unudulmamasına çağırmır. Sadəcə «AzərAida adası» romanında milli şüurun və milli ideologiyanın kamilliyinin meyarı kimi humanistliyin əsas prinsiplərinin çıxış etdiyi vurğulanır. Bu baxımdan, Aidanın erməni terrorçusu olan dayısı Ruben ilə Moskvada görüşündən sonrakı düşüncələri maraq doğurur: «... mənim qarşımda əyləşən insan xəstə idi, sağalmaz xəstə idi və ona heç kəs yardım göstərə bilməzdi. Yalnız xəstə insan öz ürəyində bu gədər nifrət daşıya bilərdi, yalnız xəstə insan öz qəlbində bu qədər paxıllıq və şübhələr toplaya bilərdi». Rubenin bacısı qızı Aidanın namusuna toxunması onun bir şovinist və işğalçı kimi kəskin mənəvi-psixoloji sindroma, o cümlədən antihumanist görüşlərə məruz qalmasının nəticəsidir. Ruben öz əməlinə Aidanın Azərbaycan millətinə mənsub olması ilə haqq qazandırmağa cəhd edir. Lakin, bu hərəkətə görə Ruben baçısı tərəfindən qətlə yetirilir. Bununla müəllif erməni millətçiliyinin təsiri nəticəsində formalaşmış erməni cəmiyyətindəki ziddiyyətlərin dərinliyini açıqlayır: kəskin humanizm böhranına məruz qalmış cəmiyyət inkişaf potensialına malik deyil.

Aidanın atasının göndərmiş olduğu qılıtıcla Rudenin qətlə yetirilməsi rəmzi məna daşıyır və əslində iki millətin mənəvi dəyərləri arasında qarşıdurmanı simvollaşdırır. Gülşən Lətifxan Azərbaycan və Ermənistan arasında gedən müharibəni mənəvi dəyərlərin qarşıdurması səviyyəsində açıqlayır. Bu qarşıdurmanın əsas arenası milli şüurdur. Müəllif Azərbaycan və erməni cəmiyyətlərində genosid aktlarına fərdi yanaşmanı işıqlandıraraq, bu qarşıdurmanın əsas amillərini açıqlamağa nail olur. Bu baxımdan, azərbaycanlıların Yerevanda qonaq olması zamanı onların yalançı «soyqırım»a həsr edilmiş memoriala ziyarətə aparmaq cəhdi epizodu maraq kəsb edir. Ermənilərin bu həyasızlığına cavab olaraq, Murad kişinin dedikləri maraq kəsb edir: «1905-ci qırğınında, daha sonra 1918-1920-ci illərdə itkilər vermiş

Azərbaycan xalqı Şamaxı, Lənkəran, Zəngəzurda erməni işğalının minlərlə qurbanlarına memorial qoymamışdır. Azərbaycan xalqı, həmçinin də türklər İqdır və Karsdakı hadisələrlə əlaqədar, erməni tərəfindən törədilmiş soyqırım məsələsini ortaya atmır. Biz keçmişdə tökülən qan ilə yalnız yaşamağı məsləhət bilmirik». Bu epizod Azərbaycan və erməni milli şüurlarının arasındakı fərqi açıqlayır: Azərbaycan millətçiliyi özündə humanist dəyərləri əks etdirir. Bu tezisi təsdiq etmək üçün müəllif 1992- ci il 25-dən 26 fevral gecəsinə keçən gecədə erməni terrorçuları tərəfindən Xocalıda törətdilmiş soyqırım nəticəsində dinc əhalinin işgəncə ilə qətlə yetirilməsinə diqqət yetirir.

Qeyd etmək lazımdır ki, Gülşən Lətifxan ümumbəşər və milli dəyərlərin qarşıdurması problemini əsərdə qaldırır, lakin qaldırılmış problemə cavab tapmır. Müəllif Avropada yayılmış tolernat yanaşmanı Cənubi Qafqaz şəraitində tədbiq edə bilmir. Qarabağ müharibəsinin olayları Gülşən Lətifxanlıya, daxildən istəsə belə, ümumbəşər dəyərlərin birmənah prioritetini elan etməyə imkan vermir. Bu baxımdan, Aidanın gizlin dinlədiyi ata və anasının dialoqu maraq doğurur. Həmin söhbətdə atasının erməni qadını ilə evlənməsinə olan peşimançılığı cəmiyyətdə özünü tam hüquqlu insan kimi hiss edə bilməməsindən doğduğu açıqlanır: «..Birincisi, mən bu gün erməni qadınını sevə bilməzdim, ikincisi, mən belə qadını sevsəm belə, o məhəbbəti ürəyimdən çıxarıb atardım, məhv edərdim! ...Bu hadisələrdən sonra inanmıram ki, hər hansı bir azərbaycanlı erməni qadını ilə nigah qura, elə azərbaycanlılar tapılsa belə - onların nə namusu var, nə qeyrəti, nə ürəyi». Məhz buna görə Gülşən Lətifxan «Azəraida» adasına müraciət edir. Əsərdə ada - azadlıq rəmzi kimi çıxış edir, ilk növbədə sosial ziddiyyətlərdən azad azadlıq. Müəllif ümumbəşər və milli dəyərlərinin simbiozunu yalnız bu adada birləşdirə bilir. Müəllifin romana müraciəti birmənalı qəbul edilməməlidir. Janr baxımından bunu bir qüsur kinıi vermək olardı. Lakin müasir dünyada humanizm problemininin dərinliyini nəzərə alsaq, adadan istifadə etmə priyomuna haqq qazandırmaq olar.

**Sevda Süleymanova**

## ƏHMƏD BƏY AĞAOĞLU GÖRKƏMLİ İCTİMAİ-SİYASİ XADİM KİMİ

XX əsrin əvvəllərində Azərbaycan xalqı Rusiyanın müstəmləkəçilik əsarətindən azad olub, müstəqil demokratik dövlət qurması üçün təməl olan milli ideologiyanın yaradılıb, formalaşmasında mühüm rol oynayan görkəmli şəxsiyyətlərdən biri də Əhməd Ağaoğludur.

Düz 140 il bundan əvvəl, hazırda nankor ermənilərin işğalı altında inləyən, gözəlliyinə həsrət qaldığımız Şuşada doğulub, buradaca ilk təhsilini rus məktəbində almış Ə.Ağaoğlu XIX əsrin II yarısından etibarən mətbuatda ardıcıl olaraq islama və Şərq xalqlarının tarixinə aid məqalələrlə çıxış etməyə başlayır. O,

hələ Parisin Sorbonna universitetində təhsil alarkən, 1892-ci ildə şərqşünasların Londonda keçirilən konqresində etdiyi «Şiə məzhəbinin qaynaqları» adlı məruzəsi sonradan bir çox Qərbi Avropa dillərinə tərcümə edilir.

Ə.Ağaoğlu tələbəlik illərində tanınmış islam modernisti və islahatçısı sayılan Şeyx Cəmaləddin əl-Əfqani və Şeyx Məhəmməd Əbdühlə tanış olmuş, onların nəşr etdirdikləri «əl-Ürvətülvüsqa» («Möhkəm əlaqə») qəzetinin ideya istiqamətini əkz edə bilmişdi. Vətənə qayıtdıqdan sonra o mətbuatda Şərq ölkələrinin sosial-siyasi durumuna və islamda təriqət ayrılıqlarına həsr olunmuş silsilə məqalələr dərc etdirir. Bu isə onun ictimai-siyasi fəaliyyətə məhz publisistika ilə başladığını göstərir.

Xalqımızın əxlaqi və mənəvi təməli olan islam haqqında rus ictimaiyyətində həqiqi biliyin çox cüzi olması ona qarşı hücumlara səbəb olurdu. Bu hücumların qarşısını almaq üçün Ə.Ağaoğlu Avropa, rus və erməni mətbuatında dərc olunan təhrif və təhqir dolu yazılara dərhal münasibətini bildirməklə elmi cavablar verirdi. O, Qərb yazıçılarının islamı Şərqdə qadın intibahının qarşısında maneə adlandırmaları ilə əlaqədar yazırdı: «Doğurdanmı islam qadının düşməni, onun hüquqlarını və şəxsiyyətini boğan bir amildir? (1)»

Ərəblərin islamaqədərki tarixinə müraciət edərək qadının vəziyyətində inqilabi dəyişiklik edən Məhəmməd Peyğəmbərin rolunu göstərən Ə. Ağaoğlu bu suala belə cavab verir. XIII-XIV əsrlərdə Avropada indulgensiya, inkivizisiya və digər dini təqibləri xristianlığın təsiri kimi qiymətləndirmək nə qədər aciz görünərsə, orta əsr Şərq feodal qalıqlarını da yalnız islamla bağlamaq o dərəcədə əsassızdır.(l)

İslam dinini elmin qarşısında sədd, fanatizm, xurafat, puç və əfsanə adlandıranlara isə «islamın və tərəqqi» məqaləsi ilə cavab verən Ə.Ağaoğlu Məhəmməd Peyğəmbərin alimlərə verdiyi qiymət haqqında yazırdı. «1) Alimlər yerdə peyğəmbərin varisidir: 2) Alimlər yerin... məşəlidir. 3)Bir tayfanın ölümü alim ölümündən azdır...» (2)

Ə.Ağaoğlu islamla bağlı məqalələrində təriqətçiliyə qarşı qətiyyətlə çıxmaqla onları müsəlman dünyasını parçalamaqda və bütövlükdə islam dinini nüfuzdan salmaqda günahlandırırdı.

Ensiklopedik biliyə malik olub bir çox Avropa və Şərq dillərini gözəl bilən Əhməd bəy Ağaoğlu görkəmli mütəfəkkir M.F. Axundovun Qafqazda, Melkumxanın isə İranda əlifba islahatı cəhdlərini yüksək qiymətləndirərək yazırdı ki, oxucular olmasa mətbuat inkişaf edə bilməz. Bunun üçün oxunaqlı əlifba lazımdır. O, milli mətbuatın və milli teatrın banisi H.Məlikovun «Əkinçi» və Ünsizadə qardaşlarının «Kəşkül»ün nəşri üçün etdikləri fədakarlıqların Azərbaycanda ictimai-siyasi hərəkatın təməli olduğunu göstərirdi.

İctimai mətbuat orqanının olmamasını xalqın geridə qalmasını şərtləndirən cəhət adlandıran Ə.Ağaoğlu mətbuatı mədəniyyətin başlıca daşıyıcısı hesab edirdi. Görünür elə buna görə o, «Həyat», «İrşad», «Kaspi», «Tərəqqi», «Həqiqət», «Yeni

həqiqət» və s. qəzetlərin nəşrində fəal iştirak edir, bəzilərinin redaktoru olurdu. Mətbuatda islam haqqında ardıcıl çıxışlarına görə sovet tarixşünaslığı onu «panislamist» adlandırırdı. Halbuki, Ə. Ağaoğlu özü «Panislamizm, onun xarakteri və istiqaməti» adlı məqaləsində yazırdı. «Son zamanlar Avropa mətbuatında daha tez-tez və ciddi surətdə panislamizm deyiləndən danışılır. Lakin təəssüf ki, ondan danışanlar müsəlmanlar arasında hər hansı bir hadisəni «sensasiya» və ya «qorxu xofu təlqin etmək» kimi qələmə verməkdən başqa məqsəd güdmürdülər.»(3) O, panislamizmi «ifrat mütərəqqiçilərlə» «ifrat köhnəpərəstlər» arasında hər iki tərəfi razı sala biləcək birləşdirici ideya. onun yaradıcılarını isə ağıllı ünsürlər kimi qiymətləndirirdi. (7, 83)

Ə. Ağayevin fikrincə 100 müsəlmandan 1%-ni «ifrat mütərəqqiçilər». təxminən 80%-ni «ifrat köhnəpərstlər», 20%-ni isə «ağıllı ünsürlər» təşkil edir. Bu, göstərici ictimai hərəkatın sosial bazasını müəyyən etməyə də imkan verir. O, panislamizmi müstəmləkə zülmü altında inləyən dünya müsəlmanlarının ümumi düşmənə qarşı birgə mübarizəyə çağırış kimi qiymətləndirərək yazırdı: «Bizim qiymətli hüquqlarımızı geri almaq və despotizmin dəmir caynaqlarından azad olmağa çalışmaqdır.» (7, 93)

Şərq maarifçiliyi zəminində formalaşmış böyük mütəffəkir, publisist Ə. Ağaoğlu ümumtürk problemləri ilə məşğul olaraq, hələ gənc yaşlarından milli-azadlıq hərəkatlarının təsiri ilə əsl milli özünüdərketmə prosesi keçərək mükəmməl milli intibah, milli azadlıq konsepsiyasına gəlib çıxmışdı. O, türklərin müstəqil dövlət qurduqları dövrləri yada salaraq azadlığı insan şüurunun cövhəri adlandırırdı. Onun fikrincə, hər bir insan milli əxlaq və mənəviyyatın müqəddəs normalarından biri olan vətənpərvərlik hissinə malik olmaqla yanaşı, Vətən yolunda cəfaya da dözməli torpağın hər qarışını düşməndən qorumaq üçün öz qanını belə əsirgəməməlidir.

Ə.Ağaoğlunun azadlıq mübarizəsi yalnız publisistika ilə məhdudlaşmırdı. O, bilavasitə siyasi fəaliyyətlə məşğul olurdu. Belə ki, «Hümmət» partiyasına üzv olmaqla sosialist kimi siyasətə qoşulan Ə.Ağaoğlu tezliklə erməni hücumlarının qarşısını almaq üçün «Difai» adlı milli siyasi partiyanın yaradıcısına çevrilir. Arxiv materiallarına istinadən, o, 1906-cı il avqustun əvvəllərində, son qırğın zamanı Şuşaya gələrək nüfuzlu adamları həkim Ə.K. Mehmandarovun evində toplayıb yığıncaq keçirir. Burada Qafqaz müsəlmanlarının həyatını təhlükə altında qoyan məhrumiyyətlərin səbəbləri sırasında: 1) erməni-müsəlman münaqişəsi, 2) Xalqın savadsızlığı, nadanlığı, 3) müsəlmanların sosial-mənəvi tənəzzülü göstərilmişdi. (5, 164) Partiyanın Azərbaycanın hər yerində şöbələri var idi. Xalqı maarifləndirmək və məhv olmaq təhlükəsindən xilas etmək sahəsində apardığı iş partiyanın əhali arasında nüfuzunun artmasına səbəb oldu.

1907-ci il mart ayında Gəncədə keçirilən iclasdan sonra partiya «Qafqaz ümummüsəlman müdafiə komitəsi» «Difai» adlanmağa başladı. Onun sədri isə səsvermə zamanı Rusiya Dövlət dumasının sabiq üzvü İsmayıl Xan Ziyadxanov

seçildi. Partiyanın müraciətnaməsində deyilirdi: «Mütəşəkkil hərbi qüvvəyə malik eyni zamanda yeni silahlarla, hətta toplarla təchiz edilmiş daşnak partiyası bir tərəfdən silah gücünə bütün erməniləri, digər tərəfdən də Qafqaz hökumətini özünə tabe edən ən ümdə məqsədlərinə nail olmağa çalışırlar. Onların əsas məqsədləri Qafqazda yaşayan bütün müsəlmanları, qırdıqdan sonra onların torpaqlarını işğal etməkdir.... «Daşnak» partiyası əmin olsun ki, heç bir vaxt öz millətimizin xarabazarlığı və külü üzərində erməni millətimin səadət və xoş güzəran qurmasına yol verməərik...» (6, 16)

Bəzi sənədlərdə Ə.Ağaoğlunun mühacirəti və partiyanın rəhbər işçilərinin həbs və sürgünə məruz qalmaları ilə «Difai»nin 1908-1909-cu illərdə fəaliyyətinin dayandırılması göstərilir. Halbuki 13 oktyabr 1917-ci il tarixli «Açıq söz» qəzetinin yazdığına görə, Azərbaycan siyasi partiyalarının Gəncə müşavirəsində «Nicat» və «Difai» inqilabi partiyalarının nümayəndələri proqramlarının «Müsavat»ın proqramına uyğun gəldiyindən «Müsavat» fraksiyasına daxil olmuşlar. (4)

İstanbula gedən Ə.Ağaoğlu, tezliklə orada yaradılan «Türk ocağı» cəmiyyətinə daxil olur və «Türk yurdu» jurnalında Ziya Goyalp, Yusif Akçura, Zəki Validi Toğan, Əli bəy Hüseynzadə və Məhəmməd Əmin Rəsulzadə ilə birgə çalışmağa başlayır. 1917-ci ildə Nuru paşanın siyasi müşaviri kimi Vətənə qayıdaraq ilk Azərbaycan hökumətinin böhrandan çıxmasına yardım edir. Demokratik Azərbaycan parlamentinə Zəngəzur qəzasından deputat seçilən Ə.Ağaoğlu artıq siyasi dövlət xadimi kimi özünü göstərir. O, Parisə göndəriləcək beynəlxalq sülh konfransında iştirak etmək üçün yaradılmış Azərbaycan nümayəndə heyətinin tərkibinə salınsa da, bədnam ermənilərin pozuçuluq işi nəticəsində İstanbulda ingilislər tərəfindən həbs olunub digər ittihadçılarla birlikdə Malta adasına sürgün olunur.

Türkiyə Cümhuriyyəti qurulduqdan sonra bura qayıdan Ə. Ağaoğlu həyatının qalan hissəsini elmə həsr edir. O, Türkiyənin siyasi həyatında millət vəkili, müşavir, diplomat, məmur kimi iştirak etmiş professor adı alaraq ali məktəbdə elmi-pedaqoji fəaliyyət göstərmişdir.

**Qeyd:**


1. Агаев А. Ислам и женщина «Каспий», 11 декабря 1898
2. Агаев А. Ислам и прогресс «Каспий», 10 января 1898
3. Агаев А. Панисламизм, его характер и направление «Каспий», 14 апреля 1900
4. «Açıqsöz», 13 oktyabr 1917
5. ARDTA, f.62, siy. 1, iş 59, v.164
6. ARDTA, f. 524, siy. 1, s/v. 18, v.16
7. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri). Bakı, 1999 422 s.

Sənubər Saralı

# К ИСТОРИИ ОДНОЙ ФАЛЬСИФИКАЦИИ

Не так давно я побывала в Санкт-Петербурге и, конечно же, посетила Государственный исторический музей. В одной из экспозиций отдела «Античный мир и Кавказ» увидела стенд с информацией об академике Борисе Борисовиче Пиотровском (1908-1990)... и о раскопках Кармир-Блура, в которых он принимал участие. А рядом карта Урарту. Вокруг территории этого древнего государства четко обозначены названия последующих образований. Здесь между Каспием и Черным морем Россия, Иран, Ирак, Турция, Грузия (Тифлис-Тбилиси), Армения (Раван-Эриван-Ереван). Не указан только лишь Азербайджан. Сколько лет эта карта висит в Эрмитаже! Но видно, нет никому никакого дела до явной географической фальсификации, допущенной в ней. А ведь историки хорошо знают, что хайи, так называемые армяне, были переселены на Кавказ только в начале XIX и не могут считаться одним из коренных этносов этого региона.

В 1975-1980гг. в журнале «Курьер» было отмечено, что армянские ученые представили в ЮНЕСКО данные о принадлежности древнего Урарту Армении. Будто бы источники свидетельствуют о наличии армянского (хайского) фактора на территории, существовавшего 3 тысячи лет тому назад государства. Специалисты ЮНЕСКО, исследовав все факты, выразили сомнение по поводу дайной версии. Действительно, есть сведения о государстве Урарту, но вовсе нет упоминаний об армянском присутствии при его основании. Не найдены до сих пор также и факты, подтверждающие проживание армян (хайев) на территории этого государственного образования.

Как тут не вспомнить про то, что говорил Марк Туллий Цицерон (106-43-гг) пусть еще и до н.э.: «Первая задача истории - воздержаться от лжи. Вторая - не утаивать правду. Третья - не давать никакого повода заподозрить себя в пристрастии или предвзятой враждебности».

Удивляет то, что эта карта висит рядом со стендом Б.Б.Пиотровского. Ведь именно этот ученый в свое время отмечал: «В своем выступлении 24 марта с.г. (1971 г) на заседании Президиума Академии наук Армянской ССР я указал на то, что в изданиях Академии и в ряде журналов были напечатаны статьи о древнем иероглифическом письме Армении, в которых авторы арабское письмо выдавали за хайасские иероглифы Х1Х-ХУП в.в. до нашей эры. Тогда я считал возможным ограничиться лишь устным сообщением, но письма, направленные С.Айвазяном в разные инстанции, в том числе и в Президиум Академии наук Армянской ССР, показали, что он считает мое выступление на Президиуме неверным. Поэтому я и прошу Вас опубликовать мои замечания. В ряде статей С.Айвазян сообщает об открытом им иероглифическом письме XIX в. до н.э. и без затруднения дает перевод этих надписей, сравнивая знаки на скалах Мецамора (Кармир-Блур) со знаками, сохранившимися в армянских рукописях, в

свое время изданных Н.Эмином ("Исследование и статья Н.О.Эмина", М.,1886 г., стр. 204),

В статье Б.Мкртчяна, напечатанной на английском языке в чехословацком журнале, кроме прорисовок "хайасских монет XIX в. до н.э."" помещены также их фотографии. Когда эти монеты были переданы на определение в отдел нумизматики Исторического музея Армении, то было получено следующее заключение: "Медные монеты, изображенные в журнале, совершенно неправильно представлены как денежные единицы XIX в. до н.э. На самом деле это монеты (со старыми надписями) ХП-ХШ в нашей эры, выпущенные атабеками Азербайджана из династии Ильдегизидов (1133-1225г.г. н.э.) Таковые имели массовое распространение в средневековой Армении и определенных областях Закавказья. Оказалось, что прорисовки, опубликованные С.Айвазяном и перепечатанные в статье Б.Мкртчяна, надуманны и ничего общего не имеют с реальностью, нужно лишь удивляться тому, как автор решился опубликовать подложные прорисовки. Не лучше обстоит дело и с "хайасскими надписями" (ХВЫЫ в. до н.э.) на камнях и скалах Мецамора. В действительности, по заключению арабистов Института истории АН Армянской ССР, камень представляет собою надгробие с арабской надписью (неточно скопированной): "Али ... Касим-хан". Конечно, эта надпись читается не слева направо, как полагал С.Айвазян, а наоборот - справа налево.

Кто хоть немного знает арабское письмо, узнает написание имен куфическим шрифтом и тем удивительнее упоминание в приведенной статье мнения о том, что "некоторые археологи надписи на мецаморском камне считали арабскими" (стр.71), неужели нельзя было проверить это мнение у арабистов (!).

Копии С.Айвазяна неточные и по ним нельзя судить о характере и времени арабских надписей, но на основании фотографий одной из приведенной в английской статье Б.Мкртчяна, проф. В.А.Крачковская сделала следующее заключение: «в надписях Мецамора явно видны знаки арабского куфического письма, выполненные неуверенной рукой, читаемые справа налево, как имена: Али и Хасан. По форме знаков они могут быть средневековыми, а отнесение их к XIX в. до н.э. не возможно. Уместно вспомнить, что у холма Мецамор находилось азербайджанское селение Зейва. (Из Западного Азербайджана (Хайастана) с 1988 по 1992 годы, подвергаясь геноциду, было изгнано все азербайджанское население. Авт.) Подбирая армяно-урартские соответствия для доказательства того, что урартская клинопись является письмом армянского языка, С.Айвазян не знал, что он повторяет мнение А.Мордтмана, переводившего на армянский не только урартские, но и ассирийские клинообразные надписи (ХХВЫ, 1827). Подтвердилось мнение, высказанное 150 лет назад и давно отвергнутое наукой. Таковы были мои замечания, высказанные на заседании Президиума

Академии наук Арм. ССР с целью остановить поток безграмотных "теорий", наносящих вред армянской исторической науке, и, к сожалению, проникших в популярную литературу.

(Заимствование урартских слов армянским языком было в свое время доказано Г.А.Капанпяном и Г.Р.Ачаряном).

Историко-филологический журнал №3 (54) Издательство Академии наук Армянской ССР 1971 г. Ереван Академик Б. Пиотровский (Ленинград).

Есть и другие свидетельства лживости армян. Обратимся к авто-реферативным показаниям русского генерала Маевского, генерального консула Российской Империи в Ване и Эрзуруме, опубликованным в военном издательстве, в Петербурге в 1902 году.

Они весьма характерны. Судите сами: «Религиозная деятельность армянского духовенства весьма незначительна, но. как бы взамен ее, оно всегда усердно трудилось на почве поддержания национальных идей. Здесь духовные пастыри трудились не столько над проповедью «Слова Божьего», сколько над поддержанием идеи национальной розни христиан и мусульман».

Есть и такое: «Слышно ли что-нибудь о героях армян? Где их борцы за свободу? Их нет. Почему? Потому, что борцы эти играли роль именно палачей своего народа, а не его освободителей. Армянские банды вызывали обыкновенно смуты, резню, а затем скрывались, а безоружные массы армян должны были расплачиваться своей кровью и своим достоянием за «подвиги» своих вооруженных братьев».

А это вот по поводу надуманного геноцида над армянами в начале XX века, про который они трубят на весь мир: «Как бы ни обвиняли турок во всяких там зверствах скажу одно: все, что мне известно лично по поводу столкновения армян и мусульман в различных городах Турции, приводит меня к тому убеждению, что кровавые дела везде начинались по инициативе именно самих армян... Армянский народ является ничем иным, как жертвой его умопомраченных руководителей, которые именно своим руководством погубили не одну тысячу своих братьев и не достигли улучшения социатьного положения, а напротив, поставили их в самое отчаянное и, пожалуй, безвыходное положение».

А вот, что писал Манук Абегъян, армянский писатель XIX век:

«Неизвестно, когда и откуда хайи пришли в Армению (Хайа-стан). Армянский язык - язык-гибрид, равно как и сами армяне, ассимилировавшие Урарту и других своих соседей. Каково прошлое у армянского народа, когда, откуда, и какими путями они пришли сюда (Хайастан), до того как стать армянами, кем они были, с какими племенами находились в общении, кто и как оказывал влияние на их язык, этнический состав? В наших руках нет точных доказательств, подтверждающих это".

Во время своего визита в Азербайджан в мае 2002 года в своем

выступлении Папа Римский Иоанн Павел II сказал: "Вы, азербайджанцы, должны гордиться тем, что являетесь продолжателями древней албанской культуры".

Уезжая. Папа Римский Иоанн Павел II забрал с собой молодого азербайджанского парнишку из села Нидж Габатинского района для прочтения старинных албанских надписей на исторических памятниках. Это еще раз подтверждает истину о том, что Азербайджан имеет очень древнюю историю, корнями уходящую в алоанское прошлое.

В 2007 году председатель Центра свободы и гражданских прав Армении Вардан Арутюнян сказал: "Маленькие и временные победы мы хвалим. Мы застывший в прошлом народ. Мы не могли освоить ценности XX века, и не смогли перейти в XXI. Кроме церкви мы ничего не смогли сберечь и ничего не создали. Нашему самому древнему городу всего 200 лет".

Сделанная мною фотография в Государственном Музее «Эрмитаж» в Санкт-Петербурге 18 апреля 2009 года наглядно демонстрирует очередной поток армянской лжи. Неужели сын Б.Пиотровского, являющийся ныне директором Эрмитажа, не замечает этой фальсификации, против которой в свое время выступал его отец?! Думаю, что этот вопрос должен решиться на государственном уровне.

**Tofiq HƏSƏNOV**

# ZƏNGƏZURUN TÜRK-MÜSƏLMAN ƏHALİSİNƏ QARŞI ERMƏNİ TƏCAVÜZÜ (1906-ci il)

1905-1906-cı illərdə Şuşa şəhərinin türk-müsəlman əhalisinə qarşı ermənilərin təcavüzü iki dəfə ağır məğlubiyyətə uğradı. Şuşa şəhərindəki ağır məğlubiyyətin əvəzini çıxmaq məqsədilə erməni silahlıları Zəngəzur qəzasının türk-müsəlman əhalisinə qarşı təcavüzə başladılar. Ermənilər Cavanşir və Cəbrayıl qəzalarına dağılmış silahlı dəstələrini bərpa edib Qafan mis mədənlərilə məşhur olan Qatar kəndi yaxınlığında yerləşən Barabatum və Çəkədək adlı erməni kəndlərində topladılar. Erməni daşnaklarının məqsədi Qafan və Gorusdan Naxçıvana kimi olan yol boyunca Zəngəzur qəzasında yerləşən türk-müsəlman kəndlərini dağıtmaqla, erməni silahlı dəstələrinin dava vaxtı arxayın və təhlükəsiz hərəkətini təmin etmək olmuşdur.

Zəngəzura erməni daşnaklarının silah və sursat daşımaları üçün ən əlverişli yol İrəvandan idi. İrəvandan Zəngəzura erməni hərbi dəstələrinin hərəkət etməsi üçün erməni daşnak silahlıları türk-müsəlman əhalisi yaşayan kəndlərə hücumlar edərək bir çox kəndləri dağıtdılar. Xanlıqlar. İtqıranlar darmadağın olundu. Naxçıvan mahalının Cəhri faciəsi qəflətən baş verdi. Dağ keçidlərindən Zəngəzura aşmaq üçün Dirlis, Unus, Pəzməri adlı türk - müsəlman kəndlərini dağıda bilməyib onları yalnız mənəvi sarsıntıya məruz qoydular. Zəngəzur mahahının yerli türk-müsəlman əhalisi yaşayan Oxçu, Səbədək, Purdavud, Atqız kəndlərinin əhalisi cəsur və şücaətli, igid insanlar olmaları və bir-birləri ilə mehriban ittifaqda yaşamaları nankor erməniləri dəhşətə salırdı. Bu yüksəkliklərdə yerləşən kəndlər Zəngəzur bölgəsinin açarı sayılırdı. Erməni daşnaklarının Aleksandropol, İrəvan, Abaran, Suragüldən gətirilmiş silahlı dəstələri Ağulis, Kəlağı, Dəmqurd kəndlərində yerləşdirildi. Beləliklə, erməni əsgərləri iki mühüm nöqtəyə, birisi mis mədən ətrafına, digəri Ordubadın dörd-beş verstliyində yerləşən Ağulis və ətraf erməni kəndlərində yerləşdirilirdi.

1906-cı il iyul ayının 29-da erməni Mirzə Aram Nehrəmovun fitnəsi ilə Ulxu elinin Qaraçəmən kəndinin nücaba bəyzadələrindən olan Camal bəyin xidmətçisi Səfiyar bəyin Mədən bazarında daşnaksütun partiyasının silahlı qatilləri tərəfindən vəhşicəsinə öldürülməsi yerli türk-müsəlman əhalisinin qəzəblənməsinə səbəb oldu. Mədən bazarına hücum çəkən türk-müsəlman kəndlərinin silahlıları bir erməni öldürüb və bir boş mis mədənini yandırdılar. Bazara hücum çəkən erməni silahlı dəstələri türk-müsəlman əhalisinin dükan-bazarını talayaraq odlayıb yarım milyona qədər zərər vurdular. Malları qarət olunmuş və dükanları yandırılmış Ordubad tacirləri Qatar kəndinə qaçırlar. Ermənilər Mədən bazarını qarət edib dağıtdıqdan sonra Oxçu-Şəbədək enişlərinə gəlib çatan altı nəfərlik atlı dəstəni qətlə yetirdilər. 1906-cı il iyul ayının 29-da günorta saat on ikidə beş min nəfərlik erməni silahlıları Karxana adlı türk-

müsəlman kəndini hər tərəfdən atəşə tutaraq hücuma keçirlər. Karxana kəndinin əhalisi beş min nəfər tərəfindən atılan atəşə tab gətirməyib dağ-daşa, kolluqlara dağılmağa məcbur olurlar. Kəndin ətrafında olan qayalıq bir yerdə, qaya arxasında otuza qədər qadın-uşaq və qoca kişi gizlənmişdilər. Ermənilər tərəfindən öldürülmüş Tahir adlı Ordubad tacirinin Pakizə adlı həyat yoldaşı və Füruzə adlı südəmər körpə qızı da bu otuz nəfərlə birlikdə idi. Körpə Füruzə atılan tüfənglərin güllə səslərindən qorxaraq ağlayır. Cocuğun ağlamaq səsini eşidib gələn ermənilər qaya arxasında olan türk-müsəlmanların hamısını həlak etdilər. 1906-cı il iyulun 29-da Karxana kəndinin əhalisinin tamamilə qırdıqdan sonra erməni silahlıları türk-müsəlman əhalisi yaşayan Lov, Xələc, Saldaşlı, İncəvar, Daşnov kəndlərini dağıtdılar. Bu kəndlərin salamat qalan əhalisi Qatar kəndinə pənah apardılar. 1906-cı il avqust ayının 1-də saat on ikidə Qatar kəndini mühazirə edən erməni silalıları atəşə başladılar. Şiddətli atəş vaxtı pristav Saxarovun yanında olan bir ləzgi keşikçi «Cənab pristav sizdə heç rəhm-mürüvət yoxdurmu? Siz baxırsınız islamları gülləbaran edirlər. Olmazmı ki, kəndin kənarında olan kazaklara buyurasan, islamları mühafizə etsinlər» - dedikdə pristav Saxarov «mən müsəlmanları mühafizə edə bilmərəm. Görmürsən ermənilər necə canalıcı güllə atırlar» - cavabını vermişdir. Qatar kəndinin əhalisinin mətin müqaviməti erməniləri hücum edib kəndi viran etmək istəklərindən çəkindirirdi. Ermənilər yerli türk əhalisinin hərbi qüvvələrindən xəbərdar olmadıqlarından hücum etməyə cürət etmirdilər. Pristav Saxarov ermənilərlə əlbir hərəkət edərək Qatar kəndində olan türk-müsəlmanların qüvvələrini öyrənmək üçün ora əlli kazak və bir onbaşı göndərdi..

Kazaklar Qatar kəndində olan hazırlığı ermənilərə xəbər verdikdən sonra türk-müsəlman silahlılarının mövqelərinə şiddətli hücum başlanılır. Pristav Saxarov sülh vasitəçisini götürüb kazak dəstələri ilə Barabatum adlanan erməni kəndinə çəkilir. Pristavın əmri ilə Qatarın türk-müsəlman əhalisinin səsini dövlət idarəsinə çatdıran Mədən bazarında olan poçt idarəsini də özünün kazak dəstəsi ilə yerləşdiyi Barabatum kəndinə köçürmüşdür. Beləliklə rus dövləti idarələrinin hərtərəfli köməkliyi sayəsində Qatar kəndində olan türk - müsəlman camaatı hər tərəfdən ümidləri kəsilərək erməni silahlılarının mühasirəsində qalmışdı. Mühasirədə iştirak edən erməni silahlılarının sayı səkkiz min nəfərə çatdırılmışdı. Qatarın mühasirədə olan əhalisi Zəngilan bölgəsinin türk-müsəlman əhalisinin ağsaqqallarına məktub göndərib kömək istəsələr də onlara kömək edən olmadı. Erməni silahlıları Qatar kəndini doqquz gün atəşə tutdular. Mühasirədə olan yerli və köçəri türk – müsəlmanların igidliyi və şücaəti sayəsində ermənilər kəndi tuta bilmədilər. Qatar kəndində olan türk-müsəlmanlara ən güclü və ağır zərbəni Məlik Arazyanın mis mədənlərində işləyən Cənubi Azərbaycandan olan iranlı müsəlman fəhlələri vurdular. Bu alçaqlar arxalarmda neft dinamit daşıyıb «ya Əli» çığıraraq Qatar kəndinə girdikdə "müsəlmanlar bizə sursat daşıyır" deyə düşünən türk-müsəlman müdafiəçiləri onları kəndə buraxırlar. Satqm iranlı fəhlələri

arxalarında gətirdikləri nefti kənddəki damlara vurub yandırır, dinamitləri daş binalara nəsb edib partladırdılar. Bu davada ermənilərə iranlı fəhlələr ürəkdən yardım edirdilər. İranlı fəhlələrin rəisi, əslən Cənubi Azərbaycanın Qaradağ vilayətindən olan Süleyman adlı bir nəfər ermənilərə çox köməklik etmişdir. 1906-cı il avqust ayının 8-da günorta saat on ikidə ermənilər hər tərəfdən kəndə yaxınlaşıb hücuma keçmək istədikdə türk-müsəlman silahlıları səngərlərdən çıxıb ermənilərin üzərinə hücuma keçdilər. Döyüş axşama kimi davam etdi. Ermənilər böyük itki verərək geri çəkilirlər. Avqust ayının 9-u gecəsi Qatar kəndini müdafiə edən qüvvələr səhlənkarlıq edərək arxayınlaşıb kəndin ətrafındakı mühafizə dəstələrini zəif təşkil edərək səngərlərə və evlərinə çəkilib dincəlirdilər. Ermənilər bundan istifadə edərək Qatar kəndi ətrafındakı mühüm mövqeləri ələ keçirdilər. Bu mövqelərin ermənilərin əlinə keçməsi Qatar kəndində müdafiə olunan türk-müsəlmanların məğlubiyyəti ilə nəticələnir. Səhərə bir az qalmış ermənilər ələ keçirdikləri mövqelərdən kəndi şiddətli atəşə tuturlar. Bu hücumda ermənilərə rus kazakları və Cənubi Azərbaycandan olan iranlı fəhlələr kömək edirdilər. Erməni silahlı dəstələri Qatar kəndinə dörd tərəfdən hücuma keçdilər. Hər dəstənin qabağında bir qədər iranlı fəhlə aşkarcasına neft və dinamit daşıyaraq Qatar kəndi əhalisinin evlərinə od vururdular və partladırdılar. Səhərdən axşama kimi gedən qanlı döyüşdə Qatar kəndi büsbütün yanıb qurtarsada əhalisi kənddən çıxmadılar.

Ermənilərə qarşı müqavimətdə böyük qüvvə olan Qarabağın köçəri tərəkəmə əhalisi Qatar kəndini tərk etdikdən sonra Qatar kəndinin yerli türk-müsəlman əhalisi öz yurdlarında qalmağın qeyri mümkün olduğunu qət edərək, axşam alaqaranlıqda ailələrini götürüb Kəlləbağ kənədinə çəkildilər. 1906-cı il iyul ayının 29-dan başlayan erməni silahlılarının təcavüzü avqust ayının 9-da Zəngəzurun Qatar kəndinin türk-müsəlman əhalisinin öz doğma ata-baba yurdlarının tərk etmələri ilə nəticələndi.

Ermənilər bu vəhşiliklərin arxasınca döyüş sursatı tədarükü görərək öz hərbi dəstələrini gücləndirərək türk-müsəlman əhalisi yaşayan Oxsu, Şəbədək, Purdavud, Atqız kəndlərinə qarşı hücuma hazırlaşdılar. Ermənilər əsasən, Rusiya və Fransa dövlətinin istehsal etdikləri müasir silahlar ilə təchiz olunurdular. Ermənilər Rusiya imperiyasının hakim dairələri tərəfindən himayə olunur və hər hansı bir çətin vəziyyətə düşərkən müdafiə edilirdilər. Rus dövlətinin Cənubi Qafqazın türk-müsəlman əhalisinə qarşı olan bu qeyri-insani münasibəti erməniləri daha da həyasız və alçaq işlər törətməyə ruhlandırırdı. Ermənilər törətdikləri vəhşi hərəkətlərdə heç kimdən qorxmur və çəkinmirdilər.

1906-cı il avqust ayının 4-də Ağulisdə toplanmış erməni silahlı dəstəsinin başçısı Asota olduğu kənddən hərəkət edərək Oxçu Şəbədəyin qonşuluğunda olan Panuslu Girdikan kəndlərinə toplanmaq əmri verildi. Avqust ayının 7-də Ağulisdən hərəkət edən, 8-də isə Qatarda mədən ətrafında toplanmış erməni silahlı dəstələri Panuslu kəndinə çata bildilər. Hər iki erməni

daşnak hərbi hissələri Ramuk erməni kəndində bir yerə toplanaraq ehtiyaclarını yoxladılar. Onlar 1906-cı il avqust ayının 9-da türk-müsəlman əhalisi yaşayan Oxçu, Şəbədək, Purdavud, Atqız kəndlərinin əhalisinin xəbərsiz olduqlarından onların ətrafında olan yüksəkliklərdə yerləşərək istehkamlar qurdular. Erməni silahlı dəsətələri Rusiya dövlətinin hərbi bayraqlarından istifadə etmələri yerli türk-müsəlman əhalisi onların «hökumət qoşunu» olduğunu zənn edirlər. Kənədlilər səngər quranlara tərəf gedib onların kim olduğunu öyrənərkən ermənilər tərəfindən atəşə tutulurlar. Əhali silahlanaraq ermənilərə qarşı döşüyməyə başladılar. Oxçu kəndinin türk-müsəlman silahlıları dörd gün ermənilərlə vuruşub onları məğlub edib Gicəvan adlı erməni kəndinə çəkinməyə məcbur edirlər. Erməniləri təqib edən Oxçu kəndinin silahlıları bir gün axşama kimi şiddətli döyüş edib ermənilərin sığındığı Gicəvan kəndini ələ keçirib dağıtdılar.

Ermənilər gecə vaxtı qüvvələr gətirərək Panuslu, Girdəkan və Gicəlan kəndləri ətrafında mövqe tutaraq Oxçu-Şəbədək dağlarını işğal edirlər. Dörd gün olan döyüşdə hərbi sursatı azalmış və yorğun düşmüş türk-müsəlman könüllüləri Molla Həsən Əfəndinin evində yığılıb vəziyyəti müzakirə edib Saqqarsuya çəkinməyi məsləhət bildilər. Onlar Saqqarsu ətrafında daşların arasında özlərinə sığınacaq edirlər. Səhər tezdən Oxçu, Şəbədək, Purdavud, Atqız kəndlərini ələ keçirən erməni silahlıları qaça bilməyən əhalini vəhşicəsinə qırmışlar. Saqqasuda sığınacaqlarda olan türk-müsəlman camaatı sübh tezdən «Ya Əli» deyərək onlara sarı gələn silahlı dəstənin müsəlman qoşunu olduğuna aldanıb onların qarşısına çıxırlar. Gələn erməni silahlı dəstəsi müsəlmanları qırmağa başlayır. Ermənilər Molla Həsən Əfəndinin ətrafında bir neçə qadın, uşaq əllərində müqəddəs Qurani-Kərim tutub aman istəsələr də ermənilər onların hamısını qırıb Qurani-Kərimi və digər müqəddəs kitabları yandırmışlar. Saqqarsu ətrafında bir qaya parçasının arxasında 62 nəfər qadın və uşaq ermənilər tərəfindən öldürülüb bir-birinin üstünə qalaqlanaraq atılmışlar. Cəsədlər arasında iki qıçlarından yaralanaraq huşunu itirmiş həyat və ölüm arasında çarpışan bir qadın Molla Həsən Əfəndinin ermənilər tərəfindən doğrandığını görüb qaçaraq bu daşın arxasına pənah gətirdiklərini söylədi. O, Həsən Əfəndini öldürən bir dəstə erməni silahlısı gəlib bu həlak olanları qırmağa başladılar. Daşın arxasında camaat çox olduğundan qadının sığınmağa yeri olmamışdı. Bu vaxt ermənilər onun açıqda qalan qıçlarını doğramışlar.

Molla Həsən Əfəndinin qətl edildiyi yerdən şimala tərəf bir palaz parçast altından 15 nəfər çiçək üzlü körpə cocuqların kəsilmiş başları və bir para bir-birlərinə qarışmış cəsədlər var idi. Cənub tərəfə olduqca çoxlu qadın və uşaq cəsədləri səpələnmişdi. Meşədə 25 yaşlı bir gənc qadın əri ilə birlikdə doğranılmışdır. Purdavud kəndində İmam Rza həzrətlərinin qardaşı Sultan Davud həzrətlərinin rövzəsini ermənilər dağıdaraq yandırmışlar. 1901-ci ildə İstanbuldan Molla Həsən Əfəndiyə hədiyyə göndərilmiş dünya məşhurlarının, o cümlədən Məhəmməd peyğəmbərin və Xəlifə Ömərin təsvirləri olan kitab da yandırılmışdır.

Oxçu kəndində bir imarətin həyətində öldürülmüş bir cavan oğlan və onun baş tərəfində parçalanaraq qətl olunmuş ana qadın cəsədi var idi. Anası yaralanmış oğlunu qoyub getməmiş nəticədə hər ikisi ermənilər tərəfindən vəhşicəsinə öldürülmüşdür. 1906-cı il avqust ayının 9-dan 15-nə kimi olan Oxçu, Şəbədək, Purdavud, Atqız kəndlərinin erməni daşnak silahlı qoşunları ilə müdafiə döyüşləri türk-müsəlman əhalisinə bir milyon manat qədərində zərər dəymiş və günahsız insanlar qətlə yetirilmişlər. Zəngəzurda türk-müsəlman əhalisi yaşayan Xələc, Karxana, Qatar, İncəvar, Çöllü, Yeməzli. Saldaşlı, Mollalar, Batuman, Oxçu, Səbədək, Atqız, Purdavud, Züzul, Güman, İyilli, Sənalı, Minəvvər, Fərcan, Qalaboyun, Əcəbli, Buğacıq kəndləri erməni silahlıları tərəfindən talan və qarət olunmuşdur. Minlərlə türk-müsəlman əhalisini vəhşiliklə qətlə yetilmişlər. Oxçu-Səbədəyin fəlakət qurbanları Ordubad mahalının, Qaryagin qəzasının və Laçın bölgəsinin kəndlərinə dağılaraq həyacan içərisində Gəncə və İrəvan qubernatorlarına bir gündə 100-ə qədər teleqram vuraraq acınacaqlı vəziyyətlərini bildirmişlər. Qarabağ ilə əlaqənin kəsildiyindən Ordubad şəhərinin ticarəti tənəzzülə uğramışdı. Ərzaq çatışmazlığının yaranması əhalinin vəziyyətinin ağırlaşmasına səbəb olmuşdu. Rus dövləti isə ermənilərə təzyiq etmək istəmirdi. Dövlətin Ordubada göndərildiyi bir rota draqun süvarisi də qaçqınları müdafiə edə bilmirdi. Zəngəzur qəzasının torpaq sahibkarları əsasən Qarabağın Cavanşir və Kəbirli bəyləri idi. Zəngəzur qəzasında olan 68443 desyatin əkin sahəsinin 64000 desyatini onların mülkiyyəti idi. Cəmi 4018 desyatini dövlət xəzinə torpağı olaraq saxlanılırdı. Zəngəzurun bu torpaq sahələri əsasən Sultanov, Cavanşirov, Behbutov, Rüstəmbəyov, Behbudbəyov və Usmiyevlərin mülki idi.

Zənqgəzurda iri torpaq sahələri olan Sultanovlar üç nəslə mənsub idilər. Onlardan birincisi Sultan bəy və Xosrov bəy Sultanovlar əslən Qarabağın Kəbirli elinin zadəgan nəslindən olub erməni daşnaklarına qarşı qəhrəmanlıqla uğurlu mübarizə aparmışlar. Onların Zəngəzur və Qarabağda iri heyvanldarlıq təsərrüfatları olmuşdur. Laçının Qurd Hacı kəndinə sahib olan Sultan bəy Sultanov iri heyvandarlıq fermasında minlərlə məhsuldar cins hacısamlı inəkləri yetişdirilirdi. Onun Cənubi Qafqazda tonlarla heyvandarlıq məhsulları istehsal edən yağ-pendir zavodları olmuşdur.

İkincisi, Zəngəzurun Danzanar və Pircıvan kəndlərində yaşayan Sultanovlar olmuşlar. Onlar da Qarabağın Kəbirli elinin zadəgan nəslinə mənsub (onlara türkmən mənşəli də deyirlər) Sultanovlar olmuşlar. Zəngəzurun İskəndərbəyli, Ovqanlı, Qöyarabas, Seytas, Bəxtiyarlı, Qarıqışlaq, Gürcülü, Ain, Mstan, Qiyasu, Göərcik, Hallava, Aşağı Cibikli, Yuxarı Cibikli, Malatkeşin, Genlik, Qanqışlaq, Kovard, Aşağı Xotanan, yuxalı Xotanan kənədələri onlann mülkləri olmuşdur. Pircivan kəndindən olan Kərim bəy Sultanovun Kovard kəndində mis mədənləri olmuşdur.

Üçüncü Bərgüşad Sultanovları Zəngəzurun Ordubadi və Hacılı kəndlərində

yaşamışlar. Zəngəzurun Mamar, Qal, Davutlu, Mahmudlu, Ağbulaq, Madj və Qurdkalağı kəndləri onların mülkləri olmuşdur. Zəngəzurda iri mülkədar olan Cavanşir bəylərinin Qrax, Muşlan, İçəri, Zəngilan, Məmmədbəyli, Sobu, Tatar və Keçirkli kəndləri torpaq mülkləri olmuşdur. Gorusda yaşayan Hüseyn bəy və Lohraz bəy Behbudbəyov qardaşlarına Karaunc, Hacıbəyovlara Fərcan, Dilali-Muskyanlı, Saray, Kertizan, Göy-göl kəndləri, Sərməstbəyovlara Vartanadzor I, Vartanadzor II kəndləri məxsus olmuşdur.

Zəngəzurun 800 evlik Dağ kəndi Rüstəmbəyovlara, 256 evlik qudi, 245 evlik Vaqudi Əlibəy və Mirzəlibəy Behbudov qardaşlarına, Xanlıq, Dərəkənd, Mafruzlu, Xəndək kəndləri Keyqubad ağa Cavanşirə, Akara, Muradxanlı, Novruzlar kəndləri Həbib xan Şəkinskiyə, Qara göl kəndi Ağalar bəy Cavanşirə məxsus olmuşdur.

Qarabağlı İbrahim Xəlil xanın nəvəsi Mehtiqulu xanın qızı knyagina Göhər ağa Usmiyevaya Qala-Dərəsi, Cıdcik, Məlikpəyəsi, Comərdli kəndlərinə və onların ərazilərində olan 17 min desyatin meşə sahəsindən istifadə etmək hüququna malik idi. Bu siyahı tamam olmasa da Zəngəzurun varlı bəy ailələrini əhatə edir.

Rus dövlətinin ermənilərə qarşı heç bir təzyiq göstərmədiyini görən Zəngəzurda xeyli kənd mülkləri və torpaq sahələri olan Qarabağ bəyləri Əhməd bəy Ağayev ilə məsləhətləşdikdən sonra Cənubi Qafqazın türk-müsəlman əhalisini erməni daşnak təcavüzündən qorumaq məqsədi ilə yaradılmış «Difai» müdafiə təşkilatının köməyi ilə erməni silahlılarını cəzalandırmağa çalışdılar. Cavanşir və Kəbirli bəylərinin bəzilərinin «Difai» müdafiə təşkilatı ilə əlaqələri olması Zəngəzurun türk-müsəlman əhalisinin erməni təcavüzündən qorunması işinə böyük köməyi olmuşdur. Qarabağ bəylərinin köməyi ilə Şuşa, Cavanşir qəzalarından, Laçın bölgəsindən toplanmış 800 nəfərlik könüllü dəstə xeyli doyüş sursatı ilə gecə ikən hərəkət edərək Ordubad mahalından toplanmış min nəfərə yaxın könüllü dəstə ilə Saqqarsuda toplandı. 1906-cı il sentyabr ayının 15-də gecə saat $19^{00}$ Saq qarsuda toplanmış hərbi şura məşvərət edib Osmanlı imperiyasının hərbiçisi olan bir nəfəri komandan seçdi. O, üç bölük komandanı təyin etdi və hər birinin tabeliyinə yüz əskər tapşırır.

Birinci bölük kəşfiyyat apararaq gecə hərəkətə başladı. Onlara Səbədək və Atqızdan keçərək erməni Girdəkan kəndinin aşağı tərəfində yerləşmək və səhər sentyabr ayının 16-da sübhə bir saat qalmış davaya girmək əmri verildi. Birinci dəstənin arxasından onlara ehtiyat olaraq əlli nəfərlik ehtiyat dəstəsi göndərildi. İkinci bölüyə isə hərəkət edib Purdavud kəndinin içindən keçib Oxçu yolu ilə irəliləyərək erməni Panuslu kəndinin qarşısında və üst tərəfində istehkamlar qurmaq və şübhə bir saat qalmış davaya başlamaq əmri verildi. Onlara da digər döyüşkən türk-müsəlman hərbi hissələri ilə əlaqə saxlamaq üçün atlı dəstəsində verilmişdi. Üçüncü bölüyə Meğri və sair erməni kəndlərindən köməyə gələn erməni silahlılarının yollarını kəsmək və lazım gəlsə davaya qoşulmaq əmri verildi. Bu üçüncü bölüyə ehtiyat olaraq camaatdan beş yüz nəfər ehtiyat ayrıldı. Bu

bölüklərin hərəkətindən sonra baş yüz əlli süvari, iki yüz piyada könüllü əsgər Şəbədək kəndinə göndərilir. Oxçu-Şəbədək əhalisindən iki yüz nəfər əsgəri mövqelərə hərbi sursat və azuqə daşımaq üçün göndərilir.

Sübhə bir saat qalmış döyüş başladı. Dörd saatlıq möhkəm döyüş ermənilərin hərbi qüvvələrini zəiflətdi. Ermənilər ehtiyatda olan qüvvələrini döyüşə atdılar. Ermənilər Panuslu və Girdəkan kəndlərinə hücumlar edən türk-müsəlman hərbi dəstələrinin əlaqələrini kəsmək istədilər. Atqız kəndində ehtiyatda saxlanılan bir türk-müsəlman dəstəsinin hücumu ilə dəf olundular. Beş saatlıq şiddətli döyüşdə 80 erməni silahlısı öldürülür. Türk-müsəlman silahlı dəstələri ayağa qalxıb erməni səngərlərinə hücum edirlər. Ermənilər isə xeyli itki verərək geri çəkilir, evlərə və kilsələrə girərək güclü müqavimət göstərirlər. Bu döyüşdə ermənilər məğlub olur, türk-müsəlman kəndləri azad edilir. Bu məğlubiyyətdən sonra ermənilər işğalçı fikirlərindən əl çəkdilər.

**Tofiq Nəcəfli**

## XVI ƏSR AZƏRBAYCANIN SİYASİ HƏYATINDA ZİYADOĞLU QACARLARIN ROLU

XX əsrin sonunda dövlət müstəqilliyini bərpa etmiş suveren Respublikamızda istər siyasi-iqtisadi, istərsə də mədəni-ideoloji sahələrdə millilik ruhu, milli özünüdərk amilinin üzə çıxması üçün münbit şərait yarandı. Qədim dövrlərdən güclü milli dövlətçilik ənənələrinə sahib olan Azərbaycan xalqının tarixində orta əsr dövlətlərimizin (Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi) yeri və rolu daha böyükdür. Nəzərə almaq lazımdır ki, Azərbaycanda Oğuz-türk dövlətçilik ənənələrinin bərpası və inkişaf etdirilməsi məhz bu dövlətlərimizin tarixilə bilavasitə bağlı olmuşdır. Bu dövlətlərimizin yaranmasında və siyasi inkişafında Oğuz mənşəli Azərbaycan-türk tayfaları aparıcı rol oynamışdır. Haqqında bəhs edəcəyimiz Qacar tayfası da Ağqoyunlu və Səfəvi dövlətlərinin yaranması prosesində yaxından iştirak etmişdir. Bu tayfanın mənşəyinin, onların Azərbaycan dövlətlərinin siyasi həyatında oynadığı siyasi rolun araşdırılması Azərbaycanın dövlətçilik tarixinin öyrənilməsinin ayrılmaz tərkib hissəsidir. Həmçinin Azərbaycan xalqının soy kökündə iştirak etmiş olan bu tayfaların tarixinin araşdırılması, onların yaşadıqları və hakim olduqları ərazilərin tədqiq edilməsi, torpaqlarımızda öz soyköklərimizin daha qədim və hakim olması həqiqətini üzə çıxarmağa və tarixi torpaqlarımıza uydurma ərazi iddiaları irəli sürən üzdəniraq düşmənlərimizə tutarlı bir cavab olardı.

Azərbaycan Səfəvi dövlətinin yaranmasında əsas rol oynayan qızılbaş tayfalarından olan Qacarların mənşəyi və Azərbaycanda məskunlaşması tarixilə bağlı tarixşünaslıqda müxtəlif yanaşma mövcuddur. Türk tarixçisi Z.V.Toğanın qənaətinə görə, Qacarlar Azərbaycana Oğuz xanın İran səfərlərində gəlib yerləşmiş və monqolların Azərbaycana yürüşləri vaxtı Xalxal ətrafında yaşamışdılar. Hülakü ordusuna yardım edərək onlarla birlikdə Şam tərəflərinə göndərilmiş, Əmir Teymur va Qaraqoyunlular

dövründə isə oradan təkrar Azərbaycana qayıtmışdılar [13,56].

Əhməd Cəfəroğlu isə Qacarlar haqqında yazmışdı: «Qacarların ana vətənləri Türkistandır. Bir zamanlar Suriya sərhədlərinə yaxın bir yerdə məskun olan bu türk boyu XIV-XVI yüzilliklərdə İrana köç edərək burada yerləşmişlər. 1400-cü ildə Şama səfər edən Teymurun ağır basqıları altında istər-istəməz Türkistana dönməyə məcbur olmuşlar. Məhz bu məcburi köç zamanı qacarların bir hissəsi Azərbaycanda, o cümlədən Qarabağda və bir hissəsi də İraqda yerləşmişdir» [3,67].

F.Sümer qeyd edir ki, Qacarlar mənşə etibari ilə Oğuzların Bayat boyunun Şam Bayatı oymağının bir qolu olmuşdur. Onun fikrincə, bu qol Yivə, Ağcalı və Ağcaqoyunlu oymaqları ilə birlikdə Qacar boyunu əmələ gətirmişdir. Qacarlar XVI əsrdə Azərbaycanın əsasən Gəncə və Bərdə bölgəsində yaşayırdılar. Ancaq XVI və XVII əsrdə Qacar bəylərindən hansının Şam Bayatı boyuna mənsub olduqları bilinmir. XVIII əsrin I yarısında Gəncəyə bağlı kəndlərdən biri Şam Bayatı adını daşıyırdı» [12,240].

Bəzi türk tarixçiləri tərəfindən qacarlar, 465-ci ildə Azərbaycanda məskunlaşan, Bizans qaynaqlarında da adı çəkilən Hun tayfasının hakim zümrələrindən biri olan xəzərlər və bulqarlarla yaxın olduğu söylənilən Ağacərilərlə bağlanılır. Azərbaycanda Ağacərilər sonralar Qacar adlanmış və Xalxal bölgəsində məskunlaşmışlar. Z.V.Toğanın fikrincə, Rəşidəddinin «Cami ət-təvarix»inin Peterburq nüsxəsində ağacərilərdən bəhs edilərkən xüsusi bir qeyd verilmişdir: «Ağacəri adı bu gün türklərin və digərlərinin tələffüzündə qacar şəklini almışdır. Zira qacarlara əskidən Ağacəri deyilirdi [14,101; 15,146; 16,98; 8,34; 4,197]. Hülaku xan Ələmut ismaililərinə qarşı və Suriyaya hərbi yürüşlərində Azərbaycanda qədim dövrlərdən yaşamaqda olan qacarlardan da istifadə etmişdi. Mirzə Balanın fikrincə, Qacarların Azərbaycandan Anadoluya və Suriyaya, eləcə də Ələmuta yaxın olan Astarabad bölgələrinə yayılmalan bununla bağlı olmuşdu [8,34].

Azərbaycan tarixçisi A.Bakıxanova görə, Cəlairi türklərindən olan qacarlara məxsus 200 min ailə Hülakü xan dövründə İrana və Azərbaycana köçürülümüşdür. «Müasiri Sultaniyə» müəllifinə görə, bu tayfadan olan Sartak Noyan Arqun xan dövründə Xorasan hakimi olmuşdu. Onun Qacar adlı oğlu olmuşdu. Tayfa öz adını bu şəxsdən almışdı. Qacarların bir hissəsi Anadoluya və Suriyaya köçmüşdü. Əmir Teymur 50 minlik qacar ailəsini Cənubi Qafqaza köçürmüş və İrəvan, Gəncə və Qarabağda yerləşdirmişdi [1,82,172; 10,90].

Azərbaycan tədqiqatçısı M.V.Baharlının fikrincə, Cəlairi türklərindən olan qacarlar ilk əvvəl Kiçik Asiyada və Suriyada yerləşdi, sonra Axsaq Teymur onları İrana köçürdü və Mərv, Mazandaran, Qarabağ, İrəvan, xüsusilə Gəncə bölgələrinə yerləşdirdi [2,48-49]. Qızılbaşlar tarixi» müəllifinin təsdiq etdiyinə görə, qacarlar qədimdən Gəncə və Bərdədə yaşamışlar və bir qismi Şamdan gəlmişdir [7,36].

Yuxarıda gətirdiyimiz tarixi faktlar bir daha təsdiq edir ki, Oğuz boylarından olan qacarlar hələ monqol yürüşləri ərəfəsində Azərbaycanda yaşamış və F.Sümerin təsdiq etdiyi kimi, monqol hücumları qarşısında digər türkmənlərlə yanaşı Şərqi Anadoluya

çəkilməli olmuşdu. Başlıca Oğuz boyları ilə yanaşı qacarların da xalqımızın soy kökündə yaxından iştirak etdiyini görürük. Qacarlar XV əsrin II yarısında Ağqoyunlu tayfa birliyinə daxil olmuşdu. XV əsrin 90-cı illərində Ağqoyunlu taxt-tacı uğrunda şiddətli mübarizədə qacarlar yaxından iştirak etmişdi. 1492-ci ildə Ağqoyunlu əmiri Eybə Sultan (İbrahim bəy) Gəncə ətrafındakı qacarların yardımı ilə Əlincə qalasında saxlanılan Uzun Həsənin nəvəsi, Maqsud bəyin oğlu Rüstəm Mirzəni həbsdən azad edərək hökmdar elan etmiş və Bərdə ətrafındakı döyüşdə Baysunquru və Bican oğlu Süleyman bəyi məğlub edərək onu Ağqoyunlu taxtına çıxarmışdı. Bir il sonra İbə Sultan yenə də qacarların yardımı ilə Gilana yürüş etmişdi. Mirzə Əli Qərkiya Qəzvin və Reydəki bəzi Bayandur əmirlərini öldürdüyü və Sultaniyyəni qarət etdiyi üçün onun ölkəsi qarət edilmişdi [11,53].

F.Sümerin fikrincə, Rüstəm padşah Gödək Əhməd tərəfindən məğlub olduğu zaman yenə də, Gəncə ətrafındakı Qacar bəyinə sığınmış və ondan yardım istəmişdi. Qacar bəyi Rüstəmə yardım etsə də, o, 1497-ci ilin yayında baş vermiş döyüşdə məğlub olmuş və ələ keçirilərək öldürülmüşdü. Müəllifin qənaətinə görə, bu zaman Qacar tayfasının başında Ziyad bəy olmuşdu [11,54]. XV əsrin II yarısında Şeyx Heydərin ətrafında toplanmış qızılbaş tayfaları arasında qacarlar da xüsusi yer almışdı. İ.P.Petruşevskinin fikrincə, XV əsrin sonunda qızılbaş tayfalarına vaxtı ilə Ağqoyunlu tayfa birliyində olnuış Qacar (Ağcaqoyunlu qacar) türk tayfası da qoşulmuşdu [10,91]. Qacarların Azərbaycanın yerli tayfalarından olduğunu F.Sümerin belə bir fikri də təsdiq edir ki, 1499-cu ildə Ərzincanda İsmayıl Səfəvinin ətrafında toplanan qızılbaş tayfa əmirləri sadalanarkən onlardan Bayram bəy Qaramanlının, Piri bəy Qacarın və Hadim bəy Talışın Anadolulu olmadığının göstərilməsidir [11,21]. Buna görə də, F.Sümer əsərində Şah İsmayıl dövrünün böyük qızılbaş tayfaları ilə bağlı siyahıya qacarları daxil etməmişdir.

Şeyx Heydərin müridlərindən olan Qara Piri bəy Qacarın Azərbaycan Səfəvi dövlətinin yaranmasında aparıcı rol oynadığını dövrün qaynaqları bir daha təsdiq edir. «Tarixi şah İsmayıl Səfəvi»nin verdiyi məlumatlara əsaslanan O.Əfəndiyev yazır ki, Ağqoyunlu Baysunqura qarşı mübarizədə qızılbaşların yardımından faydalanmağa çalışan Rüstəm Mirzə İstəxr qalasında həbsdə olan Sultan Əlini azad etmişdi. Sultan Əlinin göstərişi ilə Qara Piri bəy Qacarın başçılığı altında qızılbaş sufiləri Rüstəm padşaha qarşı qiyam qaldırmış İsfahan hakimi Kosa Hacı Bayandura qarşı göndərilmişdi. Qara Piri bəy Qacar Dərcəzin yaxınlığında baş verən döyüşdə qalib gələrək Kosa Hacı Bayanduru öldürmüşdü [5,81-82]. 1499-cu ildə İsmayıl Lahicanı tərk edib Ərdəbil istiqamətində hərəkət edən zaman onun yanındakı sadiq qızılbaş müridləri arasında Qara Piri bəy Qacar da olmuşdıı. Zeynalabidin Əli «Təkmilət-ül əxbər» əsərində yazır ki, göstərdiyi igidliyə görə «Toz-qoparan» ləqəbini almış Qara Piri bəy Qacar İsmayıl tərəfindən 1501-ci ildə Ağqoyunlu Əlvəndə qarşı göndərilmiş avanqard qoşuna rəhbər təyin edilmişdi. Ağqoyunlu qüvvələri Hüseyn Ağa Şükür oğlunun başçılığı altında Meşkin mahalında Kərmadez adlı yerdə Qara Piri bəy Qacarın yaxınlaşdığını xəbər tutaraq qaçmış və Sultan Əlvəndin əsas qüvvələrinə qoşulmuşdu [5,146].

F.Sümerin qeyd etdiyinə görə, Qara Piri bəy Qacar Şah İsmayılın Şirvanşah Fərrux Yasar, Ağqoyunlu Əlvənd Mirzə və Sultan Murad ilə apardığı döyüşlərdə böyük igidliklər göstərmişdir. Onun bu igidliyinə görə, Şah İsmayıl Qara Piri bəy Qacara «tozqoparan» ləqəbini vermişdir. 1503-cü ildən sonra Qara Piri bəy haqqında məlumatlar demək olar ki, yoxdur. F.Sümer belə bir qənaətdədir ki, Qara Piri bəy Ziyadoğullarının deyil, qacarların basqa bir qolunun başçısı olmuşdur [18, 54]. «Qızılbaşlar tarixi» müəllifinin qeyd etdiyinə görə, Qara Piri bəy Qacar 1512-ci ildə Nəcmi Sani ilə birlikdə Qicduvanda öldürülmüşdür [7,36].

O.Əfəndiyev dövrün qaynaqlarına əsaslanaraq 1503-cü ildə Şah İsmayılın Ağqoyunlu Muradla Almaqulağı döyüşündə Qara Piri bəy Qacarın böyük sərkərdəlik bacarığını nümayiş etdirdiyini, Şalı İsmayılın avanqard qüvvələrini məhv edərək mərkəzə hücum edən Qum hakimi İslamiş bəyin qoşunlarını məhv etdiyini və düşməni qaçmağa vadar etdiyini yazır [5,93].

Şah İsmayıl dövründə qacarların digər bir əmiri də Urfa hakimi Əcə Sultan idi. F.Sümerin yazdığına görə, o, ixtiyarında olan az miqdarda hərbi qüvvə ilə 1515-ci ilə Ağqoyunlu Sultan Muradı məğlub edərək öldürmüş və göstərdiyi şücaətə görə Səfəvi şahından «Qudurmuş Sultan» ləqəbini almışdır [11,54]. Ancaq «Qızılbaşlar tarixi»ndə bu Qacar əmiri Dərəcə Sultan kimi təqdim olunur. Onun «Qudurmuş xan» adı ilə məşhur olduğu, Urfada Sultan Muradı məğlub edərək qətlə yetirdiyi və Mardin yaxınlığında Qoruqtəpədə Qara xan Ustaclı ilə birlikdə Mustafa paşa «Bığlı Çavuş»la döyüşdə həlak olduğu qeyd olunur [13,36]. Şah İsmayıl dövrünün qaynaqlarında digər Qacar əmirlərinə təsadüf olunmur. Yuxarıda adı çəkilən Qacar əmirlərinin adları isə yüksək dövlət vəzifələrində xatırlanmır. F.Sümerin fikrincə, Qacar boyunun başlıca obaları Ağcaqoyunlu, Axçalu, Şam Bayatı, Yivə və İyirmidördlüdür [11,183-184].

Ancaq Şah Təhmasib dövründə qacarlar birinci dəçrəcəli qızılbaş tayfalarının sıpasında olmuş və onlar arasından bir çox tanınmış əmirlər mühüm vəzifələrə yüksəlmişlər. Bu tayfadan olan digər əmirlərdən biri də Budaq xan Qacardır. 1535-ci ildə Osmanlı sultanı Süleymanın Azərbaycana ikinci yürüşü zamanı Qızılbaşların təzyiqləri altında Osmanlı ordusu Təbrizi tərk etməyə məcbur qalmışdı. Düşməni təqib edən Qızılbaşlar Budaq xan Qacarın rəhbərliyi altında Ərciş qalasını mühasirəyə aldı, Osmanlı sultanının Sinan paşanın rəhbərliyi altında yardıma göndərdiyi qüvvələr məğlub edildi və Sinan Paşa öldürüldü [6,78-79]. 1537-ci ildə Şah Təhmasib tərəfindən Qəndəhar şəhəri alınan zaman onun idarəsi Budaq xan Qacara həvalə edilmişdi [6,94]. 1544-cü ildə Şah Təhmasibin Moğol hökmdarı Hümayuna öz taxt-tacını geri almağa kömək etmək üçün göndərdiyi 12 minlik orduya Şahverdi xan Ustaclı ilə yanaşı Budaq xan Qacar rəhbərlik etmişdi [6,95 ].

Qacarların digər əmirlərindən biri də Göycə sultandır. «Qızılbaşlar tarixi» müəllifinə görə, o, Van hakimi olmuşdu [7,36]. O,1540-cı ildə Şah Təhmasibin Gürcüstana yürüşündə iştirak etmişdi. 1547-ci ildə Şirvanda Əlqas Mirzənin başçılığı altında üsyan başlanan zaman Gürcüstan səfərindən Yevlağa qayıdan Şah Təhmasibin üsyançılara qarşı göndərdiyi 5 min nəfərlik qızılbaş süvarilərinə oğlu İsmayıl Mirzənin

lələsi Göycə Sultan Qacar və Qarabağ bəylərbəyi Şahverdi Sultan Ziyadoğlu Qacar rəhbərlik etmişdi. Əlqas Mirzənin göndərdiyi dəstələr Samur çayı sahilində qızılbaşlar tərəfindən məğlub edilmişdi. 1547-ci ildə İsmayıl Mirzə Şirvana yeni bəylərbəyi təyin olunan zaman onun köməkçisi də lələsi Göycə Sultan Qacar olmuşdu [6,84-85]. 1548-ci ilin yayında qızılbaş ordusunun təzyiqləri altında Osmanlı ordusu Azərbaycanı tərk edən zaman Şah Təhmasib Qars qalasını bərpa etməyə çalışan Osmanlı sultanına imkan verməmək üçün İsmayıl Mirzəni Göycə Sultan Qacarla oraya göndərmişdi. Qızılbaşlar gözlənilməz hücumla düşmənin 2 minə yaxın qüvvəsini məhv etmişdir. 1547-ci ildə Bürhan Mirzənin Qaytaqdan Şirvana yürüşünün qarşısı da Göycə Sultan Qacarın qüvvələri tərəfindən alınmışdı [10,87-88]. Sonralar Nişapur valisi olan Göycə Sultan Qacar 1555-ci ildə Astrabadda Türkmən Aba və Özbək Əli Sultan ilə baş verən döyüşdə öldürülmüşdü.

F.Sümerin yazdığına görə, 1544-cü ildə bayraqdar olan Əbülqasım Xüləfa və 1554-cü ildə sülh bağlamaq üçün Sultan Süleyman Qanuniyə elçi kimi göndərilən Şahqulu bəy qacarlardan olduğu kimi, 1551-ci ildə Şəki valisi təyin edilən Toygün bəy və onunla çağdaş olan Bayram bəy, 1559-cu ildə elçi kimi İstanbula göndərilən yüzbaşı Axçasaqqal Əli Ağa və 1567-ci ildə adı keçən Mirzə Əli bəy və 1568-ci ildə isə xatırlanan Əli Qulu bəy də bu tayfaya məxsus idilər. Əli Xəlifəyə gəlincə (Axçalı oymağından idi) o, bu zaman Damğan və Bistam valisi idi. Bunlardan başqa Yusif Xəlifənin qardaşı Süleyman bəy ilə Şəkəmoğlu Süleyman Sultan da əmirlik vəzifəsinə yüksəlmişdir [11,96,97,98]. Yuxarıda gətirdiyimiz tarixi faktlar bir daha təsdiq edir ki, Şah Təhmasib dövründə qızılbaş tayfaları arasında Qacarların nüfuzu daha da güclənmiş və bu tayfadan tanınmış sərkərdələr çıxmışdır. Məhz buna görə də, Şah Təhmasibin oğlanlarının tərbiyəçiləri arasında, ayrı-ayrı vilayətlərin idarə edilməsi və eləcə də diplomatik danışıqlar aparılması Qacar tayfasından olan nüfuzlu əmirlərə həvalə olunmuşdur.

Şah Təhmasib dövründə Qacar əmirlərindən biri də Ziyadoğlu Şahverdi Sultandır. F.Sümerin fikrincə, XVIII yüzillin sonunda İranda hakimiyyətə gələn Qacarlar məhz Ziyadoğlu nəslindəndir. Ziyadın XV yüzilin sonu XVI yüzilliyin başlarında yaşadığından çox az şübhə edilir. Qacarların yurdu Arranda Gəncə bölgəsi idi. 1537-ci il Qəndəhar səfərinə qatılan Şahverdi bundan sonrakı mühüm səfərlərə də qatılmışdı. O, ata yurdu mərkəzi Gəncə olan Qarabağ valisi idi [11,97],

Qarabağ bəylərbəyləri olan Ziyadoğlu Qacarlar haqqında ən mühüm məlumat Qarabağ bəylərbəyi Murtuzaqulu xan Qacarın vəziri olmuş Məhəmməd Məsumun «Xülasət əs-siyar» əsərində verilmişdir. M.Məsum Ziyadoğlu Qacar nəslinin XVI əsrin 40-cı illərindən XVII əsrin 60-cı illərinə qədər təxminən yüzillik bir tarixini öz əsərində işıqlandırmışdır. O, Ziyadoğlu nəslindən Şahverdi Sultan, İbrahiın Xan, Yusif Xəlifə, Məhəmməd xan, Mürşüdqulu xan, Məhəmmədqulu xan və Murtuzaqulu xanın fəaliyyətinə geniş yer vermişdir. Nəzərə almaq lazımdır ki, Ziyadoğlu Qacar nəslinin Qarabağ bəylərbəyliyindəki fəaliyyəti yalnız M.Məsumun əsərində ətraflı işıqlandırılmışdır. Müəllifin Ziyadoğlu nəsli ilə bağlı məlumatına görə, Lahicanda olan

Xəzər bəy Şah Təhmasibə öz oğlu Ümmət xanı təqdiın etmişdir. Şah onun dövlətə xidmətdəki sədaqətini nəzərə alaraq ona «Ziyad-oğlu» ləqəbini bağışlamışdı. Ümmət xanın ölümündən sonra onun oğlanları şahın sərəncamında olmuşdur. Onun oğlu Şahverdi Sultan Qarabağ bəylərbəyi təyin olunmuşdur. Şahverdi Sultan Qacar Səfəvi sarayının siyasi həyatında əhəmiyyətli rol oynamışdı. Şah Təhmasib 1547-ci ildə göstərdiyi tarixi xidmətləri nəzərə alaraq Şahverdiyə Sultan titulunu vermişdi. Məhəmməd Məsum yazır ki, XVI əsrin 40-50-ci illərində Osmanlı-Səfəvi hərbi əməliyyatları zamanı Şahverdi Sultanın hərbi hissələri Ərzurumu mühasirəyə alan İsgəndər paşanın qüvvələrini məğlub etmişdir. Düşmənin məğlub edilməsi şah ordusuna Cənubi Qafqazda qələbə qazanaraq İrəvanı öz əlində saxlamağa imkan vermişdir. Şah Təhmasib buna görə, Şahverdi Sultana «müsahib» titulunu vermiş, həm də Qarabağın dörd mülkü ilə yanaşı. Şəki əyalətinə daxil olan Danəki adlı yeri də ona bağışlamış və öz ehtiyacını daha yaxşı təmin etmək üçün Şirazdan lazım olan şeyləri alıb gətirmək üçün illik min tümən məvacib verilməsini əmr etmişdi [9,59-60].

Şahverdi Sultanın şahın əhatəsindəki yüksək zümrəyə daxil edilməsi və torpaq bəxşişləri alması (indi artıq onun 5 mülkü və xamesalə vergisini toplamaq hüququ vardı), Qarabağ hakiminin şah sarayında mühüm nüfuz sahibi olduğunu qeyd etməyə imkan verir. Şahverdi Sultan 1568-ci ildə ölmüşdü. Şahverdi Sultanın 3 oğlu olmuşdu. Onlardan biri olan Xəlil xan hələ atasının sağlığında Astarabad bəylərbəyi və buradakı Qacar tayfasının başçısı olmuşdu. Məhəmməd Məsum yazır ki, hazırda Astarabadda yaşayan qacarların bir hissəsi onun nəslindən olan mülazimlərdir [9,60]. Şahverdi Sultanın ölümündən sonra onun digər iki oğlu - İbrahim xan və Yusif Xəlifə 1576-cı ilə kimi ardıcıl olaraq Qarabağ bəylərbəyi və buradakı qacarlara rəhbərlik etmişdi. Şah II İsmayıl Qarabağ qacarlarını, o cümlədən Ziyadoğlu nəslini özünün şəxsi düşməni hesab etmişdi. Çünki, Şahverdi Sultanın təlqinləri nəticəsində İsmayıl Mirzə atasına şübhəli bilinmiş və Şah Təhmasib tərəfindən Qəhqəhə qalasında 20 ildən artıq siyasi məhbus kimi saxlanılmışdı.

1576-cı ildə Şah Təhmasibin ölümü zamanı başlıca Qacar əmirlərindən biri Şahverdi Sultanın oğlu Yusif Xəlifə idi. O, Qarabağ bəylərbəyi və Sultanəli Mirzənin lələsi təyin edilmişsə də şahın ölümü ilə bağlı hələ də Qəzvində idi. Mirzə Əli Sultan da bu zaman mərkəz əmirlərinin ən mötəbərlərindən olub divanbəyi idi.

1576-cı ildə Səfəvi taxt-tacı uğrunda mübarizə zamanı Yusif Xəlifə Ziyadoğlu II İsmayılın rəqibi olan Heydər Mirzənin tərəfini saxlamışdı. Buna görə də, Şah II İsmayıl Yusif Xəlifəni Qarabağ bəylərbəyi və Qacar tayfasının rəhbəri vəzifəsindən azad etsə də, bəylərbəyliyi digər qızılbaş tayfasına verməyə tələsməmişdi. Şah bəylərbəyliyi öncə, Yusif Xəlifənin qardaşı oğlu Peykər sultana, sonra isə onun nəvəsi İmamqulu xana vermişdi. 1580-ci ildə Şah Məhəmməd Xudabəndə Peykər sultanı Şirvan bəylərbəyi təyin etmiş və nəticədə Qacar əyanlarının bir hissəsi Şirvana köç etmiş və orada torpaq mülkləri almışdı [10, 122].

Şah II İsmayıl və Məhəmməd Xudabəndə dövründə qacarlar yenə Qarabağ

bölgəsindəki yurdlarında yaşayırdılar. Bu zaman Qarabağ bəylərbəyi olan İmamqulu xan Osmanlı qüvvələri ilə vuruşaraq yurdunu qorumuş, Fərhad paşa ordusunun Qarabağı işğal etməsindən sonra tayfasının bir qismi ilə Arazbara çəkilmişdi. O, qacarların Yivə obasından idi. Osmanlıların işğalı zamanı Qarabağda Qacarlar, Otuziki, Qazaxlar, İyirmidörd və Qaramanlı və digər tayfalar yaşayırdı. Qarabağın Osmanlı idarəçiliyinə keçməsi nəticəsində qacarların bir hissəsi Osmanlı hakimiyyəti altında qalmaq istəməyərək Arazın cənubundakı Səfəvi torpaqlarına köç etdilər. Qacarlar burada ilk vaxtlar pərişan durumda idilər. Şərəf xan Bidlisinin yazdığına görə, hətta sərdar Fərhad paşa qacarları burada da rahat buraxmamış və 1588-ci ildə onlar üzərinə yürüş edərək, onları və qoyun sürülərini qarət etmişdi. imamqulu xan Qacar 1588-ci ildə Arazbarda ölmüşdü [11,145].

İmamqulu xan Ziyadoğlu Qacar özünün böyük hərbi sərkərdəlik qabiliyyəti nəticəsində Osmanlı ordusuna qarşı on ildən artıq mübarizə aparmışdı. Hətta Qarabağın Osmanlı ordusu tərəfindən işğal edilməsi ilə barışmayaraq Gəncəni geri almaq üçün ciddi mübarizə aparmışdı. Şah Abbas Osmanlı sultanı III Muradla sülh danışıqlarının başlandığını nəzərə alaraq Qacarları Gəncə mühasirəsindən geri çağırmışdı.

**Mənbə və ədəbiyyat.**

1. Бакиханов А.А. Гюлистани - Ирам. Баку, 1991.
2. Baharlı M.V. Azərbaycan. Bakı, 1993. 3.Caferoğlu A. Turk kafimleri. İstanbul, 1988.
4.ÇetinkayaN. İğdır tarihi. İstanbul, 1996.
5.Эфендиев О.Э. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Баку, 1961.
6. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993.
7. «Qızılbaşlar tarixi». Tərcümə və şərhlər M.Ə.Məhəmmədinindir. Bakı, 1993.
8. Mirze Bala. Kaçarlar. //İslam Ansiklopedisi, c 6. İstanbul, 1988.
9. Павлова И.К. Хроника времен Сефевидов. М., 1993.
10. Петрушевский И.И. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI -начале XIX вв. Л., 1949.
11. Sümer F. Safevi devletinin kuruluşu ve gelişmesinde Anadolu türklerinin rolü. Ankara, 1976.
12. Sümər F. Oğuzlar. Bakı, 1992..
13. Toqan Z.V. Azerbaycan etnografisine dair. Azerbaycan Yurt Bilgisi, c.II, sayı 14. İstanbul, 1933.
14. Toğan Z.V. Azerbaycan etnoqrafisine dair. Azerbaycan Yurt Bilgisi, c.II, sayı 15. İstanbul, 1933.
15. Toğan Z.V. Ümumi türk tarihine giriş. İstanbul, 1970.
16.23. Toğan Z.V. Azerbaycan. // islam Ansiklopedisi, c. II. istanbul, 1

**Vüqar Abbasov**

# QARQARÇAY HÖVZƏSİ AZƏRBAYCANIN QARABAĞ BÖLGƏSİNİN MADDİ MƏDƏNİYYƏT BEŞİYİ KİMİ

Bəzi erməni «tədqiqatçılarının» iddia etməsinə baxmayaraq məlum məsələdir ki, Qarabağda erməni elementi onların XIX əsrdə kütləvi surətdə Azərbaycanın Qarabağ ərazisinə köçürülməsi, onlara sığınacaq verilməsi, sonralar isə Sovet hökuməti dövründə muxtariyyət verilməsi ilə bağlıdır. XIX əsrə qədər Yuxarı Qarabağda heç bir zaman erməni etnik kütləsi olmamışdır. Bunu Yuxarı Qarabağda Ağdərənin (Mardakert) Marağa kəndində Qarabağa ilk 200 ailənin (İranın Marağa şəhərindən) köçürülməsi şərəfinə 1978-ci ildə ermənilərin özlərinin qoyduqları abidə əyani şəkildə sübut edir.

Üzərində epiqrafik nişanələr və yazılar olan daş və digər abidələrin Qarqarçay hövzəsində geniş yayılması orada insan cəmiyyətinin həyatındakı mədəni prosesi, daxili dinamikanı izləməyə imkan verir.

Mənbələrin Qarabağın qədim ərazisində - Uti və Arsakda qədim şəhərlərin mövcudluğu barədə verdiyi məlumatı Qarqarçay hövzəsində - Govurqalada (Ağdam), Ergi yaşayış yerində (Ağcabədi), Qaratəpədə (Ağcabədi) və s. aparılmış arxeoloji tədqiqatlar təsdiq edir.

Məlumdur ki, III-IV əsrlərdə Albaniyanın iqtisadi, ictimai və mədəni həyatında yeni bir mərhələ başlanır. Bu dövr Albaniyada feodalizmin təşəkkülü, xristianlığın dövlət dininə çevrilməsi, alban əlifbasının kəşfi, bir sıra yeni tipli yaşayış məskənlərinin, şəhərlərin yaranması kimi çox mühüm hadisələrlə səciyyələnir.

R.B.Göyüşov «Dağlıq Qarabağda çoxtəbəqəli abidə» adlı məqaləsində Azərbaycanın Qarabağ bölgəsinin, daha dəqiq desək Qarqarçay hövzəsinin ilk orta əsr maddi mədəniyyət izlərini özündə əks etdirən arxeoloji abidə və onun arxeloji nümunələrinin öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir (2).

Eyni zamanda Qarqarçay hövzəsinin alban xristian abidələrinin yazıları və işarələri oxunub təhlil edilmiş, orada əksini tapmış sözlər müəyyənləşdirmiş və şərhi verilmişdir (6). Bu baxımdan Ağdam rayonunun Boyəhmədli kəndi yaxınlığındakı qədim yaşayış yerində aşkar etdilmiş arxeoloji abidə böyük maraq doğurur (4).

Həmçinin Qarqarçay hövzəsinin tarixinə dair fakteloji materiallar əsasında bölgənin tarixi ərazisi, etnik tərkibi, həmçinin maddi və mənəvi mədəniyyətinə dair məlumat vermək mümkündür (8).

Alban xristian abidəsi olan xaçdaşlar aşkar edilmiş, üzərindəki məişət təsvirləri barədə məlumat verilmişdir (3).

Qarqarçay hövzəsindən daş bütlər aşkar edilmiş, onların yeni tipləri və onların fərqli xüsusiyyətləri şərh edilmişdir. Bu Daş nümunələrin Qarqarçay hövzəsində təsadüfi olmadığı da tədqiqatlarda şərh edilmişdir (1).

Qarqarçay hövzəsində maddi mədəniyyət nümunələri ilə bərabər stratiqrafik təbəqədə yeri və izi qalmış şüşə kürəsi ilə bərabər şüşə məmulatı istehsalı aiətləri və şüşə çıxarları aşkar edilmişdir (7).

Yaloylutəpədən tapılmış arxeoloji məmulatlar, Qax rayonundakı V əsrə aid bazilik, Qax ərazisində V-VI əsrə aid Ləkid kəndində dairəvi məbəd, Katuk məbədi, Armatian (və ya Pəri xala) məbədi, Şəkidəki Aşağı Küngüt abidəsi, Kiş məbədi, Zaqataladakı Zeyzad məbədi də Qarqarçay hövzəsinin xristian abidələri ilə oxşardır (11).

Üzərində epiqrafik nişanələr və yazılar olan daş və digər abidələrin Qarqarçay hövzəsində geniş yayılması burada insan cəmiyyətinin həyatındakı mədəni prosesi, daxili dinamikanı izləməyə imkan verir.

Tədqiqatlar göstərir ki, VIII əsrdən etibarən orta əsrlərə aid, xristian dinini əks etdirən tikinti üslubunun inkişafı dayanmış, şəhərin plan quruluşu və xarici görünüşü müsəlman dünyasının yeni şəhərsalma üslublarına uyğun olaraq davam edilmişdir.

Müsəlmanlıq dövrünün, islam dininin tələblərinə uyğun olan yeni tipli tikintilərin meydana çıxması əvvəllər formalaşmış memarlıq ənənələrinin inkişaf etməsinə maneçilik törətməmişdir.

Xristianlığın mövcud olduğu bir yerdə yeni meydana çıxmış İslam dininin Albaniyada qəbul edilməsi bütöv bir bölgənin maddi və mənəvi həyatında yenilik yaratdı. Qarqarçay hövzəsinin beynəlxalq iqtisadi-ticarət əlaqələri yollarından birinin üstündə yerləşməsi, dünyada baş verən proseslərlə sıx əlaqəsi, ikincisi İslam dininin yüksək mənəvi məna kəsb etməsi ilə bağlı idi (5).

Azərbaycanın bütün bölgələrində olduğu kimi Qarabağ ərazisində də tarixən bütün dinlərə rəğbətlə yanaşılmışdır. Bu proses arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi mədəniyyət nümunələri ilə təsdiq olunur. Aşkar edilmiş kurqanların, küp və daş qutu qəbirlərin, bütlərin, üzərində xaçobrazlı naxışları olan nişan daşların tədqiqi bunu deməyə əsas verir.

Qarqarçay hövzəsində mövcud olan abidələr və tikinti qalıqları alban xristian və ondan sonrakı müsəlman Şərqi tipində yaranmış tikililərin həmin dövrün tikinti mədəniyyəti, memarlıq və incəsənət tiplərinin əlaqəsini və inkişaf ardıcıllığını göstərir.

Tədqiqatlar göstərir ki, antik dövrdə formalaşmış, ilk və inkşaf etmiş orta əsrlər dövründə müəyyən inkişaf yolu keçmiş, şəhər mədəniyyəti şəhərsalma mədəniyyəti, şəhər əhalisinin məişət səviyyəsi, müxtəlif sənət növlərinin inkişafını özündə əks etdirmiş, həmçinin maddi mədəniyyətin inkişafına səbəb olmuşdur (10).

Təəssüflər olsun ki, ermənilər Qarqarçay hövzəsidə alban xristian məbədləri və digər abidələr üzərində apardıqları erməniləşdirmə işləri, başqa sözlə abidələrin saxtalaşdırılması hələ də davam edir. Hələ bu azmış kimi ermənilər vaxtilə Azərbaycan arxeoloqları tərəfindən öyrənilmiş və elmi ədəbiyyatda öz əksini

tapmış abidələrdə «erməni elementləri tapmaq» işini hələ də davam etdirirlər.

Qarabağ ərazisində mövcud olan abidələr və tikinti qalıqları alban xristian və ondan sonrakı müsəlman Şərqi tipində yaranmış tikililərin həmin dövrün tikinti mədəniyyəti, memarlıq və incəsənət tiplərinin əlaqəsini və inkişaf ardıcıllığını izləməyə imkan verir. Bütpərəstlikdən tanrıçılığa, atəşpərəstliyə, onlardan da xristianlığa keçən xalqa bu dinlər heç vaxt zorla qəbul etdirilməmişdir. Eləcə də xristianlıqdan müsəlmanlığa keçid zorla həyata keçirilməmişdir. Məlum olduğu kimi bu dəyişmələr dinlərin biri digərindən mütərəqqi hesab edildiyinə görə baş vermişdir.

Beləliklə, Qarqarçay hövzəsində aşkar edilmiş maddi mədəniyyət nümunələrinin əldə edilməsi bu mədəniyyətin Azərbaycana (Qafqaz Albaniyasına) məxsus olmasını göstərir. Bu həmçinin erkən orta əsrlərin Qarqarçay hövzəsində maddi mədəniyyətin inkişafını sübut etməyə imkan verir.

**Ədəbiyyat:**

1.Göyüşov R.B. Yeni tipli daş bütlər. - Azərb. SSR EA Məruzələri. - 1966, № 6. - s. 77-79.

2. Göyüşov R.B. Dağlıq Qarabağda çoxtəbəqəli abidə. Azərb. SSR EA Məruzələri. - 1967, №10. - s. 62-65

3.Göyüşov R.B. Sığnaq yaşayış yerindən aşkar edimiş məişət təsvirli xaç daş. - Azərb. SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. - 1968, №4. - s. 38-43

4. Göyüşov R.B. Kövürqalada arxeoloji qazıntılar. - 1971-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatlar. -B., 1972.-S. 26-27.

5. Göyüşov R.B., Quliyev N.M. Orta əsr Bərdə-Dvin ticarət yolu haqqında. - Azərbaycanın maddi mədəniyyəti. VII c. - B., 1973. -S. 263-270.

6. Göyüşov R.B. Dağlıq Qarabağın xristian abidələrində təsadüf edilən «xalq» sözü haqqında. - Azərbaycanın maddi mədəniyyəti, VII c. - B.. 1973. - S. 331-334.

7. Göyüşov R.B.. Nuriyev A.B. Govurqalanın şüşə məmulatı. - Azərbaycanın maddi mədəniyyəti, X c. - B., 1987

8. Göyüşov R.B. Qarabağın keçmişinə səyahət. - B., 1993. - 82 s.

9. Göyüşov R.B. Qarabağ ərazisində erməni saxtakarlığı. - El-turan. - 1995, №1-2 (7). - S. 20-22.

10. Hacıyev Q.Ə. Bərdə şəhərinin tarixi (b.e.ə.III-b.e.XVIII əsri), Bakı, "T" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2000, 320 s.

11. Карахмедова А.А. Христианские памйатники Кафказской Албании. Bakı, Glm. 1986, s.28

**Zahid Oruc**
# SƏRHƏD SİNİRİ

Türkiyə-Ermənistan danışıqları kontekstində Azərbaycan cəmiyyətinin yaşantıları başadüşüləndir. Etiraf edək ki, bu, ictimai fikri xeyli silkələdi və bəlkə də xeyirə oldu. Zatən ziyanlı görünən hadisənin xeyirli tərəfini tapmaq və ya ona çalışmaq, onu var eləmək gərəkdir. Yaşanan son proseslərin kontekstində irəliyə çıxan məqam odur ki, biz vətəndaşlıq mövqeyini qabarıq şəkildə nümayiş etdirdik. Cəmiyyət ondan əvvəlki dönəmiərdə siyasi əlamətlərinə, ideoloji baxışlara, fərqli media stilinə görə nə qədər parçalanıb bölünmüşdüsə də, bu məsələ ətrafında vahid bir platforma üzərində hərəkət edə bildi.

Başqa ölkələrdə həsəd apardığımız bu cəhət bizim indiki halımızda özünü qabarıq göstərərək Azərbaycanın beynəlxalq aləmə yeni bir təqdimatını vermiş oldu. Biz sübut etdik ki, lazım olan zaman kütləvi informasiya vasitəsi də, siyasi spektrin bütün kəsimi də, vətəndaşı da öz ölkəsinin birinci simasının çağırışı ətrafında birləşə bilir, yaxud onun aksent etdiyi diplomatik dilə köklənir. Başqa bir tərəfdən, Ermənistanla sərhədlərin açılması məsələsi belə bir fikri gündəmə gətirdi ki, həmin sərhədlər təkcə coğrafi xarakter daşımır. O daha artıq dərəcədə ermənilərin ötən yüzillərdə apardığı düşmənçilik siyasətinin nəticəsi olaraq düşüncələrdə, ideallarda, baxışlarda, mənəvi ruhda özünə kök salmış sərhədləri pozmuş olur, təfəkkürləri qarışdırır və ciddi nifaq salır. Ona görə bu məsələdə ehtiyatlı olmaq gərəkdir. Sərhədlərin açılması əməliyyatı, yeni sərhədlərin yaranması ilə əvəz oluna bilməz. Sovetlər dönəmində türk dünyasının arasına çəkilən tikanlı məftillər o mənəvi birliyi poza bilməmişdisə, indiki addımların bunu zədələmək qorxusu varsa, deməli, həqiqəqən ehtiyatlı olmağa dəyər. Artıq Türkiyənin siyasi elitası bu məsələnin fərqində olduğunu özünün son günlərdəki bəyanatları ilə göstərməyə çalışır. Düşünürəm ki, bu ictimai protestlər müəyyən bir məsələdə iqtidarları yönləndirmiş oldu. Heç kəs üçün sirr deyil ki, ictimai narahatlıqlar müəyyən fazalardan keçir. Əvvəlcə o özünü bu cür protest kimi göstərir, sonra onun yerini qəzəb tutur, daha sonra o kinə çevrilə bilir, sonda isə onun yerini çox təəssüf ki, pessimizm əvəzləyir. Bundan sonra isə müxtəlif fəsadlar başlayır. Yaranmış pessimizm müstəvisində yad maraqlar, düşmən niyyətlər öz siyasətlərini apara bilirlər. Onun üçün də bir kimsə milli ruhu həmin o pessimizmə yuvarlayaraq, uzun onilliklər və ya yüzilliklər boyu türk dünyasının üzərində öz maraqlarını bərqərar etmək istəyənlərə meydan verməli deyillər. Çünki bu ideallardan geri çəkilmə, bu mənəvi qırıqlıq və psixologiyada yaranan çatlar başqa bir addımlarla bərpa oluna bilmir. Keçdiyimiz yolun bir daha dəyərləndirilməsi, millətin özünün varlığına bir daha qayıtması, onun yaşantılarını təzədən sərf-nəzər eləməsi də xeyirə oldu. Hər bir halda düşünməliyik ki, bugünkü dönəmdə sərhəd amilindən daha çox, türk dünyasının maraqları məsələsini Azərbaycanın addımları önə çıxara bilidi. Bunun alt qatında, yəni cəmiyyət həyatında parçalanma kimi görünən o

tendensiyalardan dolayı kimlərsə öz narahatlığını dilə gətirir. Kimsə düşünür ki, biz türk dünyasına qarşı çox getdik, Türkiyənin siyasətini bizim maraqlarımızla əlaqəli girovluqda saxlamağa çalışdıq. Belə deyil. Biz ilk növbədə onun üzərində dayandıq ki, bu türk etnosunun kultuna xələl gətirməsin. Çünki bir türk idealları ortadadır. Bu məsələdə şairindən yazıçısına, sıravi vətəndaşından məmuruna qədər hər kəsin düşüncəsində problem yaransa, milli kimliyindən "qaçış" baş verər. Ayrılan qardaşların üzərinə gəlmək imkanları artar və bizim birliyi parçalayandan sonra təkləyərək zərbə vurmaq, əzmək şansları yüksələr. Azərbaycan bu dönəmdə öz çıxış yolunu nədə görməli olar: onda yeganə hərb yolu qalır. O kontekstdəki müttəfiqlikdən kənar silahlı əməliyyatlara başlayırıq, onda hərb meydanında şanslarımız böyümür. Bu günlərdə Bernar Fasye söylədi ki, Dağlıq Qarabağda yaşanan iqtisadi böhran fonunda ermənilər onsuz da həmin torpaqları verməli olacaqlar. Bu, Vyanada ermənilər tərəfindən süngü ilə qarşılanmışdı. Amma bu sözün həqiqət yükü ortadadır. Bu regionla tanış olanlar bilirlər ki, ermənilərin özünü məruz qoyduğu izolyasiyadan çıxması onların xeyrinədir. Burada Türkiyə pəncərə rolunu oynaya bilməz.

İstənilən halda bu məsələ ətrafında mənfi maraqların geniş tirajlanmasına, ictimailəşməsinə yol vermək də cinayət olardı. Etiraf edək ki, buna cəhdlər var və çoxdan bəri türk dünyasının maraqlarına qarşı addım atmaq istəyən qüvvələr də fəallaşıblar. Osmanlı dönəmindən, yaxud Şah İsmayıl Xətai zamanından türk dünyasının içərisində olan qarşıdurmaların gündəmə gətirilməsi, Sovet İttifaqının ilk illərində Türkiyə ilə münasibətlər, hətta yəqin Türkiyə Ermənistanla tarixi düşmənçilik münasibətlərini Azərbaycan ərazilərini Ermənistana təslim etməklə və ya bu təslimçilikdə müəyyən rol oynamaqla yoluna qoymağa çalışır kimi iddialar əsassızdır. Rusiyapərəstlərin mövqeyinin güclənməsi, hər hansı etnik zümrələrin türkün üzərinə gəlməsi üçün kiməsə yol açmamaq gərəkdir.

Prezident İlham Əliyev tərəfindən ən sərt platformanın ifadə olunması fəxarət doğurucu hadisə idi. Adətən ölkənin birinci siması elə bir siyasət yürüdür ki, onun çevrəsində hər hansı siyasi qüvvə daha kəskin mövqeni dilə gətirsin. Səlahiyyətləri və missiyası etibarilə onun dili daha artıq diplomatik olur. Lakin ölkə rəhbəri bu məsələlərdə Azərbaycanın güzəşt limitini doğma qardaşımıza belə işarə etdi. Bu, çox vacib məqamdır. Yəni çərçivə göstərildi. Xüsusilə beynəlxalq dairələr onun ölçüsünü götürdülər ki, Azərbaycanın etirazı təkcə Türkiyə iqtidarına qarşı deyil, daha artıq dərəcədə beynəlxalq aləmədir ki, bizim maraqlarımızı aşağılayaraq regionda yeni geosiyasət və hər hansı başqa arxitektura tərtib etmək qeyri-mümkündür. Şübhəsiz ki, bu, Azərbaycanın önəmini artırdı və sərhəd problemi məsələsindən bizi önə çıxarmış oldu. Təsadüfi deyil ki, ABŞ prezidenti Barak Obama Azərbaycan Prezidenti ilə danışır və regionun gələcəyi ilə bağlı mövqeyini ifadə edir. Bu, çox mühüm hadisədir. Sərhəd məsələsində Qarabağ konfliktini qabartmaqla onu sübuta yetirdik ki, gələcək addımları da buna kökləyəcəyik. Əslində,

Prezidentin bu addımlarına rəğmən hər kəs, Türkiyənin siyasi iqtidarı da onu görmüş oldu ki, cənab İlham Əliyev Türkiyənin prezidenti və ya baş nazirinin yerində belə addımlar atmazdı. Çünki Azərbaycanın indiyə qədərki siyasətində elə hal olmayıb ki, bizdən istifadə edərək Türkiyənin üzərinə gedilsin. Şübhəsiz ki, bizim sərhəd məsələsinə belə həssas yanaşmağımızın bir özəlliyi də ondan ibarətdir ki, bu, dünyada görünmüş hadisədir. Məsələn, bu gün ABŞ-İran münasibətlərini misal göstərsək deməliyik ki, şah rejiminin devrilməsindən sonra on illərdir ki, Ağ Ev İrana yönəlmiş ən sərt "dəmir pərdə" siyasətini aparmaqdadır. İqtisadi münasibətlər yox, ticari əlaqələr mövcud deyil, diplomatik tanımazlıq var, soyuq müharibə mövcuddur və sair. Deməli, izolyasiya etmək, onu müəyyən sanksiyalara məruz qoymaq nümunəsini Qərb yaradıb. İndi biz Barak Obamadan tələb edə bilmərik ki, o, İranla münasibətlərini yaxşılaşdırsın və ticari münasibətləri qursun ki, bəlkə bununla etimad mühiti yaransın.

Yekun olaraq bu mürəkkəb prosesin aşağıdakı nəticələrini vurğulamaq olar:

-Ermənistanın Türkiyə vasitəsilə Qərblə yaxınlaşmasının dərhal işğalçılıq siyastinə müsbət təsirinə bağlanan illüziyalar qısa bir müddətdə dağılardı. Əksinə, artan yeni istisadi imkanlar fonunda bu ölkə dinc yanaşı yaşama prinsiplərini daha çox pozmağa və ərazi iddialarını həyata keçirməyə böyük stimul qazanacaqdır;

-Azərbaycanın Rusiya ilə yaxınlaşmaq üçün bu prosesi bir kampaniya olaraq apardığını iddia edənlər unudur ki, ölkəmizin Türkiyə ilə münasibətləri korlamaq fonunda Kremlə yaxınlaşması onun birqütblü siyasətin təzyiqinə könüllü tabe olması anlamına gəlir. Xarakterinə və siyasi dünyagörüşünə görə müstəqil kurs aparan İlham Əliyevin belə bir perspektivə can atması kəsərli arqument deyil;

-"Türkiyənin sərhəd məsələsi ilə başlanan diplomatik fəallığı onu Qarabağ danışıqlarında əsas oyunçuya çevirib" deyənlər, proses başa çatdıqdan sonra səhnəyə bu stratejinin həqiqi müəlliflərinin çıxdığını görəcəkdilər;

- Sarkisyan özü də bilmədən həqiqəti söyləyərək deyirsə ki, sərhədlərin bağlanması səbəb yox, nəticədir, deməli Dağlıq Qarabağ münaqişəsini bu prosesdən kənarda qoymaq Türkiyə siyasi diplomatiyası üçün səhv olardı;

- Sərhədlərin açıq olmamasının Ermənistanı Rusiyaya daha çox bağladığını iddia edənlərin dəqiq zəmanətləri yoxdur ki, bu blokada götürülmüş olsa, Ermənistan-Rusiya əlaqələrinin səviyyəsi aşağı düşəcəkdir;

- ABŞ və Avropa Birliyi əslində Cənubi Qafqazı vahid bir planda götürərək növbəti mərhələdə Azərbaycanın Ermənistanla müəyyən lokal sərhəd açılışı əməliyyatlarını tələb edəcəkdir ki, guya iqtisadi-ticari əməkdaşlıq vasitəsilə kontlikt tənzimlənəcəkdir. Bu təhlükənin Azərbaycan qarşısında qoyulmaması üçün Türkiyənin indiki addımı ehtiyatlı olmalıdır. Xatırladaq ki, hələ zamanında Bill Klinton Azərbaycan prezidenti Heydər Əliyevə Qazax rayonu ərazisindən Ermənistanla ticari münasibətlərə getmək xahişində bulunmuşdu. Avropa Birliyi

isə buna bənzər təklif fonunda bizə o vaxt 1 mlrd. dollardan artıq mükafat vəd etmişdi, Ulu Öndərin kəskin etirazı hər kəsin xatirindədir;

- Ən nəhayət, İran və Gürcüstanın bu məsələdə pozucu mövqe tutması, guya bizim maraqların qoruyucuları kimi hərəkət etmələri başadüşüləndir. Çünki, regionda qüvvələr nisbətinin dəyişməsi onları belə hərəkatlərə vadar edir və s.

Türkiyə siyasi dairələri xarici siyasətini saxta "erməni soyqırımı" üzərində qurmalı deyil. Bu, çox yanlış olardı. Bundan ötrü Azərbaycan kimi bir ölkəni itirməyə dəyməz. Bizi əvəz edəcək ölkə yoxdur. Sərhəd açmaq əməliyyatı ilə Ermənistanı Rusiyanın təsir dairəsində çıxarmaq müşkül məsələdir. Türkiyə Ermənistan üçün Rusiya ola bilməz. Rəsmi Kreml də istənilən an belə layihələri darmadağın edə bilər.

İş elə gətirib ki, sərhəd türk dilində "sınır" kimi ifadə olunur. Əslində bu, o deməkdir ki, o millətin sinir sistemidir. Çox kəskin addımlar, kəskin toxunmalar şübhəsiz ki, həmin siniri ağrıdır. Bu məsələdə ehtiyatlı olmağın gərəkliliyi buna bağlıdır.

## ELMİ-PRAKTİKİ KONFRANSDAKI ÇIXIŞLARIN QISA İCMALI

Atatürk Mərkəzində gerçəkləşən elmi-praktik konfransı Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı açıq elan etdi və konfransın əhəmiyyətinə, müzakirə olunacaq məsələlərə toxundu. Sonra söz çıxışçılara verildi.

**Kamran İsmayılov:** "Azərbaycanın Dağlıq Qarabağ bölgəsində suverenliyin təmin edilməsində Qarabağ general qubernatorluğunun rolu" mövzusunda çıxış etdi.

**Şuşa Birlik Cəmiyyətinin sədr müavini Umudvar Məmmədlinin replikası:** Bəlkə bu bir təsadüfdür, O vaxt general qubernatorluq vaxtı Dağlıq Qarabağ məfhumu olmayıb. Bəlkə də mexaniki səhv etdiniz, xahiş edirəm onu düzəldəsiniz. Burda kitabda yazılır, ermənilər də belə şeylərə fikir verirlər.

**Əbdül Səfabəyli:** "Qarabağ düyünün əlacı: Şahmat variantı adlı çıxışında Qarabağ münaqişəsinin optimal həlli yollarınına toxundu. Onun çıxışı ilə bağlı şəxsi fikir və iradlarını bildirənlər də oldu.

**Mübariz Əhmədoğlunun replikası:** Doqquz ildən artıqdır ki, mən Prezident Aparatına məlumat və material göndərirəm. Bir dəfə də laqeyd münasibət görməmişəm.

Söz **Sabir Yanardağa** verilir: Qarabağ məsələsi açıq söhbət getməsə, həll oluna bilməz. Qarabağ məsələsini Erməni-Azərbaycan məsələsi kimi qoyanda alınmır. Çünki Qarabağ məsələsinin həllində Moskva böyük rola malikdir, o da onun həllini süründürür. Qarabağ məsələsinin özünün həll variantı var. Rus yetkililərindən biri demişdi ki, Ermənistan bizim üçün "'forpost-dayaq nöqtəsi"dir. Bizim prezident İlham Əliyev cənabları da bildirmişdi ki, madam belədir, biz də forpostun sahibi Moskva ilə danışıq apararıq. Necə oldusa, Moskva ilə danışıq məsələsi getdi, ancaq erməni ilə danışıq qalır. Qarabağ problemi ağılla həll oluna bilər, müharibə ilə həll oluna bilər. Nə bilirsən, bizim və onun bu müharibədə nə qədər imkanı var, Ermənistanın

arxasında isə Moskva və beynəlxalq irtica durur. Bizim də arxamızda duran var, lakin arxamızda duranlar Ermənistanın arxasında duranlardan zəifdir. Ya da problem belə həll oluna bilər: 1988-ci ildə iyulun 22-də Moskvada Ali Sovetdə Qromıko dedi ki, Qarabağ mürəkkəb məsələdir. Bu problem ya ağılla həll olunacaq, ya da Moskvanı uçuruma aparacaq. Ya da Qarabağ məsələsi elə həll olunacaq ki, Türkiyə ilə Azərbaycan arasında bir nəfər də erməni qalmayacaq.

**Üçüncü çıxışçı Tofiq Nəcəfli:** "Azərbaycanın on altıncı əsr siyasi həyatında Ziyadoğlu Qacarların rolu" mövzusunda adı çəkilən nəslə mənsub görkəmli şəxslərin fəaliyyətindən danışdı.

**Mübariz Əhmədoğlunun rəyi:** Düşünürəm ki, şəbəkə müharibəsinin Azərbaycan daxilində Qarabağ münaqişəsinin həllinə mənfi təsirinin qarşısını almalıyıq. Bu işdə QAT-ın böyük rolu var və olacaq. Onun adı çəkiləndə ermənilərdə bir ayrı hiss, azərbaycanlılarda isə başqa bir hiss yaradır. Bu təsirsiz qalan ad, təşkilat deyil. Münaqişəsin ilkin mərhələsinə gəldikdə, isə tənzimləmə prosesi virtual mərhələdən real mərhələyə keçid dövründədir. Əgər Praqa görüşündə vasitəçilərin nəzərdə tutduğu məsələlər axıradək getsəydi, Sankt Peterburq görüşündə belə başa düşürdüm ki, artıq tərəflər arasında saziş və ya buna bənzər bir şey bağlanacaq və münaqişəsin tənzimlənməsi virtual mərhələdən çıxacaqdı. Münaqişənin tənzimlənməsindəki virtual məsələni ümumilikdə Azərbaycanın xeyrinə hesab etmək olar. Nə qədər ağır gəlsə də, yaxşısına-pisinə toxunmadan deyə bilərəm ki, virtual mərhələnin reallığı ondan ibarətdir ki, Azərbaycanın torpaqları özünə qayıdır. Həm Türkiyə, həm də Azərbaycan mətbuatında 5 rayonla bağlı çox söhbət getdi. Amerikalı həmsədr Metyu Brayza Azərbaycan mətbuatına və "Exo Moskvı" radiostansiyasına bildirdi ki, 5 rayonun qaytarılması ilə bağlı gedən danışıqları faydalı hesab etmir. Mənbə bir deyil, ən azı iki mənbədir. QAT-ı qane etməyən olsa-olsa bir məqam var ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsi kimi qalır, amma o status ilk əvvəl formal Azərbaycanın tərkibində qalmağıdır. Hadisələrin gedişini nəzərə alsaq, Azərbaycanın daxilində ekstremal vəziyyət yaranmasa, anladığım oldur ki, formal tərkibdə qalmanı real tərkibə salmaq olar. Mənim Akif müəllimlə olan söhbəti söyləmək istəyirəm. QAT-ın bir bəyanatı olmuşdu. Referendum vaxtı da müxtəlif təşkilatlar təşəbbüsqaldırma hüququnun 300 mindən azaldılaraq 40 minə gətirilməsi ilə bağlı söhbət olmuşdu. Hamı bunu neqativ qəbul edirdi. O zaman mənim Akif bəylə söhbətim oldu. Mənim anladığım odur ki, 40 minə ona görə endirilir ki, Dağlıq Qarabağa qayıdan Azərbaycan vətəndaşlarının təşəbbüskarlıq imkanı olsun. Azərbaycanın mərkəzi höküməti orda siyasi islahatları apara bilsin. Dağlıq Qarabağda yaxın gələcəkdə 300 min azərbaycanlı olmayacaq. Ordakı əhali heç bir zaman qanunvericilik təşəbbüsünə malik olmayacaq. Ancaq Azərbaycanın istənilən bölgəsində 40 min əhali Dağlıq Qarabağa qayıdan əhali üçün nəzərdə tutulub, qanunvericilik təşəbbüsü yaratmaqla onlar istər-istəməz orda azərbaycanlılardan 1,5, iki dəfə çox olan ermənilərə təzyiq rolu ola bilər. Dağlıq

Qarabağla bağlı virtual mərhələdən real mərhələyə keçidlə bağlı vacib məsələ ondan ibarətdir ki, ATƏT-in Minsk qrupu dəyişilməlidir. Minsk qrupu o mexanizmdir ki, ona əsasən Ermənistan hətta virtual sülh sazişinə belə qol qoymayacaq. Çünki Minsk qrupu Ermənistanı heç nəyə vadar edə bilmir. Minsk qrupu tərkibində iki əyləc var. Bir əylac odur ki, əgər bir şərt razılaşdırılmayıbsa, deməli bütün şərtlər razılaşdırılmayıb. Əvvəllər həmsədrlər 4 məsələdən danışırdılar, indi isə tədricən artırıblar iyirmi məsələyə. Deməli Ermənistan məsələni yubada-yubada gəlib 19-cu məsələyə çatacaq, nərdivanın 20-ci pilləsinə qoymayacaq. Bununla da arxada qalan 19 mərhələnin heç birinə razılıq verilmir. İkincisi, konsensus mexanizmidir. Bu mexanizmə əsasən iyirminci pillədə ayaq qoysa belə, Minsk qrupu formatında keçirilən tədbirdə....(fikrin tamamlamır) ... nizamnaməsində yazılıb ki, Minsk qrupu konfrans keçirməlidir, orda Ermənistan özü konsensus verməyəcək. Mən Rusiyanın, Amerikanın, Fransanın əleyhinə deyiləm. Çox uğurlu təklifdir, ancaq onlar bu təkliflə lazımi nəticəni əldə edə bilməyəcəklər. Mən təsadüfi hesab etmirəm ki, çöldə danışanda Rusiyanın da danışığında Azərbaycanın leyhinə xeyli irəliləyiş var, Amerikanın da mövqeyində xeyli irəliləyiş var.

Amerika da gördünüz ki, Qarabağa olan yardımlarını dayandırdı və qəti şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan etdi. Amerika Ermənistana çox ciddi təzyiqlər edir. Ancaq ATƏT-in Minsk qrupu stol arxasında oturanda tamam dəyişirlər.

**Akif Nağı:** Bu mövqe xoşuma gəldi, hər halda təşkilatın 10 il əvvəlki dediyi mövqeyi ilə üst-üstə düşür. ATƏT-in Minsk qrupunda hansısa bir sənəd razılaşdırılarsa da, orada elə bir mexanizm var ki, o reallaşdırılmayacaq. Minsk qrupundan imtina olunmalı, məsələ BMT müstəvisinə keçməlidir. Mübariz bəyin dediyi mövqe ilə tam razıyam. Həm Mübariz bəyin, həm də Əbdül müəllimin mövqeyi ilə bağlı bir məsələni vurğulamaq istəyirəm ki, danışıqlarda qəbul olunmayan məsələlərdən biri ondan ibarətdir ki, işğal olunmuş ərazilər hissələrə bölünməməlidir. Beş, iki, daha sonra Dağlıq Qarabağ... Azərbaycan heç bir halda o danışıqlarda iştirak etməməlidir. Şəxsən mənim mövqeyim belədir. Çünki bu işğal olunmuş ərazilər arasında fərq qoymaq deməkdir.Bu məsələnin bir tərəfi. Digər tərəfdən 5 rayon geri qayıdandan sonra yerdə qalan ərazilərin işğaldan azad olunması çox çətin məsələ olacaq. Ona görə də Azərbaycan bu danışıqlara getməməli, orada iştirak etməməlidir. Bu məsələ bugünkü tədbirdə qabardıldığına görə mən bu məsələyə münasibətimi bildirdim.

**Umudvar:** Akif bəy, 40 min əhali bir nəçə il sonra qalmayacaq orda. Niyə? Çünki doğulan uşaqların sənədində rayonun adı "Laçın", "Şuşa" və s. adları yazılmır. Məcburi köçkün uşaqların sənədində bu yazılmır. Bununla on ildir, mübarizə aparıram, xeyri yoxdur. VVAQ-lara da göstəriş verilməlidir ki, məcuri köçkün doğulan uşaqların sənədində mənsub olduğu rayonun adı yazılsın ki, bu Şuşalıdır, Xocalıdandır və s.

**Asif Məmmədov:** Uzun müddət bu işlə məşğul olan insan kimi deyə bilərəm ki, biz bu variantlardan hər birini seçib keçmişik. Ermənilərin kim olduğunu yaxşı bilirik və onlara dayaq olan insanları da yaxşı başa düşürük. Bayaq burda Qarabağ qubernatorluğu barəsində danışıldı. 1918-ci ilin sonlarına nəzər salaq; Azərbaycan hansı vəziyyətdə idi? Bakı irtica qüvvələrinin əlində idi. Quberniya nə qədər torpaqları azad etdi. İndi həmin dövrdə bizi gələcək müharibələrə qorxu yaratmağa ehtiyac yoxdur. Fədakarlıq lazımdır.
O ki qaldı digər variantlara, onlar bu variantları hansı formaya çevirsələr də, Qarabağın qaytarılmasına heç vaxt yardım etməyəcəklər. Əsas vaxtı uzadırlar. Hər bir ölkənin dövlət başçıları öz siyasi-iqtisadi məsələlərini həll etmək üçün vaxtı uzadırlar. Bizdə də bəzilərinə əl verir ki, yeni qrup yaratsınlar, təzədən 15 il danışıqlar aparsınlar. Bu düzgün deyil. Qarabağ məsələsi ümumxalq məsələsidir. Yuqoslaviyada baş verən hadisələri gözünüzün önünə gətirin. Adicə xırda dövlətlərə üstünlük verirlər, necə oldu ki, Qarabağa vermirlər?! Xalq birləşib məsələ qoymalıdır. Akif müəllim, axırıncı dəfə Qarabağ məsələsi BMT-də müzakirə olunanda Amerikanı nə cür dəstəkləyirsiniz, Amerika, Fransa bizim əleyhimizə səs verdi. İsrail isə bitərəf qaldı, sanki dedi ki, mən bitərəfəm, Amerikadan bir az yaxşıyam. Azərbaycan hökuməti xalqını mübarizəyə hazırlamalıdır.
**Sabir Yanardağ:** Bu gün ATƏT-in Minsk qrpunun üzvləri hansı ölkələrin nümayəndələrindən ibarətdir. Birinci Dünya müharibəsində ermənilər tərəfdaş olan ölkələrdən. Bilirsiniz ki, dağlıq Qarabağ, Zəngəzur məsələsi Birinci Dünya müharibəsi və onun fonunda baş verən hadisələrdən qaynaqlanır. Bugün onların guya hansısa tərəfsiz mövqeləri, hansısa danışıqlara vasitəçilik edəcəyi mümkünsüz bir şeydir. Türkiyənin vaxtında onun Minsk qrupuna üzv olmaması və Azərbaycanın bu tələbdə bulunmaması özü bir səhv addım idi. Bıı problemin BMT-nin, ATƏT-in müstəvisinə atılması geriyə doğru, Lazımsız bir addım idi, onun zərərini yaşayırıq. Minsk qrpunun üzvləri 13 mart 2008-ci ildə BMT-nin Təhlükəsizlik Şurasının iclasında səsvermə zamanı Azərbaycanın əeyhinə səs verdilər. Bunlar heç olmasa, bitərəf mövqedə qalmalı idilər. Bu mənada ermənilər birinci mərhələdə üstünlük əldə etdikləri üçün danışıqlar uzanacaq. Ona görə də bu məsələdə diplomatik basqı lazımdır.
**Tahirə Məmmədova (QAT üzvü):** Mən hələ uşaq olanda ermənilər baş qaldırıb Laçından yol istəyirdilər. İndi Laçın dəhlizi adlandırırlar. İndi də belə bir məsələni qaldırırlar ki, 3 rayon qalsın, 5 rayonu versinlər. Qətiyyən belə bir şeyə yol vermək olmaz. Ermənilər həmin 5 rayonu ona görə götürüblər ki, bugünkü gündə kompromis adı ilə bizə qaytarsınlar. Üç rayon qalsa, əlinizi üzün onlardan. Çünki Laçın dəhlizi ilə silah-sursat gətirib silahlanacaqlar, hər bir şey gətirəcəklər. Şuşa alınmaz qala idi. Şah Qacar Şuşanı ala bilməmişdi. Təsəvvür edin, onlar orda möhkəmlənsə, Laçın, Şuşa da daxil olmaqla üç rayonumuzu siz onlardan ala bilməyəcəksiz. Bunu xalqa, prezidentə də çatdırmaq lazımdır.
**Mübariz Əhmədoğlu:** Elə xanımın dediyi ilə başlamaq istəyirəm. Qarabağ

münaqişəsinin bir adı da erməni məsələsinin tərkib hissəsi adlanır. Erməni məsələsi Şərq məsələsidir. Müsəlman Şərqini qarışdırmaqdan ötrü Osmanlı imperiyasının tərkibində şərq məsələsini, erməni məsələsini qaldırdılar. Hal-hazırda indiki halda bu məsələ çevrilib olub Qarabağ məsələsi. Dağlıq Qarabağ və 7 rayonun qaytarılması Azərbaycanla Ermənistan arasında məsələni həll eləmir. Ermənistanla Azərbaycan arasında məsələ o zaman həll olunacaq ki, Cənubi Qafqazda 1918-ci ildə olduğu kimi vəziyyət olsun. O zaman türk qoşunları Qərbi Azərbaycanla irəliləyib Gəncəyə və Bakıya gəldilər. Eləmi? Oralara ancaq təmiz Azərbaycan torpaqları ilə gəldilər. İndi Türkiyə və Azərbaycan arasında birbaşa olaraq əlaqə varmı? Yoxdur. Azərbaycanla Ermənistan arasında tam quru əlaqə olandan sonra deyə bilərik ki, Cənubi Qafqazda sabitlik hökm sürəcək, bununla da erməni məsələsi bitir. O ki, qaldı burda Akif bəyin və digər qardaşımızın çıxışına deməliyəm ki, 1989-cu ildə Amerika Senatı qərar qəbul edib Qorbaçova deyir ki, azərbaycanlılar Dağlıq Qarabağda erməni və yəhudiləri qırır, sən get dağlıq Qarabağda təhlükəsizliyi təmin et, onlara müstəqillik ver və azərbaycanlıları qovub ordan çıxar. Bugün isə ədalət naminə deməliyəm ki, Amerikanın mövqeyi xeyli azərbaycanpərəstdir.

Mən Amerikanın mövqeyini neytral yox, ədalətpərəst-azərbaycanpərəst hesab edirəm.

**Dördüncü çıxış: Qasım Hacıyev** "Dağlıq Qarabağ problemi: səbəb və nəticələr"

**Beşinci çıxışçı: Elçin Əhmədov** "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasətinin nəticələri" mövzusu.

**Altıncı çıxışçı: Kərim Şükürov** "Qarabağ (Azərbaycan) fraqmentar baxışdan milli konsepsiyaya keçmək zərurəti haqqında"

**Yeddinci çıxışçı: Qabil Hüseynli:** "Bir-birinə bənzəyən həmsədrlər"

**Səkkizinci çıxışçı: Güntəkin Nəcəfli:"** On doqquzuncu əsrin birinci yarısında Qarabağda erməni dövlətinin yaradılma cəhdləri".

Rafiq **Səfərovun replikası:** Məqsəd heç vaxt Ermənistan dövləti yaratmaq olmayıb. Bu səhvdir. Biz bunu bir daha bəyan edirik.

**Güntəkin Nəcəflinin cavabı:** Onlar üçün əsas məsələ dövlət yaratmaq idi, istəyir, orda erməni yaşasın və yayaşamasın.

**Doqquzuncu çıxışçı: Rafiq Səfərov:"** Sünikin cənub-qərb sərhəddinə dair"

**Akif Nağının replikası:** Siz çıxışınızda sərhəd məsələsinə toxundunuz. Tarixdə həqiqətən belə bir sərhəd var yoxsa yox?

**Rafiq Səfərov:** Adam Sebiovks yeddinci əsrdə yaşamış erməni müəllifinin əsərinə istinad edir, orada 591-ci ildə Bizans və İran arasında sərhədləşmə prosesinə toxunulur və hansı torpaqlar Bizansa məxsusdursa o göstərilir.

**Akif Nağı:** Müasir adlarla izah edə bilərsiz?

**Rafiq Səfərov:** Müasir sərhəd Qarni çayı və Zəngi çayı ilə gedib çıxır Göyçə gölünün qərb-şimali sahilinə. Ordan Dilican, hardansa gəlib çıxır Qazax, qərb tərəfə. Hardasa Tiflisə doğru gedib çıxır. Bu yəqin ki, şərti bir sərhəddir.

**Firdovsiyyə Əhmədova:** Bu maraqlı məqamdır. O dövrlə bağlı boşluqlar çoxdur. Siz dediniz ki, Zəngəzur Göyçə, Naxçıvan, bir-birilə coğrafi bağlı ərazilər olub. Göyçə-Zəngəzurun Albaniyanın tərkibində olması, sonra Qarabağla Zəngəzurun bir bəylərbəyliyin, quberniya tərkibində olması, yəqin ki, həmin o tarixi coğrafi mahalını, sərhədlərə aid olması baxımdan sonra da inzibati ərazi vahidi kimi qalıb. Maraqlıdır ki, cümhuriyyət dövründə də parlamentin sonuncu qəbul etdiyi qanun 22 mart 1920-ci ildə Gəncə qəzasının iki yerə bölünməsi, Şamxor qəzasının yaradılması olub. Bugünkü Göyçə mahalının əraziləri Şamxor qəzasının tərkibinə daxil edilib. Bunun deməli tarixi əsası var imiş.

**Onuncu çıxışçı: İradə Məmmədova** (?) "Qarabağ xanlığının əhali siyasəti".

**On birinci çıxışçı:Nailə Bayramova:"** Qarabağ xanlığının Şamaxı xanlığı ilə əlaqələri".

**On ikinci çıxışçı: Ramiz Abbaslı"** Tomas de Vaalın "Qara bağ" kitabındakı təhriflərə dair".

**On üçüncü çıxışçı: Tofiq Həsənov** "Zəngəzurun türk-müsəlman əhalisinə qarşı erməni təcavüzü (1906-cı il)

**Akif Nağı:** Məruzələrimiz qurtardı, müzakirələrə başlaya bilərik. Sözü verək Qasım müəllimə.

**Qasım Hacıyev:** Ramiz müəllimin çıxışı məni bir vətəndaş kimi həyəcanlandırdı. Hər kəsin öz sahəsi, peşəsi var; həkim həkimliyə, hərbçi öz sahəsi ilə, tarixçi də tarixlə məşğul olmalıdır. Əgər qardaşımız ermənilərin xeyrinə kitaba qarşı etirazını bildirirsə, bu normal bir şeydir. Ancaq fikirləşirəm ki, sizi kaş ki, digər vətəndaşlarımız, Azərbaycanın torpağında milyonlar qazanıb onun üçün bir manat da xərcləməyənlər də bununla maraqlanardı. Kaş o kitab onun əlinə keçərdi, baxardı ki, Şagen Mkrtçyanm kitabının əvvəlində Sibirdə erməni milyonçusu yazır: "siz Qarabağla bağlı xeyli iş görmüsünüz. Ancaq Naxçıvan, Beyləqan torpaqları durur. Bu barədə məşğul olun. Bu barədə nə iş görsəniz, mənə müraciət etməsəniz, özümü təhqir olunmuş sayaram." Samvel Karapetyan Qarabağla bağlı kitab yazdı, bizim ziyalılar ona cavab verdilər. Götürdü başqa bir kitab yazdı: "Taynıy Qanzak, Severmy Artsax" Ona mən də 23 səhifəlik cavab yazmışam. Sonra baxdıq ki, Moskvada yüksək tirajla müxtəlif dillərdə kitablar çap edilir. Biz zorla nazik kitab buraxa bilirik. Ancaq onlar cild-cild kitablar çap edirlər. Orda yazır ki, "Əmir Teymur də ermənidir, araba ilə təkəri də ilk dəfə erməni kəşf edib", hətta ilk kazak dəstəsini də guya onlar yaradıb. Görürsən keçdilər cəfəngiyyata. Biz isə öz tariximizdən yapışırıq. Kərim müəllimlə Yaqub müəllimin Qarabağla bağlı gözəl bir kitabı işıq üzü görüb. Onu vərəqləyib deyirəm, Qarabağın əsl tarixi budur. Qarabağın maddi mədəniyyət tarixi haqqında 78 səhifəlik kitab yazmışam. Onu oxuyandan sonra suala cavab tapırsan: Qarabağ kiminkidir? On ildir, bu kitab işıq üzü görüb. Ancaq heç görün milyonlarla pul səpən oğlanlar deyirmi ki, gəlin bunu digər dillərə də tərcümə edək? Səksən səhifə çoxdur, edək 60 ya da otuz səhifə. Kərim müəllim də həmin kitabın

radaktorlarından biri olub.
**Ramiz Abbaslı:** Biz yazmaqdan yorulmamalı, mübarizə aparmalıyıq **Qasım Hacıyev:** Düzdür, ona görə də nə qədər imkanımız var, tariximizlə bağlı kitablar yazmalıyıq.
**Rafiq Səfərov:** Biz heç də bütün sahələrdə ermənilərdən geridə deyilik. Fəvvarələr məsələsi var. Bakı bəlkə də İrəvanı fəvvarələrin sayına görə üstələyib. 1977-ci ildə mən İrəvanda olarkən eşitmişəm ki, İrəvanda yüzə qədər fəvvarə var.
**Akif Nağı:** bayaq burda Kərim müəllim çıxışında bu yaxınlarda "Eurovision" mahnı müsabiqəsində Ermənistana həsr edilmiş çarxda verilən Qarabağdakı tarixi abidəyə toxundu, yəqin ki, hamınız üçün maraqlıdır, həmin abidə nə abidəsidir....
**Kərim Şükürov:** Bu abidə 1970-ci ilin ortalarında daha dəqiqi 1976-cı ildə qoyulub. Onun müəllif Ermənistanın xalq rəssamı Sarkis Barxudaryandır. Abidə "biz və bizim dağlar" adlanır. Bu abidə onun üçün nəzərdə tutulub ki, dağlıq Qarabağ uzunömürlülər diyarıdır, bu isə uzunömürlülərə qoyulmuş bir abidədir. Hesab edirəm ki, bu bir vasitə olubdur ki, həmin abidəni qoymaq mümkün olsun. Abidəyə baxmısınızsa. Görəcəksiniz ki, orada bir qadın, yanında kişinin timsalında erməni ailəsi təsvir olunur. Abidə postamentsiz dağın üstündə ucaldılıb. Bu erməni nöqteyi nəzərindən müəyyən simvolu ifadə edir. Bilirsiniz, ermənilərin köçürülməsinin 150 illiyi ilə bağlı abidə ucaldılmışdı, 1978-ci ildə o sındırıldı. Azərbaycanda da çalışırıq ki, onun Azərbaycan abidəsi olduğunu verək. Biz bunu əvvəlcə onun öz abidəmiz olduğunu sübut etməliyik. Azərbaycanda müxtəlif xalqlar yaşayır. İçərişəhərdə moltanı karvansarası var. BIzim abidələrə düşünürəm ki, bir yanaşmamız olmalıdır.
**Sabir Yanardağ:** Gürcü tarixçisi Avaza rus dilində "Kratkaya istoriya Azerbaycana" adlı kitab yazıb. O da sübut edir ki, bu ermənilər ilə o erməninin heç bir əlaqəsi yoxdur, keçmişə getdikcə onun mənası "ər-mən" kimi izah edilir.
**Teymur Novruzoğlu:** Mən texniki sahə adamıyam. Ancaq Qarabağ məsələsindən sonra nə qədər tarixlə maraqlanmışam, bu məndə qəribə və möhkəm fikir yaradıb ki, bütün bu Qarabağ məsələsinin kökündə Alban məsələsi durur. Bizim Tarix institutu, alimləri köklü sürətdə sübut ediblər ki, "buranın yerli əhalisi albanlardır, albanlar bura gəlmə və getmədir. Nə vaxtsa bura gəliblər və nəvaxtsa gediblər. Buxarlanıb yox olublar" bu erməniyə bəhanə verir ki, Albaniyaya aid nə varsa, ermənilərindir. Bunun da 90% Tarix İnstitutundadır. Soruşuram, hara getdi o albanlar?
Yerdən kimsə: Erməniləşdi. **Teymur Novruzoğlu:** Düz demirsiniz, erməniləşməyib. Albanlar müsəlmanlaşıb, qoyun fikrimi izah edim. Basqalda mən arı saxlayırdım. Getmişəm bulağın üstünə, bulağın adını soruşuram cavab verirlər: "İsa bulağı" mən deyirəm ki, İsa bulağı Şuşadadır. Deyirlər ki, İsa bulağı Azərbaycanın başqa bölgələrində də var. Bunlar erməni deyil, Basqalda heç vaxt erməni olmayıb. Bəs onda niyə İsa bulağıdır? Çünki biz mən də, siz də hamımız albanıq. Biz müsəlmanlaşmış albanıq. Onlar da türk idi, ancaq xaçpərəst alban idi, dinləri başqa idi. Onlardan bir qismi müsəlman oldu, çox az bir qismi Şəkidə, Qarabağda Gürcüstanda ya erməniləşdi ya da gürcüləşdi. Bunu demək lazımdır.

**Asif Məmmədov:** Mənim bir təklifim var: Bu konfransın adından xalqa və dövlətə müraciət edək. İşğal altında olan torpaqları xilas etmək üçün "Qarabağ" adlı Mərkəz yaradılsın. Burada deyilən təkliflər, ölkədə və xaricdə çap olunan kitabların, ermənilərin Qarabağla yazdıqları kitabların hamısı toplansın. Onlar o qədər yalana girişiblər ki, əksər vaxtlar bir-birinin ardınca çoxlu səhv buraxırlar. Bunu onların yazdığı əsərlərdən tapmaq olar. Bu həqiqətən belədir.

Eyvaz **müəllim:** Mən sizin təşkilatınızın buraxdığı kitabları çox istifadə edirəm... Bu kitabların bir xeyri var ki, Qarabağı yaddan çıxarmağa qoymur.

**Mehriban Abdullayeva:** Akif bəy, mən sizə və iştirakçılarımıza dərin təşəkkür edirəm və arzulayıram ki, bu danışıqlarımız o qədər güclü olsun, ki, eşidilsin. Alimlərimiz çox vaxt ermənilərə istinad edir;"ermənilər yazır ki, ermənilər deyir ki," bunlardan o qədər bezmişik ki. Qoyun ermənilər bizim alimlərə istinad etsin.

**Akif Nağı:** Mən sizi inandırım ki, ermənilər də Azərbaycan alimlərinə istinad edirlər. Narahat olmayın, biz də onların diqqətindəyik. Biz arxayınlaşmamalı, yenə də çox işləməliyik. Konfransda və müzakirələrdə iştirak edənlərə təşəkkür edirəm. Burada deyilənlərin hamısı nəzərə alınacaqdır.

İcmalı hazırladı: **Əfsanə Bayramqızı**

# K İ T A B D A K I L A R

**Akif Nağı,** tarix elmləri namizədi, Rus-gürcü müharibəsi və Qarabağ
**Beytulla Şahsoylu,** tarix elmləri namizədi Haykanlar (erməni) Qafqazda və panermənilik
**Bəxtiyar Həsənov,** Yuxarı Qarabağda 1905-1906-ci illər erməni təcavüzkarlığına dair
**Elçin Əhmədov,** siyasi elmlər namizədi Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasətinin nəticələri
**Elçin Əhmədov,** siyasi elmlər namizədi Ermənistanın təcavüzkarlıq siyasəti və ATƏT
**Əbdül Səfabəyli,** Qarabağ düyününün əlacı - Şahmat variantı
**Ədalət Mustafayev,** tarix elmləri namizədi Dağlıq Qarabağ münaqişəsinə baxış
**Əli** Abasov, fəlsəfə elmləri doktoru, Нагорно-карабахский гамбит: поиски эндшпиля
**Fəxrəddin Şahsuvarov,** Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi istiqamətində Azərbaycan dövlətinin fəaliyyəti
**Firdovsiyyə Əhmədova,** tarix elmləri namizədi Qarabağda siyasi vəziyyət və general-qubernatorluğun yaradılması
**Firuzə Əliyeva,** fəlsəfə elmlər namizədi Erməni iddiaları və demoqrafik təhlükəsizlik
**Güntəkin Nəcəfli,** tarix elmləri namizədi Azərbaycanın Qarabağ bölgəsində erməni dövləti yaradılması cəhdləri (XIX əsrin əvvəlləri)
**İlhamə Hüseynova,** Bir daha erməni vəhşiliklərinə dair
**İlqar Niftəliyev,** tarix elmləri namizədi, Qarabağ qeneral-qubernatorluğu dövründə Erməni Milli şurasının separatçılıq fəaliyyəti
**İlqar Niftəliyev,** tarix elmləri namizədi, Территории Азербайджана в экспансионистских планах Армении после второй мировой войны (вторая половина 40-х-60 гг. XX века)
**İradə Məmmədova,** tarix elmləri namizədi, Qarabağ xanlarının əhali siyasəti
**İsmayıl Musa,** tarix elmləri doktoru. Qarabağ general-qubernatorluğunun təşkili və fəaliyyəti: məqsədlər, problemlər, nəticələr
**İsmayıl Musa,** tarix elmləri doktoru, Qars müqaviləsinin pozulması məsələsinə dair
**Kamil Səlimov,** hüquq elmləri doktoru. Политика-правовые проблемы непризнания «геноцида армян 1915 г.»
**Kamran İsmayılov,** tarix elmləri namizədi, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində suverenliyinin təmin edilməsində Qarabağ General-qubernatorluğunun rolu
**Kərim Şükürov,** tarix elmləri doktoru Qarabağ (Azərbaycan): fraqmentar baxışlardan milli konsepsiyaya keçmək zərurəti haqqında
**Qabil Hüseynli,** fəlsəfə elmləri doktoru Ölkələrinə bənzəyən həmsədrlər
**Qasım Hacıyev,** tarix elmləri doktoru Dağlıq Qarabağ problemi: səbəb və

nəticələri
**Lalə Hacıyeva,** filologiya elmləri namizədi Ə.Ağaoğlunun publisistikasına dair
**Mehdi Şərifov,** hüquq elmləri namizədi. Проблема верховной власти в исламской государственности (средневековые представления о власти праведного халифа, современная реализация основ «исламского правления», альтернативное видение в концепте «лозаннского» ислама)
**Mübariz Süleymanlı,** sənətşünaslıq namizədi, Əhməd Ağaoğlunun kulturoloji baxışlarına dair
**Nailə Bayramova,** Qarabağ xanlığının Şamaxı xanlığı ilə əlaqələri
**Nazim Məmmədov,** tarix elmləri namizədi. Ermənistanın Azərbaycana hərbi təcavüzü və Türkiyənin sülh strategiyası
**Novruz Novruzbəyli,** "Avro Xəbər" qəzetinin baş redaktoru Qarabağ münaqişəsinə müasir dünya siyasəti kontekstində baxış
**Rafiq Səfərov,** tarix elmləri namizədi. О юго-западной границе Сюника
**Ramiz Abbaslı,** Tomas de Vaalın "Qara bağ" kitabındakı təhriflərə dair
**Rasim Musabəyov,** politoloq, Прорыв в карабахском урегулировании в повестке дня. Хотя общественность для этого и совершенно не готова
**Rəna Baxışova**
**XIX** əsrdə Azərbaycanın Qarabağ bölgəsində humanitar elmin inkişafına dair
**Rizvan Qarabağlı,** memarlıq namizədi. Qarabağın qədim məscidləri
**Salidə *Şərifova,*** filologiya elmləri namizədi
«Azəraida adası» romanında ümumbəşəri və milli dəyərlərin nisbi problemi
**Sevda Süleymanova,** tarix elmləri doktoru. Əhməd bəy Ağaoğlu görkəmli ictmai-siyasi xadim kimi
**Sənubər Saralı,** К истории одной фальсификации
**Tofiq Həsənov,** tarix elmləri namizədi. Zəngəzurun türk-müsəlman əhalisinə qarşı erməni təcavüzü (1906-ci il)
**Tofiq Nəcəfli,** tarix elmləri namizədi. XVI əsr Azərbaycanın siyasi həyatında Ziyadoğlu Qacarların rolu
**Vüqar Abbasov,** Qarqarçay hövzəsi Azərbaycanın Qarabağ bölgəsinin maddi mədəniyyət beşiyi kimi
**Zahid Oruc,** millət vəkili. Sərhəd siniri
**Çıxışların qısa icmalı**

# Qarabağ Azadlıq Təşkilatı

# «QARABAĞ DÜNƏN, BU GÜN VƏ SABAH»

Qarabağ General-Qubernatorluğunun 90 illiyinə həsr olunmuş 8-ci elmi-əməli konfransının materialları

**Naşir:** Namiq Həbibov
**Texniki redaktor:** Rövşən
**Kompüter tərtibatı:** Gülnar Məmmədli
**Dizaynerlər:** Ceyhun Əliyev, İradə Əhmədova

Çapa verilmişdir: 05.09.2009
Çapa imzalanmışdır: 16.09.2009
Tiraj 1000; ş.ç.v. 18,25, format 60x84
Biznesmen «Namiq Həbibov» Mətbəəsində
çap olunmuşdur